AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 13

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2022

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, filologiya elmləri doktoru, prof. Əbülfəz Rəcəbli, filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru Kamil Bəşirov, filologiya elmləri doktoru, prof. Azadə Musayeva, filologiya elmləri doktoru Paşa Kərimov, filologiya üzrə fəlsəfə doktoru, dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2022, №13

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2022

www. filologiyameseleleri.com

DİLÇİLİK

SVETLANA MƏMMƏDOVA
Azərbaycan Dövlət Pedoqoji Universitetinin
Xarici Dillər Mərkəzinin dosenti,
filologiya üzrə fəlsəfə doktoru
svetlanamammedova72@gmail.com

MÜASİR İNGİLİS DİLİNİN SADƏ CÜMLƏLƏRİNİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ ÜSULLARI

Xülasə

Müasir ingilis dilində sadə cümlənin Azərbaycan dilinə bir çox tərcümə yolları var:

1.Müasir ingilis dili sadə cümlələri öz tərkibinə görə təktərkibli (one member sentence) və cüttərkibli (Two member sentence) olur,yəni cümlənin təşkiledici üzvləri olan mübtəda və xəbər ayrıca sözlərlə ya ifadə olunur və ya onu mətndən və yaxud mövcud cümlənin quruluşundan müəyyənləşdirmək olar.Hər iki dildə cüttərkibli cümlələrlə yanaşı ,təktərkibli cümlələr də mövcuddur.Belə cümlələrdə baş üzvlərdən biri olmur və onu nə mətndən, nə də mövcud cümlənin quruluşuna görə bərpa etmək olmur.Cümlə üzvlərinin ifadə imkanlarına görə sadə cümlələr bütöv və yarımçıq olur.Bütöv cümlələrdə baş üzvlərin hər ikisi iştirak edir.Bunlar sadə müxtəsər cümlə adlanır.Baş üzvlərlə yanaşı ikinci dərəcəli üzvlərin iştirak etdiyi cümlələr isə bütöv geniş cümlələr hesab edilir.

2.İngilis dilində söz sırası Azərbaycan dilinə nisbətən daha sabitdir.Cümlədə birinci yerdə mübtəda , ikinci yerdə xəbər, üçüncü yerdə tamalıq durur. Zərflik həm cümlənin əvvəlində,həm də cümlənin sonunda gələ bilər.Təyinin başqa üzvlər kimi cümlədə sabit yeri yoxdur.O həm təyin olunan sözdən əvvəl , həm də sonra gələ bilər.İngilis dilinin sadə cümlələri Azərbaycan dilinə həm sadə cümlə, həm də mürəkkəb cümlələr şəklində tərcümə oluna bilər.Bəzən bir sadə cümləni tərcümə edərkən iki və daha artıq cümlə kimi vermək ,bəzən isə iki və daha artıq sadə cümləni bir cümlədə birləşdirmək imkanı yaranır.Beləliklə, hər iki dildə qrammatik transformasiya spesifik xüsusiyyətlərə malikdir.

Açar sözlər: mübtəda,tamamlıq,xəbər,tərcümə üsulları,sintaktik məna, semantik təhlil, müxtəsər cümlə,geniş cümlə,söz sırası,vasitəli tamamlıq, vasitəsiz tamamlıq, nəqli cümlə,sual cümlə.

Analitik quruluşlu dillərdə , o cümlədən də müasir ingilis dilində söz sırası ,əsasən , sintaktik -semantik funksiya daşıyır.Bu və ya digər dildə söz sırasının sintaktik-semantik funksiyası onunla izah olunur ki, söz sırası bu dildə cümlə üzvləri arasında mövcud olan sintaktik əlaqələri ifadə edir ,cümlə üzvlərinin yerini dəyişməklə həm onlarin sintaktik quruluşu ,həm də cümlənin ümumi semantikası dəyişikliyə məruz qalır.Azərbaycan dili iltisaqi quruluşlu olduğu üçün bu dildə söz sırasının dəyişməsi həmin sözlərin nə qrammatik mənasına , nə də ümimi semantikasına təsir göstərə bilmir.Müasir ingilis dilində söz sırasının ən əsas xüsusiyyəti ondan ibarətdir ki, o, Azərbaycan dilinə xas olan söz sırasına nisbətən xeyli sabitdir.Müasir ingilis dilində cümlə quruluşu belədir: mübtəda+xəbər+ikinci dərəcəli üzvlər (tamamlıqlar+zərfliklər).Bəzi cümlələrdə isə quruluşun sırası belədir:xəbər+mübtəda+zərflik.Müasir ingilis dilinə xas olan bu söz sırası sırf qrammatik hadisə olmaqla sintaksisə xidmət edir.Bu cəhətdən ingilis dilində söz sırası iki başlıca funksiyanı yerinə yetirir:

1)sintaktik-semantik funksiyanı

2)Üslubi funksiyanı

Müasir ingilis dili analitik dil qrupuna aid olduğundan cümlə üzvləri arasındakı sintaktik əlaqələr,hər şeydən öncə ,köməkçi nitq hissələri və sözlərin cümlədə sıralanması vasitəsi ilə ifadə olunur.Cümlə üzvləri arasındakı sintaktik əlaqələr söz sırası ilə ifadə olduğu üçün o, dildə sintaktik funksiya daşıyır. Söz sırasının sintaktik funksiya daşıdığı cümlə konstruksiyasında mübtəda ilə tamamlığın yerini dəyişdikdə həmin cümlə üzvlərinin sintaktik mənası ilə yanaşı ,cümlənin ümumi semantikası differensiyaya uğrayır.Qeyd edək ki, müasir ingilis dilində elə cümlələrə rast gəlmək olur ki, onları vasitəsiz tamamlığı morfoloji cəhətdən bu cümlənin mübtədasından əsla fərqlənmir.Məsələn:

The Cossacks killed the refugees – “ Kazaklar qaçqınları öldürdülər” cümləsində **“ The Cossacks”** sözü mübtəda, **“ the refugees ”** isə vasitəsiz tamamlıqdır. Cümlənin mübtəda və vasitəsiz tamamlığı formal baxımdan bir-birindən qətiyyən fərqlənmir. Buna görə də formaya əsaslanaraq onların sintaktik mənalarını müəyyən etmək çətinliyi meydana çıxır.Belə cümlələrdə həmin sözlərin sintaktik mənası onların cümlədəki yerinə görə,yəni sözlərin düzülüşünə əsasən müəyyən edilir: xəbərdən əvvəl işlənən söz mübtəda, xəbərdən sonra gələn söz isə vasitəsiz tamamlıq olur. Bu cür cümlələrdə heç bir şəkli dəyişiklik aparmadan mübtəda ilə vasitəsiz tamamlığın yerini dəyişmək olur.Məsələn:

The refugees killed the Cossacks – Qaçqınlar Kazakları öldürdülər.

Bu iki cümləni məna cəhətdən təhlil etdikdə bəlli olur ki, birinci cümlədə mübtəda olan **the Cossacks** sözü, ikinci cümlədə vasitəsiz tamamlıq, birinci cümlədə vasitəsiz tamamlıq olan **“ the refugees”** sözü ikinci cümlədə mübtəda vəzifəsindədir. Həmin cümlələrdəki **the Cossacks** və **“ the refugees”** sözlərinin sintaktik semantikası , yəni mübtəda yaxud vasitəsiz tamamlıq olması , doğrudan da,ancaq onların cümlədəki yerindən asılıdır.Digər tərəfdən bu iki cümləni semantik

cəhətdən təhlil etdikdə isə məlum olur ki, onların hər birinin özünəməxsus mənası vardır, həm də mənalar bir-birinə ziddir. Birinci cümlədə kazakların qaçqınları öldürməsindən, ikinci cümlədə isə qaçqınların kazakları öldürməsindən söhbət gedir.Bu cümlənin söz sırasının dəyişməsi ilə həm cümlənin sintaktik mənası,həm də semantikası dəyişir. Bu, söz sırasının sintaktik -semantik funksiyası ilə izah oluna bilir.İngilis dilində söz sırası nə qədər sabit olsa da , bəzi hallarda daha dəqiq və daha səlist ünsiyyət xatirinə pozulur. Bu hallarda söz sırası üslubi funksiya daşıyır.

Müasir ingilis dilində sadə müxtəsər cümlələrdə sözlər bu cür sıralanır:mübtəda+xəbər.

1.Tirnova fell

2. The refuges escaped

İngilis ədəbi dilinin sadə müxtəsər cümlələrində söz sırasının dəyişdirilməsi əsla mümkün deyil. Müasir Azərbaycan dili sadə müxtəsər cümlələrində isə üzvlər " mübtəda+xəbər" şəklində düzülür.

1.Tirnova süqut etdi.

2.Qaçqınlar qaçdılar.

Müasir ingilis dilində sadə geniş cümlələr həm məzmun, həm də forma nöqteyi- nəzərindən iki qrupa bölünür.

" There" formal sözü ilə başlanan cümlələr ikinci ,qalan cümlələr isə birinci qrupa daxil olur.Birinci qrupa daxil olan cümlələr hər cür hökm ifadə etdiyi halda ,ikinci qrupa daxil olan cümlələr ancaq bir cür hökm – mövcudiyyət hökmü ifadə edir.Birinci qrupa daxil olan cümlələr ifadə etdikləri mənadan asılı olaraq üç və daha çox üzvdən ibarət ola bilər. Bu cəhətdən sadə geniş cümələlərin aşağıdakı növlərini göstərmək olar:

1.Russia declared a war.

2.The Russian soldiers murdered the inhabitants.

Bu cümlələr Azərbaycan dilində " mübtəda+xəbər+xəbər" quruluşlu cümlələrə uyğun gəlir.Məsələn:

1.Rusiya müharibə elan etdi

2.Rus əsgərləri sakinləri öldürdülər.

"mübtəda +xəbər+zərflik"tipli cümlələr.

1.Tatar Pazarcık fell on 14 January.

2.Nigbolu surrendered on 16 July.

Belə söz sırası olan cümlələr Azərbaycan dilində " mübtəda+ zərflik+xəbər" quruluşlu cümlələrə uyğun gəlir:

1.Tatar Pazarcık yanvarın 14-də süqut etdi.

2.Niğbolu iyulun 16-da təslim oldu.

Bu növ ingilis dili cümlələri Azərbaycan dilinə sadə müxtəsər cümlələr vasitəsi ilə tərcümə olunur,çünki tərcümə edilərkən bu cümlələrin xəbəri ilə onların yer zərfliyi birləşərək bir üzv – ismi xəbər şəkli alır.

“The Russians were in the town” cümləsi Azərbaycan dilinə “ Ruslar şəhərdə idi”cümləsi kimi tərcümə olunur.İngilis cümləsində **“were in the town”** xəbər və yer zərfliyi Azərbaycan dili cümləsində “ şəhərdə idi” ismi xəbərinə uyğun gəlir.

II.Tərkibində dörd üzv olan sadə geniş cümlələr:

“ Mübtəda+xəbər+vasitəli tamamlıq+vasitəsiz tamamlıq”quruluşlu cümlələr.

1.They explained to the European readers the general situation .

2. They addressed to the local authorities a petition.

Eyni tərkibli Azərbaycan dili cümlələrində isə sözlər belə düzülür: mübtəda+vasitəli tamamlıq+vasitəsiz tamamlıq+xəbər.

1.Onlar Avropalı oxuculara ümumi vəziyyəti izah etdilər.

2.Onlar yuxarılara ərizə yazdılar.

“Mübtəda+xəbər+vasitəli tamamlıq+yer zərfliyi” quruluşlu cümlələr.

1.The Cossacks killed the refugees on the roads.

2.The Bulgarians took the harvest in the village of Denislere.

Belə tərkibli Azərbaycan dili cümlələri iki cür qurulur.

1)mübtəda+yer zərfliyi+vasitəsiz tamamlıq+xəbər

1.Kazaklar yollarda qaçqınları öldürdülər.

2.Bolqarlar Dənis kəndində taxılı ələ keçirdilər.

2)mübtəda+vasitəsiz tamamlıq+yer zərfliyi+xəbər.

1.Kazaklar qaçqınları yollarda öldürdülər.

2.Bolqarlar taxılı Dənis kəndində ələ keçirdilər.

III.Baş üzvlər və tamamlıqlardan əlavə tərkibində zaman və yer zərfliyi olan cümlələr.İngilis dilində bu növ cümlələrdə sözlər belə düzülür: Mübtəda+xəbər+tamamlıq+yer zərfliyi+zaman zərfliyi:

They addressed to the local authorities a petition in Bulgaria after a month.

Eyni tərkibli Azərbaycan dilinə məxsus cümlələrdə isə sözlər belə düzülür:Mübtəda+zaman zərfliyi+yer zərfliyi+vasitəli tamamlıq+vasitəsiz tamamlıq+xəbər.

Onlar bir aydan sonra Bolqarıstanda yerli hökümət orqanlarına ərizə yazdılar.

İkinci qrupa daxil olan ingilis dilinin nəqli cümlələri həmişə **“ there”** sözü ilə başlanır və sözlər belə düzülür: **“there”** formal sözü+xəbər+mübtəda+yer zərfliyi.Nümunələrə diqqət yetirək.

1.There were never sufficient doctors or medicine in a hospital

2.There were Turkish bodies in the village of Oklanlı.

Ikinci qrupa daxil olan Azərbaycan dilindəki nəqli cümlələrdə sözlər belə düzülür:

Yer zərfliyi +mübtəda+xəbər sırası:

1.Xəstəxanada lazımı həkim və ya dərman çox idi.

2.Oklanlı kəndində türk əsgərlərinin cəsədləri vardı.

Bu cümlələrdə ancaq mövcudiyyət ifadə edilir,yəni onlar həmişə hər hansı bir şəxs yaxud əşyanın müəyyən bir yerdə ,müəyyən bir məkanda mövcud olmasını ya təsdiq, ya da inkar edir.İkinci qrupa daxil olan ingilis dilində xəbər " To be "feli ilə ,eyni qrupa daxil olan Azərbaycan dili cümlələrində isə " var" və ya " vardır" predikatları ilə ifadə olunur.Bu növ cümlələrdə söz sırası hər iki dildə sabitdir.

İstər ingilis,istərsə də Azərbaycan dilində sual cümlələri sual ifadə edir.Sözlərin sırasına görə ingilis dilindəki ümumi sual cümlələrini iki qrupa ayırmaq olar.

1.Xəbəri ancaq **" to be"** yaxud **"to have"** fellərindən biri ilə ifadə olunan ümumi suallar.

2.Xəbəri ancaq **" to be"** yaxud **" to have"** fellərindən biri deyil , digər fellərlə ifadə olunan ümumi suallar.

Birinci qrupa daxil olan ümumi suallarda sözlər belə düzülür:

Xəbər+mübtəda+ ikinci dərəcəli üzvlər

Was it not for the Sultans Christian subjects?

Ikinci qrupa daxil olan ümumi suallarda isə sözlər belə düzülür:

Köməkçi fel +mübtəda +xəbərin əsas hissəsi +ikinci dərəcəli üzvlər.

Did the Cossacks help the Bulgarians ?

Azərbaycan dilində isə sual cümlələrindəki söz sırası belədir:

Mübtəda +ikinci dərəcəli üzvlər+xəbər.

Tələbələr dünən məşğələlərdə iştirak etmədilər?

Tələbələr ev tikənlərə kömək edirlər?

İngilis dilində xüsusi sualların əsas quruluş əlaməti ondan ibarətdir ki, onlar hər zaman sual əvəzliyi ilə başlanır.Xüsusi suallarda sözlər sıralanır.

Sual əvəzliyi+köməkçi fel+mübtəda +xəbərin əsas hissəsi +ikinci dərəcəli üzvlər.Məsələn:

What did the Russian soldiers do with the Turkish refugees?

Azərabycan dilində xüsusi suallarda da həmişə sual əvəzliyi işlənir.Lakin o, ingilis dilində cümlənin əvvəlində xəbərdən əvvəl durur.

Rus əsgərləri türk qaşqınlarına nə etdilər? – sual cümləsində "nə" sual əvəzliyi xəbərdən əvvəl durur.

Hər iki dildə əmr cümlələrində mübtəda işlənmir.Bu hal onunla izah olunur ki, əmrə, yaxud xahişə məruz qalan şəxs həmişə əmr və ya xahiş edən şəxsin hüzurunda olur.Buna görə də onu bir daha xatırlatmağa ehtiyac olmur.

İngilis dili əmr cümlələrində sözlər belə düzülür:

Xəbər+ikinci dərəcəli üzvlər.

1.Kill them!

2.Give the information about the situation,please.

Müasir Azərbaycan dilində əmr cümlələrində isə sözlər belə sıralanır:**ikinci dərəcəli üzvlər+xəbər.**

1.Onları öldürün.

2.Zəhmət olmasa vəziyyət haqqında məlumat verin.

N.İ.Smirniski “ Синтаксис английского языка” əsərində nida cümlələri haqqında qeyd edir: “ Emosionallığın ifadəsi üçün xüsusi qrammatik forma”,başqa sözlə,xüsusi ifadə tərzi (yəni nida cümləsi) mövcuddur.Axırıncı fikir və onun sübutu üçün müxtəlif dillərdən faktlar inandırıcılığı ilə diqqəti cəlb edir {Смирницкий Н.И. Синтаксис английского языка.Москва,1957.s.283}.

İngilis və özbək dillərində nida cümlələrini müqayisəli şəkildə tədqiq edən Q.N.Əbdülqasımova qeyd edir: “ Hər iki dildə nidanın nəzəri və eksperimental – auditor tədqiqi nəticəsində aşağıdakı nəticəyə gəlirik: “Nida ayrıca,müstəqil bir kommunikativ ifadə üsuludur.Nida xüsusi,ayrıca semantikaya malikdir,bu semantika digər cümlə tiplərinə (nəqli ,əmr , sual)məxsus semantikadan fərqlənir”.Müəllif nida cümləsinin semantikasını bu cür səciyyələndirir: “Öz duyğularını aydın. Təsirli ifadə etmək və bununla da dinləyicini özünə şərik etmək nida cümləsinin əsas məna xüsusiyyətidir (Абдулкасимова Т.Н. Интонационно – семантический анализ восклицательных речевых единиц в английском и узбекском языках Москва,1969.(канд.дис.)s-10)Müasir ingils dilində nida cümlələri həmişə nida sözü ilə başlanır.Bu məqsədlə işlənən iki nida sözü vardır: **“ what”** və **“ how”**.Bu sözlərdən hansı birinin işlənməsi məntiqi vurğu altında düşən sözdən,bu sözün hansı nitq hissəsi olmasından asılıdır.Məntiqi vurğu altına düşən söz isim olarsa“ what”, nida sözü zərf , sifət və yaxud fel olarsa “ how” nida sözü işlənir. Beləliklə, söz sırası belə olur:

Nida sözü+məntiqi vurğu altına düşən söz +mübtəda+ xəbər+ikinci dərəcəli üzvlər.

1.How long this way was!

2.What a bad day it was!

Cümlənin kommunikativ tiplərini (yəni cümlənin məqsəd və intonasiyaya görə növlərini - S.M.) müəyyənləşdirməkdə ənənəvi olaraq meydana çıxan nöqsanları A.İ.Smirniskiy elmi əsərlər vasitəsi ilə tənqid etmişdir.(Смирницкий Н.И. Синтаксис английского языка.Москва,1957.)İngilis dilindəki sadə cümləni Azərbaycan dilinə tərcümə edərkən bəzən bir sadə cümləni iki və ya daha çox cümləyə parçalamaq və ya əksinə iki və ya daha artıq ingilis dili sadə cümləsini bir cümlədə birləşdirmək lazım gəlir.Sadə cümlə ingilis dilindən Azərbaycan dilinə həm sadə, həm mürəkkəb cümlə şəklində tərcümə edilə bilər.

Ədəbiyyat siyahısı

1.Абдулкасимова Т.Н. Инотонационно – семантический анализ восклицательных речевых единиц в английском и узбекском языках.Кандидатская дисертация.Москва,1969.

2.Бархударов Л.С. Структура простого предложения современного английского языка.Москва, « Высшая школа »,1969.

3.Виноградов В. Основные вопросы синтаксиса предложения // Вопросы грамматического строя. Зд-во АН СССР.М.,1955.

4.Rəhimov İ.,Hidayətzadə T. İngilis dilinin praktik qrammatikası.Bakı,1996.
5.Vəliyev S. Türk dillərində sadə cümlə .Bakı, “ Elm”,2005.
6.İlyish B.A.The structure of Modern English.Leningrad,1971.
7.Смирницкий Н.И. Синтаксис английского языка.Москва,1957.

Мамедова Светлана Насиб
svetlanamammedova72@gmail.com

СПОСОБЫ ПЕРЕВОДА СОВРЕМЕННЫХ АНГЛИЙСКИХ ПРОСТЫХ ПРЕДЛОЖЕНИЙ НА АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК

РЕЗЮМЕ

В современном английском есть простое предложение и множество способов его перевода на азербайджанский:

1. Современные английские простые предложения по своему составу являются односоставными и двусоставными предложениями, то есть составные части предложения, сообщение и сообщение, либо выражаются отдельными словами, либо могут быть определены из текста или структура существующего предложения.В обоих языках он присутствует как в односоставных предложениях, так и в двусоставных предложениях В таких предложениях отсутствует один из главных членов, и он не может быть восстановлен ни по тексту, ни по структуре существующего предложения .Простые предложения бывают полными и неполными по выразительным возможностям членов предложения.В полных предложениях участвуют оба главных члена.Такие предложения называются простыми краткими предложениями.Предложения с второстепенными членами наряду с главными считаются полными длинными фразы.

2.Порядок слов в английском языке более устойчив, чем в азербайджанском, в предложении на первом месте стоит мубтада, на втором - новости, на третьем - тамалик. Наречие может стоять как в начале предложения, так и в конце предложения. Наречие не имеет фиксированного места в предложении, как другие члены. Оно может стоять как перед определяемым словом, так и после него. Простые предложения английского языка язык может быть переведен на азербайджанский язык в виде как простых предложений, так и сложных предложений.Иногда при переводе одного простого предложения можно дать его в виде двух или более предложений, а иногда можно объединить два или более простых предложения в одно предложение Таким образом, грамматическая трансформация в обоих языках имеет специфические особенности.

Ключевые слова:подлежащее ,определение, сказуемое,способы перевода, синтаксическое значение, семантический анализ, короткое

предложение, длинное предложение, порядок слов, опосредованная завершенность, неопосредованная завершенность, образное предложение, вопросительное предложение.

Mammadova Svetlana Nasib
svetlanammedova72@gmail.com

METHODS OF TRANSLATION OF MODERN ENGLISH SIMPLE SENTENCES INTO AZERBAIJANI LANGUAGE

SUMMARY

There is a simple sentence in modern English and many ways of translating it into Azerbaijani:

1. Modern English simple sentences are one-member sentence and two-member sentence according to their composition, that is, the constituent parts of the sentence, the message and the message, are either expressed by separate words or can be determined from the text or the structure of the existing sentence.In both languages, it is present in single-component sentences as well as double-component sentences. In such sentences, one of the main members is missing, and it cannot be restored either from the text or according to the structure of the existing sentence. Simple sentences are complete and incomplete according to the expressive possibilities of the sentence members. In complete sentences, both of the main members are is involved. These are called simple concise sentences. Sentences with secondary members along with the main members are considered complete long sentences.

2. The word order in English is more stable than in Azerbaijani. In the sentence, mubtada is in the first place, news is in the second place, and tamalik is in the third place. The adverb can appear both at the beginning of the sentence and at the end of the sentence. The adverb does not have a fixed place in the sentence like other members. It can appear both before and after the defined word. Simple sentences of the English language can be translated into Azerbaijani in the form of both simple sentences and complex sentences. Sometimes when translating one simple sentence, it is possible to give it as two or more sentences, and sometimes it is possible to combine two or more simple sentences into one sentence. Thus, grammatical transformation in both languages has specific features.

Key words:subject,object, predicate, translation methods, syntactic meaning, semantic analysis, unextended sentence, extended sentence, word order, direct object, indirect object,affirmative sentence, interrogative sentence.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: professor Nadir Məmmədli
tərəfindən çapa tövsiyə olunmuşdur

ŞƏLALƏ ABDULLA QIZI ABASOVA
BDU,
Filologiya üzrə fəlsəfə doktoru, dosent
shalalabasova@gmail.com

EFFEKTİV ÜNSIYYƏTİN XÜSUSIYYƏTLƏRİ

Açar sözlər: ünsiyyət, kommunikasiya, kommunikator, effektiv ünsiyyət, aktiv dinləmə, bədən dili, ünsiyyət prinsipləri

Ключевые слова: общение, общение, коммуникатор, эффективное общение, активное слушание, язык тела, принципы общения.

Keywords: communication, conversation, communicator, effective communication, active listening, body language, principles of communication

Ünsiyyət mesajın ötürülməsidir, həmsöhbətin fikir və dəyərlərinə şüurlu, strukturlaşdırılmış, məqsədyönlü və məqsədəuyğun təsir göstərir, əsasən rasional əsasda qurulur.

Ünsiyyətlərə işgüzar yazışmalar, danışıqlar, şəxsiyyərlərarası, qruplararası, ictimai, kütləvi və siyasi ünsiyyət daxildir. Şəxslərarası ünsiyyətdə şifahi və şifahi olmayan ünsiyyət həmişə ikincinin əhəmiyyətini vurğulayaraq fərqlənir.

Həyatda "ünsiyyət" və “kommunikasiya" anlayışları tez-tez sinonim kimi istifadə olunur, lakin bu, tamamilə eyni deyil, onlar arasında ciddi fərq var. Məişət - daha tez-tez ünsiyyət, peşəkar ünsiyyətdə - daha tez-tez kommunikasiya terminindən istifadə olunur. Məqsədsiz və qaydasız - daha tez-tez ünsiyyət, şüurlu bir məqsədlə və skriptlərə uyğun olaraq (əvvəlcədən hazırlanmış mətnlərə görə) - daha tez-tez kommunikasiya işlədilir. Ünsiyyətdən fərqli olaraq, kommunikasiya iştirakçılardan ən azı birinin məqsədinin olmasını nəzərdə tutur.

Kommunikasiya - insanlar arasında asan, dayaz qarşılıqlı əlaqə və daha çox emosional əhəmiyyətli mesajların və hisslərin, o cümlədən vacib və dərin hisslərin mübadiləsi deməkdir. Kommunikasiya həmsöhbətlərin qarşılıqlı əlaqəsidir, onların hər biri digərinə təsir etmək vəzifəsini daşıyır və ünsiyyət tərəfdaşının eyni vəzifənin olduğunu bilir.

Kommunikator, başqalarına (tərəfdaşlara) məqsədyönlü və uyğun şəkildə təsir etmək meyli (tapşırığı) olan, istənilən reaksiya və ya cavabı almaq üçün hərəkətlər, sözlər, intonasiyalar və ifadələr seçən şəxsdir. Qarşı tip isə “çünki” prinsipinə əsasən, məqsədsiz, bir səbəbdən hərəkət edən sadə insandır. Sadə insan dost kimi yaxşıdır və yaxşı qurulmuş ünsiyyətin tələb olunduğu bir iş mühitində uyğun deyil.

İstənilən şəxslərarası ünsiyyət müəyyən normalara uyğun olmalıdır. Onların pozulması həmsöhbətlər arasında anlaşma olmamasına, münaqişələrə və hətta münasibətlərin pozulmasına gətirib çıxarır. (1)

Biz isə məqaləmizdə effektiv ünsiyyətdən bəhs edəcəyik.

Effektiv ünsiyyət, hər hansı məqsədlərinin həyata keçirilməsi üçün vacibdir. Uğurlu ünsiyyət, dərin əlaqə və qarşısındakının etimadını formalaşdıran effektiv ünsiyyət üzərində qurulur.

Effektiv, səmərəli ünsiyyət, məqsəd və planları müdafiə etmək üçün başqaları ilə mübahisə kimi lə anlamaq olar. Bu "ünsiyyət" üslubunun məqsədində "doğru və yanlış", "qələbə və məğlubiyyət" və ya "yaxşı və pis" dayanır.

"*Effektiv ünsiyyət bacarıqları əksliklərin bir arada mövcud olmasına imkan verir - bu, fərqli baxımdan başa düşmək və kompromis tapmaq üçün ən yüksək qabiliyyətdir. Niyə kimin haqlı, kimin haqsız olduğunu mübahisə etmək lazımdır? Effektiv ünsiyyətin məqsədi qarşılıqlı faydalı və buna görə də davamlı olan ünsiyyət, dəstək və iş əlaqələri qurmaq və saxlamaqdır*". **(2)**

Effektiv ünsiyyət sadəcə məlumat mübadiləsindən daha çox şeyi nəzərdə tutur. Bu, sözlərin arxasındakı duyğuları və niyyətləri başa düşməkdən ibarətdir. Bir mesajı aydın çatdıra bilməklə yanaşı, deyilənlərin tam mənasını ələ keçirən və qarşıdakı insana hiss etdirəcək şəkildə dinlətməyi bacarmaqdır.

Ancaq demək etməkdən daha asandır. Hər birimizin özünəməxsus dünyagörüşümüz var ki, ona çox şey təsir edir: tərbiyə, şəxsi təcrübə və ətraf mühit. Bundan əlavə, biz öz motivlərimizi və istəklərimizi bilə-bilə mesaj veririk, halbuki alıcıların o hissi ilə üst-üstə düşvür. Belə anlaşmazlıq səmərəsiz ünsiyyətə də mevrilə bilir.

Səmərəli ünsiyyət başqaları ilə mübahisə etmək, həmsöhbətləri qaliblərə və məğlublara bölməkdir. Mübahisələr və münaqişələr bizim bununla məşğul olduğumuzun ən bariz göstəriciləridir.

Bununla belə, effektiv ünsiyyətin məqsədi qarşılıqlı faydalı və buna görə də davamlı olan əlaqələr, dəstək və iş əlaqələri qurmaq və qorumaqdır. Buna necə nail olmaq olar? Heç kim 100% zəmanət verməyəcək, ancaq müəyyən qaydalara əməl etsəniz, bəzi texnika və üsulları tətbiq etsəniz, insanlara yanaşma tərzi tapmaq və düşüncələrinizi aydın və tez çatdırmaq qabiliyyətinizi təkmilləşdirə bilərik.

İşgüzar-effektiv ünsiyyət elə bir ünsiyyət növüdür ki, bu zaman qarşılıqlı əlaqələrin məqsədi hansısa aydın saziş, söhbətin həllini nəzərdə tutur. Məsələn, həmkarlar, rəis və tabeçilikdə olan şəxs və s. Burada tərəfdaşların hər birinin statusu müəyyən olunur. Ünsiyyət bacarığı hər hansı şəraitə uyğunlaşmağa imkan verir. İşçilər ünsiyyətin əlaqələndirici (kommunikator) tərəfinə lazımi əhəmiyyət vermədiklərinə görə çox şey itirirlər. Rəhbər həmişə üzdə olan şəxsdir. Ona görə də o, öz hərəkətinə nəzarət etməli, davranış taktikası barədə düşünməli, son nəticəni proqnozlaşdırmalı və işgüzar ünsiyyət etikasına riayət etməlidir. (3)

Effektiv ünsiyyət üçün bir sıra qaydaları bilmək lazımdır: Dialoqdan sonra hər ikisində xoş qarşılıqlı anlaşma hissinin yaşanması üçün bir sıra qaydalara əməl etmək tələb olunur:

-Öncə qulaq asın. Aktiv dinləmə suallar verməklə yanaşı, tərəfdaşınızın cavablarını başa düşmək üçün lazım olan diqqətli səyi və eyni zamanda onları

mühakimə etməkdən imtina etməyi əhatə edir. Başqalarını müntəzəm və məharətlə dinlədikdə, onların reallığı ilə əlaqə saxlayırsınız. Həmsöhbətin nailiyyətləri və problemləri, eniş-yoxuşların öhdəsindən necə gəldiyini tez öyrənin. Üstəlik, onun üçün vacib olanın sizin üçün də vacib olduğunu göstərirsiniz.Nəticə etibarı ilə sizin fikrinizin çəkisi daha çox olur, çünki o, reallığa - həmsöhbətin reallığına əsaslanır.-

-Empati göstərin. **Empatiya** — özünü başqa insanın və ya canlının yerində hiss etmə bacarığı, başqasının dərdinə şərik olma hissi. Empatiya, eyni zamanda başqa insanın emosional halını onun mimikasından və hərəkətlərindən duyma qabiliyyətini ehtiva edir. Həmçinin, insanı görmədən onun emosional halını tam dəqiq hiss etmək qabiliyyətini nəzərdə tutur.(4) Başqaları sizə öz hekayəsini danışdıqda, onların düşüncə prosesini anlamağa və dünyaya onların nöqteyi-nəzərindən baxmağa çalışın. Empatiya sadəcə diqqətlə dinləməkdən daha çox şeydir. Bu qabiliyyət yalnız sözlərin mənasını deyil, həm də başqa bir insanın motivlərini, duyğularını, düşüncələrini dərk etməkdir. Əlbəttə, bu asan olmasa da, şüurlu bir səy, qarşı tərəf danışarkən cavabınızı düşünməkdən daha yaxşıdır.

-Səmimi olmaq tələbi də vardır. Kimisə tərifləyərkən onun səthi keyfiyyətlərinin şərəfinə yaltaqlanmağa, yersiz tərifler etməyə ehtiyac yoxdur. Səmimi ol.

-Tənqid edərkən və ya rəy bildirərkən bir mənfi üzərində dayanmayın, ilk növbədə kömək etmək istədiyinizi unutmayın. Lazım gələrsə, üzr istə.

- Fərdiliyi yaddan çıxarmayın. İnsanlar hələ də zehni oxumağı öyrənməyiblər. Ona görə də başqalarına onları nə qədər qiymətləndirdiyinizi və ya sizi narahat edən şeyləri söyləməyin. Vəziyyəti necə düzəltmək lazım olduğunu deyin.

-Əgər qarşıdakı insanda bir şey xoşunuza gəlmirsə, onun nə olduğunu dəqiqləşdirin və çıxış yolu təklif edin.

-Həmsöhbətə hörmətlə yanaşın. Başqalarına göstərdiyiniz zaman hörmət qazanırsınız. Tamamilə sadə və mürəkkəb olmayan yollarla insanları tanıya və hörmət göstərə bilərsiniz: başınızı tərpətmək; gülümsəmək; sadəcə salam deyin.

-Mənfi emosional reaksiyalara səbəb olan sarkazm və sərt ifadələrdən çəkinin. Başqalarının sizinlə danışmasını istədiyiniz şəkildə danışın.

-Ara fasiləsini yaddan çıxarmayın. Bizim vəziyyətimizdə fasilə sadəcə dayanıb danışmağa başlamazdan əvvəl düşünməkdir. Avtomatizmin köməyi ilə yeni heç nə öyrənmək mümkün deyil və yəqin ki, siz yeni bir şey öyrənmək və özünüzə faydalı bir bacarıq aşılamaq üçün bu məqaləni oxuyursunuz.

-Dürüst olmağı unutma. “O məndən nəyisə gizlədir?” fikiri meydana çıxanda özünüzü necə hiss edirsiniz? Dürüstlük o demək deyil ki, hər şeyi hamı ilə bölüşməlisən. Dürüstlük dialoq zamanı şəffaflığı qorumaq bacarığıdır. Bir mövzu haqqında danışırsınızsa, yellənməyin.

-Nə vaxt razılaşacağını gözdən qaçırmaysn. Bir çox insanlar onlara deyilən hər hansı bir fikrə cavab verə bilmir və nəticədə peşman olurlar.

Unutmaq olmaz ki, insanlar emosional olaraq inanclarına bağlıdırlar. Emosiyalar – insan təcrübəsinin hissi fundamenti hesab olunur. Onlar ətraf aləmlə, cəmiyyətlə qarşılıqlı münasibətləri zənginləşdirir və xatirələrə dinamiklik verir. İnsan hiss və emosiyaların köməyilə gündəlik həyatında rastlaşdığı bioloji, psixoloji, sosial gərginliklərdən azad olur. (5) Əgər tərəfdaşınızın mülahizələrindəki hər bir qüsuru amansızcasına ifşa etsəniz, o zaman haqlı olsanız belə, o özünü alçaldılmış hiss edəcək.

Bu o demək deyil ki, yanlış fikirlə razılaşmalısan. Daha çox hansı döyüşlərdə iştirak edəcəyinizi necə seçəcəyinizi öyrənməklə bağlıdır.

-Dözümlü olun. Ünsiyyət qaynar kömür üzərində gəzmək və ya okean tufanı kimi deyil, sabit bir axın kimi olmalıdır.

Bəs, effektiv ünsiyyətə nə mane olur?

- Həmsöhbəti başa düşməyə və ya fikirlərimizi çatdırmağa mane olan hər şey rabitə sahəsində maneə adlanır.

Onlardan bir neçəsi var, amma əsaslarını vurğulamaq olar. Bəziləri tamamilə sizdən asılıdır, digərləri yalnız qismən sizdən asılıdır. Onlardan qaçmağı bacarsanız, ünsiyyətin effektivliyi artacaq. Stressli və ya emosional olaraq həddən artıq yüklənmiş olduğunuz zaman, digər insanları səhv oxumaq, çaşdırıcı və ya rədd edən qeyri-şifahi işarələr göndərmək və yersiz davranmağa başlama ehtimalınız daha yüksəkdir.

-Diqqətin olmaması: Çox tapşırıqlı olsanız, effektiv ünsiyyət qura bilməzsiniz. Telefonunuzu yoxlayırsanız, bundan sonra nə deyəcəyinizi planlaşdırırsınızsa və ya xəyal qurursunuzsa, söhbətin çox hissəsi olmasa da, demək olar ki, qeyri-verbal işarələri qaçıracaqsınız. Diqqəti yayındırmaqdan çəkinin;

-Uyğun olmayan bədən dili: qeyri-verbal ünsiyyət deyilənlərə zidd deyil, deyilənləri gücləndirməlidir. Əgər bir şey deyirsinizsə və bədən diliniz başqa bir şey deyirsə, dinləyicinin özünü ikiüzlü hiss etməsi ehtimalı var.

Mənfi bədən dili: Əgər deyilənlərlə razı deyilsinizsə, tez-tez digər insanın mesajına cavab vermək üçün qollarınızı çarpazlaşdırmaq, göz təmasından qaçmaq və ya barmaqlarınıza toxunmaq kimi mənfi bədən dilindən istifadə edirsiniz. Mənfi siqnallardan çəkinin və unutmayın ki, razılaşmaq və ya qeyri-səmimi olmaq lazım deyil.

Uyğun olmayan fiziki mühit: Faydalı dialoq qurmaq istəyirsinizsə, daha sakit yerləri seçin.Səs-küylü kafe və ya münasib olmayan məkanlar anlayışı son dərəcə pozur.

Başqalarının düşüncələrinə qarşı antipatiya: Biz insanlar çox vaxt qərəzli oluruq. Həmsöhbətin sözlərinin müəyyən bir şəkildə düşüncələrimizə və duyğularımıza necə və niyə təsir etdiyini təhlil etmək üçün bunu başa düşməyə dəyər.

Gördüyünüz kimi, biz bu maneələrin çoxunu aradan qaldıra bilərik. Problem ondadır ki, bunun üçün şüurlu bir istək və öz üzərində uzunmüddətli işləmək

lazımdır. Ancaq həyatda uğur qazanmaq istəyirsinizsə, effektiv ünsiyyət qurmaq bacarığınızı inkişaf etdirmək vacibdir.

Gərginliyi aradan qaldırmaq texnikası həmsöhbətlə emosional əlaqə qurmağı tələb edir. Buna, məsələn, vaxtında hazırlanmış bir zarafatın da yeri var.

Həmsöhbəti həvəsləndirin və maraqlandımağı bacarın. O, təkcə sizinlə məşğul olmaqdan məmnun qalmayacaq, həm də bu texnika əhvalınızı yaxşılaşdıracaq. Unutmaq olmaz ki, ünsiyyət ikitərəfli bir prosesdir və hər iki tərəf bir-birini müsbət və ya mənfi ilə yükləyir.

Ünsiyyət bir sıra səbəblərə görə uğursuz ola olur, bunların arasında əsas səbəblərdən biri üslublar, mədəniyyətlər və üstünlüklər arasındakı fərqdir. Baxmayaraq ki, əslində bu, problem deyil. İş adamları sadəcə olaraq mükəmməl ünsiyyət bacarıqlarına malik olmalıdırlar. İşçilərlə effektiv şəkildə öyrətmək və ünsiyyət qurmaq üçün onların tipik dinləmə tərzini öyrənin ki, onlar sizi eşitsinlər. Nə demək istədiyinizi görsünlər və onlara çatdırmaq istədiyinizi anlasınlar. Əgər siz diqqətlə qulaq assanız və müştəriləri və tabeliyində olanları müşahidə etsəniz, görərsiniz ki, onlar məlumatı mənimsəmək üçün ən əlverişli yollardan xəbər verən sözlərdən istifadə edirlər.

Bu baxımdan deyə bilərik ki, ünsiyyət bacarıqlarının təkmilləşdirilməsi fərdi inkişafın əsas vəzifələrindən birinə çevrilməlidir.(6)

Effektiv ünsiyyət prinsiplərində deyilir ki, müsbət ünsiyyət olmadan hər hansı bir məsələdə qarşılıqlı anlaşmaya nail olmaq mümkün deyil. Başqalarının gedən məlumatı düzgün qəbul etməsinə əmin olmaq üçün bir sıra tələblərə riayət etmək lazımdır. İlk növbədə, effektiv ünsiyyət prinsiplərinə diqqət yetirməlisiniz:

Ünsiyyət ikitərəfli olmalıdır. Bütün iştirakçılar söhbətin müsbət nəticəsi ilə maraqlandıqda və bu, onlar üçün bərabər olduqda, lazımi effekt yaranır.

Alıcı mesajı düzgün qəbul etmək üçün hər cür səy göstərməlidir. Mesaj aydın, strukturlaşdırılmış və qısa olmalıdır. (7)

Effektiv ünsiyyət yollarında nəzərə çatdırılır ki, ünsiyyət prosesində qarşılıqlı anlaşmaya nail olmaq üçün şərait yaratmaq və effektiv ünsiyyətin mümkün yollarını nəzərə almaq lazımdır.

Effektiv işgüzar yazılı ünsiyyət peşəkar imic formalaşdırmaq vasitəsi və işgüzar əlaqələri təşkil etmək və saxlamaq üçün effektiv vasitədir. Onun həyata keçirilməsinin əsas forması işgüzar məktubdur. İşgüzar məktub yazışma qaydalarına uyğun tərtib edilmiş vəzifəli şəxsə yazılı müraciətdir. Məktub müəssisələr, təşkilatlar və ya qurumlar, tərəfdaşlar arasında əsas ünsiyyət vasitəsi olaraq qalır. İşgüzar məktubların köməyi ilə məlumat mübadiləsi aparılır, təkliflər verilir, danışıqlar aparılır, iddialar irəli sürülür, təşəkkürlər bildirilir və s. sənədlərin yaradılması, işlənməsi və onlarla işin təşkili qaydalarını. Yadda saxlamaq lazımdır ki, təqdim etdiyiniz istənilən sənəd biznes imicinizin elementinə çevrilir və effektiv ünsiyyətdə mühüm rola malikdir.

Ədəbiyyat:
1.https://vip-consulting.kiev.ua/news/osnovnye-pravila
2. https://psyfactor.org/lib/communications3.htm
3. https://az.wikipedia.org/wiki/Empatiya
4.ahttps://az.wikibooks.org/wiki/Nitq_m%C9%99d%C9%99niyy%C9%99ti/%
5. (https://www.obs.ru/article/1610/)
kommunikacii.html
6.https://kayzen.az/blog/psixologiya/8166/hissl%C9%99r-haqq%C4%B1nda.html
7. https://vip-consulting.kiev.ua/news/osnovnye-pravila

Xülasə

Effektiv ünsiyyətin xüsusiyyətləri

Ünsiyyətlərə işgüzar yazışmalar, danışıqlar, şəxsiyyərlərarası, qruplararası, ictimai, kütləvi və siyasi ünsiyyət daxildir. Həyatda "ünsiyyət" və “kommunikasiya" anlayışları tez-tez sinonim kimi istifadə olunur, lakin bu, tamamilə eyni deyil, onlar arasında ciddi fərq var.

Effektiv ünsiyyət, hər hansı məqsədlərinin həyata keçirilməsi üçün vacibdir. Uğurlu ünsiyyət, dərin əlaqə və qarşısındakının etimadını formalaşdıran effektiv ünsiyyət üzərində qurulur. Effektiv ünsiyyət, hər hansı məqsədlərinin həyata keçirilməsi üçün vacibdir. Uğurlu ünsiyyət, dərin əlaqə və qarşısındakının etimadını formalaşdıran effektiv ünsiyyət üzərində qurulur. Hər iki tərəfdə xoş qarşılıqlı anlaşma hissinin yaşanması üçün bir sıra qaydalara da əməl etmək tələb olunur. Ünsiyyət bir sıra səbəblərə görə uğursuz da olur, bunların arasında əsas səbəblərdən biri üslublar, mədəniyyətlər və üstünlüklər arasındakı fərqdir.

Резюме

Характеристики эффективного общения

Коммуникации включают деловую переписку, переговорную, межличностную, межгрупповую, общественную, массовую и политическую коммуникацию. В жизни понятия «общение» и «общение» часто употребляются как синонимы, но это не совсем одно и то же, между ними есть существенная разница.

Эффективное общение необходимо для достижения любой из ваших целей. Успешное общение строится на глубокой связи и эффективном общении, которое укрепляет доверие.

Эффективное общение необходимо для достижения любой из ваших целей. Успешное общение строится на глубокой связи и эффективном общении, которое укрепляет доверие. Также необходимо соблюдать ряд правил, чтобы обе стороны испытали приятное чувство взаимопонимания. Коммуникация не удалась по ряду причин, одной из главных из которых являются различия в стилях, культурах и предпочтениях.

Summary

Characteristics of effective communication

Communications include business correspondence, negotiation, interpersonal, intergroup, public, mass and political communication. In life, the concepts of "communication" and " conversation " are often used as synonyms, but this is not quite the same thing, there is a significant difference between them.

Effective communication is essential to achieve any of your goals. Successful communication is built on deep connection and effective communication that builds trust.

Effective communication is essential to achieve any of your goals. Successful communication is built on deep connection and effective communication that builds trust. It is also necessary to follow a number of rules so that both parties experience a pleasant feeling of mutual understanding. Communication failed for a number of reasons, one of the main ones being differences in styles, cultures and preferences.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: f.e.d. dosent Reyhan Həbibli
tərəfindən çapa tövsiyə olunmuşdur

LƏTAFƏT ƏLİYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent,
BDU
Zahid xəlilov küç,

NİTQ SİTUASİYASI VƏ TAVTOLOGİYA

Xülasə

Məqalədə şifahi və yazılı nitqdə işlədilən leksik səhvlərdən, onların yaranma səbəblərindən bəhs edilir. Burada nitq artıqlığı sayılan pleonazm və tavtologiya haqqında məlumat verilir, onlar arasındakı oxşar və fərqli cəhətlər göstərilir. Belə səhvlər danışanın nitq mədəniyyətini aşağı səviyyəyə salır və ünsiyyətdə anlaşılmazlığa səbəb olur. Belə ki, danışan kommunikativ vəzifəni yerinə yetirərkən sözlərin məna və semantikasına, işlənmə dairəsinə diqqət etməli, dilin zəngin və rəngarəng ifadə vasitələrini düzgün seçməlidir. Əks halda nitqdə sözlərin lüzumsuz işlədilməsi, eyni bir mətləbin cümlədə bir neçə dəfə təkrar olması baş verir.

Tədqiqat işində tavtologiya ilə təkrarlar müqayisə edilmiş, ədəbi dildə işlənən eyniköklü sözlərin təkrarından ibarət sərbəst söz birləşmələri ilə tavtoloji birləşmələrin fərqi göstərilmişdir. Tavtoloji birləşmələrdə məna eyniliyi olduğundan onlar arasında qrammatik bağlılıq yoxdur. Komponentlərdən birini cümlədən kənar etsək məna dəyişməz. Sintaktik təkrarlar isə mənaca bütov bir vahid əmələ gətirir, onları ayırmaq mümkün deyil, çünki bu sözlər məntiqi və qrammatik cəhətdən birləşir.

Məqalədə tavtologiyanın situativ şəraitə görə növləri göstərilmişdir. Tavtoloji birləşmələrin dilin bütün üslublarında az-çox işlənən dil faktı olması nümunələr əsasında izah edilmişdir.

Sonda tavtologiyanın nitqdə müsbət və mənfi cəhətləri nəzərə çarpdırılır. Müsbət cəhəti nitqdə emosionallıq, ekspressivlik, obrazlılıq yaratmaq, mənfi cəhəti isə nitq artıqlığı kimi kommunikasiyanın dəqiq və aydın olmasına, yiğcamlığına ziyan vurmasıdır. Tavtologiyanın coxşaxəliliyi və təbiətinin mürəkkəbliyi onu müxtəlif aspektdə öyrənilməsini şərtləndirir. Biz bu məqalədə geniş tədqiqat obyekti olan məsələ haqqında ümumi fikirlər deməklə kifayətlənmişik.

Tavtologiyanın işlənmə dairəsi genişdir, fəlsəfə, məntiq, nitq mədəniyyəti və s. kimi elmlərdə tədqiqat obyekti kimi nəzərə çarpır. Lakin hər birində tavtologiya müxtəlif cəhətdən öyrənilir. Linqvistikada nitq qusuru və üslubi fiqur kimi baxılır.

Açar sözlər: **tavtologiya, pleonazm, nitq artıqlığı, nitq qüsuru, təkrar, üslubi fiqur, leksik səhv, məna və semantika, eyniköklü, yaxın mənalı.**

Nitq insanlar arasında əlaqə yaradan ünsiyyət prosesidir. Fikri məntiqli, aydın, yığcam, təsirli ifadə edə bilmək üçün münasib sözlər seçmək və onlardan cümlələr qurmaq, dilin üslubi imkanlarından bacarıqla istifadə etmək, dil normalarını bilmək insanın nitq mədəniyyətinin əsasını təşkil edir.

Kommunikasiyanın əlverişli olması üçün danışanın nitqinə nəzarət etməsi, sözlərin məna və semantikasını, işlənmə dairəsini, qrammatik tərkibini nəzərə alması, nitqdəki çatışmazlıqlara diqqət yetirməsi mühüm şərtdir. Hər kəs öz biliyi, dünyagörüşü və söz ehtiyatının səviyyəsi dairəsində kommunikativ vəzifəni yerinə yetirir. Nitq dilin konkret ünsiyyət şəraitində realizə olunması, informasiyanın ötürülməsi və əldə edilməsidir.

Şifahi və yazılı nitqdə fikrin təkrarı, sözlərin lüzumsuz işlədilməsi, sinonimlərin düzgün seçilməməsi, eyni bir mətləbin cümlədə bir neçə dəfə təkrar olması kimi qeyri-normativ hallara təsadüf etmək mümkündür. Nitqdə söz və ifadələrin artıqlığı pleonazm və tavtologiya formasında özünü göstərir. Leksik çatışmazlıq sayılan belə səhvlər nitq mədəniyyətinin asağı səviyyədə olduğunu göstərir.

“Pleonazm (yunanca artıqlıq) -1. Eyni məfhumun basqa-basqa dil vahidləri vasitəsilə təkrarı, 2. Eyni tərkibdə sinonim dil vahidlərinin toplusu, üslubi artıqlıq “(3,s.432).deməkdir. Bu birləşmələrdə hər iki tərəf eyni mənanı ifadə edir. “Sözlər fikrin yoxsulluğunu, bəzən isə mənasızlığını pərdələmək üçün bir vasitə kimi çıxış edir” (1,s.54). Məsələn, “Ömrüm uzunu çalışıb qazandığımı öz əlimlə tavarişlərə verə bilmərəm” (6,s.18); “Biz baxanda qəribə bir aləm gördük” (6,s.68). Bu cümlələrdə öz, baxanda sözləri artıq işlənmişdir. Onları cümlədən kənar etsək məna dəyişməz. Deməli, pleonazm leksik qüsurdur, nitqdə lazımsız elementlərin işlədilməsidir. “Nitq fəaliyyətində bu cəhət nəzərə alınmalı, danışan və yazan nitqinə diqqət yetirməli, dilimizin zəngin və rəngarəng ifadə vasitələrindən istifadə etməyi bacarmalıdılar” (1,s.38).

“Tavtologiya (yunanca tavto - həmin, özü, loqos – söz) cümlədə eyni köklü sözlərin birləşməsindən ibarət artıqlıq deməkdir” (3,s.530). Məsələn, ot otlamaq, ütü ütüləmək, iş işləmək , yeriş yerimək və s. “Tavtologiya termini “geniş” və “dar” mənalara malikdir. “Geniş” məna anlayışı tavtologiya sahəsində təkcə qohum zəncirləri deyil, həm də sinonim sözləri (qəm-kədər, gözəl-göyçək-qəşəng, hündür-uca-yüksək və s.) ehtiva edir. “Dar” mənada bu termin eyni köklərin və ya söz formalarının təkrarını nəzərdə tutur(11,s.206).Yaxın mənalı sözlərin təkrarından düzələn tavtoloji birləşmələri hər zaman nitq qüsuru hesab etmək olmaz. Çünki sinonim sözlərin yanası işlədilməsi fikrin daha emosional, ekspressiv çatdırılmasına kömək edir. Sinonimlər dilin zənginliyini və ifadə qüdrətini göstərən əlamətlərdən biri sayılır. Onlar eyni məfhumu ifadə etsə də, siqnifikatına görə qismən fərqli məna çalarlığına malikdir. Bu üzdən danışan sinonimləri təkrar etməklə hər hansı bir deyimin təsir gücünü artırmağa, fikrin dəqiq və aydın ifadə olunmasına çalışır. Digər

tərəfdən sinonimləri sadalamaq, artıq danışanın dilin lüğət tərkibini bilməsindən xəbər verir.

Gündəlik danışıq nitqi sözün həqiqi mənasında eyni və yaxın mənalı sözlərin təkrarı ilə doludur. Lakin dinləyici yalnız başa düşdüyü sözü eşidir, qəbul edir. "Unutmamalıyıq ki, leksik normaya görə hər bir söz və ifadə dinləyicilərə məsələnin mahiyyətini dəqiq və yığcam izah etmək məqsədi daşımalıdır"(9,s.164). Odur ki, qısalıq prinsipinə əməl edərək sözlərin semantikasını nəzərə almaq lazımdır. Düzgün seçilmiş az sözlə mənanı daha aydın çatdırmaq olar. "Eyni sözü, söz birləşməsini bir cümlədə yersiz təkrar etmək yığcamlığa xələl gətirir" (1,s.249).

Tavtologiya zahirən pleonazma oxsayır, lakin pleonazm müxtəlif köklü sözlər vasitəsilə mənanı gücləndirirsə, tavtologiya eyni və ya eyniköklü sözün mənasız təkrarıdır. Pleonazm əvvəlcədən nəzərdə tutula bilər.Əgər hər hansı bir fikri izah etmək, açmaq məsədilə və ya üslubi fiqur kimi işlədilərsə, onda səhv hesab edilmir. "Pleonazm ilk baxışda lüzumsuz olan, əslində isə sözə aydınlıq, qüvvət, ritm, inandırıcılıq, pafos verən, lakonik nitq üçün nəzərdə tutulan sözləri əvəz edən ifadələrdir. Bəzi hallarda pleonazm nitqin təsirini və emosionallığını artırmaq üçün (həm yazılı, həm də şifahi nitqdə) qəsdən işlədilir"(10,s.17-18).

Pleonazmın bəziləri dil hadisəsi kimi nitqdə möhkəm kök salmış və normaya çevrilmişdir. Məsələn, aşağı düş, öz gözlərimlə gördüm, şəxsən mən, iş həmkarım, yumruğu sıxmaq, may ayı, mənim tərcümeyi-halım və s. Zənnimizcə, pleonazm və tavtologiya danışanın söz ehtiyatının azlığından, nitqin qeyri-dəqiqliyindən yaranan nitq artıqlığıdır. "Artıqlıq yaxud nitq bolluğu təkcə üslub səliqəsizliyinin yox, həm də natiqin danışdığı məsələ haqqında təsəvvürlərinin aydın və dəqiq olmadığını sübut edir ki, bu da informativliyə ziyan vurur" (8,s.337).

Tavtologiya ilə təkrarı qarışdırmaq olmaz. Təkrar eyni sözün, tavtologiya isə eyniköklü sözlərin təkrarıdır. Məsələn, "Bilirsən nə var, Leyla can, biz gərək işləyək! İşləyək! Lap möhkəmcə işləyək! (6,s.62); "Xəstə düşdü, bərk düşdü" (6,s.53) cümlələrində işləyək, düşdü sözləri qrammatik təkrarlardır, lüzumsuz təkrarlardan fərqli olaraq məna genişlənməsi ilə səciyyələnir və nitqi ekspressiv edir. "Baxmağına baxaram, elə olmasın ki, baxım məyus olum" (6,s.23); "Siz cox böyük böyüklük göstərdiniz" cümlələ rində isə eyniköklü sözlər məntiqsiz təkrar olunur. Ədəbi dildə də eyniköklü sozlərin təkrarından ibarət sərbəst söz birləşmələrinə rast gəlirik. Məsələn, bağ bağbanındır, daş daşımaq,yazı yazmaq, bu gedişlə getmək, yatanda elə yat ki, danışanda doğrusunu danış, gündən günə, bağcı bağın qıydı, bağban salxım da qıymadı və s.kimi təkrarlarda komponentlərin hər hansı birini ixtisar etmək mümkün deyildir. Bunlar tavtologiyadan uzaqdır.

"Təkrar mətndə xüsusi əhəmiyyət kəsb edən sözün, fikrin-temanın ön plana çıxarlımasıdır. Təkrarların dildə işlənməsi dilçilikdə universallıq adlandırılan hadisədir"(7,s.300).Təkrarlar ekspressiv nitqdə subyektin psixoloji vəziyyətini – onun sevinc, nigarancılıq, tərəddüd və tələşını ifadə etməkdə mühüm rol oynayır. Onlar cümlədə mənanın daha aydın catdırılmasına xidmət edir. Kommunikativ

məqsəddən asılı olaraq sifahi və yazılı nitqdə bütöv bir cümlə (“Kim irəli cıxsa, vurulacaq, kim irəli yerisə, vurulacaq.”), söz birləşməsi (“Sən istəyəndə soyuq olur, sən istəyəndə isti olur.”) və yaxud ayrıca söz də (“Dərd üstünə dərd gətirmə.”) təkrarlana bilər. Təkrarlar istər adi danışıqda, istərsə də, bədii ədəbiyyatda obrazlılıq, ekspressivlik yaratmağa, diqqəti əsas fikrə yönəltməyə xidmət edir. Leksik, qrammatik, sintaktik təkrarlar tavtologiyadan uzaq olub məntiqlə düşünülmüş ifadələrdir.

Tavtologiyadan fərqli olaraq, sintaktik konstruktiv təkrarlar mənaca bütöv bir vahid əmələ gətirir, onları ayırmaq mümkün deyil, çünki bu sözlər cümlədə məntiqi və qrammatik cəhətdən birləşir, ifadə dəqiqləşir, müəyyənləşir (böyüyün böyüklüyü). Tavtoloji birləşmələrdə isə məna eyniliyi olduğundan onlar arasında qrammatik bağlılıq yoxdur(böyük böyüklük). Bu birləşmələrdə birinci komponenti kənar etsək , leksik- semantik məzmuna xələl gəlməz. Məsələn, “O gecələr iş işləyirdi, gündüzlər oxuyurdu” cümləsini “O gecələr işləyir, gündüzlər oxuyurdu” kimi işlətmək daha münasibdir. “Amma qeyd edək ki, hətta sintaqmın hüdudları ilə məhdudlaşan tavtologiya da nizamlayıcı üsul kimi sintaqmın istər ritmik-səs, istərsə də, məna aspektinin təşkiledici amilidir. Folklor mətnində praqmatik olaraq bütün sintaktik əlaqələr tavtoloji elementlərlə təzahür edə bilər” (5,s.303).

Tavtoloji birləşmələr semantik-sintaktik hadisə olub, söz birləşmələri və cümlələrdə müəyyən sintaktik əlaqələri ifadə edir. Bu əlaqələrin xarakteri mənanın eyniliyi, semantikanın qarşılıqlı təsiri ilə müəyyən edilir. Beləliklə, tavtologiyanın ümümi mənası onun struktur tərkibinə daxil olan komponentlərin mənalarının cəmindən yaranır. Bəzi birləşmələrdə semantik məzmun dəyişməsə də, qrammatik vasitələrə görə komponentlər arasında müəyyən dəyişkənlik olur. Məsələn, at atdır, xöşbəxtlikdən xöşbəxtəm , əzizim əzizdir, günün günortasında, yeriş yeri və s. birləşmələri eyni mənanı verən məntiqsiz ifadələrdir. Burada danışan ya dediyinə diqqət etmir, ya fikrə uyğun söz tapmır, ya da bilərəkdən söyləyir. Lakin sözüm sözdür, böyük böyükdür, evdən evə, yol yoldaşı, atanın ata yeri, alacağını almaq, səsimə səs və s. birləşmələrindəki komponentlərin müəyyən qədər informativ məzmunu vardır , məqsədə görə semantik mənaları üzə cıxır. Bu kimi tavtoloji ifadələr izahedici xarakter daşıyır.

Şifahi nitqdə tavtologiya situativ şərait və məqsədlə özünü göstərir: 1. Mənasına görə bir-birinə yaxın olan müxtəlif köklü sözlərin bir cümlədə təkrarı: “Mən isə bütün əsəbiliyimlə, hirsimlə, acığımla qaranlıq bir sərgüzəştə düşmüş kimi çaşıb qalmışdım” (6,s.151); Bəlkə həkimin evdə daha mühüm və vacib priborları vardır (6,s.55). 2. Mənşəyi müxtəlif, mənası eyni olan sözlərin bir cümlədə birləşmə əmələ gətirməsi, bunlar milli və əcnəbi sözlərlə ifadə olunur: jurnal-məcmuə, dilçi-linqvist, həkim-doktor, mühazirə-leksiya, reabilitasiya və bərpa mərkəzi və s. “3. Eyniköklü sözlərin birləşməsi: söyüş söymək, yuxu yuxulamaq, ov ovlamaq, yamaq yamamaq;, baxmağına baxacam, yük yükləmək, geyim geyinmək və s. Mənaca eyni və ya sinonim sözün kökünün və ya formalarının təkrarlanmasından frazeoloji

tavtologiya yaranır ki, bu zaman leksik məna frazeoloji hala çevrilir. Məsələn, baş əymək-baş endirmək, baş başa gəlmək-kəllə kəlləyə gəlmək, ürəyini açmaq-könlünü açmaq, əli boşa çıxmaq-əli boşda qalmaq, mum kimi yumşalmaq-mumdan yumşaq olmaq və s. 4. Eyni məfhumun müxtəlif variantlarda bir cümlədə və ya sonrakı cümlədə təkrarı: "Bircə şeyə heyran idi ki, həmişə yuxuya həsrət olan, yuxusuzluqdan şikayətlənən adam idi, deyəsən div yuxusuna getmişdi (6,s.428); "Yanıram axı, yandırır məni! Necə yandırmasın ki, cavan, ağlı başında olan igid oğlan qulluğu qoyub, qapılarda nökərçilik eləyir (6,s.37).

Tavtologiyanın nitqdə işlənmə səbəbləri müxtəlifdir: emosional vəziyyətlə bağlı; sözlərin düzgün secilməməsindən; söz ehtiyatının azlığından; sözün semantikasına diqqət yetirməməkdən; bilmədən-spontan fikirlərin əksi kimi və ya bilərəkdən-şəxsin taktikasından, üslubi fiqur kimi və s.

Kommunikasiya prosesində danışan tavtologiya işlətməklə nitqini təsirli etməyə, fikrini aydınlaşdırmağa, bir-birini izah edən, təkrar edən sözlərlə onun mənasını acmağa calışır. Bu zaman nitq artıqlığı yaranır. Bir anlayışı elə eyni anlayışla izah etmək dildə hec bir əlamət daşımır, məntiqi baximdan da hec bir seyi ifadə etmir, yeni məlumat, yeni məna vermir, boş element kimi sözçülüyə səbəb olur. Praqmatik şəxs gündəlik nitq fəaliyyətində şəxsi emosiyalarını ifadə etmək üşün psixoloji ifadəlilik vasitələrindən istifadə edir. "Nitq artıqlığı və çatışmazlığı sözlərin məna uyğunluğunu nəzərə almadan işlədilməsi, leksik birləşmələrin pozulması, sinonimlərin düzgün seçilməməsi, semantik söz qruplarının bir-biri ilə qarşılaşdırılması nəticəsində baş verir (4,s.256).

Tavtologiya qeyri-informativ ifadələr kimi tanınsa da nitq kontekstində geniş yayılmışdır. Bu birləşmələr üslubi fiqur kimi nitqin canlı, təsirli, obrazlı ifadəsinə xidmət edir. "Tavtologiya üslubi priyom olub, nitqin emosionallığını artırır"(10, s.252). Tavtologiya poetik dildə, atalar sözlərində, danışıq dilində, dilin bütün üslublarında az-çox işlənən dil faktı kimi özünü göstərir.

Aşağıda üslubiyyatda işlədilən tavtologiyalara nəzər salaq:

Bədii üslubda: "Sözünün dalınca oğlanların dursun, elə mənim İsmət bacılığımı görəsən, bizimkinə bacılıq demə, vallahi hec bir bacı belə mehriban ola bilməz"(6,s.57); "Qumru nə qədər qəmli, kədərli idisə, o bu evə nə qədər qüssə, göz yaşı gətirmişdisə, axund əksinə, sevinc və şənliklə qaynayırdı"(6,s.95); Qadın tikişini tikməyə başladı (6,s.54) və s.

Atalar sözlərində: Qanı qanla yumazlar; Günü günə satmazlar; Adam adamın şeytanıdır; Tülkü tülkülüyünü sübut edincə dərisini boğazından çıxararlar və s.

Məişət üslubunda: Gəlmir gəlməsin, gətirməyəndə gətirmir, güləndə gülərdi-ağlayanda ağlayardı, günü o gündən, əkin əkmək, dilək diləmək, süpürgə süpürmək, kündə kündələmək və s.

Publisistik üslubda: Redaktor məqaləni redaktə elədi; Bizim dövrümüzdə aktiv, təşəbbüskar, işgüzar insanlara ehtiyac var; Texnika üçün ehtiyat hissələri , tikinti inşaat materialları göndəriləcək və s.

Elmi üslubda: Sakitlik yalnız istirahət üçün deyil, həm də səhhətin, sağlamlığı üçündür; Nitq konkret və dəqiq olmalıdır; tədqiqat işinin tədqiqi və s.

Rəsmi-işgüzar üslubda: Alqı-satqı müqaviləsinə bu müqavilənin 1 nömrəli əlavəsi əlavə olunacaqdır; mühüm və əhəmiyyətli sənədlər; Azərbaycanın əsas qanunu konstitusiyadır və s.

Qeyd edək ki, eimi və rəsmi üslubda tavtologiya yolverilməzdir.

Tavtologiyanın coxşaxəliliyi və təbiətinin mürəkkəbliyi onu nüxtəlif aspektdə araşdırılmasını şərtləndirir. Biz bu məqalədə ümumi fikirlər deməklə kifayətlənmişik.

ƏDƏBİYYAT SİYAHISI

1.Abdullayev N.Nitq mədəniyyətinin əsasları. Bakı, ADPU nəşriyyatı, 278s.
2.Adilov M, Verdiyeva Z, Ağayeva F. İzahlı dilçilik terminləri lüğəti. Bakı,"Elm və təhsil", 2020, 656s.
3.Adilov M. Azərbaycan dilində sintaktik təkrarlar. III Cild.Bakı, "Elm və təhsil", 2019, 416s.
4.Həsənov H.Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, Bakı Universiteti nəşriyyatı, 2003, 399s.
5.Hüseynova Həcər. Bədii əsərlərin üslubi sintaksisi. Mir Cəlalın bədii əsərləri əsasında. Bakı, ADPU nəşriyyatı, 2016, 232s.
6.Mir Cəlalın bədii əsərlərinin linqvopoetik xüsusiyyətləri. I Cild.Bakı, ADPU nəşriyyatı, 430 s.
7.Mir Cəlal.Seçilmiş əsərləri.Bakı, "Şərq-Qərb", 2005,384 s.
8.Şiriyev F.Azərbaycan dilinin nitq mədəniyyəti və ritorika. Bakı, "Nurlar" nəşriyyatı,2014,400s.
9.Виноградов В.В.Основные типы лексических значений слов. /Избранные труды.Лексикология и лексикография.М.,1977.стр.162-189).
10.Тихонов А.Н., Ломов А.Г.,Ломова Л.А. Фразеологический словарь русского языка.М.,Изд.Просвещение/Дрофа, 2014, 336 стр.
11.Голуб И.Б. Основы красноречия. М.,Изд. Яхонт, 272стр.

Л.Алиева

Речевая ситуация и тавтология

Резюме

В статье речь идет о лексических ошибках в устной и письменной речи, о причинах их возникновения. Даются сведения о плеоназме и тавтологии, указываются их сходства и различия.Отмечается, что такие ошибки понижают уровень культуры речи говорящего и служат причиной недоразумения в общении. Так, говорящий, выполняя коммуникативную функцию, должен обращать внимание на значения и сферу употребления слов,

уметь сделать правильный выбор из всего богатства и разнообразия выразительных средств. В противном случае происходит ненужное употребление слов в речи, неоднократный повтор одной и той же цели в предложении.

В процессе исследования сравниваются тавтология и повторы, показывается разница между свободными словосочетаниями, состоящими из однокоренных слов, и тавтологическими сочетаниями. В тавтологических сочетаниях нет грамматической связи из-за семантического тождества. При удалении одного из компонентов из предложения значение не меняется. Синтаксические же повторы семантически образуют единое целое и их отделить невозможно, т.к. эти слова объединяются логически и грамматически.

В статье также рассматриваются ситуативные типы тавтологии. На основе примеров разъясняется, что тавтологические повторы-языковой факт, так или иначе используемый во всех стилях языка.

В конце статьи выделяются положительные и отрицацельные особенности тавтологии в речи. Положительные особенности-создание эмоциональности, экспрессивности, образности в речи, отрицацельные - речевая избыточность, нарушающая точность, ясность и лаконичность коммуникации. Сложная природа тавтологии обусловливает ее изучение в различных аспектах. В настоящей статье мы ограничиваемся высказыванием общих мыслей о проблеме, являющейся объектом широкого исследования.

Сфера употребления тавтологии весьма широка. Она служит объектом исследования в таких науках, как философия, логика, культура речи и др. Однако в каждой из них тавтология изучается с различных точек зрения. В лингвистике она рассматривается как речевая ошибка и стилистическая фигура.

Ключевые слова: **тавтология, плеоназм, речевая избыточность, речевая ошибка, повтор, стилистическая фигура, лексическая ошибка, семантика**

L.Aliyeva

Speech situation and tautology

Summary

The article deals with lexical errors in oral and written speech, the reasons for their occurrence. Information about pleonasm and tautology is given, their similarities and differences are indicated. It is noted that such errors lower the level of culture of the speaker's speech and cause misunderstandings in communication. So, when performing a communicative function the speaker must pay attention to the meanings and scope of the use of words, be able to make the right choice from all the

richness and variety of expressive means. Otherwise, there is an unnecessary use of words in speech, repetition of the same goal in a sentence.

In the process of research, tautology and repetitions are compared, the difference between free phrases consisting of same root words and tautological combinations is shown. There is no grammatical connection in tautological combinations due to semantic identity. Removing one of the components from the sentence does not change the meaning. Syntactic repetitions semantically form a single whole and it is impossible to separate them, because these words are combined logically and grammatically.

The article also considers situational types of tautology. On the basis of examples, it is explained that tautological repetitions are a linguistic fact one way or another used in all styles of language.

At the end of the article, positive and negative features of tautology in speech are highlighted. Positive features - the creation of emotionality, expressiveness, figurativeness in speech, negative ones - speech redundancy violating the accuracy, clarity and conciseness of communication. The complex nature of tautology determines its study in various aspects. In this article, we confine ourselves to expressing general thoughts about a problem that is the object of extensive research.

The scope of the tautology is very wide. It is an object of study in such sciences as philosophy, logic, culture of speech, etc. However, in each of them, tautology is studied from different standpoints. In linguistics, it is considered as a speech error and a stylistic figure.

Keywords: **tautology, pleonasm, speech redundancy, speech error, repetition, stylistic figure, lexical error, semantics**

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: professor İsmayıl Kazımov
tərəfindən çapa tövsiyə olunmuşdur

NURANƏ ALLAHVERDİYEVA
BAAU
nurane.ava93@gmail.com

ERMƏNİSTANIN AZƏRBAYCANIN XOCAVƏND RAYONU TOPONİMLƏRİNİ ERMƏNİLƏŞDİRMƏK CƏHDLƏRİ HAQQINDA

Xülasə

Müəyyən bir ərazidə toponimlərin yaranma prosesi uzun zaman davam edir. Həmin_ərazidə yaşayan xalqlar yer-yurd adlarını formalaşdırır, zaman keçdikcə isə o adlar rəsmi qaynaqlarda öz yerini tutur. Toponimlər, bir növ, tarixi vəsiqələrə çevrilərək tədqiqatçılara o torpaqda baş vermiş önəmli hadisələr, coğrafi şərait, sakinlərin etnik-milli tərkibi... kimi vacib parametrlər haqqında məlumat verir. Buna görə də onlar hər bir xalqın çox qiymətli milli-mənəvi dəyərlərindən, sərvətindən sayılır. Təsadüfi deyil ki, işğalçılar çox vaxt tutduqları torpaqlardakı ilkin toponimləri "özününküləşdirməyə" çalışır və təbii ki, bu zaman ciddi tarixi saxtakarlığa yol verirlər. Bu deyiləni Azərbaycanın son dövr tarixində də müşahidə etməkdəyik.

Son iki yüz ildə rusların ermənilər Qarabağa köçürməsi nəticəsində buradakı toponimlərimiz ermənilərdirməyə müəyyən dərəcədə məruz qalsa da, Ermənistanın 1992-1993-cü illərdə Dağlıq Qarabağı qanunsuz işğal etməsindən sonra keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində və ona bitişik işğal bölgələrində, o sıradan Xocavənd rayonunda qədim yer-yurd adlarımızın zorakılıqla, süni şəkildə ermənilərdirilməsi işğalçı ölkənin yürütdüyü dövlət siyasətinə çevrilmişdir. Bircə misal. Tədqiqat obyektimiz olan Xocavənd rayonu mərkəzinin adı 1923-cü ilədək **Aşağı Qaranlıq** olmuşdur. Oykonimin birinci komponenti yaşayış məntəqəsinin coğrafi mövqeyi ilə bağlıdır. Məntəqə öz adını ərazidəki *Qaranlıq dağı*ndan almışdır. 1991-ci ildə DQMV ləğv edildikdən sonra Hadrut və Martuni rayonlarının bazası əsasında yaradılan yeni rayona *Xocavənd* adı verilmişdir. Ermənilər işğaldan sonra *Aşağı Qaranlıq* toponimini hərfi tərcümə edərək *Göl-Liçk* adlandırmışlar.

Rayon ərazisində yüzilliklər boyunca yaşamış Azərbaycan türklərinin izlərini tarixdən birdəfəlik silmək kimi faşist-aparteid siyasəti yürüdən ermənilər beynəlxalq hüquq normalarını heçə sayaraq Xocavənd kəndindəki *Cicim ocağı*, Əmirallar kəndi yaxınlığındakı *Bəhrəmli piri*, Muğanlı kəndində yerləşən *Seyid Rza günbəzi*, Qaradağlı kəndi ərazisindəki *Yel piri* və onlarca başqa müqəddəs məkanlarımızı, çoxlu tarixi abidələrimizi vandalcasına məhv etməklə yanaşı, xalqımıza məxsus bütün türk toponimlərini də dəyişdirərək ermənilərdirməyə çalışmışlar. Bu işğalçı dövlət ərazidəki toponimləri ermənilərdirmək üçün onların tərkibinə süni şəkildə *şen (kənd), sar (dağ), blur (təpə), axbyur (bulaq), cur (su), lic (göl), dzor (dərə)* kimi ifadələr artırıblar.

Bölgədəki *Edişə, Düdükçü, Çiraquz, Xırmancıq, Ağbulaq (Edilli), Axullu, Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli, Çinarlı, Dolanar, Bünyadlı, Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Mets Tağlar, Salakətin, Zoğalbulaq*, *Arakül, Tağavard, Böyük Tağavard, Zərdanaşen* toponimlərinin və 47 kəndin adının araşdırılması ermənilərin mənfur siyasətinin iç üzünü açmağa yardım edir.

Şanlı Azərbaycan Ordusunun 2021-ci ildə tarixi qələbəsi ilə nəticələnən İkinci Qarabağ müharibəsindən sonra Xocavənd rayonu toponimlərinin araşdırılması, təhlili və süni ermənileşdirmədən təmizlənməsi ən önəmli məsələlərdən biridir.

Açar sözlər: *Ermənistan, Azərbaycan, Xocavənd rayonu, toponimlərin ermənileşdirilməsi.*

Toponimlərimiz bizim dəyərli milli-mənəvi sərvətimiz, dünəni bu günə, bu günü isə gələcəyə bağlayan qiymətli məlumat qaynağımızdır. 2020-ci ilin 27 sentyabrına kimi Qarabağda işğal altında olan torpaqlarımızda yaşayan soydaşlarımızla yanaşı, həmin ərazilərdəki yer adlarımız da işğalçı erməni təcavüzünə məruz qalmışdır. Oronim və oykonimlər müxtəlif dəyişikliklərə məruz qalaraq qəsbkar ermənilərin faşist-aparteid siyasətinin qurbanına çevrilmişdir. Rusların Azərbaycan torpaqlarına köçürdüyü ermənilər son iki yüzildə mövcud Ermənistan ərazisində etdikləri kimi, ilkin türk-müsəlman toponimlərini tarixdən silməyə və onları zorakı şəkildə ermənileşdirməyə çalışaraq tarix boyunca Azərbaycana məxsus olmuş ərazilərin guya ən qədimdən onlara məxsusluğunu dünya ictimai rəyinə sırımağa can atırlar. Təəssüf ki, ermənilərin soydaşlarımızı doğma torpaqlarından silah gücünə təmizləyərək burada soyqırımlar törətdiyini və ərazilərimizi işğal etdiyini nəinki görməzdən gələn, hətta daim onlara maddi və mənəvi yardım edən xristian dünyası bu yalanı danılmaz gerçəklik kimi qəbul etməyə çox həvəsli görünür.

Bu məqalədə məqsədimiz işğalçı Ermənistan dövlətinin Qarabağın önəmli guşəsi olan Xocavənd rayonu ərazisindəki toponimlərə (əsasən oykonimlərə) yönəlik gerçəkləşdirməyə çalışdığı süni ermənileşdirmə siyasətinə dair faktları üzə çıxarmaqdır.

Xocavənd bölgəsindəki yaşayış yerləri adlarının çoxu antroponim, etnotoponim və fitotoponimlərdən ibarətdir. Onlar bu yerlərdə yüzillər boyunca yaşamış xalqların, soyların, görkəmli şəxslərin, özəlliyi ilə seçilən bitkilərin... adlarını özündə əks etdirir. Bu toponimlər Azərbaycan xalqının bu ərazilərdə yüzillər boyunca yaşadığının əyani sübutudur.

Xocavənd rayonunun mərkəzi hissəsindən cənub-qərbdə yerləşən **Arpadüzü kəndi** Qarabağ silsiləsinin ətəyindədir. Belə adlandırmanın səbəbi həmin ərazidə arpa əkilən düzün olmasıdır. Əhalisi heyvandarlıq, taxılçılıq və üzümçülük ilə məşğul olan bu əraziyə XIX əsrdən müxtəlif yerlərdən ermənilər köçürülməyə başlanmışdır. 1939-cu ildə *Arpadüzü* toponimi ermənileşdirilərək ***Kolxozaşen***

edilmişdir. 1992-ci ildən oykonimin əvvəlki adı bərpa edilərək yenidən *Arpadüzü* adlandırılmışdır.

Araşdırdığımız bölgədə tərkibində *arpa* sözü olan daha bir toponim də var – **Arpagədik kəndi**. *Gədik* sözü dağ belində enli yarıq deməkdir. Beləliklə, *Arpagədik* oykonimi də "*arpa əkilən gədik"* mənası verir. Ermənilər 1993-cü il işğalından sonra onun adını dəyişib **Karinq** qoyublar. Arpagədik kəndini 9 noyabr 2020-ci ildə Azərbaycan Ordusu işğaldan azad etmişdir.

Bəzi tədqiqatçılar *arpa* sözünün iki komponentdən formalaşdığını qeyd edirlər: ***ər*** və ***pi.*** Zaman keçdikcə dildə səslər qalınlaşaraq söz *arpa* formasına çevrilmişdir ki, onun da mənasını "*müqəddəs insan"* kimi izah etmişlər [10, s. 81].

Xocavənd rayonu ərazisində XIX əsrdə siyasi hadisələr səbəbi ilə Güney Azərbaycanın Qaradağ ərazisindən köçüb gələn ailə və tayfaların *Ağbulaq* adlı ərazidə yerləşməsi ilə **Ağbulaq kəndi** yaranmışdır. Göründüyü kimi, toponim *ağ* və *bulaq* komponentlərindən ibarətdir və quruluşuna görə mürəkkəb hidro-oykonimdir. Buradakı *ağ* sözünü "yeraltı suların yer üzünə çıxdığı çeşmə" kimi mənalandırmaq mümkündür. Bəllidir ki, xalqımız yerdən çıxan suları içməyə yararlı olub-olmamasına görə ağ (keyfiyyətli) və qara (keyfiyyətsiz) sulara ayırır, *Ağbulaq, Qarabulaq* toponimləri də o məkanlarda çıxan suların rəngini (şəffaflılığını) deyil, keyfiyyətini özündə əks etdirir. İşğaldan sonra ermənilər toponimin adını dəyişib **Aknakbyur** ediblər. Kənd ərazisində yerləşən, IV-V əsrlərə aid alban kilsəsini də ermənilər mənimsəməyə çalışaraq "erməni mədəniyyətinin zirvəsi" adlandırıblar.

Rayon ərazisində Qarabağ silsiləsinin ətəyində Gülüstan və Türkmənçay müqavilələrindən sonra ermənilərin yerləşdirildiyi ikinci bir **Ağbulaq kəndi** də var və qədimliyinə görə öncəki kənddən fərqlənir. Nazim Tapdıqoğlu "Xocavənd ensiklopediyası" kitabında bu kəndi nəzərdə tutaraq qeyd edir: "Ermənilər Ağbulaq kəndinə köçəndən az sonra adını dəyişərək mənası məlum olmayan **Masmına** qoydular. Sovet dönəmində də bu kənd bu adla sənədləşdirildi. Azərbaycanın müstəqilliyinin ilk aylarında kəndin keçmiş adı özünə qaytarıldı" [10, s. 57].

Yeri gəlmişkən, ərazidə tərkib hissəsi başqa mənada işlənən *ağ* sözündən ibarət digər toponim də var – **Axullu**. Qarabağda Ərgünəş dağının ətəyində yerləşən *Axullu kəndinin* adının ilk variantının *Haxullu* və *Haxıllı* formasında olduğunu güman edirik. M.S.Ordubadinin "Qanlı illər" əsərində kəndin adı *Haxulu* [9, s. 38] formasında işlənmişdir. Bu da həmin yaşayış məskənini *haxıllı* tayfasının salması ilə əlaqəlidir [12]. Demək, indi *Aşağı Axullı* və *Yuxarı Axullu* kəndlərinə ayrılan bu yaşayış yerinin adı etnotoponimdir. *Akullar* Dağıstanın cənubunda yaşayan xalqdır. Xocavənd sakinləri *Axullu* adını fonetik dəyişikliyə məruz qoyaraq *Axullu-Ağullu-Ağilli-Ağelli-Ağıllı* şəklində də işlədirlər. Belə fonetik dəyişmələrin dilimiz üçün səciyyəvi olduğunu bilirik.

Başqa türk xalqlarında olduğu kimi, Qarabağda və Azərbaycanda da tərkibində *ağ* komponenti iştirak edən bir çox toponimə rast gəlirik: *Ağburun, Ağdam, Ağdaş, Ağkənd, Ağqaya, Ağoğlan* və s. Hazırda dilimizdə *ağ* sözü rəng bildirsə də,

toponimlərdə bu sözün *"uca", "yüksək", "keyfiyyətli"* mənalarında işləndiyini də görürük.

(H)axıllı etnonimindəki *ağ* komponentinin "uca, yüksək" mənası verdiyini düşünürük. Onun tərkibindəki *ul* isə, fikrimizcə, türk dillərindəki *il, el* termininin bir fonetik variantıdır və ümumilikdə "axullu"nu "uca, yüksək elli" kimi mənalandırmaq olar.

Xocavənd rayonunda Böyük Tağlar ərazi vahidində yerləşən **Böyük Tağlar kəndinə** XIX əsrdə köçürülmüş ermənilər məskunlaşdırıldıqdan sonra oykonimin adı ermənilərək **Metstağlar** edilib. Erməni dilində *mets* sözü "böyük" deməkdir. Deməli, ermənilər onu Azərbaycan dilindəki *tağlar* sözü ilə süni şəkildə birləşdirərək "ermənicə" yeni bir yaşayış məskəni "qazanmışlar".

Yeri gəlmişkən, "Ermənistan SSR-in inzibati-ərazi bölgüsü" nəşrlərində önündə *Yuxarı, Aşağı, Böyük, Kiçik* sözləri gələn türk mənşəli yaşayış məntəqələrinin adlarında bu sözlər ermənicəyə tərcümə edilərək *Verin, Nerkin, Mets, Pokr* şəklində yazılmışdır. Bununla kifayətlənməyən Ermənistan hakimiyyəti o ermənilərdirilmiş adlardan da imtina edərək onları tam yeni ermənicə adlarla əvəz edib. Məsələn: *Verin Zağalı (Axpradzor)* (Basarkeçər/Vardenis), *Nerkin Zeyvə (Hartaşen)* (Üçkilsə/Eçmiədzin), *Mets Kəpənəkçi (Musaelyan)* (Düzkənd/Axuryan), *Pokr Şiştəpə (Pokr Sepasar)* (Qızılqoç/Qukasyan) və s. [8]. Bununla, ermənilər dəyişdirilən adların guya qədimdən ermənilərə məxsus olduğu təəssüratı yaratmağa çalışmışlar.

Xocavənddə Köndələnçayın sahilində yerləşən, əhalisi əkinçilik və maldarlıqla məşğul olan **Çağadüz kəndi** XIX əsrdə ermənilər buraya köçürüldükdən sonra **Sarkisaşen** ("Sərkis kəndi") kimi rəsmiləşdirilmişdir.

Oykonimin birinci komponenti olan ***çağa*** sözü türk dillərində *"yeni doğulan körpə", "bala"; "kiçik", "balaca"; "təzə"* və b. mənalar bildirir. Məsələn, Azərbaycan, türkmən, Tuva dillərində bu söz daha çox *"yeni doğulan körpə", "bala"* anlamı verir (azərbaycanca: çağa ağlayır, türkməncə: ayı çağası *"ayı balası"* [5, s. 63]. Tuva dilində həm də *"yeni, təzə"* deməkdir (çağa il *"yeni il"*) [5, s. 63]. Buradan çıxış edərək *Çağadüz* adının *"kiçik, balaca düz"* mənası verdiyini deyə bilərik. Maraqlıdır ki, Azərbaycan toponimlərində "kiçik" mənasında "çocuq" sözünə də rast gəlirik (məsələn, *Çocuq Mərcanlı*) ki, o da Azərbaycan və türk dillərində, əsasən, "uşaq" deməkdir.

"Sarkisaşen"ə gəlincə, ermənilərdirilən toponimlərimizin əksərində dilimizdəki "kənd" sözü "şen" ilə əvəzlənib: *Kolxozaşen, Maçkalaşen, Noraşen, Spitakşen* və s.

Sor kəndi erməni ailələrinin XIX əsrin 20-ci illərindən İrandan buraya köçürülməsindən sonra ermənilər tərəfindən **Tsur** adlandırılmışdır. "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə bu yaşayış məskəninin adı ilə bağlı olaraq qeyd edilir ki, o, 1727-ci ildə Osmanlı qaynaqlarında Dizaq nahiyəsinin **Sur kəndi** olaraq verilmişdir [6, s. 3-22].

Türk dillərində ***sor/sori*** sözü *"alçaq dağ beli"; "aşağı yer, ətək"; "kiçik göl"; "duzlu göl"; "bataqlıq"* mənalarında işlədilir [3, s.195]. Tarixi mənbələrdə Azərbaycan ərazisində Elxanilər dövründən gəlib məskunlaşan *sor/sur* tayfalarının da adı çəkilir. XVI əsrdən onların Qarabağ və Şirvan ərazisində məskunlaşdıqları da qeyd olunur [10, s. 400].

Sor/Sur oykoniminin etimologiyasını iki cür izah etmək olar. Coğrafi mövqeyini – dağətəyi ərazidə yerləşdiyini nəzərə alsaq onun *"aşağı yer"* demək olduğunu qəbul etməli, *sor/sur* tayfaları ilə bağlasaq *"sorların kəndi"* kimi etnotoponim saymalıyıq.

1992-ci ilə qədər adı **Domı** olan, ermənilərin təhrif edərək *Tomi, Tumi* adlandırdıqları **Binə kəndinin** öz adını heyvandarlıqla məşğul olan insanların yurd saldıqları **binə** sözündən götürdüyü məlum olur. Yaylaqda yuva salan maldarlar öz yaşadıqları yeri həmişə *binə-lövbər salınan yer* adlandırıblar. Kəndin qədim adı *Domı* da təxminən binə sözünə yaxın*"oturmaq, ayağını qatlayıb aşağı çökmək"* mənasını ifadə edir. Ermənilər adı nə qədər fonetik dəyişmə ilə təhrif edərək özlərinkiləşdirməyə çalışsalar da, Azərbaycanda Bakının *Binə qəsəbəsi,* Ağdaşın *Binələr,* Masallının *Binə Xocavar* toponimləri sübut edir ki, bu toponim bizə məxsusdur.

Edilli kəndinin adı *edil* komponentinə *-li* şəkilçisinin birləşməsindən ibarətdir. Bu kəndin adına yazılı qaynaqlarda *Edillu* kimi də rast gəlinir. Bu, *-lı*[4] şəkilçisinin ərəb əlifbasında yalnız dodaqlanan variantda (*-lu* şəklində) işlənməsinin nəticəsidir.

Qədim mənbələrdə xəzər tayfaları içərisində adını Edil/İtil (Volqa) çayına vermiş *edil/idil* qəbiləsinin də adı çəkilir [2, s. 174] və, bizcə, bu kəndin adı onlarla bağlıdır. Göyçə mahalındakı *Etil* və Qars əyalətinin Kağızman dairəsindəki *Edillu* kəndlərinin adları da eyni qaynaqdan törəmədir [4, s. 95]. Maraqlıdır ki, 1588-ci ilə aid bir qaynaqda Gəncə qəzasında Kürək aranı (Kürəkçay sahilində qışlaq) adlı yerdə qışlamış *İdilu* elinin adı çəkilir [4, s. 96].

İşğalçı ermənilər toponimi tamamilə dəyişdirərək **Uxtadzor** adlandırmışdılar. 15 oktyabr 2020-ci ildə kənd işğaldan azad edilmiş və onun doğma adı özünə qaytarılmışdır.

1823-cü ildə bir ailədən ibarət olan, bəzi tarixi materiallarda və mənbələrdə bəzən *Bolutan* kimi də verilən, 1828-ci ildə İran ermənləri köçürüldükdən sonra ermənicələşdirilib **Plıtans** edilən **Bulutan** oykoniminin adı *Bulutan* adlı şəxsdən götürülmüşdür [2,s.113]. Türkiyədə, Türkmənistanda *Bolu* toponimi ilə bağlı yerlərə rast gəlinir. Oykonimin ikinci hissəsindəki ***tan*** sözünə gəlincə, Q.Qeybullayevin fikrincə, *danq/tan*q türkcə *"dan yeri", "üfüq"* mənasındadır.

Köhnə Tağlar toponimi *köhnə* və *tağlar* komponentlərindən ibarətdir. VI-VII əsrlərə aid qədim türk yazılı abidələrində *tağ* sözü *"dağ"* mənasında işlədilmişdir. Demək, oykonimin mənası *"dağlarda yerləşən köhnə kənd"* kimi düşünülə bilər.

Buraya yerləşdirilən ermənilər kəndin adını **Hintağlar** şəklində rəsmiləşdirməyə çalışmışlar. *Böyük tağlar* oykonimində olduğu kimi, bu toponimdə də ermənilər Azərbaycan dilinə məxsus "köhnə" sözünü öz dillərinə tərcümə ediblər.

Qırmızı bazar qəsəbəsi əvvəllər bazar kimi fəaliyyət göstərmişdir. 1924-cü ildə bu ərazidə 1 May Həmrəylik günü keçirilmiş və o zamandan bəri *Qırmızı bazar* adlandırılmışdır. Ermənilər yaşayış məskəninin adını öz dillərinə tərcümə ilə **Karmir şuka** adını vermişlər.

Xocavənd rayonunda mərkəzdən cənub-qərbdə, Quruçay sahilində yerləşən **Azıx kəndinə** XIX əsrin birinci yarısında Cənubi Azərbaycandan gələn ermənilərin məskunlaşması ilə bu yaşayış məntəqəsi **Azox** adlandırılmışdır. Mənbələrdə *"Azıx", "Azıq", "Azuq", "Adıq", "Ayıq"...* kimi variantları da olan bu ad qədim türk dillərində *"ayı"* mənasındadır [2, s. 69].

Tədqiqatçılar *Azıq* toponimini *"azuqə yeri", "anbar"* kimi mənalarda işləndiyini də vurğulayır [2, s. 69]. Bu, Azıx mağarasında insanların yaşaması ilə bağlı irəli sürülmüş fikirdir.

Yeri gəlmişkən, *Azıx* oykoniminə Çinin Uyğur mahalında da rast gəlinir. "Divanü lüğat it-türk" əsərinin müəllifi Mahmud Kaşğari bu mahaldakı *Azıq kəndində* dünyaya göz açmışdır.

***

Beləliklə, rusların son iki yüzildə Azərbaycanın yaşayış məskənlərinə, özəlliklə Qarabağa köçürdüyü ermənilər kəndlərimizin, dağlarımızın, meşələrimizin, çaylarımızın adını həm tədricən, həm də 1991-1993-cü illər işğalından sonra kütləvi şəkildə böyük saxtakarlıqla ermənilərdirməyə çalışıb. Ancaq Azərbaycan xalqı heç vaxt bu saxtakarlıqla, vandalizm aktı ilə barışmayıb və öz doğma adlarımız bərpa olunub. "Azərbaycan Respublikasının bəzi yaşayış məntəqələrinin tarixi adlarının bərpası və dəqiqləşdirilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin hələ 29 dekabr 1992-ci il tarixli 428 saylı qərarında qeyd olunur: Akaku kəndi Ağdam, Aşan kəndi Heşan, Banazur kəndi Binədərəsi, Qarahonc kəndi Qarazəmi, Qişi kəndi Kiş, Qoçbek kəndi Qoçbəyli, Quzeyqaler kəndi Quzeyxırman, Domı kəndi Binə, Zamzur kəndi Dərəkənd, Komraquç kəndi Qırmızıqaya, Kert kəndi Quzumkənd, Kolxozaşen kəndi Arpadüzü, Kavahan kəndi Kavahın, Masmına kəndi Ağbulaq, Maçkalaşen kəndi Cütçü, Metstağlar kəndi Böyük Tağlar, Məmmədadzor kəndi Məmmədərə, Miruşen kəndi Mirikənd, Ninki kəndi Cəmiyyət, Norşen kəndi Yenikənd, Paravatumb kəndi Qarıtəpə, Sıxtoraşen kəndi Şıx Dursun, Spitakşen kəndi Ağkənd, Tyak kəndi Dağdöşü, Tsur kəndi Sor, Traxtik kəndi Zoğalbulaq, Xnuşinak kəndi Xanoba, Xtsabert kəndi Çaylaqqala, Hatsi kəndi Çörəkli, Herher kəndi Qarqar, Hintağlar kəndi Köhnə Tağlar, Şaqax kəndi Şahyeri, Sərkisaşen kəndi Çağadüz kəndləri adlandırılsın [13].

İkinci Qarabağ müharibəsi şanlı ordumuzun qələbəsi ilə başa çatdıqdan sonra doğma ərazilərimizdəki yaşayış yerlərinin adları da erməni işğalından qurtarılaraq milli adlarımızla əvəz olunmuşdur. Ermənilərdirmiş *Vəng* kəndinin adının *Çinarlı*,

Tsakuri kəndinin adının *Hünərli* edilməsi [14] müzəffər ordumuzun, şanlı Azərbaycan əsgərinin hünərinin nəticəsidir. Yeri gəlmişkən, son zamanlar bölgədəki bəzi uğursuz kənd adlarına da "əl gəzdirilmiş", məsələn, *Quşçubaba* kəndinin adı dəyişdirilərək *Baharlı* edilmişdir.

Nəticə olaraq, ermənilər tərəfindən Azərbaycana məxsus yer adlarının nəinki ermənləşdirilərək dəyişdirilməsi, hətta yaşayış məskənlərimizin yandırılaraq, dağıdılaraq, meşələrimizin qırılaraq vandallıqla məhv edilməsi, tarixi-mədəni abidələrimizin yer üzündən silinməsi xəbis erməni xislətinin iç üzünü göstərir. Ancaq nəcib Azərbaycan xalqı özünün qəhrəman Ordusu sayəsində doğma torpaqlarımızı silah gücünə geri qaytardı və tarixi ədaləti bərpa etdi. Dövlətimiz isə bütün saxtalaşdırılmış yer adlarının çirkabdan təmizlənərək ilkin şəklinə geri dönüşdürülməsi üçün əlindən gələni edir və etməkdədir. Bu işdə dilçi, tarixçi, etnoqraf, coğrafiyaçı... alimlərimizin birgə çalışaraq uyğun dövlət qurumlarına yardım göstərməsinə ehtiyac duyulur.

ƏDƏBİYYAT

1. Azərbaycanın tarixi abidələri və toponimləri. Biblioqrafiya. Bakı, "Zərdabi-Nəşr", 2016. 646 səh.
2. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. I cild. Bakı, "Şərq-Qərb", 2007. 427 səh.
3. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. II cild. Bakı, "Şərq-Qərb", 2007. 304 səh.
4. Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, "Oğuz eli", 1998. 452 səh.
5. Əhmədov B. Etimologiya lüğəti. Araşdırmalar, mülahizələr. Bakı, "Altun Kitab", 2015. 287 səh.
6. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Bakı, "Şuşa", 2000. 291 səh.
7. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. I cild. Bakı, "Imak", 2019. 288 səh.
8. Mustafa N. Ermənilərin toponimik cinayətləri. // "Xalq" qəzeti. 9 iyun 2020.
9. Ordubadi M.S. Qanlı illər. Bakı, "Qafqaz", 2007. 119 səh.
10. Tapdıqoğlu N. Xocavənd ensiklopediyası. Bakı, "Zərdabi LTD", 2009. 543 səh.
11. Tarix terminləri lüğəti. Bakı, "Altun Kitab", 2006. 336 səh.
12. https://az.wikipedia.org/wiki/Axullu
13. https://e-qanun.az/framework/7976
14. https://marja.az/63509 // 13 noyabr 2020.

Н.АЛЛАХВЕРДИЕВА

О ПОПЫТКАХ АРМЕНИЗАЦИИ АРМЕНИЕЙ ТОПОНИМОВ ХОДЖАВЕНДСКОГО РАЙОНА АЗЕРБАЙДЖАНА

Резюме

Процесс образования топонимов на определенной территории продолжается длительное время. Народы, проживающие на этой территории, формируют топонимию, и со временем эти названия занимают свое место в официальных источниках. Топонимы в некотором роде становятся историческими документами и дают исследователям сведения о важных исторических событиях, географических условиях, этнонациональном составе жителей и т. д. Именно поэтому они считаются одними из самых ценных национально-нравственных ценностей и богатств каждого народа. Неслучайно чужеродные оккупанты нередко пытаются «присвоить» исконные топонимы занимаемых ими земель и, конечно же, совершают серьезные исторические фальсификации. Мы наблюдаем данное проявление и в новейшей истории Азербайджана.

Хотя азербайджанско-тюркские топонимы подверглись арменизации в определенной степени в результате переселения армян в Карабах русскими за последние два века, после незаконной оккупации же Нагорного Карабаха Арменией в 1992-1993 гг., на территории бывшей Нагорно-Карабахской автономной области (НКАО) и прилегающих к ней оккупированных районах, в том числе в Ходжавендском районе, арменизация насильственным и искусственным путем наших древних топонимов стала государственной политикой страны-оккупанта. Всего один пример. Районный центр Ходжавенд, являющийся объектом нашего исследования, до 1923 года назывался **Aşağı Qaranlıq**. Первый компонент ойконима связан с географическим положением поселения. Местность получила свое название от горы *Qaranlıq* в этом районе. В 1991 году, после упразднения НКАО, новый район, созданный на базе Гадрутского и Мартунинского районов, получил название *Xocavənd*. После оккупации армяне дословно перевели топоним *Aşağı Qaranlıq* и назвали его *Göl-Liçk*.

Армяне, проводящие фашистско-апартеидную политику стирания из истории следов азербайджанских тюрков, веками живших в этом регионе, игнорируя международно-правовые нормы, помимо вандализма в отношении наших священных мест, как *Cicim ocağı* в селении Ходжавенд, *Bəhrəmli piri* в близости селения Амираллар, *Seyid Rza günbəzi* в селении Муганлы, Qaradağlı kəndi ərazisində*ki Yel piri* в территории селения Гарадаглы и многих исторических памятниках, попытались арменизировать все тюркские топонимы. Данное оккупационное государство с целью арменизации исконных топонимов искусственно добавило к ним такие армянские компоненты, как *şen, sar, blur, axbyur, cur, lic, dzor* и пр.

Топонимы *Edişə, Düdükçü, Çiraquz, Xırmancıq, Ağbulaq (Edilli), Axullu, Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli, Çinarlı, Dolanar, Bünyadlı, Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Mets Tağlar, Salakətin, Zoğalbulaq*, *Arakül, Tağavard, Böyük Tağavard, Zərdanaşen* и 47 названий сел, наличествующие в данном районе, помогают раскрыть изнанку ненавистной шовинистической политики армян.

После Второй Карабахской войны, результатом которой стала историческая победа славной Азербайджанской Армии в 2021 году, исследование, анализ и очистка от искусственной арменизации топонимов Ходжавендского района являются одними из важнейших вопросов.

Ключевые слова: *Армения, Азербайджан, Ходжавендский район, арменизация топонимов.*

N.ALLAHVERDIYEVA

ABOUT ARMENIA'S ATTEMPTS TO ARMENIZATE THE TOPONYMS OF THE KHOJAVAND DISTRICT OF AZERBAIJAN

Summary

The formation of toponyms continues in a particular area for a long time. The peoples living in that area form the names of the country, and over time those names take their place in the official sources. Toponyms, in a way, become historical documents and provide researchers with information about important events, geographical conditions, and ethnic-national composition of the inhabitants. That is why they are considered among every nation's most valuable national and moral values and wealth. It is no coincidence that the invaders often try to "appropriate" the original toponyms of the lands they occupy and commit severe historical falsification. We are also observing this in the recent history of Azerbaijan.

As a result of Russians moving Armenians to Karabakh in the last two centuries, our toponyms here have been subject to Armenianization to a certain extent. After Armenia's illegal occupation of Nagorno-Karabakh in 1992-1993, in the former Nagorno-Karabakh Autonomous Province and adjacent occupied regions, then in the Khojavand region, violent and artificial Armenianization of our ancient names became the state policy of the occupying country. Just one example. The name of the Khojavand district center, which is our research object, was Ashagi Garanlik until 1923. The first component of Oikonim is related to the geographical location of the settlement. The locality got its name from the Garanlig mountain in the area. In 1991, after the abolition of the NKAP, the new district created based on Hadrut and Martuni districts was named Khojavand. After the occupation, the Armenians translated the toponym Ashagi Garanlig and called it Lake-Lichk. The Armenians, who pursue a fascist-apartheid policy of erasing the traces of Azerbaijani Turks who lived in the region for centuries from history, ignore international legal

norms and norms of international law. Besides vandalizing our places and many historical monuments, they tried to Armenianize by changing all the Turkish toponyms belonging to our people. To Armenianize the toponyms in the area, this occupying state artificially added expressions such as *şen, sar, blur, axbyur, cur, lic, dzor.*

It helps to reveal the inside of the hateful policy of Armenians in researching the toponyms in the region of Edisha, Dudukcu, Chiraguz, Khirmancik, Agbulag (Edilli), Akhullu, Agjakend, Mulkudara, Dashbashi, Guneshli, Chinarli, Dolanar, Bunyadli, Susanlig, Domi, Tug, Akaku, Azikh, Mets Taglar, Salaketin, Zogalbulag, Arakul, Tagavard, Beyuk Tagavard, Zardanashen and the names of 47 villages.

After the Second Karabakh War, which resulted in the historic victory of the glorious Azerbaijan Army in 2021, one of the most critical issues is the investigation, analysis and purification of Khojavand region toponyms from artificial Armenianization.

Keywords: *Armenia, Azerbaijan, Khojavand region, Armenianization of toponyms.*

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: Prof. Ə.Ş.Tahirzadə
tərəfindən çapa tövsiyə olunmuşdur

SÜLEYMANOV YUSİF ƏŞRƏF OĞLU
Bakı Mühəndislik Universiteti,"İngilis dili"kafedrası
Filologiya elmləri doktoru,dosent
Abşeron,Həsən Əliyev 120
yusifsuleymanov@gmail.ru

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MÜRƏKKƏB CÜMLƏLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ VƏ MÜQAYİSƏLİ TƏHLİLİ

XÜLASƏ

İngilis dilində olduğu kimi Azərbaycan dilində də tabeli mürəkkəb cümlələrin istifadə arealı kifayət qədər genişdir və ingilis dili mürəkkəb cümlələrinin sturukturunda olduğu kimi dilimizdə də bu cümlələri əmələ gətirən sadə cümlələrdən biri müstəqil, digəri isə ondan asılı olur.

İngilis və Azərbaycan dillərindən qarşılıqlı tərcümənin geniş vüsət aldığı üçün bu dillərdə olan mürəkkəb cümlələrin birindən digərinə təcümə məsələsi olduqca mürəkkəb bir prossesdir. Məhz bu məqalənin aktualığı da bundadır.

Hər iki dildə budaq cümlələrin növlərinin tipoloji tədqiqatını və tərcümə məsələlərini öyrənməkdən ötrü onların cümlə daxilindəki yerinə, tələb etdikləri suala və bağlayıcılara diqqət etmək zəruridir.

İngilis dilində budaq cümlə baş cümləyə aşağıdakı vasitələrlə bağlanır:

1.Tabelilik əlaqəsi bildirən bağlayıcılarla, bağlayıcı və nisbi əvəzlik və ya zərflərlə. I had no idea where he was goimg.

2.İngilis dilində mürəkkəb cümlələrdə istər tabeli və ya istərsə də tabesizlik əlaqəsi olan cümlələrdə, cümlələr arasında əlaqə yaratmaqdan ötrü intonasiyadan istifadə olunur. Yəni, asindetik bağlayıcılıq prinsipindən istifadə olunur:He says he will come next week.

Açar sözlər: Azərbaycan dili, İngilis dili,mürəkkəb cümlə,müqayisə,təhlil

Verilən nümuələrdən göründüyü kimi azərbaycan dilində tərcümə zamanı budaq baş cümlənin mübtədası ilə xəbərin arasında verilmişdir. Bu da dillər arasında olan müxtəlifliyin təzahürüdür.İngilis dilində tamamlıq budaq cümləsi baş cümləyə;

1) bağlayıcılarla **that, whether, if, lest**,

2) bağlayıcı əvəzliklərlə: **who, what, which**.

3) bağlayıcı zərflərlə: **when, where, how, why** bağlayıcıları ilə bağladığı halda azərbaycan dilində bu funksiyanı "**ki","kim ki","kimə**" və intonasiya yerinə yetirir. Məsələn;" I felt cetrain now that I had seen him somewhere. Mən əmin oldum ki, onu hardasa görmüşəm".

Budaq cümlə baş cümlənin daxilində verildikdə isə azərbaycan dilində heç bir bağlayıcıdan istifadə olunmur.

Məsələn:”I wonder if he likes his job? Görəsən, o işini bəyənir?
Tamamlıq budaq cümlə ingilis dilində də azərbaycan dilində olduğu kimi baş cümləyə heç bir vasitə olmadan ancaq **yanaşma üsulu** ilə də bağlana bilər.
Məsələn:”I am afraid I trouble you too much. Qorxuram, mən sizi çox narahat edəm.

Azərbaycan dilində də bəzən tamamlıq budaq cümləsi yalnız intonasiya ilə baş cümləyə bağlanır.
Məsələn: “Mən bilirəm, sən nəyi nəzərdə tutursan”. Tabeli tamamlıq budaq cümlələrdə baş cümlə ilə budaq cümlələrin yerləri eyni olduğu üçün azərbaycan dilindən ingilis dilinə və əksinə tərcümə zamanı hər hansı bir problem yaratmır.

İngilis dili təyin budaq cumləli tabeli mürəkkəb cümlə ilə azərbaycan dilində olan təyin budaq cümləsi tabeli mürəkkəb cümlənin strukturu arasında müəyyən differensiallar mövcuddur.

Strukturoloji differensiallıq olmasına rəğmən, funksionallıq nöqteyi–nəzərdən təyini budaq cümlələr istər ingilis dilində və istərsə də azərbaycan dilində eyni xüsusiyyətə malikdirlər. Hər iki dildə təyin budaq cümləsi baş cümlədə isimlə, yaxud əvəzliklə ifadə edilmiş hər hansı bir üzvə aid olur, onu təyin edir.
Məsələn: This is the house where 1 live. Bu ev mənim yaşadığım evdir. İngilis dilində təyini budaq cümlələr baş cümləyə;
1) **who, whose, which, that, as** nisbi əvəzlikləri,
2) **when, where, how, why** nisbi zərflərlə bağlandığı halda azərbaycan dilində bu yanaşma yolu ilə və yaxud **asindeton** yolla həyata keçirilir.
Məsələn:That happened in the year when I came to Moscow. O, (iş,hadisə)mən Moskvaya gələn ildə baş vermişdi.

Təsviredici təyini budaq cümlələri təyin olunan söz haqqında əlavə məlumat verir.Təsviredici təyin budaq cümlələri baş cümləyə nisbi əvəzliklərlə, xüsusi ilə də **who** və **which**, habelə rıisbi zərflərlə bağlandığı halda azərbaycan dilində məhdudlaşdıncı budaq cümlələrdə olduğu kimi yanaşma yolu ilə aparılır.
Məsələn:” Tom‘ s brother who lives in Moscow is a doctor.-Tomun Moskvada yaşayan qardaşı həkimdir. Tərcümə zamanı məhdudlaşdıncı təyin budaq cümlələrə aid olan xüsusiyyətlər təsviredici təyin budaq cümlələrinə də aid etmək olar.

Qeyd: Mübtədaya aid olan təyin budaq cümləsi tərcümədə çətinlik törədir. Belə ki, o, baş cümlənin mübtədası ilə xəbərini bir–birindən ayrı salır və bununla da onlar arasındakı
əlaqəni tez aydınlaşdırmağa mane olur. Belə hallarda səhvə yol verməmək üçün əvvəlcə təyin budaq cümləsini xəyalən bir anlığa atmaq, baş cümlənin məzmununu aydınlaşdırmaq, sonra hər iki cümləni (baş və budaq) birlikdə tərcümə etmək lazımdır.

Azərbaycan dilində təyin budaq cümləsi yanaşma üsulu ilə yanaşı, bağlayıcılar vasitəsi ilə də əlaqələnə bilir. Bu halda təyin budaq cümlə baş cümlədən sonra gəlir və budaq cümləyə çox vaxt “ki” bağlayıcısı ilə bağlanır.

Bu yalnız mübtədanın təyini rolunda təyini budaq cümlə iştirak etdikdə baş verir.Baş cümlədə əsasən **elə, belə bir, bir, o, həmin** əvəzlikləri də işlənə bilir.Məsələn;

Bu dağlarda elə çiçəklər var ki, min dərdə dərmandır.

Bəzən Azərbaycan dilində budaq cümlə baş cümlədən əvvəl də işlənir və ona **hansı, kim,nə** bağlayıcı sözlər ilə bağlanır.Məsələn:

Hansı mövzunu yaxşı bilirsən, o mövzunu da danış.

İngilis dilində bir mənalı olaraq, **üslubi pıiyomlar** istisna olmaqla təyin budaq cümləsi baş cümlədən sonra gəldiyi üçün və azərbaycan dilində bu qrammatik hadisə olduğu üçün, tərcümə zaman birinci olaraq baş cümləni sonra isə budaq cümləni tərcümə etmək lazımdır.

Azərbaycan dilində təyin budaq cümləsi nadir hallarda baş cümləyə yalnız intonasiya ilə bağlanır.Məsələn:

Kitab var, heç oxumaq istəmirsən.

İngilis dilinə bu cümlələıi həm bağlayıcı və həm də intonasiya vasitəsi ilə baş cümlə ilə budaq cümləni birləşdirməklə tərcümə etmək olar:

There are books, (which) nobody wants to read.

Göründüyü kimi Azərbaycan dilindən fərqli olaraq ingilis dilində həm **intonasiyadan** və həm da bağlayıcıdan istifadə etməklə tabeli təyin budaq cümləli mürəkkəb cümlələr qurmaq mümkündür.

İntonasiya vasitəsi ilə ingilis dilində təyin budaq cümlələrin işlədilməsi yazılı nitqlə müqayisədə üstünlük təşkil edir.

Zərflik budaq cümlələri (Adverbial Clauses)– İngilis dilində zərtlik budaq cümlələri baş cümləyə əsasən tabelilik əlaqəsi bildirən bağlayıcılarla bağlanır. Eyni zamanda zərflik budaq cümlələri baş cümləyə həm bağlayıcı ilə, həm də bağlayıcısız bağlana bilir. İngilis dilində əksər zərflik budaq cümlələri baş cümlədən həm əvvəl, həm də sonra işlənə bilir. Azərbaycan dilində isə zərflik budaq cümlələri baş cümləyə bağlayıcı sız intonasiya və yaxud şəkilçilər vasitəsi ilə bağlanır. Onların tabeli mürəkkəb cümlə daxilində yerinə gəldikdə isə ingilis dilində olduğundan fərqli olaraq, onlar adətən baş cümlədən həm əvvəl gəlirlər:

Məsələn; Iwould buy a car if I were you-Mən sənin yerinə olsaydım maşın alardım. "

Baş cümləyə **when** bağlayıcısı ilə birləşən zaman budaq cümləsini “when” zərfi ilə başlanan mübtəda, xəbər, tamaınlıq və təyin budaq cümlələri ilə qanşdırmamaq üçün həmin cümlələrin tabeli mürəkkəb cümlədəki yerinə və tələb etdiyi suala diqqət yetirmək lazımdır:

1. She was reading a book when l came-Mən gələndə 0 kitab oxuyurdu (zaman budaq cümləsi).
2. When he will come is not known-Onun nə zaman gələcəyi bəlli deyildir.(mübtəda budaq cümləsi).

Həm ingilis və həm də azərbaycan dilində yer budaq cümləsi tabeli mürəkkəb cümlə tərkibində yer zərtliyi funksiyası daşıyır və baş cümlədəki icra olunduğu yeri bildirir.Məsələn:

The spaceshiplanded where it was supposed to. ·Kosmik gəmi güman edilən yerə endi.

Baş cümləyə "where" bağlayıcısı ilə birləşən yer, mübtəda, xəbər, tamamlıq və təyin budaq cümlələrini düzgün fərqləndirmək üçün onların mürəkkəb cümlədəki yerinə və tələb etdiyi suala istinad etmək lazımdır:

1. We found him where he workedBiz onu işlədiyi yerdə tapdıq. yer budaq cümləsi).
2. Where she lives is known to everybody.Onun harada yaşadığı hər kəsə bəllidir. (mübtəda budaq cümləsi)
3. The problem is where we can get water–Problem suyu haradan əldə edə bilməmizdir.(xəbər budaq cümləsi) Qeyd olunan xüsusiyyətlərin tərcümədə elə bir rolu yoxdur. Nəzəri baxımından cümlələri fərqləndirmək üçün bu incəlikləri bilmək zəruridir.

Səbəb budaq cümləsi tabeli mürəkkəb cümlə daxilində səbəb zərfliyi funksiyası daşıyır və baş cümlədəki hərəkətin səbəbini bildirir. Bu növ cümlə-**because, since,as,for the reason, that, on the ground that, seeing that** və s. kimi bağlayıcılarla bağlanır:

I can't go becausel have no ticket.-Mən gedə bilmirəm, çünki biletim yoxdur.

Nəticə budaq ·cümləsi tabeli mürəkkəb cümlə tərkibində nəticə zərfliyi funksiyası daşıyır. Bu cümlələr baş cümləyə **such...that,that(so...that)** bağlayıcılan va-sitəsi ilə birləşir:

He went to the lecture so early that he got a good seat.

O, mühazirəyə tez getdiyindən yaxşı yeri tutdu.

Güzəşt budaq cümləsi tabeli mürəkkəb cümlə daxilində güzəşt zərfliyi funksiyasında çıxışedir və baş cümlədəki fikrə qarşı duran və ya ona güzəştə gedən fikri ifadə edir. Bu növ budaq cümlə baş cümləyə **though, although, as evenif, even though, however, Whoever, whatever, whichever** və s. bağlayıcılarla bağlanır.Məsələn:

Daylight was yet three hours away, though it was already six o" clock. Saat altı olsa da, gün işığı artıq üç saat idi ki, getmişdi.

Tərzi hərəkət budaq cümləsi cümlə tərkibində tərzi–hərəkət zərfliyi iimksiyası daşıyır və baş cümlədəki hərəkətin necə, nə cür icra olunduğunu bildirir. Bu növ budaq cümlələr baş cümləyə as bağlayıcısı ilə bağlanır:

She did exactly as he told her.O, mənim ona dediyim kimi etmişdi.

Tabeli mürəkkəb cümlə tərkibində budaq cümlə baş cümləyə iki yolla bağlanır :tabelilik bağlayıcıları vasitəsi ilə və heç bir bağlayıcı olmadan.

Təyin budaq cümləsi haqqında.

Təyin budaq cümləsi baş cümlədə isimlə yaxud əvəzliklə ifadə edilmiş hər hansı bir üzvə aid olur ,onu təyin edir.Təyin budaq cümlələri baş cümləyə nisbi əvəzliklə və nisbi zərflərlə bağlanır.Təyin budaq cümlələri iki cür olur : məhdudlaşdırıcı təyin budaq cümlələri və təsviredici təyin budaq cümlələri.Təyin budaq cümləsinin tabeli mürəkkəb cümlədə yeri ,mövqeyi haqqında bir neçə bəzi fikir söyləmək lazımdır.Bir çox hallarda təyin budaq cümləsi təyin edilən sözdən sonra durur. Ancaq bəzən elə hallar olur ki, tərkibində ismi olmayan bir neçə söz birləşmələrindən sonra da gələ bilər.

Təyin budaq cümləsini təqdim edən nisbi əvəzliklər **(whom, whose** , **which,that,as**) məhdudlaşdırıcı təyin budaq cümlələrini baş cümləyə bağlayır.Əgər nisbi əvəzlik sözönu ilə işlənirsə , sözönü budaq cümlənin axırında feldən sonra durur.

Məsələn: **The girils that I work are having lunch**.-Mənimlə işləyən qızlar lanc yeyirlər.

Təyin budaq cümlələridə **who** əvəzliyinin obyrkt halı olan **whom** və **which** əvəzlikləri çox vaxt **that** əvəzliyi ilə əvəz olunur.

-Məsələn **: A letter that (which) is written in pencil is difficult to read.**

İngilis dilində **“ appositive attrubutive clauses”**adlanan budaq cümlələri də var ki,onlar baş cümlədə olan hər hansı bir ismin əlavəsi kimi işlənir.Bu halda təyin olunan söz çox vaxt mücərrəd isimlə ,yəni **idea,chance , method**, **way, statement , fact** və s. sözlərlə ifadə olunur. Bu zaman budaq cümlə baş cümləyə bağlayıcəlarla bağlanır və heç zaman cümlədən atıla bilməz .

Məsələn: “**appositive attrubutive clauses**” adlanan budaq cümlələri də var ki,onlar baş cümlədə olan hər hansı bir isimin əlavəsi kimi işlənir.Bu halda təyin olunan söz çox vaxt mücərrəd isimlə ,yəni **idea,chance ,method , way, statement , fact** və s. sözlərlə ifadə olunur.Bu zaman budaq cümlə baş cümləyə bağlayıcılarla bağlanır və heç zaman cümlədən atıla bilməz.Məsələn:O,ispan apabaçılarının Əlcəzairdə oxuduğu kimi ucadan mahnı oxuyurdu.

b) A week later Dorian Gray was at his house in the country, where he had invited Lord Henry and several other friends.Bir həftə sonra Dorian Qrey Lord Henrini və bir neçə dostunu dəvət etdiyi kənd evində idi .That was the time when thousands of workers in the area were streaming out of the plants. Bu ,həmin diyarda minlərlə işçinin zavodlardan axışdığı bir vaxt idi. I don 't lıke the method how he explained the matter .But he could see now no reason why he should not smoke.Mən onun məsələni izah etdiyi metodunu xoşlamıram .Ancaq o nəyə görə siqaret çəkməyəcəyinin səbəbini bilmirdi.

Nəticə: Beləliklə, ingilis və azərbaycan dilləri müxtəlif dil ailələrinə mənsub olsalar da, hər iki dildə tabeli mürəkkəb cümlələr mövcuddur. Bu baxımdan, ingilis və azərbaycan dillərində oxşar və fərqli xüsusiyyətlər aşkara çıxır: don 't lıke the

method how he explained the matter .But he could see now no reason why he should not smoke.Mən onun məsələni izah etdiyi metodunu xoşlamıram .Ancaq o nəyə görə siqaret çəkməyəcəyinin səbəbini bilmirdi. don 't lıke the method how he explained the matter .But he could see now no reason why he should not smoke.Mən onun məsələni izah etdiyi metodunu xoşlamıram .Ancaq o nəyə görə siqaret çəkməyəcəyinin səbəbini bilmirdi. don 't lıke the method how he explained the matter .But he could see now no reason why he should not smoke.Mən onun məsələni izah etdiyi metodunu xoşlamıram .Ancaq o nəyə görə siqaret çəkməyəcəyinin səbəbini bilmirdi.Məsələn :**The fact that he has not said anything surprises everbody** -Onun heç nə deməməsi faktı hər kəsi təəcübləndirir.Beləliklə ,tamamilə aydındır ki,nisbi əvəzliklər bölünürlər:

1.Hər iki dildə tabeli mürəkkəb cümlə beş növdə qruplaşdınlır.

2.Müqayisə olunan dillərdə budaq cümlənin növündən asılı olaraq budaq cümlə ya baş cümlədən əvvəl, ya da ondan sonra gələ bilər.

ƏDƏBİYYAT :

1. Abdullayev Ə. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr, Bakı, 1974.
“Floods of tears” kimi bir çox metaforik ifadələr də vardır ki, onlar artıq öz metaforik xüsusiyyətlərini itirib ana dil vahidlərinə çevriliblər. Bəzi ifadələrdə vardır ki, onlar metaforik xarakter daşıyaraq insan anlayışı bildirir. Bu cür metaforalar “zoosemiya” adlanır. Qorxaq insanın dovşan, hiyləgər insanın tülkü, çox kitab oxuyanın kitabqurdu, aşiq insanın bülbül adlandırılması belə metaforalara nümunə göstərilə bilər. Metaforalar rəng, forma və görünüş, hərəkət, vəziyyət, funksiya və istifadə kimi bənzərliklər əsasında yarana bilər. Sözlərin metaforik istifadəsi onların lüğəvi mənalarına da təsir göstərir, sözlərə yeni konnatativ məna çaları verir.

Dilin digər hadisələri kimi metafora da tarixi xarakter daşıyır, yəni daim inkişaf edir. Epitet -İngilis dilinin obrazlı ifadə vasitələrindən biridir. Yunancadan tərcümədə epitet "əlavə" deməkdir. Epitetin əsas qayəsi əşya və ya hadisəni bildirən sözlərə əlavə edilməkdir. O, sözün həm həqiqi, həm məcazi mənasından törəyə bilər. Poetik nitqdə işlənən epitetlərin əksəriyyəti məcazi xarakterə malikdir.

Epitet assosiasiyanın nəticəsidir. Bir əlamətin adı oxşarlıqla əlaqədar bir başqa predmetin əlaməti kimi istifadə edilir. Cansız əşyaların keyfiyyətləri insanın üzərinə keçirilə və əksinə işlənə bilər. Məsələn: qələm qaşlar, püstə ağız, xumar gözlü gecə, nazlı bahar, şən ləpələr və s. Epitetin əsas xüsusiyyəti odur ki, heç zaman müstəqil şəkildə işlənmir.

Epitet yüksək obrazlılığa malik olan bədii təyindir. O, özündə bədiilik və məntiqiliyi sıx birləşdirir. Təbii ki, bir əşyanın saysız-hesabsız əlamətləri mövcuddur. Epitet isə onlardan yalnız birini bildirir. Elə bu seçimin özü subyektiv və fərdidir. Odur ki, epitet həmişə subyektivdir. Epitet bədii dilə, xüsusilə şerə yeni ruh, bədiilik və emosionallıq gətirir. Quruluş etibarı ilə epitet sadə və mürəkkəb olur. Yəni epitet həm bir, həm də bir neçə sözlə ifadə edilir.

Epitet vəzifəsində adətən əsas nitq hissələri iştirak edir:

1) Sifət funksiyasında çıxış edən isimlər (lalə yanaq, bulud zülf, qızıl səhər, mirvari diş)

2) Sifətlə ifadə olunanlar: yaşıl gözlü dəniz, şəhla gözlər, bəyaz qollar və s.

Epitet şifahi xalq yaradıcılığında da geniş istifadə olunmuşdur. Tarixi bir kateqoriya kimi, zaman keçdikcə inkişaf etmişdir [4, s.65].

Epitet hər hansı bir əşyaya və ya hərəkətə xas olan cəhəti vurğulayaraq ifadə edən sözə deyilir. Epitetin üslubi funksiyası onun bədii ifadəliliyidir. Onlar yüksək obrazlılığa malik olduqları üçün təsvirin, tərənnümün daha da ifadəli alınmasına və diqqətin bir nöqtəyə toplanmasına xidmət edirlər. Məhz bu xüsusiyyətlər onları qrammatik təyinlərdən fərqləndirir.

Epitet sözlərin məntiqi, emotiv, məcazi mənalarının bir-birinə qarşılıqlı təsiri ilə yaranır, və sifət+isim, feil+zərf kombinasiyası strukturunda işlənir. Epitetlər metaforik (foxy fate), metonimik (Cold War), və istehzalı (the kind hangman) olur. Metaforik epitetlərdə semantik uyğunsuzluq özünü göstərir. Bu cür epitetlərdə insana xas olan xüsusiyyətlət cansız əşyalar üçün epitet funksiyasında çıxış edir: gentle air, volcanic breath, rival pyramid və s. Epitetlər quruluşca aşağıdakı kimi təsnif edilə bilər.

1. Sadə epitetlər: - He looked at them in animal panic.

2. Mürəkkəb epitetlər – apple-faced man

3. Cümlə və ya fraza şəklində olan epitetlər - bestowers of good things 4. İki isimin birləşməsindən yaranan zidd epitetlər – a shadow of simile.

Müqayisə ilə təşbeh səhv salınmamalıdır. Müqayisə eyni bir sinifə aid olan 2 obyektin müəyyən xüsusiyyətlərinə görə eyniləşdirilməsi və ya fərqləndirilməsidir. Müqayisə edildikdə obyektin bütün xüsusiyyətləri nəzərə alınır, lakin bir

xüsusiyyətinə görə müqayisə edilir. Təşbehlər isə iki tamamilə fərqli obyektlərin bir-biri ilə qarşılaşdırılaraq bənzədilməsidir. Azərbaycan dilində təşbehlər adətən bənzətmə qoşmalarının, ingilis dilində isə such as, like, as, as if, seem kimi bağlayıcı sözlər vasitəsilə yaranır. To eat like a bird, swim like a fish "A room without books is like a body without a soul.". (Marcus Tullius Cicero)

Bəzən təşbeh yalnız birinci iki hissədən ibarət olur. Təşbehin üslubi funksiyası mətndə yaratdığı bədii ifadəlilikdir. Təşbeh sadəcə müqayisə deyil. O,bədii obrazın yaradılmasına, mətnin obrazlılığına xidmət edir. Sadə təşbehlər iki hadisənin bir ümumi cəhəti üzrə müqayisəsidir. Mürəkkəb təşbehlər hadisələrin bir sıra ümumi cəhətlər üzrə müqayisəsidir [5, s.56].

Metonimiya-məcazın növlərindən biridir. Həm əmələgəlmə prinsipinə, həm də dildə daşıdığı funksiyalarına görə metonimik məcaz metaforik məcazdan fərqlənir. Belə ki, metonimiya bənzəyiş əsasında yox, bir-birindən fərqli olan əşya və hadisələrin qarşılaşdırılması və bunun nəticəsində əmələ gələn daxili və zahiri əlaqələr üzrə yaranır. Məsələn, sağ əl ifadəsi. İlk baxışda bu ifadə arxa, kömək, dayaq anlayışlarını özündə ehtiva vermir. Lakin fizioloji planda insanın daha çox sağ əlindən istifadə etməsi bu məcazi mənanın yaranmasına səbəb olur. Metafora kimi metonimiya da insan təfəkkürünün məhsuludur. O da metafora kimi tarixi xarakter daşıyır-yəni zamanla dəyişmiş və inkişaf etmişdir. Metonimiya müsbət bir hadisədir, ifadəlilik keyfiyyətinə və istifadə dairəsinə görə metonimiyanın iki növü diqqəti cəlb edir [7, s.67]:

1) Sabit, ümumişlək metonimiya

2) Obrazlı metonimiya.

Sabit metonimiyalar adi ifadələr və termin səciyyəli sözlərdən ibarətdir.

Obrazlı metonimiyalar isə termin kimi yox, ifadəliliyini hələ tərk etməmiş məcazlar kimi çıxış edir. Bədii üslubda fərdi metonimiyalara da rast gəlinir.

Metonimiya yalnız sözün məcazi mənasından törəyir, əşya və hadisələr arasında əlaqələrin mövcudluğundan asılı olur. Metonimiyalar özləri referent olmaqla yanaşı, ifadənin daha lakonik olmasına xidmət edir. Leksik ifadələr ilə onların mahiyyəti arasında praqmatik əlaqə olsa da birbaşa əlaqə olmur. Metonimiyaların yaranmasına sosial və mədəni xüsusiyyətlər təsir edə bilər. Metonimiyaların koqnitiv funksiyasının olduğu fikri isə ilk dəfə 1980- ci illərdə Lakof və Consonun "Konseptual metonimiya" nəzəriyyəsində irəli sürülmüşdür. Metonimiya ritorik vasitə olmaqla yanaşı ifadənin mahiyyətinin başa düşülməsində mühüm rol oynayır. Xüsusilə şəhər ölkə adları, şəxs adları, bədən üzvləri və s metonimya rolunda çıxış edə bilər. "Moscow and Washington will hold talks on this problem" cümləsində Moskva və Vaşinqton dedikdə həmin ölkə rəhbərliklərinin danışıqlar aparacağı nəzərdə tutulur. Beləliklə, şəhər adları ölkə rəhbərləri ilə bağlı assosiasiya yaradır.

*Sinekdoxa-m*əcazın növlərindən biri də sinekdoxadır. Sinekdoxa kəmiyyət əlaqəsi əsasında bir hadisənin mənasının digərinə keçirilməsini ifadə edir. Sinekdoxa

metonimiyaya çox yaxındır. Sadəcə metonimiya məkan, zaman, məntiq, səbəbiyyət əlaqəsi əsasında bir əşyanın başqa bir əşya üzərinə keçirilməsi ilə əlaqədar əmələ gəlirsə, sinekdoxanın yaranması kəmiyyət əlaməti əsasında bir əşyanın o birinin üzərinə keçirməsi nəticəsində mümkün olur.

Zveqma ingilis dilində nəsrlə yazılmış əsərlərdə daha çox işlənən üslubi priyomlardan biridir. Zveqma bir cümlədə işlənən, eyni qrammatik quruluşa malik, müxtəlif semantik mənalar ifadə edən məcaz növüdür. Cümlədə işlənən bir feil iki ismi idarə edir. Cümlənin feili əlaqədə olduğu isimlərdən biri ilə birlikdə həqiqi məna, digəri ilə isə məcazi məna kəsb edir. "Whether the Nymph Shall stain her honour or her new brocade or lose her heart or necklace at a ball." Bu cümlədə stain feili müvafiq olaraq şərəf və zərxara, lose feili isə ürək və boyunbağı sözü ilə əlaqəyə girərək həqiqi və məcazi mənalı söz birləşmələri yaradıb.

Pun iki söz və ya ifadənin bir-birinə qarşılıqlı əlaqəsi nəticəsində yaranan üslubi priyomlardan biridir. Pun həmçinin paranomasiya da adlanır.

Pun yumor və ya ritorik effekt yaratmaq üçün çoxmənalı və ya eynisəsli sözlərdən istifadə etməklə yaranan bir növ söz oynudur. Volter Redfernin fikrincə, pun sinonim homonimlərdir. "It is the unkindest tied than ever any man tied." (Qalperin, 1986)" Oksimoron mənaca bir birinə zidd olan iki sözdən ibarət söz kombinasiyasıdır. Bu kombinasiya isim ilə sifət və yaxud da sifət ilə zərfdən təşkil olunur. "Low skyscraper", "terribly sorry", "cruel kindness", "living death" kimi ifadələr oksimoron nümunələridir. (literarydevices.net/oxymoron) İroniya yunan mənşəli söz olub (eirōneía) sözündən yaranmışdır. İroniya fikrin birbaşa deyil, örtülü yollarla, işarələrlə ifadə edilməsidir.

İ.R.Qalperin ironiyanın tərifini belə verir: "İroniya iki bir-birinə zidd sözlərin lüğəvi, kontekstual və məntiqi mənalarının eyni zamanda realizasiyasına əsaslanan stilistik vasitədir". (Qalperin, 1986). İroniya bildirən söz xüsusi intonasiya tərzi ilə deyilir. İroniya bir çox oxşar xüsusiyyətləri olsa da satira ilə qarışdırılmamalıdır. Satira daha sərt, tənqidedici xarakter daşıyır. İroniyanın üç növü var.

1. Verbal ironiya – həqiqətə zidd olan sözlərdən istifadə etməklə yaranır. Məşhur ingilis dramaturqu Şekspirin "Yuli Sezar" əsərində Mark Antoninin Sezarın qətlində iştirak edən Brutu "an honorable man" yəni şərəfli insan adlandırması verbal ironiya yaradıb. (J. Smith, 2018)

2. Dramatik ironiya - teatrda, dram əsərlərində daha çox istifadə olunan bu ironiya növü auditoriyanın bildiyi bir şeyi obrazın bilməməsindən qaynaqlanır, beləliklə dramatik ironiya vasitəsilə ilə daha çox cahillik, cəhalət tənqid olunur. Şekspirin "Otella" əsərində ona qarşı plan hazırladığından xəbərsiz olan Otellonun Laqonu "vicdanlı insan" adlandırmağı, və bundan auditoriyanın xəbərdar olmağı dramatik ironiyaya nümunə ola bilər [5, s.87].

3. Vəziyyətə görə ironiya – adından da göründüyü kimi ironiyanın bir növü baş verməsi gözlənilən bir hadisə baş vermədikdə istifadə olunur. Bədii ədəbiyyatda geniş yayılmış ironiya növlərindən biridir. Yazıçılar ironiyanın bu növündən istifadə

etməklə kəskin ziddiyyətlər yaradır, beləliklə reallıqlar və görünənlər arasında kəskin fərqi göstərir. Gi de Mopassanın "Boyunbağı" əsərində qadının dəyərli hesab etdiyi boyunbağını alması üçün borc götürüb həmin boyunbağını itirməsi, illər keçdikdən sonra isə həmin boyunbağının saxta olduğunu öyrənməsi bu ironiya növünə bariz nümunədir [4, s.66].

Hiperbola (ing. *hyperbole*) müəyyən nüansı vurğulamaq üçün onun həddindən artıq şişirdilməsidir. Ədəbiyyatlarda mübaliğə kimi də tanınan bu üslubi fiqur adətən yumoristik effekt yaratmaq üçün istifadə olunur. Gündəlik həyatda da tez-tez istifadə olunan bu vasitə bədii diskurs müəlliflərinin də əsərlərində istifadə olunmuşdur. E.A.Ponun bədii diskursunda olan mübaliğəyə nəzər salaq: *I heard sounds from heaven; and I heard sounds from hell!* [8, s.63]

Burada yazıçı bu səsin heç vaxt eşidilmədiyini vurğulamaq üçün onun cənnətdən və cəhənnəmdən gəldiyini deyir. Cənnət və cəhhənnəmdən heç nəyin gəlmədiyini və ya heç nəyin əldə olunmadığını bilən oxucu yazıçının niyyətini dərhal başa düşür. Həmin əsərdə yazıçı hiperboladan tez-tez istifadə edir:

When the old man looked at me with his vulture eye a cold feeling went up and down my back; even my blood became cold. [8, s.64]

Burada kişinin baxışlarının kəskinliyi vurğulamaq üçün əsər qəhrəmanın qanının belə soyuması kimi mübaliğə işlədilmişdir. Mübaliğə gündəlik həyatda çox tez-tez istifadə olunduğu üçün metafor kimi onun da varlığı bəzən hiss edilmir.

Yazıçı bu əsərdə hiperbolanı əsasən səs və zamana tətbiq etmişdir:

The eighth night I was more than usually careful as I opened the door. The hands of a clock move more quickly than did my hand. [8, s.64].

Suddenly the old man sat straight up in bed and cried, "Who is there??!" I stood quiet still. For a whole hour, I did not move a muscle. [8, s.65].

In the quiet night, in the dark silence of the bedroom my anger became fear- for the heart was beating so loudly that I was sure someone must hear [8, s.66]

Nümunələrdən də göründüyü kimi yazıçı bu üslubi fiqurlardan kifayət qədər və oxucunu yormadan istifadə etmişdir.

She owned the crack that made her stumble; she owned the clumps of dandelions...owning them made her a part of the world and the world part of her." [11, s.48-49]

Ernest Heminqueyin bu əsərində hiperbolaya əsasən dialoqlarda daha çox rast gəlinir. Burada Santiaqonun balıqçılıq bacarıqları Manolin tərəfindən qabardılır. Manolin əslində burada sadəcə yaşına və təcrübəsinə görə deyil, eyni zamanda onun işinə olan ehtirasını, sevgisini qatmasını da nəzərdə tutur. Yazıçı əsərdəki qəhrəmanı oxucunun gözündə daha da böyütmək üçün, Manolinin adından mübaliğələrdən istifadə edir.

O.Henri də bədii diskursunda vurğulamaq istədiyi hadisəni mübaliğə vasitəsilə oxucunun diqqətində saxlamışdır:

Dilçilikdə digər adı mübaliğə olan bu təsvir vasitəsilə bir predmet, hadisə olduğundan müqayisə olunmayacaq dərəcədə çox şişirdilmiş şəkildə təsvir edilir. Mübaliğə nəzərdə tutulan fikrin, ideyanın oxucuya, dinləyiciyə daha qabarıq çatdırılmasına xidmət edir.

Həm İngilis, həm də Azərbaycan dillində məsələn, şir cəsurluq, tülkü çoxbilmişlik, pələng vəhşilik, arı - işgüzarlıq, öküz isə güc, qüvvə rəmzi kimi göstərilir. Məsələn, as cunning as a fox tülkü kimi hiyləgər, as fıerce as a tiger – pələng kimi yırtıcı, as bold as a lion - aslan-kimi qorxubilməz, as busy as a bee – arı kimi işgüzar, as strong as an ox öküz kimi güclü. Digər tərəf ən isə iki dilin sıımvolikasında fərqlər də mövcuddur. Məsələn, Azərbaycan dilində əqli məhdudiyyət və keylik "qoyun" və ya "toyuq" sözləri ilə ifadə edilir. İngilis dilində isə bu anlayış "qaz" (goose) və ya "qatır" (mule) sözləri ilə təcəssüm edilir. Azərbaycan dilində çox işləyən insanları ifadə etmək üçün arı ilə və ya at kimi dözümlü və işgüzar heyvanlar ilə müqayisə edirlər. İngilislər isə belə vəziyytədə quşlarla müqayisədən istifadə edirlər [4, s.78].

Nəticə

Diqqət yetirsək görərik ki, hər iki dildə də insanın xarici görünüşünə, fiziki vəziyyətinə və hərəkətlərinə aid olan frazeoloji vahidlərə daha çox yer ayrılıb. İkinci yerdə isə cansız əşyaları, vəziyyətləri və təbii hadisələri xarakterizə edən komparativ frazeoloji vahidlər gəlir. Daha sonra insanın düşüncəsini və danışıq qabiliyyətini ifadə edən frazeoloji vahidlər müəyyən əhəmiyyət daşıyır. Azərbaycan dilində hiss və emosionallıq bildirən frazeoloji vahidlər azlıq təşkil edir. İngilis dilində isə bu zəiflik insanın maddi vəziyyətini və fiziki fəaliyyətini bildirən frazeoloji vahidlərdə müşahidə olunur.

Beləliklə, müəyyən bir dildə insanı təsvir edən komparativ frazeologiyanın üstünlüyə malik olması bilavasitə həmin dilin antroposentrik olmasından asılıdır. Söz birləşməsi strukturuna malik olan komparativ birləşmələrə əsasən sifəti və feili frazeoloji vahidləri aid etmək olar. Zərfi komparativ frazeoloji vahidlərin sayı dildə o qədər də çox deyil. Sifəti komparativ frazeoloji vahidlər ənənəvi olaraq frazeologizimlər sinfinin ayrıca yarımsinfinə daxil edilir.

Hiberbolanın ümumi semantik asimmetriyasını, yəni frazeoloji vahidlərin mənasının mənfi mənaya meyillənməsini, dilçilər insanların daha kəskin emosiyalı və nitq zamanı düşünmə reaksiyası ilə, əlaxüsus da mənfi hadisələrə, streslərə reaksiyası ilə izah edirlər.

Ədəbiyyat

1. Арнольд И.В. (2010), Стилистика: Современный английский язык: учеб. Пособие. М.: Флинта, 215 с.

2. Бахмутова Е.А. (2007), Выразительные средства языка. Казань.: Изд-во Казанского университета, 163 с.

3. Виноградов В.В. (2000), Избранные труды: О языке художественной прозы. М.: Наука, 303 с.
4. Гальперин И.Р. (2016), Очерки по стилистике английского языка: Опыт систематизации выразительных средств. М.: Либроком, 48 с.
5. Потебня А.А. (2007), Мысль и язык. М.: Лабиринт, 99 с.
6. Literature online. Mark Twein's Literature. http://www.twainquotes.com/Literature.html
7. Claridge, C. (2010). Hyperbole in English: a corpus-based study of exaggeration. Cambridge, UK: Cambridge University Press.
8. E.A.Poe. The Tell-Tale Heart. Prestwick House, Inc., 2006, 232 p.
9. E.Hemingway. A farewell to Arms. Arrow Books Ltd, 1994, 304 p.
10. O.Henry. Short Story Collection. Merchant Books, USA:2009, 192 p.
11. Toni Morrison. Song of Solomon. New York: Vintage, 2004, 352 p.

THE RELATIONSHIP OF HYPERBOLA TO OTHER ELEMENTS OF FIGURATIVE LANGUAGE

Summary

Metaphors are tools of artistic description that we use both in fiction and in our speech in everyday life. Language that uses metaphors a lot is called figurative language. Metaphors serve to make the language clear, beautiful and expressive. A metaphor is a phenomenon closely related to the semantics of a word. The phenomenon of metaphor arises on the basis of the principle of ambiguity and appears as its result. Having that quality makes it possible to use the word as an expressive and descriptive tool. This happens, first of all, as a result of metaphorization of words, moving away from their nominative meanings within the text and gaining new meanings within the context. The emergence of a metaphor is related to the need for the expression to be figurative. Metaphorism manifests itself as a factor that ensures not only linguistic units, but also conversational culture, it appears as a result of human consciousness, mind and human relations. He especially noted the connection of the process of metaphorization with the human factor in language. Even a metaphorical expression that appears in the speech of any person is later processed by other speakers of the language, facilitating the expression of the idea, and many of them become lexical units.

Key words: hyperbole, exaggeration, figurative language, style, emotional impact

ОТНОШЕНИЕ ГИПЕРБОЛЫ К ДРУГИМ ЭЛЕМЕНТАМ ИЗОБРАЗИТЕЛЬНОГО ЯЗЫКА

Резюме

Метафоры – это средства художественного описания, которые мы используем как в художественной литературе, так и в нашей речи в повседневной жизни. Язык, в котором много используются метафоры, называется образным языком. Метафоры служат для того, чтобы сделать язык ясным, красивым и выразительным. Метафора – явление, тесно связанное с семантикой слова. Феномен метафоры возникает на основе принципа многозначности и выступает как его результат. Наличие этого качества позволяет использовать слово как выразительное и описательное средство. Происходит это, прежде всего, в результате метафоризации слов, отхода от своих номинативных значений внутри текста и обретения новых значений в контексте. Возникновение метафоры связано с необходимостью образности выражения. Метафоризм проявляется как фактор, обеспечивающий не только языковые единицы, но и разговорную культуру, он возникает в результате человеческого сознания, разума и человеческих отношений. Он особо отмечал связь процесса метафоризации с человеческим фактором в языке. Даже метафорическое выражение, появляющееся в речи какого-либо человека, впоследствии обрабатывается другими носителями языка, облегчая выражение мысли, и многие из них становятся лексическими единицами.

Ключевые слова: гипербола, преувеличение, образный язык, стиль, эмоциональное воздействие.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: prof. Azad Məmmədov
tərəfindən çapa tövsiyə olunmuşdur

baş müəllim ƏLİYEVA NUŞABƏ ƏJDƏR qızı,
müəllim TAĞIYEVA SACİDƏ HÜSEYN qızı
Azərbaycan Tibb Universiteti
Azərbaycan dili kafedrası

DİLİN VƏ BƏDİİLİYİN VƏHDƏTİ

Açar sözlər: dil, bədiilik, Azərbaycan, 60-cılar, ədəbiyyat
Keywords language: language, art, Azerbaijan, 60s, literature
Ключевые слова: язык, художественность, азербайджанский, 60-е годы, литература.

İsi Məlikzadə Azərbaycan altmışıncıları ədəbi nəslinə mənsubdur. Bədii yaradıcılığa nisbətən kiçik hekayələrlə başlamışdır. Ancaq yazıçı povest janrında daha çox uğurlara imza atmışdır. Əlbəttə, İsi Məlikzadə yaradıcılığı dövründə roman janrına da müraciət etmiş və geniş oxucu kütləsinin rəğbətini qazanmışdır.

Bu mənada bir faktı vurğulamaq yerinə düşər ki, povest janrı İsi Məlikzadənin nəsrində əbədilik statusu qazanmışdır. İsi Məlikzadənin yaradıcılığının ən parlaq və məhsuldar dövrü XX əsrin 70-80-ci illərinə təsadüf edir. Yazıçı bir-birinin ardınca «Küçələrə su səpmişəm», «Evin kişisi», «Dədə palıd», «Quyu», «Yaşıl gecə», «Günəşli payız» və digər əsərlərini yazmışdır. Sənətkar əsərlərinə ad seçməkdə xüsusi məharət və istedad nümayiş etdirmişdir. Əsərlərin adları yaxşı mənada qəribəlikləri ilə seçilir. Yazıçı ad seçimi zamanı Azərbaycan dilinin üstünlüklərindən, zənginliyindən lazımi qaydada bəhrələnmişdir. Mübaliğəsiz demək olar ki, hekayələrin, povestlərin, romanların adları əsərlərin ideya-məzmun xüsusiyyətləri ilə üzvi surətdə bağlıdır. Həm də əsərlərin adlarındakı «qəribəliklər» yazıçının tapdanmamış yolla, cığırla getməsi ilə də bağlıdır, əlaqədardır. Başqa sözlə desək, yazıçının öz dəsti-xətti, üslubu vardır. "İsi Məlikzadə bədii həyat materialı, hadisə, əhvalat seçməkdə psixoloji vəziyyətlər yaratmaqda, kiçik bir əşyanın təsvirində sözsüz səhnələrdə, danışıqsız hərəkətlərdə, hətta mimikalarda yüksək sənətkarlıq göstərdiyi üçün əsərlərin məfkurəvi istiqaməti tam aydın görünür" (1, s.7).

İsi Məlikzadənin «Dədə palıd» povesti üslub, məzmun və ən başlıcası dil xüsusiyyətlərinə görə yazıçının yaradıcılığında əhəmiyyətli yer tutur. Povestin «Dədə palıd» adlandırılması təsadüfi deyildir. Palıdın canlandırılması, canlı insanın xüsusiyyətlərinin ilk baxışdan cansız, dilsiz-ağızsız ağaca verilməsi nadir yazıçı istedadının bariz nümunəsidir. «Dədə palıd» povestində təsvir olunan təbiət mənzərələri sanki nəsrin dili ilə deyil, poeziyanın dili ilə yazılmışdır. «Kürün sağ yaxasında yaşıl zolaq kimi uzanıb gedən meşədə Bağır düz iyirmi il idi ki, gözətçi işləyirdi. Ən uca, ən qoca palıdın otuz-qırx addımlığında balaca bir koma qaralamışdı və Bağır bu komada olanda ən uca, ən qoca palıdın hənirini eşidirdi. Hərdən Bağıra

elə gəlirdi ki, bu meşədə qoca palıddan savayı ağac yoxdur və Bağır iyirmi ildir ki, yalnız bu ağacın keşiyini çəkir.

Bağır bu palıdı hər gün görürdü: səhərdən axşamacan onun yanından bəlkə yüz dəfə ötürdü. Onun kölgəsində süfrə açırdı, dincəlirdi. Bürkülü gecələrdə bəzən elə buradaca – palıdın çətiri altındakı taxta çarpayıda yatırdı. Bu palıd Bağırçün dünyanın özü qədər qədim idi, əbədi idi. Bağır bu palıdın bozumtul, çat-çat gövdəsinə kürəyini bəlkə min dəfə, milyon dəfə söykəmişdi, ancaq elə bil palıdın təpəsinə baxmamışdı, fikir verməmişdi. Yəqin ki, baxmışdı, amma Bağır bu gün, bu yay səhərində gördüyünü əvvəllər görməmişdi» (8,s.146).

Yazıçı kiçik bir mətndə nisbətən az işlənən sözlərə ikinci həyat bəxş etmişdir. Qaralama ən yüksək poetik mənada işlədilmişdir. Qaralama sözünün əvəzində tikilmək sözü işlədilə bilərdi. Ancaq İsi Məlikzadə qaralama sözünü bədii mətndə işlətməklə, ədəbiyyata gətirməklə onu həmişəlik olaraq unudulmaqdan xilas etmişdir. Əgər hər bir sənətkar əsərlərində bir neçə sözü xilas etmiş olsaydı, onda dilin lüğət tərkibi xeyli dərəcədə zənginləşmiş olardı. «Palıdın həniri» ifadəsi də yerli-yerində, dəqiqliklə işlədilmiş ifadələrdən biridir. Həm də yazıçının əsas məqsədi bir daha Dədə palıdın canlı olmasını vurğulamaqdır. «Palıdın çat-çat gövdəsi» ifadəsi hər hansı bir təhlükəli məqamın, hadisənin yaxında olacağından xəbər verirdi. Acı xəbəri çox gözləmək lazım gəlmədi. Bağırın nəzərləri qeyri-ixtiyari olaraq Dədə palıdın ən yüksək nöqtəsinə sataşdı. Bağır təəccübünü və heyrətini gizlədə bilmədi. Dədə palıd gözlənilmədən qurumağa başladı. «Bu nə vaxtdan başlayıb qurumağa? Bu nədi, Dədə palıd, yoxsa can verirsən? Yoxsa ölməyə hazırlaşırsan? Amandır, bərk dur, sən də əcələ macal verəndən sonra day bu dünyada güvənməli nə qalır» (8, s.146).

Bağır Dədə palıda canlı insana müraciət edən kimi etdi. Bağır bu bəd xəbəri Nurcabbara bildirməyə tələsdi. Nurcabbar Kürün qırağında dayanıb fikrə getmişdi. Bağır Nurcabbar barəsində danışmaqdan usanmırdı. «Bu kişini niyə belə xəlq eləmisən, fələk? Yaşı altmışı adlayıb, di gəl ki, ağlı uşaq ağlıdı. Nurcabbar o suda nə görür, o suya nə deyir? Nə var axı orada? Suyu da axır. Nurcabbar bu dünyaya gəlməmişdən də Kür belə axırdı. Nurcabbar bu dünyadan köçəndən sonra da beləcə axacaq. Adam suya nə qədər tamaşa eləyər?» (8, s.147).

İsi Məlikzadə bütün obrazları sənətinə, təhsilinə, yaşına, cəmiyyətdə tutduğu mövqeyə uyğun şəkildə danışdırır. Fikrimizcə, yazıçının təsvir etdiyi, yaratdığı obrazların koloritli olmasının əsas səbəblərindən biri məhz budur. İsi Məlikzadə sözləri zərgər dəqiqliyi ilə seçir. Yazıçının hekayə, povest və romanlarında artıq sözlərə, ifadələrə rast gəlmək çətindir. Dədə palıdın törəmələri – nəvə, nəticələri palıdın quruma xəbərini laqeydliklə qarşıladılar. Bağır sözün həqiqi mənasında çox təəccüblənirdi. «Bağır Dədə palıdı bu meşənin ulu əcdadı hesab eləyirdi, fikirləşirdi ki, bu meşənin bütün ağacları Dədə palıdın törəmələridi – balaları, nəvələri, nəticələri, kötücələridi. İndi bu törəmələr lal-dinməz dayanıb Dədə palıdın qurumağına arın-arxayın necə baxırlar? Niyə saçlarını yolmurlar, niyə haray-şəhir qopartmırlar? Bəs Nurcabbar niyə dayanıb Kürün qırağında? Dədə palıdın dərdindən

niyə xəbərsizdi? Bu palıda «Dədə» adını o qoyub axı?» (8, s.150). Onda Nurcabbarın sözləri də, hərəkəti də Bağıra qəribə gəlmişdi, gülməli gəlmişdi. Bağır elə bilmişdi ki, kişi havalanıb, ancaq havalı adam belə eləyə bilərdi, havalı adam belə sözlər deyə bilərdi: «ulular dan ulusan, dədə! Bəlkə də dünyayla yaşıdsan. Bu obadakı ağacların başı sənin əllərinin altındadı. Böyüksən, ağsaqqalsan, səxavətlisən! Həm zəhmli, həm mehribansan! Mən, Nurcabbar bu gündən sənin adını «Dədə» qoyuram. Yaşa, Dədə palıd, yaşa! Kölgəni üstümüzdən əskik eləmə! Görəsən, Nurcabbar bilirmi ki, yarım ildən, bir ildən sonra Dədə palıdın kölgəsi olmayacaq» (8, s.150).

İsi Məlikzadə təsvir ustasıdır. Yazıçının təsvirləri təbiidir, koloritlidir, sünilikdən uzaqdır. Ən başlıcası isə həmişə hadisələrin ardıcıllığı gözlənilir. Artıq ifadələrə, sözlərə rast gəlinmir. Bağır bir neçə dəqiqədən sonra axtardığı sualların cavabını tapdı. «Palıdın təpəsindəki sapsarı yarpaqlara baxa-baxa Bağır özünü inandırmağa çalışdı ki, nahaq yerə qorxuya düşüb, Dədə palıd ölməyəcək. Bir budaq qurumaqla ağac da ölərmi? Bir budağı, beş budağı, lap yarısı olmasa da yaşayar Dədə palıd. Dədə palıdın canı onun gövdəsindədi, kökündədi… Bağır gözlərini Dədə palıdın cadar-cadar gövdəsinə zilləyib rahat nəfəs aldı. Yaşa, Dədə palıd, yaşa! Kölgəni üstümüzdən əskik eləmə» (8, s.151).

İsi Məlikzadə əsərlərində dialoqdan geniş istifadə etmişdir. Bağırla Dədə palıdın dialoqunda bir çox mətləblərə aydınlıq gətirilir. Yuxarıdakı dialoqda yazıçının nəzər-diqqətindən heç nə yayınmamışdır. Keçmiş, bugün və gələcək əlvan, rəngli boyalarla təsvir edilmişdir. Bağırla Dədə palıd arasında mehriban, isti münasibətlərin olduğu hiss olunur. Onlar bir-birlərinə qarşı sədaqətlidirlər, etibarlıdırlar. Eyni zamanda Bağır Dədə palıdın özünün «xəbəri olmadan» onun qayğısına qalır, dərdinə şərik olur. Əlbəttə, bütün yuxarıda göstərilənlər yazıçının yerli-yerində, bəzən qənaətlə, «xəsisliklə», bəzən də səxavət göstərərək geniniə-boluna işlətdiyi sözlərin, ifadələrin sayəsində mümkün olur. Yazıçının əsas silahı, təsir göstərmə vasitəsi dilin imkanlarından çox asılıdır. Bədii əsərlərdə lazımi sözləri tapmaq, düzgün işlətmək sözün həqiqi mənasında yazıçıdan, şairdən böyük məsuliyyət, istedad tələb edir. İsi Məlikzadə Bağırla Dədə palıdın dialoqunda bir neçə dəfə «kölgəni üstümüzdən əskik eləmə» sözlərini işlədir. «Kölgəni üstümüzdən əskik eləmə» ifadəsi xeyli sayda məna çalarlarına malikdir. Dədə palıd ömrü boyu kölgəsini, qayğısını öz soydaşlarından, insanlardan əsirgəməmiş, onların rahatlığını təmin etmiş, qayğısına qalmışdır. Bağır Dədə palıdın təmənnasız, minnətsiz qayğısını öz həyatında dəfələrlə hiss etmişdi, görmüşdü. Dədə palıdın qayğısı qışda, yayın qızmar, dözülməz istisində qanadlarını kiçik, körpə ağacların, insanların üzərinə sərməklə, gərməklə bitmirdi. Bağırın söylədiyi ifadəni daha geniş mənada götürmək lazımdır. El arasında hamıya kömək edən, dar günündə onların yanında olan, sinəsini qabağa verən, təhlükələrdən, bəlalardan xilas edən insanları xüsusi minnətdarlıq hissi ilə xatırlayırlar. Həmişə də onlara müraciət edəndə «allah kölgəni qalın eləsin, kölgəni üstümüzdən əskik eləməsin» deyirlər. Bu fədakar insanlara verilən ən yüksək qiymətdir. İsi Məlikzadə beş-altı cümlədə verilən kiçik dialoqda böyük mətləblər

ifadə etməyi bacarmışdır. Bağırın Dədə palıdla olan dialoqu iki canlı, bir-birini dərindən sözsüz başa düşən insanların dərdləşməyinə bənzəyir. Dialoqdakı digər "cadar-cadar" olmuş ifadəsi də insanlara müraciətdə işlədilir. Yazıçı Dədə palıdın «cadar-cadar olmuş gövdəsi" ifadəsini işlətməklə onun su həsrəti, yanğısı çəkdiyini vurğulayır. Eyni zamanda vaxtında həyəcan təbili çalır, «mürüvvətsiz insanları» qəflət yuxusundan oyatmağa çalışır. Dədə palıdın qəfləti ölümünə işarə edir… Beləliklə, İsi Məlikzadə bədii nəsrdə nisbətən az işlənən ifadələri, sözləri tapmaqla, onlardan səmərəli şəkildə istifadə etməklə əsərlərin təsir gücünü, məna tutumunu artırmış olur. Yeri gəldikcə, məqalədə bu qəbildən olan sözlərdən nümunələr gətirməyə çalışacayıq…

İsi Məlikzadə əslən Azərbaycanın dilbər guşələrindən biri olan Qarabağdandır. Uşaqlıq, gənclik illəri doğma Ağcabədidə keçmişdir. Bu səbəbdən yazıçının nəsrinə doğma torpağın ruhu, ətri hopmuşdur. İsi Məlikzadə Qarabağ bölgəsində işlənən və çoxlarına məlum olmayan sözləri ədəbiyyata gətirmişdir. Həmin sözlərin demək olar ki, hamısı dildə özünə əbədi olaraq məskən salmış, ümumişlək sözlərə çevrilmiş, vətəndaşlıq hüququ qazanmışlar. Məsələn, dirrik sözü. Yazıçı dirrik sözünün əvəzinə bağ, bostan ifadəsini cümlədə işlədə bilərdi. Bostan sözünün cümlədə işlədilməsini heç kim yazıçıya irad tuta bilməzdi. Bu, həm də yazıçının asan yolu seçdiyinə dəlalət edərdi. İsi Məlikzadə qüdrətli sənətkardır. Milli düşüncə tərzi, koloriti olan yazıçıdır. Eyni zamanda yazıçının dili aydındır, sadədir. Demək olar ki, İsi Məlikzadənin hekayələrində, povestlərində, romanlarında, publisistik yazılarında, müəllifi olduğu ssenarilərdə qəliz, mürəkkəb ifadələr yoxdur. Böyük rus yazıçısı Anton Pavloviç Çexovun sözləri ilə desək, «yığcamlıq istedadın bacısıdır» sözləri İsi Məlikzadə üçün deyilmişdir. Təsadüfi deyildir ki, yazıçının müasiri olduğu tənqidçilər, sənət adamları İsi Məlikzadənin Azərbaycan dilini zənginləşdirdiyini dəfələrlə vurğulamışlar.

Ancaq bir məsələni vurğulamaq yerinə düşərdi. İsi Məlikzadə yazıçı kimi böyük uğurlara ana dilinə yaradıcı münasibətin nəticəsində nail ola bilmişdir. Müasir dövrümüzdə yeni yaranan əsərlərə nəzər yetirdikdə yuxarıdakı mülahizələrin düzgünlüyünə bir daha əmin olursan. İsi Məlikzadənin nəsri ictimai, psixoloji, mənəvi, əxlaqi, etik-estetik keyfiyyətlər sintezindən, «qarışığından» yaranmış məzmunlu bir nəsrdir. Burada açıq, tendensiyalı siyasiliyə, siyasi ifadə, boya və çalarlara, demək olar, yer yoxdur. Əgər nəsə bir «siyasilik» hiss edilərsə, bu, ancaq ümumi məzmundan çıxarılacaq bir qənaət təsiri bağışlaya bilər. Yoxsa, yazıçı aşkar şəkildə bu meylə uymur, açıq tərzdə belə bir yola və təqdimə getmir. Bu yazıçının yaradıcılığının diqqət çəkən fərqləndirici əlamətlərindən biridir. Həyat cazibəli, möcüzəlidir, mürəkkəb, yaxın-uzaq, oxşar-fərqli, əlaqəli-əlaqəsiz vəziyyətlər, müxtəlif hadisə və əhvalatlarla doludur. Həssas duyumla seçim aparmaq, lazım bilinəni və gərəkli sayılanı götürüb işləmək, müəyyən məqsədə tabe tutmaq, bədii idrak, canlı təfəkkür və təxəyyül süzgəcindən keçirib mənalandırmaq, çətin yaradıcılıq prosesidir, sənətkarlıqla, yazıçı hünər və qabiliyyəti ilə bilavasitə bağlı

məsələdir. Ədəbiyyatın mənəvi-əxlaqi təsir gücünü, ictimai-tərbiyəvi mahiyyət və funksiyasını dərindən dərk etdikcə ədib yaradıcılıq palitrasında işlədəcyi rənglərin müxtəlifliyinə, boya və cizgilərin əlvanlığına nailolma cəhdlərini artırırdı. Yazıçı sadə süjetdə mənəvi gerçəkliyin ayrılmaz bir parçası, həyatın müəyyən bir həqiqəti, bu və ya digər bir hissəsi kimi ibrətli lövhə – mənzərə səviyyəsində təqdim edirdi. Sənətin əsas qayəsi, aparıcı mövzusu, baş problemi olan insan, təbii ki, yazıçını hərəkətə gətirən və irəliyə istiqamətləndirən ən başlıca amildi. İsi Məlikzadə insanı fəaliyyət sahələri, sevgi məqamları, ailə-məişət qayğıları, həyat çətinlikləri, gələcəyə ümidləri, özünəməxsus təşəbbüsləri, arzu və düşüncələri ilə ədəbiyyata gətirmişdi. Eyni zamanda İsi Məlikzadə yüksək dil mədəniyyətinə malik həssas, incə zövqlü və zərif duyğulu sənətkar olmuşdur. Yazıçı əsərlərində imkan daxilində lakonikliyə meyl edir, artıq yükə, yersiz ifadəyə, gərəksiz, əlaqəsiz və məntiqsiz cümlələrə yol vermir, mürəkkəblik və dolaşıqlıqdan qaçmışdır. Çalışmışdır ki, fikir, mətləb, təsvir, təqdim reallıq dərəcəsini itirməsin, sadə şəkildə, lakin mənalı və təsirli tərzdə ifadə olunsun, tez qavranılsın, asan başa düşülsün, eyni zamanda düşündürüb, daşındırsın. Sadəlik, təbiilik, xəlqilik və millilik kimi keyfiyyətlər İsi Məlikzadənin yaradıcılığında da diqqətəlayiq məqamdadır və bu, çox böyük uğur və nailiyyətdir.

РЕЗЮМЕ
ЕДИНСТВА ЯЗЫКА И ХУДОЖЕСТВЕННОСТИ

Творчество Иси Меликзаде занимает видное место в азербайджанской литературе XX века. Он принадлежит к славной плеяде писателей – «шестидесятников». С уверенностью можно сказать, что писатель вместе с другими стоит у истоков новой литературы. Продолжая и развивая лучшие реалистические традиции М.Ф.Ахундова, Сабира, А.Ахвердиева, Д.Мамедгулузаде и др. Иси Меликзаде пришёл в литературу в конце 50-х годов. На первом этапе творчества писал в основном маленькие рассказы. Но излюбленным жанром писателя была повесть. На этом поприще он добился огромных успехов. Написанные в 70 – 80-е годы повести «Колодец», «Дедушка дуб», «Зелёная ночь», «Солнечная осень» и другие произведения до сих пор пользуются огромной популярностью. Не случайно писателя называют «чародеем языка и идей». Преимущество и богатство азербайджанского языка полностью использованы писателем в прозе. В статье анализируются вышеназванные проблемы.

XÜLASƏ
DİLİN VƏ BƏDİİLİİYİN VƏHDƏTİ

İsi Məlikzadənin yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatında əhəmiyyətli yer tutur. Yazıçı şanlı altmışıncılar ədəbi nəslinə mənsubdur. Əminliklə demək olar ki, yazıçı digər sənətkarlarla birlikdə yeni ədəbiyyatın yaradıcılarından olmuşdur.

M.F.Axundovun, Sabirin, Ə. Haqverdiyevin, C. Məmmədquluzadənin ən yaxşı realist ənənələrini davam və inkişaf etdirmişdir. İsi Məlikzadə ədəbiyyata XX əsrin 50-ci illərin sonu – 60-cı illərin əvvəllərində gəlmişdir. Yaradıcılığının ilk dövrlərində kiçik hekayələr yazmışdır. Ancaq yazıçı povest janrında daha çox uğurlar qazanmışdır. XX əsrin 70-80-ci illərində yazılmış Quyu, Dədə palıd, Yaşıl gecə, tərəfindən rəğbətlə qarşılanır. Təsadüfi deyildir ki, tənqidçilər İsi Məlikzadəni dilin, ideyaların vəhdətini, sehrini yaradan yazıçı adlandırırdılar. Doğurdan da Azərbaycan dilinin üstünlükləri və zənginliyi yazıçının nəsrində tam və dolğun şəkildə öz əksini tapmışdır. Məqalədə yuxarıda göstərilən problemlərin araşdırılması, təhlili nəzərdə tutulmuşdur.

SUMMARY
UNITY OF LANGUAGE AND ARTISTRY

Isi Malikzade's work is in an important place in the 20th century Azerbaijani literature. The writer belongs to the literary generation of the glorious sixties. It can be said with certainty that the writer was one of the creators of new literature together with other artists.

He continued and developed the best realist traditions ofM.F.Akhundov, Sabir, A. Hagverdiyev and C. Mammadguluzade. Isi Malikzade came to literature in the late 1950s and early 1960s. In the early periods of his creativity, he wrote short stories. However, the writer has achieved more success in the narrative genre. Written in the 70s and 80s of the 20th century, “Quyu”,“Dede Palid”, Green night were famous. It is no coincidence that critics called Isi Malikzade a writer who created the unity and magic of language and ideas. The merits and richness of the Azerbaijani language have been fully reflected in the writer's prose. The article examines and analyzes the above-mentioned problems.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Abbasova S. İsi Məlikzadə nəsrində sənətkarlığın bəzi məsələləri. “Dil və ədəbiyyat” jurnalı, Bakı, 2000, № 2 (27), s.7
2. Abbasova S. İsi Məlikzadənin yaradıcılığı. Bakı: “Nurlan” nəşriyyatı, 2001, s. 164.
3. Çağdaş Azərbaycan povesti. Bakı: “Yazıçı”, 1993, 464 səh.

4. Əbilov İ. Gerçəkliyin bədii təcəssümü. “Azərbaycan” jurnalı, 1984, № 8, s.182.
5. Əlişanoğlu T. Azərbaycan “yeni nəsri”. Bakı: “Elm”, 1999, 160 səh.
6. İsmayılov Y. İsi Məlikzadə- söz sərrafı, nəsr ustası. Bakı: “Elm”, 2007, 204 səh.
7. Quliyev V. Mövzu rəngarəngliyi. “Ədəbiyyat və incəsənət” qəzeti, 1988, 9 dekabr, səh.4
8. Məlikzadə İ. Seçilmiş əsərləri. Bakı: “Şərq-Qərb”, 2005, 336 səh.
9. Yusifli V.Sənətkar mövqeyi və ədəbi qəhrəman. “Azərbaycan” jurnalı, 1981, № 1, s.165

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: fil.ü.f.d. Kadiyeva S.Ə.
tərəfindən çapa tövsiyə olunmuşdur

FATİMƏ İBRAHİMOVA
ADU
Rəşid Behbudov

fatimaibrahimova1@gmail.com

İNGİLİS DİLİNDƏ FRAZAL SƏVİYYƏLİ QABARIQLIQ KİMİ VURĞU EFFEKTLƏRİ

XÜLASƏ

Vurğu nitqi daha qısa frazalar ardıcıllığına bölən prosodik nümunələr qurmaq və onları daha böyük fraza qruplarına təşkil edən bu nümunələr arasında əlaqələri müəyyən etmək üçün istifadə olunan sintaqmatik təzadlar sistemi deməkdir. Vurğu fonoloji cəhətdən ayrılan bir növ ifadə deməkdir. Ədəbiyyatda vurğudan fraza səviyyəsində qabarıqlıq kimi istifadə edirik. Dili təsvir etmək üçün bəlkə də dilin linqvistik dəyişikliklərin müxtəlif aspektləri ilə bağlı etdiyi seçimləri sadalamaq kifayətdir ki, biz artıq hansı növ linqvistik dəyişikliklərin olduğunu bilirik, məsələn, leksika, söz sırası, samit və saitləri, heca strukturları, vurğu nümunələri və s. Ümumi məlum olan vurğu effektləri vaxt(müddət), amplituda (ucalıq) və F_0 (güc) dəyişkənliyidir. Vurğulu saitlərin müddəti daha uzun, amplitudası və səsi yüksək olur. Aksent effektlərinin bu ümumi təsvirindən başqa, bir çox tədqiqatlar göstərdi ki, müxtəlif dillər linqivistik olaraq vurğunun müxtəlif fonetik korrelyasiyalarını kodlayır. Səs tonunun (frazal) vurğunun əsas korrelyasiyası olduğu iddia edilmişdir. Bir sıra instrumental tədqiqatlar prosodiyanın çoxsaylı və bəzən ziddiyyətli fonetik korrelyasiyasını aşkar etmişdir. Bu uyğun olmayan nəticələrin altında yatan səbəblərdən biri odur ki, "vurğu" anlayışı leksik vurğu kimi müəyyən edilən hecada daşınan hər hansı bir qabarıqlığı təmsil etmək üçün istifadə edilmişdir. Həqiqətən, linqvistik dəyişikliklər fonologiyadan kənara çıxır və sintaksis, semantika və leksika kimi digər sahələrə də yayılır. Cari tədqiqatın məqsədi üçün vurğu söz səviyyəsində təzadlı funksiyaya malik linqvistik xüsusiyyət kimi müəyyən edilmişdir. Nüvə səs tonunun vurğusunun da cümlədə ən qabarıq olduğunu və səs diapazonunun genişlənməsinin deklarativ ifadə melodiyasında ingilis dilində ən böyük olduğunu nəzərə ala bilərik. Vurğunun görünən korrelyasiyası kimi səs tonunun qabarıqlığı yalnız aksent effektlərinə aid edilə bilməz. Bunun əvəzinə, səs tonunun qabarıqlığı ya kombinasiya effekti, ya da sadəcə vurğu effekti ola bilər.

Açar sözlər: vurğu, keyfiyyət, sait, samit, prosodik.

Bir az və ya çox oxşar məqsədlər üçün istifadə edilə bilən alternativ formalara istinad etmək üçün fonoloji dəyişiklikdən istifadə edirik. Məsələn, ingilis dilində CVCVCV-dən düzəlmiş bir söz "Kanada"da olduğu kimi birinci hecada və ya "banan"da olduğu kimi ikinci hecada vurğu ola bilər. Heç bir səbəb yoxdur ki, bu nümunədə vurğu əksinə olsun,yəni "Kanada"da vurğu ikinci hecada, "banan"da

vurğu birinci hecada olsun. Belə sözlərdə bütün vurğu birinci hecada və ya ikinci hecada ola bilməz. Sadəcə olaraq ingilis dilində bu iki formadan istifadə edilir. Eynilə ingilis sözü "Ann", "VC", "oturmaq", "CVC", "CCCVC" və ya "bölmək" kimi ola bilər. Bir sözün bu və ya digər formadan istifadə etməsi üçün heç bir səbəb yoxdur və ingilis dili bütün bu formaları istifadə edir.

Aydındır ki, bir dili (və ya bir ləhcəni) digərindən fərqləndirən, müxtəlif dilçilik dəyişiklikləri ilə bağlı bir dilin səhv etdiyi seçimlər toplusudur. Buna görə də, təsviri dilçilərin ilk növbədə maraqlandığı linqvistika dəyişiklikləridir. Nəzəri dilçilər üçün əlavə suallar verilə bilər. Məsələn, heca quruluşu kimi dəyişikliklərin verilmiş aspekti üçün mümkün formaların sayı məhduddurmu? Əgər belədirsə, neçə forma və hansı formalar var? Konkret olaraq, hər heca sait tələb edirmi? Bəzi dillərdə hər heca sait tələb edirsə, hecada saitdən əvvəl neçə samit ola bilər?

Dil daxilindəki dəyişikliklərlə yanaşı, müxtəlif dillərdə də dəyişikliklər var. Məsələn, standart Çin dili nüvə saitindən sonra yalnız [n] və [ŋ] samitlərinə icazə verir, İngilis dili isə daha çox samitlərə icazə verir. Üstəlik, standart Çin dilində beş əsas saitdən istifadə olunur (diftonqlar daxil deyil), ingiliscə isə təxminən on səsdən istifadə edilir. (1,95)

İngilis saitlərinin müddətləri vurğudan təsirlənir və dinləyicilər vurğunun qavranılmasında əsas işarə kimi daha çox müddətə diqqət yetirirlər. Hər bir parametrin müstəqil töhfələri ədəbiyyatda dəyişkən şəkildə bildirilmişdir. Hündürlük ən etibarrlı vurğu korrelyasiyasıdır, ondan sonra intensivlik, sonra isə müddətdir. Digər tərəfdən, gərginliyin ən vacib korrelyasiyası olan meydançanın əvvəlki nəticəsini yenidən nəzərdən keçirərək intensivlikdən daha yüksək bir müddət işarə qoyur. O, qavrayışa səs-küy təsirlərini "hamısı və ya heç biri" kimi təsvir edir, yəni aksentin müəyyənləşdirilməsi fundamental tezlik dəyişkənliyinin miqyası ilə deyil əsas tezlik dəyişkənliyinin mövcudluğu ilə dəyişilir. Əsas tezlik dəyişkənliyi dinləyicilərin qavrayışına təsir etdikdə, o, həm müddət həm də intensivlik baxımından təsirləri üstələyir. Vurğu üçün ən etibarlı işarə kimi müddətə də rast gəlinir.

Aksent effektləri kimi müəyyən edilən şey çox vaxt aksentin səs-küy vurğusu, intonasiya və ya diqqəti kimi digər səviyyəli prosodiya ilə kombinativ nəticəsidir. İngilis dilində cümlənin sonunda yerləşən isim nüvə səs vurğusunun potensial eniş yeri olduğundan, təcrübədəki hədəf sözlər fellərdən daha çox isimlər üçün nüvə səsi vurğusu ilə qarışdıra bilərdi. Nəticələr F_0 işarəsinin digər tədqiqatların nəticələrindən fərqli olaraq ən təsirli olduğunu göstərdi. Yəni vurğulanmış hecaların çoxu nüvə səsi vurğu mövqeyində istehsal olunur və vurğusuz hecalar cümlənin medial mövqeyində yerləşən fellərdən gəlir, bu da çox vaxt nüvə qabağı vurğu ilə əlaqələndirilir. Beləliklə, aksent korrelyasiyaları haqqında nəticələri qiymətləndirmək üçün prosodik təsirlərin daha yaxından araşdırılması lazımdır. (2,123)

Holland və ingilis dillərində sözdə mövqeyə nəzarət edərək vurğunun uzanmasını araşdırıldı və əvvəllər bildirilənlərdən fərqli olaraq nəticələrin həqiqətən oxşar

olduğunu gördülər. Seqmentlərin fonetik həyata keçirilməsində prosodik təsirlərin üst-üstə düşə biləcəyini və onların müxtəlif təzahürlərə malik ola biləcəyini nəzərə alsaq, sual yaranır ki, müxtəlif prosodik faktorlar müəyyən edilə bilər. Bu sual ingilis dili üçün açıq şəkildə verilmişdir.

Konkret olaraq, ilkin sərhəd əsasən samitlərə təsir edir, aksent effektləri isə əsasən saitlərə təsir edir. Domen-ilkin gücləndirilməsi də saitlərə müəyyən dərəcədə təsir edir (məsələn, intensivliyin artması), onlar belə nəticəyə gəliblər ki, domen-ilkin gücləndirmə ilkin seqment üçün ciddi şəkildə lokal deyil, əksinə, qradiyent effekti ola bilər. Onlar həmçinin domen-ilkin effektin görkəmli effektlərlə (vurğu) qarşılıqlı əlaqədə olub-olmadığını araşdırdılar və aşkar etdilər ki, ilkin seqmentdə (vurğusuz-ilkin seqment) heç bir qabarıqlıq iştirak etmədikdə, ilkin seqmentlər ən yüksək intensivliyə malikdir.

Digər görkəmli təsirlər eyni vaxtda mövcud olduqda təsir ən az idi. Onların nəticələrinin təfsiri ondan ibarət idi ki, qabarıqlıq effektləri (vurğu) mümkün tavan effektinə görə sahənin ilkin təsirini məhdudlaşdıra bilər. Bu o deməkdir ki, sərhəd effektləri aksent təsirlərindən asılı ola bilər. (7,96)

Beləliklə, aksent təsirlərini digər prosodik təsirlərdən asılı olmayaraq araşdırmaq vacibdir, çünki müxtəlif səviyyələrdə olan təsirlər zamanla qarışdırıla bilər; məsələn, ingilis dilində söz prosodik məlumatı, həmçinin vurğu və yaxud sözün başlanğıc effektlərini daşıyır. Prosodik təsirlərin ayrılması bu təsirlərin mürəkkəb təbiətini anlamağa kömək edəcəkdir.

İki növ qabarıqlıq intonasiya və yaxud semantik/praqmatik strukturunda kodlaşdırılır. Vurğu leksikonunda vurğu nümunəsinin hündürlüyünün müəyyən edilə bilməyəcəyi, əksinə intonasiya sistemi tərəfindən təmin edilən formaların inventarından müəyyən bir ifadə üçün seçilir". Vurğu, rolu vurğudan fərqlənə bilən başqa bir dil varlığıdır, baxmayaraq ki, ikisinin həyata keçirilməsi çox vaxt müstəqil deyildir; yəni vurğuların əksəriyyəti vurğulu hecalarla əlaqələndirilir. (6,203)

Məsələn, İspan dilində vurğu və vurğunun fonetik korrelyasiyasını tədqiq edilmiş və vurğulanmış və vurğulanmamış hecaların vurğusuz olduqda düz intonasiya konturunu nümayiş etdirdiyini müəyyən etmişdir (fokusdan sonrakı mövqe). Bunun mənası ifadə səviyyəsi kimi vurğudur. Qabarıqlıq leksik vurğu kimi aşağı səviyyəli önəmin təsirlərini üstələyə bilər. (4,89)

Bundan əlavə, vurğu şəraitindən asılı olmayaraq aksent effektləri mövcud ola bilər. Effektlər fonetik ölçüdə fərqlənir: məsələn, ümumi intensivlik vurğudan daha çox vurğunun korrelyasiyasıdır. Bizi maraqlandıran üçüncü prosodik amil sözdə mövqedir, buna söz səviyyəsində sərhəd effekti kimi baxmaq olar. İlk iki amili metrik olaraq strukturlaşdırılmış qabarıqlıq kimi təyin etmək olarsa, söz effektlərindəki mövqe ümumiyyətlə sərhədə bitişik kimi baxılır. (3,64)

İlkin seqment/heca həm fonetik, həm fonoloji, həm də psixolinqvistik cəhətdən prosodik cəhətdən güclü mövqe hesab olunur. Fonetik olaraq ilkin seqmentlər zaman və/yaxud məkan güclənməsinə məruz qalır. Fonoloji olaraq müəyyən fonoloji

qaydalar ya tətbiq edilir, ya da bloklanır; məsələn, ilkin vəziyyətdə, mövqe neytrallaşdırma nadirdir və eyni zamanda bu mövqedə yer assimilyasiyası qeyri-adidir. İlkin mövqenin fonetik/fonoloji gücü sözün tanınması və qavranılması ədəbiyyatında araşdırılan söz tanınmasında başlanğıc mövqenin funksional roluna uyğundur. Bununla belə, ilkin mövqenin bu açıq-aydın imtiyazı bizim təbii qəbul edə biləcəyimiz bir fenomen deyil. (5,77)

Ətraflı araşdırmalar üzə çıxarmışdır ki, digər dil amillərindən asılı olaraq seqmentlərin fonetik reallaşmasında çoxlu variasiya mövcuddur; məsələn, təsir sahəsi (C, V və ya heca), sözdəki hecaların sayı (birhecalı sözə daha çox təsir), qabarıqlıq (vurğu effektləri) və çoxsaylı təsir mənbələri (müddət və/və ya məkan gücləndirilməsi). Ədəbiyyatda bəzi tədqiqatlar bu ritmik dixotomiyanı (heca vaxtı və vurğu vaxtı) fonoloji olaraq müəyyən etmək və ya onu ölçmək üçün yollar təqdim etməyə çalışıb. Məsələn, iki əks izoxroniya növünü təmsil edə bilən dillərin tipoloji davranışları əsasında bir sıra fonoloji meyarlar təklif edilmişdir.

Bunlara vurğusuz hecaların sait keyfiyyəti (sait azaldılması və tam artikulyasiya) daxildir; vurğusuz hecalarda samit keyfiyyəti (daha çox dəyişkənliyə qarşı oxşar artikulyasiya); ana dili danışanların hecaların sayılmasında heca hüdudları (nisbi müəyyənlik və qeyri-müəyyənlik) haqqında bilikləri; əsasən vurğulanmamış hecaların sıxılması ilə mütənasib sıxılma ilə əldə edilən temporal sürətlənmə (məsələn, danışma sürəti). Bu xüsusiyyətlər, məsələn, İngilis/Alman və İtalyan/İspan dilləri arasındakı xarakterik fərqləri təsvir edir. (8,67)

Bununla belə, eksperimental tədqiqatlar dilləri iki kateqoriyaya qruplaşdırmaqda belə meyarları təsdiq edə bilmədi. Məsələn, heca uzunluğu vurğu zamanlı dillərdə çox müxtəlifdir və heca vaxtlı dillərdə bərabərdir. Ümumi nəticələr göstərir ki, heca uzunluqlarının standart sapması ilə ölçülən heca dəyişkənliyi vurğu vaxtı ilə seçilən dillərdə heca zamanlı dillərə nisbətən daha çox olur, lakin nəticələr araşdırılan bütün dilləri kateqoriyalara ayıra bilməyib. Bundan əlavə, dillər arasında ya üst-üstə düşən, ya da ziddiyyətli nəticələr ortaya çıxır.

Empirik tədqiqatlar izoxroniyanı kateqoriyalı bölmə kimi dəstəkləyə bilməsə də, bu, bir sıra linqvistik davranışlarda olduğu kimi, dillər arasında izoxron ritmik xüsusiyyətlərin mövcudluğunu təkzib etmir. Məsələn, körpələr ritmin iki növünü ayırd edə bilirlər böyüklər isə nitqin işlənməsində hecalarda olan qanunauyğunluqlardan istifadə edirlər. Bundan əlavə, ikinci dil öyrənənlər doğma dildən ikinci dil istehsalına keçid zamanı öz doğma ritm biliklərini nümayiş etdirirlər. Məlumdur ki, iki izoxroniya kateqoriyası bir-birini istisna etməyə də bilər və onlar təbiətdə olduqca qradientdirlər. (9,18)

Prosodik iyerarxiya daxilində daha yüksək səviyyəli prosodiyanın (məsələn, ifadə və intonasiya ifadəsi) aşağı səviyyəli prosodik komponentlərdən proqnozlaşdırıldığı güman edilir. Bundan əlavə, cümlənin metrik şəbəkə düzülüşü vurğulanmış hecaların izoxroniyası və daha ümumi olaraq hecaların nisbi uzunluqları kimi şeylərin ifadə oluna biləcəyi bir təmsildir. Bu, müxtəlif səviyyələrdə qabarıqlığın aşağı

səviyyələrdəki iyerarxik əlaqələrdən (və ya qarşılıqlı təsirlərdən) nəticələnə biləcəyini ifadə edə bilər. Bu prosodik əlaqə aşağıdakı fonetik/fonoloji hadisələrlə də dəstəklənir, bunların hamısı dilə xas ola bilər.

Birincisi, leksik cəhətdən qabarıq olan iki hecanın (ilkin vurğuların) fonetik reallaşması heca ilə əlaqəli fraza vurğuların (məsələn, nüvə və qeyri-nüvə səsi vurğu) nisbi gücündən asılı olaraq fərqlənə bilər. İkincisi, söz səviyyəsində ilkin vurğu altında qabarıqlıq dərəcəsi ikinci dərəcəli vurğudan fərqlənir və beləliklə, vurğunun nisbi gücünə görə seqmental reallaşmalara təsir göstərir. Məsələn, müddət və intensivlik ilkin və ikincil vurğunun həyata keçirilməsindən fərqlənir və qradientin uzanması (və ya gücləndirilməsi) Fin dilində ilkin və ikincil vurğu arasında fərqlənir. Bu yenə o deməkdir ki, hecanın vahid kimi təzahürü hecaya verilən vurğunun nisbi gücü ilə məhdudlaşır. Nəhayət, nitq tempi də daxil olmaqla ritm xüsusiyyətləri seqmental reallaşmaları dəyişdirir. Məsələn, dillər hecadakı seqmentlərin sayından (məsələn, qapalı hecanın qısaldılması) və ya sözdəki hecaların sayından (məsələn, sözü sıxma effektləri) asılı olaraq müvəqqəti düzəlişləri göstərir.

Əvvəldə qeyd olunduğu kimi, burada da jestlərin aşağı düşməsi fərziyyəsi proqnozlaşdırılır ki, prosodiya ilə müvəqqəti tənzimləmə öz növbəsində dəyişən seqmental reallaşmalara səbəb ola bilər (məsələn, samit səsi və ya azaldılmış sait). Yəni, aşağı səviyyəli tərkiblər yuxarı səviyyədəki prosodiya ilə məhdudlaşdırıla və ya şərtləndirilə bilər: yuxarı səviyyənin heca, söz və ya fraza vahidi olmasından asılı olmayaraq, aşağı səviyyə tərkibləri təsirlənəcək. Eynilə, müəyyən bir dildə daha yüksək səviyyəli prosodiyanın izoxron xüsusiyyətlərinin də seqmental variasiyanın məhdudlaşdırılmasında rol oynaması mümkün olmalıdır.

ƏDƏBİYYAT

1. Lehiste I. Suprasegmentals. C., 1970.
2. Gussenhoven C., Jacobs H. Understanding Phonology. L., 2011.
3. Kenworthy J. Teaching English Pronunciation. N.Y., 1987.
4. Collins B., Mess I. Practical Phonetics and Phonology. L., 2013.
5. Reed M., John L. The Handbook of English Pronunciation. S., 2015.
6. Roach P. English Phonetics and Phonology. C., 2000.
7. Gordon M. Syllable Weight: Phonetics, Phonology, Typology. R., 2007.
8. Hayes B. Metrical Stress Theory: Principles and Case Studies. C., 1995.
9. Hulst H. Word Stress: Theoretical and Typological Issues. L., 2014.

Ф.Ибрагимова

АКЦЕНТНЫЕ ЭФФЕКТЫ КАК ВЫРАЗИТЕЛЬНОСТЬ ФРАЗОВОГО УРОВНЯ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Акцент относится к системе синтагматических противопоставлений, используемых для установления просодических паттернов, которые делят речь на последовательности более коротких фраз, и для выявления отношений между этими паттернами, которые организуют их в более крупные группы фраз. Акцент – это фонологически обособленный тип высказывания. В литературе мы используем акцент в качестве выделения на уровне фразы. Чтобы описать язык, возможно, достаточно перечислить выбор, который делает язык в отношении различных аспектов языковых изменений, о которых мы уже знаем, какие существуют виды языковых изменений, таких как лексика, порядок слов, согласные и гласные, структура слогов, ударение узоры и т.д. Общеизвестными эффектами стресса являются изменение времени (длительности), амплитуды (громкости) и F_0 (мощности). Ударные гласные имеют большую продолжительность, амплитуду и звучание. Помимо этого общего описания эффектов акцента, многие исследования показали, что разные языки лингвистически кодируют разные фонетические корреляты ударения. Утверждалось, что высота звука является ключевым коррелятом (фразового) ударения. Ряд инструментальных исследований выявил множественные, а иногда и противоречивые фонетические корреляты просодии. Одна из причин, лежащих в основе этих противоречивых результатов, заключается в том, что понятие «акцент» использовалось для обозначения любой выпуклости в слоге, определяемой как лексическое ударение. Действительно, лингвистические изменения выходят за рамки фонологии и распространяются на другие области, такие как синтаксис, семантика и лексика. Для целей настоящего исследования акцент определяется как языковой признак с контрастной функцией на уровне слова. Мы можем отметить, что ударение ядерной высоты тона также наиболее заметно в предложении, а расширение диапазона высоты тона является самым большим в английском языке в мелодии повествовательной фразы. Как очевидный коррелят стресса, выделение высоты тона не может быть объяснено только эффектами акцента. Вместо этого выделение основного тона может быть либо комбинированным эффектом, либо просто эффектом акцента.

Ключевые слова: ударение, качественный, гласный, согласный, просодический.

F.Ibrahimova

ACCENT EFFECTS AS PHRASAL-LEVEL SALIENCE IN ENGLISH

SUMMARY

Accent refers to a system of syntagmatic contrasts used to establish prosodic patterns that divide speech into sequences of shorter phrases and to identify relationships between these patterns that organize them into larger groups of phrases. An accent is a phonologically distinct type of utterance. In literature, we use accent as phrase-level prominence. To describe a language, perhaps it is sufficient to list the choices a language makes about various aspects of linguistic change, which we already know what kinds of linguistic change there are, such as lexis, word order, consonants and vowels, syllable structures, stress patterns, etc. Commonly known stress effects are time (duration), amplitude (loudness), and F_0 (strength) variation. Stressed vowels have longer duration, amplitude and sound. Beyond this general description of accent effects, many studies have shown that different languages linguistically encode different phonetic correlates of stress. It has been argued that pitch is a key correlate of (phrasal) stress. A number of instrumental studies have revealed multiple and sometimes conflicting phonetic correlates of prosody. One of the reasons underlying these inconsistent results is that the concept of "accent" has been used to represent any prominence carried in a syllable, defined as lexical stress. Indeed, linguistic changes go beyond phonology and extend into other areas such as syntax, semantics and lexis. For the purpose of the current study, accent is defined as a linguistic feature with a contrastive function at the word level. We can note that the emphasis of the nuclear pitch is also most prominent in the sentence, and the expansion of the pitch range is the largest in English in the declarative phrase melody. As an apparent correlate of stress, pitch salience cannot be attributed to accent effects alone. Instead, pitch salience can be either a combination effect or simply an emphasis effect.

Key words: stress, qualitative, vowel, consonant, prosodic.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Nailə İbrahimova tərəfindən çapa tövsiyə olunmuşdur

FİDAN SADIQ QIZI NƏZƏRLİ
Azərbaycan Dövlət Pedoqoji Universiteti
Nazarli.fidan1@gmail.com

ELLİPSİS VƏ MÜXTƏLİF NÖV MƏTNLƏRDƏ ONDAN İSİTFADƏ

Xülasə

Məqalə dilçilikdə universal dil hadisələrindən biri hesab edilən ellipsisə və onun müxtəlif mətn növlərində istifadəsinə həsr edilmişdir. Burada D.Kristal, R.Kraymz, C.Liç və digər mütəxəssislərin bu dil hadisəsi barədə baxışları təhlil edilir.

Ellipsisdən istifadə edilən mətn növləri arasında dram əsərlərinə, romanlara, povestlərə, hekayələrə rast gəlinir. Qeyri-bədii yazıda ellipslərdən buraxılmış sözləri göstərmək üçün istifadə olunduğu halda, dialoqda, xüsusi olaraq, personajın nitqinin sonunu göstərmək üçün onlardan istifadə edilir. Hekayə və dialoqlarda ellipsis "sükut anı"nı ifadə edir və bu, adətən "deyilməmiş nəyinsə" qaldığını bildirir. Bütün mətn növlərində ellipsisi bildirmək üçün, əsasən iki durğu işarəsindən -tire və nöqtələr ardıçıllığından istifadə edilir.

Bundan başqa, ellipsisə birbaşa, adətən əvvəlki kon-tekstdə əlaqəli struktura istinad etməklə tamamlana bilən struktur boşluğunun olduğu hallarda da rast gəlinir. Ellipsis tez-tez "nitqin kəskin şəkildə kəsildiyi və cümlənin yarımçıq qaldığı birləşdirici bir mexanizm" kimi görünür. Bəzən, yazıçılar ellipsisdən istifadə etmək əvəzinə təkrar sözlərin, bəndlərin və ya cümlələrin əvəzlənməsindən istifadə edirlər. Deməli, əsərin yazılması prosesi yazıçıya müxtəlif növ dil hadisələrini mətnin daha geniş tematik və struktur modelinin əsası kimi istifadə etməyə imkan verir. Bu baxımdan, mətndə ortaya çıxacaq ellipsisdən daha çox müxtəlif linqvistik hadisələrdən istifadə edilməsi hallarına çox rast gəlinir. Ümumiyyətlə, ellipsisin istifadəsi bir tərəfdən mətnin formal xüsusiyyətlərinin təsviri ilə əlaqələndirilsə də, digər tərəfdən isə bu mətnin şərhi ilə və bu xüsusiyyətlərin funksional əhəmiyyəti ilə əlaqədar olur. Buna baxmayaraq, ellipsis ədəbiyyatın bütün formalarında geniş istifadə olunur.

Açar sözlər: *ellipsis, mətn, nöqtələr ardıcıllığı, sintaqmatik əlaqə, paradiqmatik əlaqə*

"Ellipsis" universal dil hadisələrindən biridir və elmi-nəzəri ədəbiyyatda onun bir sıra tərifləri mövcuddur. D.Kristal ellipsisi "qənaət, vurğu və ya üslub səbəblərinə görə strukturun bir hissəsinin buraxıldığı və kontekstin təhlilindən sonra bərpa edilə bilən" mexanizm kimi təyin etmişdir. Müəllifin tərifi ellipsisin, "cümlənin hər hansı bir hissəsinin buraxılmasını əhatə edən bir termin" olduğunu iddia edir [3, s. 191]. "Longman" lüğəti isə ellipsisə, "söz və ya ifadələrin əvvəldən istinad edildiyi və ya qeyd edildiyi üçün lazımsız olduqları cümlələrdən kənarda qalan ifadələr"

yanaşmasını təqdim edir [10]. Başqa sözlə desək, tabesizlik əlaqəsi ilə bağlanmış budaq cümlədə (coordinated clause) iki eyni mübtəda olarsa, təkrara yol verməmək üçün onlardan biri ləğv olunur və bu hala ellipsis kimi yanaşılır. Misal üçün,

The children come at 10 o'clock and leave at 12 o'clock - Uşaqlar saat 10-da gəlib 12-də gedirlər.

Ellipsis daxilində linqvistik kontekst mühüm rol oynayır. R.Krayms bildirir ki, "konstruksiya digərinin təkrarı olduğu halda, ellipsis sintaqmatik əlaqələri nəzərdə tutur və bu təkrarlanan konstruksiya linqvistik kontekstdə bərpa oluna bilərsə, o zaman müəyyən şərtlər altında silinə bilər" [4, s. 35]. K.Qrant-Devi tərəfindən verilən izahatda ellipsisin mənası daha yaxşı anlaşılır: "Oxucular mətndə ideyaların nəzərdə tutulduğunu, lakin ifadə olunmadığını gördükdə onları əvəz edən ellipsisləri tanıyırlar və mətndəki ellipsləri yerlərinə yerləşdirə bilmədikdə onları öz şuurlarında zənn edirlər" [6, s. 4]. Buradan belə nəticə çıxartmaq olar ki, elliptik elementlər mənası mövzular haqqında olan əsas biliklər sayəsində bərpa edilə bilər və nəticə etibarilə bu cür biliklərin oxucudan oxucuya dəyişməsi mümkündür.

Ellipsisə digər yanaşma M.Halidey və R.Hasan [7, s. 144] tərəfindən göstərilmişdir. Onlar mətn daxilində ellipsis əlaqəsini, birləşdirici vasitələrdən biri kimi səciyyələndirirərək, onu "linqvistik və ya qeyri-linqvistik kontekstdən mənaları bərpa oluna bilən söz və ya ifadələrin buraxılması" kimi təqdim edir. Beləliklə, ellipsis linqvistik elementlər arasında xüsusi bir əlaqə növü ifadə edir və o, vəziyyətlə ümumi əlaqəni və ümumi biliyi təmsil edir. C.Liç [9, s. 162] hesab edir ki, "ellipsis mesajı qısaldan, cümlələrin strukturunu daha sıx birləşdirən və məna əlaqələrinin daha asan qavranılmasını təmin edən abreviatura vasitəsi"dir. M.Halliday və R.Hasana görə, hər bir informasiya vahidi iki element əsasında qurulur:

a) birincisi, yeni elementdir ki, bu da natiqin və ya yazıçının dinləyiciyə və ya oxucuya digər mənbələrdən məlum olmayan məlumatın təqdim edilməsini ifadə edir.

b) ikincisi, bəzi mənbələrdən, məsələn, ətraf mühitdən, vəziyyətdən və ya əvvəlki mətndən dinləyiciyə və ya oxucuya artıq məlum olan məlumatın natiqin və ya yazıçının təqdimatını göstərən artıq məlum olan elementdir.

Hər hansı bir mətn növündə təqdim olunmuş məlumat adətən danışanla həmsöhbət arasında paylaşılan məlumatı təşkil edir ki, bu da yeni məlumatın əlaqələndirilə biləcəyi başlanğıc nöqtəsi hesab olunur. Paylaşılan məlumat danışana və ya yazıçıya əvvəllər söylənilən və ya işarə edilən məlumatları buraxmağa, aşağıdakı nümunədə olduğu kimi diqqəti yeni materiala yönəltməyə imkan verir [7, s. 326].

A: Have you spoken to him?

B: (I have) Not yet (spoken to him).

Məslələ ilə bağlı D.Alerton bildirir ki, belə situasiyada danışan və dinləyici tərəfindən paylaşılan ümumi bilik mövcuddur. O, əlavə edir ki, "informasiyanın qarşılıqlı əlaqəsi zamanı danışdığı maddələrə qənaətlə istinad edərək vaxt itkisinə yol verməmək üçün mesajı vacib olanla məhdudlaşdırmaq" prinsipinə əməl edilməlidir [1, s. 133].

Ellipsis daxilində əlaqələri iki səviyyədə - cümlə və mətn səviyyəsində olur. B.Tomasa görə cümlə səviyyəsində iki ellipsis əlaqəsi mövcuddur. Birincisi, linqvistik konstruksiya vahidləri arasında mövcud olan qrammatik münasibətləri ehtiva edən sintaqmatik əlaqələrdir. İkincisi isə öz yerlərini tuta bilən eyni səviyyəli faktiki baş verən elementlər arasında semantik asılılığı ehtiva edən paradiqmatik münasibətlərdir [14, s. 66].

M.Halidey və R.Hasan "ellipsisi təkcə cümlədaxili deyil, cümlələr arasındakı əlaqənin kəsişmə nöqteyi-nəzərindən araşdırılmalı" olduğunu da qeyd edirlər. Buradan çıxış edərək, ellipsisə təkcə budaq cümlələr (clauses) arasında deyil, həm də cümlələr arasında rast gəlinməsini vurğulamaq vacibdir və buna görə də bu tip ellipsis "əlaqələndirici (cohisive)" kimi qeyd olunur [7, s. 136]. Dilçilərin əksəriyyəti ellipsisə əsasən cümlədaxili əlaqələr baxımından diqqət yetirir, bu o deməkdir ki, bu növ ellipsisə budaq cümlələr arasında rast gəlinir və nəticədə isə o, cümlələrin birləşməsinə kömək etmir. Başqa sözlə, onu əlaqə yaratmayan ellipsis kimi təsvir etmək də olar. Təbii ki, ellipsis mətnin də formalaşmasına kömək edir və ellipsisin mətn funksiyası istinad zəncirini və əlaqələndirməni yaradır. M.Hoi ellipsis barədə aşağıdakı nöqteyi-nəzərə malidkir:

"Ellipsis bir cümlənin strukturu natamam olduqda və çatışmayan element(lər) əvvəlki cümlədən birmənalı şəkildə bərpa oluna bildikdə baş verir" [8, s. 72]. Qeyd edək ki, müxtəlif mətn müəllifləri bu texnikadan öz yazılarında, yaratdığı əsərlərdə istifadə edirlər. Yazıçının bacarıqlı və məharətli olması, onun öz əsərlərində ellipsisdən uğurlu istifadə etməsinə gətirib çıxardır. Bacarıqlı yazıçılar bilərəkdən "nəyi bəyan edəcəklərini" və "nəyi kənarda qoyacaqlarına" qərar vermək iqtidarında olur. P.Lovinger öz lüğətində ellipsisi "kontekstdən başa düşülə bilən, cümləni tamamlayacaq sözün və ya sözlərin, buraxılması" kimi təyin edir. Bununla belə, o iddia edir ki, "bəzən dəqiq sözü(ləri) əlavə etməkdə çətinlik yaranır, çünki müəllif və ya natiq çoxlu, bəlkə də lazımlı sözü buraxır. Nəticədə, cümlə yöndəmsiz səslənir və ya hətta bizi hansısa fikri (sözü) təxmin etməyə məcbur edir" [11, s. 246].

Ellipsisin istifadəsi bir tərəfdən mətnin formal xüsusiyyətlərinin təsviri ilə, digər tərəfdən isə mətnin şərhi ilə və bu xüsusiyyətlərin funksional əhəmiyyəti ilə əlaqədardır. Ellipsis ədəbiyyatın bütün formalarında geniş istifadə olunsa da, digər əlaqələndirmə mexanizmləri arasında müxtəlif dərəcələrdə dəyişir.

Ən çox ellipsisdən istifadə edilən mətn növü kimi dram əsərlərini göstərmək olar. Dram əsərlərində ellipsisin geniş şəkildə istifadə olunmasını iki səbəblə əlaqələndirmək olar:

1) məlumdur ki, səhnə quruluşlu tamaşalar ellipsisin meydana gəlməsini asanlaşdırır.

2) pyeslər, ilk növbədə ellipsis tezliyini tələb edən uzun dialoqlardan ibarət olur.

Romanlara gəldikdə isə, onlarda ellipsisin istifadəsi dram əsərinə nisbətən daha azdır, çünki bu janr qısaltma və ya müxtəsərlikdən daha çox genişləndirmə və

nəqletməyə əsaslanır. Roman oxucuları bunu sadəcə müşahidə etməklə açıq-aşkar görə bilir. Bununla belə, digər ədəbi janrlara nisbətən poeziyada ellipsis daha güclü (təsirli) görünür, çünki poetik dilin məhdudlaşdırılması buna səbəb kimi çıxış edir.

R.Altman "povest mətnini modulyasiyalarla birləşdirilən və xüsusi bir şəkildə düzülən fərdi vahidlər silsiləsi" kimi təyin edir [2, s. 26]. O qeyd edir ki, "hər bir povest mətni spesifik nümunəni nümayiş etdirir." [2, s. 29]. Bundan əlavə, romanlar adətən başqa xüsusiyyətlərə malik olur, yəni onlar ümumiyyətlə nəticəyə qədər mənalı şəkildə qurulmuş epizodlara malikdirlər. Onlar adətən tək xarakterə və ya kiçik bir xarakter qrupuna və onların daxili inkişafına diqqət yetirirlər. Povest mətni özündə rəvayəti, yəni hekayəni izah edən bir ədəbi ünsiyyət növünü birləşdirir. Hekayə və ya povest yazıçının oxucuları məlumatlandırmaq, onları ardıcıl olaraq hadisələr zənciri ilə təmin etmək üçün istifadə etdiyi bir cihazdır.

Hekayə mətni linqvistik vasitələrə (ellipsis, təkrar və s.) görə fərqlənir. Povest və roman mətnlərində formallıq ümumi cəhət kimi görünür və onlarda ellipsdən az istifadə xarakterik xüsusiyyətdir. İki fərqli üsluba malik iki bədii mətn müqayisə edildikdə müəyyən bir linqvistik xüsusiyyət bir mətndə təqdim oluna bilər, digərində isə yox. Eyni xüsusiyyətin digərindən birində daha tez-tez görünməsi də mümkündür və ya hər ikisində təxminən eyni tezliyə malik ola bilər. "Müəyyən bir linqvistik xüsusiyyətin tezliyi B mətni ilə müqayisədə A mətnində əhəmiyyətli dərəcədə fərqlənir" [5, s. 127-135].

Bundan əlavə, dilin ayrı-ayrılıqda deyil, faktiki istifadə vəziyyətində mətn kimi fəaliyyət göstərdiyini də vurğulamaq vacibdir. Ellipsisə birbaşa, adətən əvvəlki kontekstdə əlaqəli struktura istinad etməklə tamamlana bilən struktur boşluğunun olduğu hallarda istinad edilir. Ellipsis tez-tez "nitqin kəskin şəkildə kəsildiyi və cümlənin yarımçıq qaldığı birləşdirici bir mexanizm" kimi görünür. Hadisələrin ardıcıllığını qoruyub saxlamaqla, yazıçılar ellipsisdən istifadə etmək əvəzinə bəzən təkrar sözlərin, bəndlərin və ya cümlələrin əvəzlənməsindən istifadə edirlər. Romanın yazılması prosesi yazıçıya müxtəlif növ dil hadisələrini mətnin daha geniş tematik və struktur modelinin əsası kimi istifadə etməyə imkan verir. Bu baxımdan, mətndə ortaya çıxacaq ellipsisdən daha çox müxtəlif linqvistik hadisələrdən istifadə edilməsi hallarına daha çox rast gəlinir.

Qeyri-bədii yazıda ellipslərdən yalnız buraxılmış sözləri göstərmək üçün istifadə olunur. Amma dialoqda, xüsusi olaraq, personajın nitqinin sonunu göstərmək üçün ellipsis işlədilir. Belə mətnlərdə ellipsisdən sonra məsafə qoymağa ehtiyac duyulmur. Bir qayda olaraq, hekayə və dialoqlarda ellipsis "sükut anı"nı ifadə edir. Bu, adətən "deyilməmiş nəyinsə" qaldığını bildirir.

"Hang on, don't go yet! I want to know —" But Mrs. Figg had already set off at a trot, carpet slippers flopping, string bag clanking. –"Dayan, hələ getmə! Mən bilmək istəyirəm —" Amma xanım Fiqq artıq sürətlə yola düşmüşdü, xalıdan olan tərlikləri sürüşə-sürüşə, ipli çantası cingildəyə-cingildəyə [12, s. 2410].

"I didn't!" Harry said sharply, as Aunt Petunia let out a wail and Uncle Vernon raised his fists. "I didn't do anything to him, it wasn't me, it was –" - "Petuniya xala fəryad edəndə və Vernon dayı yumruqlarını qaldıranda, Harri kəskin şəkildə dedi: "Mən etmədim!"."Mən ona heç nə etmədim, mən deyildim, – idi [12, s. 26].

Birinci nümunə "təklif və ya dəvət" mənasında ola bilər. İkincisi daha çox "qərarsızlığıa" bənzəyir. Ellipsislərdən danışıqda dramatik effekt əldə etmək üçün "geri qaldıqda", "tərəddüd etdikdə" və ya "fasilə verdikdə" istifadə edilə bilər.

Fred's words took a moment to penetrate Mrs.Weasley's preoccupation about pajamas. "His . . . but . . . Ron, you're not. . . ?" Ron held up his badge. - Xanım Uizlinin pijama qayğısına daxil olmaq üçün Fredin sözləri bir an uzandı. "Onun . . . amma . . . Ron, sən . . . deyil (yox). . . ?" Ron nişanını qaldırdı [12, s. 163].

Dialoqun gedişatında (dialoq xəttinin ortasında) yer alan ellipsislər danışanın bir anlıq danışığını/nitqini dayandırdığını göstərir. Misal üçün,

"Do you know of any good places to hike around the Illinois Valley?" he asked. "Hmm, let me think . . . the best place around here is Starved Rock State Park," I said. – "İllinoys Vadisi ətrafında gəzmək üçün yaxşı yerlər bilirsinizmi?" – deyə o, soruşdu. "Hmm, qoy fikirləşim . . . burada ən yaxşı yer Starved Rock Dövlət Parkı-dır"dedim [12, s. 182].

Moody's electric-blue eye swiveled upward and stared fixedly through the ceiling of the kitchen. "Drawing room . . ." he growled, as the pupil contracted. - Mudinin mavi-elektrikli gözü yuxarıya doğru bərəldi və mətbəxin tavanına zilləndi. "İstirahət otağı . . ." göz bəbəyi daraldıqca, o, hönkürdü [12, s. 271].

"Desk in the corner? Yeah, I see it. . . . Yeah, it's a boggart. . . . Want me to go up and get rid of it, Molly?" – Masa küncdə? Bəli, görürəm…. Bəli, bu, damdabacadır . . . . Yuxarı qalxıb ondan qurtulmağımı istəyirsən, Molli?[12, s. 169].

Mətnlərdəki dialoq xəttinin sonundakı ellipsislər natiqin öz ifadəsini tamamlamadan ləngidiyini də göstərir:

ALBUS: I thought you'd send an owl… (Mən fikirləşdim ki, sən bayquş göndərəcəksən…)

SCORPIUS: I couldn't work out what to say. (Nə deyəcəyimi bilmədim.)

ALBUS: And now I don't know what to say …. (Və indi bilmirəm ki, nə deyim…)

SCORPIUS: Say nothing. (Heç nə demə.)

ALBUS: Is there anything . . . ? (Nəsə bir . . . var?)

SCORPIUS: Come to the funeral. (Dəfnə gəl.)

ALBUS: Of course. (Əlbəttə). [12, s. 28].

Mətnlərdə çox sayda ellipsisdən istifadə olunması halları onların təsirinin azalmasına gətirib çıxardır. Belə ki, ellipsislərdən, daha çox, dialoqun kəsilməsini həqiqətən vurğulamaq lazım gəldiyi zaman istifadə etmək daha məqsədəuyğun olardı.

Mətnlərdə ellipsisləri işlədərkən, bəzi durğu işarələrindən istifadə edilir. Onlardan biri tiredir. Unutmayaq ki, tire işarəsindən dialoqun kəsilməsini bildirmək üçün də istifadə etmək olar. Ellipsislər adətən dialoq xəttinin əvvəlində istifadə edilmir. Əgər danışmazdan əvvəl danışanın ləngidiyini bildirmək lazımdırsa, bunu dialoqdan əvvəl və ya sonra təsviri mətn vasitəsilə vermək mümkündür. Misal üçün:

Malfoy's head jerked forward as the mud hit him; his silverblond hair was suddenly dripping in muck. - (Palçıq ona dəyəndə, Malfoyun başı irəli atıldı; onun gümüşü-sarı saçlarından peyin damcılayırdı.)

"What the — ?" (Bu nə —?)

Ron had to hold onto the fence to keep himself standing, he was laughing so hard. Malfoy, Crabbe, and Goyle spun stupidly on the spot, staring wildly around, Malfoy trying to wipe his hair clean. - (Ron hasardan tutdu ki, ayaq üstə dura bilsin, o elə bərkdən gülürdü ki. Malfoy, Krab və Qoyl yerindəcə axmaqcasına fırlanırdı, Molfoy isə saçlarını çırpmağa çalışırdı.)

"What was that? Who did that?" - (Bu nə idi? Onu kim elədi?)

"Very haunted up here, isn't it?" said Ron, with the air of one commenting on the weather- (Ron havanı şərh edirmiş kimi dedi: "Bura çox pisdir, deyilmi?") [12, s. 280].

Ellipsislə islənən digər durğu işarəsi ardıcıl nöqtələrdir. Ellipsis nöqtələrini mətnlərdə necə yerləşdirmək məsələsinə gəldikdə, əsasən üslub bələdçisi və ya naşirin təlimatlarına əməl etmək lazımdır. Onlar olmadığı təqdirdə isə, əsərdə və ya mətndə ardıcıllığı qorumaq üçün bir format seçmək lazımdır. Belə hallarda, mətnlərdə, ellipsis nöqtələrini yerləşdirmək üçün iki ümumi formatdan istifadə olunur:

- hər bölgüdən əvvəl və sonra bərabər məsafəli boşluqlarda qoyulan nöqtələr (məsələn, *" Hello. . . . . there")* və ya

- hər bölgüdən əvvəl və sonra məsafəsiz qoyulan nöqtələr (məsələn, *"Hello..... there").*

Mətnlərdə istifadə edilən sitatlarda isə ellipslər üçün ardıcıl nöqtələrarası məsafə də vacibdir; lakin sitatlar üçün təlimatlar daha konkretdir, çünki ellipslər dialoqdan fərqli olaraq sitatlarda daha çox funksiya yerinə yetirir. "Bir problem üzərində düşünən və ya çətin bir söhbətdə çaşqınlıq vəziyyətində olan bir personajı" göstərmək zərurəti yarandıqda, ellipsislər istifadə edilməli ən effektiv vasitə hesab edilir. L.K.Roulinqin *"Harry Porter and Cursed"* adlı dram əsərindən aşağıdakı nümunəyə nəzər salaq:

AMOS (finally showing emotion): My son - my son was the best thing that ever happened to me — and you're right, it was an injustice — a gross injustice. If you're serious . . .- (Mənim oğlum – mənim oğlum həyatımda başıma gələn ən yaxşı şey idi – və sən haqlısan, bu ədaəlsizlik idi – kobud ədalətsizlik. Əgər sən ciddisənsə . . .)

ALBUS: We're deadly serious.- (Biz tamamilə ciddiyik.)

AMOS: This is going to be dangerous. - (Bu təhlükəli olacaq.)

ALBUS: We know. - (Biz bilirik.)

SCORPIUS: Do we? - (Bilirik?)

AMOS: Delphi — perhaps if you were prepared to accompany them? - (Delfi – bəlkə də, əgər səni onu müşayiət etmək üçün hazırlayıblarsa?)

DELPHI: If that would make you happy, Uncle. - (Əgər bu sizi xoşbəxt edəcəksə, Dayı.) [12, s. 55].

Ellipsis bədii mətndəki cümlələrdə həyəcanı mükəmməl şəkildə çatdıra bilən vasitə hesab edilir. L.K.Roulinqin "*Harry Potter and the Order of the Phoenix"* romanından seçilmiş və ellipsisi əks etdirən ikinci nümunəyə nəzər salaq.

Harry and Ron stared at her with a mixture of amazement and admiration. They had never heard Hermione speak to a teacher like that before. Professor Trelawney chose not to reply. She lowered her huge eyes to Harry's cup again and continued to turn it. – (Harri və Ron təəccüb və heyranlıq qarışıq bir hisslə baxırdı. Onlar əv-vələr heç vaxt Hermionun bir müəllimlə belə danışdığını eşitməmişdilər. Professor Triloni cavab verməməyi seçdi. O, iri gözlərini yenidən Harrinin fincanına endirdi və onu fırlatmağa davam etdi) [12, s. 55].

"The club . . . an attack. Dear, dear, this is not a happy cup. . . ." (Klub . . . hücüm. Əzizim, əzizim, bu xoşbəxt fincan deyil . . .).

"I thought that was a bowler hat," said Ron sheepishly. (Mən fikirləşdim ki, o, bouler şlyapasıdır).

"The skull . . . danger in your path, my dear. . . ." (Kəllə . . . sənin yolunda təhlükədir, mənim əzizim . . .).

Oxucuya personajın dialoqunun bitmək üzrə olduğunu və ya cümlənin ortasından başladığını bildirmək üçün də mətnlərdə ellipsislərdən istifadə etmək mümkündür:

As Harry entered Flourish and Blotts, the manager came hurrying toward him. – (Harri Floriş və Blotsa girəndə, menecer tələsərək ona tərəf gəldi).

"Hogwarts?" he said abruptly. "Come to get your new books?" - (O, kobud şəkildə dedi: Hoqvarts? Yeni kitabını götürməyə gəlmisən?)

"Yes," said Harry, "I need -" - ("Bəli", Harri dedi, "Mənim - ehtiyacım var").

"Get out of the way," said the manager impatiently, brushing Harry aside. He drew on a pair of very thick gloves, picked up a large, knobbly walking stick, and proceeded toward the door of the Monster Books' cage. – (Harrini kənara itələyərək, menecer səbrsiz halda dedi: "Yoldan çəkil". Bir cüt çox qalın əlcəyi əlinə çəkdi, başı yumru iri əsasını əlinə götürdü və Monsr Buk qəfəsinin qapısına tərəf irəlilədi.) [12, s. 52].

Ellipsislərdən bir çox ssenaristlər əsərlərindəki səhnə təsvirində də istifadə edirlər. Misal üçün, Barri Cenkins "Moonlight" ssenarisində rejissor jarqonundan istifadə etmədən kamera çəkilişlərini təklif etmək üçün səhnə təsvirində ellipsislərdən istifadə etmişdir: J.K.Roulinqin "Harry Porter and the Order of te Phoenix" əsərində insan halının təsviri zamanı işlədilən ellipsisilərə nəzər salaq:

He had hurried straight toward row number ninety-seven, turned left, and ran along it. . . . It had probably been then that he had spoken aloud. . . . Just a bit farther . . . for he could feel his conscious self struggling to wake . . . and before he had reached the end of the row, he had found himself lying in bed again, gazing up at the canopy of his four-poster. – (O, düz doxsan yeddinci sıraya tərəf tələsdi, sola dönüb sıra boyu qaçdı. . . . Bu, yəqin ki, o, ucadan danışan zaman olmuşdu . . . Bir az da uzağa . . . çünki o, şüurunun özünü oyatmaq üçün mübarizə apardığını hiss edə bilirdi . . . və o, cərgənin sonuna çatmamış, özünü yenidən çarpayıda uzanmış, dörd dirəkli çtalvarına baxan gördü)[12, s. 682].

Beləliklə, ellipsis hərəkəti sürətləndirmək üçün istifadə edilən dramatik bir texnika hesab olunur. Söhbətdə tez-tez sual-cavab tərzinə görə və hərəkətin baş verdi-yi mərhələnin mövcudluğuna görə dramatik mətnlərdə ellipsisin mühüm rol oynadı-ğı bir reallıqdır. Dramatik mətnlərdə qeyri-rəsmiliyin istifadəsi ellipsisin istifadəsi-ni vurğulayır, belə ki, söhbətlərdə natiqlər öz nitqlərində qısa və yığcam olmağa çalışırlar. Bunun da səbəbi odur ki, onlar yorucu təkrarlardan və darıxdırıcı izafilikdən (artıqlıqdan) qaçmaq üçün ellipsisdən istifadə edirlər. Povest mətnlərinə gəldikdə isə, onlara formallıq xas olduğundan, romanlarda ellipsdən az istifadə xarakterik hal hesab olunur.

Ədəbiyyat:

1. Allerton D.J. Essentials of Grammatical Theory: A consensus View of Syntax and Morphology. London: Routledge. 1979. 298 p.

2. Altman R. A theory of narrative. New York: Columbia University Press. 2008. 392 p.

3. Crystal D. Rediscover Grammar. Harlow: Pearson Education. 2004. 256 p.

4. Crymes R. Some systems of Substitution corrections in Modem American English. The Hague: Mouton. 1968. 93 p.

5. Enkvist N.E. Linguistics and Stylistics. The Hague: Mouton. 1973. Pp. 127-135

6. Grant-Davie K. "Functional Redundancy and Ellipsis as Strategies in Reading and Writing." Journal of Advanced Composition. 109 No. http://www. journals.jac.gsu.edu/jac/15.3/Article (accessed at Nov. 25, 2014).

7. Halliday M. A. K. and Hasan R. Cohesion in English. London: Longman. 1976. 392 p.

8. Hoey M. On the Surface of Discourse. London:Allen and Unwin.1983. 112p.

9. Leech G. English Grammar for Today. London: Macmillan Education Ltd. 1982. (2012). 236 p.

10. Longman dictionary of contemporary English. Harlow [England]: Longman. 1313 p.

11. Lovinger P. The Penguin Dictionary of American English Usage and Style. New York: Penguin Group. 2002. 512 p.

12. Rowling J.K. Harry Potter and the Order of the Phoenix (chapter 2 p. 2410

13. The Chicago Manual of Style, 17th ed. Chicago: University of Chicago Press, 2017. 1341

14. Thomas B. Fictional dialogue: Speech and conversation in the modern and postmodern novel. Lincoln and London: University of Nebraska Press. 2012. 232 p.

ELLIPSIS AND ITS USAGE IN DIFFERENT TYPES OF TEXTS

SUMMARY

The article deals with ellipsis, which is considered one of the universal language phenomena in linguistics, and its use in different types of texts. The viewpoints of D.Crystal, R.Crymes, G.Leech and other specialists on this language phenomenon are analyzed here.

Dramas, novels, narratives, and stories are among the types of texts that use ellipsis. While in non-fiction writing, ellipses is used to indicate omitted words, dialogue uses them to indicate the end of a character's speech, specifically. In stories and dialogues, ellipsis represents a “moment of silence” that usually means “something left unsaid”. In all types of text, two punctuation marks - a dash and a sequence of periods - are used to indicate ellipsis.

In addition, ellipsis is also found in situations where a structural gap that can be filled directly, usually by referring to a related structure in the previous context. Ellipsis is often seen as "a connective device by which speech is abruptly interrupted and a sentence is left unfinished." Sometimes, instead of using ellipsis, authors use the substitution of repeated words, clauses, or sentences. Thus, the process of writing a novel allows the writer to use different types of linguistic phenomena as the basis of a larger thematic and structural pattern of the text. In this regard, there are many cases of using different linguistic phenomena rather than ellipsis that will appear in the text. In general, the usage of ellipsis is related to the description of the formal features of the text on the one hand, but on the other hand, it is related to the interpretation of this text and the functional significance of these features. Nevertheless, ellipsis is widely used in all forms of literature.

Key words: *ellipsis, text, sequence of points, syntagmatic relation, paradigmatic relation*

ЭЛЛИПСИС И ЕГО ИСПОЛЬЗОВАНИЕ В РАЗНЫХ ТИПАХ ТЕКСТОВ (РЕЗЮМЕ)

Статья посвящена эллипсису, одному из универсальных языковых явлений в лингвистике, и его использованию в разных типах текстов. Здесь рассматриваются взгляды Д.Кристалла, Р.Крымза, Дж.Лича и др. на это явление.

Драматические произведения, романы, повести и рассказы находятся на основе текста с эллипсис. В то время как эллипсис используется для пропущенных слов в документальной литературе, в диалогах они используются, в частности, для обозначения конца речи персонажа. В повествовании и в диалогах эллипсис представляет собой «момент молчания», что означает «что-то, что осталось недосказанным». Во всех типах текста для обозначения эллипсиса используются два знака препинания - тире и последовательность точек.

Кроме того, эллипсис также встречается в ситуациях, когда структурный пробел можно заполнить напрямую, обычно ссылаясь на родственную структуру в предыдущем контексте. Эллипсис часто рассматривается как «связующее средство, с помощью которого речь резко прерывается, а предложение остается незавершенным». Иногда вместо эллипсиса авторы используют замену повторяющихся слов, предложений или предложений. Таким образом, процесс написания романа позволяет писателю использовать разные типы языковых явлений как основу более крупной тематической и структурной схемы текста. В связи с этим существует множество случаев употребления различных языковых явлений, а не эллипсиса, который будет фигурировать в тексте. С одной стороны, в целом употребление эллипсис связано с описанием формальных признаков текста, а с другой стороны, оно связано с интерпретацией этого текста и функционального значения этих признаков. Тем не менее эллипсис широко используется во всех формах литературы.

Ключевые слова: *эллипсис, текст, последовательность точек, синтагматическое отношение, парадигматическое отношение*

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: fil.elm.doktoru, professor Azad Məmmədov tərəfindən çapa tövsiyə olunmuşdur

MƏHBUBƏ TOFIQ QIZI UMUDOVA
Azərbaycan Turizm və Menecment Universiteti
mahbuba@yahoo.com

METOFARİK TARİXİZİMLƏRİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Xülasə

Tarixizimlər müasir dildən tamamilə itmiş sözlərdir. Onlar artıq mövcud olmayan obyektləri və hadisələri təsvir edirlər. Bəzən onları köhnəlmiş sözlər də adlandırırlar. Tarixizmlərin arxaizmlərdən fərqli olaraq müasir ingilis dilində sinonimləri yoxdur. Bu onunla izah olunur ki, bu sözlərin adı olan realilərin özü köhnəlmişdir. Tarixizimləri nisbətən yaxın dövrlərin hadisələri ilə əlaqələndirmək olar. Onlar dövrün koloritini yenidən yaratmağa kömək edir, keçmişin xüsusiyyətlərini tarixin təsvirində verir. Məsələn, a gorget, mace, thane, yeoman, goblet, baldric və s. kimi sözlər bu qəbildəndir. Bu sözlər dilin lüğət tərkibindən silinmir, yalnız tarixi romanlar, poetik əsərlər, oçerklər və müvafiq dövrlərin tarixinə dair tədqiqatlar sferasında istifadə olunmaqla məhdudlaşır [1, s.7].

Metaforalar isə tropdur, yəni sözlərin məcazi mənada işlənməsinə əsaslanan obraz növüdür. Ənənəvi olaraq metafora məcazi mənada işlənən və müəyyən oxşarlığa, müqayisə edilən təsvir obyektlərinin oxşarlığına və onların münasibətlərinə əsaslanan ifadə kimi başa düşülür [2, s.45].

Müasir ingilis dilində xeyli sayda metofarik tarixizimlər var ki, onların əsas funksiyası dilin estetik cəhətini artırmaqdır. Bu vahidlərin çoxu adət-ənənələr, reallıqlar, tarixi faktlarla bağlı yaransa da, lakin əksəriyyəti bu və ya digər şəkildə sənət və ədəbiyyat əsərləri sayəsində yaranıb.

Açar sözlər: *metafora, tarixizimlər, köhnəlmiş sözlər, sadə metafora, ənənəvi metafora*

İngilis müəlliflərinin əsərlərində metaforalardan çox geniş istifadə olunur. Metaforalar, personajları, onların hiss və emosiyalarını, təbiətini, onun gözəlliyini və unikallığını və s. təsvir etmək üçün lazım olan müxtəlif obrazlar yaratmağa imkan verir.

Dilçilər metaforaların aşağıdakı növlərini ayırd edirlər:

1. sadə metafora;
2. genişləndirilmiş metafora;
3. ənənəvi metafora;
4. kompozisiya və ya süjet metaforası.
5. metaforik tarixizimlər

Biz hər bir metafora haqqında qısaca məlumat verəcəyik. Lakin məqaləmiz tarixi metaforalar ilə bağlı olduğundan daha çox ona istiqamətlənəcəyik.

Sadə metafora bir şəkildə ifadə edilir, lakin bir sözdən ibarət olmur: *"the eye of heaven"* - günəşə verilən adı – bu sadə metaforadır.

Sometimes too hot the eye of heaven shine. (W.Shakespeare. Sonnet XVIII).

Someone stepped forward from the sea of faces, someone tall and thin, dressed in deep black… [9]

Sadə metafora birüzvlü və ikiüzvlü ola bilər. Məsələn: *the ray of hope, floods of tears, storm of indignation, flight of fancy, gleam of mirth, shadow of a smile, white as snow, cold as an iceberg.*

Mübaliğəyə əsaslanan metafora hiperbolik adlanır:

All days are nights to see till I see thee,
And nights bright days when dreams do show thee me.
(W. Shakespeare. Sonnet XLIII).

Şairin sevgilisini görmədiyi günlərin qaranlıq gecələrə asimilyasiyası onun ayrılığa necə həsrət qaldığını göstərən poetik mübaliğədir.

Metaforanın həyata keçirilməsi üçün kontekst lazımdır. Bəzən metafora bir obrazla məhdudlaşmır, əsas sözlə bir-birinə bağlı olan bir neçə obrazı həyata keçirir. Bu genişləndirilmiş metafora adlanır [3, s.65]. Məsələn,

Mr. Dombey's cup of satisfaction was so full at this moment, however, that he felt he could afford a drop or two of its contents, even to sprinkle on the dust in the by-path of his little daughter. [5, s.65].

Nümunədə verilmiş *drop, contents, to sprinkle* sözləri əsas obraza *cup (of satisfaction)* əlavə təsvir verir.

Genişləndirilmiş metafora vahid obraz yaradan bir neçə məcazi işlənmiş sözdən, yəni eyni iki müstəvini yenidən birləşdirərək və onların paralel fəaliyyət göstərməsi ilə obrazın motivasiyasını gücləndirən bir-biri ilə əlaqəli və bir-birini tamamlayan bir sıra sadə metaforalardan ibarətdir. Genişləndirilmiş metafora aid nümunələri çoxdur. Onlardan bəzilərini nəzərdən keçirək. Məsələn, V.Şekspir öz əsərlərində tez-tez metaforanın bu növünü işlədir:

Lord of my love, to whom in vassalage
The merit hath my duty strongly knit,
To thee I send this written embassage,
To witness duty, not to show my wit.
(W.Shakespeare. Sonnet XXVI).

Onun şücaət və ləyaqətinə əsaslanaraq, ağaya qarşı sədaqət və vəzifə kimi cəngavər idealları ilə müqayisəsi məhəbbətin məhbuba sədaqət və ona bağlılıq borcu, onun fəzilətlərinə verilən qiymət kimi üzə çıxarır. Bu iki müstəvi, ikiölçülü və eyni zamanda vahid poetik quruluş yaradan, aşiqin vəzifəsi və vassal vəzifəsi sözləri ilə əlaqələndirilir: *lord of my love, vassalage, duty, embassage*,

Genişləndirilmiş metaforaya aid başqa bir nümunə:

I love not less, though less the show appear:
That love is merchandised whose rich esteeming

The owner's tongue doth publish everywhere.

(W. Shakespeare. Sonnet Cll)

Bu nümunədəki təsvirlər kəskin mənfi qiymətləndirici konnotasiyaya malikdir və hər yerdə sevgiləri haqqında danışanlara hörmətsizlik ifadə edir.

Zənnimicə, genişləndirilmiş metaforaya parlaq nümunə aşağıdakı cümlə hesab oluna bilər.

Uncle Adrian lives too much with bones. The sight of red blood goes to his head» [6].

Bu misalda *red blood - qırmızı qan* sözü bir keşişin gənc qardaşı oğullarına işarədir və onlara qarşı qoyulan *bones* sözü isə yaxşı niyyətli keşişləri və kilsənin digər kahinlərini nəzərdə tutur.

Genişlənmiş metafora yeni bir ifadədən istifadə etməklə yaradıla bilər:

On the other hand, if he was beaten, he took it with complete good humour. He was a bad winner and a good loser [8].

Ənənəvi metaforalar hər hansı bir dövrdə və ya hər hansı ədəbi istiqamətdə ümumi qəbul edilən metaforalardır. Belə ki, ingilis şairləri gözəllərin zahiri görünüşünü təsvir edərkən *pearly teeth, coral lips, ivory neck, hair of golden wire* kimi ənənəvi, daimi metaforik epitetlərdən geniş istifadə etmişlər. Bu trafaretə onun saxtakarlığını ifşa edən V. Şekspir öz sevgilisinin təsvirini bir sıra mənfi müqayisələrlə müqayisə edir:

My mistress' eyes are nothing like the sun,
Coral is far more red than her lips' red,
If snow be white, why then her breasts are dun;
If hairs be wires, black wires grow on her head.
I have seen roses damask'd, red and white,
But no such roses see I in her cheeks...

(W. Shakespeare. Sonnet CXXX)

Metaforik epitetdə ikiölçülülük məcburidir, oxşarlıq və bənzərsizliyin göstəricisi, semantik uyğunsuzluq, işarəliliyin pozulması. Məsələn, animist metaforik epitetlərdə, canlı varlığın xüsusiyyətləri cansız bir obyektə aid edilir: an *angry sky, the howling storm* və ya insan xassələrini və hərəkətlərini heyvana və ya obyektə aid edən antropomorfik metaforik epitet: *laughing valleys, surly sullen bells.*

Bütün romanı əhatə edə bilən kompozisiya və ya süjet metaforası xüsusi maraq doğurur. Kompozisiya metaforası mətn səviyyəsində reallaşan metaforadır. Müasir əsərlərin bir çoxunu kompozisiya metaforası kimi göstərmək olar ki, burada mövzu müasir həyatdır, obrazlar isə mifoloji süjetlərlə müqayisə və təzad qoyularaq yaradılır. C.Coysun "Uliss" , C.Apdaykın "Kentavr" romanı buna parlaq nümunədir.

Klişe metaforaları ifadəli vasitələrlə zəngin olub nitqə təsir edir. Onlar stereotip metaforaların gündəlik danışıq dilində toplanmasına və qorunmasına kömək edir. Məsələn, *the ray of hope, floods of tears, storm of indignation, flight of fancy, gleam of mirth, shadow of a smile, burst of applause* - dil metaforaları adlanır.

Onların istifadəsi adi haldır. Bu cür metaforalardan tez-tez müxtəlif nitq üslublarında istifadə olunur.

Yuxarıda qeyd etdiyimiz kimi tarixizimlər eyni zamanda köhnəlmiş sözlər hesab olunur. Mertaforik tarixizimlərdə artıq köhnəlmiş, tarixə çevrilmiş metaforalardr.

Məşhur ingilis klassiki Q. Bayronun əsərləri köhnəlmiş sözlərin sayına görə ən mühüm ədəbi mənbələrdən biridir. Q. Bayron öz əsərlərində metaforik tarixizimlərin və poetizimlərin istifadəsinə böyük əhəmiyyət verdi. Poetizmlər onun xüsusi üslubi formalarda canlandırdığı tarixizimlər də daxil olmaqla, heterojen söz təbəqəsidir. Bu arxaik Məsələn, *"Deserted is my own good hall, its hearth is desolate"* [7] cümləsində *"hall -zal" sözü "palace" – saray, qala, ev* mənasını verir ki, indi bu *hall* sözü köhnəlmiş sözlərdən hesab olunur. Q. Bayronun əsərlərində işlənmiş digər tarixizimlərə diqqət yetirək.

Swain (peasant), main (sea), yon (there), hallowed (holy), quit (leave), throw (believe), bade (bid), clad (clothed), oft (often), thee, ye, aught (anything), naught (nothing), albeit (although), ere (before), moostrooper, mace, thrall, dog-whipper, kith and kin, in days of yore, hither and thither famelicose, beg to inform və s. *[4].*

Poetizmlərə tarixizimlərlə yanaşı, poeziyada tez-tez işlədildiyi üçün arxaizmə çevrilməyən, yəni işlədilməsində köhnəlməyən, müəyyən poetik terminologiya kimi kristallaşan sözlər də daxildir. Başqa sözlə, onları poetik terminlər hesab etmək olar. Bu sözlərə *bard - şair, woe - qəm, steed, charger - at* və s. kimi sözlər daxildir.

Bəzi köhnəlmiş dialekt sözləri poetizmlərə də aid etmək olar, məsələn, felin keçmiş zaman forması olan *shend — shent (itirilmiş, dəyərsizləşdirilmiş, məhv edilmiş)* və ya dialektal mənada *rest (dayandırmaq, dayanmaq)* və s. Məsələn, *"...where he shall rest him on his pilgrimage."* Belə formalar, yəni *yes* əvəzinə *yea, no* əvəzinə *nay* poetizm kimi işlənən dialekt sözlərdən də hesab edilə bilər [7].

G. Bayronun *"A Sketch"* şeirinin son sətirində *fester (And festering in the infamy of years)* sözü işlənib. Birinci versiyada Q. Bayron *welter* metaforasından istifadə etmişdir. Bu barədə o, naşirinə yazır: "Biz *weltering in blood - qan içində boğulma"*dan danışırıq; məgər *"weltering in the wind, weltering on a gibbet?»* işlədilmir?

Həqiqətən, Q. Byron misilsiz sənətkar idi və müstəsna incəliyi və bacarığı ilə tarixi metaforalardan istifadə edirdi. Köhnəlmiş sözlərin seçilməsində istifadə etdiyi prinsiplər onun tərəfindən belə formalaşdırılıb: müəllifin dili müstəsna olaraq köhnəlmiş və anlaşılmaz olmamalıdır, lakin müəllif imkan daxilində sırf müasir mənşəli sözlərdən qaçmalıdır.

Bernard Şounun *"Heartbreak House"* əsəri də metafori tarixizimlərlə zəngindir. Aşağıdakı misalda oxuyuruq.

" What a brute I was to quarrel with you…" [11, p. 87]

"Brute" sözünün bir çox mənası var: heyvan və ya ev heyvanı, adətən mal-qara mənasında işlənir. Həm də məcazi məna daşıyır: kobud, hətta heyvani instinktlərlə, insan. Beləliklə, *"mən nə qədər qəddar idim"* ifadəsi *"kobud"* sözünün məcazi mənası ilə reallaşan metaforik xarakteri parlaq şəkildə ifadə etmişdir.

" Between the sofa and the drawing — table is a big wicker chair, with broad arms and a low sloping back..." [11, p.38]

"Arms of a chair" və "low sloping back" birləşmələri nominativ funksiyanı yerinə yetirən metaforalardır. Bununla belə, bu təkcə mebelin təsviri deyil, bir növ gündəlik dildə istifadə olunan leksik metaforaları ehtiva edir. Bunlar dildə istifadə olunmayan köhnəlmiş metaforalardır.

Metaforik tarixizimlərin başqa bir funksiyası xarici nitqin xüsusiyyətlərini dolayısı ilə göstərmək funksiyasını daşıyır. İngilis dilində Şeksprizimlər buna misaldır. Məsələn, *to wear one's heart upon one's sleeve for days to peck at ("Othello")* ifadəsi *hisslərini cilovlaya, ört-basdır edə bilməmək* deməkdir. Bu köhnəlmiş ifadə orta əsr cəngavərlərinə xas olan bir cəhətdir. Belə ki, cəngavərlər turnirində iştirak edən şəxs öz sədaqətliyini sevdiyi xanıma göstərməli idi. Ona görə də onlar sevgililərinin onlara hədiyyə etdiyi letni qollarına bağlayırdılar. Beləliklə, cəngavərlər sözün əsl mənasında "ürəklərini qollarına taxırdılar".

"I never back off from showing my emotions whatever they are. I think if we all wore our hearts on our sleeves a bit more we'd all get on a lot better" [10].

The better part of valour is discretion ("King Henry IV") tarixizmi *cəsarəti, məğrurluğu* ifadə etmək üçün istifadə olunur.

At one fell swoop ("Macbeth") – tarixizmi isə *bir zərbədə, bir vuruşda, bir anda* mənasını verir.

Və yaxud

From whose bourne no traveller returns - ifadəsi *hələ heç kimin qayıtmadığı yerdə* (yəni ölüm səltənətində) mənasını verir. Burada işlənən *bourne* sözü köhnəlmiş sözdür, sərhəd və ya həddi bildirir. Şekspirin işlətdiyi çoxlu sayda köhnəlmiş söz və ifadələr ümumi istifadəyə verilmişdir ki, bu da Şekspirin dahiliyindən xəbər verir.

Köhnəlmiş sözlər ingilis yazıçılarının bütün əsərlərində heterojen söz qatını təmsil edir: yeni, köhnəni ləğv etməklə deyil, köhnəni formalaşdırmaqla təkmilləşdirməklə əmələ gəlir və yeninin köhnə ilə birgə mövcudluğu, bütün dil faktları ilə təsdiqlənir. Beləliklə, söz öz-özlüyündə "köhnələnə", yəni başqa bir söz və ya onunla sinonim olan sözlər tərəfindən canlı istifadədən çıxarıla bilər. Bununla belə, ingilis ədəbiyyatında xeyli sayda köhnəlmiş söz və ifadələrin olması onların lüğətinin zənginləşdirilməsində və ingilis dilinin leksik normalarının formalaşmasında oynadığı böyük rolu izah edir.

Ədəbiyyat

1. Виноградов В. В. Язык художественных произведений. «Вопросы языкознания», № 5, 2004, стр. 7.
2. Дэвидсон Д. Что означают метафоры // Теория метафоры. – М .,1990. – 251 с.
3. Хомский Н. Аспекты теории синтаксиса. М., 2002
4. Burns Robert. Selected prose of Robert Burns. – Edinburgh, 2006
5. Dickens. Ch. Dombey and Son. England: Bradbury & Evans, 1848.
6. Galsworthy, J. Maid in Waiting. https://libcat.ru/knigi/proza/klassicheskaya-proza/274673-john-galsworthy-maid-in-waiting.html
7. Lord Byron. The best works of Lord Byron. – London, 2005
8. Maugham W. S. The Moon and Sixpence. https://en.wikisource. org/wiki/ The_Moon_and_Sixpence/Chapter_XXXII
9. Pauwels A. Women Changing Language (London and New York, Longman, 1998), p. 235
10. Selected works of Shakespeare. – London, 2007.
11. Shaw B. Heartbreak House. https://librebook.me/heartbreak_house

UMUDOVA M.

SUMMARY
FEATURES OF THE USE OF METAPHORICAL HISTORICISMS

The article deals with the features of the use of metaphorical historicisms. Historical metaphors are mainly analyzed in the works of English authors. After analyzing the use of metaphor in various works of English authors, we can conclude that the metaphor is indeed the main, widely used trope. It is based not only on partial descriptions of heroes, environment, nature, but also whole poems, short stories, novels.

Historisms are words that have completely disappeared from the modern language. They describe objects and events that no longer exist. Sometimes they are also called obsolete words. Historicisms, unlike archaisms, have no synonyms in modern English. This is explained by the fact that the names of these words are obsolete. Historians can be associated with the events of relatively recent times. They help to recreate the color of the era, give the characteristics of the past in the description of history.

Key words: *metaphor, historicisms, obsolete words, simple metaphor, traditional metaphor*

УМУДОВА М.

РЕЗЮМЕ

ОСОБЕННОСТИ УПОТРЕБЛЕНИЯ МЕТАФОРИЧЕСКИХ ИСТОРИЗМОВ

В статье говорится об особенности употребления метафорических историзмов. Исторические метафоры в основном анализируются в произведениях английских авторов. Проанализировав употребление метафоры в различных произведениях английских авторов, мы можем сделать вывод, что метафора действительно является основным, широко используемым тропом. На ее основе строятся не только частичные описания героев, обстановки, природы, но также и целые стихотворения, рассказы, романы.

Историзмы – это слова, полностью исчезнувшие из современного языка. Они описывают объекты и события, которых больше не существует. Иногда их также называют устаревшими словами. Историзмы, в отличие от архаизмов, не имеют синонимов в современном английском языке. Это объясняется тем, что названия этих слов устарели. Историков можно связать с событиями относительно недавнего времени. Они помогают воссоздать колорит эпохи, дают характеристики прошлого в описании истории.

Ключевые слова: *метафора, историзмы, устаревшие слова, простая метафора, традиционная метафора.*

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: fil.e.d., professor Çingiz Qaraşarlı tərəfindən çapa tövsiyə olunmuşdur

AFƏT SƏFIXANOVA
VALİDƏ ABIYEVA
Azərbaycan Tibb Universiteti

İNGİLİS DİLİNDƏ SADƏ CÜMLƏLƏR VƏ AZƏRBAYCAN DİLİNDƏ QARŞILIĞI

Xülasə

İngilis dilində sadə cümlələr xüsusən cümlələrin qrammatik forması kimi qeyd olunur. İngilis dilində qrammatik qaydalarla tanış olmaq və onların Azərbaycan dilində qarşılığını incələmək tövsiyə olunur. İngilis dilində cümlələrin oxunmasında vurğunun da böyük rolu vardır. İngilis dilində əvəzliklər, sözönləri, köməkçi sözlər bir qayda olaraq vurğu qəbul etmir. Lakin isim, sifət, say, zərf, və sual cümlələri vurğu qəbul edir. Bu cümlələrdə intonasiya cümlənin vurğulu olduğuna görə qeyd olunur. Bütün bu qarşılıqlı əlaqələr dil sistemində öz əksini tapmışdır. Dil sistemi dil vahidlərinin bir-biri qarşılıqlı əlaqədə olmasını göstərir. Dil sistemi, adətən sistemin ünsürləri arasındakı əlaqələr məcmusu kimi anlaşılır. İnsanlar arasında ünsiyyət prosesinə xidmət edən dil leksik-qrammatik vasitələrdən fərqlənmir. Demək olar ki, onlar canlı nitqdə həmin vasitələrin mənalarının səsləndirici rolunu oynayır. Kontekstdən xaricdə götürülmüş bir cümlənin intonasiyası həmin cümlənin birinci növbədə daxili üzvlərinə bölünməsini təmin edir. Bu üzvlərin söz birləşmələri, tərkiblər və s. şəklində formalaşması, xüsusən budaq cümlə ilə tərkiblərinin fərqləndirilməsində intonasiya mühüm rol oynayır. Bu cümlələr müxtəlif qrammatik, sintaktik-semantik əlaqələrin nəzərə çarpmasında özünəməxsus rol oynayır. Mürəkkəb cümləni sadə cümlədən fərqləndirən əsas amil heç də ifadə olunan fikrin müxtəlifliyi, çoxşaxəliliyi deyil, struktur müxtəlifliyidir. Eyni intonasiya mürəkkəb cümlədə və sadə cümlədə verilə bilər. Mürəkkəb cümlələrin sadə cümlə ilə ifadəsi həmçinin nitqin emosional, ekspressiv təsir gücünü, o cümlədən, zaman, məkan, şərt və s. məntiqi ifadəliyi ya azaldır, ya da artıra bilir.

Açar sözlər: intonasiya, sifət, fel, ton

Müasir Azərbaycan və ingilis dillərində bu və ya digər cümlə üzvlərinin mövzu kimi çıxış etməsində müəyyən məna çalarlığının verilməsində məqsədlərdən asılı olaraq müxtəlif mövqeyə malik olması onların intonasiya xüsusiyyətlərində özünü göstərir. Müasir dilçilikdə müxtəlif cümlə tiplərinin, habelə sintaqm təşkil edə bilən cümlə üzvlərinin intonasiya cəhətdən tədqiqi cümlələr də aktual cümlələrdən sayılır. Bu mənada feli bağlama tərkibli sadə nəqli cümlələrin intonasiya-qrammatik cəhətdən təhlili maraq doğurur. Feli bağlama tərkibli genişlənmiş sadə cümlələrin intonasiya xüsusiyyətlərinə diqqət vermək lazımdır. Həm sadə, həm də mürəkkəb cümlələrdə vurğunun xüsusi rolu vardır. İngilis dilində vurğu, əsasən, birinci sözün

üstünə düşür. İngilis dilində vurğu intonasiya cümlələrinin deyilişində əsas rol oynayır.

Feli bağlama tərkibli söz birləşmələri nitqimizdə mühüm yer tutur. Hər hansı dil materialına nəzər salsaq, müəyyən qədər feli bağlama tərkiblərinin işləndiyini görə bilərik. Müasir ingilis və azərbaycan dillərində feli bağlama tərkibli birləşmələrə rast gəlmək mümkündür. Azərbaycan dilindəki feli bağlama tərkibləri, ingilis dilinə onlara müvafiq feli sifət və gerund tərkiblərinin bir sıra sözlərdən ibarət olması bu sözlər arasında məna və qrammatik əlaqələrin mövcudluğu, tərkibdəki ayrı-ayrı sözlərin müstəqil məna daşımaları və sintaktik vəziyyətlərinə görə fərqlənmələri göstərir ki, bu tərkiblər maraqlı quruluşa malikdir. Onların müxtəlif məna növləri içərisində özünü kəskin biruzə verəni və feli bağlama tərkibləri mənanın əsas mahiyyətini təşkil edəni onların nisbi zaman anlayışı ifadə etməsidir. Müxtəlif semantik sıçrayışlar kommunikativ cəhətdən tipik quruluşa malik cümlələr onların müxtəlif forma və növlərinin əmələ gəlməsinə səbəb olur. Müasir Azərbaycan dilində bu tip tərkibli sözlər cümlənin əvvəlində, ortasında gələrək, özlərinə məxsus metodik rəngarəngliyə malik olurlar. Cümlənin sonunda gələn feli bağlama tərkiblərinə isə biz şeirlərdə rast gələ bilərik. Müasir Azərbaycan dilində feli bağlama tərkibli sadə cümlələr əvvəldə işlənərək dolğun bir məna kəsb edir. “İbrahim də oynamağın daşını atıb, dərslərinə davam etdi”. İsim cümlələri cümlədə ismin budaq cümlələridir. Budaq tərkibli sadə cümlələr, adətən, bağlayıcılardan ibarət olur. Tərkibli sadə cümlələr “if, what, how, who, which, how much və s” bağlayıcılardan təşkil olunmuşdur.

İsim budaq cümlələri əsas cümlələrin mübtəda və ya obyekti olurlar: İ bought a book- Mən kitab aldım. Bu cümlədə “book” obyekt, yəni tamamlıqdır. Onun yerinə bir işim cümləsi qoya bilərik. Məsələn: “İ bought what you wanted- Sən nə istədinsə, mən aldım.” Bu sadə cümlə bağlayıcılı sadə cümlədir(2.6-7) Baş cümlənin mübtədası olaraq istifadə edilən isim budaq cümləsinə aid nümunə: “Whoever visits our village doesn’t want to leave – Kim bizim kəndimizə baş çəksə, ayrılmaq istəməz”. “Whoever visits” baş cümlənin mübtədasıdır. İsim tərkibli budaq cümlələr həm ingilis, həm də Azərbaycan dilində geniş sadə cümlələrdir.

“İ know what it is to be young – Mən gənc olmağın nə demək olduğunu bilirəm. But yolu don’t know what it is to be old – Amma sən yaşlı olmağın nə demək olduğunu bilmirsən”. Bağlayıcılarla iki sadə cümləni birləşdirib bir sadə cümlə əmələ gətirmək olar. Məsələn: “A woman opened the door. She was wearing a white dress.- Bir qadın qapını açdı. O ağ bir paltar geyinirdi.” “Who, that” əvəzliklərindən istifadə edə bilərik. Vacib olan qayda budur. İkinci cümlə hər zaman ilk cümlədəki bir sözlə əlaqəli məlumat verməkdədir. Buradakı nümunəyə baxdığımızda ikinci cümlədəki “o” birinci cümlədəki qadınla əlaqəli məlumat verir. Onda demək ki, “woman” sözündən sonra “who” istifadə edib ikinci cümləni yazmaq lazım gəlir: “The woman who was wearing a white dress opened the door.- Ağ paltar geyinən qadın qapını açdı”. Burada “who” sözü əlavə məlumat verə

biləcəyimiz sözün düz ardından gəlmişdir. Sözlərin yerini dəyişərək cümlə fərqli bir mənada dəyişə bilər: “The woman who opened the door wearing a white dress.- Qapını açan qadın ağ paltar geyinirdi”. “Who, which” tərkibli sadə cümlələr daha çox işlənən cümlələrdir.(2.10-11)

Sadə cümlə qrammatik əsası mübtəda və xəbərdən ibarət olan cümlələrdir. Əsas fikir bu cümlə üzvləri vasitəsilə öz ifadələrini tapır. İstər ingilis,isrərsə də azərbaycan dilində hər iki baş üzvlərin iştirakı ilə vacibdir. The door is opened-Qapı açıldı və s. İkinci dərəcəli üzvlərin iştirak etmədiyi cümlələr həm də müxtəsər kimi qeyd olunur. Lakin baş üzvlərlə bərabər ikinci dərəcəli üzvlərin iştirak etdiyi sadə geniş cümlələr də vardır. She gave me flowers which he picked in their garden. Mürəkkəb cümlələr isə baş və budaq cümlədən ibarətdir. Bu cümlələr bağlayıcılar, yer zərfliklər vasitəsilə bir-birinə bağlanırlar. Baş və budaq cümlələrdə söz sırası demək olar ki, budaq cümlənin xəbərinin sonda olması ilə göstərilir. Əgər xəbər tərkiblidirsə (iki və daha çox hissədən ibarətdirsə)bu zaman təsnif edilən hissə cümlənin lap sonunda olur, təsnif edilməyən hissələr isə ondan əvvəl gəlir, “nisbi” inkar əvəzliyi isə xəbərdən əvvəl gəlir. Ayrılan söz önləri belə halda ayrılmır və mübtəda dərhal bağlayıcıdan sonra yaradılır(2.24-25). Sadə cümlədən fərqli olaraq ingilis dilində mürəkkəb cümlə hər birinin öz mövzusu və predikatı olan əsas hissə və bir və ya daha çox asılı hissənin olduğu bir cümlədir. İt was raining when we came to Baku- Biz Bakıya gələndə yağış yağırdı. Bu mürəkkəb cümlə iki əsas sadə cümlədən ibarət olub bağlayıcı ilə bağlanmışlar. “Yağış yağırdı” və cümlə isə “biz Bakıya gələndə” cümlələridir. İngilis dilində mürəkkəb cümlədə izah olunan əsas hadisə bu cümlədə göstərilir.

İngilis dilində sadə cümlə dedikdə, əsasən, cümlədə söz sırası mübtəda xəbər ardıcıllığı nəzərdə tutulur. İngilis dilində cümlələrdə baş üzvlərin və nadir hallarda ən çox 1-2 ikinci dərəcəli üzvlərin istifadə olunduğu təməl qrammatik qaydaları daşıyan əsas cümlə növləridir. İkinci dərəcəli üzvlər asılı olduğu baş üzvdən əvvəl və ya sonra gəlir. Bu cümlə növlərini tələblərə ilkin mərhələlərdə aşılanır. Şəxssiz cümlələr də sadə cümlələr sırasına aiddir. İngilis dilində şəxssiz cümlələrin mübtədası formal şəkildə olur və Azərbaycan dilinə tərcümə olunmur. İt is morning-Səhərdir. Şəxssiz cümlələrin xəbəri həm nitq hissələri, həm də fel vahidləri ilə ifadə olunur. Hərəkətin və ya hökmün qeyri-müəyyən şəxsə aid olan cümlələr də müəyyən şaxəli sadə cümlələr kimi qeyd olunur. Qeyri-müəyyən şəxsli cümlələrin xəbəri üçüncü şəxsin cəmində olur. ”They will come-Deyirlər ki o gələcək”. Xəbərdəki şəxs qeyri-müəyyən şəxsli sadə cümlələrə aiddir. Bu cümlələrdə konkret bir fikir göstərilmir. Bir çox dillərdə olduğu kimi ingilis dilində də eyni anda bir neçə hərəkət əhatə edən və təsvir edən cümlələr qurmaq olar. Öz növbəsində cümlədəki hərəkətlərin mahiyyəti əhəmiyyət dərəcəsinə görə bölünə bilər. Onlar eyni ola bilər, ekvivalent ola bilər, qrammatik xüsusiyyətlər bir mövzu ilə razılaşmağı bacaran və cümlədə sayım şəklində qeyd olunur. Tipik olaraq, bu hərəkətlər müəyyən bir zamanda eyni cür həyata keçirilir. Bunlar mürəkkəb cümlələr deyil, ümumi sadə cümlələrin

formalaşmasından əmələ gəlir. Cümlədəki hərəkətlər bərabər ola bilər. Bu cümlələr bir-birindən mənalı olaraq iki mövzuya və xəbərə sahib ola bilər. Cümlənin hər iki hissəsi eyni qaydaya tabe olur. Demək olar ki, ingilis dilindəki mürəkkəb cümlələr bir neçə cümləni birləşdirən bir növ sintaktik birləşmələrdir. Mürəkkəb cümlənin tamamlayıcısı bir-biri ilə əlaqəli elementləridir. Nadir hallarda fərqli təbiətdəki hərəkətlər eyni mövzu ilə əlaqəli ola bilər və sonra bu yenidən xatırlanır.(2.30-32)

Azərbaycan və ingilis dillərində sözlərin mənalarına diqqət yetirdik. Hər iki dildə nəqli cümlələr sabit söz sırasına malikdir. Hər bir cümlə üzvü müəyyən mövqelərdə yerləşir və söz sırasının pozulması mənanın dəyişməsinə və ya cümlədə mənanın itməsinə gətirib çıxarır. İngilis və Azərbaycan dillərində cümlənin əvvəlində gələn feli bağlama tərkiblərinin metodik vasitəsi çox ifadəli şəkildə özünü göstərir ki, bu da onların xüsusiləşmələrinə və sintaqm kimi ayrılmalarına kömək edir. Başlanğıc mövqeyində ya bu tərkiblərdə ifadə olunan hal və hərəkət mühüm bir əhəmiyyət kəsb edir, ya tərkibindəki sözlərdən biri və ya bir neçəsi məntiqi vurğu daşıyır, geniş bir fikri ifadə edir. Əsas səs tonunun kəskin qalxması həmin sintaqmların sonunda onların bütöv cümlənin tərkibində ayrılma vasitəsi olur: “Having sealed and posted this letter hə went into the dining room. -Bu məktubu möhürlədəndən və yola salandan sonra o, qonaq otağına getdi.”

“Learning over the window, he saw her riding forth with Val.- Pəncərəyə tərəf əyilərək onu Valla irəli çapan gördü”. Bu cümlədə feli sifət tərkibli cümlələrin əvvəlində gələrək çox ifadəli şəkildə özünü göstərir. Xüsusiləşərək ayrıca sintaqm təşkil edir. Aşağıdakı feli sifət tərkibi bəzən ara söz kimi işlənə bilər (3.21-22). Həmçinin təhlillər göstərir ki, onların ayrıca sintaqm təşkil edərək qalxan tonla hüdudlanırlar. Adətən onlar vurğulu olurlar. Bununla yanaşı onların ritmikası mənalarından asılı olaraq enən və qalxan tonlu olur. Danışıq tempinin sürətli, əsas səs tonunun intensivlik cəhətdən güclü olması ilə seçilirlər. “They seperated crying quietly.- Onlar sakitcə ağlayaraq ayrıldılar.” Burada da cümlənin sonunda gələn feli tərkib ayrıca sintaqm əmələ gətirmiş və eyni zamanlılıq cümlənin xəbərində özünü büruzə verir. Həmçinin müasir ingilis dilində xüsusiləşmiş cümlə üzvlərinin cümlələrin əsas hissələrindən ayrılmasında vergül mühüm rol oynayır. Azərbaycan və ingilis dili sistemində qanunauyğunluq və fərqlilik misallarda göstərilmişdir. Beləliklə, bir dil hadisəsi kimi sıralanmanın məzmun və mahiyyəti açılmış sintaktik vahidlərin sıralanmasından təcrid edilmiş şəkildə, kateqoriya kimi nəzərdə tutulmamışdır. Məlum olduğu kimi hər bir cümlə üzvü müəyyən mövqelərdə işlənmişdir. İngilis dilində cümlədə söz sırası mübtəda, xəbər, tamamlıq, zərflik ardıcıllığı üzrə formalaşır. İngilis dilində sual cümlələrinin inversiyası geniş inkişaf etmişdir. Belə cümlələrin xüsusi intonasiyası və kommunikativ məqsədləri olur(4.16-17). Bu məqalədən məlum oldu ki, bağlayıcılar bir-biri ilə qrammatik və məntiqi cəhətdən əlaqələnərək sadə geniş cümlələrin düzəlməsində əsas rol oynayır. Onlar, əsasən, zərflik budaq cümlələri tərkibində istifadə olunurlar. Budaq cümlələr baş cümlədən əvvəl durduqda budaq cümlə qalxan, baş cümlə isə düşən tonla tələffüz

olunur. Belə ki, xüsusiləşmiş cümlə üzvləri cümlələrin başında durduqda vergül işarəsi ondan sonra, ortada gəldikdə hər iki tərəfdən, axırda gəldikdə ondan əvvəl qoyulur. Bu da onların sintaqm kimi ayrılmalarının göstəricisi kimi qeyd olunur.

SUMMARY
SIMPLE SENTENCES AND THEIR EQUIVALENTS IN AZERBAIJAN LANGUAGE.

A simple sentence has the most basic elements that make it a sentence, a subject a verb and etc. Simple sentences are the most basic of the four different types. As we might already know a sentence is a grammatical unit made up of one or more words. Every sentence begins with a capital letter and ends with a full stop. A simple sentence as in the Azerbaijan language is made up of a single independent clause. In other words a simple sentence is the most basic sentence that we could possibly create. This article devoted in the international grammatical characteristics of simple sentence with participials in Azerbaijan and English languages. While analyzing these sentences great attention was given to the linguistic factors. The author emphasizes its role in linguistics. The most remarkable aspect of human language is the range of purposes it served the variety of different things that people make language do for them. Casual interaction in home and family instruction of children, activities of production, distribution like building and more specialized functions may be covered by one person on one day's talk. An "undeveloped" language would be one that serves in the society of question. A language that is developed, being used in all the functions that language serves in the society by those who speak it as their mother tongue. The members of society tend to attach social value to their languages according to the degree of their development.

Key words:intonation,tone,simple,adjective

РЕЗЮМЕ
ПРОСТЫЕ ПРЕДЛОЖЕНИЯ В АНГЛИЙСКОМ ЯЗЫКЕ И ИХ ЭКВИВАЛЕНТ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

Предложение это отдельное высказывание, имеющее интонационную и смысловую законченность. Предложениям называется слово или группа слов организованные по правилам грамматики которые несут определенное сообщение, вопрос к действию.

It's raining, go outside и т.д. Предложения английского языка, как и азербайджанском языке, в зависимости от того сколько грамматических основ. Простые предложение в котором есть только грамматическая основа. Kate likes dogs. Простые предложения в английском языке делятся на распространение и нераспространение. Статья посвящена преподавании интонационно-

грамматические особенности простых предложений с причастиями в Азербайджанском и английском языках. Один из важнейших цель раскрывать из интонационное употреблении в разных позициях. В процессе выполнения речевых упражнений предлагается обсуж.

Повторение одних из речевых структур обеспечивает закрепление речевым материалам.

Ключевые слова: интонация, тон, глагол предложение, прилагательные.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: Prof Məmmədova Z.Ş.
tərəfindən çapa tövsiyə olunmuşdur

MƏMMƏDOVA GÜLARƏ HÜSEYN QIZI
ADU
İngilis dilinin qrammatikası kafedrası
gularemammed@yahoo.com

SÖZ BİRLƏŞMƏLƏRİNİN TƏSNİFİ BARƏDƏ BƏZİ FAKTLAR

Xülasə

Müasir ingilis dilində mövcud olan söz birləşmələri komponentlərin sərbəstliyinə və qeyri-sərbəstliyinə görə də təsnif edilə bilər. Bu baxımdan müasir ingilis dilində iki qrup söz birləşməsi vardır:

1) Komponentləri sərbəst olan söz birləşmələri;

2) Komponentləri qeyri-sərbəst olan söz birləşmələri [1, s.346].

O.Musayev yazır ki, ingilis dilində elə söz birləşmələri var ki, onların komponentləri sərbəst olmur [2, s.346]. Bu cür söz birləşmələrində onu təşkil edən sözlər bir-birindən asılı deyil, sərbəst olur. Bu cür söz birləşmələrinə sərbəst söz birləşmələri deyilir [2, s.346]. Məsələn:

Girls and boys, either boy or they və s.

Digər qrup söz birləşmələrində isə sözlərdən biri aparıcı, digəri isə ona tabe olur. Bu cür söz birləşmələri də qeyri-sərbəst söz birləşmələri heab olunur. Məsələn: a village teacher, an interesting article, some of the children, made of gold, made of brown, the decision of the committee və s.

Müasir ingilis dilində elə söz birləşmələri də var ki, onlar danışıq prosesində formalaşmır, dildə hazır vəziyyətdə mövcud olur. Məsələn: to have a walk, to take care of, to have dinner, to fall in love, to fly into a rage, to go mad, to have something və s.

Qeyd etmək lazımdır ki, dildə olan bu növ söz birləşmələri frazeoloji birləşmələr adlanır və onlar qrammatikanın deyil, dilçiliyin ayrıca bir bölməsi olan frazeologiyanın tədqiqat obyekti hesab edilir.

Müasir ingilis dilində mövcud olan söz birləşmələrinin komponentləri arasında bir sıra sintaktik əlaqələr vardır:

1) Yanaşma əlaqəsi;

2) Uzlaşma əlaqəsi;

3) İdarə əlaqəsi;

4) Qapanma əlaqəsi;

Açar sözlər: *söz birləşməsi, təsnifat, komponent, sərbəst, dil, danışıq*

Bir çox dillərin əksəriyyətində söz birləşmələri yuxarıda göstərilmiş sintaktik əlaqələr zəminində formalaşır. Bu müasir ingilis dilində də belədir. Bu sahələr arasında mövcud olan fərq sintaktik əlaqələrdən hər birinin işlənmə miqyasında müşahidə edilir. Bu məsələ, yəni yuxarıda qeyd edilmiş sintaktik əlaqələrin müxtəlif

dillərdə işlənmə miqyası təsadüfi olmayıb, hər bir konkret dilin morfoloji quruluşu ilə şərtlənir: zəngin morfoloji quruluşa malik olan dillərdə, məsələn, rus dilində uzlaşma və idarə əlaqələri, morfoloji quruluşca zəngin olmayan dillərdə, o cümlədən də ingilis dilində, əsasən yanaşma əlaqəsi geniş işlənir.

Söz birləşmələrinin komponentləri arasında mövcud olan sintaktik əlaqənin şəkilçilərlə deyil, yalnız söz sırası vasitəsilə ifadə edilən növünə yanaşma əlaqəsi deyilir [3, s. 11].

Müasir ingilis dili analitik quruluşa malik olduğundan bu dildə söz birləşmələri əsasən yanaşma əlaqəsi vasitısilə formalaşır. Yanaşma əlaqəsi zəminində mövcud olan söz birləşmələrində tabe söz tabeedici sözdən bilavasitə ya əvvə, ya da sonra durur. Məsələn:

Stone bridge (daş körpü), *interesting article* (maraqlı məqalə), *difficult suggestion* (çətin təklif), *low hill* (alçaq təpə) və s.

Digər nümunələr:

To speak fluently, to go quickly, a place vacant və s.

Uzlaşma söz birləşmələrinin komponentləri arasındakı sintaktik əlaqələr elə bir əlaqədir ki, burada tabe söz tabeedici sözlə eyni morfoloji formada işlədilir. Uzlaşma ən çox cinsə və kəmiyyətə görə olur. Bu səbəbdən də o, bir sintaktik əlaqə növü kimi ən çox ismi cins, hal və kəmiyyət kateqoriyasına malik olan dillərdə, məsələn, rus, alman və s. dillərdə çox işlədilir.

Müasir ingilis dilində ismin qrammatik cins mənasının özünün xüsusi şəkilçisi olmadığına və hal kateqoriyasının zəif olduğuna görə bu dildə uzlaşma çox az halda müşahidə olunur. Müasir ingilis dilində uzlaşma əlaqəsi yalnız birinci komponenti *say*, yaxud *this, that* işarə əvəzliklərindən biri, ikinci komponenti isə isimdən ibarət olan söz birləşmələrində müşahidə edilir. Qeyd edək ki, tabeedici söz təkdə olduqda, tabe söz təkdə, cəmdə olduqda isə cəmdə işlədilir. Məsələn:

One apple – five apples; one book- three –books;

This pen – these pens; that house – those houses;

Söz birləşmələrinin komponentləri arasında müşahidə olunan sintaktik əlaqələrdən biri də idarə əlaqəsidir. İdarə əlaqəsində tabeedici söz tabe sözün müəyyən formada işlədilməsini tələb edir və onun tərəfindən idarə olunur. Bu səbəbdən də bu əlaqə növü idarə əlaqəsi adlanır.

İ.Arnold yazır ki, idarə əlaqəsi də uzlaşma əlaqəsi kimi, müasir ingilis dilində az işlənən sintaktik əlaqə növüdür [4, s.22]. Bu dildə ancaq şəxs əvəzliklərinin feildən və sözönündən sonra obyekt halında işlənməsini idarə adlandırmaq olar. Məsələn:

Visit them. Ask her; for us; from him; with them və s.

Bu zaman tabeedici söz feil və ya sözönü şəxs əvəzliklərinin obyekt halda işlədilməsini tələb edir.

Müasir ingilis dilində idarə əlaqəsi həm də who sual əvəzliyi ilə əlaqədar olaraq işlədilir. Bu zaman tamamlığa sual verərkən who əvəzliyinin obyekt hal forması tələb olunur. Məsələn, Whom did you see in the yard? Bu halda to see feili who sual

əvəzliyinin obyekt halda işlədilməsini tələb eidr ki, bu da idarə əlaqəsi deməkdir.

O.Musayev yazır ki, müasir ingilis dilində bu halda whom əvəzinə who da işlətmək olar [2, s.350]. Məsələn: Whom did you see in the room? Sual cümləsinin yerinə Who did you see in the room da demək mümkündür.

Müasir ingilis dilində söz birləşmələrinin komponentləri arasında mövcud olan sintaktik əlaqənin ifadəsində daha bir ifadə üsulu vardır. Bu zaman söz birləşməsinin bir elementi onun digər bir elementinin hissələri arasında durur. Müasir ingilis dilində söz birləşmələrinin komponentləri arasında mövcud olan sintaktik əlaqənin bu tərzdə ifadə olunmasına qapanma əlaqəsi deyilir.

İngilis dilində qapanma əlaqəsi əsasında formalaşan söz birləşməsi sifət və ya feili sifət + qeyri-müəyyənlik və ya müəyyənlik artikli ilə işlənən isim və ya işarə əvəzliyi+isim tərkibindən ibarət olur. Bu növ söz birləşmələrində sifət ismə aid olan qeyri-müəyənlik və müəyyənlik artikli və ya işarə əvəzliyi ilə isim arasında durur, sanki sifət isimlə on aid olan artikl və ya işarə əvəzliyi ilə bağlanır. Nümunələrə müraciət edək:

A high hill, a nice girl, a long road, a lost hope, an important proposal və s.;

The clever man, the short article, the interesting newspaper, the received letter və s.;

This long conversation, these fresh vegetables, that lost key, these broken umbrella və s.;

Birinci qrup nümunələrdə keyfiyyət ifadə edən bəzi sifətlər, ikinci qrup misallarda ismə aid olan və onun keyfiyyətini bildirən sifətlər müəyənlik artikli ilə isim arasında, üçüncü qrup nümunələrdə isə ismə aid olan və onun keyfiyyətini bildirən sifətlər işarə əvəzliyi ilə isim arasında işlənmişdir. Bu o deməkdir ki, təyinlə təyin olunan söz arasında mövcud olan sintaktik əlaqə qapanma vasitəsilə ifadə edilmişdir.

Müasir ingilis dilində qapanma üsulu ilə formalaşan söz birləşmələrinin digər bir növünə də təsadüf edilir. Bu növ söz birləşmləri müəyyənlik artikli ilə işlənmiş isim+zərf tərkibindən ibarət olur. Məsələn:

The then movie, the then actor və s.

Nümunələrdən də göründüyü kimi, bu misallarda then (o vaxtkı, o zamankı) zərfi müəyyənlik artikli (the) ilə ona aid olan isim (movie, actor) arasında qapanmışdır.

Qeyd etmək lazımdır ki, qeyri-müəyyənlik artikli+sifət+isim əsasında formalaşmış söz birləşmələri müasir ingilis dilində çox işlədilir.

Frazeoloji birləşmələr söz birləşmələrini növü kimi geniş işlənir.Dilçilikdə frazeologiya sabit ifadələri öyrənən bir elm sahəsidir. Onun tədqiqat obyektinə idiomlar, frazeoloji feillər və digər çoxmənalı və çox funksiyalı leksik ifadələr daxildir. Frazeologiya barədəsində çox tədqiqat işi aparılıb və çox danışılıb, odur ki, biz ancaq frazeologiyanın söz birləşmələri kimi növündən bəhs edəcəyik.

Frazeoloji birləşmələrin əsasını frazeoloji ifadələr təşkil edir. Bu ifadələr ingilis dilində “phraseological units”, yaxud “phrasemes” adlanır [5, s.99]. A.V.Kununə

görə, frazeoloji birləşmələr sabit söz birləşmələridir və onların mənaları az və ya çox dərəcədə dəyişmiş olur [5, s.101]. Bir neçə leksik mənası fərqli anlamlar ifadə edən frazeoloji birləşmələri nəzərdən keçirək:

To kick the bucket – *ölmək; vəfat etmək;*

To drink till all is blue - *bir işə çox səyy göstərmək və uzun müddət uğur qazana bilməmək;*

Drunk as a fiddle - *alkoqoldan həddindən artıq sərxoş olmaq;*

Greek gift - *zərər vermək niyyəti ilə verilən hədiyyə; xoş niyyətli olmayan hədiyyə;*

Frazeoloji birləşmələr, personajların daxili nitqinə, müəllifin düşüncələrinə bir qədər ifadəli rəng qatır; çoxsaylı dialoqlara emosional rəng verir.

D.Vayn oxucuları aşağıdakı ifadələri eşidəndə hansı vəziyyətdən söhbət getdiyini anlaya bilirlər. Məsələn:

To be a million miles – *diqqəti dağınıq; düşüncəyə dalan; fikirli olan;*

To be lost a mile back somewhere – *uğursuzluğa düşmək;*

To give hell – *kimisə danlamaq; utandırmaq;*

To get somebody's tongue around – *çətin bir söz demək və ya tələffüz etmək;*

Perish the thought – *xoş olmayan təklif;*

Foot the bill –*hesabı ödəmək;*

Söz birləşmələrinin mənasının açılması üçün ilk əvvəl onları təşkil edən sözlərin mənalarının aydın olması lazımdır. Söz birləşmələrinin mənasının öyrənilməsi zamanı bəzi məqamlara diqqət yetirmək lazımdır. F.Veysəlli yazır ki, mənanın öyrənilməsi əvvəldən kontrastiv olmalıdır: iki dildə müqayisə, bir dil daxilində müqayisə (sinonimiya, onomasiologiya və s.) diaxronik araşdırmalar sözün etimologiyasını müəyyənləşdirməyə imkan verir [6, s.147].

Müqayisəni qohum dillərin materialı əsasında aparanda bu və ya digər sözün haradan gəldiyini, hansı etimologiyaya malik olduğunu müəyyənləşdirmək olar. Türk dillərində bunu asanlıqla görmək olur. Məsələn, "uçaq" sözü bizim də dilimizdə geniş işlənən sözdür. Bu söz ümumtürk sözü "uçmaq" feilindən yaranıb. Bu onu ifadə edir ki, söz mənalarının müqayisəsini alınma sözlərin timsalında daha uğurlu həyata keçirmək olar. Bu zaman çox sayda sinonim sıraları yaranır. Müqayisə edək: *sıxışdırma:represiya, fəza:kosmos, hava limanı:aeroport* və s.

Qeyd edək ki, son illərdə başqa dilə alınmalar həm eksponent, həm də semantik eyniliyini saxlayır. İstənilən dildə feillərdə rəngarənglik çoxdur. İngilis dilində o qədər birhecalı feil var ki, onların Azərbaycan dilində birbaşa qarşılığı yoxdur. Sözləri məna qruplarına bölmək və bir dilin konkret sahəsinə aid olan sözləri başqa dilin həmin sahəsinə aid edə bilərik.

Y.Trir keçən əsrin 30-cu illərində belə söz nəzəriyyəsi işləyib hazırladı ki, sözləri ayrılıqda deyil, başqa sözlərlə bağlı məna sahələrində qruplaşdırmaqla öyrənmək lazımdır. Bu dilçilik tarixinə sahə nəzəriyyəsi kimi daxil olur. Sonralar bəzi alimlər bu nəzəriyyəni tənqid edərək göstərirlər ki, bu nəzəriyyədə sözdən çox sahəyə fikir

verilməlidir [7, s. 10]. Qeyd edək ki, sahə dilin immanent kateqoriyası olmayıb söz fondunu tədqiq etmək üçün bir üsul və vasitədir. Sahənin sərhədini müəyyən etmək çox çətindir. Sahənin hüdudu şəxslərin maraq dairəsindən asılıdır.

Qeyd edək ki, bütün dillərdə olduğu kimi, müasir ingilis dilində də mənalı və mənasız söz birləşmələri vardır. Söz birləşmələri deyilməli, yazılmalı, oxunub başa düşülməli və məna tutumuna malik olmalıdır. Bu şərtlər yerinə yetirilərsə, istənilən söyləm özlüyündə düzgün olar. Hər bir sözün, söyləmin və cümlənin özlüyündə kontekstdən asılı olmadan mənası ifadə mənası kimi dəyərləndirilə bilər.

Burada propozisiya və propozisional mənanı, digər tərəfdən isə reallıq dəyəri ilə reallıq şərtlərini bir-birindən fərqləndirmək lazımdır. Yəni bu şərtləri mənanın müəyənləşməsini yoxlamaq üçün cəlb etmək vacibdir. Azərbaycan dilində ölmək feilini rəhmətə getdi, dünyasını dəyişdi və s. şəklində, ingilis dilində die feilini *to pass away, to kick the basket, to leave the world* və s. şəklində işlədirik. Cəmiyyətin hazırkı inkişaf mərhələsində "ölmək" (to die) bir növ tabu, "keçindi" (*to pass away*) isə efemizm kimi qəbul edilir [8, s. 12].

İstənilən halda söz birləşməsinin işlədildiyi cümlə qrammatik cəhətdən düzgün qurulmalıdır. Söz birləşməsinin ikinci şərti onun mənası olmalıdır. Lakin, təbii ki, mənasız söz birləşmələrinə də rast gəlmək olar.

Qeyd edək ki, söz birləşmələrindən fərqli olaraq söyləmlər qrammatik cəhətdən düzgün qurulmaya bilər. Lakin onlar başa düşülür, çünki onların işləndiyi kontekst bu işi öz üzərinə götürür. Məsələn, /I want him come// İngilis dilini müəyyən mənada bilən hər bir kəs bilməlidir ki, bu cümlə qrammatik cəhətdən düzgün deyildi. Belə ki, cümlədə işlədilən "istəmək" (want) feilindən sonra /to/ ədatı işlədilmir [9, s. 2]. Bu sayda çox sayda nümunələr təqdim etmək olar.

DOĞRU	YANLIŞ
She forced her son to give up smoking.	She forced her son give up smoking.
I got my son to prepare his lessons.	I got my son prepare his lessons.
I had my son prepare his lessons.	I had my son to prepare his lessons.
He let his mother iron his trousers.	He let his mother to iron his trousers.
He makes his wife touch his documents.	He makes his wife to touch his documents.

Bütün dilçilər tabesizlik əsasında yaranan birləşmələri söz birləşməsi adlandırmır. Söz birləşməsi məna mərkəzinə malik olmalıdır. Söz birləşməsindəki sözlərdən biri qrammatik cəhətdən tabeedici olmalıdır.

Tabesizlik əsasında yaranan söz birləşmələrinin mövcudluğu artıq təsdiqini tapmışdır. İngilis dilində tabelilik əsasında yaranan söz birləşmələri ilə yanaşı, tabesizlik əsasında yaranan söz birləşmələri də mövcuddur.

Tabe olan sözün işlənmə yerindən asılı olaraq aparıcı sözü isim olan birləşmələr iki qrupa bölünür: a) tabe olan sözü isimdən əvvəl gələn ismi birləşmələr; b) tabe olan sözü isimdənsonra gələn ismi birləşmələr.

İki və daha artıq sözün birləşməsindən əmələ gələn dil vahidi söz birləşməsi kimi qəbul edilir. İki və daha artıq sözün hər cür birləşməsi də söz birləşməsi hesab edilə bilməz. İki və daha artıq sözün birləşməsi o zaman söz birləşməsi adlandırıla bilər ki, onda aşağıdakı iki şərt müşahidə olunsun:

1) iki və daha çox sözün birləşməsi nəticəsində alınmış dil vahidinin, yəni söz birləşməsinin malik olduğu nominativ məna həyat həqiqətlərinə uyğun gəlməlidir.

2) dildə iki və daha artıq sözün birləşməsindən ibarət olan vahidləri söz birləşməsi adlandırmaq üçün həmin söz birləşmələrinə daxil olan sözlərin dilə xas olan dil nümunələri əsasında sıralanması və onların müəyyən sintaktik əlaqə zəminində birləşməsidir.

Sözlərin ancaq məntiqi və qrammatik əsasda birləşməsi söz birləşməsi adlandırıla bilər. Söz birləşməsi elə sintaktik vahiddir ki, o, ən azı iki əsas nitq hissəsindən ibarət olmalıdır.

ƏDƏBİYYAT

1. Hüseynov A.R. İngilis dilinin nəzəri qrammatikası üzrə mühazirələr toplusu. Bakı: Mütərcim, 2015.
2. Musayev O.İ. İngilis dilinin qrammatikası. Bakı: Qismət, 1997.
3. Leonhard L. An Outline of English Lexicology. Tübingen: Max Niemeyer Verlag. 1992.
4. Arnold, I.V. The English Word Moscow: Higher School Publishing House, 1973.
5. Kunin, A.V. Osnovnie ponjatija angliyskoy frazeologii kak lingvisticheskoy disciplini. In *Anglo-russkiy frazeologicheskiy slovar*, 1233–1264. Moskva. 1967.
6. Veysəlli F.Y. Struktur dilçiliyin əsasları. Studia Philologica. Part III. Bakı: Mütərcim, 2009.
7. Арнольд И.В. Стилистика современном английского языка.М.: Просвещение, 1990.
8. Ахманова О.С.Словарь лингвистических терминов. Изд.3-е.М.:Комккниша, 2005.
9. Барабаш Т.А. Грамматика английского языка. М.: Высшая школа, 1983.

Mammadova G.

SOME FACTS ABOUT THE CLASSIFICATION OF WORD COMBINATIONS

Summary

The article deals with some facts about the classification of word combinations. It states that not all linguists call the combinations formed on the basis of subordination as word combinations. A word combination must have a meaning center. One of the words in the phrase must be grammatically subordinate. The stated facts have been analyzed in the article. Depending on the place where the subordinate word is used, the compounds whose leading word is a noun are divided into two groups: a) nominal compounds whose subordinate word precedes the noun; b) nominal compounds following the subordinate word. The coordination of the word units has been touched upon in the article as well.

A language unit formed by the combination of two or more words is considered to be a word combination. Any combination of two or more words cannot be considered a word combination. A combination of two or more words can be called a word combination if the following two conditions are observed: the nominative meaning of the language unit obtained as a result of the combination of two or more words, i.e. the combination of words, must correspond to the facts of life.

Key words: *word combination, classification, component, independent, language, speech*

НЕКОТОРЫЕ ФАКТЫ О КЛАССИФИКАЦИИ СЛОВОСОЧЕТИЙ

Резюме

В статье рассматриваются некоторые факты о классификации словосочетаний. Утверждается, что не все лингвисты называют сочетания, образованные на основе подчинения, словосочетаниями. Словосочетание должно иметь смысловой центр. Одно из слов во фразе должно быть грамматически подчиненным. В статье проанализированы изложенные факты. В зависимости от места употребления придаточного слова соединения, ведущим словом которых является существительное, делятся на две группы: а) именные соединения, придаточное слово которых предшествует существительному; б) именные соединения после придаточного слова. В статье затронута и проблема согласования словесных единиц.

Словосочетанием считается языковая единица, образованная сочетанием двух или более слов. Любое сочетание двух или более слов не может считаться

словосочетанием. Сочетание двух и более слов можно назвать словосочетанием при соблюдении следующих двух условий: номинативное значение языковой единицы, полученное в результате сочетания двух и более слов, т. е. сочетание слов, должно соответствовать факты жизни.

Ключевые слова: *словосочетание, классификация, компонент, самостоятельный, язык, речь*

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Zeynallı Gülyaz
tərəfindən çapa tövsiyə olunmuşdur

İNARA MÜTƏLLİMOVA
Azərbaycan Dillər Universiteti
Xarici dillər kafedrasının baş müəllimi
Rəşid Behbudov küç. 134
I-ferid@mail.ru

APPLICATION OF INTERACTIVE LEARNING METHODS IN ENGLISH LANGUAGE TEACHING

ABSTRACT

Different methods are used in teaching. Among them, passive method, active method, interactive method, etc. In this article, we will share our thoughts on the topic of "Application of interactive methods in teaching English". The passive method is now a thing of the past and is almost never used. But it is still practiced by some teachers. In this method, the student only listens to the lesson, the teacher speaks. But over the years, an active method was developed. When this method was created, teachers who used the passive method were opposed to it, but over time they were also eager to use the active method. Of course, it is important to use the interactive method in all lessons. But it is more important in language classes. It is especially important to apply this method in English classes. First of all, language lessons should be discussed. Not only the teacher, but the students should have discussions among themselves. Computers should be used, various short films should be watched, music should be listened to, and practical work should be done. The main demand of today's students is an interactive method. Therefore, it is possible to achieve better results if the teaching as a whole prefers the interactive method. Because this method is a tried and tested method.

Key words: Interactive method, active method, passive method, ICT (Information and Communication Technologies).

The active method has been used in education for years. The developed countries of the world used this method many years ago. But this method is still more widely used in Azerbaijan. In the Soviet education system, the passive method was used more often. The teacher just has to talk and that's it. Years have passed, but the influence of that education system is still evident. But the active method is already used in our educational institutions. In the active method, while the teacher is speaking, any student also joins the topic discussion and there is an activity in the class. Previously, the rule was that while the teacher was speaking, the student could not ask any questions or join the discussion. But in the active method, they were left behind. In the active method, when the teacher explains the topic, the student expresses his attitude, can ask questions, and the topic is explained in a mutual way. Active has played an important role in the world education system for some time, but

developed countries no longer use this method. Because the interactive method has already been created [2].

The educational experience of developed countries shows that the most correct way to educate a modern person is to use student-oriented interactive learning methods that accept the student as a subject rather than as an object of learning in the classroom. The interactive method is already used as the main method in European education. In this method, during the discussion of the topic, in addition to the discussion between the teacher and the student, there is also a discussion between the students. For example, a teacher teaches a lesson on any subject. During the course of the lecture, discussion among the students is an indication of this interactive method. Even though the Bologna education system is applied in Azerbaijan, it can be said that lessons are not taught in the interactive method. One of the reasons for this is the dominance of the older generation in education. Computer knowledge is required for the interactive method. Also, you must be a teacher with a modern world view, so that you can apply the interactive method during teaching.

In recent times, the development of science and technology has had a positive effect on all fields, and it has played an invaluable role in fundamentally changing the content of education and significantly modernizing the methods and technologies in the training process in order to educate the next generation as educated personnel. have not passed and the interactive methods applied in them are already widely used in the teaching of English as well as in the teaching of all subjects in our country. The teaching of the English language, especially its grammar, is different from the teaching of other humanitarian subjects and is closer to the exact sciences. Because in the teaching process of grammar, there is a chain connection between lessons and previous knowledge is often referred to. In order to succeed in maintaining this chain link, it is important to choose the right teaching method, so that the chosen method should be compatible with the learning goal, meet the visual, acoustic, kinesthetic requirements and, most importantly, should use differentiation if there is a difference in the knowledge and skills of the students. Since the main task of language is to serve communication, the main focus during language teaching is to ensure that students can communicate in the language being studied [1].

For this, the teaching of both grammar and vocabulary with innovative methods is very important. The biggest advantage of interactive lessons is that it includes a large number of pair-work and group work. Before proceeding to any form of pair work (write - share, draw - share, listen - ask, think - share), students should be given time to think and form their ideas. ("think time", 2-3 minutes of silent reflection). If the work in pairs is successful, gradually unite the students in groups of three-by-three and four-by-four and give them tasks suitable for group work (open-ended questions, use of mental attack strategy, problem situation, role-play, debate, etc.) can be directed [1]. During the teaching of English as a foreign language, as a result of the use of interactive teaching methods, students' activity and

interest in the lesson increases, they develop logical and critical thinking, as a result of strengthening their speech and thinking in a dialectical manner, they can think independently in English, respond to someone else's opinion in that language, freely abilities such as giving opinions are formed [4].

We live in the twenty-first century - the era of modern technologies. Technologies have a great impact on many aspects of our lives. People use technology extensively in commerce, marketing, business, healthcare, education and many other fields. At present, modern technologies have a greater influence on the field of education. Modern technologies are an essential tool for students to learn more effectively, and for teachers to present topics and tasks more creatively and effectively. To know how modern technologies are used in the field of education and to understand how they are effective, we must first understand what we mean by modern technologies. Modern technologies in the field of education mainly mean the use of information and communication technologies. This includes the collection, processing, transmission, protection and conversion of information. Such technologies are known in the world not only as a source of information, but also as fast communication in the main sense [3].

Information and communication are an integral part of society. In all cultures of the world, the transmission of information has been carried out in many different ways. This includes speech, song, drawing, writing, etc. includes. Writing is one of the greatest means of information transmission. Publication of writing, use of magazines, newspapers widely implements this. The latest innovative technologies have accelerated information transfer and brought communication to a higher level. People in different countries share information and communicate with each other at the speed of light through the Internet. In this way, people become closer to each other and get to know each other. They reveal similarities and differences between their cultures, thus creating mutual understanding. It is also possible to study in various famous universities through the Internet. Even people with limited physical abilities can study remotely in schools, colleges, and universities in this way. Indeed, the opportunities that the Internet gives us in the field of education are very important, and to put it simply, the Internet was created mainly for education [5].

The main function of the modern teacher is to teach the learners to learn. Therefore, the teacher must constantly work on himself and improve himself. Every day, new scientific knowledge is increasing and the content of education is constantly changing, new scientific knowledge is continuously included in university programs. The speed of this development in English, the emergence of new words and terms every day, prompts teachers to be more responsible. They should constantly update and improve their knowledge using ICT. For this, they can participate in online courses, join social networks and follow the daily media. The main provisions of the report of the international commission on education for the 21st century prepared by UNESCO have given special attention to these issues [6].

The report says, "Everyone should be convinced that the current and future achievements of science and technology, including the growing importance of cognitive and non-material factors in product production and service, require a new approach to the organization of labor and the status of workers in the future society. In order to create a new society, it is necessary to advance various technological achievements. Because the process of changing the modern world is happening very fast [5].

It is necessary to use ICT in language classes in such a way that learners actively participate in the learning process, see the fruits of their labor and can evaluate themselves. Main didactic principles such as systematicity, consistency, accessibility, diversity, and scientificity should be taken into account in the selection of teaching materials. However, the time allocated to studying teaching materials in universities is limited. The presence of such problems reveals the use of modern technologies and innovative educational methods as an important factor in the teaching process. If previously teachers were considered the main source of information, now they play the role of mediators between information and students. They should teach their students how to work with information. Considering all this, it is necessary to improve the content and technology of higher education as well as pedagogical education.

Experts have proven that after students first enter school, their cognitive processes begin to slow down to a certain extent. For this, lessons should be organized in such a way that they can affect the emotions of students, increase their motivation and involve them in the active learning process. There are several ways to do this. One of them is the use of different types of technology in lessons, that is, in English lessons. At this time, students are eager to actively participate in classes. This can be achieved by using ICT in the right way. Teaching English with interactive teaching methods is a process that takes into account the capabilities and needs of each student, the audience of students with different knowledge levels. The main essence of the training process is that training does not mean enriching students with scientific knowledge, but also the formation of thinking, independent acquisition and assimilation of knowledge, and formation of personal qualities of skills and habits [4].

Currently, the main goal of English language teaching is to develop students' communication skills. However, students in Azerbaijan are not surrounded by real English environment. Nevertheless, students can learn the language using radio broadcasts, television programs, and the Internet. In Azerbaijan, learners in both school and university environment learn language mainly by memorizing words. Teacher-directed lessons, mainly teaching grammar, organizing lectures based on exams are the main lesson types. Thus, they learn the language outside of a real situation, so their ability to use the language is very little developed and they quickly forget it because they cannot practice the language. One of the main issues is the

number of learners in language classes. So, since their number is large, the opportunity to communicate with the teacher decreases. The use of the Internet has led to great progress in the teaching of English, as in every subject. This also created wide opportunities in teaching methodology. In addition to giving students the opportunity to participate in real situations, the Internet also gave them the opportunity to learn English by listening and speaking directly using international sources. In this way, students gain experience, further develop their language skills, expand their international perspectives, acquire new knowledge, appreciate different cultures and increase their world views. The development of technology has also affected the continuous development of society. We cannot imagine our life without technologies. Therefore, the use of IKT in teaching English allows to obtain many innovations and advantages [7].

The use of ICT in teaching is a new method and means that engages and motivates students. Many studies show that some teachers have a fear of being left behind. They struggle to keep pace with ICT, innovation and the changing learning environment. But they have to overcome it and keep up with the times. By using ICT, students and teachers have the opportunity to use many original materials. No longer learning by rote, students will develop themselves by participating in a real language environment. Statistics show that the traditional method of grammatical translation is no longer used. The use of ICT in teaching is a new method and tool that attracts and motivates students. Many studies show that some teachers have a fear of being left behind. They struggle to keep pace with ICT, innovation and the changing learning environment. But they have to overcome it and keep up with the times. By using ICT, students and teachers have the opportunity to use many original materials. No longer learning by rote, students will develop themselves by participating in a real language environment. Statistics show that the traditional method of grammatical translation is no longer used [7].

Some personal and professional characteristics are required from teachers who teach with traditional methods to teach with a new innovative method. Many people spend hours playing games on the internet only on the computer. Some people can get irritated from communicating by writing and waiting for a reply. This is why it is important for teachers to be trained in order for students to successfully complete an ICT-based lesson, from fully equipping the classroom with ICT tools. Sometimes there are cases where the computer skills of the teachers are less compared to the young students, which creates distrust among some teachers. Other teachers talk about a completely different experience with the Internet. This is due to the fact that some students are too dependent on technical knowledge. In both cases, it is important to learn simple skills that are of practical importance to both teachers and students in the first lesson. These are skills that are learned very easily and in a short time. If both the teacher and the students have these simple skills, then they spend more attention on practicing the language than spending time on it.

REFERENCES

1. Agayev A. Theoretical and practical issues of using new training methods and technologies. Scientific works of ARTPI, 2006, p. 132
2. Bunyatova F., Abdulla B. Interactive Technology in Training and Education. Baku 2000, p. 85
3. Anderson, R., Becker, J School investments in insructional technology.Teaching, Learning and Computing, Report 8. Retrieved February 25, 2005, from http://www.crito.uci.edu/tlc/findings/report_8/startpage.htm,2001
4. British Council, Innovations in learning technologies for English languageteaching. British Council 2013, 43p
5. Chapple, C.A. English Language learning and technology. Amsterdam: JohnBenjamins, 2003
6. Crystal, D. English as a global language. Cambridge: Cambridge UniversityPress, 1997
7. Cuban, L. Oversold and underused: Computers in the classroom. CambridgeMA: Harvard University Press, 2001, 250p

ПРИМЕНЕНИЕ ИНТЕРАКТИВНЫХ МЕТОДОВ ОБУЧЕНИЯ В ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

РЕЗЮМЕ

В обучении используются разные методы. Среди них пассивный метод, активный метод, интерактивный метод и др. В этой статье мы поделимся своими мыслями на тему «Применение интерактивных методов в обучении английскому языку». Пассивный метод ушел в прошлое и почти не используется. Но это все еще практикуется некоторыми учителями. В этом методе ученик только слушает урок, учитель говорит. Но с годами был разработан активный метод. Когда создавался этот метод, против него выступали преподаватели, применявшие пассивный метод, но со временем они загорелись желанием использовать и активный метод. Конечно, важно использовать интерактивный метод на всех уроках. Но это важнее на языковых занятиях. Особенно важно применять этот метод на уроках английского языка. В первую очередь следует обсудить уроки языка. Не только учитель, но и ученики должны обсуждать между собой. Следует пользоваться компьютерами, смотреть различные короткометражные фильмы, слушать музыку и заниматься практической работой. Главным спросом сегодняшних студентов является интерактивный метод. Поэтому можно добиться лучших результатов, если обучение в целом отдает предпочтение интерактивному методу. Потому что это проверенный метод.

Ключевые слова: Интерактивный метод, активный метод, пассивный метод, ИКТ (информационно-коммуникационные технологии).

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ İNTERAKTİV TƏLİM METODLARININ TƏTBİQİ

XÜLASƏ

Tədrisdə müxtəlif üsullardan istifadə olunur. Onların arasında passiv metod, aktiv metod, interaktiv metod və s. Bu yazıda "İngilis dilinin tədrisində interaktiv metodlardan istifadə" mövzusunda fikirlərimizi bölüşəcəyik. Passiv üsul keçmişdə qalıb və demək olar ki, heç vaxt istifadə edilmir. Amma hələ də bəzi müəllimlər tərəfindən tətbiq olunur. Bu üsulda şagird ancaq dərsi dinləyir, müəllim danışır. Ancaq illər keçdikcə aktiv bir üsul hazırlanmışdır. Bu üsul yarananda passiv metoddan istifadə edən müəllimlər buna qarşı çıxsalar da, zaman keçdikcə aktiv metoddan da istifadə etmək həvəsinə düşmüşlər. Təbii ki, bütün dərslərdə interaktiv metoddan istifadə etmək vacibdir. Amma dil dərslərində bu daha vacibdir. Bu metodun ingilis dili dərslərində tətbiqi xüsusilə vacibdir. İlk növbədə dil dərsləri müzakirə olunmalıdır. Təkcə müəllim deyil, tələbələr də öz aralarında müzakirə etməlidirlər. Kompüterdən istifadə etməli, müxtəlif qısametrajlı filmlərə baxmalı, musiqi dinləməli və praktiki işlərlə məşğul olmalısan. Müasir tələbələrin əsas tələbi interaktiv metoddur. Buna görə də, ümumilikdə tədris interaktiv metoda üstünlük verərsə, daha yaxşı nəticələr əldə etmək olar. Çünki bu, sübut olunmuş üsuldur.

Açar sözlər: İnteraktiv metod, aktiv metod, passiv metod, İKT (informasiya və kommunikasiya texnologiyaları).

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: f.ü.f.d.V.S.Əliyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

ŞƏHLA BALACAYEVA
ADU
Rəşid Behbudov 134
e-mail:b.shahla1983@gmail.com

ORTA MƏKTƏBLƏRİN V-IX SİNİFLƏRİNDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİ ZAMANI KOMMUNİKATİV FƏALİYYƏTLƏRDƏN İSTİFADƏ METODİKASI

XÜLASƏ

Hazırda dünyada xüsusi rola malik olan və əsas ünsiyyət vasitəsinə çevrilən ingilis dilinin yüksək səviyyədə mənimsənilməsi təhsil müəssisələri qarşısında qoyulan əsas tələblərdən hesab olunur. Bu zaman müxtəlif kommunikativ tapşırıqları yerinə yetirmək üçün şagirdlər kommunikativ fəaliyyət növlərinə cəlb edilməli və kommunikativ strategiyalardan istifadə etməlidirlər. Burada istifadə edilən tapşırıq və çalışmalardan danışarkən, şagirdlərin hansı fəaliyyət növlərinə cəlb edilməsinin daha məqsədəuyğun olduğunu müəyyənləşdirməklə daha səmərəli nəticələrin əldə edilməsini təmin etmək mümkündür.

Bu mənada orta məktəblərdə şagirdlərin ingilis dilinə mükəmməl yiyələnməsində sözügedən işlərin təşkili prosesini izləmək vacib sayılır. Bu zaman şagirdlər əlavə məlumatlarla tanış olmaqla bərabər, öz bilik dünyalarını zənginləşdirilər.

Müxtəlif kommunikativ fəaliyyət növlərindən istifadə etməklə tədrisdə keyfiyyəti əldə etmək mümkündür. Motivasiya sahəsində müasir dövrdə aparılan tədqiqatlarda əsas diqqət daha çox ayrı-ayrı fərdlərin daxili və xarici amillərin qarşılıqlı təsirinə göstərdikləri reaksiyaya yönəldilir. Buradan bizi müəyyən davranışlara vadar edən motiv, maraq və tələbatlar barədə məsələlər ortaya çıxır. Motivasiya bir kəsi həvəsləndirmək məqsədinə nail olmaq üçün daxili təkan və münasibətlərə istiqamət verən ən önəmli faktorlardan biridir. Hər hansı bir məqsəd üçün hərəkətə keçməyə sövq edir, arzuları, ehtiyacları və s. təmin edir.Bır çox məqamlarda motivasiya şəxsin öyrənmə istəyi kimi təqdim olunur. Konkret olaraq, motivasiya arzu, niyyət, nail olmaq, motiv, məqsəd, məqam və s. kimi başa düşülür. Bunlar isə müxtəlif situasiyalarda müxtəlif cür izah oluna bilər. Kommunikativ fəaliyyətlərə gəlincə, onlar motivasiyaedici mühit formalaşdırırlar.

Beləliklə, şifahi nitqin inkişafında kommunikativ fəaliyyətlərin həyata keçirilməsi vacib şərt kimi nəzərə alınmalıdır.

Açar sözlər: motivasiya, metod, texnologiya, nitq, dil

Metodiki işlərin təşkili və aparılmasında çalışmaların, daha doğrusu, kommunikativ fəaliyyətlərə sövq edən çalışmaların böyük rolu vardır.

Bu baxımdan müxtəlif, rəngarəng, maraqlı mövzuların seçilməsi xüsusilə nəzərə alınmalıdır. Kommunikativ fəaliyyətlər dilöyrənənlə -dilöyrənən, dilöyrənən –müəllim

arasındakı şifahi ünsiyyətin təmin edilməsini dəstəkləyir. Bunlar internet vasitəsilə də mümkündür. Biz onları yeddi kateqoriyaya ayıracağıq: 1. Razılaşma 2.Müzakirələr 3.Təqdimatlar 4. Kommunikativ oyunlar 5. Problem həlli 6. Özün haqqında danışmaq 7. Simulyasiya və rollu oyunlar. Razılaşma kateqoriyasında dilöyrənənlər müvafiq müzakirələrdən sonra bir-biri ilə razılaşmalıdırlar. Bu baş verənə qədər tapşırıq tam hesab olunmur. "Razılaşma" adlı fəaliyyətlər azad fikir söyləmə və spontan nitq vərdişlərinin inkişafında müvəffəqiyyətli hesab olunur. Bu baxımdan verilmiş nümunəni nəzərdən keçirək. "Səyahət" adlı fəaliyyət növündə dilöyrənənlərə tətilə getmək və özləri ilə on əşya götürmək tapşırılır. Onlar on əşya ilə bağlı fikir birliyi əldə etməlidirlər. Dilöyrənənlərə getdikləri ölkədə iki həftə qaldıqları müddətdə öz çantalarına hansı on əşyanı qoymaq istədiklərini yazmaq tapşırılır. Onlar siyahını bitirdikdən sonra cütlüklərə bölünürlər. Hər bir cütlük tərtib etdiyi siyahını göstərməlidir. Bu, cütlüyün hər bir üzvünü orijinal siyahını dəyişməyə sövq edəcəkdir. Cütlüklər siyahını bitirdikdən sonra qalan iki cütlük qoşulur və yerdə qalan dörd təhsilalan bununla razılaşmalıdır. Daha sonra qruplar birləşir. Siyahılar yenidən işlənilir. Müəllim fəaliyyətin uzandığını gördükdə fidbək verilir. Qrup öz seçimini izah və müdafiə edir. Bu cür fəaliyyətlər olduqca maraqlı və əyəlncəli olmaları ilə dilöyrənənlərin diqqətini çəkir. "Dilemma" adlı növdə isə dilöyrənənlərə situativ və eyni zamanda alternativ təkliflər verilir. Bu zaman lüğətin öyrədilməsi, tapşırıqlar əsas hesab olunur[1,s.136]. Bundan əlavə, digər fəaliyyət növləri də mövcuddur ki, müzakirələrə həvəsləndirmək üçün bir yol da qruplardır. Burada onlar 3-4 nəfər olmaqla yerləşdirilir və mətnin ətrafında düşünmək tapşırılır. Müəllim bacardıqca daha çox fikir söyləməyi tələb edir. Nümunələr belə ola bilər. Dilöyrənənlər dənizkənarı səyahət haqqında müəyyən işlər həyata keçirməlidirlər. Onlar qruplara bölünərək, dəniz kənarındakı fəaliyyətlər haqqında düşünürlər. Bu qruplar geniş müzakirə fəaliyyətlərini formalaşdıra bilərlər. Bunları edəndə onlar həmrəylik göstərməlidirlər. Bu texnika müzakirələrə cəlb edilmək üçün kiçik tapşırıqlar əsasında yaxşı nümunədir. Debatlar yuxarı siniflər üçün də faydalıdır. Onlar 2 qrupa bölünərək, öz fikirlərini hazırlayırlar. Bu hazır olanda komandalar təklif irəli sürən və onlarla bu şəraitdə mübahisə edə biləni seçirlər. Digərləri qısa çıxışlar edə bilərlər. Müzakirələrin sonunda müəllim sərbəst səsvermə təşkil edə bilər ki, burada da təklifin qəbul edilib edilməməsi aşkarlanır. Bütün bu qeyd edilənlər İKT vasitəsilə də mümkündür. Belə ki, təhsil yüksək texnologiyalar vasitəsilə sürətlə inkişaf edir. Yüksək texnologiyalarla bağlı bir neçə yanaşma mövcuddur ki, onlar aşağıdakılardır:

1. Custom Learning Experiences(CLE)

Onu da qeyd edək ki, "Cloud-computing" olan yerdə "Apps" serverlərinin məlumatları qorunur. Bunlar tədris materialları kimi istifadə oluna bilir. Bu zaman istənilən kitabı oxuya, müəllim və şagirdlərlə əməkdaşlıq edə bilərik. Ev tapşırığı da yerinə yetirilə bilər. Bu həm də məlumatın qorunmasında da faydalı hesab olunur.

2. Speech –To- Text Options

"App" platformaları və digər vasitələr Apple Siri kimi virtual köməkçi rolunu oynayır. Belə köməkçilər səs əmrlərinə cavab verərək, öyrənməni daha asan formaya gətirir.

Bundan əlavə, "speech –to- text" keyfiyyəti qeyd götürmək və yazı yazmaq üçün daha rahat və cəlddir.

3. Virtual and Augmented Learning Experiences

Bunlar vasitəsilə dilöyrənənlər geniş öyrənmə təcrübəsini yerlərindən tərpənmədən də həyata keçirə bilərlər. Eyni zamanda geniş məlumatlar əldə edə bilərlər. Əgər sən fəza cisimləri haqqında 3 D fəza videolarını izləmək istəyirsənsə fəza gəmisində üzə, "Süd Yolu" nu detallarına qədər şərh edən bələdçinin səsini eşidə bilərsən .

4. 3D Printing

3D Print şagirdlərə kifayət qədər təcrübə qazanmağa kömək edir. 3 D vasitəsilə şagirdlər əşya və predmetlər haqqında asanlıqla bölüşə bilir. 3 D print vasitəsilə onlar təsvirlərə forma verə bilərlər. İstənilən təşkilat və müəssisələrdə bu dilöyrənənlərə ideyalarını bölüşdürmək və təcrübə əldə etməkdə yardım edir.

5. Learning Analytics

Bu yanaşmaya görə, qərar qəbul etmə prosedürü asanlaşır. Bu yanaşmanın əsas mahiyyəti dilöyrənənlərə kömək etmək, onları qiymətləndirməkdir. Yaxın gələcəkdə bu yanaşma fonunda dilöyrənənlər mövzular, müvəffəqiyyətlər barədə öncədən xəbərdar ola biləcəklər. Analitiklər bunun tədrisin bir yolu olduğunu qeyd edirlər və digərlərindən daha maraqlı olduğunu bildirirlər. Burada müəllimin rolu da danılmazdır. İKT vasitəsilə "Five- E- Lesson Plan" əsasında dərsləri həyata keçirmək mümkündür. Bunlardır: 1. Həvəsləndirmə 2. Biliyi genişləndirmə 3.İzah etmə 4.Əməkdaşlıq 5.Qiymətləndirmə. Birinci mərhələdə dilöyrənənlər dərsə həvəsləndirilirlər. İkinci mərhələdə video təqdimatlar vasitəsilə əsas termin və anlayışlar müəllim tərəfindən izah olunur. Üçüncüdə isə dilöyrənənlər əməkdaşlıq şəraitində qruplarda birlikdə çalışırlar. Belə ki, oyunlar, iş vərəqələri və digər istiqamətverici fəaliyyətlərə cəlb edilməklə motivə olunurlar. Dördüncü mərhələdə artıq sərbəst şəkildə fəaliyyət göstərirlər.Axırıncı mərhələ qiymətləndirmə mərhələsidir. Qeyd edək ki, hər "Five -e- Lesson Plan" qiymətləndirmə ilə bitir. Kommunikativ fəaliyyətlər "information gap" prinsipləri üzərində qurulur. Dilöyrənənlər tapşırıqlar yerinə yetirirlər. Bu fəaliyyətlərə aşağıdakılar da daxil edilir:

1.Information gap 2. Letter writing. Bu zaman dilöyrənənlər məktublar yaza bilərlər. Məsələn, *Note taking* etc.

Ümumiyyətlə, kommunikativ səriştənin formalaşdırılmasında aşağıdakı fəaliyyətlər ön plana çəkilir:

1. Communicative activities
2. Information –gap activities
3. Task-completion activities
4. Information-gathering activities
5. Opinion- sharing activities
6. Information-transfer activities
7. Reasoning-gap activities
8. Jigsaw activities
9. Role plays

Bunlar tədrisin səmərəliliyini təmin edən vacib şərtlərdəndir. Hər hansı dil materiallarının mənimsənilməsi zamanı tədricən mürəkkəbləşən tapşırıqların yerinə yetirilməsi və mərhələli şəkildə yaradıcı nitq ünsiyyətinə keçməsini mümkün edən amillərdən ən vacibi təhsilalanların dilin öyrənilməsı və ondan kommunikativ məqsədlərlə istifadə edilməsinə olan marağıdır[2,s. 89]. Məhz bu baxımdan müxtəlif mətnlərin təhlili vacib sayılır. Bu işlərin təşkili zamanı klassik ədəbiyyat nümunələrinin oxunması oxu bacarıqlarının inkişafına öz töhvəsini verə bilər.Əyani vasitələrin istifadəsi də faydalı hesab olunur. Belə ki, müəyyən bədii ədəbiyyat nümunəsi oxumaqla xarici dil müəllimləri dilöyrənənlərə müxtəlif kömmunikativ situasiyalar təqdim edə bilər. Əsərdə təsvir olunmuş kommunikativ situasiyalar əsasında onlar rollara girərək dialoq qura bilər və beləliklə, kommunikativ kompetensiyanın formalaşdırılması üçün səmərəli şərait yaradıla bilər. Heç şübhəsiz, tədris edilən xarici dildə ədəbiyyat nümunələrinin aşılanması müəllim və dilöyrənənlərin şüurlu, xüsusi şəkildə qurulmuş və məqsədyönlü fəaliyyəti prinsipləri üzərində təşkil edilməlidir. Bu da maraq və niyyətləri tam şəkildə fərqli olan müəllim və dilöyrənənlərin təlim prosesində fəal iştirakını nəzərdə tutur. Bu mənada yeni pedaqoji texnologiyaların tətbiqində əsas məqsəd planlı şəkildə düşünülmüş təlimdə başlıca şərt kimi şagird fəaliyyətinin intensivliyini ön plana çəkməkdir. Ümumiyyətlə, müxtəlif metodistlərin və müəllimlərin fikirləri bir məsələdə eynilik təşkil edir ki, hər bir dərs kommunikativ xarakter daşımalıdır. Lakin nitqin, eləcə də, xarici dilin tədrisi ünsiyyət yaratmaq vərdişindən əlavə, şagirdlərin həmin kommunikativ vərdişlərə yiyələnməsi prosesi kimi xarakterizə olunur. Burada xarici dil müəllimləri təhsilalanlara xarici dildə danışmanın, ünsiyyət yaratmanın yollarını, üsullarını, bütövlükdə metodikasını təqdim edirlər, yəni onlara xarici dildə düzgün danışıq öyrədirlər. Çünki müasir zamanda orta və ali məktəblər qarşısında duran ən vacib məsələ ünsiyyətə maksimum nail olmaqdır. Bunun üçün də çalışmalar xüsusi əhəmiyyətə malikdir. Yuxarıda qeyd etdiyimiz kimi, müxtəlif fəaliyyətlər həyata keçirilərkən debatlar da nəzərə alınmalıdır. Formal debatların bir növü də "Baloon" adlanır. Bu zaman təhsilalanlar öz rollarını seçməlidirlər. İKT əsaslı müzakirələr də bir çox dərslərin əsas tərkib hissəsi olmalıdır. Burada əsas məsələ onların uğurlarına aparan fəaliyyətin xüsusi olaraq təşkilidir. Bunun düzgün təşkil edilməməsi onların uğursuzluğuna apara bilər. Yazı kommunikativ fəaliyyətlərin vacib hissəsidir. Bu zaman yazılı nitqlə bağlı çalışmalar yerinə yetirmək məqsədəuyğun hesab edilir. Digər fəaliyyət növlərini təqdim edirik. "Çalışmalar" adlı fəaliyyət növündə müəllim çalışmaların növünü qeyd edir. Dilöyrənənlər yalnız sözlərdən istifadə etməklə (no gestures) çalışmalar yerinə yetirməlidirlər. Bu fəaliyyət əyləncəli olmaqla bərabər, real ünsiyyətə şərait yaradır.

- Bundan əlavə, rəqslər, müvafiq mimik hərəkətlər çalışmaların məzmununa daxil edilə bilər. Dillərin tədrisinə cəmiyyətdəki hadisələr, elmi-texniki irəliləyiş, iqtisadi-mədəni həyatda baş verən yeniliklər ciddi təsirlə şərtlənir. Dillərarası bağlılıqların kökü çox uzaqlara gedib çıxır. Belə ki, məntiqi təfəkkürün formalaşdığı, xalqlar arasındakı iqtisadi və digər əlaqələr inkişaf etdiyi vaxtdan dillər arasında da müəyyən münasibətlər formalaşmışdır. Bu da məlumdur ki, dünyada istənilən dil təkbaşına inkişaf etmək iqtida-

rında deyil. Xarici aləm ona daim təsir etməklə, onun inkişafı prosesində də öz izlərini qoyur. Dil əlaqələri xalqlar arasında mütləq şərtlərdən hesab olunur. Bu da dilin bütün səviyyələrinin təkamülünə səbəb olur. Yeri gəlmişkən, qeyd edək ki, xarici dilin tədrisi ilə bağlı aparılan işin yekun tapşırıqları, pedaqoji paradiqmanın onun tərəfindən qurulmuş modelinə uyğun olaraq, müəllim tərəfindən konkretləşdirilə bilər. Bununla yanaşı, fənnin xüsusiyyəti və imkanları nəzərə alınır. Qeyd etmək lazımdır ki, xarici dil üzrə tapşırıqlar dilöyrənənlərin fəaliyyəti və maraqları ilə üst-üstə düşdükdə daha böyük maraq kəsb edir. "Modellər hazırlamaq" adlanan növdə kiçik qruplarda modellər düzəltmək üçün materiallar verilir(məsələn, kərpic düzəltmək, Leqo və s.) [3,s. 45].. Onlara verilən materiallardan modellər düzəltmək tapşırılır. Əvvəlki qrupdakılar hazırladıqları modeli göstərməyə bilərlər. İKT əsaslı fəaliyyətlərdən biri və ən çox yayılanı "təsvir et və çək" tapşırığıdır. Bu zaman dilöyrənənlərdən birinə şəkil verilir, digərləri ona oxşar çəkməlidir. Dilöyrənənlər cütlüklərdə çalışa bilərlər. Tapşırıqlardan biri də kommunikativ oyunlardır. Kommunikativ oyunlar "information gap" prinsipləri üzərində qurulur. Dilöyrənənlər oyuna oxşar tapşırıqlar yerinə yetirirlər. Bəndləri diqqətə çatdırırıq. "Fərqi və oxşarlığı tapın" bəndində dilöyrənənlər cütlüklərə ayrılırlar. Hər cütlükdə təhsilalan A və B –yə şəkil təqdim edilir. B- yə də bəzi məqamlar fərqli olmaqla təxminən oxşar şəkil verilir. Onlar şəkilləri görmədən müzakirələr əsasında fərqləri tapa bilər. "Təsvir et və hazırla" bəndində dilöyrənənlərə cütlərlə işə hazırlaşmaq tapşırılır. "Hekayə yazmaq" bəndində isə onlara şəkilli hekayələrin hissələri verilir. Belə ki, kiçik parçaları görsələr də bütöv hekayəni bərpa etməlidirlər. Qrupun hər bir üzvü müxtəlif hissələri gördüklərindən bunu etmək o qədər də çətin olmur. Dilöyrənənlərdə tənqidi təfəkkür bacarıqlarının formalaşdırılmasında ilk addım onların fakt, fikir və arqumentləri fərqləndirə bilməsi ilə başlayır. Bu yanaşmanı səciyyələndirən əsas cəhətlərdən biri ondan ibarətdir ki, burada tədris edilən xarici dilin aspektlərinin funksional baxımdan aşılanması, müvafiq vərdiş və bacarıqların interaktiv şəkildə formalaşdırılması və inkişaf etdirilməsinə üstünlük verilir. Orta və ali məktəb kontekstində ingilis dilində dil strukturlarından istifadə etmək bacarıqlarının aşılanması prioritet məsələlərdən biridir.

Bu cür informasiya kommunikasiya texnologiyalarına söykənən fəaliyyətlər dilöyrənənlərin hiss və düşüncələrini müzakirələrə, fikir mübadilələrinə həvəsləndirir [4, s.401].

Beləliklə, ingilis dilinin tədrisində şifahi nitq vərdişlərinin inkişaf etdirilməsini dəstəkləyən müxtəlif kommunikativ fəaliyyətlərdən istifadə vacib hesab edilir və günün tələbinə çevrilməlidir.

ƏDƏBİYYAT

1. Alptekin C. Target Language Culture in ELT Materials // ELT Journal, 1993,47, 2, pp. 136-143
2. Bailey K.M. and D. Nunan (Eds.) Voices from the language classroom. Cambridge: Cambridge University Press, 1996, 451p.
3. Harmer J. English language teaching, 2005, pp. 45-46

4. Jack C. Richards. Communicative Language Teaching Today. Cambridge University Press, 2006, 471 p.

Ш.БАЛАДЖАЕВА

МЕТОДИКА ИСПОЛЬЗОВАНИЯ КОММУНИКАТИВНЫЕ ДЕЯТЕЛЬНОСТИ В ФОРМИРОВАНИИ УСТНОЙ РЕЧИ ПРИ ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА В V- IX КЛАССАХ СРЕДНЕЙ ШКОЛЫ

Резюме

В условиях, когда обучение иностранному языку приобретает особое значение, к преподавателю предъявляются достаточно высокие требования, в соответствии с которыми речь его должна быть максимально приближена к речи лингвистически образованного носителя языка, что предполагает, в частности, умение экспромтного речевого общения на иностранному языке в любой ситуации. С другой стороны, коммуникативная модель использования языка в целях речевого общения, предполагает формирование умения понимать и продуктивно использовать язык в устной и письменной речи. В настоящее время широкое распространение получил коммуникативный подход к изучению языков, который в качестве основной цели обучения иностранному языку и его изучения предполагает овладение изучаемым языком как средством коммуникации. Первоочередная задача в процессе использования коммуникативного подхода состоит во всемерном содействии использованию изучаемого языка в самых различных коммуникативных ситуациях. Следует отметить, что в настоящее время происходят значительные изменения в методике обучения иностранным языкам, и, в первую очередь, являющемуся основным языком общения на глобальном уровне, английскому разрабатываются творческие методы преподавания, предполагающие обучение путем вовлечения обучаемых в процесс изучения языков в качестве заинтересованнных, мотивированных участников данного процесса. Коммуникативное преподавание языка предполагает обучение языку в определенном контексте для обмена мыслями.

Не следует забывать три важнейших условия при введения на занятиях: цели обучения, принципы, методы и приемы обучения, а также учебной контроль. Необходимым условием успешного внедрения новаторских идей является активность, в том числе коммуникативная активность участников процесса обучения языку.

Ключевые слова: мотивация, метод, технология, речь, язык

SH. BALAJAYEVA

THE METHODOLOGY OF USING COMMUNICATIVE ACTIVITIES IN DEVELOPING ORAL SPEECH AT V-IX CLASSES IN ELT

Summary

The article deals with the main strategies in developing oral speech and working out effective ways of speaking skills. Through comprehension activities the learner can internalize some vocabulary and some grammatical structures, which will help the learner to understand more, when she knows enough to actually express in a simple way. In real communication situations the learner has to depend on memorized survival phrases to meet the most immediate needs. Teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented and systematic. In the article great attention was given to the facts taken from the literature. Linguistic awareness is essential for learning. It was measured by, for instance, the following items of the initial test: finding rhyme words, in the general section of the test, and building words out of sounds and segmenting words into syllables, in the auditory section of the test. The success in tasks that require phonemic awareness is considered the most important prerequisite for learning to read. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process. One of the important goals of the article is to detect and find out the advantages of activities. The author emphasizes its role in methodology. One of the main goals of language learning is to acquire the ability to communicate effectively. It will make the process of teaching oral speech interesting. Teachers can help students overcome this by assuring them that misunderstanding and the need for clarification can occur in any type of interaction. They can also give students strategies and phrases to use for clarification and comprehension check. By encouraging students to use clarification phrases in class when misunderstanding occurs and by responding positively when they do, instructors can create an authentic practice environment within the classroom itself. At the lessons three main principles: the aim of the lesson, its principles, the methods and ways and also control on the instruction should not be forgotten. As they develop control of various clarification strategies, students will gain confidence in their ability to manage the various communication situations that they may encounter outside the classroom.

Key words: motivation, method, technology, speech, language

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Gülər Həsənova tərəfindən çapa tövsiyə olunmuşdur

Dos. HACIYEVA MƏTANƏT HƏŞİM QIZI
metanethajiyeva55@gmail.com ;
fil.ü.f.d B/m. MƏMMƏDOVA ELNARƏ ADİL QIZI
ememmedova69@mail.ru
Azərbaycan Tibb Universiteti
Azərbaycan dili kafedrası

KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN ƏDƏBİ DİLƏ TƏSİRİ

X Ü L A S Ə

Dilimiz azərbaycançılıq ideologiyasının mühüm elementi, onun siyasi və sosial-mədəni dayağıdır. Təəssüf ki, biz tez-tez kütləvi informasiya vasitələrində, o cümlədən, elektron KİV-də dövlət dilinin norma və prinsiplərinə uyğun olmayan söz və ifadələrin işlədilməsinin şahidi oluruq. Fasiləsiz təkmilləşən informasiya – kommunikasiya sistemlərinin, texnoloji yeniliklərinin nisanlar tərəfindən sürətlə mənimsənilməsini, maneəsiz informasiya mübadiləsi imkannlarının artmasının dövlət dilini zənginləşdirməklə yanaşı, mənfi təsirlərə də məruz qoyduğunu qeyd etmək olar. Televiziya və radio məkanlarında dil normalarının pozulması hallarına reklam mətnlərində də rast gəlinir və bu hal tamaşaçı və dinləyicidə yanlış fikir formalaşdırır. Mediamız da ədəbi dilin bütün sahələrinə aid çoxlu miqdarda pozuntu hallarının olduğunu göstərir. Mətbuatımızdakı dil qüsurlarının əsas səbəblərindən biri də jurnalistlərin müraciət etdikləri mövzunu, bəhs etdikləri predmeti yaxşı bilməmələri ilə bağlıdır. Müasir dünyamızda dilimizə təzə keçən alınma sözlərin çoxu ingilis mənşəlidir və bu baxımdan bir sıra sözlərin yazılmasında problemlıər müşahidə olunur, lakin bunun qarşısını almaq lazım deyil. Çünki hər bir dil bu prosesi özü tənzimləyir. Azərbaycan dilnin milli dövlətçiliyin başlıca rəmzi kimi ifadəsi və əsaslı tədqiqi ölkədə dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması üçün əlverişli zəmin yaradıb.

Açar sözlər: ***kütləvi, informasiya, söz, ifadə, milli dövlət, informasiya, mübadilə, müstəqil, güclü, sintaktik, üslub***

Kütləvi informasiya vasitələri (KİV) – informasiyanın kütləyə çatdırılması vasitəsi olub müasir sivilizasiyanın ən xarakterik cəhətlərindən biridir. Kütləvi informasiya vasitələrinin köməyi ilə insanlar qısa bir zamanda dünyada baş verənlər haqqında məlumat ala bilirlər. Kütləvi informasiya vasitələri özündə əsasən qəzetləri, jurnalları,radio və televiziyanı cəmləşdirir. Kütləvi kommunikasiya anlayış baxımından bir şəxs və ya bir qrup insan tərəfindən yaranan ötürücü cihaz vasitəsilə böyük bir auditoriyaya göndərilən ismarıcdır. Kütləvi informasiya vasitələri isə kütləvi kommunikasiyanı ötürmək üçün istənilən mediumdur. Dövrümüzə qədər

kütləvi informasiya vasitələri müəyyən edilmiş və səkkiz KİV industriyası tərəfindən təşkil olunmuşdur: kitab, qəzet, jurnal və səsyazmalar, radio, kino, televiziya və internet. (1,258)

Dövlətimizin əsas atributlarından biri də onun dilidir. Dilimizin təmizliyini, saflığını, özünəməxsusluğunu qorumaq xalqın əsas vəzifələrindəndir. Bu vəzifə hüquqi və siyasi anlam daşımaqla yanaşı, həm də mənəvi öhdəlikdir. Hər bir azərbaycanlı dövlət dili haqqında imzalanan fərmanlar və sərəncamların,qanunlar və qərarların tələblərinə tam şəkildə əməl etməklə, müstəqil dövlətin möhkəmlənməsinə,inkişafına təmsil olunduğu xalqın ali düşüncəsini müasir dünyaya maneəsiz çıxmasına böyük töhfə vermiş olar. Milli dövlətçiliyin yaranması və inkişafında dil mühüm tarixi rol oynayır. Çünki dil xalqın özünüqoruma instinktini gücləndirən, onu səfərbər edən və birləşdirən, həmçinin bir toplumu digərlərindən fərqləndirən və müdafiə edən ən etibarlı vasitədir. Ona görə də dövlət dilinin saflığının qorunması, inkişafı və zənginləşməsinə xüsusi qayğı göstərilməsi böyük əhəmiyyət kəsb edir. Dilimiz azərbaycançılıq ideologiyasının da mühüm elementi, onun siyasi və sosial-mədəni dayağıdır. Əvvəla ona görə ki, Azərbaycan dili həm müstəqil dövlət kimi getdikcə güclənən ölkəmizdə, həm də dünyada yaşayan çoxmilyonlu soydaşlarımızın ünsiyyət vasitəsi və onların mənəvi doğmalığının əsasıdır. Bu dil nə qədər saf və zəngin olarsa, mənəvi varlığımızı dolğun ifadə edərsə, milli birlik də bir o qədər möhkəm və sarsılmaz olar. İkincisi, dövlət dili rəngarəng etnik və konfessional tərkibə malik olan müstəqil Azərbaycanın bütün vətəndaşlarının ürəkdən qəbul etdiyi və birləşdirici rol oynayan nadir mədəni-sosial fenomendir. Başqa sözlə, dövlət dili respublikamızda bərqərar olmuş milli həmrəyliklə cəmiyyətimiz üçün xarakterik olan multikulturalizmin vəhdətini təmin etməyə, yəni, azərbaycançılıq məfkurəsinin əsas məqsədlərindən birinə çatmağa imkan verir. Məhz bu amillər bizdən dövlət dilinin istifadəsinə və inkişafına daim həssaslıqla yanaşmağı tələb edir. Prezidentin köməkçisi Əli Həsənov ümummilli lider Heydər Əliyevin Azərbaycan dilinin xalqımızın ictimai-siyasi və mənəvi həyatında rolunu yüksək qiymətləndirdiyini vurğulayaraq deyib: "Azərbaycan dili özünün hazırkı səviyyəsinə çatana qədər müxtəlif tarixi mərhələlərdən keçib. Lakin hesab edirəm ki, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlər xüsusilə əlamətdar olub. Təkcə onu qeyd etmək kifayətdir ki, onun prinsipial mövqeyi sayəsində Moskvanın etirazlarına baxmayaraq, Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edildi. Həmin dövrdə Azərbaycan dilində mətbuatın, mədəniyyətin, elm və təhsilin inkişafı üçün böyük işlər görülüb, dövlət dilinin ictimai-siyasi və mədəni mövqeyinin yüksəlməsinə nail olunub".

Milli Məclisin deputatı Rəşad Məcid özü "Ədəbi 525"in yaranmasını 1996-dan hesablayır: "O zaman Azərbaycanda nəşr olunan qəzetlər, ictimai-siyasi qəzetlər öz səhifələrində ədəbiyyat nümunələri dərc etmirdilər. Bəzi dostlarımız deyirdilər ki, ədəbiyyat nümunələri dərc etmək qəzetin populyarlığına mənfi təsir göstərir. Elə bu

nöqteyi-nəzərdən də çıxış edərək, qəzetlər bədii əsərlərin dərcindən imtina edirdilər. Amma biz bu ənənəni sındırdıq. Və mən çox sevinirəm ki, bu gün Azərbaycanda bir çox qəzetlər bədii ədəbiyyata xüsusi səhifələr ayırırlar, bədii əsərlərə geniş yer verirlər.Bu da dilimizin daha təmiz,aydın və zəngin olmasına xidmət edir".Həmçinin Milli Məclisin keçmiş deputatı Ə.Əməşov çıxışında bildirib ki, "Dövlət dili haqqında" Qanunun müxtəlif maddələrinin pozulması halları ilə tez-tez üzləşirik: "Mətbuatda dillə bağlı yol verilən pozuntu halları diqqəti daha tez cəlb edir. Çünki media özü mahiyyətcə, eyni zamanda, dil hadisəsidir və burada dilin daha yüksək peşəkarlıqla işlədilməsi tələb olunur. Buna görə də Azərbaycan Mətbuat Şurası fəaliyyətə başladığı ilk gündən mediada ana dilimizin qorunması məsələsini diqqət mərkəzində saxlayıb. Mətbuat Şurasının nəzdində daimi fəaliyyət göstərən monitorinq qrupu qəzet və jurnallarda yol verilən dil pozuntularını qeydə almaq və təhlil etməklə məşğuldur. Bu hallar müzakirə olunaraq ümumiləşdirilir və ictimaiyyətin diqqətinə çatdırılır. Son illər elektromedia da bu sıraya qoşulub. Monitorinqlərdə Şuranın "KİV-lərdə ədəbi dil qaydalarının pozulmasının müəyyənləşdirilməsinə dair Təlimat"ına morfoloji sintaktik, üslubi və texnoloji (qəzetçilik texnologiyası) baxımından təhlil olunur". (2,17)

Azərbaycan Prezidenti dövlət dilinin tətbiq dairəsinin genişləndirilməsi üçün ardıcıl tədbirlər həyata keçirir. Prezidentin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", 2004-cü il yanvarın 14-də "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", eləcə də 2007-ci il dekabrın 30-da "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamları bu istiqamətdə əhəmiyyətli rol oynayıb.

Təəssüf ki, biz tez-tez kütləvi informasiya vasitələrində, o cümlədən elektron KİV-də dövlət dilinin norma və prinsiplərinə uyğun olmayan söz və ifadələrin işlədilməsinin şahidi oluruq. Bu amilləri nəzərə alaraq, Prezident İlham Əliyev 2012-ci ilin mayında "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" haqqında Sərəncam imzalayıb. Sərəncamda bu gün dilimizin müxtəlif səviyyələrdə, xüsusilə KİV-lərdə işlənməsində fonetik, sintaktik və semantik normalardan ciddi yayınmaların olduğu vurğulanır. Göstərilir ki, dövlət dilinin bütün imkanlarından hər zaman lazımınca istifadə edilmir, yerli-yersiz yad sözlər dilimizə gətirilir. Aidiyyəti qurumlar bu təsirlərə qarşı ciddi mübarizə aparmırlar. Mətbuat orqanlarında geniş yayılmış ədəbi dil normalarından yayınmalar əksər hallarda təhlil olunub konkret nəticələr ümumiləşdirilmir, filmlərin dublajında və xarici dillərdən edilən bədii və elmi tərcümələrdə nöqsanlar müşahidə olunur, küçə və meydanlardakı reklamlarda adi qrammatik qaydalar gözlənilmir.

Dövlətimizin rəhbəri 2015-ci ilin noyabrında Milli Elmlər Akademiyasının 70 illiyi ilə bağlı keçirilən toplantıdakı nitqində dövlət dilinin kənar təsirlərdən

qorunması və saflığının təmin olunmasının vacibliyini qeyd edib, lüzumsuz yerə dilimizdə yad kəlmələrin işlədilməsinin əleyhinə olduğunu bildirib.

Fasiləsiz təkmilləşən informasiya-kommunikasiya sistemlərinin,texnoloji yeniliklərin insanlar tərəfindən sürətlə mənimsənilməsinin,maneəsiz informasiya mübadilasi imkanlarının artmasının dövlət dilini zənginləşdirməklə yanaşı,mənfi təsirlərə də məruz qoyduğunu qeyd etmək olar.

Teleradio dövlət dilinin qorunub saxlanması,inkişafı və zənginləşməsi üçün böyük imkanlara malikdir.Biz bu imkanlardan səmərəli istifadə edərək müstəqil dövlətçiliyimizin milli mənəvi dayaqlarından biri,cəmiyyətdə səfərbəredici vasitə kimi mühüm rol oynayan dövlət dilinin mövqeyinin daha da möhkəmləndirilməsi üçün zəruri tədbirlər görməliyik.

Narahatlıq doğuran digər məsələlərdən biri də Azərbaycan dilinə əcnəbi söz və ifadələrin yersiz daxil edilməsidir. Elmi-texniki tərəqqi nəticəsində yeni terminlərin ədəbi dilimizə daxil olması təbii proses olsa da,cəmiyyətimizdə məişət dilində yayılan əcnəbi sözlərin ədəbi dilə gətirilməsi halları müşahidə edilir.

Digər narahatedici məqamlardan biri də televiziya və radio məkanında aparıcıların vurğu məsələsinə diqqətsiz yanaşmalarıdır. Monitorinqin nəticələrinə görə, daha çox fonetik normalar pozulur. Bu məsələdə xəbər və informasiya proqramlarının aparıcılarının və diktorlarının üzərinə daha böyük məsuliyyət düşür. Bəzi aparıcılar və ya müxbirlər yeni dəblə ayaqlaşmaq üçün sürətli danışığa üstünlük verirlər ki, bu da ədəbi dilin pozulması halları ilə nəticələnir.Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov yazılı cavabında vurğulayır ki, həm televiziya, həm də radio yayımı zamanı aparıcıların ədəbil dil normalarına riayət etməsi şuranın daim diqqət mərkəzində olan məsələlərdəndir. Belə ki, 2011-2019-cu illərdə MTRŞ "Azərbaycan teleradio məkanında ədəbi dilin qorunması" layihəsi əsasında ədəbi dil normalarına əməl edilməsi ilə bağlı mütəmadi monitorinqlər təşkil edib. Bu monitorinqlər AMEA-nın Dilçilik İnstitutunun və Bakı Dövlət Universitetinin dilçi mütəxəssisləri tərəfindən aparılıb və nəticələrlə bağlı hesabatlar dərc edilib. Son illərdə bununla bağlı, xüsusən də aparıcıların nitqində olan qüsurlu hallarla bağlı yayımçılara tövsiyə məktubları, xəbərdarlıqlar ünvanlanıb, onların iştirakı ilə bəzi hesabat xarakterli görüşlər və "dəyirmi masa"lar təşkil olunub.

Televiziya və radio məkanında dil normalarının pozulması hallarına reklam mətnlərində də rast gəlinir və bu hal tamaşaçı və dinləyicidə yanlış fikir formalaşdırır. Bəzən tamaşaçı və dinləyici efirdə gördüyünü və eşitdiyini bir norma, ədəbi fakt kimi qəbul edir.Ona görə də dillə bağlı televiziya və radioların üzərinə düşən vacib məsələlərdən biri də ondan ibarətdir ki, reklamların dil özəlliklərinə, reklam dilindən irəli gələn qüsurlara xüsusi diqqət yetirilməli, bu cür reklamların efirə getməsinə yol verilməməlidir.

Azərbaycan Respublikası ərazisində təsis edilən və fəaliyyət göstərən bütün televiziya və radio kanallarının aparıcıları dövlət dilini mükəmməl bilməli və səlis

danışıq qabiliyyətinə malik olmalıdırlar. Televiziya və radio kanallarında dublaj olunan filmlər və verilişlər dövlətin müəyyən etdiyi dil normalarına uyğun olmalıdır. Ənənəvi mediada dil pozuntularının olması elektron mediadan xeyli azdır. Hazırkı dövrdə ictimai rəyin formalaşmasında və zəruri informasiyaların cəmiyyətə çatdırılmasında elektron medianın rolunun üstün olduğu nəzərə alınaraq, dil normalarının qorunmasına daha çox diqqət yetirilməsi mühüm əhəmiyyət kəsb edir. İnformasiyanın çatdırılma texnologiyalarındakı prinsipial fərqlərə baxmayaraq, yazılı mətbuat kimi elektron media da mahiyyətcə dil hadisəsidir. Digər tərəfdən, qəzetlər və jurnallar öz materiallarını hazırlayarkən elektron informasiya vasitələrinin yayımladığı informasiyalardan geniş istifadə edirlər və təcrübə göstərir ki, istinad vasitələrində yol verilmiş dil pozuntuları islah olunmadan mətbuat səhifələrinə çıxarılır və belə şəkildə səhvlər təkrarlanır. Mediamız da ədəbi dilin bütün sahələrinə aid çoxlu miqdarda pozuntu hallarının olduğunu göstərir. Son onilliklərdə cəmiyyətimizdə baş verən ciddi dəyişikliklərlə bağlı dilimizə külli miqdarda yeni alınma sözlərin daxil olması təbii və qanunauyğun haldır. Bununla belə, öz sözlərimiz ola-ola zəruri ehtiyac duyulmadan onların əcnəbi qarşılığının nitqimizə nüfuz etməsinin də şahidi oluruq. Müasir dünyanın reallıqlarına uyğun olaraq, dilimizə təzə keçən alınma sözlərin çoxu ingilis mənşəlidir. Bu baxımdan bir sıra sözlərin yazılmasında problemlər müşahidə olunur. Leksik pozuntular dildə tez-tez baş verən, eyni zamanda, nisbətən asanlıqla aradan qaldırıla bilən hadisədir. Dilin varlığı üçün daha ciddi təhlükə törədən və düzəldilməsi çox çətin olan fəsadlar isə qrammatik,morfoloji pozuntularla bağlıdır. Bunlar dilin daxili sisteminə çətinliklə, tədricən nüfuz edir, ancaq dilə onun mahiyyətini sarsıdan zədələr vura bilir. Bu da təsadüfi deyil, çünki dilin mahiyyətini onun leksik tərkibi deyil, qrammatik sistemi müəyyən edir. Mətbuatımızdakı dil qüsurlarının əsas səbəblərindən biri də jurnalistlərin müraciət elədikləri mövzunu, bəhs etdikləri predmeti yaxşı bilməmələri ilə bağlıdır. Bu baxımdan, medianın ixtisaslaşmasına da ciddi ehtiyac duyulmaqdadır. Dil qüsurlarının aradan qaldırılması üçün media təmsilçilərinin peşə hazırlığının yüksəldilməsi, təhsildə təkmilləşdirmə, ictimai şüurda dilin qorunması, qanunçuluğun gücləndirilməsi vacib məsələlərdir. Teleradio məkanında ədəbi dil normalarının əsasən aparıcılar və diktorlar tərəfindən pozulduğu şübhəsizdir. Bunun əsas səbəbi isə bəzi teleradio proqramlarının aparıcılarının jurnalistika təhsili olan şəxslər deyil, əsasən incəsənət xadimləri olmasıdır. Belə halların aradan qaldırılması üçün redaksiyalarda istedadlı jurnalistlərin bilik və bacarıqlarından səmərəli istifadə olunmalı, onların irəli çəkilməsi təmin edilməlidir.

Dilimizə başqa dillərdən sözlərin gəlməsinin qarşısını almaq lazım deyil. Çünki hər bir dil bu prosesi özü tənzimləyir. Mətbuatda, efirdə səslənən hər bir söz həmin ifadəni səsləndirən şəxsin intellektual səviyyəsini müəyyənləşdirir. Buna görə də bu baxımdan KİV-ə efir məkanına intellektual səviyyəsi yüksək olan şəxslər cəlb edilməlidir.

Azərbaycan dili məsələsi hər kəsin vətəndaşlıq borcu olmalıdır. Bu gün Azərbaycan dilinin milli dovlətçiliyin başlıca rəmzi kimi istifadəsi və əsaslı tədqiqi, ölkədə dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması üçün əlverişli zəmin yaradılıb.

Elm və texnikanın sürətlə inkisaf etdiyi hazırkı qloballaşma dövrü Azərbaycan dilinin zənginləşməsi və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsini tələb edir.

S U M M A R Y
THE INFLUENCE OF MASS MEDIA ON LITERARY LANGUAGE

Key words: ***mass, information, word, expression, national state, information, exchange, independent, strong, syntactic, style***

Our language is an important element of the ideology of Azerbaijaniism, its political and socio-cultural support. Unfortunately, we often witness the use of words and phrases that do not comply with the norms and principles of the state language in mass media, including electronic media. It can be noted that the rapid assimilation of constantly improving information and communication systems and technological innovations by citizens, and the increase in the opportunities for unhindered information exchange, not only enrich the state language, but also have negative effects. Cases of violations of language norms in television and radio spaces are also found in advertising texts, and this situation creates a wrong impression in the viewer and listener. Our media also shows that there are many cases of violations related to all areas of the literary language. One of the main reasons for the language defects in our press is related to the fact that the journalists do not know the subject they are addressing well. In our modern world, most of the new borrowed words are of English origin, and in this regard, there are problems in writing a number of words, but this should not be avoided. Because each language regulates this process by itself. The expression of the language of Azerbaijan as the main symbol of national statehood and fundamental research has created a favorable ground for improving the situation in the field of linguistic science in the country.

Р Е З Ю М Е
ВЛИЯНИЕ СРЕДСТВ МАССОВОЙ ИНФОРМАЦИИ НА ЛИТЕРАТУРНЫЙ ЯЗЫК.

Ключевая слова: ***масса, информация, слово, выражение, национальное государство, информация, обмен, независимый, сильный, синтаксический, стиль***

Наш язык является важным элементом идеологии азербайджанства, его политической и социокультурной опоры. К сожалению, мы часто наблюдаем использование в средствах массовой информации, в том числе электронных,

слов и выражений, не соответствующих нормам и принципам государственного языка. Можно отметить, что быстрое усвоение гражданами постоянно совершенствующихся информационно-коммуникационных систем и технологических новшеств, увеличение возможностей беспрепятственного обмена информацией не только обогащают государственный язык, но и имеют негативные последствия. Случаи нарушения языковых норм в теле- и радиопространстве встречаются и в рекламных текстах, и такая ситуация создает у зрителя и слушателя неправильное впечатление. Наши СМИ также показывают, что есть много случаев нарушений, связанных со всеми областями литературного языка. Одна из основных причин дефектов языка в нашей прессе связана с тем, что журналисты плохо знают тему, которую затрагивают. В нашем современном мире большинство новых заимствованных слов имеют английское происхождение, и в связи с этим возникают проблемы с написанием ряда слов, но этого не следует избегать. Потому что каждый язык сам регулирует этот процесс. Выражение азербайджанского языка как главного символа национальной государственности и фундаментальных исследований создало благоприятную почву для улучшения положения в области лингвистической науки в стране.

Ədəbiyyat siyahısı:

1. Mass Communication. Ed. by W. Schramm, Urbana. 1966.
2. C. Wright Mills. The Mass Society Chapter in the Power Elite, 1956
3. https://ikisahil.az/post/56050-news-56050
4. https://525.az/news/90625-edebi-525-ve-redaktoru-resad-mecid-525-25
5. https://azerbaijan-news.az/posts/detail/meneviyyata-qarsi-teleterror-1620334654

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent, X.İ.Məhərrəmova tərəfindən çapa tövsiyə olunmuşdur

FƏXRİYYƏ ZAHİDOVA
ADU
Rəşid Behbudov 134
e-mail: fakhriyyazahidova@gmail.com

ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ DİL MATERİALLARINDAN İSTİFADƏ YOLLARI

XÜLASƏ

Dillər arasında olan fərqlər müqayisəli yolla aparılan tədqiqatlar vasitəsilə müəyyənləşdirilə bilər. Müqayisəli tədqiqat metodunun əhəmiyyəti və dil vahidlərinin müqayisəli təhlilinin zəruriliyi görkəmli dilçi və metodist-alimlər tərəfindən sübuta yetirilmişdir. Onları maraqlandıran əsas məsələ aparılan müqayisəli təhlil əsasında müvafiq dil və nitq vahidlərinin tam mənimsənilməsi üçün səmərəli təlim üsullarının yaradılmasıdır. Verbal kommunikasiya zamanı mətn vasitəsilə göndərilən informasiyanın bir hissəsi həmin mətndə eksplisit, yəni gözə görünən şəkildə özünü büruzə verir. Həmin informasiyanın böyük bir hissəsi isə mətndə qalır, yəni implisit şəkildə verilir və mətnin başa düşülməsi qəbul edənin öhdəsinə buraxılır. Xarici dillərin tədrisində leksikanın tədrisinə ayrılan vaxt səmərəli şəkildə bölünməlidir. Belə ki, dərsin əvvəlində tələbələri fəallaşdırmaq, onları müxtəlif, əvvəlcədən nəzərdə tutulmuş fəaliyyət növlərinə cəlb etmək məqsədilə onlara nitq fəaliyyətlərini aktivləşdirən sualların verilməsi tövsiyə edilir. Növbəti mərhələlərdə yerinə yetirilən tapşırıqlar üç mərhələli iş sistemində həyata keçirilməlidir. Burada bu fəaliyyət növlərinin yerinə yetirilməsi tövsiyə edilir: açar sözlərin təqdim edilməsi, mətndə olan qrammatik strukturların tələbələrə təqdim edilməsi və təklif edilən çalışma və tapşırıqların mərhələli şəkildə yerinə yetirilməsi. Tələbələrə tapşırıq verərkən, onun yerinə yetirilməsində verilən vaxt müddətini müəyyənləşdirmək olduqca vacibdir. İxtisas fakültələrində təhsil alan və dili professional məqsədlərlə öyrənən tələbələr onlara bu və ya digər tapşırığın yerinə yetirilməsinə ayrılan vaxt müddətindən səmərəli şəkildə istifadə etməyi və onu düzgün şəkildə bölməyi tədricən öyrənməlidirlər. Bu leksikanın tədrisi prosesinin səmərəliliyini təmin edir. Müntəzəm olaraq, öyrənilən xarici dildən kommunikativ məqsədlərlə istifadə etməklə dilin kommunikativ-yönümlü tədrisini təşkil etmək mümkündür. Kommunikativ-yönümlü təlim öyrənilən xarici dilin yalnız auditoriya şəraitində deyil, həm də auditoriyadan kənar şəraitdə istifadə edilməsini nəzərdə tutur.

Açar sözlər: dil, leksika, metod, texnologiya , nitq

Qeyd edək ki, tədrisdə keyfiyyətli didaktik materialların olması vacib sayılır. Dilöyrənənlərin məqsədləri ilə konkret mərhələdə xarici dil üzrə işin məqsədləri üst-üstə düşmədikdə, fəaliyyət motivi olmadıqda bütün işlər maraqsız olur. Bu zaman təhsilalanlar tərəfindən qəbul edilmir və maraqla qarşılanmır. Xarici dillərin tədrisində metodiki işin könüllü xarakteri, onun hazırlanmasında və həyata keçirilməsində olan çətinlik-

lərin həlli, tədbirlərin hazırlanması, məzmun, forma və metodlar üzrə bütün tələblərə əməl olunması zəruri hesab olunur. Xarici dil ilə bağlı iş sisteminin xüsusi şərtləri onun strateji məqsədlərinə tabe olmalıdır. İşin xüsusiyyətləri onların məzmununa olan metodiki tələblərdə öz əksini tapır. Xarici dil üzrə işin məzmunu onun əsas istiqamətlərinin üzvi birliyindən ibarətdir. Belə stimullardan biri nitq reaksiyasına səbəb ola bilən şərait kimi qəbul edilən kommunikativ situasiya hesab edilə bilər. Monoloji nitqin təşkilində tələbat və həmin tələbatın ödənilməsi üçün səmərəli şəraitin olması vacibdir. Məhz buna görə nitq ünsiyyətinin baş verməsi üçün müvafiq situasiyanın olması zəruridir. Müvafiq bacarıqlara yiyələnmiş dil daşıyıcıları nitq prosesində bununla bağlı heç bir çətinliklə üzləşmir. Dil daşıyıcısı olmayan, xarici dilləri, o cümlədən ingilis dilini öyrənənlərə monoloji nitq zamanı müvafiq vərdişlərin aşılanması zəruridir. Bütün bunlar işlərin siyahısına daxildir. Belə ki, buraya yazı, oxu və digər bacarıqlar da aid edilir. Lakin çətinlikləri şərtləndirən məsələlər sırasında bu işin bəzən yekdil olmaması da yer alır. Belə ki, tədbirlər zamanı bacarıqların birini unudub digərini fəallaşdırdıqda çətinliklər labüd hala keçir. Bu işlərin təşkilində tapşırıqların yerinə yetirilməsi də vacib şərtlərdəndir. Lakin bəzən tapşırıqlar dilöyrənənlərin marağına daxil olmur. Seçilərkən debat və müzakirələrə sövq etməyən tapşıırqlardan istifadə olunur ki, bu da zamanla dilöyrənənləri yorur.

Aşağıdakı danışığa sövq edən tapşırığa nəzər salaq:

Debates.

Divide into groups and use the motions below to have a debate.

Use some of the expressions you learned .

1. The principles of living.
2. How to choose an accounting package.

Bəzən debatlara bütün dilöyrənənlər qoşulmur. Debatlar rəsmi xarakterdə olur. Bu isə görülən işlərin keyfiyyətini aşağı salır. Dilöyrənənlərin növbəti işlərə motivasiyasını minimuma endirir. Qeyd edildiyi kimi, hər hansı xarici dili öyrənən tələbələrə həmin dildə leksik vərdişlərin öyrədilməsi məsələsi xarici dillərin tədrisi metodikasının ən mürəkkəb, aktual problemlərindən biri hesab edilir. Dil mühiti olmadığı şəraitdə dilöyrənənlər öyrənilən dildə müxtəlif layihələrin həyata keçirilməsində fəal şəkildə iştirak etməli, audio və videokasetlərdən geniş şəkildə istifadə etməli, kitab, jurnal, qəzet oxumalı, dil daşıyıcısı olan həmyaşıdları ilə internet vasitəsilə ünsiyyət yaratmalı, dildaşıyıcılarının mədəniyyəti ilə tanış olmalıdırlar. Təlim prosesinin bu cür təşkil edilməsi dilöyrənənlərə şifahi nitq vərdişlərinin səmərəli şəkildə inkişaf etdirilməsi və nəticə etibarilə, uğurlu nailiyyətlərin əldə edilməsini təmin edir. Belə ki, xarici dil üzrə təlim-tərbiyə prosesinin intensivləşdirilməsinin ehtiyaclarından biri xarici dil fənni üzrə işin vahid sisteminin yaradılmasıdır. Müəllimlər üçün təcrübi, ümumtəhsil və tərbiyəvi tapşırıqların həllinə daha çox kömək edən və bununla yanaşı, vaxta qənaət edən, çətin olmayan tədbirlərin seçilməsi məqsədəuyğundur. Bu zaman nitq nümunələri motivasiyaedici situasiyaların yaradılmasına kömək edir, kollektivin maraqlarına cavab verir, təlim-tərbiyə prosesi ilə vəhdət təşkil edir. Bu işin təşkil edilməsi ilə bağlı dərketmə və sosial- mədəni bacarığın formalaşması ona görə vacibdir ki, təlimin orta mərhələsindən başlaya-

raq, dilöyrənənlər öz mövqelərini ifadə etməyi bacarsınlar. Burada təlimin əsas motivi maraqdır. Fəaliyyətə marağın artması müxtəlif mənbələrdən qaynaqlanır. Bu gün xarici dillərin öyrənib-öyrədilməsinin əsas məqsədi həmin dildən ünsiyyət vasitəsi kimi istifadə etmək bacarığına yiyələnməkdən ibarətdir. Leksik bacarıq və vərdişlərin aşılanması xarici dillərin tədrisi metodikasının aktual problemlərindən biridir. Xarici dildə nitqin səlisliyi bilavasitə həmin dildə leksik vərdişlərin formalaşdırılması səviyyəsindən asılıdır. Bu da öz növbəsində, xarici dildə olan sözlərin bir tərəfdən anlayışlarla, digər tərəfdən isə həmin dildə başqa sözlərlə olan əlaqələrinin möhkəmləndirilməsini nəzərdə tutur.Tələbələrin ana dilində və tədris edilən xarici dildə leksik vahidlərin istifadə edilməsi normalarının üst-üstə düşməməsi söz birləşmələri səviyyəsində interferensiyaya gətirib çıxarır. Bu da nitq prosesində sözlərin birləşmə normalarının tələbələrə məqsədyönlü şəkildə aşılanmasını tələb edir. Bu proses iki dildə nitq ekvivalentlərinin uyğun gəlməməsi amilini, onların arasında olan fərqləri nəzərə almaqla həyata keçirilməlidir. Əksər hallarda söz birləşmələri səviyyəsində interferensiyaya səbəb olan məhz bu uyğunsuzluqlardır. Öyrənilən dildə leksik vahidləri nitqdə istifadə etmək bacarığının formalaşdırılması üçün zəruri olan şərtlərdən biri söz və söz birləşmələrinin metodik tipologiyasının yaradılmasıdır. Müasir dövrdə xarici dilin tədrisində çalışmalar sistemini seçərkən onların əsas bacarıqlar olan dinləyib-anlama, yazı, oxu və danışıq bacarıqlarını yüksək səviyyədə inkişaf etdirmək potensialının olması nəzərə alınmalıdır.Təlim situasiyaları onlarda real və qeyri-real komponentlərin nisbətindən asılı olaraq səciyyələndirilir. Bu göstəricini əsas tutaraq məhz real modellər olan şərti-real situasiyalar təbii situasiyalara ən yaxın hesab edilə və diskursiv kompetensiyanın aşağı kurs tələbələrinə aşılamaq məqsədilə uğurla istifadə edilə bilər. Problemli situasiyalarda baş verən proseslər dilöyrənənlərin xarici dildə nitqinin fəallaşdırılması, mənimsənilmiş linqvistik materialların aktuallaşdırılması və şifahi nitqin əsasını təşkil edən potensial fəaliyyətin həyata keçirilməsi üçün və beləliklə, dilöyrənənlərdə şifahi nitqin inkişaf etdirilməsi üçün səmərəli şəraitin yaradılmasını tələb edir. İxtisas dilindən ünsiyyət məqsədilə istifadə etməyə qadir olan mütəxəssislərin hazırlanması ali məktəblər, xüsusilə də ali ixtisas məktəblərinin qarşısında duran əsas vəzifəsidir. Müasir məktəblərin inkişafının bugünki mərhələsində bu işlər təhsil sisteminin vacib bir elementi kimi çıxış edir. Bu islahatlar nəticəsində əldə edilən qərarlar olduqca vacibdir. Bu işlərin dərs proqramları ilə düzgün şəkildə əlaqələndirilməsi tədrisin səmərəliliyini daha da artırır. Müəyyən bir fənn ilə bağlı işlərin planlaşdırılması və aparılmasında fəaliyyətlərin hər birinin məktəbin təhsil sisteminə uyğunlaşdırılmasının vacibliyi nəzərə alınmalıdır. İnteraktiv təlim metodu ilə təşkil olunan dərslər isə bütün tələbələri fəallaşdırır, tələbə və müəllim arasında psixoloji mühit yaranır, hər iki tərəfin qarşılıqlı əməkdaşlığı təmin olunur. Bunun nəticəsində zəif dilöyrənənlərdə öz gücünə inam yaranır, güclülər isə öz yoldaşlarına kömək edirlər. Bu zaman onlarda kommunikativ bacarıqlar yaranır, tənqidi təfəkkür inkişaf edir. Müasir təlim metodu olaraq, interaktiv metod ingilis dilinin tədrisi prosesini xeyli intensivləşdirir, fəallığın artmasına zəmin yaradır və təlimin inkişaf prosesini gücləndirir.Tədris prosesində interaktiv təlim metodundan istifadə zamanı dərsin strukturunda motivasiya, problemin

qoyulması, tədqiqatın təşkili, məlumatın mübadiləsi, məlumatın təşkili, nəticənin çıxarılması, tətbiq edilməsi nəzərə alınmalıdır. Belə təlim prosesində dərs müxtəlif formalarda-fərdi, cütlərlə, qruplarla iş şəklində effektli üsullarla aparılır. İnteraktiv təlim metodunun mühüm xüsusiyyəti dərs prosesində öyrədici, ümumiləşdirici, yaradıcı olaraq müxtəlif səpkili problemlərin təşkili, düşünməyə yönəltmə, dərketmə, tələbələrdə aldıqları biliklər əsasında təhlil etmə qabiliyyətlərini inkişaf etdirmək və formalaşdırmaqdır. İnteraktiv təlim metodunun istifadə edilməsi tələbəni dərsin fəal iştirakçısı etməyə, idrak fəallığını yaratmağa və inkişaf etdirməyə imkan verir. Bu fəaliyyət zamanı tələbələr daha çox psixoloji gərginlikdən azad, canlı ünsiyyət prosesində isə interaktiv fəaliyyətdə olurlar. Bu zaman yeni metod və texnologiyalar vasitəsi ilə dilöyrənənlərin yalnız şifahi nitqi deyil, həmçinin onlarda məntiqi, tənqidi, yaradıcı təfəkkür də inkişaf etdirilir. Xarici dillərin müasir metodlar vasitəsi ilə öyrədilməsi istedadlı tələbələrin inkişafı üçün əlverişli şərait yaradır. Belə dərslərdə yalnız istedadlı dilöyrənənlər deyil, həm də zəiflər fəal iştirakçıya çevrilir. Təlim prosesinin inkişaf etdirilməsi üçün dilöyrənənlərin maraq və meyilləri nəzərə alınmalıdır. Yalnız bu yolla onlarda xarici dilə qarşı maraq oyatmaq olar. Təlim prosesində onlarda motivasiya yaratmaq, dil öyrənmək həvəsi yaratmaq mühüm şərt kimi meydana çıxır. Bu isə fəal təlim metodlarından dərsdə daha çox istifadə olunmasını tələb edir. İşlərin təşkili zamanı birgə fəaliyyətə ciddi hazırlıq işi aparılır ki, bu da təbii ki, dilöyrənənlərdən daha mürəkkəb və kompleks bacarıqları özündə birləşdirən intellektual fəaliyyət tələb edir. Burada kooperativ tədris üsulundan istifadə bu və ya digər qrupa daxil olan təhsilalanlara tədris materialını özünün anladığı səviyyədə mənimsəməyə imkan verir. Bu da dilöyrənənlərin müstəqil rola malik olmaqla iş çərçəvəsində sonrakı bərabər və aktiv fəaliyyətini təmin edir. Ayrı-ayrı fərdlərin uğurundan isə ümumilikdə bu və ya digər işin uğuru çox asılıdır. Hesab edirik ki, bu fəal şüurlu fəaliyyətə, biliklərin daha möhkəm mənimsənilməsinə, eləcə də, yeni informasiya axtarışına olduqca böyük stimul verməklə çox mühüm amul kimi çıxış edir. Beləliklə, dilöyrənənlərdə ingilis dilində şifahi nitq bacarıqları formalaşdıraraq mütləq müvafiq linqvistik materialların və nitq modellərinin dilin normalarına uyğun kommunikasiya prosesində işlədilməsinə xüsusi diqqət yetirilməlidir. İngilis dili dərslərində təlim situasiyalarından geniş şəkildə istifadə etməklə orta və ali məktəblərdə şifahi nitqin inkişaf etdirilməsi prosesini daha səmərəli şəkildə təşkil etmək və bu istiqamətdə daha yüksək nailiyyətlər əldə etmək mümkündür. Dilöyrənənlərə təqdim edilən situasiyalar real ünsiyyət situasiyalarına yaxın olmalı və konkret kommunikativ situasiyalarda tələbələrin bilavasitə "iştirak etmə effekti"ni təmin etməlidir. İngilis dilində dilöyrənənlərə təqdim olunan situasiyalar onları maksimum dərəcədə fəallaşdıraraq öyrənilən xarici dildə şifahi nitq ünsiyyətinə qoşulmalarına həvəsləndirilməlidir [1, s.143].

Aşağıdakı fəaliyyət növünə nəzər salaq.

Humor. *Debate 1. Who is the comedian? Thinking about the* topic. Skimming. A.Comprehension Check. B. Vocabulary Study. C. Identifying Main Ideas and Supporting Details. Debate 2. Taking humor Seriously in the workplace. Predicting. Skimming. A. Comprehension Check. B. Vocabulary Study. C. Making inferences.

Debate 3. Three comedians.Thinking about the topic. Skimming. A.Comprehension Check. B. Vocabulary Study. C. Recognizing Purpose.

Technology. Debate 1. Affectionate Androids. Thinking about the topic. Skimming. A.Comprehension Check. B. Vocabulary Study. C. Identifying Main Ideas and Supporting Details. D.Relating reading to personal Experience. Debate 2. İdentification, Please. Prewieving Vocabulary. Skanning. A.Comprehension Check. B. Vocabulary Study. C. Recognizing Purpose. Relating reading to personal Experience. Debate 3. Researchers worry as Cyber – teens grow Up. Prewieving Vocabulary. Skanning. A.Comprehension Check. B. Vocabulary Study. C. Making Inferences. Relating reading to personal Experience Onu da yadda saxlamaq lazımdır ki, müəyyən dil materiallarının səmərəli şəkildə aktivləşdirməsinə səbəb ola bilən zəruri şərtlərdən biri mənimsənilməli olan linqvistik materialların və nitq modellərinin dilöyrənənlərin kommunikativ baxımdan tələbatlarına uyğun olmasıdır. Xarici dildə şifahi nitqin inkişaf etdirilməsi yalnız kommunikativ situasiyaların olması zamanı mümkündür. Tədris olunan linqvistik materialların hər hansı konkret situasiya ilə əlaqəli şəkildə istifadə etmək bacarığının formalaşmasına dair tələblər şifahi nitqin tədrisində situativ-modelləşdirmə istiqamətləndirilməsi prinsipi ilə tam şəkildə üst-üstə düşür [2, s.57]. Şifahi nitqin aşılanmasına kommunikativ yanaşma dilöyrənənlərə tədris edilən xarici dil sahəsində biliklərin hazır şəkildə təqdim edilməsi deyil, əldə edilmiş bilik və bacarıqların təbii kommunikativ fəaliyyəti prosesində təkmilləşdirilməsini nəzərdə tutur. Auditoriya şəraitində bu yanaşmanın həyata keçirilməsi məqsədilə bədii ədəbiyyatda olan problemli situasiyalardan istifadə etmək tövsiyə edilə bilər. Hər hansı mətnin tərkibində olan semantik informasiya şifahi nitqin inkişaf etdirilməsi üçün stimul ola bilər. Eyni zamanda mətndə olan linqvistik xarakterli informasiya kommunikasiyanın adekvat linqvistik vasitələrdə və nitq modellərindən istifadə etməklə həyata keçirilməsinə xidmət edir.Dil daşıyıcılarının yaşadıqları mühitdə rast gəldikləri və onların nitq davranışlarının nümunələri kimi qəbul edilə bilən kommunikativ situasiyalar əsasında təsvir edilən kontekstual situasiya auditoriya şəraitində analoji nitq situasiyalarının yaradılması üçün bir model hesab edilə bilər. Həmin situasiyaların yaradılması mənimsənilməli olan dil materialları və nitq modellərinin kommunikasiya prosesində istifadə edilməsi məqsədini ortaya qoyur. Belə işlər xarici dillərin tədrisinin uğurla həyata keçirilməsində kifayət qədər mühüm rola malikdir[3, s.400]. Bu həm dil bacarıqları, həm də özünü və başqalarını qiymətləndirmə baxımından olduqca əhəmiyyətlidir.

ƏDƏBİYYAT

1. Alptekin C. Target Language Culture in ELT Materials // ELT Journal, 1993,47, 2, pp. 136-143
2. Bailey K.M. and D. Nunan (Eds.) Voices from the language classroom. Cambridge: Cambridge University Press, 1996, 451p.
3. Jack C. Richards. Communicative Language Teaching Today. Cambridge University Press, 2006, 471 p.

Zahidova F.

The ways of using linguistic materials in English language teachingat high schools

Summary

The article deals with the opportunities of using linguistic materials in developing lexical skills in English. The whole process of teaching oral speech should be goal-oriented systematic. It will make the process of teaching oral speech more effective. In communicative output, the students' main goal is to complete a task, such as obtaining information, developing a travel plan, or creating a video. The learner can hardly understand anything at all, unless the speaker is talking about things the learner is observing, or unless the language being learned is closely related to some other language the learner knows. Through comprehension activities the student can internalize some vocabulary and some grammatical structures, which will help the learner to understand more, when he or she knows enough to actually converse in a simple way. The result of getting through stage one is that the learner has acquired enough of the basic building blocks of the language to begin to function in real communication situations. In stage one there is very little real speaking ability, apart from some words and sentences that can be built on the comprehension exercises. In real communication situations the learner has to depend on memorized survival phrases to meet the most immediate needs. Comprehension is shared meaning between parties in a communication transaction. This is the first step in the listening process. The second challenge is being able to discern breaks. Retaining is the second step in the listening process. Memory is essential to the listening process because the information retained when a person is involved in the listening process is how meaning from words is created. Because everyone has different memories, the speaker and the listener may attach different meanings to the same statement. Listening is an interaction between speaker and listener. It adds action to a normally passive process. Individuals in conflict often contradict each other. This may include a distortion of the speaker's argument to gain a competitive advantage. On the other hand, if one finds that the other party understands, an atmosphere of cooperation can be created. Communicative activities, the criterion of success is whether the learner gets the message across. In everyday communication, spoken exchanges take place because there is some sort of information gap between the participants. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process.

Key words: language, lexic, method, technology, speech

Захидова Ф.

Пути использования лингвистических материалов в препадавание английского языка на высших вузах

Резюме

В данной статье рассматриваются использования лингвистических материалов на английском языке. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Внедрение новых идей в практику преподавания очень важно и актуально в нашей ситуации, так как владение языком сегодня является одним из необходимых условий для профессионального развития, и изучающие язык стремятся к овладению английским языком как средством общения. В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и партнерами. Одной из основных целей изучения языка является овладение умением эффективно общаться на изучаемом языке. Как известно, при обучении иноязычно-речевой коммуникации, основные трудности составляют различия в системах контактирующих языков. Проблема обучения комбинированию элементов лексики изучаемого языка в процессе речевой коммуникации органически входит в более общую проблему обучения иноязычно-речевой коммуникации, так как комбинаторика, наряду со знаниями и совокупностью навыков, рассматривается в качестве одного из компонентов речевого умения. Чтение литературы на изучаемом языке способствует развитию устной речи, обогащает словарный запас, знакомит с культурой и литературой страны изучаемого языка, развивает аналитическое мышление. Поэтому уроки домашнего чтения необходимы в учебном процессе. Эти уроки очень ценны: во первых, учащийся соприкасается современным живым языком, а не условно –учебным; во-вторых, есть возможность высказать свое мнение и дать оценку и свои мысли произведению, персонажам. Но чтобы чтение было интересным и в тоже время развивающим речевые навыки, необходимо проводить работу над текстом, как перед чтением отрывка, так и после, чтобы помочь учащимся понять текст и активизировать новые языковые явления.

Ключевые слова: язык, лексика, метод, технология, речь

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Gülər Həsənova tərəfindən çapa tövsiyə olunmuşdur

XƏDİCƏ ƏLİYEVA
MDU
Dilarə Əliyeva 21
e-mail: ***xediceeliyeva-90@ mail. ru***

ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ AUDİO VƏ VİDEO MATERİALLARDAN İSTİFADƏ METODİKASI

Xülasə

Ali məktəblərdə şifahi nitqin inkişaf etdirilməsi istiqamətində işin məqsədyönlü, planlı şəkildə həyata keçirilməsi olduqca vacibdir. İngilis dilini tədris edən müəllimlər danışıq dilinin xüsusiyyətlərini hər bir dərsin tərkib hissəsi kimi nəzərdə tutmalıdırlar. Danışıq dilinin xüsusiyyətlərini, tədris edilən dildə şifahi nitqi nəzərə almadan tələbələrdə öyrənilən dil haqqında tam şəkildə təsəvvür yaratmaq və onların ixtisas dilində kommunikasiya prosesinə uğurlu şəkildə qoşulmasını təmin etmək qeyri-mümkündür. Danışıq dilinin xüsusiyyətləri keçirilən praktik dil dərslərinə inteqrativ şəkildə daxil edilməlidir. Eyni zamanda, ingilis dilini tədris edən müəllim şifahi nitqin formalaşması prosesində onların hansı problem və çətinliklərlə üzləşə biləcəklərini ehtimal etməli və şifahi nitqin aşılanması prosesini həmin amilləri nəzərə almaqla təşkil etməlidirlər. İşin məhz bu istiqamətdə qurulması dilöyrənənlərə lazımi nəzəri bilikləri mənimsəməyə və mükəmməl şəkildə mənimsənilmiş biliklərdən praktik məqsədlərlə istifadə etmək üçün səmərəli şərait yaradır. Ali məktəblərdə ingilis dilini tədris edən müəllimlərin qarşısında duran əsas vəzifələrdən biri tədrisin keyfiyyətini yüksəltməkdir. Eyni zamanda onu yüksək səviyyəyə çatdırmaqdır. Dilöyrənənlərin təlim prosesinə fəal iştirakçı qismində cəlb edilməsini təmin edə bilən şərtlərdən ən önəmlisi ingilis dilinin tədrisi prosesinin onların tələbat və ehtiyaclarına, yaş səviyyəsinə, və eləcə də onların maraq dairəsinə uyğun olan tərzdə qurulmasıdır. Xarici dil mütəxəssisi hazırlayarkən, əsas fəaliyyət növləri olan eşidib-anlama, danışma, yazı və oxunun öyrədilməsi üsullarına ciddi diqqət yetirilməlidir. Eyni zamanda dilin aspektləri olan leksika, qrammatika və fonetikanın öyrədilməsinə xüsusi diqqət yetirilməlidir.

Başqa sözlə desək, dil mütəxəssisi, ilk növbədə xarici dil müəllimi kommunikativ cəhətdən sərişẗəli olmalıdır. Məhz bu səbəbdən orta və ali məktəblərdə dilöyrənənlərə şifahi nitq vərdişlərinin aşılanmasına xüsusi diqqət yetirilməsi olduqca vacibdir. Əgər dilöyrənənlər ingilis dilindən fikir, ideya və informasiya mübadiləsi məqsədilə istifadə edə bilmirlərsə, linqvistik biliklərin əldə edilməsi tamamilə mənasız və nəticəsiz olur.

Açar sözlər: innovasiya, dil, metod, texnologiya, nitq

Bildiyimiz kimi, videomaterialların istifadəsi tələbələrə təkcə dinləmə deyil, həmçinin görmə şansı yaradır. Tələbələr bir-birindən yeni informasiyanı qavrama və yadda saxlama üsullarına görə çox fərqlənir. Bəzi tələbələr ancaq dinləyərək, bəziləri isə vizual şəkildə görərək, informasiyanı yadda saxlayır. Bu da informasiyanin daha yaxşı mənimsənilməsinə səbəb olur. C.Harmer "The practice of English Language Teaching" kitabının "Listening" bəhsində tələbələrin kommunikativ bacarıqlarını inkişaf etdirmək üçün istifadə olunan audio materiallardan və dinləmə bacarığı haqqında geniş məlumat vermişdir. C.Harmer eyni adlı kitabında dinləmənin iki növü olduğunu qeyd etmişdir. Tələbələrin sadəcə dinlədikləri parçadan zövq almaq və kommunikativ bacarıqlarını inkişaf etdirmək üçün istifadə etdiyi dinləmə növü ekstensiv dinləmədir[2, s. 46].

Aşağıdakı nümunəni nəzərdən keçirək:

Listening

a) What animals are considered pests in your country? Why?

b) Listen to two extracts from different news broadcasts, one about wolves and dogs, and one about foxes.

1. What do the stories have in common?
2. And finally wolves or dogs?
3. Which is more dangerous to mountain walkers?

Ekstensiv dinləmədən fərqli olaraq, intensiv dinləmə əsasən dərs prosesində baş verir. İntensiv dinləmə üçün istifadə olunan audio materiallar müəllim tərəfindən seçilir. Müəllim hər hansı materialı seçərkən bir çox amilləri nəzərə almalıdır. Ən başlıca amil tələbələrin dil səviyyəsidir. Hər bir audio material tələbələrin dil səviyyəsinə uyğun olmalıdır. Əks təqdirdə dərs prosesində istifadə olunan materiallar heç bir nəticə vermir. C.Harmer intensiv dinləmə zamanı istifadə edilən audio materilların müsbət və mənfi cəhətlərini vurğulamışdır. Audio materiallardan istifadə tələbələrə müxtəlif danışıq formalarını eşitməyə şərait yaradır, fərqlı danışıq tərzləri ilə yaxından tanış olan tələbə dil daşıyıcıları ilə ünsiyyətdə olarkən heç bir problem yaşamır. Lakin audio materilladan istifadə heç də həmişə problemsiz keçmir[2, s.46]. Bəzən sinifdə akustik problemlər yarana bilər. Belə olan halda tələbələr audio mətni tam eşitmədiklərinə görə anlaya bilmirlər[1,s.136]. Bəzən tələbələr hər hansı söz və yaxud da ifadəni anlamadıqları üçün dinlədikləri mətnin məzmununu da dərk edə bilmirlər. İlk növbədə, tələbələrə nümayişlər, diaqramalar və izahat vasitəsilə səslərin danışıq prosesində necə ifadə olunduğunu göstərə bilərik. Daha bir həll yolu dinləmə prosesində tələbələrin diqqətini bu səslərə yönəltməkdir. Onlar təhrif edilən səsləri tam eşitsinlər deyə biz konkret bir parçanı təkrar-təkrar onlara dinlətdirə bilərik. Bu tələbələrin bu səslərə alışmasını təmin edəcəkdir. Onlar dinləmə ilə bərabər tələbələri görüntü ilə də təmin edir. Lakin bəzi hallarda videomaterialların istifadəsi də problemsiz ötüşmür.

Texniki avadanlıqların istifadəsi zamanı ortaya çıxan başlıca problemlərdən biri də otaqlarla bağlı olur. Bəzən otaqların çox böyük olması nümayiş etdirilən videonun hamı tərəfindən izlənilməsinə və yaxud da istifadə edilən audio materialın hər kəs tərəfindən eşidilməsinə mane törədə bilər. Başqa bir problem isə sinif otaqlarının işiqlandırılması

ilə bağlıdır. Çox işıqlı otaqlarda proyektorun istifadəsı mümkünsüz ola bilər. Günəş işığının çox olması səbəbindən proyektor vasitəsi ilə təqdim edilən video və ya slaydların keyfiyyəti aşağı düşə bilər. Bu problemi yaşamamaq və yüksək keyfiyyətli səs və görüntü təqdim etmək üçün müəllim dərs keçəcəyi otağı əvvəlcədən nəzərdən keçirməli və lazımı gəldikdə otağı dəyişməlidir.

Beləliklə, müzakirələr diskursiv bacarıqlarının inkişafını dəstəkləməklə qalmır, həm də sinif saatlarının maraqlı təşkilini dəstəkləyir.

Məlumdur ki, xarici dilin öyrənilməsində müəllimin rolu böyük və danılmazdır. Müəllimin vacib rollarından biri də onun informasiya mənbəyi olmasıdır. Müəllim tələbələrin dinləmə və anlama bacarıqlarını inkişaf etdirmək, onları videomateriallarla təmin etmək üçün müxtəlif mənbələrdən, internet resurslarından istifadə edərək xarici dildə olan videolar, qisa metrajlı filmlər izləməyi məsləhət görə bilər. C.Harmer eyni adlı kitabda, auditoriyada videomaterialların istifadə metodikasından da danışmışdır. O, videomateriallardan səmərəli şəkildə istifadə etmək üçün bir neçə üsul göstərmişdir:

- Fast Forward (sürətlə irəli çəkmək) – Bu üsuldan istifdə edərək müəllim filmdən bir parçanı və yaxud bir videoroliki sürətlə irəli çəkir. Videorolik bitdikdən sonra müəllim tələbələrdən bu videonun nə haqqında olduğunu və personajların nə dediyi haqqında məlumat alır. Bizim fikrimizcə, belə üsuldan istifadə tələbələrə videonu izləyərkən diqqətini onun əsas və vacib hissələrinə istiqamətləndirmək və videodan danışılan mövzunun məğzini anlamağa imkan yaradır.
- Silent viewing (for language) – səssiz izləmə- Bu üsüldan istifadə edərək müəllim tələbələrə səssiz şəkildə, lakin normal sürətdə filmi izləməyə şərait yaradır. Film parçası bitdikdən sonra o tələbələrdən personajların nə haqqında danışdıqlarına dair ehtimallar irəli sürməyi istəyir. Hər bir tələbənin cavabını aldıqdan sonra, müəllim film parçasını yenidən, lakin səsli şəkildə oynadır və beləliklə, tələbələr ehtimallarının doğru olub olmadığını yoxlayırlar. Belə üsuldan istifadə edərək, müəllim tələbələrə ünsiyyət zamanı təkcə deyilən sözlərə deyil, həmçinin jestlər və mimikaya da fikir verməyi öyrədir.
- Freeze frame: (stop-kadr) – burada isə müəllim, videonu hər hansı hissəsində dondurur və tələbələrdən növbəti səhnədə nə baş verəcəyini və yaxud personajın növbəti səhnədə nə deyəcəyini soruşur. Bu üsul da digər üsullar kimi kommunikativ bacarıqların formalaşmasında böyük rol oynayır. Tələbələr artıq situasiyadan və yaxud ünsiyyətdə olduqları şəxsin mimika və jestlərindən onun nə deyə biləcəyini əvvəlcədən təxmin edə bilər və bu biliyə əsaslanaraq ünsiyyəti davam edə bilərlər [2, s.45]. Unutmaq olmaz ki, təlimin yeni texnoloji proseslə aparılmasında müəllim təşəbbüskarlığı və fərdi nümunəviliyi, problemə yaradıcı yanaşması ən vacib şərtlərdəndir. Müəllim öz təşəbbüs və qənaətlərini aktiv tərəfin-təhsilalanların fikir və fəaliyyətləri ilə birləşdirdikdə, başqa sözlə, düzgün ümumiləşdirilmə apardıqda, tədrisi interaktiv (birgəfəaliyyət, əməkdaşlıq, qarşılıqlı kollektiv iş) səmtə istiqamətləndirdikdə təlimin texnoloji səmərəsi daha üstün olur.

Texnoloji prosesə sistem halında yanaşmaqla həm təhsilalanların idrakının formalaşmasına, fəaliyyət çevrəsinin genişlənməsinə, həm də müəllim novatorluğunun mə-

kan və zaman daxilində yeni keyfiyyətlərlə görünməsinə əlverişli şərait yaradılmış olur [3, s.34].

Aşağıdakı çalışma növlərini nəzərdən keçirək:

Role-listening.

a) Listen to the extract in pairs, in the role of one of the personages.

b) Continue the conversation, predicting the next utterance and addressing your partner.

c) Compare the two versions on the appropriateness of your utterance to the context.

1*)* Listen to comments in a dialogue and evaluate the speakers attitude: approving and disapproving. Pay attention to such features as tone of voice and intonation.

2) In groups of four, agree or disagree with the following statements.

1. When a man loses his job, his sense of purpose is destroyed.
2. When a man loses his sense of purpose he'd better find another one.
3. Nobody can predict what his life would become.
4. If you've been injured by something you don't have to feel sorry for yourself.

Put your arguments for and against.

3) Working in groups, make a list of words in your native language teaching professionals, but perhaps unfamiliar to others. Which of them will end up in generally accepted usage, do you think?

4) What arguments can you think of the support your view?

5) In your groups, agree or disagree with the following statements.

1. New words come and go.
2. It is an advantage to be immediately recognizable as a foreigner.
3. Stereotypes are mostly negative.
4. Any assumption for superiority must be based on something that you do better.

Tələbələrin dinləmə bacarıqlarını inkişaf etdirmək üçün bu tip çalışmalardan da istifadə edilir. Burada tələbələr onlara təqdim edilən mətni dinləyir və mətnə əsasən hansı ifadələrin düzgün hansıların isə səhv olduğunu qeyd edirlər. Bu çalışmanın uğurlu yerinə yetirilməsi üçün müəllim audio materialı təqdim etməzdən əvvəl çalışmada verilən cümlələri bir-bir oxumalı və tələbələrə əsasən cümlənin hansı hissəsinə diqqət yetirməli olduqlarını qeyd etməlidr. Dilöyrənənlərin diqqətini konkret söz və ifadələrə yönəldərək dinləmə zamanı onların daha diqqətli olmasını və düzgün cavabı asanlıqla tapa bilmələrini təmin etmək mümükündür.İzahını verəcəyimiz növbəti çalışma sözönləri mövzusuna aiddir. Çalışmanın başlıca məqsədi tələbələrin öyrəndikləri sözönlərini şifahı nitqdə eşitmək və buna aid çalışmaları həll edərək onların yaddaşında daha uzun müddət saxlamaqdır.

Exercise № 1 Tony is helping Meg clean the house. Where should he put the items? Listen and circle the correct answer.

1. The magazines

a) On the bookshelf

b) On the bookshelf next to the dictionary
c) In the dictionary
2. The remote control
a) Beside the TV on the TV program guide
b) On top of the TV next to the TV program guide
c) Beside the TV program guide in front of the TV
3. The keys
a. In a box on top of the desk
b. Inside a drawer next to box
c. In a box inside one of the desk drawers
4. The baseball cap
a. On the hook behind the door
b. On the floor behind the door

Dinləməyə əsaslanan belə çalışmaların istifadəsi tələbələrdə əldə etdikləri bilikləri uzun müddət yadda saxlamağa, onları motivasiya etməyə və diqqətlərini uzun müddət bir yerə yönləndirməyə şərait yaradır. Bildiyimiz kimi, dinləmə materiallarının dərs prosesində istifadəsinin başlıca məqsədi öyrənmə prosesində təbii atmosferi yaratmaq və tələbələri danışıq dilinə maksimal şəkildə yaxınlaşdırmaqdır. Nitqdə tez-tez istifadə edilən söz və ifadələrlə tələbələri tanış etmək danışıq zamanı baş verə biləcək çətinlikləri aradan qaldırmağa kömək edir. İKT-nin imkanlarından yalnız reseptiv nitq fəaliyyəti növləri üzrə bacarıqların deyil, eyni zamanda şifahi nitq bacarıqlarının inkişaf etdirilməsində də istifadə olunmalıdır.

Ali məktəblərdə xarici dilin tədrisinin ən başlıca məqsədi tələbələrdə ünsiyyət vərdişlərinin formalaşdırılmasıdır. Ünsiyyət vasitələri dedikdə, biz təkcə danışıq bacarıqlarını deyil, həmçinin dinləmə bacarıqlarını da nəzərdə tuturuq[3, s. 21]. Audio materialların istifadəsinə dair qeyd edilmiş başqa bir problem ondadır ki, auditoriyadakı hər kəs səs yazısını əvvəlcədən müəyyənləşdirlimiş və hər kəs üçün eyni olan sürətlə dinləməlidir. Dinləmə materiallarının daha bir çatışmayan xüsusiyyəti ondan ibarətdir ki, tələbələr dinlədikləri şəxsin danışıq prosesində meydan çıxan üz cizgiləri, mimikalarını görmür və beləliklə, dinlədikləri materialı tam şəkildə anlamaqda çətinlik çəkirlər. Təbii danışıq prosesində dinlənilən mətnlə audio materiallar vasitəsilə dinlənilən mətn arasında çox böyük fərq vardır. Dinləmə materiallarını müəllimlər dərs prosesində istifadə edirlər və bu istifadənin maksimal şəkildə faydalı olması üçün ortaya çıxan çətinlikləri və problemləri həll etməyə çalışırlar. Beləliklə, audio və video materiallardan dərs prosesində istifadə vacib şərtlərdən hesab edilir.

ƏDƏBİYYAT

1. Alptekin C. Target Language Culture in ELT Materials // ELT Journal, 1993,47, 2, p. 136-143
2. Harmer J. English Language Teaching, 2005, pp. 45-46
3. Jack C. Richards. Communicative Language Teaching Today. Cambridge University Press, 2006, 471 p.

Kh.Aliyeva

THE METHODOLOGY OF USING AUDIO AND VIDEO MATERIALS IN ELT AT HIGH SCHOOLS

SUMMARY

The article deals with the role of audio and video materials in developing communicative competence in language faculties and working out effective ways of listening skills. Instructors can also give students strategies and phrases to use for clarification and comprehension check. By encouraging students to use clarification phrases in class when misunderstanding occurs and by responding positively when they do, instructors can create an authentic practice environment within the classroom itself. As they develop control of various clarification strategies, students will gain confidence in their ability to manage the various communication situations that they may encounter outside the classroom.The process of teaching English should be based on the communicative approach to teaching languages. The process of teaching oral speech should be goal-oriented, at the same time systematic. It will make the process of teaching oral speech more interesting, productive and effective. While investigating attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the characteristics of these materials. The author emphasizes the role of these materials in methodology. Since its emergence this notion caught the attention and new researches appeared. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently. In communicative activities, the criterion of success is whether the learner gets the message across. In everyday communication, spoken exchanges take place because there is some sort of information gap between the participants. Communicative output activities involve a similar real information gap. In order to complete the task, students must reduce or eliminate the information gap. In these activities, language is a tool, not an end in itself. In a balanced activities approach, the teacher uses a variety of activities from these different categories of input and output. Learners at all proficiency levels, including beginners, benefit from this variety; it is more motivating, and it is also more likely to result in effective language learning. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process.

Key words: innovation, language, method, technology, speech

АЛИЕВА Х.

МЕТОДИКА ИСПОЛЬЗОВАНИЯ АУДИО И ВИДЕО МАТЕРИАЛОВ НА ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА НА ВЫСШИХ ВУЗАХ

РЕЗЮМЕ

В данной статье рассматриваются вопросы обучения устной речи на английском языке. Процесс обучения английскому языку в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно - функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Одной из основных целей изучения языка является овладение умением эффективно общаться на изучаемом языке. Сегодня существует настоятельная потребность в изучении иностранных языков. Внедрение новых идей в практику преподавания очень важно и актуально в нашей ситуации, так как владение языком сегодня является одним из необходимых условий для профессионального развития, и изучающие язык стремятся к овладению английским языком как средством общения. В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и партнерами. Говоря знания преподавателей языка должны носить активный характер. Они должны быть готовы применить их, интерпретировать и адаптировать их применительно к конкретным ситуациям обучения и согласно интересам и потребностям своих студентов. В подобном контексте весьма существенным является подлинность используемых в процессе обучения языка текстовых материалов. Соответственно, в процессе обучения необходимо использовать реальные тексты и истории из реальной жизни, а не созданные писателями и зачастую не имеющие ничего общего с реальной действительностью и реальными условиями использования языка рассказы.

Ключевые слова: инновация, язык, метод, технология, речь

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

ELNARƏ MƏMMƏDOVA
ADU
Rəşid Behbudov 134
e-mail: elnarememmedova 1973@gmail. com

PANDEMİYA DÖVRÜNDƏ İNGİLİS DİLİNDƏ COVİD-19 MÖVZUSUNDA YARANAN SÖZ VƏ İFADƏLƏRİN LEKSİK- ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Hər bir dilin lüğət tərkibi, fonetik və qrammatik quruluşu qədim dövrdən başlayaraq bu günə qədər uzun tarixi yol keçmişdir. Eyni zamanda inkişafın müxtəlif mərhələlərində təkmilləşmiş, cilalanmış və bölünməz olmuşdur. Dil sistemi ilə bağlı müqayisələr göstərir ki, fonetik, leksik və qrammatik quruluşda baş verən dəyişmələrin səviyyəsi birbirindən fərqlənir.

Kommunikasiya prosesində iştirak etməklə biz həm danışılanı başa düşür, həm də özümüz mətni-söyləmi yaradırıq, birinci aktda bizim ən əsas məqsədimiz dildə ifadə edilən fikirlərin dərk edilməsidir. Axı dil fikri təcəssüm etdirmə vasitəsidir. Ancaq dilin kodlaşdırılması zamanı istifadə olunan bilik yalnız dil haqqında olan biliklərimizlə məhdudlaşmır.

Covid-19 mövzusunda yeni yaranan söz və ifadələrin mətndə istifadəsi də fikri təcəssüm etdirmək baxımından vacib və aktualdır. Qeyd edək ki, fonetik və qrammatik quruluşa nisbətən, leksik quruluş daha çox dəyişir. Ona görə də lüğət tərkibində baş vermiş dəyişmə, çarpazlaşma, müxtəlif dillərlə genetik-kontakt əlaqələri leksik quruluşda tez bir zamanda üzə çıxır. Bu mənada məqalədə nümunələrə böyük diqqət ayrılır. Bu məsələnin ingilis dilinin tədrisində də vacib olduğu vurğulanır. Həm də təbii olaraq, sözlərin semantik məna çalarlarının tarixi də dillərin ən qədim, qədim, orta, yeni, ən yeni dövrləri səviyyəsində üzə çıxır. Bəzən tarixi o qədər qədimlərə gedib çıxır ki, səbəbdən-nəticəyə, sadədən mürəkkəbə olan yolu, yaxud da bunun əksini tapmaq, görmək çox çətin olur. Belə demək mümkünsə, ən qədim dövrlərə aid sözlərin məna dəyişmələrinin səbəbini, dəqiq tarixini açmaq üçün yazılı mənbələr də bir çox zaman az qala rolunu itirir. Məhz onda müəyyən suallar, problemlər yaranır. Onların cavabı da bəzən qeyri-müəyyənliyə, aydın olmayan mücərrəd bir təhlilə, izaha söykənmiş olur. Bütün bunlar dil faktı vasitəsilə təsdiqlənir. Lakin ən qədim dövrlərdə semantik çalarlar törədən, mənbə, başlanğıc, səbəb və s. kimi hallar çox vaxt qeyri-müəyyənliyə yaxınlaşır. Bu zaman dildə rəngarənglik, kolorit formalaşmağa başlayır ki, dil bunları qəbul edir. Əksər hallarda bu özünü danışıq aktında daha çox nəzərə çarpdırır.Bu zaman çalarlar ön plana keçir.

Açar sözlər: strategiya, nitq, dil, kontekst, Covid-19

Zamanın diktə etdiyi vəziyyətdən asılı olaraq, dilə yeni söz və ifadələr daxil olur[1, s. 167]. Müasir dilin lüğət fonduna pandemiya da xeyli söz və ifadələr daxil etməsi ilə şərtləndi. "Oxford English Dictionary" (OED) siyahısında dekabr ayında koronavirusla bağlı 0.03 milyon token daxil olduğu halda, rəsmi şəkildə pandemiya elan edilməsindən sonra sosial şəbəkələrdə 1.750 milyon token yarandı. Qeyd edək ki, *token* OED korpusunda toplanan ən kiçik vahidlər hesab olunur. Onlardan ən aktual olanı *Covid-19* sözüdür. Dünya Səhiyyə Təşkilatı virus haqqında geniş məlumatlar verməyə başladı və pandemiya elan etdi. Bundan əlavə, Covid-19 mövzusunda "coronacoinages" yaranmağa başladı. Məsələn, alman dilində *coronaspeck* Covid-19 mövzusunda işlədilir, "evdə qalmaq" mənasında işlədilir. İspan dilində *covidiota və coronaburro* sözləri meydana gəldi. Burada *burro* meymunlarla bağlı əyləncəli oyun növüdür. *Doomscrolling* sözü isə internetdə müntəzəm olaraq yenilikləri izləyənləri nəzərdə tutur. Onlar tematik cəhətdən qruplaşdırılarkən hiss-həyəcan, qorxu və s. kimi təsnifatla qarşılaşırıq. Məsələn, *fobia* sözü hiss və həyəcan ifadə edərək, məcazi mənada işlədilir. *Panic attack* söz birləşməsi də eyni tematik qrupa aid edilir[2, s.45].

Təhlükə bildirən söz və ifadələrdən bəhs edərkən aşağıdakıları nəzərdən keçirmək olar:

- t*wo real financial dangers that the pandemic has flamed;*
- *time of peril;*
- *virus hysteria;*
- *the virus scare of 2020 does create financial risks;*
- *the second is an economic down turn.*

Qeyd edək ki, bu ifadələr qorxu, təhlükə bildirərək, neqativ konnotasiya nümayiş etdirirlər.

Bundan əlavə, *social distance (sosial məsafə)* söz birləşməsi də dilin lüğət fonduna daxil olaraq, işlək sözlər sırasında yer almaqdadır.

Digər leksik vahidlərə nəzər salaq:

1.Covidiot(someone ignoring public health advice);
2. Covidio party(someone s online parties via on ZOOM or Skype);
3. Covexit (the strategy for exiting lock down);
4. Pandemic;
5. Lockdown,
6. Key Workers;
7. WFH(working from home),
8. ZOOMbombing(hijacking a ZOOM video call),
9. Quaranteams(online teams created during lockdown).

Bəzi dilçilərə görə, *Zoombombing* ifadəsi ehtimallara əsasən, gələcəkdə çox işlək olan ümumi terminə çevrilə bilər. Bu *hoovering up a mess* ifadəsinin alternativi olaraq da işlənə bilər. ZOOM şirkəti dominanatlığını itirsə belə bu ifadənin hələ uzun illər fəal olacağı haqqında dilçilkdə proqnoz verən tədqiqatçılar az deyildir.

Pandemiya dövründə metaforalar da yaranmağa başladı. Məsələn, brifinqdə belə bir fikir söylənilmişdir: "*This enemy can be deadly, but also beatable"-to sports, storms, monsters, natural disasters, and more.*Bu cümlədə də aydın şəkildə sözügedən bu virusun həyatın bütün sahələrinə zərər vura biləcəyi aydın şəkildə sezilməkdədir.

Qeyd edək ki, *briefing* sözü də məkan bildirən leksik vahid olaraq səciyyələnir. Eyni zamanda pandemiya dövrünün ən işlək, hiss və həyəcan motivini özündə ehtiva edən anlayışı kimi səciyyələnir. Çünki pandemiya dövründə yoluxma, sağalanlarla və s. bağlı bütün statistik məlumatları, gəlinən nəticələri, verilən qərarları məhz buradan KİV vasitəsilə əldə etmək olurdu. Covid-19 çox qısa vaxtda həyatımızda bədbinlik yaradan dəyişikliklərlə səciyyələndi. Çoxlu iş yerləri bağlanaraq, iqtisadiyyatın zəifləməsinə şərait yaratdı. Ölkələr arasında səfərlər ləğv olundu. Bütün bunlar dilin lüğət fonduna təsirsiz ötüşmədi. Bu vəziyyət, eyni zamanda, dillərin lüğət fondunda zənginləşməyə səbəb oldu. Qeyd edilməlidir ki, nitq ünsiyyətinin müasir dinamik modeli bir sıra hissələrdən ibarətdir ki, onlar nəinki dilin səsli (xarici) forması, həmçinin dilin məzmunlu (daxili) tərəfini nəzərə almağa imkan verir, bu isə nitq ünsiyyətinin semantikasına daha da artan marağı izah edir. Bu iki tərəfin dialektik birliyi fikrin, danışanın modal münasibətlərin səs ilə ifadə olunmasının geniş variativliyinə səbəb olur. Sözün tanınması onun semantikasına, o cümlədən modal-emosional mənalarına əsaslanır. Sözün semantikasının, münasibət mənalarının qavranılması isə söyləmin tərkibində olan seqment və supraseqment vahidlərin tanınmasına əsaslanır, bu da qarşılıqlı əlaqəli və bir-birindən asılı əlamətlər sistemini təşkil edir. Müəyyən mətnin, o cümlədən alınmaların işləndiyi mətnin şərh edilməsi məzmun planı səviyyəsində əlamətləri üzə çıxarmağa və bu əsasda şərh edilən mətnin ümumiləşdirilmiş modelini qurmağa imkan verir.

Beləliklə, yeni leksik vahidlər dildə yaranmağa başladı ki, bunlar həm tibb, həm də digər sahələrdə işlək hala çevrildilər. Bəzi leksik vahidlər arasında yiyəlik halda işlədilənlər də vardır. Belə ki, *Covid-19 s obliteration of demand, Covid-19 s spread* kimi ifadələr sosial şəbəkələrdə yer aldı. [3, s. 11]. Beləliklə, sadaladığımız bu ifadələr sosial şəbəkələrdə geniş şəkildə istifadə edilərək, reallığı əks etdirir. Dilə cəmiyyətdəki siyasi, ictimai hadisələr, elmi-texniki irəliləyiş, iqtisadi-mədəni həyatda baş verən yeniliklər ciddi təsirlə şərtlənir. Dillərarası bağlılıqların kökü çox uzaqlara gedib çıxır. Belə ki, məntiqi təfəkkürün formalaşdığı, xalqlar arasındakı iqtisadi və hərbi əlaqələr inkişaf etdiyi vaxtdan dillər arasında da müəyyən münasibətlər formalaşmışdır.Bu da məlumdur ki, dünyada istənilən dil təkbaşına inkişaf etmək iqtidarında deyil. Xarici aləm ona daim təsir etməklə, onun inkişafı prosesində də öz izlərini qoyur. Dil əlaqələri xalqlar arasında mütləq şərtlərdən hesab olunur. Bu da dilin bütün səviyyələrinin təkamülünə səbəb olur. Buradan aydın olur ki, leksik vahidlər hər bir dildə yeniliyə söykənir. Hər gün yeni söz yaranır. Pandemiya ilə əlaqədar cəmiyyətdə terminlərlə bağlı ehtiyac var idi və sözügedən sözlər, ifadələr yarandı. Bu bir daha sübut edir ki, ingilis dilində leksik vahidlər hər il artır. Pandemiya dövründə də dildə yeni yaranan sözlərlə qarşılaşmalı olduq. Covid-19 mövzusunda yeni yaranan leksik vahidlərin praqmatik məzmunu onun istifadə olunduğu şəraitin xüsusiyyətlərini özündə əks etdirir.

Bundan başqa, prefiks və suffikslər də bu leksik vahidlərin yaranmasında məhsuldarlıq nümayiş etdirdilər. Belə ki, Covid-19 mövzusunda tematik qrupda sözü gedən prefiks və suffikslər konnotativ məna çalarları yaradırlar. Bir neçə prefiksi buna misal göstərmək olar.

-Un-, dis-, in- prefiksləri neqativ, əks mənalarında işlədilirlər. Məsələn, *unmitigated calamity, unexciting, unhappy, disagree, dislike, inarticulate, inactive, undo, unblock* və s. Prefikslərə və sufikslərə aid bu nümunələr yeni sözlərin yaradılmasında istifadə olunan ən məhsuldar formalardır. Sözlərlə birlikdə onların mənasını asanlıqla başa düşmək olur. Bunlardan bəziləri pandemiya dövründə fəal və məhsuldarlıqları ilə seçildilər. Misal olaraq, pandemiya dövründə *corona* sözü prefiks kimi işlənməyə başladı. Məsələn, *coronababies (Pandemya dövründə doğulan körpələr).*Lakin Covid -19 mövzusunda bəzi söz və ifadələrin yaranmasında fəal iştirak edən prefikslər vardır ki, *-pre, -post, after* söz önünü misal göstərmək olar.

Onlardan aşağıdakıları nümunə kimi təqdim etmək olar:

- *Pre-coronavirus,*
- *Post-coronavirus,*
- *Pre-virus,*
- *Pre-covid,*
- *Post- covid.*

Yeni sözə verilən mənanı tapmaq üçün onun etimologiyasını, sözün hansı sosial və mədəni muhitlə bağlı olduğunu araşdırmaq lazımdır. Məsələn, Covid-19 mövzusunda yaranan yeni leksik vahidlər də bu qəbildəndir.

Beləliklə, dildə çoxlu Covid-19 mövzusunda sözlər yaranmışdır. Onlardan bəziləri obrazlılığı, az obrazlılığı və ya ifadəliliyinin olmaması ilə şərtlənir.

Qeyd edək ki, mənfi çalara malik, neqativ konnotasiya yükünü özündə daşıyan leksik vahid və ya ifadələrin işlədilməsi pandemiya dövrü üçün xarakterik haldır. Covid-19 sözü özü-özlüyündə neqativ konnotasiyaya malikdir.

Bununla bağlı yaranan aşağıdakı ifadələr buna misal ola bilər:

- *killer or threat, killer;*
- *a nasty blast;*
- *a natural disaster;*
- *a major threat;*
- *punishment;*
- *an anmitigated calamity;*
- *a health emergency;*
- *known enemy;*
- *quarantine and chill;*
- *virtual happy hour etc.*

Bu mövzuda “collocation”lar da geniş istifadə olunmağa başladı.

Məsələn:

- *Letting the virus out of the bag;*

- *Covid dries up a cash now;*
- *The ill wind of Covid-19;*
- *The sting of Covid-19.*

Bu söz və ifadələr sosial şəbəkələr vasitəsilə daha da intensiv istifadə edilməyə başladı və sürətlə yayıldı.

Bundan əlavə, Covid-19 mövzusunda xeyli söz birləşmələri meydana gəldi.

Onlardan bəzilərini aşağıda təqdim edirik:

- *Covid-19 deaths;*
- *Virus –related;*
- *Covid strikes (firms);*
- *Virus control;*
- *Virus-induced.*

Dünya haqqında olan biliklərimizlə yanaşı, mətnin sosial konteksti, yaddaşda olan informasiyanın bildirilməsi bacarığı, mətni planlaşdırmaq, idarə etmək və digər cəhətlər də müəyyən rol oynayır. Onlardan heç birinə açıq-aşkar üstünlük verilmir. Yalnız qarşılıqlı əlaqə vasitələrinin öyrənilməsi, bütün biliklərin səfərbər olunması dil kommunikasiyasının mahiyyətini başa düşməyə kömək edir, gündəlik həyatda işlənən dil təcrübəsi ilə həyata keçirilən semantik nəticələrin təbiətinin aydınlaşdırılmasını şərtləndirir.

Qısaltmaların yaranması da pandemiyada fəal oldu. Məsələn, *PPE* qısaltması *həyatqurtaran* mənasında işlək oldu. *Quaz quarantine, sanny sanister* sözlərinin qısaltması kimi nəzərə çarpdı.

Qeyd edək ki, bəzi söz və ifadələr səbəb əlaqəsi ilə bağlanır.

- *the Covid-19 catastrophe;*
- *the Covid-19 shutdown;*
- *the Covid-19 lockdown;*
- *the Covid-19 calamity;*
- *the Covid-19 deaths;*
- *the Covid-19 restrictions;*
- *corona holiday*[3, s. 2].

Buradakı söz və ifadələr real hadisə və anları özündə təcəssüm etdirir.

Yuxarıda verilmiş *coronavirus shutdown* birləşməsini özündə ehtiva edən aşağıdakı cümləni nəzərdən keçirək:

It also happens to be a good description for the governments approach to bringing the economy back from the coronavirus shutdown(The Economist, World News Politics, Economist Business and Finance 2020*).*

Lakin bədbin fikirlər arasında nikbinliyə köklənmiş ifadələri özündə əks etdirən cümlələr də səslənirdi . Beləliklə, Covid-19 mövzusunda yaranan yeni leksik vahidlərlə tanışlıq sosial şəbəkələrdə başladı və davam edir. Davam etdikcə isə dilin leksik fondunda zənginləşmə ilə səciyyələnir. Bütün bunların ingilis dilinin tədrisi prosesində lügətin, leksik bacarıqların mənimsədilməsi zamanı nəzərə alınması vacib hesab edilir.

Ədəbiyyat

1. Bloomfield J. Language, New York: George Allen, Unwin LTD, 1933, 553 p.
2. Ewer, J.R. Hughes-Davies, E. "Further notes on Developing an English Programme for Students of Science and Technology" in Swalls (ed., 1985), pp.34-45
3. Miskin Evelina. The language of COVİD-19 -comparison between collocations in popular and scientific articles // ReThink, vol.9, 2020, p.1-15

E. Mammadova

The lexical-stylistic characteristics of words and phrases on the theme of Covid-19 in English in pandemy

Summary

In a balanced activities approach, the teacher uses a variety of activities from these different categories of input and output. Learners at all proficiency levels, including beginners, benefit from this variety; it is more motivating, and it is also more likely to result in effective language learning. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process. Attention was payed to the lexical units taken from the social media. The author stresses their role in speaking activities. Since its emergence this ones caught the attention and new researches appeared. It is noted that this gives us more power to understand the process clearly. Language is a tool, not an end in itself. Many times, your material will dictate the pattern you use, but, unless the pattern is suited to your purpose and audience, do not hesitate to try another one. Try to choose a pattern that permits you to move from the familiar to the unfamiliar or from the simple to the complex. Even exceptional writers need an outline for their ideas to appear as if they were naturally arranged from the beginning of the message or report to the end. Thus, this blueprint is a time-saver rather than a time-waster. As a minimum, write down your main points in some kind of orderly arrangement before you begin to write. For longer papers and reports, you will find a detailed outline is usually a better aid in organizing your material. Even though developing the outline can be a difficult process, it forces you to align your main and supporting ideas in logical order before you begin writing. Otherwise, distractions of all kinds can confuse you and make your writing job much more difficult than it should. Several factors influence a reader's interaction: how easy the text is to read, how accurately it follows the conventions of its genre or structure, the language it is written in, and even the type and the size of font. Reading is thinking cued by written language. Effective readers locate the basic information from the text.

Key words : strategy, speech, language, context, Covid-19

Э. Мамедова

Лексические-стилистические характеристики слов и фраз по теме Ковид-19 на английском языке в период пандемии

Резюме

Студенты изучающие иностранный язык, используют различные справочники, словари, книги для чтения, аудио и видеоматериалы, компьютерные программы и т.д. Комплексный подход к использованию учебных материалов в значительной степени содействует повышению уровню учебников. С другой стороны, на другом уровне существует коммуникативная потребность обучаемого как индивидуума, т.е. индивидуальная потребность в речевой коммуникации. Эта внутренняя потребность является субъективной. Основной движущей силой, основным мотивом, лежащим в основе всего процесса обучения иностранному языку и его изучения, несомненно, является интерес, любознательность со стороны изучающих язык. Для того, чтобы система обучения тому или иному иностранному языку наиболее целесообразным образом содействовала успешному обучению языкам и их усвоению, следует непременно дифференцированно подходить к наличию у людей интереса к обучению и межличностным контактам, потребности в обмене информацией и мыслями. Также существуют личные интересы и потребность делиться знаниями и культурой с другими людьми, а также потребность в самореализации. Относительно коммуникативного подхода к обучению иностранному языку, многие авторы поддерживают идею, согласно которой коммуникативные потребности как внутренние осознанные потребности, требуют самого серьезного рассмотрения. В подобном контексте весьма существенным является подлинность используемых в процессе обучения языка текстовых материалов. К примеру, в действительности сегодня практически в любом обществе существует потребность в знании языков. Роль и задачи обучения, в частности, чтению как в существующей системе образования , так однако практически в любом контексте существует потребность в знании получении информации и в коммуникативной компетентности людей, изучающих те или иные иностранные языки.

Ключевые слова: стратегия, речь, язык, контекст, Ковид-19

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

AYŞƏN İSMAYILLI
Nəsimi adına Dilçilik İnstitutu
Bakı, Hüseyn Cavid Pr 31
aysheaxmedova4@gmail.com

QARABAĞ BÖLGƏSİNDƏKİ GEOMORFOLOJİ TERMİNLƏRİN MİKROTOPONİMLƏRİN YARANMA PROSESİNDƏ ROLU

XÜLASƏ

Qarabağ bölgəsi geomorfoloji quruluşuna, iqlim şəraitinə, flora və faunasına görə özünəməxsus xüsusiyyətlərə malikdir. Burada müxtəlif landşaft quruluşu özünü göstərir. İnsanlar coğrafi obyektləri adlandırarkən relyef formalarından asılı olaraq müsbət relyef formaları (dağ, qaya, xirvə, yal, yamac, təpə, tap, və s.) və mənfi relyef formaları (çökək, çuxur, dərə, qobu, vadi, çala, düz, düzən, düzənlik, küdri, yazı və s.) kimi müxtəlif geomorfoloji terminlərdən istifadə etmişlər. Bu terminlərdən müəyyən qismi arxaikləşmişdir. Geomorfoloji terminlər keçmiş tariximizin daşıyıcısı kimi müxtəlif prosesləri izləməyə yardımçı olur, etnik proseslər və xalqımızın formalaşmasında yaxından iştirak edən türkdilli tayfalar haqqında geniş məlumatlar verir. Müasir dilimizdən uzaqlaşaraq arxaikləşən geomorfoloji terminlər daha çox xalq danışıq dilində yaşayır. Qarabağ bölgəsində də arxaikləşmiş coğrafi adlar mikrotoponimlərin tərkibində qeydə alınmışdır. Belə coğrafi terminlər qədim zamanlardan etibarən ərazidə məskunlaşan əhalinin sənət, peşə, məşğuliyyəti, kənd təsərrüfatı fəaliyyəti və s. ilə bağlı bir çox faktları aşkar etməyə yardımçı olur. Mikrotoponimlərin tərkibində bəzi geomorfoloji terminlərə rast gəlinir ki, onlar əkinçilik və maldarlıq vərdişləri ilə bağlı olaraq yerli əhalinin dilində işlənmiş, lakin zaman keçdikcə arxaikləşmiş, bir qismi isə müxtəlif ərazilərdə canlı danışıq dilində, dialekt və şivələrdə qorunub saxlanılmışdır. Köhnəlmiş və dialektlərdə az qismi qorunub saxlanılmış terminlər keçmişin daşıyıcısı kimi real tarixi faktları əks etdirərək müxtəlif dövrlərə işıq salır. Qarabağ bölgəsində qeydə alınan geomorfoloji terminlərə bunları aid etmək olar: gədik, taxta, yal, köbər, taxt, küdri, kaha, tirə, tap, dəhnə, bazı, kövşən, arxac və s.

Açar sözlər: Qarabağ, bölgə, geomorfoloji, termin, mikrotoponim, onim

Qarabağ bölgəsində mikrotoponimlərin tərkibində bir sıra arxaik geomorfoloji terminlər qeydə alınmışdır:

Gədik coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər. Dağın beli və ya aşırım mənasındadır. Bəşir Əhmədov sözü belə izah edir: "getmək feili zəminində yaranıb. Dağın bir tərəfindən digər tərəfinə keçmək üçün olan gediş (keçid) yerinə deyilir. Gədik öz formasına görə bir qədər çökək olur (yəhərə bənzəyir). Ona görə də buna ruslar "седловина" deyirlər" [7, s. 11]. Gədik sözü dialekt və şivələrimizdə də işlənir: "(Ordubad) aşırım, dağ keçidi - Biz bu gün dağın

gədiyindən aşırdıx” [4, s. 176]. “Koroğlu” dastanında gədik sözü qeydə alınmışdır: Daşlı dərənin girəcəyi dar bir gədik idi. (“Qulun qaçmağı”)

Bir gün bir tacir Ərzurumdan gəlib Ərzincana gedirdi. Ərzincan yolunda keçilməz bir gədik var idi. Koroğlu gəlib gədiyin ağzını kəsib pusquda dayandı. Tacir qabaqda, karvan ilə nökərlər isə arxada gəlib gədiyə çadtılar. (Paris nüsxəsi, 7-ci məclis)” [8, s. 58].

Respublikamızın ərazisində gədik sözü bəzi el-oba adlarının tərkibində qeydə alınmışdır: Gədik kəndi (Quba), Gədikdağ (Zəngəzur silsiləsi), Gədikdərə çayı (Yardımlı), Gədikqışlaq kəndi (Quba). Bu adlar həmin geomorfoloji terminin arxaik olduğunu təsdiqləyir.

Qarabağ bölgəsində gədik geomorfoloji termininə bir çox oroqrafik obyekt adlarında rast gəlinir: Məsələn: Tuğ gədiyi, Arpa gədiyi, Çoban gədiyi, Qanlı gədik, Cinli gədik və s. (Ağdam rayonu); Arpagədik, Xırmancıq gədiyi, Qanlı gədik və s. (Xocavənd rayonu); Yelli gədik (Xocalı rayonu, Füzuli rayonu); Qəbirli gədik (Şuşa rayonu); Qanlı gədik (Füzuli rayonu) və s.

Taxta coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər. Dialekt və şivələrimizdə taxta bu mənalarda işlənir: “1. Əkin sahəsində zolaq, əkin sahəsinin bərabər hissələri (Balakən, Göyçay, Qarakilsə, Ordubad, Şəki, Şuşa); 2. Dalğavar yerdə düzənlik hissə, otlaq sahəsi (Cəbrayıl, Qazax, Laçın)” [4, s. 478].

“Taxta bir çox toponimlərdə “yüksəklikdə hamar yer, düzən”, “düzəngah”, “dağlıq yerdə düzən yer”, “çəltik əkini üçün sərhədlənən torpaq sahəsi” və s. mənaları kəsb edir. Taxtayaylaq oronimi “dağda hamar sahədə yerləşən yay yurdu” mənasındadır. Oronim Tatar taxtası da adlanır. Taxta komponentli coğrafi adlara, həmçinin Ermənistan və Gürcüstan toponimiyasında da rast gəlinir: Taxtakörpüçay (Ermənistan, Sisyan rayonu), Taxtayurt dağı (Ermənistan, Noemberyan rayonu), Taxta dağı (Gürcüstan, Sitelskaroy rayonu)” [6, s. 227-228]. Həmçinin Taxtakənd (Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan rayonu), Taxtakörpü (Yelizvavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Dilican rayonunda kənd, 1728-ci ildə İrəvan əyalətinin Qarni və Vedi nahiyəsində kənd), Taxtalar (İrəvan xanlığının Dərələyəz mahalında kənd), Taxtatəpə (Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Krasnoselo rayonunda qışlaq); Türkiyədə Taxtabaş (Ordu), Taxtacı (Balıkəsir, Manisa), Taxtacıörəncik (Ankara), Taxtakəmənt (Sivas), Taxtakəmər (Kaysəri), Taxtaqıran (Qars), Taxtakörpü (Bursa, Hatay, Kayseri, Samsun), Taxtakənd (Adana, Balıkəsir), Taxtaquşlar (Balıkəsir), Taxtalar (Qızılcahamam), Taxtalı (Balıkəsir, Bitlis, Bursa, Dənizli, Qaziantep, Qocaeli, Konya, Malatya, Sivas, Tokat), Taxtalıdədələr (Maraş) kəndləri qeydə alınmışdır. Fikirdən aydın olur ki, taxta termininin yayılma arealı genişdir. Qarabağ bölgəsində Qatıqlı taxta (Ağdam rayonu); Alıbəy taxtası (Şuşa rayonu) və s. qeydə alınmışdır.

Yal coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər. "Bir xətt üzrə uzanan yüksəkliklərin ən yüksək nöqtələrinin və onları ayıran alçaq sahələrin məcmusudur" [10, s. 309].

"Koroğlu" dastanında yal bu şəkildə qeydə alınmışdır: "Ağqayanın düşmən keçməz keçidi, Güllü yalın cüt bulağı gözəldi! ("Mərcan xanımın Çənlibelə gəlməyi") " [8, s. 148].

Qarabağ bölgəsində yal termini mikrotoponimlərin tərkibində iştirak edir. Məsələn: Ballıqaya yalı, Çəmən yalı, Keçəl yal, Palıdlı yal, Daşlı yal, Molla Məhəmmədin yalı, Dolayı yal, Dəyirmanın yalı, Köbərli yal, Kəngərlinin yalı, Közərən yal, Köçgələn yal, Qanlıyal, Uzun yal, İsmayıl əkən yal, Almalı yal (Ağdam rayonu); Avdur yalı, Çuxuryal, Daşbaşı yalı, Dağdöşü yalı, Edilli yalı, Xtsabert yalı, Kühul yalı, Tuğ yalı (Xocavənd rayonu); Alçalı yal, Arpa yalı, Biçənək yalı, Çadır yalı, Fincə yalı, Xırmanlı yal, İmamqulubəyli yalı, Qazaxlılar yalı, Qırxbuğumlu yal (Şuşa rayonu); Keçəl yal, Aşağı yal, Biçənək yalı, Kərkicahan yalı, Quru yal, Uzun yal, Yuxarı yal, Uzunyal (Xocalı rayonu); Qonur yal, Dəmirli yal (Tərtər rayonu) və s.

Köbər coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər. "Dik yer, dikdir, dik torpaq qalağı, hündür yerdir" (2, 743). Dialekt və şivələrimizdə də rast gəlinir: "Ağcabədi, Bərdə, Qax, Yevlax) - dik yer. - Köbər yerə su çıxmaz (Ağcabədi)" [4, s. 260]. Respublikamızda Köbər Zəyzit kəndi (Şəki), Köbərkənd kəndi (Bərdə) qeydə alınmışdır. Qarabağ ərazisində Güllü köbər, Şirzad köbəri, Küdürüstü köbəri (Ağdam rayonu) yer adlarına rast gəlinir.

Küdri coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər. Dialekt və şivələrimizdə belə işlənir: "(Göyçay, İmişli, Salyan, Kürdəmir, Sabirabad, Şamaxı) - 1. Su çıxmayan yer (Göyçay, Sabirabad, Şamaxı). 2. Düzənlik (İmişli, Kürdəmir)" [4, s. 265].

Nadir Məmmədovun fikrincə, "küdri toponimiyamızda çoxmənalı sözlərdən biri olub isti ərazi, düzən yer və s. anlayışları bildirir" [9, s. 178]. Ağdam rayonunda Ləmbəran küdrisi mikrotoponimi var.

K**aha coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər:** Qayalıq və dağlıq yerlərdə olan həm təbii, həm də süni şəkildə yarana bilən oyuqdur. Kaha termini toponimin tərkibində Kaha kəndi (Kəlbəcər) rayonunda rast gəlinir. Qarabağ bölgəsində mikrotoponimlərin tərkibində Ağzı yastı kaha, Səfi kahası (Şuşa rayonu) qeydə alınmışdır.

Tirə coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər. "Arx, xəndək və s.-nin kənarlarında tökmə torpaq; azacıq hündür yer, təpəcik; təpəlik, dikdir" [3, s. 345]. Tir - (Oğuz, Şəki, Zaqatala) – ləklər arasındakı torpaq arakəsmələr. Tir vurmax (Oğuz) – suyun kənara axmaması üçün ləklər arasında arakəsmə düzəltmək" [4, s. 498]. Mikrotoponim kimi Pirəbulaq tirəsini (Ağdam rayonu) misal göstərmək olar.

Tap coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər. Nadir Məmmədovun fikrincə, "Tap termini müxtəlif mənalarda işlənir: dağ ətəyində olan

düzənlik; su çıxmayan düz yer, düzən yerdə təpə, dağ döşündə olan düzənlik; terraslararası geniş düz və s.dir" [9, s. 175].

Tap sözü dialekt və şivələrimizdə belə işlənir: "(Füzuli, Goranboy, Qarakilsə, Qax, Şəmkir, Tərtər) – dağlıq yerdə kiçik düzənlik. –Tapda cıdıra çıxıllar (Goranboy); - Tap yerə su çıxmaz (Tərtər); - Tapda koma tikirix, orda heyvannarmızı otarırıx (Füzuli); - Naxırı tapda otararsan (Cəbrayıl)" [4, s. 480].

Tap oniminə makrotoponim kimi el-oba adlarının tərkibində rast gəlinir: "Goranboy rayonunun Tap Qaraqoyunlu inzibati ərazi vahidində kənddir. Dağətəyi ərazidədir. Keçmiş adı Tap Rus olmuşdur. XIX əsrdə Rus Borisi kəndindən ayrılmış rus ailələri Tap Qaraqoyunlu kəndi yaxınlığında saldığına görə belə adlandırılmışdır. Azərbaycan dilində tap "dağ döşündə, ətrafı dərə, yaxud yarğanla əhatə olunmuş kiçik düzən sahə"yə deyilir" [6, s. 231]. Qarabağ bölgəsində qeydə alınmışdır: Güllü tap, Şahin tapı, Zərnigar tapı, Saqqız tapı (Ağdam rayonu); Nahid tapı, Pirəhməd tapı, Babalı tapı, Kemraquç tapı (Xocavənd rayonu) və s.

Dəhnə coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər. "1. Ana xətdən ayrılan arxın, şırımın və s.-nin başlanğıcıdır. 2. Dəyirman arxında suyun yığıldığı yerdir" [1, s. 571]. Dəhnə fars dilində ağız deməkdir.

Bu sözə "Koroğlu" dastanında rast gəlinir: "Yüyənin və ya cilovun atın ağzına salınan dəmir hissəsi. Yüyəni qorxudan elə dartır ki, dəhnə az qalır atın cəvcəələrini kəssin. ("Həmzənin Qıratı aparmağı")" [8, s. 42]. Makrotoponimlərin tərkibində qeydə alınmışdır: Dəhnə çayı Quba rayonu, Dəhnə dağı Dəvəçi və Şərur rayonu, Dəhnə kəndi Dəvəçi və Quba, Dəhnəxəlil kəndi Ağdaş rayonu. Qarabağ bölgəsində Sarıdəhnə (Ağdam rayonu) yer adının tərkibindədir.

Bazı coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər: "İki zəmi, tarla arasında mərz, dikdirdir" [1, s. 253]. Bazı sözü dialekt və şivələrimizdə də qeydə alınmışdır: "(Biləsuvar, Göyçay, İmişli, Kürdəmir, Salyan, Şəmkir) – təpə, dik, hündür yer. –Bazıya çıx gör heyvannar çö:rmədədimi? (Kürdəmir); - Bala, qoyunu bazıya yığ gendən görünsün (İmişli); -Heyvan bazıda otduyurdu (Biləsuvar); - Bizim öy bazı yerdə tikilib; -Yayda Kürün bazı tərəfi sərin olur (Sərin); - Bazının üsdünnən baxanda kət görünür (Şəmkir)" [4, s. 45]. Boz bazı, Gödək bazı (Ağdam rayonu) kimi nümunələrdə həmin sözün mikrotoponimin tərkibində necə işləndiyini görmək olar.

Kövşən coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər: Kövşən taxıl əkilən ərazi, zəmi, yer mənasında işlənir. "Koroğlu" dastanında kövşən eyni mənada işlənir: "Dağlarda, daşlarda, kövşənlərdə Alı kişinin ayağı dəyməmiş bir qarış da yer qalmamışdı. ("Alı kişi"). İlxı odu Qara xanın qoruğunda, Dəli Mehtər axtarır Çənlibelin kövşənlərini. ("Düratın itməyi"). Gəlhagəl, gəlhagəl, gəlib çatdılar Ələmqulu xanın kövşəninə. ("Qulun qaçmağı")" [8, s. 83]. Mikrotoponim kimi: Bağbanların kövşəni (Ağdam rayonu).

Arxac coğrafi termini əsasında əmələ gələn mikrotoponimlər: Arxac mal-qaranın istirahət etdiyi boş ərazidir. Arxac sözü Arxaclar düzü "Qax rayonunun

Almalı kəndi ərazisində, dağ ətəyində düz, Azərbaycan dilində arxac qoyun, mal-qara yatağına deyilir. Arxaclar düzü "qoyun, mal yatağı, düzü" deməkdir. Azərbaycanda arxac komponentli Qaynararxac, Çayarxac, Qaraarxac, Ermənistanda Xanarxac, Arxactəpə, Gürcüstanda Arxacqaya coğrafi obyektləri qeydə alınmışdır" [5, s. 46]. Araşdırdığımız bölgədə isə: Qara arxac (Tərtər rayonu). "Arxac" sözü Cəbrayıl rayonunda "Yanarxac" biçimində kiçik bir kəndin adıdır.

Azərbaycan dilinin lüğət tərkibində qədim zamanlarda dilimizdə işlənən, lakin müasir dövrdə daha az müşahidə olunan leksik vahidlər – terminlər qeydə alınmışdır. Ərazinin landşaft quruluşu ilə bağlı olan bu terminlər əhalinin əkinçilik, maldarlıq fəaliyyəti ilə əlaqədar olaraq el-oba adlarını yaradır. Məqalədə Qarabağ bölgəsində rast gəlinən mikrotoponimlərin tərkibində olan arxaik geomorfoloji terminlər linqvistik aspektdən təhlil olunmuşdur. Bu terminlərin etimoloji izahı verilmiş, onların mikrotoponimlərin yaranması prosesində rolu müəyyən olunmuşdur. Qarabağ bölgəsində qeydə alınan arxaik geomorfoloji terminlərin təhlil olunması nəticəsində aydın olmuşdur ki, onların müəyyən qismi yer-yurd adlarının tərkibində qorunub saxlanaraq müasir dövrə qədər də gəlib çata bilmişdir və canlı xalq danışıq dilində aktual şəkildə işlənir. Belə coğrafi terminlərin tarixi çox qədimdir. Uzun tarixi inkişaf dövrü keçməklə yanaşı, ərazidə baş verən ictimai, siyasi, sosial, iqtisadi hadisələri əks etdirir. Ərazidə qeydə alınan arxaikləşmiş terminlərdən (gədik, taxta, yal, köbər, taxt, küdri, kaha, tirə, tap, dəhnə, bazı, kövşən, arxac və s.) çoxu dialekt və şivələrimizdə də işlənir. Qarabağ bölgəsində qeydə alınan geomorfoloji terminlərin müəyyənləşdirilməsinin və təhlil olunmasının dilçiliyimizdə əhəmiyyəti çox böyükdür.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. I cild. Bakı, Şərq-Qərb, 2006, 744 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. II cild. Bakı, Şərq-Qərb, 2006, 792 s.
3. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. IV cild. Bakı, Şərq-Qərb, 2006, 712 s.
4. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, Şərq-Qərb, 2007, 568 s.
5. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə. I cild. Bakı, Şərq-Qərb, 2007, 304 s.
6. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə. II cild. Bakı, Şərq-Qərb, 2007, 304 s.
7. Əhmədov B. Etimologiya lüğəti (Araşdırmalar, mülahizələr). Bakı, Altun kitab, 2015, 288 s.
8. Əhmədova Ş. "Koroğlu" dastanının lüğəti. Bakı, Altun kitab, 2018, 160 s.
9. Məmmədov N. Toponimika. Bakı, Azərnəşr, 2007, 408 s.

10. Şirinov N. Geomorfoloji terminlərin izahlı lüğəti, Bakı, Elm nəşriyyatı, 2012, 327 s.

АЙШАН ИСМАИЛЛИ

РОЛЬ ГЕОМОРФОЛОГИЧЕСКИХ ТЕРМИНОВ КАРАБАХСКОЙ ОБЛАСТИ В ПРОЦЕССЕ ФОРМИРОВАНИЯ МИКРОТОПОНИМОВ

РЕЗЮМЕ

Карабахский регион обладает своеобразными особенностями благодаря своей геоморфологической структуре, климатическим условиям, флоре и фауне. Здесь проявляются различные ландшафтные структуры. При назывании географических объектов люди использовали различные геоморфологические термины в зависимости от форм рельефа: положительные формы рельефа (гора, скала, хребет, высотка, откос, возвышенность, отвод и др.) и отрицательные формы рельефа (улубление, яма, долина, овраг, лощина, впадина, степь, ровная земная поверхность, равнина, ровная земля, пустынная земля и др.). Определенная часть этих терминов устарела. Геоморфологические термины будучи носителями исторического прошлого, помогают проследить различные процессы, дают обширную информацию об этнических процессах и тюркоязычных племенах, принимавших непосредственное участие в формировании нашего народа. Геоморфологические термины, ставшие архаичными, отдаляясь от нашего современного языка, по большей части остаются жить в разговорном языке. В Карабахском регионе также были обнаружены архаичные географические названия в составе микротопонимов. Такие географические термины помогают выявить многие факты, связанные с искусством, профессией, занятиями, сельскохозяйственной деятельностью и т. п. людей, населявших эти районы с древних времен. В составе микротопонимов можно встретить некоторые геоморфологические термины, которые использовались в языке местного населения и были связаны с земледельческо-скотоводческими обычаями, часть их со временем устарела, другая же часть сохранилась в живом языке, диалектах и говорах разных районов. Устаревшие термины, а также термины, малая часть которых сохранилась в диалектах, проливают свет на различные эпохи, отражая реальные исторические факты, как носители прошлого. К геоморфологическим терминам, зафиксированным в Карабахском регионе, относятся: перевал, кусок плоского дерева, косогор, бугор, трон, ровная земля, пещера, насыпь, отвод, запруда, водораздел, поле, загон и др.

Ключевые слова: Карабах, регион, геоморфологический, термин, микротопоним, оним.

AYSHAN ISMAILLI

THE ROLE OF GEOMORPHOLOGICAL TERMS OF THE KARABAKH REGION IN THE PROCESS OF FORMATION OF MICROTOPONYMS

ABSTRACT

Karabakh region has unique characteristics due to its geomorphological structure, climatic conditions, flora and fauna. Different landscape structure is shown here. When people name geographical objects, depending on the relief forms, positive relief forms (mountain, rock, ridge, ridge, slope, hill, tap, etc.) , plain, kudri, writing, etc.) have used various geomorphological terms. Some of these terms have become archaic. Geomorphological terms help to track various processes as carriers of our past history, provide extensive information about ethnic processes and Turkic-speaking tribes closely involved in the formation of our nation. Geomorphological terms, which have become archaic by moving away from our modern language, live mostly in the colloquial language. In the Karabakh region, archaic geographical names were recorded as part of microtoponyms. Such geographical terms have been the art, profession, occupation, agricultural activity, etc. of the people living in the area since ancient times. helps to reveal many facts about Microtoponyms include some geomorphological terms that were developed in the language of the local population in connection with farming and cattle breeding habits, but became archaic over time, and some of them were preserved in the living spoken language, dialects and dialects in different areas. Obsolete terms, few of which have been preserved in dialects, shed light on different periods by reflecting real historical facts as carriers of the past. The geomorphological terms recorded in the Karabakh region include: gedik, takha, yal, kobar, takht, kudri, kaha, tira, tap, dehna, bazi, kovshan, archaj, etc.

Key words: Karabakh, region, geomorphological, term, microtoponym, onim

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: fil.e.d., dos. Reyhan Həbibli
tərəfindən çapa tövsiyə olunmuşdur

LALƏ MİRZƏYEVA
Azərbaycan Dillər Universiteti
Rəşid Behbudov, 134
lalamirzayeva@ yahoo.com

İNGİLİS DİLI DƏRSLƏRİNDƏ YENİ TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏ İMKANLARI

XÜLASƏ

Müasir dövrdə yeni pedaqoji tədris üsulu fəal təlimə əsaslanır. Təlimin əsas hədəfi şagirdlərə yeni bilikləri çatdırmaqla yanaşı, onlarda sərbəst işləmək, müstəqil düşünmək, qarşıya qoyulmuş problemi həll etmək, verilmiş mövzulara və ya ətrafda baş verənlərə münasibət bildirmək, yaradıcı fəaliyyət göstərmək və s. kimi vərdişləri formalaşdırmaqdır. Bunlara müasir dövrün tələbatı kimi də yanaşmaq olar. Çünki dövrümüzdə informasiya axını elə güclüdür ki, məhdud dərs müddəti ərzində onu çatdırmaq qeyri-mümkündür, şagirdlər isə məhdud informasiya ilə kifayətlənmirlər. Buna görə də müasir təlimlərin qarşıya qoyduğu başlıca məqsəd şagirdləri "tədqiqatçı" kimi formalaşdırmaqdır – istənilən vaxt istənilən mövzunu özləri araşdırıb, özləri nəticəyə gələ bilsinlər.

Fəal təlimdə müəllimin əsas funksiyası bələdçi olmaqdır. Şagirdlərə yol göstərmək, davamlı dəstəkləmək, motivasiya və cəsarət vermək, şagirdlərin daxili dünyasını ozü üçün açmaq və hər bir şagirdə fərdi yanaşmaq müəllimin başlıca vəzifəsidir.

Açar sözlər: tədris, təlim texnologiyaları, interaktiv metod, motivasiya.

İnkişaf etmiş ölkələrin tədris prosesində tətbiq edilən yeni təlim texnologiyaları ölkəmizin də təhsil müəssisələrində geniş istifadə olunur. Yeni təlim texnologiyaları dedikdə aktiv və interaktiv təlim metodları nəzərdə tutulur. Müasir təhsil standartlarının ən başlıca məqsədi müəllim və şagird arasındakı əlaqəni və ünsiyyəti maksimuma qaldırmaqdır. Məhz bu yolla şagirdlərin aktivlik səviyyəsini qaldırmağa, onları yaradıcı tətbiqetməyə vadar etməyə, xüsusi layihələr üzərində iş vərdişlərinin inkişafına nail olmaq olar.

Bu metodlar şagirdlərdə şəxsiyyət formalaşmasında böyük rol oynayır. Müasir təlim metodlarına müasirləşdirmə, humanitarlaşdırma, demokratikləşdirmə ünsürlərini daxil etmədən şagird şəxsiyyətini formalaşdırmaq olmaz.

Təlim metodu mürəkkəb prosesdir,mövcud təlimin qanunauyğunlaqlarını, prinsiplərini, məzmununu və s. özündə ehtiva edir. Bunu nəzərə alıb deyə bilərik ki, aktiv təlim metodunun özünəmməxsus xüsusiyyətləri vardır. İ.P.Podlasiy yazır: "Nə qədər ki, təlim birgə fəaliyyətdir, müəllimə aid ediləndə tədris metodundan danışmaq yerinə düşür. Şagirdə münasibətdə isə öyrənmə metodları demək lazımdir. Əgər

söhbət müəllim və şagirdlərin birgə işindən gedirsə, burada, şühəsiz "təlim metodları" meydana çıxır." Təlim metodları iki qarşılıqlı pedaqoji prosesdən ibarətdir: öyrətmə və öyrənmə. Bütün təlim metodlarının iki iştirakçısı var: müəllim və şagird. Bütün pedaqoji fəaliyyət növlərinin məqsədi eyni olsa da, prosesin gedişatı fərqli ola bilər. Yəni tətbiq olunan təlim metod və texnologiyalarından asılı olaraq müxtəlif nəticələr əldə oluna bilər. Sadaladığımız pedaqoji fəaliyyətlər aktiv və interaktiv metodların tətbiqi zamanı mərhələli şəkildə deyil, paralel şəkildə həyata keçirilir. Yəni müəllim və şagird birlikdə araşdırır, birlikdə öyrənir və birlikdə tərbiq edir.Təlimin prinsiplərinin praktik olaraq həyata keçirilməsi təyin olunmuş metodların perspektivindən asılıdır: bu imkanlar nə qədər çox olsa öyrədici sistemin inkişafına bir o qədər təkan vermiş olar. Bu mənada sadalanan prinsip və məzmunları həyata keçirməyə zəmin yaradan müasir təlim texnologiyaları üstünlük təşkil edir.

İnkişafetdirici təlimin aşağıdakı başlıca məqsədlərinə diqqət yetirək :

- pedoqoji məqsəd– şagirdlərin öyrənmə və dərketmə prosesinə təsir göstərən amilləri:mühiti, təcrübəni, kommunikativ münasibətləri;
- psixoloji məqsəd– təqdim edilmiş informasiyanın dərk edilməsini həyata keçirən psixoloji imkanları: şagirdlərin cəhdləri, maraq dairələri, özünəməxsus cəhətləri;
- sosial məqsəd – tərbiyəni, zəhməti, mənəvi keyfiyyətləri, mədəniyyəti, təbiəti və s. ehtiva edir.

Başqa cür desək, təlimin *öyrədici, tərbiyəedici və inkişafetdirici* xüsusiyyətləri vardır.

Təlimin *öyrədici* funksiyası proqramdan kənara çıxmamaq şərtilə şagirdləri bilik, bacarıq və vərdişlərlə təmin etməkdir. Təlimdə həm xüsusi, həm də ümumi bacarıq və vərdişlər aşılanmalıdır. Ümumi bacarıq və vərdişlərə planlaşdırma, kitabla iş, lazımi tempdə oxumaq və yazmaq, mətni yığcam danışmaq, özünənəzarət bacarıq və vərdişləri daxildir. Belə vərdişlərə yiyələnən şagirdlər uğurla oxuyur və yazır, daha az qüvvə və vaxt sərf etməklə daha səmərəli nəticə əldə edirlər.

Təlimin *tərbiyəedici* funksiyası təlim prosesində şagirdləri tərbiyə etməkdə ifadə olunur. Gənc nəsildə vətənpərvətlik, humanizm və başqa mənəvi keyfiyyətlər tərbiyə etməkdə, onlara yüksək mənəvi hisslər aşılamaqda təlim əvəzsiz vasitədir. Təlimin *inkişafetdirici* funksiyası təlim prosesində şagirdlərin psixi proseslərinin, ümümi inkişaflarının təşəkkülündə ifadə olunur. Bu inkişafı təmin etmək üçün təlimi xüsusi istiqamətləndirmək lazimdir. Müəllim təlim imkanlarından istifadə edərək şagirdlərin mənəvi və emosional inkişafı üçün əlindən gələni etməli və əlverişli şərait yaratmalıdır.

Real təlim prosesində təlimin hər üç funksiyası vəhdətdə özünü göstərir. Müəllim o zaman şagird şəxsiyyətinin formalaşmasına nail ola bilər ki, təlimin öyrədici, tərbiyəedici və inkişafetdirici funksiyalarını qarşılıqlı əlaqədə həyata keçirsin .

Pedaqoqlar müasir texnologiyalardan istifadə etməklə şagirdləri daha çox düşünüb araşdırmağa cəlb edə, onlarda gələcəkdə real həyatda da tətbiq edə biləcəkləri mülahizələr irəli sürüb nəticəyə gəlmə vərdişini tədricən formalaşdıra bilər. Belə dərslər həm maraqlı, həm daha produktiv olur. Beləliklə şagird həm yeni informasiyanı dərk edir, həm də bunu dərk etmək üçün ona təklif olunan texnikalardan məharətlə istifadə edir. Müəllim şagirdə həm fərdi düşünüb, mülahizə və fərziyyələr irəli sürərək müəyyən nəticəyə gəlmək bacarığını, həm də kollektiv mühitdə diskussiyaya girərək öz fikirlərini sərbəst şəkildə ifadə etmək bacarığını aşılamalıdır. Çünki interaktiv təlim metodları əks əlaqə prinsipinə əsaslanır: burada dərs tək müəllim-şagird və şagird-müəllim əks əlaqəyə deyil, şagird və şagirdlər arasındakı fəaliyyətə də əsaslanır. Bu minvalla dərsin əsas hədəfi qoyulmuş problemin həllidir. Şagird həm özünün, həm müəllimin, həm də digər şagirdlərin ehtiyat informasiya və biliklərindən istifadə edərək problemi həll etməyə çalışır.

Müasir təlim texnologiyalarına əsaslanan metodlarda dərsin planlaşdırılmasında müəllim əsas fiqurdur, dərsin gedişatında isə öyrənən tərəfin aktivliyi təmin edilir. Belə olduqda təlim və tədris prosesi öyrədici, tərbiyələndirici və inkişafetdirici keyfiyyətlərini daha ön plana çıxarır və şagirdlərin qarşısında daha geniş perspektivlər yaradır.

Müasir metodların həyata keçrilməsi zamanı əsas prinsiplər olaraq qəbul edilən, pedaqoji fəaliyyət prosesində mütləq istifadə olunmalı prinsiplər aşağıdakılardır:

1. *Şagirdyönümlü təlim prinsipi* – təlim prosesi şagirdyönümlü olmalıdır; təlim şagirdin tələbat və maraqlarına, əqli və fiziki imkanlarına, qabiliyyətinə və s.istiqamətlənməlidir;

2. *Aktiv təlim prinsipi* – bu zaman müəllimdən minimal asılılıqda olan, verilmiş mövzunu sərbəst şəkildə dərk edib təhlil etməyi bacaran şagirdlər formalaşdırılmalı, buna nail omaq üçün isə şagirdlər davamlı həvəsləndirilməli və motivə olunmalıdırlar;

3. *İnkişafetdirici təlim prinsipi* – təlim şagirdin inkişafına yönəlməli, müxtəlif prosedur və texnikaların köməyiylə şagirdlərin potensial bilikləri üzə çıxarılmalıdır;

4. *Əməkdaşlıq prinsipi* – bu zaman yalnız müəllim və şagird münasibətini nəzərdə tutmamalı, müəllim, şagird və valideynin hər biri təlim prosesində birgə fəaliyyət göstərməlidirlər.

Pedaqoji fəaliyyət prosesinin üç əsas təlim metodu vardır:

1) Ənənəvi metod (passiv)
2) Aktiv metod
3) İnteraktiv metod

Ənənəvi metodda **–** müəllim aparıcı, rəhbər sima olub yalnız şagirdlərə diqtə edir. Müəllimlə şagird arasında intensiv münasibət yoxdur. Bu zaman müəllim əsas fiqur olub liderlik edir, aktivdir, öyrənən tərəf isə dinləyicidir, yəni passivdir. Bu təlimə əsaslanan pedaqoji prosesdə dərs interaktiv deyil. Şagird bu zaman ikitərəfli prosesin passiv tərəfidir. Öyrədənin əsas vəzifəsi informasiyanın çatdırılması və

şagirdlər tərəfindən mənimsənilməsi üçün standart texnikalardan istifadə etməkdir. Şagirdləri yaradıcılığa, tədqiq edərək öyrənməyə, analitik təfəkkürünü inkişaf etdirməyə yönəlmiş heç bir prosedura rast gəlinmir. Müasir təlim metodlarıyla müqayisədə ənənəvi təlim metodunun tətbiqi zamanı verilmiş dərs materialının şagirdlər tərəfindən mənimsənilməsi daha zəifdir. Bütün bunlarla yanaşı ənənəvi təlimin digər bir nöqsanı isə verilmiş dərs materialının şagirdlərin mənimsəyib-mənimsəməməsindən asılı olmayaraq məhdud zaman çərçivəsində onlara çatdırılmasıdır.

Aktiv təlim metodu – bu metodun tətbiqi zamanı, müəllimlə şagird eyni hüquqa malikdir və dərs əks əlaqə, intensiv ünsiyyət, əməkdaşlıq şəraitində keçir. Şagirdlər bu ikitərəfli prosesin qeyri-fəal tərəfi deyil, aktiv tərəfidirlər. Öyrənən tərəf də dərsdə fəallığına görə öyrədənlə eyni hüquqa sahibdir. Əgər ənənəvi təlim metodunda aparıcı qüvvə müəllim idisə, fəal təlim metodunun tətbiqi zamanı dərsin əsas qurucusu müəllimlə yanaşı şagirdlərdir. Dərsə onların qarşılıqlı münasibəti əsasında quruluş verilir. ***İnteraktiv təlim*** –bu təlim metodunun tətbiqi zamanı şagirdlər daha mərkəz mövqedə çıxış edir, müəllimin əsas funksiyası şagirdlərə istiqamət verməkdən, dərs müddətində şagirdlərin də bir-biri ilə qarşılıqlı fəaliyyətini əlaqələndirib onlarda mövzunu tədqiq və təhlil etməyə, əlavə axtarışa həvəs yaratmaqdan, araşdırma aparmağı, nəyi harada və necə öyrənməyi öyrətməkdən ibarətdir. Bu zaman müəllimin vəzifəsi ənənəvi təlim prosesində olduğu kimi sinfə ’’liderlik’’ etmək deyil, bələdçi, təyinedici rolunu oynamaqdır. Belə ki interaktivlik termini ’’dialoqu, qarşılıqlı təsiri’’ bildirir. Interaktiv təlim metodunun elementləri kimi , ’’problemli’’, ’’ evristik’’, “problem-dialoji’’ təlim terminlərindən də istifadə olunur.

Təbiidir ki, fəal təlim prosesi özündə interaktiv təlim metodunu da ehtiva edir, onların bir çox ümumi cəhətləri var, elə mənası da ingilis dilindən tərcümədə “inter”-qarşılıqlı, “act”-hərəkət, fəaliyyət deməkdir. Onu fəal təlim metodunun daha müasir variantı da adlandırmaq olar. İnteraktiv təlim metodunun fəal metoddan fərqi odur ki, interaktiv metodun tətbiqi zamanı dərs yalnız müəllim və şagirdin intensiv qarşılıqlı fəaliyyətinə deyil, həmçinin şagirdlərin də bir-birilə sıx əlaqəli fəaliyyətinə əsaslanır. Bu tədris metodunun əsas xüsusiyyəti şagirdlərdə formalaşdırılan məqsədyönlülükdür. Qarşıya qoyulmuş problemin həll yolu şagirdlərə bir başa təqdim olunmur. Əvvəlcə şagirdlərə pedaqoq tərəfindən motivasiya və stimul verilir, bundan sonra verilmiş problemin mümkün həll variantları müzakirə olunur, müəllim-şagird və şagird-şagird arasında informasiya mübadiləsi həyata keçirilir, məsələ şagidlər tərəfindən tədqiq ediləndən sonra problemin həlli tapılır. Bu metodun tətbiqinin məqsədi yalnız qoyulmuş problemin həllini tapmaq deyil. Bu üsulla şagirdlər həll yolu axtararkən həm fərdi, həm qrup şəklində işləməyi və təhlil etməyi öyrənirlər. Bu proses onların ünsiyyət bacarıqlarının inkişafına stimul verir, həmçinin tənqidi təfəkkürlərini inkişaf etdirir.

İnteraktiv təlim metodu xarici dillərin tədrisi üçün çox əlverişlidir. Çünki, müasir dövrümüzdə, xüsusilə ingilis dilinin tədrisində qarşıya qoyulmuş əsas məqsəd şagirdlərdə kommunikativ vərdişlərin inkişafıdır. Məhz müasir təlim texnologiyaları dərsdə şagirdin iştirakını intensivləşdirməklə bu məqsədə çatmağı asanlaşdırır.

Ədəbiyyat

1. Ç.Temple, K.Merkolit, C. Stil "Tənqidi təfəkkürün gələcək inkişaf üsulları"-Azərbaycan 2000

2. X.Qədimova "İnteraktiv təlim metodları və onların yolları"-Bakı 2000

3. Zülfiyyə Veysova " Fəal və interaktiv təlim"

4. Livingstone C. Role Play in Language Learning.- Oxford, 1992

ЛАЛА МИРЗАЕВА

ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ НОВЫХ ТЕХНОЛОГИЙ ОБУЧЕНИЯ НА УРОКАХ АНГЛИЙСКОГО ЯЗЫКА

Резюме

В наше время новый педагогический метод обучения основан на активном обучении. Основная цель обучения-не только донести до учащихся новые знания, но и дать им возможность свободно работать, самостоятельно мыслить, решать поставленную задачу, выражать свое отношение к заданным темам или происходящему вокруг, проявлять творческую активность и т.д. Их также можно рассматривать как потребность современной эпохи. Потому что в наше время информационный поток настолько силен, что в течение ограниченного времени урока его невозможно передать, а учащиеся не довольствуются ограниченной информацией. Поэтому главная цель, которую ставит перед собой современное обучение- это сформировать студентов как исследователей, способностей в любой момент времени самостоятельно исследовать любую тему и прийти к собственным выводам.

В активном обучении основная функция учителя-быть проводником. Главная задача учителя-направлять учеников, постоянно поддерживать их, давать мотивацию и смелость, открывать внутренний мир учеников для себя и подходить к каждому из них индивидуально.

Ключевые слова: обучения, технологии обучения, интерактивный метод, мотивация.

LALA MIRZAYEVA

OPPORTUNITIES OF USING NEW TEACHING TECHNOLOGIES IN ENGLISH LESSONS

SUMMARY

In modern times, a new method of pedagogical teaching is based on active training. The main goal of teaching is not only to convey new knowledge to students, but also to create in them the abilities like working independently , thinking independently, solving the problem posed, expressing an attitude to given topics or what is happening around, carrying out creative activities etc. They can be viewed as a requirement of modern time. Because the flow of information in our time is so strong that it is impossible to convey it for a limited period of study and students are never satisfied with limited information. Therefore, the main goal of modern teaching is to form students as "researchers" – at any time they can study any topic on their own and come to conclusions on their own.

In active training, the main function of the teacher is to be a guide. The main task of the teacher is to guide, support, give motivation and encouragement to students, open up the inner world of students and approach each of them individually.

Key words: teaching, teaching technologies, interactive method motivation.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: Ped.ü.f.d. Fəridə Şahlar qızı Şükürova
tərəfindən çapa tövsiyə olunmuşdur

S.Ə.ALLAHVERDİYEVA
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
Xəzər Universiteti
Məhsəti Gəncəvi küçəsi 41
e-mail:allahverdiyeva.sevinc@mail.ru

AZƏRBAYCAN VƏ ALMAN DİLLƏRİNDƏ DURĞU İŞARƏLƏRİNİN İSTİFADƏSİ

XÜLASƏ

Durğu işarələri dilin ümumi obrazlı sistemində xüsusi yer tutan, hərflərlə və digər yazı vasitələri ilə ifadə olunmayan cəhətləri (rəqəmlər, bərabərlik işarəsi, oxşarlıq işarəsi və s.) ifadə etmək üçün istifadə olunan işarələr sistemidir. Üzvləri göstərməkdən və tanınmasını təmin etməkdən, sintaktik quruluşun reallaşan nitqinin ritmik melodik xüsusiyyətlərini əks etdirməkdən ibarətdir. Nöqtə, sual işarəsi, nida işarəsi, vergül, nöqtəli vergül, iki nöqtə, tire, ellipsis və s. durğu işarəsi adlanır. Durğu işarələri yazılı nitqi məna hissələrinə bölür.

Məsələn, nöqtə işarəsi cümlədə fikrin bitdiyini göstərir, həmcins üzvlər arasında vergül işarəsinin qoyulması bu cümlə üzvlərinin bərabərhüquqlu cümlə üzvləri olduğuna işarə edir.Yazıda sözlər və söz qrupları arasında qoyulan işarələr durğu işarələri, durğu işarələrinin qoyulması haqqında qaydalar isə punktuasiya adlanır. Durğu işarələrinin yazıda qoyulmaması və ya səhv qoyulması orfoqrafik qaydanın pozulması deməkdir. Durğu işarələri müxtəlif dillərdə eyni olsa da, vəzifələri və bəzən işlənmə yerləri müxtəlif olur.

Açar sözlər: durğu işarələri, ayırıcı işarələr, fərqləndirici işarələr

Durğu işarələri köməkçi funksiyaları yerinə yetirən yazı elementləridir: məsələn, mətnin, cümlənin semantik seqmentlərinin ayrılması və seçilməsi, ifadələr, sözlər, söz hissələri, qrammatik və məntiqi əlaqələrin göstəricisi, sözlər arasında, kommunikativ bir cümlədə, emosional rəngləmə ilə tamlıq yaradan işarələrdir.

Mətni sintaktik şəkildə formalaşdıran durğu işarələri sayəsində iş asanlaşır, mətni qavramaq və başa düşmək, ucadan oxuduqda isə onun intonasiyasını rəsmiləşdirmək, xüsusilə semantik fasilələri, məntiqi vurğuları vurğulamaq sadələşir.

Durğu işarələri- dilin ümumi qrafik sistemində özünəməxsus yer tutan xüsusi işarələr sistemidir ki, bunlar hərflər və ya digər yazı vasitələri ilə, məsələn- rəqəmlər, bərabərlik işarəsi, bənzərlik işarəsi və s.- ifadə etmək mümkün olmayan cəhətləri bildirmək üçün istifadə edilir. Durğu işarələrinin funksiyası danışıq zamanı reallaşan

sintaktik strukturun ritmik- melodik xüsusiyyətlərini əks etdirməkdən, danışıq aktı zamanı məna kəsb edən hissələrin tanınmasını təmin etməkdən ibarətdir.

Durğu işarələri iki funksiya yerinə yetirdiyi üçün iki qrupa ayrılır:

1.ayırıcı işarələr

2.fərqləndirici işarələr

Ayırıcı durğu işarələrinin əsas vəzifəsi cümlələri, cümlənin həmcins üzvlərini, mürəkkəb cümlənin komponentlərini və s. bir-birindən ayırmaqdır. Bu qrupa nöqtə, sual və nida işarələri, qoşa nöqtə, nöqtəli vergül, bir neçə nöqtə daxildir.

Fərqləndirici durğu işarələri cütüzvlüdür, vasitəsiz nitqi, sitatları, ara cümlə və əlavə konstruksiyaları fərqləndirmək üçün işlədilən iki vergül, iki tire, mötərizələr və dırnaqlardan ibarətdir.

Durğu işarələri yazılı nitqin formalaşmasında mühüm rol oynayır və kommunikativ funksiyaya malikdir. Bundan əlavə yazılı dildə ifadə olunan fikrin dolğun şəkildə yaranmasında, emosional təsir gücünün üzə çıxmasında və ifadəli tələffüz olunmasında durğu işarələrinin çox böyük rolu olduğu təkzib olunmaz faktdır.

Durğu işarələri yazılı nitqi məna hissələrinə bölür. Məsələn, nöqtə işarəsi cümlədə fikrin bitdiyini göstərir, həmcins üzvlər arasında vergül işarəsinin qoyulması bu cümlə üzvlərinin bərabərhüquqlu cümlə üzvləri olduğuna işarə edir.

Yazıda sözlər və söz qrupları arasında qoyulan işarələr durğu işarələri, durğu işarələrinin qoyulması haqqında qaydalar isə *punktuasiya* adlanır. Durğu işarələrinin yazıda qoyulmaması və ya səhv qoyulması orfoqrafik qaydanın pozulması deməkdir.

Durğu işarələri müxtəlif dillərdə eyni olsa da, vəzifələri və bəzən işlənmə yerləri müxtəlif olur.

Avropa dillərinin durğu işarələri sistemi İskəndəriyyə dilinə, eramızdan əvvəl II- I əsrlərin qrammatikasına gedib çıxır (Bizans Aristofanı, Aristarx, Dionysius) və 15- ci əsrin sonlarında müasir bir görünüş alır (Alda sistemi- Manutia). Digər yazı sistemlərində həm qədim, həm də müasir dildə durğu işarələri başqadır. XX ci əsrdə avropa durğu işarələri sistemi başqa yazı sistemlərinə daxil olur. Belə ki, o, tamamilə borc götürülmüş və ya dəyişikliklərlə Yapon, Çin və Koreya hərfləri və qismən(mötərizələr, ellips və bəzi sistemlərə-) sual və nida işarələri kimi daxil edilmişdir.

Durğu işarələri yazı qədər qədim olmasa da, onların izlərini antik dövrlərə aid etmək olar. Bugünkü nöqtənin mənşəyi, eləcədə onun nitqlərdə və gündəmlərdəki struktur funksiyasına Roma dövründə rast gəlinir. Yunan modelinə əsaslanaraq, bunlar hər cümlənin sonunda sözdə “punctum“ (latınca: həkk olunmuş şey) qoyur. Onlar mum tabletinə yapışdırdıqları qələmin köməyi ilə nöqtə işarəsini qoyurdular. “Vergül”-”komma” (yunanca kəsik) və”kolon” (yunan üzvü) kimi digər durğu işarələri romalılara yaxşı məlum idi, lakin onlar indiki kimi durğu işarələri kimi fəaliyyət göstərmirdilər, ancaq cümlənin və ya misranın hissələrini müəyyən etməyə xidmət edirdilər.

"İnterpunktion"- Punktuasiya termininin müxtəlif mənaları var. Bu, ümumiyyətlə, az-çox məcburi qaydalar toplusundan ibarət olan və sözlərin yazılışı kimi ana dili dərslərində öyrənilməli olan " durğu işarələrindən istifadənin öyrənilməsi" kimi başa düşülür. Bundan əlavə, yazılı və ya çap olunmuş mətnləri optik strukturlaşdırmaq üçün bütün qrafik işarələri "punktuasiya"adlandırmaq olar və nəhayət, durğu işarələri durğu işarələrinin prinsipləri,durğu işarələri qaydaları sistemi ilə məşğul olan dilçiliyin alt intizamı kimi də qəbul edilə bilər.

Yazı norması kimi orfoqrafiya çərçivəsimdə durğu işarələri hər bir durğu işarəsinin yerinə yetirməli olduğu xüsusi bir vəzifənin olduğu xüsusi qrafik alt sistemi təmsil edir. Yazının əsas funksiyası dəyişdiyi kimi, durğu işarələrinin funksiyası da yazılı alman ədəbi dilinin tarixi inkişafı zamanı xeyli dəyişmişdir.

İlk dövrlərdə durğu işarələri əsasən danışıq dilinə əsaslanırdı. Qrafemin ilkin vəzifəsi danışıq dilinin fonemlərini təsvir etmək olduğu kimi, durğu işarələrinin funksiyası da danışıq dilinin ritmik-intonator elementlərini optik dilə köçürmək idi. Ona görə də ucadan oxumaq üçün nəzərdə tutulan mətnlər əsasən nitq dilinin fonemlərini təsvir edən durğu işarələri idi.

XV əsrdə çap maşını durğu işarələrinin istifadəsində əhəmiyyətli dəyişikliklərə səbəb oldu, çünki " insan nə qədər çox oxusa, ucadan deyil, sakitcə öz-özünə oxuyarsa, mətnin aydın, idarə oluna bilən strukturuna ehtiyac bir o qədər çox olar". Yazı tipində cümlə strukturu müəyyənləşdi. Nəticədə yazı tipi təkamül etdi və oxucunun yazılanları başa düşməsini asanlaşdırdı. Başlanğıcda nə sözlərin ayrılması, nə də böyük hərf, durğu işarələri və ya abzaslar işlənmədiyi üçün mətnləri oxumaq çətin olurdu. İstifadə olunan yuxarı və enən işarələrlə xarakterizə olunmayan majuskellər də (böyük hərflər) problem yaradırdı. İlk inkişaf addımı ilə daha böyük bir vahid və cümlələr tərəfindən çıxarılan baş hərflər və bağlanma nöqtələri, oxunması lazım olan vahidlər azaldı. Növbəti və eyni zamanda həlledici addım, yəni sözlər arasındakı boşluğun daxil edilməsi sakit oxumağı və yazmağı asanlaşdırdı və ya mümkün etdi. Nəticədə mətn qrammatik cəhətdən bölündü.

XV əsrdən etibarən mötərizələr (yunanca "daxil edilir", " arasına daxil edilir") məlumdur. Tire və dırnaq işarəsi (lat. signum citationis) XVIII əsrdə işlənmişdir. O dövrdə xarici mətnə istinad edilərkən hər sətrin önünə dırnaq işarəsi qoyulurdu. Hərfi nitqin vurğusu daha sonra işarəni aldı.

"Sual" durğu işarəsi alman yazılarında XVI əsrdə rast gəlinir. Bundan əlavə XVII əsrdə alman yazılarında meydana cıxan nida işarəsinə Roman dilinin heç bir qədim yazısında rast gəlinmir.

1200 il əvvəl mətnləri yazanlar ilk növbədə rahiblər idi. Onlar yazılanları bugünkü yazı və çap şriftlərinin əsasını təşkil edən bədii təriflərlə bəzəyirdilər: sözdə Karoling minuskulları (sözlərin kiçik hərflərlə yazılması). Bu şrift müxtəlif yüksəliş və enişlərlə xarakterizə olunur. Karoling Minuskulları əvvəllər istifadə edilən böyük hərflərlə müqayisədə, ssenarinin daha tez başa düşülməsinə imkan verdi.

Durğu işarələrinin bu qeyd funksiyası mətbəənin ixtirası ilə əsaslı surətdə dəyişdi. Yazılı alman ədəbi dilinin tarixi inkişafı zamanı əvvəlcə ikinci dərəcəli altsistem olan fonetik sistemin supraseqmental elementlərindən böyük ölçüdə müstəqil olan əsas alt sistem halına gəldi, onun köməyi ilə oxucu siqnalı fonetik sistemdən keçmədən birbaşa qəbul edib emal edə bildi. Fonemlərlə qrafemlər arasında uyğunluq, məsələn, morfematik və leksik prinsiplə pozulduğu kimi, durğu işarələrində də mənanı dərhal aydınlaşdırmağa meyl nitq dilinin ritmik-intonator elementlərindən uzaqlaşmaqda və dönüşdə ifadəsini tapmışdır.

"İnterpunktion-Punktuasiya-Durğu işarəsi " termini latın dilindən gəlir və "nöqtələrlə bölmə" mənasını verir. O, XVII əsrdə yaranıb, lakin o dövrdə daha çox "fərqlənmə", " yazı ayrı-seçkiliyi" və ya "saplama" sinonim terminləri ilə əvəz olunurdu. XVIII əsrdə "punktuasiya " termini daha geniş istifadə olunurdu. Bu gün isə "punktuasiya və durğu işarələri" sinonim terminlərdir.

Hələ antik dövrə qədər qədim yazılarda durğu işarələri var idi . O zamanlar mətni daha aydın etmək və müəyyən ritmə və ya intonasiyaya daha asan əməl oluna bilməsi üçün onu şifahi təqdimat üçün strukturlaşdırmaq funksiyasına malik idilər. Orta əsrlərdə durğu işarələri həm də şifahi təqdimatlar üçün intonasiyanı tənzimləmək vəzifəsini daşıyırdı. IX əsrə qədər, yəni erkən orta əsrlərə qədər (750) nöqtə və iki nöqtə ən çox yayılmş işarə idi, hələ vahid qaydalar yox idi.

Orta və son orta əsr alman dilində (1050- 1350) hələ də durğu işarələri üçün heç bir tənzimləmə yox idi. Nöqtə və virgel (kəsişmə-drob) üstünlük təşkil edirdi. O, qismən cümlələr qurur və beləliklə, şifahi təqdimat üçün nitqdə fasilələr yaradırdı. Bu gün bu işarə kəsişmə (drob) adlandırılır və fərqli funksiyaya malikdir. Lakin köhnə funksiyasında virgel bu gün də elmi məqalələrdə şeirlərdən sitat gətirilərkən istifadə olunur.

Erkən yeni yüksək alman dilində (1350-1650) durğu işarələri ilkin olaraq virgeldən ibarət idi, lakin nəticədə o, eyni funksiyanı yerinə yetirən və cümlələri bir birindən ayıran vergüllə əvəz olundu. XVI əsrdən nöqtə işarəsi əlavə edildi. Ən qədim durğu işarəsi olsa belə, alman dilində yalnız son Orta əsrlər və İntibah dövrünün əvvəllərindən bir cümləni bitirmək funksiyasın yerinə yetirmişdir. Bundan əlavə, getdikcə daha çox istifadə olunan digər durğu işarələri əlavə edildi: sual, nida işarələri, iki nöqtə və nöqtəli vergül. Yeni yüksək alman dilində (1650- ci ildən başlayaraq) durğu işarələri ritmik intonasiya prinsipindən sintaktik prinsipə doğru inkişaf edirdi. Punktuasiya artıq ritm və vurğuya deyil, qrammatik qaydalara əsaslanırdı. Keçmişdən fərqli olaraq, durğu işarələri əsasən şifahi təqdimatı asanlaşdırmaq üçün nəzərdə tutulurdusa, bu gün o, əsasən məzmunun tez qavranılmasına və mətndə daha yaxşı orientasiyaya xidmət edir.

Ünsiyyət elmində durğu işarələrindən ünsiyyət situasiyasının başlanğıc nöqtəsi kimi danışılır. Bunlar hər bir insan tərəfindən fərqli şəkildə qəbul edilə bilər, ona görə də mesaj mübadiləsi subjektivdir. Məsələn, suala cavabın olmaması təlim və ya mübahisə üçün başlanğıc nöqtəsi ola bilər.

Cümlənin sintaktik təşkili yalnız yazı tipində durğu işarələrinin tədricən inkişafı ilə aydınlaşdırıla bilərdi. Bu, əvvəl virgellərlə, sonralar da başqa durğu işarələrindən istifadə etməklə həyata keçirilirdi. Virgel indiki vergüllə uyğun gəlir və onunla əvəz edilmişdir. O, hələ də Barokk ədəbiyyatında sadalamalar, qısa tabeli cümlələr və ya bu kimi şeylər üçün ayırıcı kimi fəaliyyət göstərən orta əsrlərdən qalma relikt adlanır. Virgel alman dilində -*Schrägstrich*- yəni kəsişmə və ya drob işarəsi-adlanır, məsələn, Männer/ oder Frauen. (kişilər və ya qadınlar)

Yazı mədəniyyəti üç əsas şərtlə tənzimlənir: bunlardan birincisi cümlənin qrammatik düzgün qurulması, ikincisi orfoqrafiya qaydalarına düzgün əməl olunması, üçüncüsü isə durğu işarələrindən yerli-yerində istifadədir. Yazı yazanın fərdi üslubi,ustalığı məhz bu üç normativ şərti gözlədikdən sonra gəlir.

Azərbaycan yazısında durğu işarələrindən ardıcıl, elmi əsaslarla istifadənin tarixi keçən əsrin 20-ci illərindən başlayır ki, bu, bir tərəfdən, latın əlifbasına keçid, digər tərəfdən, elmi dilçilik təfəkkürünün inkişafı ilə bağlı idisə, üçüncü tərəfdən, yazı mədəniyyətinin kütləviləşməsi və ya ictimailəşməsi ilə əlaqədar olmuşdur.

Bir sıra cəhdləri nəzərə almasaq, Azərbaycan yazısının durğu işarələrilə "təminat"ını tənzimləyən ilk elmi-metodiki mənbə Bəkir Çobanzadə ilə Fərhad Ağazadənin 1930-cu ildə "Azərnəşr"də çıxmış "Türk qrameri" kitabıdır. Kitabda "Durğu işarələri" bəhsini Fərhad Ağazadə yazmış və ön sözündə göstərmişdi ki, "yeni törəmiş olan bu məsələnin üstündə hələ çox zamanlar düşünüb-daşınmaq lazım gələcək".

Burada on durğu işarəsindən bəhs edilir:

1) nöqtə - .
2) vergül - ,
3) nöqtəli vergül -;
4) iki nöqtə - :
5) sual işarəsi - ?
6) nida işarəsi -!
7) kəşidə (tire) -
8) mötərizə -( )
9) çox nöqtə - .....
10) dırnaq işarəsi – " "

Sonrakı illərdə həm yazı texnologiyasının, həm də dilçiliyin sürətlə inkişafı ilə əlaqədar olaraq durğu işarələrindən yerli-yerində istifadə olunması kifayət qədər yüksəlmiş, birbaşa bu məsələ ilə bağlı bir sıra əsərlər nəşr olunmuşdur. Onlardan M.Ş.Şirəliyevlə M.H.Hüseynovun "Azərbaycan dilinin durğu işarələri" (Azərnəşr, 1945), Z.İ.Budaqova ilə R.Ə.Rüstəmovun "Azərbaycan dilində durğu işarələri" (Azərbaycan SSR EA nəş., 1965) və Z.İ.Budaqovanın "Azərbaycan dilində durğu işarələri" ("Elm" nəş., 1977)ni qeyd etmək lazımdır.

Z.İ.Budaqova qırx il bundan əvvəl yazırdı: "Təəssüflər olsun ki, bu durğu işarələri ancaq müəyyən məlum hallarda düzgün qoyulur. Çox zaman bunlar yazanın

şəxsi zövqünü oxşayan ünsürlərə çevrilir: hər kəs cümlənin tələbinə yox, öz zövqünə görə bunlardan istifadə edir. Nəticədə yazılı nitqimiz ya müəyyən incəliklərdən məhrum olur, ya da hər hansı işarələrlə lüzumsuz şəkildə yüklənir".

Təəssüf ki, bu gün də həmin sahədə vəziyyətin qənaətbəxş olduğunu demək çətindir…

Beləliklə, Azərbaycan yazısında durğu işarələrinin işlədilməsi tarixi göstərir ki, a) bir neçə on il ərzində müəyyən sabit qaydalar yaradılmışdır; b) bu qaydalar yazı təcrübəsində kifayət qədər kütləvi şəkildə tətbiq edilərək yayılmışdır; c) həm qaydalardan, həm də onlara nə dərəcədə əməl edilməsindən irəli gələn problemlər vardır.

Ümumiyyətlə, yazıda durğu işarələri üç vəzifə və ya funksiya daşıyır: 1) orfoqrafik, 2) qrammatik və 3) üslubi.

Orfoqrafik vəzifə dedikdə durğu işarələrinin sözün düzgün yazılmasında iştirakı nəzərdə tutulur. Məsələn, bəzi mürəkkəb sözlər defislə yazılır (künc-bucaq, irəli-geri, aşağı-yuxarı, üç-dörd və s.), yaxud bir sıra xüsusi adlar dırnaq içərisinə alınır ("Xalq" qəzeti, "Vaqif" dramı, "Bakı" restoranı və s.), yaxud da müəyyən ixtisarlardan sonra nöqtə işarəsi qoyulur (S.Vurğun, və s., və b.).

Durğu işarələrinin qrammatik funksiyası isə kifayət qədər genişdir. Lakin ümumiləşdirməyə çalışsaq, həmin işarələri üç qrupa bölmək lazım gəlir:

1) nöqtə, sual və nida işarələri;

2) vergül işarəsi;

3) iki nöqtə, nöqtəli vergül və tire işarələri.

Cümlədə fonetik ritmik qrupun yaranmasında pauza - xüsusi rol oynayır. Fasilə etmədən normal kommunikativ münasibət yarana bilməz. Şifahi nitqdəki fasiləni, həyəcanı, emosiyanı, sualı yazıda durğu işarələri əvəz edir. Durğu işarələri müxtəlif dillərdə eyni cür olsa da, vəzifələri və işlənmə yerləri müxtəlifdir. Müasir Azərbaycan dilində nöqtə (.), vergül (,), nöqtəli vergül (;), iki nöqtə (:), sual (?), nida (!), tire (-), üç nöqtə (...), mötərizə [( )], dırnaqlar ("") ən çox işlənən durğu işarələridir.

Alman dilində cəmi 12 durğu işarəsi var,onlardan aktiv istifadə olunanı cəmi yeddidir- kifayət qədər azdır,çünki yazar mümkün qədər eniş və qalxış, yüksək və yumşaq, ah çəkmə, ittiham, tərəddüd, şifahi nitqin sevincini yazılı sözə çevirməlidir. Mətn oxucu üçün canlıdır. Durğu işarələri musiqidə, prestoda, adagioda vivacedə temp işarələri ilə bağlıdır; onlar təxəyyülsüz və ya çox az istifadə olunarsa, mətn operada resitativin , nəğmənin monotonluğu ilə oxunmaq riski daşıyır.

Və əlbəttdə ki, durğu işarələri əvəzolunmaz yol nişanlarıdır: sözlərin bir-birinə dəyməməsini, oxucuların büdrəməməsini və itməməsini, oxunuşun axmasını təmin edir. Bu simvolları üç kateqoriyaya bölmək olar.Vahriq cümlələri bir – birindən ayırmağa xidmət edən durğu işarələrindən danışır. Bunlara daxildir: nöqtələr, sual və nida işarələri və ellipslər. Mürəkkəb cmlələrin alt cümlələrini, eləcə də söz və söz qruplarını bir-birindən ayıran durğu işarələri kateqoriyası var. Bu

kateqoriyaya nöqtəli vergül, iki nöqtə,vergül və tire daxildir. Üçüncü kateqoriyaya qoşa durğu işarələri- dırnaq işarəsi, qoşalaşmış vergül və qoşa tire əsasən cümlədə kəsişən müəyyən ifadələri vurğulamaq üçün nəzərdə tutulub.

Nöqtə, sual və nida işarələri, bir qayda olaraq, cümlənin sonunda qoyulub həmin cümlənin nəqli, sual və ya nida cümləsi olduğunu göstərir; müqayisə edək:

1. İnsana azadlıq lazımdır.

2. İnsana azadlıq lazımdır?

3. İnsana azadlıq lazımdır!

Əmr cümləsinin sonunda emosiya səviyyəsindən asılı olaraq ya nöqtə, ya da nida işarəsi qoyulur.

Ən çox mübahisə doğuran durğu işarəsi – vergüldür. Vergüldən, əsasən, aşağıdakı hallarda istifadə olunur:

I. Mürəkkəb cümlənin tərkib hissələri (sadə cümlələr) bir-birindən vergüllə ayrılır; məsələn:

1.Hər kəsin taleyi onun etdiyi seçimlərə görə bir-bir açılır, bu dəfə etdiyim seçimin səhv olmadığına əmin oldum.

II. Cümlənin həmcins üzvləri arasında vergül qoyulur; məsələn:

1.Bahalı fransız restoranlarında gecədən xeyli keçmiş şam yeməkləri.çəkdiyi qalın Kuba siqarları,dalbadal boşaltdığı konyak butulkaları onun çəkisinə təsir etmiş, kökəlmişdi.

III. Cümlə üzvləri ilə əlaqədar olmayan sözlər, söz birləşmələri və ya cümlələr cümlə üzvlərindən vergüllə ayrılır; məsələn:

1.Bu açıqlığın bir tərəfində gözyaşı kimi dupduru bir göl var, bu göl milyonlarla balaca, ağ lotoslarla örtülüb, gölün suyu çox sakit, səssizdir, bu həqiqətən də sehrli bir mənzərədir.

IV. Vergül o və bu əvəzliklərinin mübtəda, yoxsa təyin olduğunun fərqləndirilməsi üçün işlədilir; müqayisə edək:

1. O, evə getdi. Bu, kitabdır.

2. O evə getdi. Bu kitabdır.

Birinci halda o və bu əvəzlikləri mübtəda, ikinci halda isə təyindir.

V. Əgər kiminsə fikrinə və ya mövqeyinə istinad olunursa (məsələn: Səməd Vurğuna görə, Şekspirə görə, mənə görə, sənə görə və s.) görə qoşmasından sonra vergülə ehtiyac var; məsələn:

1. Sigmund Freydə görə, hücumlara qarşı özünüzü müdafiə edə bilərsiniz, ancaq təriflərə qarşı acizsiniz.

Lakin o halda ki görə qoşması üçün, ötrü qoşmalarının sinonimi kimi işlənir, ondan sonra vergülə ehtiyac yoxdur; məsələn:

1. Məni sənə görə yaman danladılar.

2. Verilən tapşırığ vaxtında yerinə yetirildiyinə görə hamınıza təşəkkür elan edirəm.

Göründüyü kimi, məna fərqlərinin nəzərə çatdırılmasında vergül həlledici rol oynayır.

Müşahidələr göstərir ki, vergüldən yazıda düzgün istifadə olunmamasının ən səciyyəvi əlaməti harada ki işlənirsə, ondan sonra həmişə vergül qoyulmasıdır. Halbuki, məsələn, tələbə sübut etməyə çalışırdı ki, o mövzunu ki ondan ətraflı soruşurdular, hələ keçilməyib cümləsində birinci ki dən sonra vergül qoyulur (bağlayıcı olduğuna görə), ikincidən sonra isə qoyulmur (ədat olduğuna görə).

Alman dilində də nöqtə, sual və nida işarələri cümlənin sonunda qoyulub həmin cümlənin nəqli, sual və ya nida cümləsi olduğunu göstərir; müqayisə edək:

1.Walter ging aus dem Zimmer.- Valter otaqdan çıxdı.

2.Ging Walter aus dem Zimmer?- Valter otaqdan çıxdı?

3.Wann ging Walter aus dem Zimmer?- Valter nə vaxt otaqdan çıxdı?

4. Walter,geh aus dem Zimmer!- Valter ,otaqdan çıx!

Sual və nida işarəli cümlələrdə alman dilində cümlə üzvlərinin yerdəyişməsi baş verir, beləki, fel sual cümləsinin tipinə görə ilk və ikinci yerdə işlənir.

Vergülün işlənməsi də məna fərqliliyi yaradır. Müqayisə edək:

1. Komm,wir essen, Oma!
2. Komm wir essen Oma!

Birinci cümlənin tərcüməsində əmr olaraq, nənə gəl,yemək yeyək! İkinci cümlədə isə gəl, nənəni yeyək kimi anlaşılır. Bu baxımdan durğu işarəsi həyat xilas edə bilər. Və ya.....

1.Frauen denken, Männer sind ohne sie nichts.

2.Frauen, denken Männer, sind ohne sie nichts.

Birinci cümlədə - qadınlar düşünür ki, kişilər onlarsız heçnədir. İkinci cümlədə isə kişilərin qadınların onlarsız heçnə olduğu düşüncəsi qeyd edilir.

Beləliklə, durğu işarələri cümlənin əsas ifadəsini dəyişdirir və buna görə də faktiki məzmunun düzgün başa düşülməsi üçün vacibdir.

Bundan əlavə alman dilində vergülün budaq cümlə bağlayıcılarında, məsdər birləşmələrindən əvvəl qoyulması labüddür.Məsələn:

1.Danach wurde über einen Umzug geredet, um das ganze Elend hinter sich zu lassen.(məsdər birləşməsi um.....zu)

2.Dann kracht der Wagen seitlich gegen eine mächtige Eiche, die seit über hundert Jahren ungestört an dieser Stelle steht. (təyin budaq cümləsi- die nisbi əvəzliyi)

3.Jobs waren nicht leicht zu finden, außerdem hatte er festgestellt, dass seine nicht vorhandenen fachlichen Fähigkeiten nicht besonders gefragt waren. (tamamlıq budaq cümləsi-dass tabeli bağlayıcı)

İki nöqtə, nöqtəli vergül və tire işarələri o qədər də geniş funksiya daşımır. Və get-gedə nöqtə, yaxud vergüllə əvəz edilir. İki nöqtə ümumi fikirdən sonra onun izahı verilərkən, yaxud ondan sonra hər hansı sadalamaya ehtiyac olarkən (xüsusilə rəsmi və ya işgüzar sənədlərdə) işlənir; məsələn:

1. İndi yeni iqtidar şahzadələrin saraylarına toxunmayacağına söz verdiyinə görə qacarlar şəhəri və səltənəti ona tapşırdılar:cibində bir qəpiyi olmayan polkovnik üç min suvari ilə Almaniyadan üçqat böyük olan məmləkəti zəbt etdi.
2. İclasın gündəliyinə aşağıdakı məsələlər daxildir: 1... 2)... 3)..…

Nöqtəli vergüldən o zaman istifadə edilir ki, vergül öz funksiyasını davam etdirə bilmir; belə ki mürəkkəb cümlənin tərkib hissəsi olan cümlə və ya cümlələr özləri də mürəkkəb olur, yaxud həmin cümlələrdə həmcins üzvlər işlənir; məsələn:
1.Əcnəbi səfirlər öz xanımları ilə saraya toplaşırdılar, küçələrdə isə atlı və piyada qvardiya alayları düzülürdü; sultanın faytonu müntəzir əsgərlərin sırası ilə gedəndə camaat hərbi düzümün arxasında ehtiramla gözünü qapatırdı.

Nöqtəli vergülün bir funksiyası da daha çox rəsmi və ya işgüzar sənədlərin dilində özünü göstərir; məsələn: Sədrin səlahiyyətlərinə aşağıdakılar daxildir:
Nöqtəli vergülün ikinci funksiyası birincidən o qədər də fərqlənmir.
Tire işarəsi cümlədə ya hər hansı sözə əlavə izah verilərkən, ya da həmcins üzvlər "ümumiləşdirilərkən" işlənir; məsələn:
1.Bu dəyişiklik o, Kəşmirdə- Himalay dağlarının ətəyində uyuyan bir ştatda olarkən özünü büruzə verir.
Vasitəsiz nitqdə iki nöqtə ilə tire birlikdə işlənir; məsələn:
Mən Culianın sözünü kəsib sual verdim:
-Sən yuxarıda risk etmək haqda danışırdın, bu ona bənzəyir?
Culian dedi:
-Həm bənzəyir, həm də yox.
-Tam başa düşmədim.
Culian izah etməkdə davam etdi:

Alman dilində digər sintaktik işarə iki nöqtədir ki, o da bölücü və məhdudlaşdırıcı işarə rolunu oynayır. İki nöqtə bir növ xəbər verən kimi çıxış edərək oxucunun diqqətini çəkir və sonrakı məlumat üçün hazırlayır. O, elan edilmiş siyahılardan və ya ifadələrdən, elan edilmiş birbaşa nitqdən və ya indicə deyilənlərin xülasəsindən əvvəldir. İki nöqtədən sonra, isim və ya xüsusi isim olmadığı halda kiçik hərflə yazılır. Əgər iki nöqtədən sonra tam bir cümlə gəlirsə, o, böyük hərflə yazılmalıdır. Məsələn, -Achtung eine Durchsage: Bitte nicht vom Beckenrand springen!

Ölən nöqtəli vergül- Semikolon: Ən nadir durğu işarəsidir; gənc insanlar demək olar ki, heç vaxt istifadə etmirlər, hətta bəzi akademiklər onun nə üçün istifadə edilməli olduğunu bilmirlər. Semikolon vergül və nöqtə arasındakı ortanı bildirir, bu da tez-tez olur, həm xəbər baxımından, həm də cümlənin melodiyası baxımından arzuolunandır. Nöqtəli vergül sizi səsinizi aşağı salmağa və nəfəsinizi tutmağa dəvət etməməklə, nöqtədən fərqli olaraq oxumağı da sürətləndirə bilər. Nöqtəli vergül işarəsi alman dilində də əsasən mürəkkəb cümlələrdə olur. Vergüldən fərqli olaraq, o, baş cümlə ilə tabe cümlə arasında sərhədi ayıran durğu işarəsi kimi istifadə edilə bilməz. Əgər cümlədə nöqtəli vergül varsa, iki cümlə arasında

kontekstual əlaqə olmalıdır. Məsələn,-Katharina wünscht sich ein neues Auto ; leider hat sie nicht genug Geld. (Katarina özünə yeni maşın arzulayır; təəssüf ki, pulu yoxdur.)

Kolon və son dərəcə yaxşı yerləşdirilmiş nöqtənin yanında durğu işarələri *sual işarəsi* ilə ən gözəl şəkildə çiçəklənir. Qəribədir ki, bu, gənclər arasında çox xoşagəlməz hesab olunur. Niyə, soruşdular, davamlı cansıxıcılıq tonu ilə yazırlar. Letargiyanın ədəbi ifadəsi kimi uyğun ola bilər - oxucunun axtarmalı olduğu hər şeydə tonsuz da darıxdırıcıdır.

Hər kəsdən daha çox *sual işarəsi* cümləyə musiqi və gərginlik gətirir; o qədər ki, ispanlar hər suala sanki dəvətnamə kimi tərs sual işarəsi ilə başlayırlar: suallarla həmişə olduğu kimi səsinizi qaldırmağa başlayın! Don Kixotun sualı Ay xanım, hardasan ki, dərdim səni uyuşdurur? orijinalda belə oxunur: ¿Donde estás, Señora mia, que no te duele mi mal?

Qərardan (gəlirsən?), şəraitdən (nə vaxt, necə, haradan gəlirsən?), səbəbləri (niyə gəlmirsən?) soruşuruq. Otello kimi hədə-qorxu ilə soruşuruq (Gecələr dua etmisən,Dezdemona?), mühazirə oxuyarkən biz Sokrat kimi soruşuruq («Adil bir insan ədalət vasitəsilə kimisə haqsız edə bilərmi?), təsdiqini istəmək (O, gözəldir, elə deyilmi?>); çox vaxt sırf ritorik, yəni: sualı verən adam cavabı bilir və sorğulanan da cavabı bilir. Mənə deyin güllər hara, hara getdilər?" Marlen Ditrix şansonda həzin şəkildə soruşdu. Mən orduları yerdən silə bilərəmmi?-deyə kral itaətkarlıqla Şillerdən soruşur.

Dolayı nitqdə də sual işarəsi niyə olmasın? Mərasim ustası Mirabodan soruşdu ki, padşahın əmrini eşitdilərmi? (Kleistdə). Soruşduq ki, Furkadan keçən marşrut hələ də keçə bilərmi? (Götedə). Niyə sual işarəsindən qorxmaq lazımdır? Bu kimi ritorik suallar qəbul edilirmi? Təbii! Sadəcə həddindən artıq deyil, dəb nöqtəsinə itələnməyib. Amma mətnin bütün səhifəsində sual işarəsi yox idisə, yazıçı özünə sual verməlidir: Mən həqiqətən oxucuları özümlə bağlamaq üçün hər fürsətdən istifadə etmişəmmi?

Ciddi yazıçılar çox vaxt *nida işarəsindən* qorxurlar; barkerlərin, tabloidlərin və yüngül romanların üslub cihazı hesab olunur. Bu doğrudur, amma həqiqətin yalnız yarısıdır. Birincisi, işarə nida fellərindən sonra gəlməlidir (Heç vaxt!+ o qışqırdı). İkincisi, ədəbi təsdiqlənir: Kotteclərə salam! Saraylarda müharibə!" Georg Büxnerin broşürü və Lessinq Pastor Qoeze yazırdı: Hörmətli pastor, lütfən, gününüzü yormayın, sizə yalvarıram! Buna görə də nida işarəsi hər yerdə görünə bilər - bəlkə də tərs nisbətdə: Əgər onu bir səhifədə bir dəfədən çox istifadə etsəniz, narahat olmalısınız.

Yenidən xoş gəlmisiniz, *tire* uzun tiredir; Dil baxımından tez-tez qısa tire ilə birləşdirilir, bu durğu işarəsi deyil, sözləri birləşdirir və ya onları optik cəhətdən parçalayır; hər şeydən əvvəl tək tire, qoşa tiredən ciddi şəkildə qorunmalıdır ki, bu da mötərizəni cümləyə doldurmağa kömək edir .

Sintaktik kateqoriyanın son durğu işarəsi *vergüldür*. Vurğu, sadalama və sərhədləşdirmə funksiyası daşıyır. Bu o deməkdir ki, o, cümlə vahidlərinin semantik cəhətdən tam deyil, yalnız müvəqqəti bağlanma xüsusiyyətinə malikdir, bundan əlavə, cümlələri qurur və aydınlaşdırır, həm də asılı cümlə üzvlərini bir- birindən ayırır.

Alman dilinə yeni başlayan şəxsin vergül işarəsini qoymaqla müqayisədə başqa durğu işarələri ilə daha az problemi olur. Cünki vergüllərin qoyulması qaydaları çox vaxt sintaktik əlamətlərlə əsaslandırılır. İki əsas cümlə varsa, vergül yalnız iki cümləni məhdudlaşdırmaq üçün istifadə olunur. Oxşar funksiyanı nöqtə və nögtəli vergülə də aid etmək olar, lakin bu təcrid edir və ya ayırır. Əlaqəsiz paratakslar (cümlə və ya cümlə hissələri) mövcud olduqda , vergül yeni bir vəziyyəti təmsil etmək üçün istifadə olunur. Məsələn,- Eva fuhr zum Flughafen, die Passagiere stiegen in das Flugzeug, der Airbus hob ab. (Eva hava limanına getdi, sərnişinlər təyyarəyə mindilər,təyyarə havaya qalxdı.)

Demək olar ki, hər bir dildə fərqli durğu işarələri və bəzi müstəqil durğu işarələri var. Buna baxmayaraq, bu simvolların böyük bir üst- üstə düşməsi var, buna görə də alman dilində mövcud olan bir çox simvol digər dillərdə də istifadə olunur.

Dırnaq işarələri- sözlü nitqdən əvvəl və sonra dayanır, sitatları müəyyən edə və termini məhdudlaşdıra bilər.

Ellips (apostrof)-Alman dilində sözdən hərf və ya hərflər ardıcıllığı buraxıldıqda, mənsubiyyət bildirdikdə istifadə olunur. Məsələn, - Wie geht‘s dir?; Hab‘ ich gehört, du wechselst bald den Job.; Das Ist Alex‘ Haus.; Ich lese gern die Grimm‘schen Märchen.

Defis (der Bindestrich)- tire və əlavə kimi istifadə olunur. O, sözləri bir-birinə bağlamalı və ya onları aydın şəkildə strukturlaşdırmalıdır ki, onları oxucunun başa düşməsi asan olsun. Eyni rütbəli sifətlərin tərkibləri zamanı da istifadə olunur. Məsələn, deutsch-französische Beziehungen. Der Bindestich- defisdən istifadə etməkdən imtina etmək mənanın başa düşülməsini gecikdirə bilər.

İngilis dilindən keçmiş isimləşmələr zamanı da defis işarəsindən istifadə olunur: “Make-up” və ya “ Stand-by”. Alman dilində qısaltmalardan da istifadə zamanı tire qoyulur: H- Milch yəni “ Haltbare Milch”.

Ümumiyyətlə: Bütün durğu işarələri arasında *iki nöqtə* ən çox arzu olunandır - heç bir oxucu onunla dayanmaz! O bir mətn sürətləndiricisidir. Demək olar ki, həmişə iki nöqtəni çağıran mətn yazmaq məqsədəuyğun olardı, çünki cümlələr yarım suala meyllidir və dərhal cavab vəd edir. Ancaq bu, kral durğu işarəsini dəyərdən salacaq. Əsas qayda: Hər paraqrafa iki nöqtə qoyulur; amma bütün səhifədə heç biri olmasaydı, yazıçı nəyisə səhv etmişdi.

Durğu işarələri mətni strukturlaşdırmaq üçün simvol təyin etməkdir. Beləliklə, durğu işarələri mətnin sintaktik, məzmun və morfoloji quruluşunu aydınlaşdıra bilər. Bu funksiyanı yerinə yetirən müxtəlif durğu işarələri var. Ən çox

rast gəlinənlərə nöqtə, vergül, sual və nida işarəsi, dırnaq işarəsi, iki nöqtə, nöqtəli vergül və apostrof daxildir.

Ədəbiyyat

1.M. Adilov, Z.Verdiyeva, F. Ağayeva " İzahlı dilçilik terminləri lüğəti"," Elm və Təhsil" Bakı- 2020
2. M.Ş.Şirəliyev , M.H.Hüseynov"Azərbaycan dilinin durğu işarələri" (Azərnəşr, 1945), 3.Z.İ.Budaqova, R.Ə.Rüstəmov "Azərbaycan dilində durğu işarələri" (Azərbaycan SSR EA nəş., 1965)
4. Z.İ.Budaqov "Azərbaycan dilində durğu işarələri" ("Elm" nəş., 1977)
5.N.Cəfərov "Azərbaycan "qəzeti, 2018
6.Robin Şarma " Ferrarisini satan rahib" 1997
7.Məhəmməd Əsəd bəy, Volfgang von Vaysl "Allahy Əkbər" 1998. Bakı.
8. Volf Şnayder "Deutsch", 2007, Hamburq.
9.Renate Bauduş " Prinzipien der deutschen İnterpunktion" 1991.
10.Ceyms Preller " Bevor du gehst" 2012, München.
11. Eva Maser „ Der Moor-König",2007, Berlin

S.A.ALLAHVERDIYEVA

SUMMARY

USE OF PUNCTUATION MARKS- IN AZERBAIJANI AND GERMAN LANGUAGES

Punctuation marks- a system of marks that have a special place in the general graphic system of the language? Which are used to express aspects that cannot be expressed by letters and other writing tools (numbers, equal sign, similarity sign, etc.) It consists of showing the members and ensuring their recognition, as well as reflecting the rhythmic and melodic features of the syntactic structure realized in speech. Period, question mark, exclamation mark, comma, semicolon, colon, dash, multiple dots, etc. called a punctuation mark. Punctuation marks divide written speech into parts of meaning. For example, a full stop indicates the end of a thought in a sentence, placing a comma between members of the same gender indicates that these members of the sentence are equal members of the sentence. The marks placed between words and groups of words in writing are called punctuation marks, and the rules for putting punctuation marks are called punctuation. Missing punctuation marks or putting them incorrectly is a violation of the spelling rule. Although the punctuation marks are the same in different languages, their functions and sometimes the places of development are different

Keywords: punctuations marks, distinguishing marks, different signs

С.А.Аллахвердиева

РЕЗЮМЕ
ИСПОЛЬЗОВАНИЕ ЗНАКОВ ПРЕПИВАНИЯ - В АЗЕРБАЙДЖАНСКОМ И НЕМЕЦКОМ ЯЗЫКАХ

Знаки препинания-система знаков, занимающих особое места в общей изобразительной системе языка, которые используются для выражения аспектов, которые не могут быть выражены буквами и другими средствами письма (цифры, знак равенства, знак подобия и т.д.). Он состоит в показе членов и обеспечении их узнавания, а также в отражении ритмических и мелодических особенностей реализуемой в речи синтаксической структуры. Точка, вопросительный знак, восклицательный знак, запятая, точка с запятой, двоеточие, тире, многоточие и т. д. называется знаком препинания. Знаки препинания делят письменную речь на смысловые части. Например, точка указывает на окончание мысли в предложении, постановка запятой между членами одного пола указывает на то, что эти члены предложения являются равноправными членами предложения. Знаки, расставленные между словами и группами слов на письме, называются знаками препинания, а правила постановки знаков препинания — пунктуационными. Отсутствие знаков препинания или их неправильная постановка являются нарушением правил правописания. Хотя знаки препинания в разных языках одинаковы, их функции, а иногда и места образования различны.

Ключевые слова: знаки препинания, отличителные черты, разделительные черты

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dos. Əsli Piriyeva tərəfindən çapa tövsiyə olunmuşdur

QÖNÇƏ KƏRİMOVA
KÖNÜL QOCAYEVA
Azərbaycan Dövlət İqtisad Universiteti
"Xarici dillər"kafedrasının baş müəllimləri
H.Əliyev 92
saidakonul@gmail.ru

MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FRAZEOLOJİ VAHİDLƏRİN FUNKSİYA ÜZRƏ TƏSNİFATI VƏ LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Bu məqalədə İngilis dilində frazeoloji birləşmələrin struktur-tematik təsnifi və onların Azərbaycan dilində qarşılığı öyrənilir.Məqalədə ingilis dilində frazeoloji birləşmələrin struktur-tematik təsnifi və onların Azərbaycan dilində qarşılığından bəhs edilir.Atalar sözləri, zərb-məsəllər və idiomlar həyatın müxtəlif sahələrinə aid ibrətamiz məzmunlu qısa kəlam, xalq düşüncəsinin qısa, dolğun və mənalı bir şəkildə ifadəsidir. Onlar istər bədii ədəbiyyatda, istərsə də adi danışıq dilində fikri əsaslandırmaq üçün istifadə olunan ən münasib vasitədir. Əsrlər boyu xalqın süzgəcindən keçmiş xalqın hikmətli sözlərinin daşıyıcısı olan atalar sözləri və zərb-məsəllər yığcam, obrazlı, dərin mənalı və tutarlı nitq məhsuludur. Onlar xalqların obrazlı təfəkkürünün məhsulu olmaqla, onun milli ruhunu təcəssüm edir. Məna dərinliyi, forma dolğunluğu belə ifadələrin başlıca xüsusiyyətidir.

Kommunikativ frazeoloji vahidlərə atalar sözləri və deyimlər daxildir. Məlum olduğu kimi atalar sözləri və deyimlərdə hər bir millətin düşüncə tərzi, həyatı, milli xüsusiyyətləri, adət ənənələri əks olunur. Qeyd etmək kzımdır ki, frazeoloji birləşmələrin əksər hissəsi ümumxalq dilinin məhsuludur və xalq tərəfindən yaradılmışdır. Odur ki, onların izləri folklora, xalq deyimlərinə, dialekt və ləhcələrə gedib çıxır. İngilis dilində atalar sözləri və zərb-məsəllərin çox az hissəsi mənaca və ya strukturca dəyişdirilərək dil vahidi səviyyəsinə salınmışdır və onlar dilin frazeoloji sisteminin zənginləşməsində əsas mənbə rolunu oynayırlar. Hər dövr, hər nəsil üçün onların təlim-tərbiyəsində olduqca mühüm rol oynayan atalar sözləri və zərb-məsəllər və müdrik kəlamlar həm ingilis, həm də Azərbaycan dilində çox zəngindir. Lakin onu da qeyd etmədən keçmək olmaz ki, bu Azərbaycan dili üçün daha xarakterikdir. Atalar sözlərində xalqın öz mənəvi aləmi, milliliyi, tarixi, elmə, təhsilə, əməyə münasibəti əks olunur və onları kitablarda yığılan ağıl, zəka da adlandırmaq olar^^ın təfəkkür tarixinin inkişaf mərhələlərində ilk fəlsəfi görüşlərin inkişaf pilləsini müəyyənləşdirmək, ictimai şüurun forması kimi bədii və estetik təfəkkür arasında üzvi bağlılığın olduğunu aydınlaşdırmaq üçün atalar sözü və zərb məsəllərə müraciət etmək Qımdır. Atalar sözü və zərb məsəllərin nitq ilə xüsusi

əlaqəsi nəzərə alınmasa, onları bəzən başa düşmək, çətinlik törədir. Onlardakı mühakimələr nə qədər maraqlı görünsə də, o qədər də həyatın bir çox hadisə və şəraitini semantik cəhətdən daha da gücləndirir. Bir sözlə xalqın aynası kimi orada öz əksini tapır.

Açar sözlər: frazeoloji vahidlər, kontekst, komperativ frazeoloji vahidlər, nominativ frazeoloji vahidlər, atalar sözləri və zərb məsəllər.

N.N.Amosova frazeoloji vahidlərin təsnifinə kontekstoloji cəhətdən yanaşır. O, frazeoloji vahidləri daimi kontekstli vahidlər kimi müəyyənləşdirir. Daimi kontekst müəyyən leksik elementin özünəməxsus və dəyişməz uzlaşması, onlar arasındakı semantik əlaqə ilə xarakterizə olunan kontekst kimi müəyyən olunur. N.N.Amosova daimi kontekstli vahidləri frazemlərə və idiomlara bölür. O, göstərir ki, frazemlər ikilidir, tərkib hissələrindən birinin frazeoloji cəhətdən bağlı mənası var; digər tərkib hissəsi isə müəyyənedici kontekst rolunda çıxış edir. Məsələn, small hours, small change və s. İdiomlarda isə hər bir elementin mənası ya zəifləyə, ya tamamilə itə bilər, ya da yeni məna bütöv vasitəsilə qurulur.. Məs, in the nick of time (dəqiq vaxtda) (1-8 -10)

N.N.Amosovaya görə, frazeoloji vahidləri müəyyən edilmiş ünsiyyətdəki funksiyalarına görə dörd sinfə bölmək olar. Bu təsnifat əsasında frazeoloji birləşmələri aşağıdakı kimi təsnif etmək olar.

1. Nominativ frazeoloji vahidlər - söz birləşmələri ilə təqdim olunur: cut and run, draw the line və s.

Nominativ frazeoloji vahidlərə həmçinin tərkibində yalnız bir tam mənalı söz olan söz qrupları aiddir: at large (azadlıqda, ipdən açılmış); in hand (tabelikdə); in the soup (çətin vəziyyətdə); in the altogether (çılpaq, tamamilə açıq-aydın); on the rocks (çətin vəziyyətdə); at a time (o dəqiqə); to go on (davam etmək); to look for (axtarmaq) və s.

Birinci qrupa həmçinin komparativ frazeoloji vahidlər və predikativ ifadələr də daxildir (as) large as life - canlı kimi; (as) red as a turkey-cock - xoruz kimi qırmızı; see how the cat jumps - işlər necə olur; (as) good as ever - daha yaxşı; too clever by half - daha çox ağıllanmaq; (as) many as - daha çox; as dead as a duck - cansız (həyat izi olmayan); as dark as when - əvvəlki kimi qaranlıq; as much as possible - mümkün olan qədər; as good as she - onun kimi mehriban; as better than - daha yaxşı və s.

2. İngilis və Azərbaycan dillərində frazeoloji vahidlərin bir qismi qrammatik cəhətdən bitmiş bir fikri ifadə etdirir və cümləyə oxşayır. Tədqiqatçılar belə konstruksiyaları müxtəlif cür adlandırırlar. Məsələn: Hüseyn Bayramov onları frazeoloji cümlələr [2-səh,14-67], predikativ quruluşlu vahidlər, frazeologizmlər və ya kommunikativ frazeoloji birləşmələr adlandırırdı .

Qeyd etmək lazımdır ki, həmin müəlliflərin əksəriyyəti belə vahidlərin sırasında əsasən atalar sözü və məsəlləri nəzərdə tutmuşdular. Odur ki, H.Bayramov

və A.Kuninin yanaşmaları daha məqsədəuyğundur. Bunu onunla izah etmək olar ki, nəqli intonasiya ilə deyilən belə konstruksiyaların bəziləri məzmunla əlaqədar olaraq sual sözlərinin artırılması ilə və nida işarələri ilə cümləyə ekvivalent kimi işlədilir.

1. Frazeoloji nəqli cümlələri digər cümlələrdən fərqləndirən cəhət odur ki, belə cümlələrdə ifadə edilən fikir məzmununa görə bu və ya digər şəxsə aid olsa da, həmin şəxsi bildirən söz frazeoloji cümlə daxilində müstəqil cümlə kimi çıxış etmir və ya şəxssiz cümlələr şəklində özünü göstərə bilir .Məsələn, Azərbaycan dilində:xoşu gəlmək, acığı gəlmək; yazığı gəlmək.

Onun hərəkətləri mənim heç də xoşuma gəlmirdi (M.S.Ordubadi).

Mən gülümsədim, həm də ondan acığım gəldi (M.S.Ordubadi).

İngilis dilində:

I am not every Tom, Dick and Harry. - Mən hər yoldan ötən deyiləm.

But she would pick up with everybody, of course. He would have to make himself agreeable to Tom, Dick and Harry (The Silver Spoon p.III Ch. XI p. 237).

Və ya unless I'm a Dutchman - lənətə gəlim ki (işdir olmasa onda...).

It's a complete fiasco thank God! "Then we've won" said Fleur. "Unless I'm a Dutchman", answered Soames. "I'm not sure", muttered Michael (The Silver Spoon p.III Ch. VIII).

2. Frazeoloji sual cümlələri adətən iki cür ifadə olunur; cavab almaq məqsədilə işlədilən və ritorik səciyyə daşıyan sual cümlələri.

Cavab almaq məqsədilə işlədilən frazeoloji sual cümlə növü qeyri-ritorik; ritorik səciyyə daşıyan frazeoloji sual cümləsi isə ritorik frazeoloji sual cümləsi adlandırılır [1, 139].

Qeyri-ritorik frazeoloji sual cümlələri dilimizdə sayca elə də çox deyildir. Bəlkə də elə ona görə də bu məsələ dilçiliyimizdə çox tədqiq olunmamışdır. Azərbaycan dilində ən geniş yayılan qeyri-ritorik frazeoloji sual cümləsi aşağıdakıdır:

Belə cümlələrdə işlədilən suallar əslində cavab tələb etmir. Nəticə çıxarmağı tövsiyə edir.

Ritorik frazeoloji cümlələr qrammatik sual cümlələrinə oxşayır, ancaq belə suallar bir işin başqası tərəfindən yerinə yetirilməsini ritorik şəkildə ifadə etmək üçün III şəxsin təkində işlədilir. Buna misal olaraq, xüsusilə şifahi nitqdə olan: Kimin ağzı nədi?; Kimə nə borcdur?; Kimin nə işinə qalıb; Kimin nə dərdinə; Hansı yuvanın quşusan və s.

Kərbalayi Heydər zor adam idi.

Naçalnikin ağzı nədir, onun sözünə baxmasın (Qaçaq Nəbi dastanı).

Hacı Baxşəli - Kefim nə istər yazdırram, kefim istəməz yazdırmaram. Sənə nə borcdur!

İngilis dilində:

(then) what is the mystery of secret? - nə isə gizli bir şey var?

"You're a relation - by blood as well as marriage, aren't you?" "Yes" "Then what's the skeleton? I'll certainly come. Only - she has so many friends (The White Monkey p.II Ch. III).

The kettle and the pot - Öz gözündə tiri qoyub, başqasında çör-çöp axtarırsan!

Soames was silent, feeling vaguely that he had been near the proverb. "The kettle and the pot" - What was the use, indeed, of going anywhere unless you wanted something? It was one of the cardinal principles of life (Swan Song p.III Ch VII).

3. Nominativ-kommunikativ səciyyə daşıyan frazeoloji nida cümlələri özlərində nida söz qruplarını birləşdirir. My aunt (my hat) - belə-belə işlər, işə bir bax; that's the spirit - əhsən, özüdür ki, var; By heaven! - Sən Allah; Good God - İlahi; The Holy Ghost - Müqəddəs Ruh; Great Scott - Rəhm edin!; My hat - Mərhəmətli Tanrı, mənim Allahım, Rəbbim!; No jolly fear! - Rəhm et Allahım!; My gum! - Mənim Tanrım!, İlahi, mənim Allahım.

"I should be interested to know how you would have handled a situation if you had been on the Board. It is extremely easy to condemn other people! Hear, hear! said Michael, astanished - at his own voice! (Doğrudur, özüdür ki, var) (The White Monkey p.III Ch. XIII).

On his shadowy face was nothing quite so spirited as a sneer but he fazed about him, and seemed to say: My, hat! (Mərhəmətli Tanrı) (The Silver Spoon p.II Ch VIII).

"Not a bit; jolly good short. The vice of our lot is, they say it pretty well. But they have nothing to say. They won't date". Won't they? My gum! (Mənim Allahım!) (The White Monkey p.I Ch.II).

"By heaven! Those people, I'll - ! Well, that ends it!

Marjorie, I shall send our engagement to the papers tomorrow" (Tək Allah) (The Silver Spoon p.II Ch. XI).

Sir James Foskisson moved in his chair, and the pupils of his light - blue eyes became as pin-points. He nodded almost imperceptibly three times, precisely as if he had seen the Holy Ghost! (Müqəddəs Ruh) (The Silver Spoon p.III Ch. I).

Swain came last. On his shadowy face was nothing quite so spirited as a sneer; but the gazed about him, and seemed to say; "My hat!" (Mərhəmətli Tanrı. İlahi) (The Silver Spoon p.II Ch. VII).

Azərbaycan dilində də bu qəbildən olan cümlələr adətən təəccüb, razılıq və ya narazılıq bildirir. Məsələn:

Əşi qoyurlar ki, adam bir şirin yuxu yata!

Eh! Kim kimədir! ("Kirpi" jurnalı).

Alice Machein. "Reference Guide to English"əsərində müəllif yazır:" İngilis dilinin frazeologizmləri müxtəlif ictimai-tarixi şəraitdə və çox müxtəlif səbəblər əsasında əmələ gəlmişdir. Bu dilin frazeologizmlərinin əsas mənbələri Bibliya, bədii ədəbiyyat, mifik rəvayətlər və əfsanələrdir. (2.s.172)

İngilis dilinin frazeologizmlərlə zənginləşməsində Bibliyanın böyük rolu var. Qədim dövrlərdən indiyədək Bibliya insanlar tərəfindən ən çox oxunan kitab olmuşdur. Buna görə də, ingilis dilindəki frazeologizmlərin əksəriyyəti Bibliyadan götürülmüşdür. İngilis dili Bibliyadan götürülmüş frazeologizmlərlə o qədər zəngindir ki, onların sayını söyləmək qeyri-mümkündür. Bibliyadan götürülmüş frazeologizmlər bibleizmlər adlandırlır. Ingilis dilindəki geniş yayılmış bibleizmlər aşağıdakılardır:

İngilis dili frazeologizmlərinin əksəriyyəti Qədim Roma və Yunan ədəbiyyatlarından götürülmüşdür. Bu frazeologizmlər aşağıdakılardır:

The golden age "qızıl əsr" (bu frazeologizm yunan yazıçısı Qesiodun poemasından götürülmüşdür. Bu poemada Saturun əsri təsvir olunmuşdur ki, bu əsrdə insanlar qayğısız, rahat, müharibəsiz həyat keçirmişlər); a labor of Hercules "Herkules əməyi" (həddindən artıq çətin iş); Lares and Penates "larlar və penatlar" (dindar ailə); Achilles' heel "axilles dabanı" (yeganə ən zəif yer); Augean stables "avgi tövlələri" (bərbad, çirkin, baximsiz , xaraba qalmış bir yer); a labour of Sisyphus "sizif əməyi" (ağır və faydasız əmək).

Homerin "İlliada" və "Odissea" poemalarından və digər əfsanələrdən götürülmüş frazeologizmlərdən:

Homeric laughter "qəhqəhə ilə gülüş", "qəhqəhə çalıb gülmək"; a sardromic laugh "acı gülüş", "istehzalı gülüş"; winged words "qanadlı sözlər"; between Scylla and Charybdis "iki od arasında qalmaq", "çıxılmaz vəziyyətdə qalmaq"; on the knees of

A.Kunin nominativ məna kəsb etməyən və yalnız frazeoloji vahid daxilində işlədilən sözlərin mənasını müəyyənləşdirmək üçün bunların müvafiq sinonimləri ilə əvəz etmək fikrini irəli sürür. Və belə sözlər sırasında yalnız dilin özünəməxsus və vaxtilə həmin dildə leksik vahid kimi mövcud olan sözləri nəzərdə tutur [3-səh:16].

Azərbaycan dilində bu qəbildən olan sözlərin iştirakı ilə mövcud olan frazeoloji vahidlərin cüzi qismi belə səciyyə daşıyır.

Həm ingilis, həm də Azərbaycan dilində bu tip sözlər təəccüb, razılıq və ya narazılıq bildirir. Məsələn,

Əşi, qoyurlar ki, adam bir şirin y^u yata! (LŞulı)

Eh! Kim kimədir! Onun işindən şeytan baş açmaz ("Kirpi" jur^h).

Kommunikativ frazeoloji vahidlərə atalar sözləri və deyimlər daxildir. "

Ə.Dəmirçizadə qeyd edir:Məlum olduğu kimi atalar sözləri və deyimlərdə hər bir millətin düşüncə tərzi, həyatı, milli xüsusiyyətləri, adət ənənələri əks olunur. Qeyd etmək lazımdır ki, frazeoloji birləşmələrin əksər hissəsi ümumxalq dilinin məhsuludur və xalq tərəfindən yaradılmışdır. Odur ki, onların izləri folklora, dialekt və ləhcələrə gedib çıxır."(4-səh;59-62).

ƏDƏBİYYAT:

1. Амосова Н. Н. Основы английской фразеологии. Л.,1963 səh 8-10..

2. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, 1978. səh:14–67.

3.Кунин А. «Фразеология современного Английского языка» М.1987.стр:16

4.Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962. səh 59–62.

Г.Каримова, К.Годжаева

Функциальная классификация фразеологических единиц на английском и азербайджанском языках и их лексико-семантические свойства

Резюме

В статье рассматривается функциональная классификация фразеологических единиц на английском и азербайджанском языках.Фразеологических единиц,и идиомы являются кратким, всеобъемлющим и значимым выражением мыслей людей в коротких фразах в различных аспектах жизни. Они являются наиболее подходящим инструментом, используемым для обоснования идеи художественной литературы и обычной речи. Пословицы и идиомы - это компактные, образные, глубокие и последовательные фразы, были носителями мудрости людей, которые прошли через века. Они представляют национальный дух людей. Глубина смысла, полнота формы - главная особенность таких выражений. Слова и понятия общения широко распространены в народных разговорах. Как известно, слова и фразы каждой нации отражают образ мышления, быт, национальные особенности, традиции. Следует отметить, что следы большинство фразеологических соединений попадают в фольклору. В английском языке очень мало слов и фраз были переведены в осмысленную или структурную форму и являются основным источником обогащения фразеологической системы языка. Каждое поколение играет очень важную роль в образовании поговорки. Слова, фразы и пословицы очень богаты как на английском, так и на азербайджанском языках. Но следует отметить, что это более характерно для азербайджанского языка..

Ключевые слова: фразеологические единицы, контекст, компаративные фразео¬логические единицы, номинативные фразеологические единицы, пословицы и поговор.

Q.Kərimova, K.Godjaeva

Funcstonal classification of phraseological units in English and their correspondence in the Azerbaijani language

Summary

The article deals with the structural-thematic classification of phraseological units in English and their correspondence into Azerbaijani.

Phraseological units, and idioms are a brief, comprehensive and meaningful expression of people's thoughts in short phrases in various aspects of life. They are the most appropriate tool used to substantiate the idea of fiction and ordinary speech. Proverbs and idioms are compact, imaginative, deep and consistent phrases. They were the bearers of the wisdom of people who passed through the centuries. They represent the national spirit of the people.

The depth of meaning, the fullness of the form is the main feature of such expressions. Words and concepts of communication are widespread in popular conversations. As you know, the words and phrases of each nation reflect the way of thinking, life, national characteristics and traditions. It should be noted that traces most of the phraseological compounds fall into folklore. In English, very few words and phrases have been translated into meaningful or structural form and are the main source of enrichment of the phraseological system of the language.

Colloquial language plays a very important role in the formation of proverbs and sayings. Words, phrases and proverbs are very rich in both English and Azerbaijani languages. But it should be noted that this is more characteristic not only in speech but also in plays. Phraseological units reflect the attitude of people to their spiritual world, nationality, history, science, education.

Key words: phraseological units, contex, comparative phraseological units, nominative phraseological units, proverbs and sayings.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: pedağoji elmlər namizədi,prof.Tamilla Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur

ФИРАНГИЗ МАХМУДОВА
АУЯ
R.BEHBUDOV KÜÇ., 134.
mahmudovafirangiz@gmail.com

ЛИНГВОКУЛЬТУРОЛОГИЯ И ЛИНГВОСТРАНОВЕДЕНИЕ КАК ДВЕ СМЕЖНЫЕ НАУКИ

Ключевые слова: *лингвокультурология, лингвострановедение, национально-культурные особенности, язык, культура, языковая картина мира.*
Açar sözlər*: linqvokulturologiya, linqvoölkəşünaslıq, milli-mədəni xüsusiyyətlər, dil, mədəniyyət, dünyanın dil şəkli.*
Key words: *lingua cultural studies, lingua country studies, national cultural characteristics, language, culture, language picture of the world.*

Каждый человек является частью национальной культуры, которая включает национальные традиции, язык, историю и литературу. В настоящее время экономические, культурные и научные контакты между народами становятся все более тесными. Таким образом, исследования, посвященные межкультурной коммуникации, взаимосвязи языка с культурой и языковой личностью сегодня важны. Активизация культурологических исследований привлекла внимание к лингвокультурологии.

Лингвокультурология как самостоятельное направление лингвистики впервые возникла в 70-х годах XX века на основе триады Эмиля Бенвениста: язык, культура и личность человека. Цель состояла в том, чтобы активировать факты о языке и культуре страны изучения языка с помощью филологических методов обучения. В этой области работают ученые: А. Вежбицкая, Р.М. Кизинг, Р.Лангакер, В. Маслова, В. Карашич, С. Воркачев, В. Телия, В. Шаклеин, Ф. Воробьев, Ж. Степанов, Е. Левченко, В. Кононенко, В. Жайворонок.

Согласно исследованиям В. Масловой, термин «лингвокультурология» означает науку, возникшую на стыке лингвистики и культурологии. Эта наука исследует вопрос отражения и закрепления национальной культуры в языке [6]. Следует подчеркнуть, что лингвокультурология касается как науки о культуре, так и науки о языке. Она представляет собой твердое единство знаний о национально-культурных особенностях нации и их отражении в языке. Целью лингвокультурологии является изучение методов, которые язык воплощает в своих единицах, для сохранения и передачи культуры. Основная задача лингвокультурологии - изучить и описать язык и культуру в их взаимодействии. По мнению В. Телия, цель этой области лингвистики –

“изучить и описать взаимосвязь языка и культуры, языка и этноса, языка и национального менталитета” [9].

Методы лингвокультурологии - это совокупность аналитических техник, операций и процедур, которые используются при анализе взаимодействия языка и культуры. Следует отметить, что при расследовании могут использоваться разные методы, но наиболее полезными являются концептуальные, описательные, контекстные, аналитические, сопоставимые. Особое направление исследований - лингвокультурологический анализ текстов как настоящих хранителей культуры. Здесь могут быть использованы такие методы и приемы исследований, как интерпритационные и психолингвистические. Основная категория лингвокультурологии - это концепт, который определяется как условная ментальная единица, направленная на комплексное изучение языка, мышления и культуры.

Главный объект лингвокультурологии - взаимосвязь и взаимодействие культуры и языка в процессе его функционирования; изучение интерпретации этого взаимодействие как единая система. Предметом лингвокультурологии являются воспроизводимые в системе языкового общения национальные формы существования наций, на которых базируется их культурные владения. Другими словами, предметом лингвокультурологии является языковая картина мира.

Лингвокультурологию можно разделить на пять основных областей в соответствии с целями исследований.

1. Лингвокультурология отдельной социальной группы, этноса в любую яркую с точки зрения культуры эпоху (исследование конкретной языковой ситуации).

2. Диахроническая лингвокультурология (исследование изменений лингвокультурное состояние этноса во времени.

3.Сравнительная лингвокультурология (исследование лингвокультурологии)демонстрации разных, но взаимосвязанных этносов.

4. Конфронтационная лингвокультурология (самое молодое направление). Работ в этой области всего несколько. Наиболее интересна М. Голованивская «Французский менталитет с точки зрения носителя русского языка» [4].

5.Лингвокультурная лексикография (практика составления лингвокультурологических словарей).

Следовательно, мы пришли к выводу, что лингвокультурология - это новое активно развивающееся направление лингвистики. По словам Р. Фрумкиной распространение лингвокультурологии началось в то время, когда было обнаружено, что культуре нет места в науке о языке. В каждой культуре есть ряд концепций, которые являются маркерами идентичности [11]. Например, ключевыми маркерами в британской культуре являются *закон, ложь, неприкосновенность частной жизни* и т. д. Более того, каждый язык -

это оригинальная система, которая запечатлевается в сознании носителей языка и формирует их мировосприятие, поэтому лингвокультурология является перспективное поле для лингвистических исследований.

Во все времена язык оставался самой заметной отличительной чертой этноса, даже Пифагор советовал, «чтобы знать обычаи нации», сначала нужно изучить его язык. Столь же бесспорна связь между языком и культурой, инструментом и ипостасью которой он является. Термин «язык и культура» объединяет интересы всех гуманитарных наук; это «та перекрестная идея, которая, как показывает опыт ее анализа и описания, пронизывает все аспекты изучения языка и в, то же время, разрушает границы между дисциплинами, изучающими человека, потому что невозможно изучить человека вне его языка» [8, с.211]. Он отличается от всех остальных своим «атомарным составом» и валентными связями: соотношением «частей »языка - и культурология и их иерархия. В задачи этой научной дисциплины входит исследование и описание взаимосвязи между языком и культурой, языком и этнической принадлежностью, языком и народным менталитетом, «возникших согласно прогнозу Бенвениста» на основе триады - язык, человеческая личность, культура и представляет языковую культуру как линзу, через которую исследователь может осознать материальную и духовную идентичность этноса » [1, с391].

Лингвокультурология, которая возникает на «пересечении» ряда смежных наук и тесно взаимодействует с ними - культурология (система наук, изучающих культуру), лингвистика, этнолингвистика, социолингвистика и т. д, Имеет свою особенность и особенности по сравнению с у них свой «интегративный» аспект, исследующий проблему «языка и культуры».

На наш взгляд, лингвокультурология - это новая исследовательская парадигма для осуществления движения научного и культурного мышления о языке и культуре. Это не только расширяет рамки исследовательской идеи, но и позволяет глубже и всесторонне понять ее возможности и резервы.

Связь лингвокультурологии и лингвострановедения может рассматриваться в следующих аспектах. Изучение проблемы «языка и культуры» идет в разных направлениях. Одно из них –это лингвострановедение. «Студенты иностранного языка» - подчеркивают основоположники этого направления Е. Верещагин, В. Костомаров больше всего стремятся овладеть иным способом участия в общении. Надо учесть и тот факт, что изучая язык, человек в то же время изучает, проникает в новую национальную культуру, приобретает огромные духовные ценности, сберегающее постигаемый язык »[2, с.246].

Лингвострановедение - это направление, которое заключается в обучении языку, а также информирует о стране изучаемого языка. Основная цель лингвистических и региональных исследований - обеспечить

коммуникативную компетенцию в межкультурной коммуникативной деятельности, прежде всего за счет правильного восприятия языка другого человека. «Согласно лингвокультурологической теории слова, сутью лингвистики и культурологии является отобранная лингвистическая информация, которая отражает культуру страны языка, в изучении которого заинтересованы. Что касается культуры страны, лингвокультурология напрямую сталкиваются с лингвострановедением, которое изучает также язык народа, преподносимый через культурное восприятие »[5, с.15].

Процесс обучения языку через изучение культуры данной страны начинается, прежде всего, через изучение основных исторических событий, связанных в основном с процессом оккупаций, влияющих не только на формирование языка, но и культурные особенности данной страны. Так, например, оккупация нормандцами англо-саксонских территорий оказала влияние не только на формирование нового английского языка, но и, безусловно, привнесла изменения в культуру и традици страны.

Лингвокультурология, занимаясь рассмотрением контакта между языком и культурой, также касается той страны, где совершаются данные связи. У всякой страны есть как минимум один язык для общения людей, живущих там. Каждая страна обладает своими культурными традициями, обычаями, историей. Невозможно не заметить эту связь. Занимаясь изучением языка конкретной страны, в каких-либо определенных целях, мы уже взаимодействуем с его культурой. Язык является как средством общения, так и источником данных о культуре существующей страны и народа.

Лингвокультурология как научная дисциплина, имея очень много общего в позициях изучения объекта с лингвострановедением, обладает некоторыми характерными особенностями:

1) лингвокультурология – является закономерным этапом в филологии и иных гуманитарных науках. Лингвокультурология -это научный предмет обобщающего вида, которая стоит на пересечении наук, изучающих культуру, и филологией (лингвистикой), далеко не являющейся аспектом преподавания языка, каким является лингвострановедение;

2) главным предметом лингвокультурологии определяется взаимосвязь и взаимодействие культуры и языка, осуществляемого в ходе его задействованности и исследование трактовки данного взаимодействия, как цельного системного единства;

3) содержание лингвокультурологии, обосновывающее ее классификацию как самостоятельную отрасль знания, должно ориентироваться на национальные формы бытия общества, которые воспроизводятся в системе языковой коммуникации на основе культурных ценностей конкретного исторического общества;

4) предмет культуролингвистического исследования - рукотворная материальная и духовная культура;

5) Лингвокультурология, являясь продолжательницей лингвистических и региональных исследований, была основана и базируется на новой системе культурных ценностей, «которая через новое мышление, современную социальную жизнь, на полной объективной (а не «отрезанной») интерпретации фактов и явления, а также сведения о различных сферах культурной жизни страны »[7, с.32].

Лингвострановедение включает в себя елементы лингвистических познаний с элементами страноведческой науки. Целью данной науки является формирование у студентов изучающих иностранный язык лингвокультурологических знаний для межкультурной коммуникации. Задача лингвострановедения состоит в изучении языковых единиц, отражающих национальные особенности. Как можно отметить, и в целях и в задачах прослеживается связь лингвострановедения с языком и культурой. Лингвострановедение, в данном случае, понимается как культуроведение ориентированное на потребности изучения иностранных языков.

Взаимосвязь лингвокультурологии и лингвострановедения В.В. Воробьев интерпретирует следующим образом: «Идеологические отношения между лингвокультурологией и лингвострановедением довольно сложны, а теоретическое понимание почему-то имеет фундаментальное значение, тем более что растущий интерес к предмету« Язык и культура »делает его необходимым. Источники, параметры, методы исследования и представления, содержащиеся в их области терминологии. Обращение к культурологической лингвистике не является изменой лингвокультурологическому аспекту обучения языку, методическое звучание принимаемой нами идеи вызвано постоянными потребностями и переоценкой лингвокультурологической ценности темы «Язык и культура» [3, с.126].

Оценка знаний и форм поведения представителей иных этносов воплощается в жизнь методом сравнения со своими, освоенными в детском возрасте, нормами бытия, при том что все чужое рассматривается как противоестественное и неверное. В подобных эпизодах случается абсолютизация своих социо- психологических свойств и непризнание, а так же иногда и осуждение чужих. Данные отличия могут касаться самых простых форм будничной жизни. Например, «одни пьют чай с молоком (англичане, казахи), другие – с лимоном (русские), третьи – с солью (монголы), четвертые – с гвоздикой (азербайджане), а другие предпочитают чаю кофе (немцы, французы)» [8,с.105].

Таким образом, мы можем заключить, что существует тесная связь между лингвистикой культуры и лингвострановедением. Обе эти науки преследуют схожие исследовательские цели. Они видят язык и имеют связь с

культурой и страной. Основа их сходства это тесная связь между понятиями страны, языка и культуры.

ЛИТЕРАТУРА

1. Бодуэн де Куртене И.А. Язык и языки // Бодуэн де Куртене И.А. Избранные труды по общему языкознанию. – М.: Изд-во Академия Наук СССР, 1963. – Т. 2. – 391 с.
2. Верещагин Е.М., Костомаров В.Г. Язык и культура: Лингвострановедение в преподавании русского языка как иностранного. 3-е издание, перераб. доп. – М.: Русский язык, 1990. – 246 с.
3. Воробьев В.В. О статусе лингвокультурологии // Русский язык, литература и культура на рубеже веков. Тезисы докладов и сообщений IX конгресса МАПРЯЛ. – Т. 2. – Братислава, 1999. – 126 с.
4. Голованивская М. «Французский менталитет с точки зрения носителя русского языка»МГУ, Москва, 1997.- 279 с.
5. Лингвокультурология как лингвистическая дисциплина. Белозерова А.В ,М.: Изд-во Академия Наук СССР, 1970, 15 с
6. Лингвокультурология, учебное пособие, Маслова В.А, 2001
7. Ольшанский И.Г. Лингвокультурология: Методологические основания и базовые понятия // Язык и культура. – Вып. 2. – М., 1999. – С.32
8. Сепир Э. Коммуникация // Избранные труды по языкознанию и культурологии. – М.: Наука, 1993. – 211 с.
9. Телия В.Н. Русская фразеология: семантико-прагматический и лингвокультурологиче-
ский аспекты. М.: ´Языки русской культуры[a], 1996.
10. Токарев Г.В. Человек: стереотипы русской лингвокультуры. Тула:´С-Принт[a], 2013.
11. Фрумкина Р.М. Психолингвистика. М. 2001. - 320с.

FİRƏNGİZ MAHMUDOVA

LİNQVOKULTUROLOGİYA VƏ LİNQVOÖLKƏŞÜNASLIQ İKİ ƏLAQƏLİ ELM KİMİ

XÜLASƏ

Məqalə linqvokulturologiya və linqvoölkəşünaslıq arasında mövcut olan əlaqələrə həsr olunub. Burada Linqvokulturologiyanın müstəqil istiqamət kimi XX əsrin 70-ci illərində yaranması qeyd olunur. Linqvokulturologiya həm mədəniyyət elminə, həm də dil elminə aiddir. Bu elmin əsas obyekti onun fəaliyyət prosesində mədəniyyət və dilin əlaqəsidir. Linqvokulturologiyanın predmetini linqvistik ünsiyyət sistemində çoxalmış xalqların milli varlıq formaları təşkil edir. Linqvoölkəşünasliğa dilçilik elminin elementləri ilə ölkəşünaslıq elementləri

daxildir. Bu elmin məqsədi mədəniyyətlərarası ünsiyyət üçün linqvomədəni biliklərin formalaşdırılmasıdır. Vəzifəsi isə milli xüsusiyyətləri əks etdirən dil vahidlərini öyrənməkdir. Bu halda, linqvoölkəşünasliq xarici dillərin öyrənilməsi ehtiyaclarına yönəlmiş mədəniyyətşünaslıq kimi başa düşülür. Beləliklə, bu elmlər arasında sıx əlaqənin olduğu qənaətinə gələ bilərik. Onların hər ikisinin tədqiqat məqsədləri oxşardır.

FIRANGIZ MAHMUDOVA

Linguoculturology and linguacountry studies as two related sciences

SUMMARY

The article is devoted to the existing relations between of Linguaculturalology and Lingua Country Studies. Here, the emergence of Linguaculturalology as an independent direction in the 70s of the XX century is noted. Linguistics refers to both the science of culture and the science of language. The main object of this science is the relationship between culture and language in the process of its activity. The subject of Linguaculturalology is the forms of national existence of peoples who have multiplied in the system of linguistic communication. Linguaculturalology includes elements of linguistics and country studies. The purpose of this science is the formation of linguistic and cultural knowledge for intercultural communication. Its task is to learn language units that reflect national characteristics. In this case, Lingua Country Studies is understood as cultural studies focused on the needs of learning foreign languages. Thus, we can conclude that there is a close connection between these sciences. Both of them have similar research objectives.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Aynur Məmmədzadə tərəfindən çapa tövsiyə olunmuşdur

VƏFA ABBASOVA
ADNSU
vafa.rzayeva.74@mail.ru

AKADEMİK KOMMUNİKASİYA ELMİ YARADICILIĞIN TƏRKİB HİSSƏSİ KİMİ

Xülasə

Məqalə akademik kommunikasiya anlayışının izah və təsvirinə həsr olunub. Akademik kommunikasiyanın formaları olan elmi kommunikasiya və elmdə kommunikasiya sahələrinin fəaliiyət dairəsi tədqiq edilir. Məlum olduğu kimi, hər iki termin Azərbaycan dilinə hərfən "elmi kommunikasiya" formasında tərcümə edilsə də bunlar arasında müəyyən fərqlər var. "Science communication" alimlər arasında elmi ideya və informasiyaların mübadiləsini nəzərdə tutan sosioloji istiqamət kimi araşdırılır. Tarixən Avropada yaranmış müxtəlif elmi cəmiyyətlərin fəaliyyətlərindən bəhs edilir. Akademik kommunikasiya bir neçə istiqaməti özündə birləşdirən mürəkkəb informasiya mübadiləsi sistemi, daha dəqiq desək, akademik kommunikasiya həm elmi kəşf və nəzəriyyələrin, bilik və təcrübələrin mübadiləsini, eyni zamanda əldə olunan bilik və təcrübələrin ictimaiyyətlə paylaşmağı və ən mühümü isə bunların tədrisini özündə birləşdirən sahə kimi tədqiqata cəlb edilir.

Daha sonra akademik kommunikasiyanın əsas atributu olan elmi işlərin hazırlanma qaydaları, elmi metod və üsullar izah edilir. Müasir dövrümüzdə elmin cəmiyyətin inkişafındakı rolu müəyyənləşdirilir, önəmi vurğulanır. Elmi nəzəriyyə müəyyən bir sahə, anlayışla bağlı əlaqə və qanunauyğunluqları bütövlükdə təqdim etməyə imkan verən ifadələr toplusu olmaqla mövcud biliklərin təşkilinin ən yüksək inkişaf etmiş forması kimi təqdim edilir.

Açar sözlər: kommunikasiya, akademik, elm, metod, üsul, araşdırma, məqalə, ünsiyyət, bilik.

Kommunikasiyanın bir forması da akademik mühitdə aparılan informasiya mübadiləsidir. Akademik kommunikasiya akademik səviyyədə ünsiyyəti, müxtəlif elmi ixtira və kəşflərin mübadiləsini, müəyyən elm sahəsinə aid biliklərin kütlələrə çatdırılmasını nəzərdə tutur.

"Akademik" termini yunan mənşəli olub antik yunanlıların mifik qəhrəmanı Akademin (Ekadem, Gekadem) adı ilə bağlıdır. Rəvayətə görə, bu qəhrəman Afinanın yaxınlığında yerləşən müqəddəs zeytun bağında yaşamış və dəfn edilmişdir. Daha sonra, e.ə. IV əsrdə antik yunan filosofu Platon burada şagirdlərinə dərs keçmiş, yaratdığı məktəbə də "Akademiya" adı vermişdir.

Akademik kommunikativ münasibətlərdən harada istifadə edirik? Təbii ki, akademik mühitdə - ali və orta ixtisas məktəblərində , eimi-tədqiqat institutlarında,

müxtəlif səpkili elmi araşdırmalar aparan təşkilatlarda və s. Bəs bütün bu müəssisələrdə aparılan informasiya mübadiləsi akademik kommunikasiya nümunəsidirmi? Bu sualın birmənalı olaraq cavabı xeyrdir. Çünki hər bir müəssisə ilk növbədə iş yeri, insanları bu və ya digər ümumi hədəflər ətrafında birləşdirən təşkilatdır. Daha doğrusu, yuxarıda adlarını çəkdiyimiz bütün elm ocaqlarında rəhbər işçilər, elmi işçilər, pedaqoji fəaliyyətlə məşğul olanlar (tədris müəssisələrində), texniki işçilər və s. kimi qruplar fəaliyyət göstərir və onların arasında reallaşan informasiya mübadiləsinin müəyyən hissəsi akademik yox, işgüzar kommunikasiya formasıdır. Akademik kommunikasiya isə sırf koqnitiv tiplidir, biliklərin, elmi məlumatların ötürülməsini təmin edir. Məhz bu baxımdan "akademik kommunikasiya" ilə yanaşı, "elmi kommunikasiya" terminindən də istifadə olunur.

Qloballaşma , elm və yeni texnologiyanın sürətli inkişafı, informasiya çoxluğu, həyat dinamikamızın dəyişkənliyi bütün sahələrdə olduğu kimi elm aləmində də ünsiyyətin, qarşılıqlı anlaşmaların əhəmiyyətinin nə qədər zəruri və mühüm olduğu gerçəkliyini ortaya qoyur. Müasir dövr tələb edir ki, hər bir vətəndaş elm və texnikanın inkaşafını izləyib ondan bəhrənməklə yanaşı, elmi-texniki inkişafın yaratdığı problemləri də dərk edərək bunların həlli prosesində fəal iştirak etsin, dövlət və cəmiyyətin ümumi irəliləmə strategiyasını anlasın. Bu gün dünyada ən aparıcı elmi araşdırmalar hansı sahələri əhatə edir, bu araşdırmaların məqsədi nədir? Yaxud yaşadığı dövlətdə nə kimi elmi araşdırma və təcrübələr aparılır? Bu elmi-texniki nailiyyətlərin nə kimi fayda verdiyi və risklər daşıdığını bilmək önəmlidir. Məhz bu baxımdan alimlər, siyasətçilər və cəmiyyət arasında daimi qarşılıqlı əlaqəyə və sıx ünsiyyətə ehtiyac var.

Beynəlxalq aləmdə elmi kommunikasiya 2 istiqamətdə inkişaf etmişdir və aşağıdakı terminlərlə ifadə olunur:

1. Elmdə kommunikasiya (Science communication)
2. Elmi kommunikasiya (Scientific communication)

Hər iki termin Azərbaycan dilinə hərfən "elmi kommunikasiya" formasında tərcümə edilsə də bunlar arasında müəyyən fərqlər var. "Science communication" alimlər arasında elmi ideya və informasiyaların mübadiləsini nəzərdə tutan sosioloji istiqamətdir. ABŞ sosioloqu Qerbert Menzelə görə, kommunikasiyanın bu növü alimlər arasında elmi məlumatların ötürülməsinə birbaşa və dolayı yolla təsir edən nəşr, vasitə, hadisə və mexanizmlərin məcmusudur. Bu halda "science communication" termini "elmdə kommunikasiya", yaxud "daxili elmi kommunikasiya" kimi tərcümə edilməlidir.

Elmdə ünsiyyət təcrübəsi hələ antik dövrdən yaranmışdır. Pifaqor və onun məktəbi, Platon və Akademiyası və s. Qədim zamanlarda alimlər bilik əldə etmək üçün çoxlu səyahətlər edər, öyrənmək üçün dialoqlar qurar, uzun-uzun söhbət aparardılar. Bu zamanlar ünsiyyətin şifahi formaları daha çox populyar idi.

İlk universitetlər isə orta əsrlərdə yaranmağa başlayır. Bir-birinin ardınca 1088-ci ildə Bolonyada, 1109-da Kembricdə, 1160-da Parisdə, 1167-də Oksfordda ali

təhsil ocaqları açılır. Universitetlər təhsil verməklə yanaşı, tələbə, alim və müəllimlərin bir araya gəldiyi, müxtəlif fikir mübadiləsi apardığı, mübahisələr etdiyi bir məkana çevrilir ki, bu da öz növbəsində elmi yaradıcılığın davamlı və məhsuldarlığının təminatçısı olur. Universitetlərdə mühazirələrlə yanaşı, elmi diskussiyalarda iştirak etmək təhsilin mühüm və tələbolunan elementlərindən biri hesab edilir.

Akademik sahədə kommunikasiyanı təmin edən elmi diskussiyalar İntibah dövründə daha intensiv, məhsuldar xarakter alır. Bir çox məhşur alimlər bu müzakirələrdə iştirak edir, fikir və düşüncələrini bölüşür, kəskin mübahisələr edir, bir sözlə ünsiyyətdə olurdular. Daha çox şəxsi məktublar vasitəsilə həyata keçirilən bu ünsiyyət XIV əsrdə kitab nəşrinin meydana çıxması ilə yeni keyfiyyətlər qazanır. Artıq XVII əsrdə biliklərin bir araya toplanması və ötürülməsi sahəsində kitab əsas vasitəyə çevrilir. Qeyd etdiyimiz kimi, uzun zaman ziyalılar arasında elmi kommunikasiyanın əsas vasitələrindən biri kimi məktubdan istifadə edilmişdir. Alimlər məktublarında əldə etdikləri dəlil və arqumentləri, müəyyən faktları, xırda detallarına qədər təsvir edir, mülahizələrini əsaslandırırdılar. İntellekt sahibləri artlq anlayırdılar ki, yeni dünyada elm və texnologiya sahəsində müəyyən irəliləyiş əldə etmək üçün birlikdə hərəkət etməli, problemlərin həllinə müxtəlif baxış bucaqlarından baxmalı, bütün alternativ fikirləri dəyərləndirməlidirlər. Məhz bu ehtiyacdan XVII əsrdən başlayaraq alimləri bir araya gətirən qeyri-rəsmi təşkilatlar yaranmağa başladı. R.Boylun təşkil etdiyi "Görünməz kollec", P.Beylin yaratdığı "Məktublar respublikası", və nəhayət "Alimlər respublikası" belə birliklərdən idi. Bunların arasında "Alimlər respublikası" daha məhşur idi. Bekon, Paskal, Spinoza, Luk, Dekart, Qaliley, Nyuton kimi alimlər bu birliyin üzvü idilər (4. s.23) Avropa intellektuallarını birləşdirən "Alimlər respublikası"nın vətəndaşı olmaq üçün geniş dünyagörüşünə sahib, müxalif fikirlərə qarşı tolerant, elmi mübahisə etikasına malik olmaq kimi keyfiyyətlər tələb edilirdi.

XIX əsrdə ixtisaslaşmış elmi jurnalların nəşri akademik kommunikasiyada yeni mərhələnin əsasını qoydu. Şəxsi məktubların yerini alan elmi jurnallar mötəbər bilik mənbəyinə çevrildi. Eyna zamanda daha çox insana informasiya ötürən bu nəşrlər akademik kommunikasiyanın keyfiyyətini yüksəltməklə yanaşı, alimləri öz ətrafında sıx birləşdirməyə də nail oldu.

Müasir günümüzdə də alimlər arasında dialoq və ünsiyyət akademik kommunikasiyanın ayrılmaz tərkib hissələrindən biridir. Belə ki, elmi-texniki tərəqqi elmi araşdırma və kəşflərin sürətlə yayılmasına səbəb olmuş, informasiya texnologiyalarının inkişafı dünyanın hər bir tərəfi ilə anında ünsiyyətə girmək imkanı yaratmışdır (5. s.8).

"Scientific communication" isə elmi biliklərin alimlərdən cəmiyyətə ötürülməsini nəzərdə tutur və müvafiq olaraq "xarici elmi kommunikasiya" kimi adlandırılmalıdır. Bu sahələri hüquqi və fiziki şəxslər baxımından fərqləndirsək, birinci halda elm

xadimlərinin bir-biri ilə, ikinci də isə elm adamlarının cəmiyyətin müxtəlif təbəqələri ilə (şagird, tələbə, dövlət strukturları, media) ünsiyyəti nəzərdə tutulur.

Akademik kommunikasiya məzmun baxımından 2 böyük sahəyə ayrılır: tədris və tədqiqat. Bunlara akademik kommunikasiya prosesinin mərhələləri də demək mümkündür. Bu proses tədrislə başlayır. Hər bir kəs akademik kommunikativ münasibətlərə təhsil almağa başladığı zamandan qoşulur. İlkin təmelləri orta məktəbdə atılan elmi təfəkkür və dünyagörüşün sistemli şəkildə inkişafı universitet dövrünə təsadüf edir. Biz ali təhsil aldığımız zaman akademik elmlə tanış olur, gələcək həyatımızda elmin yerini müəyyənləşdiririk.

Tədris prosesində akademik kommunikasiya təhsilalan ilə təhsilverənlər arasında şifahi-yazılı formada reallaşan bilik və bacarıqların mübadiləsi, müzakirəsi, eyni zamanda qiymətləndirilməsi prosesidir (2. s.14).

Təhsilalanların hüquq və vəzifələri Azərbaycan Respublikasının Konstitusiyasına, Təhsil qanununa, digər normativ hüquq aktlarına, Azərbaycan Respublikasının imzaladığı beynəlxalq müqavilələrə uyğun müəyyən edilir. Bu qanunlar Azərbaycan vətəndaşlarına qanunvericilikdə nəzərdə tutululmuş qaydada təhsil müəssisələrinə qəbul olunmaq, təhsil müəssisəsini, təhsilin istiqamətini, ixtisasını dəyişmək, dövlət standartlarına uyğun keyfiyyətli təhsil almaq və s. yanaşı, elmi işlə məşğul olmaq hüququ da verir.

Prof. N.Məmmədli yazır ki, akademik kommunikasiya bakalaviatura və magistratura pillələrində mətnin elmi üslubda tərtibi, formalaşdırmaq qabiliyyətinin inkişaf etdirilməsi və bu sahədə bacarıqların formalaşdırılmasıdır. (3. s.174)

Mühazirələrin dinlənilməsi və qavranılması, akademik dərsliklərdə əks olunan elmi məlumatların mənimsənilməsi ilə başlanan kommunikasiya prosesi, daha sonra kurs işləri, referat, elmi məqalə, dissertasiya kimi daha mürəkkəb yazılı formaların hazırlanması ilə davam edir.

Qeyd etdiyimiz kimi, akademik kommunikasiyanın digər mərhələsi tədqiqatdır. Təhsil dövründə kiçik həcmlərdə aparılan tədqiqat işləri prosessional elmi fəaliyyətdə həcm, əhatə dairəsi, tədqiqat üsulları və s. baxımından xeyli mürəkkəb sistem xarakteri alır. İstənilən sahədə elmi tədqiqat işi aparmaq, ilk növbədə bilik bazası, analitik təhliletmə qabiliyyəti, dəqiq müşahidə, məntiqlə nəticə çıxarmaq və obyektivlik kimi keyfiyyətlər tələb edir.

Beləliklə, akademik kommunikasiya bir neçə istiqaməti özündə birləşdirən mürəkkəb informasiya mübadiləsi sistemidir. Daha dəqiq desək, akademik kommunikasiya həm elmi kəşf və nəzəriyyələrin, bilik və təcrübələrin mübadiləsini, eyni zamanda əldə olunan bilik və təcrübələrin ictimaiyyətlə paylaşmağı və ən mühümü isə bunların tədrisini özündə birləşdirir.

Akademik kommunikasiyanın bir elm sahəsi kimi yaranması isə XX əsrin sonlarına təsadüf edir. 1985-ci ildə ingilis genetiki Uolter Bodmer Kral Cəmiyyətinin iclasında “Public Understanding of Science” (Elmin cəmiyyət tərəfindən anlaşılması) adlı məruzə ilə çıxış edərək eyniadlı hərəkata start verdi. Məruzənin əsas tezisi ondan

ibarət idi ki, elmin cəmiyyət tərəfindən anlaşılması milli yüksəlişin əsasını təşkil edərək dövlət və özəl sektorlarda qəbul edilən qərarların keyfiyyətini artıra, bununla da hər bir insanın həyat rifahının yaxşılaşmasına səbəb ola bilər.

Müasir dünyada elm cəmiyyətin aparıcı gücü və gələcək rifahı üçün ən önəmli sahədir. Bütün dövlətlərdə elmi-texniki tərəqqi cəmiyyətin inkişaf strategiyasının əsas prinsiplərindən biridir. Elmi araşdırma və təcrübələrin aparılmasına maksimum münbit şəraitin yaradılması, bir çox hallarda dövlət tərəfindən maliyyələşməsi məhz bununla bağlıdır. Dünyanın ən aparıcı universitetlərinin, eyni zamanda elmi-tədqiqat institutları kimi fəaliyyət göstərməsi bir tərəfdən elm və təhsilin paralel inkişafını təmin edir, digər tərəfdən də istedadlı tələbələrin elmi fəaliyyətə cəlb edilməsi, elmi təcrübə və araşdırmalarda iştirak etməsinə şərait yaradır.

Elmi işlər deyərkən müəyyən araşdırmaların nəticələrini özündə əks elətdirən məqalə, tezis, dissertasiya, monoqrafiya, dərslik və s. nəzərdə tutulur. Tədqiqata cəlb edilən mövzu növ və həcmindən asılı olmayaraq elmi üslubda yazılmalıdır. Bütün elmi tədqiqatlar yeni biliklərin əldə olunması, tətbiq edilməsi və cəmiyyətə xidmət etməsi üçün aparılır. Lakin hər hansı bir elmi işin bütün cəmiyyət tərəfindən anlaşılması da mümkün deyil.

Elmi dil elmi idrak fəaliyyətinin maddi ifadəsinə xidmət edən xüsusi işarələr sistemidir. Bu dil müxtəlif elmi məlumatları almağa istəkli və dərk etməyə hazır olan insanlar üçün nəzərdə tutulub. Ümumiyyətlə, vahid "elmi dil", yəni "elmi dildə vahid yazma üsulu varmı?" sualının birmənalı cavabı belədir: nə qədər elm sahəsi varsa, bir o qədər də spesifik yazı üslubu var. (3. s178) Lakin elmin xarakter (təbiət , dəqiq, humanitar və s.) və janrından (məqalə, tezis, monoqrafiya və s.) asılı olmayaraq elmi üslubun bir sıra ümumi xüsusiyyətləri də vardır. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Müddəa, bəyan və ifadələrin öncədən ətraflı düşünülməsi;
2. İfadənin monoloji xarakteri;
3. Əsaslandırılmış faktlar;
4. Fikirlərin sistemli və məntiqi ardıcıllığı;
5. Mövzu ilə bağlı ədəbiyyatlara istinadların verilməsi;
6. Terminoloji leksikadan istifadə.

Hər hansı tədqiqata başlamaq üçün ilk olaraq problem-sual müəyyən edilməlidir. Başqa sözlə, tədqiqat mövzusu və tədqiqat problemi təyin edildikdən sonra tədqiqatçının cavablamaq istədiyi sual dəqiqləşdirilməlidir. Tədqiqatın məqsədi nə qədər aydın və birmənalı olarsa, araşdırma üsul və metodlarının seçilməsi də bir o qədər asan və uğurlu olacaq. Cavablanacaq sual bir növ araşdırmanın hədəflərini təyin edir. Tədqiqat prosesində hədəfdən yayınmamaq çox önəmlidir. Bəzən araşdırdığımız mövzu ilə bağlı o qədər çoxşaxəli informasiya alırıq ki, ilk qoyduğumuz hədəf unudulur, təqqiqatın istiqaməti fərqli yönə çevrilir. Bu, tamamilə yolverilməzdir. Xüsusən də elmi fəaliyyətin ilk dövrlərində daha konkret məsələlər ətrafında araşdırmalar aparmaq tövsiyə olunur (5. S.22). Mövzunu incələyərkən sizə

maraqlı gələn nüansları bir kənara qeyd edərək əsas hədəf ətraflnda çalışmaq lazımdır. Bundan əlavə, tədqiqata başlamaq üçün mövzu ilə bağlı müəyyən mühakimələrə də sahib olmalısınız. Bu mühakimələr məsələ ilə bağlı müşahidə etdiyiniz, sınaqdan keçirdiyiniz, sizə doğru və yanlış gələn məlumatlar, faktlardır.

Ümumiyyətlə, hər bir elmi araşdırmanın strukturunda sistem təşkil edən elementlər mövcuddur. Bu elementlər sırasında ən önəmli olanları aşağıdakı kimi sıralamaq olar:

Fakt – hipotez - nəzəriyyə

Düzgün elmi araşdırma aparmaq, biliklərdən məqsədəuyğun şəkildə istifadə etmək üçün bu elementlərdən hər birinin funksiyasını bilmək, fərqini anlamaq lazımdır.

Faktlar – empirik (təcrübədən əldə edilmiş) məlumatlar olaraq reallığın bir parçasıdır və elmin təməlini təşkil edir. Elmin inkişafı bir qayda olaraq köhnə nəzəriyyə çərçivəsində proqnozlaşdırılması və izahı olmayan yeni faktların ortaya çıxması hesabına mövcud nəzəriyyənin təkmilləşdirilməsi və dəyişdirilməsidir. Müşahidə və təcrübələrin elmi fakt hesab edilməsi üçün isə 2 şərt lazımdır:

1. təkrar müşahidə və təcrübələr;
2. sistemləşdirmə, təsnifat və ümumiləşdirmə kimi nəzəri təhlillər.

Hipotez – bir faktın, hadisənin və ya prosesin doğruluğu və yanlışlığı haqqında izahat vermək və ya nəticə çıxarmaq üçün irəli sürülən fərziyyədir. Hipotezin bir sıra xarakterik xüsusiyyətləri var:

1. Aktuallıq, başqa sözlə reallığı əks etdirmək. Hər bir hipotez müşahidə aparılaraq qeydə alınmış faktlara əsaslanmalıdır;
2. Empirik sınaq, müşahidə və təcrübələrdən keçərlilik;
3. Tədqiqatın əsasını təşkil edən elmi hədəflə uyğunluq;
4. İzahedici keyfiyyət. Hipotez izahedici xarakterdə olmalı, müəyyən qədər real fakt və gedişata açıqlama gətirə bilməlidir;
5. Hipotezlər ixtiyari və subyektiv xarakterdə olmamalıdır.

Araşdırmanın gedişində öncə ilkin hipotez formalaşdırılır. Daha sonra bu hipotez yoxlanılır, dəqiqləşdirilir, müəyyən əlavələr edilir, bəzən isə tamamilə dəyişdirilir. Hesab edilir ki, elmi tədqiqata bir hipotezlə davam etmək düzgün deyil. Ən azı 2 hipotezlə işləmək lazımdır. Əsas hipotez və onun əksi olan konturhipotez.

Nəzəriyyə - Elmi nəzəriyyələrin yaradılması tədqiqatın bütün obyekt və hadisələri haqqında müəyyən material toplandıqdan sonra baş verir. Buna görə də nəzəriyyələr hər hansı bir tədqiqatın yekun dövründə ortaya çıxır. (2. S.32) Bir sözlə, elmi nəzəriyyələrin yaranması uzun zaman və gərgin əmək tələb edən bir prosesdir. Nəzəriyyələr yarandıqdan sonra onun elmi cəmiyyət tərəfindən müzakirə edilərək qəbul olunması, tətbiq edilərək dəfələrlə sınanması da prosesin tərkib hissəsidir.

Elmi nəzəriyyələr fəaliyyət və təyinat xarakterinə görə bir sıra funksiyaları yerinə yetirir:

1.Təsviredici;

2.İzahedici;
3.Proqnozlaşdırıcı;
4.Metodoloji
Elmi nəzəriyyə müəyyən bir sahə, anlayışla bağlı əlaqə və qanunauyğunluqları bütövlükdə təqdim etməyə imkan verən ifadələr toplusu olmaqla mövcud biliklərin təşkilinin ən yüksək inkişaf etmiş formasıdır. Nəzəriyyə, ilk növbədə alınan bilikləri sistemləşdirməli, aydın ardıcıllıqla qurmalıdır. Bütün faktlar, prinsiplər, qanun və qanunauyğunluqlar inteqral biliklər sistemində təqdim edilməlidir. Bütün bunları elmi nəzəriyyənin təsviredici funksiyası yerinə yetirir.

Əldə olunan nəticələri, yeni formalaşdırılmış prinsipləri, eksperimental faktları, və s. əvvəl məlum olanlarla müqayisəli şəkildə analiz edərək təqdim etmək isə elmi nəzəriyyənin izahedici funksiyasına aiddir.

Üçüncü, proqnozlaşdırıcı funksiya ilk iki funksiya əsasında qurularaq gələcək haqqında təsəvvür yaratdığı üçün mühüm əhəmiyyət kəsb edir. Proqnozların düzgün hesablanması prioritetləri təyin edərək daha perspektiv sahələrə diqqət yetitmək imkanı yaradır.

Nəhayət, nəzəri prinsip və qanunauyğunluqlar əsasında elmi-tədqiqat fəaliyyətinin metod və üsulları formalaşır. Unutmaq lazım deyil ki, fundamental nəzəriyyələr tədqiqatçıların dünyagörüşünü, elmin metodologiyasını dəyişməklə bərabər, bəzən bütün dünyanı yenidən qurur.

ВАФА АБАСОВА

АКАДЕМИЧЕСКАЯ КОММУНИКАЦИЯ КАК НАУЧНОЕ ТВОРЧЕСТВО

Статья посвящена объяснению и описанию понятия академического общения. Изучаются научное общение, являющееся формами академического общения, и сфера деятельности общения в науке. Как известно, хотя оба термина дословно переводятся на азербайджанский язык в форме «научного общения», между ними есть определенные различия. «Научная коммуникация» изучается как социологическое направление, предполагающее обмен научными идеями и информацией между учеными. Обсуждается деятельность различных научных обществ, исторически сложившихся в Европе. Затем объясняются правила подготовки научных работ, научные приемы и приемы, являющиеся основным атрибутом академического общения. В нашу современную эпоху определяется роль науки в развитии общества и подчеркивается ее значение. Академическая коммуникация представляет собой сложную систему информационного обмена, включающую в себя несколько направлений, точнее, академическая коммуникация участвует в исследованиях как поле, включающее в себя как обмен научными открытиями и теориями, знаниями и

опытом, так и обмен приобретенными знаниями и опытом. опыт работы с публикой, а главное, их преподавание.

Затем объясняются правила подготовки научных работ, научные приемы и приемы, являющиеся основным атрибутом академического общения. В нашу современную эпоху определяется роль науки в развитии общества и подчеркивается ее значение. Научная теория представлена как наиболее развитая форма организации существующих знаний, совокупность утверждений, позволяющая представить связи и закономерности, относящиеся к определенной области, понятию в целом.

Ключевые слова: общение, академический, наука, метод, исследование, статья, общение, знание.

VAFA ABASOVA

ACADEMIC COMMUNICATION AS SCIENTIFIC CREATIVITY

SUMMARY

The article is devoted to the explanation and description of the concept of academic communication. Scientific communication, which is a form of academic communication, and the scope of communication in science are studied. As you know, although both terms are literally translated into Azerbaijani in the form of "scientific communication", there are certain differences between them. "Scientific communication" is studied as a sociological direction, involving the exchange of scientific ideas and information between scientists. The activities of various scientific societies that have historically developed in Europe are discussed. Then the rules for the preparation of scientific papers, scientific methods and techniques, which are the main attribute of academic communication, are explained. In our modern era, the role of science in the development of society is determined and its importance is emphasized. Academic communication is a complex system of information exchange that includes several directions, more precisely, academic communication is involved in research as a field that includes both the exchange of scientific discoveries and theories, knowledge and experiences, as well as the sharing of acquired knowledge and experiences with the public, and most importantly, their teaching. is done.

Then, the rules of preparation of scientific works, scientific methods and methods, which are the main attribute of academic communication, are explained. In our modern era, the role of science in the development of society is defined and its importance is emphasized. A scientific theory is presented as the most developed form of organization of existing knowledge, a set of statements that allows to present the relationships and regularities related to a certain field, concept as a whole.

Keywords: communication, academic, science, method, research, article, communication, knowledge.

Ədəbiyyat:

1.Cəfərov V. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Bakı, BDU, 2021;
2.Əliyev R. Elmi işlərin yerinə yetirilməsi metodikası. Bakı, 2016;
3.Məmmədov N. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Bakı, 2021;

Rus dilində:
4.Огурцов А. Основы научных исследований. Харков, 2008;
5.Владимирова Т. Язык и стиль научного текста. Томск 2010.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: professor Lalə Əlizadə
tərəfindən çapa tövsiyə olunmuşdur

LƏMAN MƏHƏRRƏM QIZI QASIMLI
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Universiteti,
Tərcümə və filologiya kafedrası,
baş müəllim
laman.gasimli@au.edu.az

"DAD" DUYĞUSUNUN FƏLSƏFİ VƏ LİNQVİSTİK SFERADA TƏHLİLİ

Xülasə

Duyğu şüurun ətraf aləmlə bilavasitə əlaqəsi olub, xarici qıcıq enerjisinin şüur faktına çevrilməsidir. Məlumdur ki, obyektiv aləmin dərk edilməsi prosesində insan hissi idrak səviyyəsindən mücərrəd təfəkkür səviyyəsinə qalxır ki, sonuncu da anlayış, mühakimə və əqli nəticələrin formalaşması ilə səciyyələnir. Birinci səviyyə mənimsəmə və ya qavrama, ikinci səviyyə isə dərketmə və ya anlama adlandırılır. Bunlar məşhur rus fizioloqu İ.P.Pavlovun birinci və ikinci siqnal sisteminə uyğun gəlir. İdrakın bu iki səviyyəsi qarşılıqlı əlaqəli şəkildə fəaliyyət göstərir.

İnsanın empirik duyğuları arasında xüsusi yeri olan dad duyğusudur ki, orqanizmin xarici qıcıqlardan müdafiə reaksiyalarında mühüm rol oynayır və insan üçün böyük emosional-psixoloji əhəmiyyətə malikdir. Dad duyğuları hissi idrak səviyyəsi və gerçəkliyin müəyyən zaman kəsiyi barədə biliklərimizin mənbəyi olaraq müxtəlif elmlərin – tibb, psixologiya, fiziologiya və s. – tədqiqat predmeti kimi çıxış edir. Bu da həmin elmlərin verdiyi məlumatların müvafiq dil hadisələrinin aydınlaşdırılması üçün linqvistik təhlil prosesində istifadə edilməsini nəzərdə tutur. Dildənxaric sferanın linqvistik təhlildə nəzərə alınması bir çox tədqiqatçılar tərəfindən qeyd edilmişdir.

Açar sözlər: perseptual, dad duyğusu, sifət, qavrayış, refleks, linqvistika

İnsanın ətraf aləmi qavraması və dərk etməsi fəlsəfənin əbədi problemləri sırasına aid məsələlərdən olub, kökləri etibarilə antik fəlsəfəyə gedib çıxır. Hələ o dövrdən filosoflar dərketmədə qavramanın roluna birmənalı şəkildə yanaşmırdılar. Sadəlövh antik dünyabaxışı üçün xarakterik cəhət ondan ibarət idi ki, o bütövlükdə hər cür dərketmə üçün ümumi əsas kimi hissi qavramanı qəbul edirdi və real gerçəkliyi dərk olunmuş gerçəklikdən fərqləndirmirdi. [8, s. 82; 7, s. 143-148]. Tədqiqatçıların fikrinə görə, antik yunan real şəkildə mövcud olandan öz təfəkkürünü fərqləndirmirdi, ümumiyyətlə, özünü təbiətdən ayırmırdı, mif, əsatir onun üçün bütöv, son və real mövcud olan idi. Dərketmə prosesində qavrama, duyğu, hissetmə məsələləri ümumən fəlsəfi məktəbin baxışlarından asılı olaraq bir-birindən ayrılmaz, sinkretik şəkildə işıqlandırılırdı. Məsələn, Platona görə, qavrama və ya qavrayış ideya haqqında ümumi təsəvvürdən doğur. İdeyanın özü obraz, nümunə, başlanğıc,

səbəb kimi bir sıra terminlərlə və ya antik mütəfəkkirin "mövcud olan və mövcud olmayan" adlandırdığı "hissi qavranılan" tərifi ilə təyin edilirdi. "İdeya – hissi qavranılan predmetlərin mahiyyəti və səbəbidir. İdeya yoxdursa, haqqında olan şey də yoxdur. ... insan ideyası yoxdursa, konkret adamlar (Platon, Sokrat) da yoxdur" [2, s. 144].

19-cu əsrin ortalarına qədər insan qavrayışının, idrakın və anlamanın təbiəti haqqında "sadəlövh" naturalist təsəvvür bütünlüklə filosofların ixtiyarında olan bir məsələ olaraq qalırdı, problemə elmi yanaşma mümkünlüyü isə bir sıra səbəblərdən inkar edilirdi ki, o səbəblərin ən ümdəsini dilin Allah tərəfindən bəxş edilməsi nəzəriyyəsi idi. Klassik fəlsəfə çərçivəsində qavrayış ağıl və hissin, ideya və duyğunun antitezası kimi nəzərdən keçirilirdi. Məsələn, C.Lokka görə, idrak və ya dərk etmə xarici təcrübə (duyğu) və daxili təcrübədən təşəkkül edir. Bütün ideyalar duyğulardan və reflekslərdən doğur, çünki fitri ideya və prinsiplər – istər nəzəri, istər praktiki, istərsə də mənəvi – yoxdur. Sadə ilkin ideyalar cisimlərin ilkin keyfiyyətləri ilə oxşardır və nümunələrin uzunluq, forma, hərəkət və s. kimi keyfiyyətləridir. Bunlardan başqa cisimlərin rəng, səs, iy, dad kimi ikincili subyektiv keyfiyyətləri də mövcuddur. Mürəkkəb və ümumi ideyalar sadə ideyalardan doğur. İdeya terminini C.Lokk geniş istifadə edir. Onun zamanında bu termin, müasir dövrdə "konsept" termini kimi, elmi dövriyyədə geniş yayılmışdı. "İdeya" dedikdə qismən anlayış və hissi təcrübənin məna elementi anlaşılırdı. Hissi təcrübə anlayış və qavramanı əlaqələndirirdi. Bu və ona oxşar terminlərin (məsələn, *persepsiya, perseptual, persept, konsepsiya, konsept* kimi) məna tutumundakı eyniliklərin sonradan rus dilinə edilmiş tərcümə variantlarındakı oxşarlıqları, eləcə də elmi ədəbiyyatda həmin terminlərin müvazi işlənməsinə diqqət çəkən tədqiqatçılar göstərirlər ki, belə müvazilik çox zaman qarışıqlığa, bəzən isə hətta dolaşıqlığa şərait yaratmışdır. Belə hal Azərbaycan dilçiliyi sahəsində də mövcuddur. Bir qədər sonra bu haqda məlumat verəcəyik. Burada duyğuların əhəmiyyəti haqqında C.Lokkun məşhur deyimini qeyd etmək lazım gəlir. O deyirdi ki, bizim bütün biliklərimiz duyğulardan əmələ gəlir.

XX yüzilliyin 70-ci illərində meydana çıxan koqnitiv psixologiya sahəsində, müasir psixoloji tədqiqatlarda insanın ətraf aləmi dərk etməsinin mexanizmlərini ortaya çıxarmaqda böyük işlər görüldü [2]. Hər şeydən əvvəl, bu tədqiqatlarda ətraf aləmin insan tərəfindən qavranılmasında, o cümlədən qavrama anlayışına bir sıra dəqiqləşdirmələr gətirildi. Qavrama təkcə insan beyninin inikas qabiliyyəti kimi deyil, həm də persepsiyanın bir hissəsi, yəni xarici mühitdən hissiyyat orqanlarına daxil olan və təsir edən informasiyanın işarəyə çevrilməsi kimi nəzərdən keçirilir. Perseptiv mexanizmlərə belə yanaşma hissi qavrama zonasını bir qədər də genişləndirir. Əgər qavrama və duyma indi, hal-hazırda yaşanan hissi təcrübəni təqdim edirsə, persepsiya ətrafımızda gözlə görülə və hiss edilə bilən məkan daxilində baş verənləri "anladır". Lakin təkcə işığı, iyi və ya dadı duymaqla qavrayış zamanı bizdə formalaşan daimi zəngin təcrübəni izah etmək olmaz. Qavradığımız hissi obrazların arxasında duran keçmiş təcrübə və bilik persepsiyanı şərtləndirir [3,

s. 12-14). Göründüyü kimi, müasir tədqiqatlarda qavrama və persepsiya terminlərinin semantik tutumu dəqiqləşdirilir, bir-birindən fərqləndirilir.

Yeri gəlmişkən B.N.Janturinanın öz tədqiqatında vurğuladığı bir məsələ diqqəti cəlb edir. Tədqiqatçı müasir elmi diskursda idrakın fəlsəfi və psixoloji məsələlərinin müzakirəsində, humanitar sahənin əhatə edən elmlərdə bir sıra terminlərin (məs., «восприятие» və «перцепция», «реальность» və «действительность», «понятие» və «концепт», «общение» və «коммуникация», «лингвистика», «языкознание» və «языковедение») paralel işlənməsinə diqqəti çəkərək, terminoloji paralelizm problemini ortaya qoyur. Terminoloji paralelizm rus dilinin daxili imkanları hesabına və yunan və ya latın dillərindən alınmış, çox zaman transliterasiya edilmiş sözlərdən yaradılmış və mənaca yaxın terminlərin mövcudluğu şəraitində müşahidə edilir [6, s. 13-15]. Eyni mənzərəni Azərbaycan dilçiliyində də müşahidə edirik. Azərbaycan elmi ədəbiyyatında "qavrayış" və "persepsiya", "reallıq" və "gerçəklik", "anlayış" və "konsept", "ünsiyyət" və "kommunikasiya", "linqvistika" və "dilçilik" və s. kimi terminlərin eyni vaxtda paralel işlənməsi göz önündədir. Bunlardan "anlayış" və "konsept" terminoloji paralelliyinin meydana çıxmasını xüsusilə qeyd etmək olar. Azərbaycanın da daxil olduğu keçmiş Sovetlər İttifaqında dilçilik ədəbiyyatında keçən əsrin 70-ci illərinin ortalarına qədər "işarə edilən" və ya "işarələnən" üçün ənənəvi olaraq "anlayış" (ruscsa: понятие) termini işlədilirdi [6, s. 383-384]. Paralel olaraq elmi fəlsəfi dildə "konsept" termini istifadə edilirdi. "Konsept" termininin yayılması və elmi dilçilik ədəbiyyatında kök salması, bir tərəfdən, R.Karnap, B.Rassel, U.Çeyf və s. kimi müəlliflərin fəlsəfə, semiotika və dilçiliyə dair ingilisdilli əsərlərinin keçmiş SSRİ-də dövlət dili stausunda olan və müttəfiq respublikaların dillərinə kifayət qədər təsir gücünə sahib rus dilinə tərcüməsindən sonra başladı. Digər tərəfdən, C.Lakoff, M.Conson, A.Vejbitskaya, R.Cakendoff, D.A.Kruz, R.Lanqaker kimi müəlliflərin əsərlərində koqnitiv dilçiliyin geniş şəkildə yayılması ilə əlaqədar "anlayış" termini ilə qismən, çox zaman isə tam sinonim kimi istifadə edilən "konsept" termini, demək olar ki, hər yerdə işlənməyə başladı. Bu prosesin gedişinə linqvistik semantika, koqnitologiya və ya koqnitivistika sahələri üzrə tədqiqat aparan müasir rus dilçilərinin əsərləri də öz töhvələrini verdi. Linqvokulturologiyaya aid əsərlərdə "konsept" termininə xüsusi terminoloji tutum verilir. Məsələn, Y.S.Stepanova görə, mədəniyyətin əsas qatını mənəvi mədəniyyət təşkil edir və o, konseptlər sistemi kimi təqdim olunur. Y.S.Stepanov onu anlayışlar sistemi adlandırır. O yazırdı: "Konsept – insanın mental dünyasında əsas mədəniyyət özəyidir". Anlayışlardan konseptlər onunla fərqlənir ki, onları insanlar təkcə "düşünmürlər", həm də yaşayırlar və bədii formada (poeziyada, rəssamlıqda, musiqidə) özünü göstərir. Konseptlərin, nəticə etibarilə bütövlükdə mənəvi mədəniyyətin əsas xüsusiyyətləri metamorfizm (dəyişkənlik) və bir-birini əvəz edə bilməkdir. Eyni xüsusiyyətlər dil hadisələrinə də xasdır. Metamorfizm konseptin və müvafiq korrelyatın təkamülü kimi təzahür edir. "Bir-birini əvəz edə bilmə" və ya "konseptual çoxal(dıl)ma" isə ondan ibarətdir ki,

eyni konsept müxtəlif mədəniyyət sistemlərində şərh oluna, "oxuna" bilər [7, s. 42-67].

Göstərilən sahələr üzrə yazılmış əsərlərdə hesab edilir ki, konsept yalnız mədəniyyətlə bağlı olan, məsələn dəyərlilik komponenti kimi önəmli kateqoriyaların izahında, aydınlaşdırılmasında istifadə edilir.

Aparılmış tədqiqatların nəzərdən keçirilməsi göstərir ki, duyğulara fəlsəfə, təbiət elmləri, psixologiya və digər elmlərin ümumi problemi kimi yanaşılmışdır. Duyğular haqqında ilk təlimlər fəlsəfi biliklər çərçivəsində olmuşdur. [2; 102; 167;]. Müasir fəlsəfi təlimlərdə duyğular hissi idrakın əsas forması hesab edilir. Duyğu predmetin ayrı-ayrı xassələrinin, xüsusiyyətlərinin, tərəflərinin inikacidır. Predmetlər isti və soyuq, tünd və açıq, hamar və kələ-kötür ola bilər. Onların bütün bu və ya bir çox başqa xassələri bizim hiss üzvlərimizə təsir göstərərək müəyyən duyğular yaradır. [2, s. 334].

İnsan duyğularının dərk olunmasının qanunauyğunluqları və mənbələri ilkin olaraq təbiət elmlərinin, astronomiya və fizikanın tərkibində öyrənilmişdir. XIX əsrin əvvəllərindən etibarən isə duyğuların elmi tədqiqi əsasən fizika, fiziologiya və psixologiyada olmuşdur.

Duyğu bir psixi proses olmaq etibarilə cisimlərin, hadisələrin bilavasitə duyğu üzvlərimizə təsiri zamanı yaranır. Duyğu üzvlərimizə təsir edən hər bir şey qıcıqlandırıcı adlanır. Qıcıqlandırıcıların yaratdığı oyanma hissi sinirlər vasitəsi ilə beyinə nəql olunur və nəticədə biz cisimlərin rəngini, dadını, ətrini, səsini, temperaturunu və s. keyfiyyətini hiss edirik.

Beləliklə də duyğular obyektiv reallığın hissi inikası olub, hal-hazırda hiss üzvlərimizə təsir edən cisim və hadisələrin ayrı-ayrı xassələrinin, əlamətlərinin beynində inikasından ibarət olan sadə psixi proses adlandırılır. Duyğuları xarakterizə edən əsas cəhət onun predmet və hadisələrin ayrı-ayrı əlamətlərinin inikasından ibarət olmacidır.

Duyğunun fizioloji əsasını kompleks anatomik strukturdan ibarət olan analizatorlar təşkil edir. Ona görə də, analizatorlar duyğu almaq üçün lazım olan anatomik fizioloji cihaz adlandırılır. Hər bir analizator üç hissədən ibarət olur: 1) periferik şöbə. Bu hissə reseptor adlanır. Reseptorun funksiyası xarici qıcığı qəbul etmək, xarici enerjini sinir prosesinə çevirməkdən ibarətdir; 2) ötürücü sinir lifləri. Bunlara mərkəzəqaçan və mərkəzdənqaçan sinirlər daxildir: 3) analizatorun beyin qabığı şöbəsi. Bunu analizatorun mərkəzi şöbəsi, nüvəsi də adlandırırlar. Bu şöbənin funksiyası perifernik şöbədən gələn impulsları təhlil etməkdən ibarətdir. Duyğunun əmələ gəlməsi üçün analizatorun bütün hissələrinin tamlığı, birlikdə fəaliyyət göstərməsi zəruridir. Həmin hissələrdən biri sıradan çıxarsa, duyğu alınmaz.

Duyğuların insanın həyatında əhəmiyyəti əvəzolunmazdır. Çünki duyğular, hər şeydən əvvəl, idrakın əsasını təşkil edir. Gerçək aləm haqqında ilkin məlumatı duyğular vasitəsilə əldə edirik. Duyğulardan kənarda heç bir idrak prosesi yoxdur.

Duyğular təkcə ətraf mühit, daxili mühitimiz, eyni zamanda bədənimiz haqqında biliklərimizin mənbəyi deyil, həm də öz hiss və emosiyalarımızın da mənbəyidir. Ətraf aləmin bütün təzahürlərini, rəngləri, səsləri, dadı və s. biz duyğular vasitəsilə əks etdiririk. Duyğu elə bir kanaldır ki, buradan ətraf aləmdə baş verən hadisə və proseslər, o cümlədən orqanizmin daxili vəziyyəti haqqında informasiyalar beyinə ötürülür və insanın ətraf aləmə bələd olmasına şərait yaradır. İnsan üçün ətraf aləm haqqında daima məlumat almaq zəruridir. Psixoloji mənada duyğular indiki anda hiss üzvlərimizə təsir edən cisim və hadisələrin ayrı-ayrı keyfiyyət və xassələrinin beyində inikası olan ən sadə psixi prosesdir. [2, s. 256-258]

Müasir psixologiyada duyğuların təsnifatı müxtəlif prinsiplər əsasında aparılır [2, s.261-265; 113]. Müasir fizioloji və psixoloji ədəbiyyatda reseptorların bilavasitə qıcıqlandırıcılarla təmasından asılı olaraq duyğuları kontakt və distant olmaqla iki növə - kontakt və distant duyğulara ayırırlar [2s.264]. Bizi maraqlandıran dadbilmə və ya dad duyğuları kontakt duyğulara aid edilir.

Dadbilmə duyğuları müxtəlif maddələrin suda, yaxud tüpürcəkdə həll olunması nəticəsində onların ağız boşluğunda dad reseptorlarına təsiri zamanı əmələ gəlir. Ağız boşluğunda dörd növ dad reseptorlarının yerləşdiyini tədqiqatçılar qeyd edirlər. Elə bu reseptorlar da dörd növ dad duyğusunun yaranmasına səbəb olur: şirinlik, acılıq, duzluluq, turşluluq duyğuları.

İnsanın fizioloji, psixoloji, məntiqi-qneseoloji əsaslara malik olan təsnifat-idraki fəaliyyəti nominativ (adlandırma) fəaliyyət kimi dildə inikas edərək linqvistik əsaslar qazanır. Bununla əlaqədar olaraq, təsnifat-idraki fəaliyyət prosesi və onun məhsulu, eləcə də nitq, dil yaratmanın məhsulu kimi nominativ fəaliyyətin öyrənilməsi aktual linqvistik məsələlərdən biri olaraq ortaya çıxır.

Mərkəzində insanın dayandığı dildənxaric gerçəkliyin qavranılıb dərk edilməsi, gerçəkliyin kateqoriyalar şəklində mənimsənilməsi proseslərinin və insanın onu əhatə edən ətraf aləmi hissetmə təcrübəsinin nitqə çevrilməsi, başqa sözlə verballaşdırması üsullarının aydınlaşdırılması müasir dilçiliyin aktual məsələlərindən hesab olunur. Xarici təsirlərdən müdafiə olunma sistemlərindən biri də dadbilmə hissi ilə bağlıdır. Dad hissinin qavranılması və dərk edilməsi ilə əlaqəli məsələlərin həllinə xeyli tədqiqatların həsr olunmasına baxmayaraq, onları həll olunmuş hesab etmək olmaz. Dad hissinin qavranılması, müasir terminologiya ilə desək, persepsiyası qeyri-müəyyən və yayğın xarakterlidir.

"Dad"ın bir anlayış kimi qavranılıb dərk edilməsi üçün onu fizioloji, psixoloji, koqnitiv, eləcə də linqvistik əsaslarına diqqət yetirmək lazım gəlir.

Fizioloji mənada dad xüsusi bir duyğu, hiss olub, dilin selikli qişasındakı dadbilmə üzvlərinə və ağız boşluğunun bəzi hissələrinə maddə və cisimlərin təsiri ilə əmələ gəlir. Fəaliyyəti nəticəsində dad hissinin əmələ gəldiyi dad apparatı, digər xüsusi hissiyyat orqanları kimi, aşağıdakılardan ibarətdir: 1) dad qıcıqlarının qəbul edilməsi üçün nəzərdə tutulan periferik sinir ucluqlarından və dad reseptorlarından 2) həmin dad qıcıqlarını baş beyinə ötürən hissetmə sinirlərdən, 3) baş beyin

yarımkürəciklərinin qabığında yerləşən mərkəzdən ki, burada dad apparatının periferik hissələrində əmələ gələn qıcıqlar spesifik dad duyğusuna çevrilir. Əksər fizioloqlar dörd əsas dad duyğusunun olduğunu qəbul edir. Bunlar *acı, şirin, duzlu və turş* duyğularıdır ki, həm öz aralarındakı, həm də iybilmə, toxunma və termik təsirlərlə müxtəlif kombinasiyalarda bütövlükdə dad bildirməni özündə ehtiva edir.

Dadbilmə duyğusunun qıcıqlandırıcıları orqanizm tərəfindən qəbul edilən qida maddələrinin kimyəvi xassəsidir. Bu mənada dad nəinki iylə əlaqədardır, həmçinin çox vaxt onunla ümumi inikas predmetinə malik olur. Əgər inikas predmetinə görə, yəni qida maddələrinin kimyəvi tərkibinə görə daha çox iybilmə ilə əlaqədardırsa, inikasın xüsusiyyətlərinə görə dəri duyğulan ilə, digər tərəfdən isə daxili duyğularla əlaqədardır.

Orqanizmin fəaliyyətində bəzən, dad duyğusu sahəsindən iybilməni istisna etdikdə, məsələn, zökəm olan vaxtı, müəyyən məhdudiyyətlərin olması hamıya bəllidir. Belə ki, vanil, qızardılmış mal əti, çaxır dadı, əslində, iybilmə hissinə aid edilir. İybilmə hissi korşaldıqda ən dadlı qida və içkilər belə insan üçün öz ləzzətini itirir. Digər tərəfdən, müxtəlif təmli maddələrin təsirini müşayiət edən toxunma duyğusu da dad hissinin elə xarakterik tərəflərini şərtləndirir ki, onlar *büzüşdürücü, büzücü, tünd, kəskin, yapışqan* və s. sözlərlə təyin edilir. Yaxud, məsələn, xardal, nanə və sairədən irəli gələn *yandırıcı* və *sərin* dad termik hisslərin qatışığı ilə izah olunur. Deyilənlərdən aydın olur ki, əgər iybilmə, toxunma və termik duyğuları xalis dad duyğusu sahəsindən xaric etdikdə, həmin sahədə məhdudiyyətin olması qaçılmazdır. Bu baxımdan xalis dad duyğularını da yalnız dörd əsas dadda birləşdirmək olar: *acı, şirin, duzlu və turş*. Onların qəbul edilməsi və ötürülməsi üçün dilin səthində qeyri-bərabər dərəcədə yerləşmiş dörd müxtəlif növ sinir lifinin olması lazımdır.

Dilin selikli qişasının müxtəlif sahələrinin həm eyni, həm də müxtəlif dad qıcıqlandırıcılarına həssaslığı cürbəcürdür. Məsələn dilin ucu şirinə, dilin ətrafı turşa, dilin kökü isə acıya daha həssasdır. Dad hissiyatı koqnitiv sistemin bir hissəsidir. Həmin sistemə iybilmə, toxunma da daxildir. İndi mövcud biokimyəvi və biofiziki mexanizmlərin heç biri dadın hiss edilməsini təfərrüatı ilə izah edə bilrmir. Müxtəlif dad və ya qastronomik maddələr müəyyən bir dad reseptorunu aktivləşdirə və oxşar perseptiv qıcıqlar yarada bilər. Müasir fizioloji və biokimyəvi izahlar arasında ən geniş yayılan modellərdən birinin əsaslandığı fərziyyə bundan ibarətdir ki, koqnitiv sistem üçün yalnız ən güclü dad qıcıqlandırıcıları mühüm əhəmiyyət daşıyır, yəni dad hissi dörd əsas güclü dadın (acı, duzlu, turş, şirin) və onların perseptiv keyfiyyətlərinin fərqləndirilməsi zamanı əmələ gəlir. Qərb mədəniyyətində əsas dad silsiləsinə "yumami" adlanan dad da daxil edilir (https://en.wikipedia.org/wiki/Umami). Bu, qlutamat natriumun dadıdır. Həmin dad digər bütün dadlara alternativ kimi təsnif olunur. Şirin dad və onun əsas daşıyıcısı olan şəkər qeyd olunan dad silsiləsində dominantdır. Belə fərz edilir ki, şirin dad digər dadların hamısından güclüdür, çünki onu əlavə etməklə istənilən dadı şirinə çevirmək mümkündür.

Genetik olaraq dad duyğusu, hissi idrakın digər formaları kimi, insanın əmək və ətraf aləmlə qarşılıqlı əlaqəsi şəraitində uzunmüddətli təkamülü prosesində formalaşmışdır. Dad xüsusiyyətlərinin insan tərəfindən dərk edilməsinin nəticələri özünün dildəki ifadəsini sifət kateqoriyasında, xüsusilə dad bildirən sifətlər qrupunda tapmışdır. Akad. V.V.Vinoqradov yazırdı: "Məlumdur ki, sifət nitq hissəsi duyğuların (görmə, eşitmə, dad, toxunma və s.) dildə ifadə edilməsinin əsas yolunu təşkil edir" [2,s.368]. Nominasiya nəzəriyyəsi baxımından dadın adlandırılması hissi sferalarının birində insanın təsnifat-idraki fəaliyyətinin nəticəsi olaraq başa düşülməlidir. Məntiqi-semiotik planda dad dildənxaric (qneseoloji) "dad" kateqoriyasının konkret dillərin sistem və strukturunun, bizim misalda, müasir Azərbaycan və ingilis dillərinin sistem və strukturunun mülkünə çevrilməsindən ibarətdir, çünki gerçəkliyin təfəkkür kateqoriyalarında inikasının nəticələri dil formalarında maddi ifadəsini tapır, müəyyən mənaları paylaşır və strukturdaxili sistem münasibətləri ilə xarakterizə olunur.

Məlumdur ki, sifət nitq hissəsinə aid sözlər dildə görmə, eşitmə, dad, lamisə və s. duyğu və hisslərin əsas ifadə yoludur. Quruluşundan asılı olmayaraq, sifətlərin, o cümlədən dad bildirən sifətlərin məna və məzmununun açılması, tərkibinin müəyyənləşdirilməsi, ekspressiv üslubi çalarlarının üzə çıxarılması dilin semantik sisteminin dərin qatlarına nüfuz etmək baxımından xüsusi önəm daşıyır. Dad bildirən sifətlərin bütöv bir mikrosistem kimi diqqətə alınmaması, dad bildirən sifətlərə sözün mənasının inkişafında əsas qanunauyğunluqları əks etdirən hadisə kimi nəzər yetirilməsinin zəruriliyi, gerçəklikdə real mövcud olan dad keyfiyyətinin əks etdirilməsində zəruri anlayışların ifadə edilməsi ilə bağlı bu söz kateqoriyasının işləkliyi, yayılma tezliyi, eləcə də əsas lüğət fonduna aid olması kimi məsələlər diqqət tələb edir.

Ədəbiyyat siyahısı:

1. Axundov A.A. Ümumi dilçilik. Dilçiliyin tarixi, nəzəriyyəsi və metodlar. Ali məktəb tələbələri üçün dərslik. Bakı: Şərq-Qərb, 2006, 280 s.
2. Bayramov Ə., Əlizadə Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı: Çinar-Çap nəşriyyat evi, 2002, 620 s.
3. Əliyeva N. İngilis dilində sifət. Oçerklər. Bakı: Elm və təhsil, 2010, 328 s.
4. Вердиева З.Н. Сравнительно-сопоставительное исследование семантической сочетаемости прилагательных в современном английском и азербайджанском языках: Автореф. дисс. ... док. филол. наук. Азербайдж. гос. ун-т им. С. М. Кирова. Баку: 1970, 45 с.
5. Виноградова В.С. Смысловая структура слова и семантическая группа в структуре семасиологического уровня: на примере качественных прилагательных немецкого языка. Автореф. дисс. … канд. филол. наук. М.,1971, 25 с.

6. Fries, Ch. The Structure of English: An introduction to the construction of English sentences / Ch. Fries. – London: Longmans, Green and Company, 1959. 304p.
7. Galperin İ.P. Stylistics. Moscow: Higher school, 1977, 332 p.
8. Gordon E.M., Krylova I.P. A Grammar of Present-day English (Parts of Speech), 2nd ed., M., 1980, 335 p.

Phd.Laman Maharram Gasimli

Investigation of Taste Adjectives in Philosophical and Linguistic Sphere

Summary

Key words: perceptual, sense of taste, adjective, perception, reflex, linguistics

A review of the conducted research shows that emotions have been treated as a general problem of philosophy, natural sciences, psychology and other sciences. The first teachings about emotions were within the framework of philosophical knowledge. In modern philosophical teachings, the feeling of emotions is considered the main form of cognition. Emotion is the perception of individual properties, features, aspects of the subject. All these or many other properties of them affect our sense organs and create certain emotions. Laws and sources of understanding human emotions were initially studied in natural sciences, astronomy and physics. Since the beginning of the 19th century, the scientific study of emotions has been mainly in physics, physiology and psychology. Regardless of their structure, clarification of the meaning and content of adjectives, including adjectives denoting taste, determining their composition, revealing their expressive stylistic nuances is of particular importance in terms of penetrating the deep layers of the semantic system of the language.

Ляман Гасымлы

Исследование вкусовых прилагательных в философско-лингвистической сфере

Резюме

Ключевые слова: перцептивное, чувство вкуса, прилагательное, перцепция, рефлекс, лингвистика.

Обзор проведенных исследований показывает, что эмоции рассматривались как общая проблема философии, естествознания, психологии и других наук. Первые учения об эмоциях находились в рамках философского знания. В современных философских учениях чувство эмоций считается основной формой познания. Эмоция – это восприятие отдельных свойств, особенностей, аспектов предмета. Все эти или многие другие их свойства воздействуют на наши органы чувств и вызывают определенные эмоции. Законы и источники понимания человеческих эмоций изначально изучались в

естествознании, астрономии и физике. С начала 19 века научное изучение эмоций велось в основном в физике, физиологии и психологии. Независимо от их структуры уточнение значения и содержания прилагательных, в том числе прилагательных, обозначающих вкус, определение их состава, выявление их экспрессивных стилистических оттенков имеет особое значение с точки зрения проникновения в глубокие слои семантической системы языка.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: filologiya elmləri doktoru, dosent Nərmin Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

SƏMRA ƏHMƏDOVA
BDU
Samra.orkhan@mail.com

DİLÇİLİKDƏ QASTRONOMİYA TERMİNİ

Açar sözlər: qlüttoniya, konsept, problematika, fəaliyyət, termin, diskurs
Ключевые слова: глюттономия, концепт, проблематика, деятельность, термин, дискурс
Keywords: gluttonomia, concept, problems, activity, term, discourse

Şüurun aksioloji fəaliyyəti prosesində olan insan ətrafdakı reallıq və ehtiyaclarını ödəmək üçün modellər haqqında öz fikirlərini formalaşdırır, bunun üzvi hissəsi, xüsusən də qida istehlakı ilə əlaqəli fəaliyyətlərdir. Nəticədə, insan insan varlığının bu sahəsinə xidmət edən dil namizədlərinin arsenalı ilə əlaqəli olan qastronomik üstünlüklər sistemini qurur. Buraya dad təqdimi, qlüttonomiya kateqoriyaları, eləcə də xalqın istehlak dünyası və trofik (bədənin qidalanması və həyatına nəzarət edən) mifologiyası haqqında etno-mədəni ideyaların idrak məkanına daxil olan kulinariya anlayışları daxildir.

Müasir elmi ədəbiyyat qastronomik diskursun və kulinariya terminologiyasının öyrənilməsinə nisbətən diqqət yetirir. Bu tip diskursa aktiv qnoseoloji münasibətə baxmayaraq, qastroproblematikanın inkişafı qeyri-kafi olaraq qalır və əlavə tədqiqatlar tələb edir.

Qastronomiya müxtəlif millətlərin nümayəndələrinin dini inanclarını, həyat tərzini əks etdirən xalqların mentalitetinin mühüm tərkib hissəsidir. Ona görə də dünyanın müxtəlif xalqlarının mətbəxinin bizdən fərqli olması təəccüblü deyil. Biz hesab edirik ki, qastronomiya dillə yanaşı, fərqli mədəniyyətə yiyələnmək üçün ən vacib vasitədir. Təəccüblü deyil ki, belə bir diskurs - qastronomik və ya qlütonik diskurs yaranıb.

Qastronomik diskurs institusional kommunikasiyanın janrı kimi öyrənilir, yəni o, kulinariya institutu çərçivəsində hərəkət edir. A.V.Olyaniç qastronomik diskursu qida ehtiyatlarının vəziyyəti, onların emalı və istehlakı səbəbi ilə bağlı xüsusi birləşmə növü kimi müəyyən edir [8].

Qastronomik diskursun məqsədləri kimi A.Y.Zemskova təcrübə və ya təlimin ötürülməsini, digər xalqların kulinariya mədəniyyəti və adət-ənənələri ilə tanışlığı, yemək üstünlüklərinin formalaşmasını vurğulayır [5]. P.P.Burkovanın isə məqsədlər kimi təlim (təcrübənin ötürülməsi), digər xalqların kulinariya mədəniyyəti və adət-ənənələri ilə tanışlığı önə çəkir [1, 11].

A.Y.Zemskova görə, qastronomik diskursun iştirakçıları: agent, yəni qlüttoniya sahəsində geniş təcrübəsi, bacarığı, biliyi olan şəxs və müştəri, yəni nəsə bişirmək niyyətində olan şəxs və ya ictimai iaşə obyektinin qonağıdır [5, 14].

Nəzərdən keçirilən əlamətlər əsasında bu müəlliflərin oxşar fikirlərə malik olduqlarını görürük. A.Y.Zemskova iştirakçılar kimi qastronomiya sahəsində böyük təcrübəyə malik agenti və nə isə bişirmək və ya iaşə obyektlərinə baş çəkmək niyyətində olan müştərini qeyd edir. Qastronomik diskursun məqsədlərinə gəlincə, burada müəlliflər A.Y.Zemskova və P.P.Burkova məqsədləri təcrübə və ya təlimin ötürülməsi, digər xalqların kulinariya mədəniyyəti və adət-ənənələri ilə tanışlığı, N.P.Qolovnitskaya qastronomik diskursun məqsədi kimi istehlakçının qidalanma ilə bağlı olan qida üstünlüklərinin və mədəni dominantlarının formalaşmasını təklif edir, belə ki, yaşamaq üçün ilk növbədə yemək lazımdır [1; 2; 5, 14].

Deməli, diskurs ünsiyyət aktıdır, nəticəsi şifahi və ya yazılı formada əlaqəli nitq əsəridir. Söhbətin tipologiyası müxtəlif əsaslarla qurula bilər. Diskurs növlərinin ən aydın təsnifatı, fikrimizcə, V.İ.Karasikin ayırdığı iki: şəxsi və institusional növləridir. İnstitusional ünsiyyət sistemində qastronomik diskurs fərqləndirilir, onun strukturuna aşağıdakılar daxildir: məqsəd, iştirakçılar, xronotop, dəyərlər, strategiyalar, mövzular, üslublar və janrlar, ünsiyyət materialı və diskursiv düsturlar [6, 5-20].

1) məqsəd: aclığın (susuzluğun) ödənilməsi, istehlakçının məhsul seçiminə yönəldilməsi, qastronomik üstünlüklərin formalaşması;

2) iştirakçılar: alıcı, müəssisənin ziyarətçisi, müəssisənin işçi heyəti, yeməyi hazırlayan şəxs;

3) vaxt: səhər yeməyi, nahar, günorta çayı, şam yeməyi və digər xarakterik yeməklər;

4) dəyərlər: yemək bişirmək və yemək;

5) ünsiyyət üslubları və janrı ünsiyyət şəraitindən və şərtlərindən asılıdır, qastronomik mətnlərin üslub və janrları isə müəlliflərin niyyətləri ilə müəyyən edilir.

Funksional təyinatlarına görə bir-birindən fərqlənən müxtəlif qastronomik diskurs janrlarını ayırd etmək olar: menyu, kulinariya təlimatları, reklamlar, məhsulların etiketləri, kulinariya televiziya şouları - bütün bunlar ümumi mövzu, xüsusi lüğət və linqvistik vasitələrlə birləşir.

Qastronomik diskurs televiziya şousu, youtube təlim kanalı, yemək kitabı, yemək təlimatı, restoranda söhbət və s. ilə təmsil oluna bilər. Bununla belə, müxtəlif mədəniyyətlərdə bu diskursun təzahürləri fərqli olacaq: məhsulların adları, yeməklər, yemək bişirilməsi və yeməyin qəbulu yerləri, xüsusi leksika. Ancaq qeyd etmək lazımdır ki, bu, bu tip diskursların milli-mədəni xüsusiyyətlərinin yeganə komponenti deyil. Yeməyə münasibət, xüsusi qastronomiya fəlsəfəsi bir etnik qrupun nümayəndəsini digərindən fərqləndirir.

Fransızlar qastronomiyanı incəsənət kateqoriyasına qaldırırlar; onların fikrincə, qastronomiya ətraf mühit, yaxşı yemək, xoş söhbət və tələskənliyin birləşməsi ilə

seçilir. Fransız qastronomiyasına aid olan hər şey fransızı başqa mədəniyyətin nümayəndəsindən fərqləndirən "qastronomik millətçilik" şousu yaradır.

Lüğətdə D.N. Uşakovun qastronomiyası 1) yeməkdə dad, kulinariya sənətinin incəliklərini başa düşmək, 2) qəlyanaltı yeməklərinin və ən bahalı qida məhsullarının ümumi təyinatıdır. S.İ.Ojeqovanın lüğətində qastronomiya - qida məhsulları, əsasən, yeməkxanalardır. V.İ.Dalın lüğətində qastronomiya aşpazlıq sənəti, yemək bişirmə bacarığıdır. M.Popovanın lüğəti göstərir ki, bu (qastronomiya – S.Ə.) ləzzətli yeməklər hazırlamağın ən yüksək sənəti və bilicilərin onları seçmək bacarığıdır. Digər xarici sözlərin lüğətlərində də müəlliflər qeyd edirlər ki, qastronomiya yemək bişirmə sənətidir [11].

Bu formulları təhlil etdikdən sonra belə bir nəticəyə gəldik ki, rus şüurunda qastronomiya və kulinariya anlayışları qarışıqdır, çünki yuxarıda göstərilən anlayışlar daha çox yemək bişirmə anlayışına - yemək hazırlamaq sənətinə uyğun gəlir.

Qastronomiyanın yuxarıdakı tərifləri kifayət deyil, çünki bu konsepsiyada elmi komponenti ayırmırlar, ona görə də xarici nəşrlərə müraciət etdik. Qastronomiya bir elm kimi ilk dəfə Qərbdə 19-cu əsrdə fransız tədqiqatçısı və tədqastronomu J.A.Brilya-Savarenin "Dadın fiziologiyası" əsəri əsasında yaranmışdır. Qastronomiyanın təsisçiləri olna fransızların dünyada ən yaxşı mətbəxə malik olduqlarını görmək olar. Bunu ilk fransız restoratoru Antoan Beviler "Kulinariya sənəti" adlı kitabında qeyd edir. L.Çiaro və L.Rossato "Qida və tərcümə, tərcümə və qida" adlı məqaləsində bu suala cavab tapa bilərik. Burada deyilir ki, qida mədəni kimliyin ürəyidir, bizim sağlamlığımız, rifahımız üçün, iqtisadi, həyatımızın mədəni və sosial sferası, bəs qastronomiya dilinin bununla necə əlaqəsi var? Qidaların insan həyatı sferasında kifayət qədər geniş yayılmasına baxmayaraq: yemək kitabları, televiziya şouları, jurnallar və tanınmış brendlər, qida, mədəniyyət və tərcümə arasında xüsusi əlaqə var.

Qidaya maraq xüsusilə son iki onillikdə Qərbdən gəldi, burada böyük mətbəxlər, laboratoriyalar, fabriklər yaradılmağa başladı və bununla da qastronomiya aləminə elm pəncərəsi açıldı. Dilçilik yemək mədəni konsepti və onun tərcüməsi arasındakı əlaqəni araşdırmağa başladı. Tərcümə aktını yeməyin hazırlanması prosesi ilə müqayisə etmək olar: həm tərcüməçi, həm də kulinariya mütəxəssisi öz yeməyinin orijinal "reseptini" bilməli, sözlərdən "inqrediyentləri" tapmalı və "yeməyi" oxucu üçün əlçatan edəcək müəyyən strategiyalara əməl etmək lazımdır.

Dünyanın təsviri anlayışı fiziklər tərəfindən fizika elmində formalaşan və təbiətdə mövcud olan qanunauyğunluqların əksi olan "dünya obrazını" müəyyən etmək üçün təqdim edilmişdir. Dünyanın fiziki mənzərəsindən sonra onun hansı bilik sahəsinin nümayəndəsindən asılı olaraq dünyanın kimyəvi, bioloji, iqtisadi, demoqrafik, pedaqoji, linqvistik, estetik, mədəni, texniki və digər şəkillərinin təsvirləri yaranmağa başladı. Onun tərifərinə nəzər salaq.

S.Q.Ter-Minasova dili ətraf aləmin güzgüsü ilə müqayisə edir, çünki o, reallığı əks etdirir, hər bir dil və müvafiq olaraq bu dildən ünsiyyət vasitəsi kimi istifadə

edən insanlar üçün özünəməxsus və nadir dünyanın öz mənzərəsini yaradır. Dünyanın linqvistik mənzərəsi mədəni (konseptual) mənzərənin bir hissəsidir, lakin linqvistik mənzərə mədənidən daha zəifdir, çünki sonuncunun yaradılmasında linqvistik ilə yanaşı, digər psixi fəaliyyət növləri də iştirak edir, bu da həm də əlamətin həmişə qeyri-dəqiq olması və hər hansı bir xüsusiyyətə, interpenetrasiyaya, qarşılıqlı əlaqəyə və qarşılıqlı təsirə əsaslanması ilə əlaqədardır [9, 37]. V.fon Humboldt hesab edir ki, dil və təfəkkür millidir, yəni müxtəlif dillər müxtəlif dünyagörüşlərini əks etdirir [3].

Biz hesab edirik ki, dünyanın qlüttonik mənzərəsi dünyanın mədəni mənzərəsinin tərkib hissələrindən biri hesab edilə bilər. Dünyanın qastronomik mənzərəsi qida məhsullarının adına təsir edən "qastronomik asılılığın konseptual modeli" kimi başa düşülür [4].

Dünyanın qastronomik mənzərəsi insanın yeməyə münasibətinin xüsusiyyətlərini, həyatının xüsusiyyətlərini təcəssüm etdirir. Dünyanın qastronomik mənzərəsinin formalaşmasına kömək edən aşağıdakı amilləri ayırd edə bilərik:

1) yemək haqqında mifoloji fikirlər;

2) qidalanma dünyasına baxışları formalaşdıran, qadağalar və icazələr qoyan dini ilkin şərtlər;

3) coğrafi məlumatlar;

4) ərazi yeri.

Nəticə etibarilə qeyd etmək lazımdır ki, qastronomiyanın dərin kökləri var. Bəşəriyyətdə baş verən bütün dəyişikliklər qidalanmada da öz əksini tapdı: süfrə ənənələri, yemək bişirmə və yemək.

Ölkənin coğrafiyası, iqlimi, tarixi - bütün bu amillər yeməklərin və məhsulların adlarında öz əksini tapır.

Təhlil nəticəsində məlum olur ki, dünyanın qastronomik mənzərəsi dünyanın dil və mədəniyyət mənzərələri ilə sıx bağlıdır. Dünyanın qastronomik mənzərəsi müxtəlif xalqların nümayəndələrinin qastronomik üstünlüklərini müəyyən edir ki, bu da qida məhsullarının, xörəklərin nominasiyasında, qastronomik frazeologiyaların istifadəsində özünü göstərir.

Ədəbiyyat:

1. Буркова П.П. Кулинарный рецепт как особый тип текста: автореф. дис. ... канд. филол. наук: 10.09.19. / П.П. Буркова. – Ставрополь, 2004. – 29 с.

2. Гребёнкина, И.Н. Универсальные и уникальные стереотипы французской и русской культур (на материале русских и французских фразеологизмов с гастрономическими терминами)/И.Н. Гребёнкина// Вестник ТГПУ – Томск, 2013. - №10 – с.8-12.

3. Гумбольдт В.фон. Избранные труды по языкознанию / В.фон Гумбольдт М., 1984.

4. Ермакова, Л.Р. Глюттонические прагматонимы и национальный характер / Ермакова Лариса Робертовна. – Белгород, 2011. – 236 с.

5. Земскова, А.Ю. Лингвосемиотические характеристики англоязычного гастрономического дискурса / Земскова Анастасия Юрьевна. – Волгоград, 2009. – 338 с.

6. Карасик, В. И. О типах дискурса / В. И. Карасик // Языковая личность: институциональный и персональный дискурс: сб. научн. тр. Волгоград: Перемена, 2000. – с. 5-20.

7. Ожегов С. И., Н. Ю. Шведова. Толковый словарь русского языка. 22-е изд, 1990. 921 с.

8. Олянич, А.В. Гастрономический дискурс в системе массовой коммуникации (семантико-семиотические характеристики)/ А.В. Олянич // Массовая культура на рубеже XX-XXI веков. Человек и дискурс. – Москва 2003. – с. 167-200.

9. Тер-Минасова, С.Г. Язык и межкультурная коммуникация / С.Г. Тер-Минасова. – М.: Высшая школа, 2000. – 259 с.

10. Ушаков Д.Н. Толковый словарь русского языка. М.: Гос. Ит. "Сов. энц.; ОГИЗ; Гос. изд-во иностр. и нац. Слов. 1935. - 1562 с.

11. Чудинов А.Н. Словарь иностранных слов. СПб.: Издание В.И. Губенского,1910. 989 с.

Ахмедова Самра

Термин гастрономия в лингвистике

Резюме

Способы приготовления пищи и ритуалы ее потребления складывались на протяжении многих веков и привели к созданию национальных кухонь, являющихся неотъемлемой частью всякой национальной культуры. Одна из самых популярных сфер потребления – это гастрономия. Показано, что гастрономический дискурс и кулинарная терминология любой нации обладает значительным лингвокультурным потенциалом номинативных свойств. Почти образцовым материалом для исследования лингвокультурных признаков терминологии выступает безэквивалентная лексика. Рассмотрены национального кулинарного мировоззрения, которое объединяет в себе языковую картину мира. Центральным элементом формирования концептуальной картины мира выступает метафорический механизм номинации. На первое место выдвигается важность гастрономического коммуникативного события. Подчёркивается важность кулинарной автохтонной компетенции реципиента текста. Делаются выводы о том, что процессы потребления всё чаще рассматриваются как феномен дискурса – текст. Текст и дискурс выступают базовой средой для формирования глюттонического мировоззрения и коммуникации. Утверждается, что все

уровни языковой и дискурсной организации в рамках глюттонической тематики обладают релевантным семиотическим потенциалом.

Дискурсивная практика позволяет употреблять все три наименования, которые не противоречат друг другу. Важно отметить особый характер кулинарного-гастрономического-глюттонического дискурса с точки зрения говорящего, пишущего, так как здесь сочетаются черты как бытового персонального дискурса, так и социального институционального.

Ahmedova Samra

The term of gastronomy in linguistics

Summary

Ways of cooking and rituals of its consumption evolved over many centuries and led to the creation of national cuisines, which are an integral part of any national culture. One of the most popular areas of consumption is gastronomy. In the article it is shown that the gastronomic discourse and culinary terminology of any nation has a significant linguistic and cultural potential of nominative properties. Almost exemplary material for the study of linguocultural features of terminology is non-equivalent vocabulary. The national culinary worldview, which combines the linguistic picture of the world, is considered. The metaphorical mechanism of nomination is the central element in the formation of a conceptual picture of the world. The importance of a gastronomic communicative event is put forward in the first place. The importance of the culinary autochthonous competence of the recipient of the text is emphasized. Conclusions are drawn that the processes of consumption are increasingly considered as a phenomenon of discourse - text. Text and discourse are the basic environment for the formation of a gluttonic worldview and communication. It is argued that all levels of linguistic and discourse organization within the framework of gluttonic themes have a relevant semiotic potential.

Discursive practice allows the use of all three names that do not contradict each other. It is important to note the special nature of the culinary-gastronomic-gluttonic discourse from the point of view of the speaker, writer, since it combines the features of both everyday personal discourse and social institutional discourse.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: f.e.d., prof. Ə.Rəcəbli
tərəfindən çapa tövsiyə olunmuşdur

SEVDA RÜSTƏM QIZI XƏLILOVA
ADPU
Koroğlu Rəhimov, 108
Sevda_azturk@hotmail.com

BƏDİİ DİSKURSDA ÜSLUB GÖSTƏRİCİLƏRİNİN TƏYİNİ MƏSƏLƏSİ

XÜLASƏ

Məqalədə bədii nitqdə işlənmiş linqvistik vasitələr əsasında fərdi üslubu müəyyən edə bilən markerlərin müəyyənləşdirilməsi məsələsindən bəhs edilir. Bədii mətnin müəllifinin yazı tərzi onun bəzi sözlərinin təkrar işlədilməsi, cümlənin müəyyən mövqeyində yerləşdirilməsi, antonimlərin, sinonimlərin, omonimlərin, polisemantiklərin məhsuldar istifadəsi baxımından seçilə bilər. sözlər, müəyyən üslub fiqurları. Müəllifin müxtəlif əsərlərində bu cür seçimlər göründükdə, onlar üslub göstəriciləri və ya üslub göstəriciləri kimi qəbul edilir.

Dilin müxtəlif funksional üslublarında lüğət vahidlərinin diferensiasiyası mümkündür. Bəzi üslubların leksik sistemində çox işlənən sözlər qeydə alınır. Müəllif sözlərlə işləyir. Ümumişlək leksik qatın sözlərindən hər bir müəllif özünəməxsus şəkildə istifadə edir. Bir sözü bir müəllif çox işlədirsə, başqa bir müəllif az işlədir. Təsadüfi deyil ki, hazırda dilçilikdə ayrı-ayrı müəlliflərin dilinin tezlik lüğətləri tərtib olunur.

Açar sözlər: üsiub, üslubi göstərici, diskurs, mətn, bədii diskurs

Mətn leksik vahidlərin məntiqi və qrammatik zəmində birləşmiş, təşkil olunmuş, əsas məqsədi informasiyanı ötürmək olan əlaqəli kompleksidir. Lakin bu kompleks hansı informasiyanın kimə ötürülməsi cəhətindən də fərqli xüsusiyyətlərə malikdir. Bədii mətn informasiyanın oxucuya ötürülməsi üşün yaradılmış mətndir.

Üslubiyyat fərdi və janr üslublarını, ünsiyyət prosesində istifadə olunan müxtəlif dil vasitələrinin ekspressiv-emosional qiymətləndirmə xüsusiyyətlərini həm paradiqmatik, həm də sintaqmatik planda öyrənir. Üslub mətn kimi formalaşmış dil materialının fərqlənən növlərini əhatə edir. Mətnin fərqləndirilməsində iki vacib amil vardır. Bunlardan biri ekstralinqvistikdir və mətnin müəllifi ilə bağlıdır. Bu halda müəllif üslubu fərqləndirilir. Məsələn, Elçinin üslubu, Anarın üslubu, Kamal Abdullanın üslubu, Çingiz Aytmatovun üslubu, Nodar Dumbadzenin üslubu və s. Sadalamadan aydın görünür ki, hər bir yazıçı və şairin fərdi üslubu vardır. Fərdi üslub müəllifin yazı manerasını əsasən müəyyənləşdirilir. Burada hadisənin nəql edilməsinə başlamaq, hadisələrin ardıcıllığını vermək, surətləri açmaq və s. ön plana keçir. Üslubiyyatı - «yazı manerası» və «danışıq manerası»nı öyrənən sahə

adlandırırlar. Hər bir üslub özünəməxsus lüğət tərkibi, frazeologiyası, digər ifadə vasitələri olan bir yarımsistem təşkil edir [1, s.455-456]. Şübhəsiz ki, bu yarımsistemdə istifadə olunan sözlərin, frazeoloji vahidlərin, xüsusən atalar sözlərinin istifadə olunmasında fərdi üslub özünəməxsus rol oynayır.

Üslubların başqa meyar üzrə təsnifi onların sahələrə aidliyini nəzərdə tutur. Məsələn, elmi üslub, rəsmi üslub, bədii üslub və s. Bu üslublarda fərqləndirici xüsusiyyətlər və ya üsluba ayırma meyarları başqadır. Deyək ki, elmi üslubda sahə terminologiyasının vahidləri işləkliyi ilə seçilir. Rəsmi üslubda qəbul edilmiş şablonlar, klişelər aparıcı rol oynayır. Bədii üslubda üslubi fiqurlar əsas yeri tutur. Bütün deyilənlərə baxmayaraq, müasir linqvistika hələ ki, üslublara ayırmanın elementləri dairəsini tam təyin edə bilməmişdir. Yəni mətnin hansı fərdi üsluba, hansı janra aidliyini müəyyənləşdirmək üçün müəyyən vahidlər, elementlər, ünsürlər üzrə araşdırmalar aparmağın ümumi prinsipləri təyin olunmamışdır.

Mətnin məqsədindən asılı olaraq onun dili və bu dili təşkil edən vahidləri, onların birləşmə, düzülmə, səslənmə xüsusiyyətləri dəyişir. Üslubi təhlil öz mahiyyətinə görə məlumatları, mətnləri bir-birindən fərqləndirən əlamətləri, kriteriyaları əhatə etməlidir. Üslubla bağlı tədqiqat iki istiqamətdə aparıla bilər. Birinci halda məlum müəllifin yaradıcılığı üzrə ona xas olan mətn vahidləri, üslub elementləri və s. müəyyənləşdirilir. İkinci istiqamət kimə aidliyi məlum olmayan mətnin müəllifini müəyyənləşdirmək məsələsi qoyulur. Şübhəsiz, ikinci istiqamətdə araşdırmalar daha əhəmiyyətli və vacibdir [2, s. 84].

Dilin müxtəlif funksional üslublarında lüğət vahidlərinin diferensiasiyası mümkündür. Bəzi üslubların leksik sistemində çox işlənən sözlər qeydə alınır. Müəllif sözlərlə işləyir. Ümumişlək leksik qatın sözlərindən hər bir müəllif özünəməxsus şəkildə istifadə edir. Bir sözü bir müəllif çox işlədirsə, başqa bir müəllif az işlədir. Təsadüfi deyil ki, hazırda dilçilikdə ayrı-ayrı müəlliflərin dilinin tezlik lüğətləri tərtib olunur.

Funksional və fərdi üslublara ayırma bütövlükdə lüğət tərkibinin vahidlərini həmin üslublara görə müəyyən səviyyədə qruplaşdırmağa imkan yaradır. Dilin lüğət tərkibinə daxil olan sözləri üslubla bağlı olaraq ümumi şəkildə iki yerə ayırmaq olar: 1) üslubu relevant leksika; 2) üslubu irrelevant leksika [3, s.69]. Üslubun təyini üçün əhəmiyyətli sayıla biləcək leksika onların müəyyən leksik qatlara (termin, ümumişlək söz və s.) aid olmasını nəzərdə tutur. Fərdi üslub üçün bu qatlar irrelevantdır. Fərdi üsluba dair tədqiqatda markerləmə müəyyən sözlərin çox və ya az işlənmə ilə əlaqədar olacaqdır. Lakin çox və ya az işlənmənin özünün dəqiq sərhədi qeyri-müəyyəndir. Həm də müəllif bir əsərində bəzi sözləri çox, başqa əsərində isə az istifadə edə bilər.

Dildəki sözlər təkmənalı və çoxmənalı olur. Çoxmənalı sözün bütün mənaları ümumi semantik əsasa söykənir. Bu mənalar bir leksemin ətrafında cəmləşir, ona aid olur. Bədii dildə çoxmənalı sözlərin işlənməsində üslubdan irəli gələn cəhət vardır. Bu cəhət həm linqvistik, həm də ekstralinqvistik amillə bağlıdır. Deməli, çoxmənalı

sözlər bədii dildə üslubi marker rolunu oynaya bilər. Bu fikir hələlik fərziyyə səviyyəsində irəli sürülür. Onun yoxlanması üçün üslubu markerin təyini kriteriyasını müəyyənləşdirmək və həmin kriteriya əsasında tədqiqat aparmaq tələb olunur. Bəzi tədqiqatçılar bədii əsərdə qəhrəmanın müəyyən qiymətləndirmə sifətlərindən istifadə etməsini üslubi marker kimi fərqləndirirlər. Eyni zamanda antonimlərin işləkliyi də üslubi marker rolunu oynaya bilər [4, s.18].

Mətn leksik, məntiqi və qrammatik əlaqələrlə birləşmiş, müəyyən şəkildə təşkil olunmuş və informasiyanı ötürməyə xidmət göstərən tamdır. Bu tam cümlələrin ardıcıl düzülüşündan yaranır. Üslubu fiqur olan təkrar dilin bütün səviyyələrində - fonetik, leksik və qrammatik səviyyələrdə işlənir. Təkrarlar müxtəlif meyarlar əsasında təsnif olunur. Belə meyarlardan biri cümlə daxilində və ya cümlədən böyük vahid daxilində təkrarı əhatə edir. Fərdi üslub üçün eyni cümlənin təkrarı əhəmiyyətli amildir. Müəllifin çox işlətdiyi sözlər olduğu kimi, çox işlətdiyi ifadələr, söz birləşmələri və cümlələr də mümkündür. Əgər sözün bir mətndə müəyyən sayda təkrarlanması az informativliyə malikdirsə, söz birləşməsi, cümlə və hazır qəlibin çox işlənməsi informativliyi artırır. Səviyyə mürəkkəbləşdikcə informativlik də artır, yəni eyni cümlənin təkrarı üslubu marker kimi daha diqqəti cəlb edəndir.

Yazıçı Elçinin əsərlərində təkrarları təhlilə cəlb edərək üslubu marker funksiyasını yerinə yetirən müəyyən əlamətləri aşkara çıxarmaq olur. Bunlardan biri də antonim cütləri birləşdirməkdir. "***Və elə bil ki****, uçub bu tərəflərə gəlmiş bu cüllüt də boş sahildə tək-tənha qalıb bir ins-cins üçün darıxmışdı* ***və sahil boyu*** *qaçan Dolça gəlib ona çathaçatda cüllüt qanad açıb dənizə tərəf uçurdu, bu göylukdə, bu mavilikdə, yarımdairə vurub yenə sahilə qonurdu, nəm qumun üstündə hərəkətsiz dayanıb* ***elə bil ki****, Dolçanın qaça-qaça gəlib çatmasını gözləyirdi və* ***elə ki****, Dolça yaxınlaşırdı, təzədən havaya qalxıb yarımdairə vurub iyirmi-otuz addım qabaqda sahilə qonurdu* ***və bu minval ilə*** *Dolça çimərliyin boş çətirlərini, bütün görkəmləri ilə adam, uşaq həsrətində olan alıcısız-satıcısız, səssiz-səmirsiz, iysiz-ətirsiz qutab köşklərini ötüb keçdi, yelləncəklər tərəfdə cüllütlə siçan-pişik oyununu qurtarıb dövrə vurdu, bu dəfə də yuxarı tərəflə qaça-qaça qayalığa tərəf gəldi*» [Elçin].

Kontekstin tərkibində bir sıra cümlələr vardır. Birinci cümlə «Və elə bil ki, uçub bu tərəflərə gəlmiş bu cüllüt də boş sahildə tək-tənha qalıb bir *ins-cins* üçün darıxmışdı» cümləsidir. Lakin burada cümlə bitmir, növbəti cümlə **və** tabesizlik bağlayıcısı ilə ona bağlanır. 111 sözdən ibarət olan yuxarıdakı kontekst cəmi bir mürəkkəb cümlə şəklində qələmə alınmışdır. Bir əsərdən götürülmüş bu nümunədə bir-birinə oxşar, bir-birinin tam və bəzən də formaca təkrarı olan birləşmələr çoxdur. Qeyd edilən cəhət eyni yazı manerasını təsdiqləmə vasitəsi olaraq diqqəti cəlb edir, üslubu marker funksiyasını yerinə yetirir. Elçinin əsərlərində üslubu marker rolunda çıxış edə biləcək başqa bir element əsərdə cümlələrin antroponimlərlə başlanmasının daha çox istifadə olunmasıdır.

Nəqledən referenti adlandırmaq üçün müəyyən dil vasitəsindən və ya bu vasitələrin toplusundan istifadə edir. İnformasiyanı ötürən hər dəfə referenti qeyd

edərkən referensial seçmə aparır. Referensial seçmə zamanı adresatın referenti qavraması əsas götürülür. Poetik mətnlərdə eyni mövqelərdə işlədilən eyni formaların çox təsadüf olunduğu məlumdur.

Ümumiyyətlə, üslubu markerlər distributiv təhlil yolu ilə də müəyyənləşdirilə bilər. Bu metodla təhlil müəyyən leksik vahidlərin və ya xüsusi adların hansı ətrafda işlədilməsində müəyyən qanunauyğunluqları açmağa kömək edir. Bu da mətndə yeni üslubu markerlərin aşkara çıxarılmasında əhəmiyyətli rol oynayır.

Beləliklə, aydın olur ki, mətnin müxtəlif vahidlər əsasında təhlili, seçilmiş vahidlərin, konstruksiyaların işlənmə tezlikləri üslubu markerlərin təyin olunmasının bir vasitəsidir. Üslubu relevant elementlərin tam dairəsini, təbii ki, müəyyənləşdirmək çətindir. Lakin üslubu marker kimi təhlilə cəlb edilə biləcək vasitələri aşkara çıxarmaq müxtəlif müəlliflərin əsərləri əsasında aparılan təhlillər üzrə mümkündür. Mətndə istifadə olunan müxtəlif səviyyəyə aid dil vahidləri mətnin üslubu keyfiyyətlərini formalaşdırır. Onlar həm mətnin ayrı-ayrı hissəsinin əlaqələndirilməsi vasitəsi rolunda çıxış edir, həm də mətnin müəyyən üslubu markerlərini təşkil edir. Aydındır ki, mətndə fərqli üslubu markerlər ola bilər. Bu cəhət üslubu markerləri yalnız leksik səviyyə elementləri arasında deyil, sintaktik konstruksiyalar, habelə mətnin cümlədən böyük vahidi daxilində axtarmağı aktuallaşdırır.

Sinonimlik, omonimlik və antonimlik semantik kateqoriya kimi, leksikologiyada sözlərin semantik qruplara bölünməsi zamanı təyin edilir. Antonimlərldə mənaya, omonimlərdə isə məna və formaya görə müqayisə əsas götürülür. Omonimlərin təyini zamanı formanın (eyni səs cildinin) nəzərə alınmasının vaciblidir. Forma eyniliyi, mənanın kateqorial fərqliliyindən istifadə olunur. Eyni səs tərkibinə malik olmayıb yaxın məna və ya məna çalarları ilə fərqlənən sözlər sinonim adlandırılmışdır. Əslində tərifdə «müxtəlif səs cildi»nə maliklik əlaməti izafi sayıla bilər. Yəni sinonimlər məna çaları ilə fərqlənən sözlərdir. Doğrudur, əlavə əlamət, yəni fərqli səs cildi həm də polisemiya ilə sinonimliyi fərqləndirməyə xidmət göstərir. Antonimlərdə əlavə əlamətin (eyniköklülük və fərqliköklülük) daxil edilməsi anlayışları bir-birindən ayırmada heç bir əsaslı rol oynamır. Bu məsələ antonim, omonim və sinonimlərin mətndə funksionallığı, yəni mətndə işlənməsi cəhətlərinə təsir göstərir.

Dedim: könül, içmə eşqin camını,
İçsən, dünya sənə dar olacaqdır. [Ələsgər]

Nələr gördüm, gəşt elədim dünyanı,
Hər bir işin qilü-qalı varıymış.
Yaxşı günün olurmuşsa yamanı,
Yaman günün yaxşı halı varıymış [Ələsgər]

Ələsgər, bilirsən qüdrətin sirrin,
Zülmətə işıq var, acıya şirin [Ələsgər]

Antonimlərin əsas üslubi funksiyaları əksliyi ifadə etmək, təbiət və sosial hadisələri, insan xarakterini təzadlı təsvir etmək vasitəsi olmaqdır. Əksliklər, qarşılaşdırma mətnlərdə, eləcə də xüsusi analitik-sintaktik konstruksiyalarda - frazeologizmlərdə, zərbi-məsəllərdə və atalar sözlərində geniş istifadə olunur. Xalq deyimlərinin məna tutumu, obrazlılığı, lakonikliyi çox zaman antonimlərdə ifadəsini tapır. Klassiklərin, məşhur yazıçı və şairlərin əsərlərində yer alan qanadlı sözlərdə kifayət qədər antonimlər işlənir.

Antonimlərin üslubi funksiyaları müxtəlif və rəngarəngdir. Bir sıra hallarda antonimlər mətni təşkil edir, başqa hallarda əsər qəhrəmanlarının xarakterindəki təzadlı məqamları açır, dəqiqləşdirici rol oynayırlar. Məsələn, *içəri-çöl, sağ-sol, əvvəl-sonra* kimi antonimlər mətndə zaman və məkan münasibətlərini aydınlaşdırır. Zaman səciyyəli antonimlər hadisələrin ardıcıllığını təsvir etməkdə, zamanın müəyyən parametrlər üzrə qapanmasında, tamamlanmasında mühüm rol oynayır. Məsələn,

Ürəyimin əsl yükü
sevinc imiş sən demə,
Kədərimin əsl kökü
sevinc imiş sən demə.
Kədərimi
çevirdim astar üzünə,
Sevincimi gördüm…[Ramiz Rövşən].

Getdim,
dünyaya dəydim, *qayıtdım*,
Getdim
qapısını döydüm, *qayıtdım*,
Gülə-gülə çıxdım dostlar üzünə,
Dostları
çevirdim astar üzünə,
Nə yaxşı ki, *düşmən* çıxan olmadı…[Ramiz Rövşən].

Bu nümunədə "o dünyaya getmək", "o dünyadan qayıtmaq" antonim frazeologizmələri yer almışdır. Azərbaycan dilində "o dünyaya gedib-qayıtmaq", "o dünyanı görüb qayıtmaq, "ölüb-dirilmək" ifadələri işlənir. Bu şeirdə işlənən antonimlərin əvvəldə və sonda yerləşməsi fərdi üslubi səciyyə daşıya bilər. Bu baxımdan, antonim cütlərin komponentlərinin bir-biri ilə müqayisədə işlənmə mövqeləri fərdi üslub markeri kimi öyrənilə bilər.

Antonimlərin üslubi funksiyalarını öyrənərkən çox zaman eyni bir qrammatik və ya üslubi kateqoriyaya daxil olan sözlər qarşılaşdırılır. Bu zaman antonim cütün

tərkibindəki hər iki söz eyni kateqoriyaya aid olur. Məsələn, ingilis dilində *truth-fib* sözləri antonim cüt yaratmır. Halbuki bu cütdəki sözlər əks anlayışları ifadə edir. *Truth* sözü neytral üslubi laya aiddir, *fib* sözü isə slenq vahididir və başqa üslubi kateqoriyaya mənsubdur.

Antonimlərin bir çox üslubi fiqurların əsasında durur. Antonimlərin köməyi ilə sözlərə xüsusi məna vermək, məntiqi vuruğunu aşkarlamaq olur. Cümlədə, kontekstdə, mətndə leksik səviyyədə antonim olmayan sözlərin antonimliyi baş verə bilər. Bir sıra sözlər kontekst daxilində antonimlik qazanır. Daha doğrusu, kontekstdə antonimini tapır. Bu isə təzadın, ziddiyyətin, əksliyin mətn daxilində antonimlik üçün yeganə göstərici olmadığını sübut edir.

Üslubi funksiyalar dil vasitələrinin mətndə qarşılıqlı təsiri və bu təsir nəticəsində mətnin məzmunu ilə ekspressiv, emosional, qiymətləndirmə və estetik informasiyanın ötürülməsi ilə müəyyənləşir. Dil vasitələrinin üslubi funksiyalarına praqmatik cəhəthdən yanaşıldıqda, müəllifin oxucuya təlqin etdiyi emosiya və münasibət, danışanın verilən məlumata, dinləyənə, hadisə və vəziyyətə münasibəti nəzərə alınır.

Üslubi funksiyaları reallaşdıran vasitələr oxucunun mətni təhrifsiz, düzgün başa düşməsinə kömək edir. Antonimlər yüksək üslubi potensialı olan dil vasitələridir. Antonimlər bir-biri ilə zidd mənalı sözlər cütü olduğundan onlar təzadlı məqamların açılmasında, təzadlarla ötürülən məlumatı gücləndirməkdə, mətnin və fikrin ekspressivliyinin artırılmasında xüsusi rol oynayır.

Antonimlərin başqa bir xüsusiyyəti onlardan birinin istifadə olunması ilə digərinin assosiativ canlanmasıdır. Antonimlərin üslubi xüsusiyyətləri dilin estetik funksiyalarını yerinə yetirən müxtəlif nitq fiqurlarında reallaşır. Bədii dildə geniş yayılmış üslubi fiqurlardan biri antitezadır. Antiteza antonimlərin işlənməsinə əsaslanır. Antiteza mahiyyətcə təzad təşkil edən söz obrazlarının qarşılaşdırılması üsuludur. Bu üslub fiqurundan istifadə zamanı adlandırılan qarşılıqlı əks anlayışlar bir kontekstdə qarşılaşdırır.

Təzad bədii mətnin strukturunun təşkil və inkişaf etdirilməsinin kompozisiya-nitq üsuludur [5, s. 200]. Antiteza təzad fiqurudur. Antitezaya cəlb edilən bütün sözlər bir-birinə qarşı qoyulur. Antitezanın gücləndirilmə, intensivləşdirilmə üsulları vardır. Antitezanın leksik ifadə vasitələri antonimlərdir. Antitezalar aforizm və deyimlərdə, xalq yaradıcılığında geniş istifadə olunur.

Antonimlər bədii mətndə canlı ifadə vasitələri kimi işlənir. Yazıçı, şair həyatı təzadlarda görür. Belə təzadlar onun gerçəkliyi bir tam kimi dərk etməsi, götürməsi və təsvir etməsidir. Əksliklər müxtəlif üslubi məqsədlərlə istifadə olunur. Həmin məqsədlər sırasına keyfiyyətin son həddini göstərmək, təsəvvürü, obrazı gücləndirmək, ifadəni anktuallaşdırmaq, iki əks keyfiyyəti, halı, hərəkəti, təsdiqləmək, aralıq, orta keyfiyyəti, xassəni bildirmək və s. bura daxildir. Eyni kontekstdə əks mənalı sözləri qarşılaşdırmaqla ifadəlilik gücləndirilir.

«Yollar eniş-yoxuş,
bələn-bələndi,
Yollar
min ildir ki, gedib- gələndi,
Təzəydi, köhnəydi, bilmədim,
Talada cığırlar qafiyələndi…» [Məmməd İsmayıl].

Bir-biri ilə təzad təşkil edən, bir-biri ilə qarşılaşdırıla bilən predmetlərin inkar edilməsi antiteziya əks üsuldur. Bu üsüldan istifadə zamanı müəyyən əlamətlərin yoxluğunu daha ifadəli və canlı şəkildə ötürmək mümkündür.

Antonimlərin iştirakı ilə formalaşan sintaktik paralelizm antitezanı gücləndirir, onu intensivləşdirir. İki və daha artıq antonim cütünün işlədilməsi ilə əmələ gələn antiteza mürəkkəb antitezadır.

Antiteza yalnız struktur-semantik baxımdan deyil, həm də mətnin üslubi və kompozisiya təşkili cəhətdən də əhəmiyyət daşıyır. Nitq qarşılaşdırılmasının əsas tipləri kimi bu zaman leksik, qrammatik və kompozisiya elementləri çıxış edir və onlar mətnin bütün səviyyələrdə təşkilində istifadə olunur.

Beləliklə, antonimlərin üslubi funksiyalarının rəngarəng və müxtəlif olması aydınlaşır. Antonimlər əksliyi ifadə edir, hadisələrin zidd mahiyyətini və danışıqda işlənməsi ifadəliliyi, obrazlılığı, emosionallığı gücləndirməklə yanaşı, üslubun təyin edilməsi vasitəsi rolunu da oynayır.

ƏDƏBİYYAT

1. Ахманова О.С. Словарь лингвистических терминов. Москва: Советская энциклопедия, 1990
2. Шанский Н.М. Лексикология современнного русского языка. Москва: Просвещение, 1972, -327 с.
3. Миллер Е.Н. Природа лексической и фразеологической антонимии. Саратов: Изд-во Саратовского ун-та, 1990. - 221 с.
4. Меметов А. Антонимы в крымско-татарском языке // Советская тюркология. Баку, 1979. - №1. - С. 62-68.
5. Комиссаров В.Н. Семантическая характеристика слов-антонимов: Автореф. дис. …канд. филол.наук. М., 1961.-25с.

Севда Халилова

ВОПРОС ОБ ОПРЕДЕЛЕНИИ ПОКАЗАТЕЛЕЙ СТИЛЯ В ХУДОЖЕСТВЕННОМ ДИСКУРСЕ

РЕЗЮМЕ

В статье рассматривается вопрос об определении маркеров, способных определять индивидуальный стиль на основе языковых средств, вырабатываемых в художественном дискурсе. Манера написания автором художественного текста может быть подобрана с точки зрения многократного

употребления некоторых его слов, размещения их в определенной позиции предложения, продуктивного использования антонимов, синонимов, омонимов, многозначных слов, определенных стилистических фигур. Они рассматриваются как стилевые маркеры или указатели стиля, когда такой выбор проявляется в различных работах автора.

Можно дифференцировать словарные единицы в разных функциональных стилях языка. Часто употребляемые слова прописаны в лексической системе некоторых стилей. Автор работает со словом. Каждый автор по-своему использует слова общелексического слоя. Если один автор использует слово много, то другой автор использует его меньше. Не случайно сейчас в языкознании составляются частотные словари языка отдельных авторов.

Ключевые слова: узиуб, стилистический показатель, дискурс, текст, художественный дискурс.

Sevda Khalilova

THE QUESTION OF DETERMINING THE INDICATORS OF STYLE IN ARTISTIC DISCOURSE

SUMMARY

The article deals with the issue of defining markers that can determine an individual style based on linguistic means developed in artistic discourse. The manner of writing by the author of a literary text can be selected from the point of view of the repeated use of some of his words, placing them in a certain position of the sentence, the productive use of antonyms, synonyms, homonyms, polysemantic words, certain stylistic figures. They are regarded as stylistic markers or style indicators when such choices appear in the author's various works.

It is possible to differentiate vocabulary units in different functional styles of the language. Frequently used words are registered in the lexical system of some styles. The author works with words. Each author uses the words of the general lexical layer in his own way. If one author uses a word a lot, another author uses it less. It is no coincidence that now in linguistics frequency dictionaries of the language of individual authors are being compiled.

Key words: usiub, stylistic indicator, discourse, text, artistic discourse

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Svetlana Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur

XƏYALƏ QASIMOVA
ADU
e-mail: gasimova.x@mail.ru

İBTİDAİ TƏHSİL SƏVİYYƏSİNDƏ İNGİLİS DİLİNİN TƏDRİSİ ZAMANI ÜMUMİ FİZİKİ CAVAB METODUNUN TƏTBİQİNİN ƏHƏMİYYƏTİ

Xülasə

İngilis dilinin tədrisi xüsusilə uşaqlar üçün xoş, maraqlı, təkrarlanan və başa düşülən olmalıdır. Bunu edərkən onlara ingilis dilini öyrətmək üçün uyğun üsullar olmalıdır. Sinifdə tətbiq oluna bilən alternativ üsullardan biri də Ümumi Fiziki Cavab adlanan üsuldur. Bu üsul müəllimin üç rolu yerinə yetirdiyi fəaliyyətdə bəzi dil bacarıqlarını və ya komponentlərini təqdim etməyə çalışır: sifariş qəbul edən, model təminatçısı və öyrənənlərin özlərini danışmağa hazır hiss edənə qədər model və fəaliyyət icraçıları kimi xidmət etdiyi fəaliyyət monitoru.

Sinifdə ÜFC tətbiq edildikdə, müəllimdən bir model təqdim etmək tələb olunur. Modelin üç həyati xüsusiyyəti var: 1) danışıq dilini qavramaq nitqdən əvvəl gəlməlidir, 2) anlama bədən hərəkətləri ilə inkişaf etdirilir və 3) dinləmə dövrü şagirdin danışmağa hazır olmasına kömək edir. Belə bir model şagirdi danışmağa məcbur etmir. Həmçinin öyrənənlər yorulmasınlar deyə ÜFC-nın yalnız qısa müddətə tətbiq edilməsi tövsiyə olunur. ÜFC metodu həmçinin iki mühüm elementi vurğulayır: Yaddaş gücləndiricisi kimi hərəkətdən istifadə və şagirdləri istiqamətləndirmək üçün müəllimin əmrlərdən istifadə etdiyi yeganə təlimat metodu kimi imperativlərdən istifadə.

Ən əsası isə belə bir üsul tətbiq edilərkən ana dilindən istifadəyə önəm verilir. Mücərrəd sözlər varsa, müəllimdən həmin sözləri ifadə etmədən öncə onları ağ/qara lövhələrə yazması tələb olunur. Sözlərin mənası ümumiyyətlə hərəkət vasitəsilə dərk edilir.

Açar sözlər: *gənc öyrənənlər, Ümumi Fiziki Cavab (ÜFC), alternativ metod*

İngilis dili dünyanın beynəlxalq dili rolunu oynayır. Beynəlxalq arenada öyrənilən bu dili öyrənənlərdə səmərəli şəkildə mənimsətmək yollarını uzun müddət görkəmli pedaqoq və dilçilər tərəfindən tədqiq edilmiş, müxtəlif tədris vəsaitləri hazırlanmış, mövzuya dair məqalələr çap olunmuşdur. Müasir dövrdə xarici dil dərslərində dilə praktik yiyələnmə öyrənilən xarici dildən ünsiyyət vasitəsi kimi istifadə etməyi nəzərdə tutduğundan kommunikativ nitq bacarıqlarının aşağı sinifdən başlayaraq şagirdlərdə inkişaf etdirilməsi, bu zaman qarşıya çıxan çətinliklər və onların aradan qaldırılması yolları hal-hazırda da diqqət mərkəzindədir. Bu səbəbdən, uşaqlara dərs verməklə məşğul olan ingilis dili müəllimləri onlara öyrədilməsində bütün vacib komponentləri mənimsəməklə

yanaşı, onların psixologiyasının təbiətindən xəbərdar olmalıdırlar. .

İbtidai məktəblərdə ingilis dilinin tədrisini uğurla aparmaq üçün uyğun tədris materialları və metodları vardır. Bu səbəbdən uşaqlar üçün ingilis dilinin tədrisi üçün səylərdən biri hesab edilən bir üsul tətbiq edilməlidir. Bu üsullardan biri Ümumi Fiziki Cavab (ÜFC) kimi tanınır. Belə bir üsulu ətraflı müzakirə etməzdən əvvəl uşaqların xüsusiyyətlərinin təsvirini izah edək.

Uşaqlar üçün ingilis dilinin tədrisi xüsusi narahatlıq doğurur. Bu səbəbdən, uşaqlara ingilis dilini öyrətməkdə Scott və Lisbeth tərəfindən təqdim olunan bəzi xüsusiyyətlər vardır. [8]

- 8-10 yaşlı uşaqlar kifayət qədər yetkindirlər
- Onların müəyyən bir baxışı var
- Faktla uydurma arasındakı fərqi təsvir etməyi bacarırlar; Sual verməkdə maraqlıdırlar
- Mənanı/mesajı ifadə etmək və dərk etmək üçün deyilənlərə və real dünyaya inanırlar
- Nəyi bəyəndikləri və nəyi bəyənmədikləri ilə bağlı fərqli seçimləri var
- Müəllimin qərarını soruşmaq
- Bir-biri ilə əməkdaşlıq edə və başqalarından öyrənə bilərlər

Bundan əlavə, Scott və Lisbeth deyirlər ki, xüsusilə 8 -10 yaşlı uşaqlar ana dilində bacarıqlı istifadəçilərdir. [8] Bu baxımdan onlar öz ana dillərinin əsas linqvistik qaydalarından xəbərdardırlar. Bu yaşlarda uşaqlar mücərrədləri və simvolları qavraya bilir, dili ümumiləşdirir və sistemləşdirə bilirlər. Uşaqlar həm də sözləri ayrı-ayrılıqda başa düşmədən mənanı təsəvvür edə bilirlər, dildən yaradıcı istifadə etməkdə bacarıqlıdırlar, tez-tez kəşfiyyat işləri aparmağı və müəyyən şəraiti xoş hala gətirməyi sevirlər; təxəyyül və ünsiyyət qurmağı sevirlər. [1]

Tədris kontekstində insanların çoxu uşaqların xarici dili öz ana dillərini öyrəndikləri kimi öyrəndiklərini düşünürlər. Əsasən, uşaqlar xarici dil əldə etmək və öyrənmək potensialına malikdirlər və hətta onlar bu dili yetkinlik dövründəkilərdən daha tez öyrənirlər. Uşaqlar xarici dili optimal şəkildə mənimsəmək və ya mənimsəmək qabiliyyətinə malik deyillər [5]

Ümumi Fiziki Cavab (ÜFC) nədir? **-** ÜFC doktor James Asher tərəfindən hazırlanmış ingilis dili tədrisi yanaşmalarından və metodlarından biridir. Otuz ilə yaxındır ki, tətbiq olunur. Bu üsul diqqəti öyrənənləri müəllimlərinin danışıq hədəf dil əmrlərinə qulaq asmağa və onlara cavab verməyə həvəsləndirməyə yönəltməyə çalışır. Başqa sözlə, ÜFC nitqin və hərəkətin koordinasiyası ətrafında qurulmuş bir dil öyrətmə üsuludur; fiziki (hərəki) fəaliyyətlə dil öyrətməyə çalışır.

Asherin Ümumi Fiziki Cavab metodu "təbii üsul"dur, çünki Asher birinci və ikinci dil öyrənilməsini paralel proseslər kimi görür. O, iddia edir ki, ikinci dilin tədrisi və öyrənilməsi birinci dilin öyrənilməsinin təbii proseslərini əks etdirməlidir. Bu səbəbdən belə üç mərkəzi proses var:

(a) uşaqlar danışma qabiliyyətini inkişaf etdirməzdən əvvəl dinləmə

qabiliyyətini inkişaf etdirirlər. Birinci dilin mənimsənilməsinin ilk mərhələlərində onlar çətin ki, kortəbii şəkildə əmələ gətirə və ya təqlid edə bilməyən mürəkkəb nitqləri dərk edə bilirlər. Aşer nəzərə alır ki, öyrənən dilin zehni planını tərtib edə bilər ki, bu da dinləmənin bu müddətində sonradan danışıq dilini yaratmağa imkan verəcək;

(b) uşaqların dinləyib-anlama qabiliyyəti ona görə əldə edilir ki, uşaqlar valideynlərin əmrləri şəklində danışıq dilinə fiziki reaksiya verməlidirlər; və

(c) dinləyib-anlamada təməl qurulduqda, nitq ondan təbii şəkildə və səy göstərmədən inkişaf edir.

Asher hesab edir ki, xarici dil öyrənilməsinin uşaqların öz ana dilini necə öyrənməsinə əsaslanması çox vacibdir. Başqa sözlə, ÜFC uşaqların ana dillərini öyrənmə üsullarına əsaslanaraq hazırlanmışdır. Bu baxımdan ÜFC metodu ona iddia edir ki, insan aktiv şəkildə iştirak etdikdə və eşitdiyini qavradıqda daha yaxşı öyrənir. [2, 4]

Ümumi Fiziki Cavabın Xarakteristikası nədir ? İmperativ məşqlər ÜFC-da əsas sinif fəaliyyətidir. Onlar adətən şagirdlərin fiziki hərəkətlərini və fəaliyyətini vurğulamaq üçün nəzərdə tutulub. Bu mənada öyrənənlər əsas rolları oynayırlar: dinləyici və ifaçı. Onlar diqqətlə dinləyir və müəllimin əmrlərinə fiziki cavab verirlər. Şagirdlər həm fərdi, həm də kollektiv şəkildə cavab verməlidirlər; onlar təlimin məzmununa az təsir göstərirlər, çünki məzmunu müəllim müəyyən edir. Öyrənmənin əvvəlində şagirdlərin əvvəllər öyrədilmiş elementlərin yeni birləşmələrini tanıması və onlara cavab verməsi gözlənilir. Bu cür yeni ifadələr müəllimin birbaşa təlimdə istifadə etdiyi komponentlərin yenidən birləşməsidir. Məsələn, 'Masaya get!' və 'Stulda otur!' Bunlar öyrənənlərə tanışdır, çünki onlar onlara cavab verməyi məşq edirlər. Bundan əlavə, öyrənənlər də özlərinə məxsus yeni birləşmələr yaratmalıdırlar. Şagirdlər öz irəliləyişlərini izləyir və qiymətləndirirlər. Onlar danışmağa hazır olduqlarını hiss etdikdə danışmağa təşviq olunurlar.

Ümumi Fiziki Cavabda, müəllim fəal və bilavasitə rol oynayır: şagirdlərin aktyor olduğu səhnə əsərinin rejissoru". Nəyi öyrədəcəyinə qərar verən, yeni materialları modelləşdirən və təqdim edən, köməkçi materialları seçən müəllimdir. Buna görə də müəllim yaxşı hazırlaşmalıdır ki, dərsi rahat proqnozlaşdıra bilsin. Müəllimin istifadə edəcəyi dəqiq ifadələri, xüsusən də yeni əmrləri öncədən hazırlanması tövsiyə olunur, çünki öyrənənlərin hərəkəti çox sürətlidirç adətən bunu sinifdə kortəbii yaratmağa vaxt olmur". Bu baxımdan, sinifdə qarşılıqlı əlaqə yaradan öyrənən deyil, müəllimdir. [3] Aşağıdakı nümunəyə diqqət yetirin:

Müəllim: Mariya, düyü qutusunu götür və Migelə ver və Migeldən qiyməti oxumağı xahiş et.

Beləliklə, Ümumi Fiziki Cavabda müəllimlər əmrlər vermək və şagirdlər tərəfindən görülən hərəkətlərə nəzarət etmək üçün məsuliyyət daşıyırlar. Əksinə, öyrənənlər müəllimin verbal və qeyri-verbal modellərini təqlid edirlər. Tədris-təlim

,

prosesində birinci mərhələ modelləşdirmədir. Bu zaman müəllim şagirdlərə əmrlər verir və onlarla birlikdə hərəkətləri yerinə yetirir. İkinci mərhələdə şagirdlər əmrləri tək yerinə yetirməklə onları qavradıqlarını nümayiş etdirirlər; müəllim şagirdlərin hərəkətlərinə nəzarət edir. Hər şeydən əvvəl, müəllim və şagirdlər arasında qarşılıqlı əlaqə müəllimin danışması və tələbələrin buna fiziki cavab verməsi ilə ifadə olunur. [7]

ÜFC –ın üstünlükləri və eyni zamanda mənfi cəhətləri hansılardır ? ÜFC-nin bəzi üstünlükləri və mənfi cəhətləri var. Onun üstünlüklərinə aşağıdakılar daxildir:

1) Çox əyləncəlidir. Şagirdlər bundan həzz alır və bu üsul sinifdə tempi və əhval-ruhiyyəni qaldırır;
2) Çox yaddaqalandır. Bu, tələbələrə ifadələri və ya sözləri tanımağa kömək edir;
3) Dərsdə aktiv olması tələb olunan kinestetik öyrənənlər üçün yaxşıdır;
4) Fiziki hərəkətlər mənanı effektiv şəkildə həyata keçirir ki, bütün öyrənənlər hədəf dili dərk edə və tətbiq edə bilsinlər;
5) Bu üsül müxtəlif qabiliyyətlərə malik şagirdlərlə yaxşı işləyir.
6) ÜFC-dan istifadə edərkən hazırlıq və ya materiallara ehtiyac yoxdur. Bu baxımdan, məşq etmək istədiyiniz işdə bacarıqlı olduğunuz müddətcə (əvvəlcədən bir məşq kömək edə bilər), hazırlaşmaq çox vaxt aparmayacaq;

Bu cür üstünlüklərə əlavə olaraq, ÜFC-ın mənfi cəhətləri var:

- Belə şeylərə öyrəşməyən tələbələr bunu utanc verici hesab edə bilər
- Bu, aşağı səviyyələrdə daha faydalıdır
- O, hər şeyi öyrətmək üçün istifadə edilmir və çox istifadə olunarsa, təkrarlanan olur
- Sinifdə Ümumi Fiziki Cavabdan istifadə çox vaxt effektiv olsa da, onun çatışmazlıqları var. Bu metodun çatışmazlıqlarından biri də ondan ibarətdir ki, müəllim öz dərsində ÜFC-dan istifadə etdikdə onlar abstrakt lüğət və ya ifadələri öyrətməkdə çətinlik çəkəcəklər. Mümkünsə, bir çarə olaraq, müəllim şəkli olan kartlara sözü yaza bilər. Başqa bir qüsur ondan ibarətdir ki, əgər müəllim onu hədəf dili öyrətməyə kömək edən digər fəaliyyətlərlə dəyişmədən uzun müddət istifadə edərsə, ÜFC səmərəsiz ola bilər. ÜFC əsasən əmrlərdən ibarət olduğundan, o, hekayə, təsvir və dilin danışıq formalarına məhəl qoymur.

Sinif otağında Ümumi Fiziki Cavab necə tətbiq olunur? ÜFC bir çox şeyi öyrətmək və tətbiq etmək üçün istifadə edilə bilər:

- hərəkətlərlə əlaqəli lüğət (gülümsəmək, doğramaq, baş ağrısı, qıvrılma); qrammatik elementlər, o cümlədən keçmiş/indi/gələcək və davamlı aspektlər (Hər səhər dişlərimi təmizləyirəm, yatağımı yığıram, səhər yeməyi yeyirəm); sinif dili (Kitablarınızı açın);

- Əmrlər/Təlimatlar (Ayağa qalx, gözlərini yum);
- Hekayənin izahı

Muhrenə görə, ÜFC-ın əsas texnikası sadədir. Şagirdlər müəllim və ya digər şagirdlər tərəfindən verilən əmrləri yerinə yetirirlər . Müəllim öyrənənlərə eşitdiklərini həyata keçirə bilmələri üçün ÜFC fəaliyyətlərində tam iştirak etməyə kömək edir. Onlara xarici dildə danışmaq üçün heç bir təzyiq yoxdur. [6] Hər hansı bir şagird xarici dildə həm kortəbii, həm də yaradıcı şəkildə danışmağa başlamazdan əvvəl, o, bunu etməyə daxili hazırlığını hiss etməlidir. ÜFC-da istifadə olunan nümunə materialları bunlardır:

Kontekst: Tədris Lüğəti

Yeni sözlər: təbaşir, rəngli təbaşir, pozan, kağız, qələm, karandaş, kitab, götürmək, gəlmək, oturmaq, tutmaq

Hazırlıqlar: **y**uxarıdakı əşyalar mərkəzi stolun və ya şagirdlərin masalarının üzərindədir

Prosedurlar:

1 **Müəllim partanın üzərindəki əşyaları bir – bir götürüb adlandıraraq şagirdlərə nümayiş etdirir.**

Bir parça təbaşir. Ağ təbaşir. Rəngli təbaşirlər.
Pozan.
Bir vərəq.
Qələm.
Bir qələm.
Kitab və s.

2 **Müəllim sinifə şagirdlərin masalarında olan əşyalarla bağlı əmrlər verir.**

Qələmlərinizi tutun.
Qələmlərinizi yerə qoyun.
Qələmlərinizi tutun.
Onları yerə qoyun.
Kitablarınızı tutun.
Onları yerə qoyun.
Mənə pozanlarınızı göstərin.
Mənə kitablarınızı göstərin.

Ümumi Fiziki Cavab kursunda ümumiyyətlə əsas mətn yoxdur. Materiallar və reqaliyanın qarşıdakı öyrənmə mərhələlərində tələbkar rolu var. Bu zaman müəllimin səsi, hərəkətləri, jestləri və ümumi sinif obyektləri, məsələn, kitablar, qələmlər, fincanlar və s. istifadə etmək ÜFC-da təlim-tədris prosesində böyük əhəmiyyət kəsb edir. Müəllimdən interaktiv fəaliyyət qurmaq üçün şəkillər, reallıq, slaydlar və söz diaqramlarından istifadə etmək tələb oluna bilər.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Halliwell, S.1992. Teaching English in the Primary School. London: Longman.
2. Haynes, J. 2004. TPR is a Valuable Tool. www.everythingESL.net. http://www.vobs.at/ludescher/total_physical_response.htm.
3. Larsen-Freeman, D.1986.Techniques and Principles in Language Teaching. Oxford: Oxford University Press.
4. Linse, C. 2005. The Children's Response: TPR and Beyond. English Teaching Forum 43/1: 8-11.
5. Long, H. M. 1990. Maturational Constraints on Language Learning. Studies in Second Language Acquisition: 12/251-85.
6. Muhren, A. 2003. Total Physical Response (TPR): An Effective Language Learning Method at Beginner/IntermediateLevels.home.planet.nl/ ~mhren000/tpr/primer_tpr.pdf.
7. Rodgers, T. 2003.Methodology in the New Millennium. English Teaching Forum 41/4: 2-13.
8. Scott, W. A. Lisbeth H. Y, 1992. Teaching English to Children. London: Longman.

IMPORTANCE OF APPLICATION OF GENERAL PHYSICAL RESPONSE METHOD IN TEACHING ENGLISH LANGUAGE AT PRIMARY EDUCATION LEVEL

Summary

Teaching English, especially for children, should be enjoyable, interesting, repetitive, and understandable. In doing so, there should be appropriate methods for teaching English to them. One of the alternative methods that can be applied in the classroom is the so-called Total Physical Response. This method tries to introduce some language skills or components in an action in which a teacher serves three roles: an order taker, a model provider, and an action monitor in which learners serve as models and action performers until they feel ready to speak out.

When TPR is applied in the classroom, a teacher is required to provide a model. The model has three vital features: 1) grasping the spoken language must come prior to speaking, 2) comprehension is developed through body movement, and 3) the period of listening period helps a learner to be ready to speak. Such a model does not force the learner to speak. It is also recommended that TPR be applied for only short periods of time because the learner will get tired of doing it. The TPR method also emphazises two crucial elements: the use of movement as a memory enhancer and imperative s as the only method of instruction the teacher uses commands to direct the learners. Most importantly, when applying such a method, the use of mother tongue is deemphasized. If there are abstract words, a teacher is

required to write down them on the white/blackboards without expressing those words. The meaning of words is comprehended generally through an action.
Key words: *young learners, Total Physical Response (TPR), alternative method*

ЗНАЧИМОСТЬ ПРИМЕНЕНИЯ ОБЩЕГО ФИЗИЧЕСКОГО МЕТОДА В ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ЯЗЫКУ НА УРОВНЕ НАЧАЛЬНОГО ОБРАЗОВАНИЯ

РЕЗЮМЕ

Преподавание английского языка, особенно для детей, должно быть приятным, интересным, повторяющимся и понятным. При этом должны быть соответствующие методы обучения их английскому языку. Одним из альтернативных методов, которые можно применять в классе, является так называемый Общая Физическая Реакция. Этот метод пытается ввести некоторые языковые навыки или компоненты в действие, в котором учитель выполняет три роли: принимающего заказы, поставщика модели и наблюдателя за действиями, в котором учащиеся служат моделями и исполнителями действий, пока они не почувствуют себя готовыми высказаться.

Когда *ОФР* применяется в классе, учитель должен предоставить модель. Модель имеет три важных особенности: 1) понимание разговорной речи должно предшествовать говорению, 2) понимание развивается посредством движений тела и 3) период слушания помогает учащемуся быть готовым к разговору. Такая модель не заставляет учащегося говорить. Также рекомендуется применять *ОФР* только в течение коротких периодов времени, потому что учащийся устанет от этого. Метод *ОФР* также подчеркивает два важных элемента: использование движения для улучшения памяти и императив как единственный метод обучения, когда учитель использует команды для управления учащимися. Самое главное, что при применении такого метода не акцентируется использование родного языка. Если есть абстрактные слова, учитель должен записать их на доске/белой доске, не произнося эти слова. Значение слов постигается в основном через действие.
Ключевые слова*: младшие школьники, общая физическая реакция (ОФР), альтернативный метод.*

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: fil.f.d., dos. S.Ə.Cəfərova
tərəfindən çapa tövsiyə olunmuşdur

AYGÜN HÜSEYNOVA
ADU
Ünvan: Təbriz küç 81
Hüseynova Aygün
mamedova.aygun@ymail.com

MÜASİR İNGİLİS DİLİNDƏ CERUNDUN KOQNITIV SEMANTİKASI

Açar sözlər: feilin şəxssiz formaları, cerund, koqnitiv semantika, kateqoriya
Key words: verbals, gerund, cognitive semantics, category
Ключевые слова: неличная форма глагола, герундий, когнитивная семантика, категория

Dildə mövcud olan sözlər ənənəvi olaraq leksik mənalarına, morfoloji əlamətlərinə və sintaktik funksiyalarına görə müəyyən qruplara bölünür ki, bunlara nitq hissələri deyilir. Məsələn, müasir ingilis dilindən əşya ifadə edən tək, cəm və s. formalara, tamamlıq və s. funksiyalarda çıxış edən sözlərə isim deyilir. Yaxud hal, hərəkət ifadə edən, **-s, -ing** və s. şəkilçi qəbul edə bilən, *to be, to have* feilləri ilə işlənərək forma düzəldə bilən *(is called, has taken, have sent)*, cümlədə xəbər funksiyasında çıxış edən sözlər feil adlanır və s. (7, s.6)

Yuxarıda göstərilmiş 3 cəhətə, yəni sözün leksik mənasına, morfoloji əlamətinə və sintaktik funksiyasına görə sözlər müasir ingilis dilində bir qayda olaraq aşağıdakı nitq hissələrinə bölünür:

1. İsim
2. Sifət
3. Əvəzlik
4. Say
5. Feil
6. Zərf
7. Modal sözlər
8. Nida
9. Artikl
10. Sözönü
11. Bağlayıcı
12. Ədat (7, s.7).

Müasir ingilis dilində mövcud olan nitq hissələri dildəki və nitqdəki xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Onların bir qismi, məsələn, isim, sifət, say və s. nominativ mənaya malik ola bilər. Buna görə də onlar müstəqil cümlə üzvü olur və müstəqil kommunikativ funksiya daşıyır və mətnə daxil olan cümələlər arasında əlaqə yaradır və mühüm yer tutur. Əsas nitq hissələri içərisində feil xüsusi olaraq fərqləndirilir.

Feil ərəb sözündən götürülüb mənası "iş, hərəkət, əməl etmək" anlamını verir. Feillər şəxsin, əşyanın işini, hərəkətin hal-vəziyyətini bildirən sözlərdir. Digər nitq hissələrindən fərqli olaraq feil zəngin kateqoriyalar sisteminə malikdir. Feilin kateqoriyalarını izah etməzdən əvvəl kateqoriya anlayışı barədə qısa məlumat verək.

Kateqoriya yunan dilində *kategoria* sözündən götürülüb "fikir, təyin etmə, mülahizə, əlamət, müəyyən etmə" kimi mənaları əks etdirir. Dilçilikdə kateqoriya anlayışı "yekcins qrammatik mənaların məcmusu" kimi başa düşülür. Ümumiyyətlə, dilçilik vahidlərinin və ya onların bəzi qruplarının dildə öz qrammatik ifadəsini tapan ən əsas xüsusiyyətlərdən biri kateqoriya hesab edilir. Hər bir qrammatik kateqoriya bir sıra qrammatik mənaları özündə əks etdirir. Məsələn, qrammatik feil kateqoriyasına zaman, şəxs, tərz, növ və s. kimi qrammatik mənalar aiddir. Azərbaycan dilində qrammatik kateqoriyalar əsasən morfoloji vasitələrlə ifadə olunur (9, s.11).

Müasir ingilis dilində feilin şəxli və şəxssiz adlı iki forması var.

Feil mürəkkəb xüsusiyyətə malik olan nitq hissəsi hesab edilir. Belə ki, feilin malik olduğu qrammatik mənalar və həmin mənaların ehtiva etdiyi qrammatik kateqoriyalar, onların ifadə üsulları və vasitələri digər nitq hissələrindən fərqlidir.

Feillərin zaman, şəkil, şəxs əlamətləri qəbul edərək dəyişməsi, müxtəlif şəkillərə düşməsi *təsrifi şəxsli* feilləri əks etdirir. Feillərin zaman, şəkil, şəxs şəkilçiləri qəbul edərək dəyişmələrinə *feli təsrifi* deyilir. Məsələn, /Uşaq *dinmədi*// /Onun bu dünyada ata-anası *qalmamışdı*// Bu nümunədə işlədilən *dinmədi, qalmamışdı* feilləri *şəxsli formalardır*.

Müasir Azərbayacn dilində *məsdər, feili sifət* və *feili bağlama* şəkilçiləri qəbul edərək iki xüsusiyyət qazanan, təsrif olunma imkanını itirən feillər *şəxssiz feillər* hesab edilir.

Müasir ingilis dilində feilin üç şəxssiz forması müəyyən edilmişdir:

1. Məsdər;
2. Feili sifət;
3. Cerund (7, s.229).

Bu formaların koqnitiv-semantik təhlili müasir ingilis dilinin quruluşunun ümumi xarakteristikası baxımından maraq kəsb edir və bu formaların səciyyəvi cəhəti feilin şəxssiz formaları sisteminin inkişaf etməsi və onların işlənmə xüsusiyyətləri ilə birbaşa bağlıdır. İngilis dilində feilin şəxssiz formaları feil və ismi xüsusiyyətləri olması ilə diqqəti cəlb edir.

Əksər linqvistik mənbələrdə feilin şəxsli formalarını şəxssiz formalardan fərqləndirən əsas əlamət kimi feili sifət, cerund və məsdərə şəxs, zaman və tərz qrammatik kateqoriyalarının məxsus olmamasıdır ki, bunun nəticəsi kimi, onlar feilin şəxsli formalarına xas olan xəbər sintaktik funksiyasını yerinə yetirə bilməməsidir.

Feilin şəxssiz formalarının ismi xüsusiyyətləri onların yerinə yetirdikləri koqnitiv-semantik funksiyalarda təzahür edir. Bu münasibətdə feilin şəxssiz formaları eynicinsli deyildir və hər bir forma onu digərlərindən fərqləndirən, yəni yalnız ona xas mənalarda çıxış etməsindədir.

Bu münasibətdə şəxssiz formaları (məsdər və cerund) onlara xas olan ismi və sifətə xas olan (feili sifət) xüsusiyyətləri hifz edib saxlayır, halbuki feili əlamətlər onların tarixi inkişaf prosesində qazandıqları keyfiyyətdir. Şəxssiz formaların inkişaf

tarixi onların tədricən feili sistemə daxil olmasının tarixidir və bunun nəticəsi kimi müasir ingilis dilində onların xüsusiyyətlərinin üzə çıxarılmasında həqiqi ismi xüsusiyyətlə müqayisədə feili xüsusiyyətləri daha mühümdür.

O Musayev feilin şəxsli forması ilə şəxssiz forması arasındakı fərqlilikləri belə sıralayır:

1. Felin şəxsli formasından fərqli olaraq, onun şəxssiz formaları kəmiyyət, şəkil və şəxs kateqoriyasını ehtiva etmir;
2. Feilin şəxssiz formaları ikili xassəyə malikdir. Məsdər və cerund feil və isim; feili sifət isə feil və isim xassəsinə malikdir;
3. Feilin şəxssiz formaları ayrılıqda cümlənin xəbəri ola bilmir. Onlar ancaq xəbərin bir hissəsi funksiyasında çıxış edir (7, s.224).

L.V.Kauşanskaya yazır: "Feilin şəxssiz formalarından fərqli olaraq, onun şəxssiz formalarına xas olan zaman məfhumu mütləq deyildir. Feilin şəxssiz formalarına xas olan zaman məfhumu nisbi hesab edilir" (10, s.119). Feilin şəxssiz formalarının zamanı feilin şəxsli formasının ifadə etdiyi hərəkətin zamanından asılı olaraq müəyyən edilir. Yəni feilin şəxssiz formalarının zamanı hərəkətin indiyə, keçmişə və gələcəyə aid olduğunu deyil, onun zamanca feilin şəxsli forması ilə ifadə edilən hərəkətdən əvvəl və ya eyni zamanda icra olunduğunu göstərir.

Gerund felin şəxssiz formalarından biridir. O həm isim, həm də fel xüsusiyyətlərinə malikdir. Azərbaycan dilində ona uyğun fel forması mövcud deyil, lakin mənasına görə feldən düzəlmiş bir çox isimlər (yerimə, gözləmə və s.) cerunda yaxındır.

Gerund istənilən felin infinitivinin sonuna -ing şəkilçisini artırmaqla düzəlir: to run- running, to live-living, to lic-lying, to copy out - copying out.

Gerundun inkar forması not inkar ədatı ilə düzəlir. For coming in time - for not coming in time.

Gerund indiki zaman feli sifətlə (present participle) eyni formaya malikdir, lakin o isim kimi işlənə bilir.

İşlədilməsi

Gerund *{verb+ing)* və onun inkar forması *{not-^i verb ^ ing)* fel və sözönüdən sonra işlənir. Biz həmçinin onu mübtəda kimi işlədə bilirik.

I don't mind waiting. • Paul enjoys not having a job. • She watches TV instead of working. Studying makes me sleepy. • My doctor says that swimming is the best kind of exercise.

Gerund həmçinin *'-ing* formaları' *(-ing* forms) adlanır.

Cerundun isim xüsusiyyətləri

1. İsim kimi cümlədə mübtəda, predikativ, tamamlıq rolunda işlənə bilir. Reading is her favourite occupation.

Her greatest pleasure is reading. I'm fond of reading.

2. Sözönü ilə işlənə bilir. Bu halda o cümlədə sözönülü tamamlıq, təyin ya da zəi

flik funksiyası daşıyır.

I think of going to the South in the autumn. On seeing his father the boy run up to him.

3. Yiyəlik əvəzliyi, yaxud yiyəlik halda olan isimlə təyin oluna bilir. Is there any objection to my seeing her?

He objected to his son's going there.

Lakin isimdən fərqli olaraq cerund artiklla, işarə əvəzliyi ilə işlədilmir və cəm formasına malik deyil.

Cerundun feil xüsusiyyətləri

Cerund feilin 2 qrammatik kateqoriyasına malikdir: zaman və növ.

Simple gerund active: *base form of the verb* + *-ing* - playing passive: *being* + *past participle* - being played Perfect gerund active: *having* + *past participle* - having played

passive: *having been* + *past participle* - having been played

Sadə cerund (simple gerund) 1) şəxsli formada olan fellə eyni vaxtlıhğı ifadə edir; 2) gələcək zamana aid olur; 3) onun ifadə etdiyi hərəkət icra olunduğu vaxtdan asılı olmur.

I'm surprised at his missing lessons so often.

Sifətlə təyin olunan isimdən fərqli olaraq cerund zərflə təyin oluna bilir.

I was frightened by his opening the door so suddenly. 1 was frightened by his sudden appearance.

Pel forması olaraq cerund hərəkəti ifadə edir. Cerund vasitəsilə ifadə olunan hərəkət ya mübtədaya (bəzən də tamamhğa) ya da yiyəlik əvəzliyi və ya adlıq, yiyəlik hallardakı isimlə ifadə olunaraq cerundun qarşısında duran başqa şəxsə aid olur.

I don't mind going there, (mübtədaya)

I don't mind your going there, *(your* əvəzliyi ilə ifadə olunmuş şəxsə) I don't mind Peter's going there. *(Peter* isminə)

. Ccrundun cümlədə funksiyaları (The functions of gerund)

Gerund cümlədə mübtəda, predikativ, mürəkkəb feli xəbərin ikinci komponenti; tamam- lıq, təyin və zərflik funksiyasında işlənir.

1. Mübtəda funksiyasında:

Skating is pleasant.

Reading means gaining knowledge.

Bu fimksiyada cerund xəbərdən sonra da işlənə bilir. Xəbərin qarşısında it formal müb- tədası dayanır.

It's no use talking about it.

It isn't worth while going there. Is it any good doing it?

Mübtəda funksiyasında işlənmiş cerundun əvəzinə, məsdər də işlətmək olar. Cerund ümumi, məsdər isə xüsusi xarakterli hərəkətləri bildirir.

Skating is pleasant. — To skate is pleasant.

2. Predikativ funksiyasında:

Bu funksiyada cerund be bağlayıcı feli ilə və for, against və s. sözönülərlə işlənir.

His greatest pleasure was travelling.

He is against postponing the discussion of this question.

3. Mürəkkəb feli xəbərin ikinci komponenti funksiyasında:

I enjoy listening to the music. He stopped reading the notices.

4. Tamamlıq funksiyasında:

Vasitəsiz tamamlıq funksiyasında cerund mention, remember, mind, suggest və s. fellərindən sonra işlənir.

He mentioned having read it in the paper.

(Suggested discussing this question.)

Sözönlü vasitəli tamamlıq funksiyasında cerund sözönü to be istənilən fel, sifət və feli sifətdən sonra işlənə bilir: to be fond of, be surprised at, consist in, depend on, insist on və s.

When do you think of going there?

I was surprised at seeing her there. I am proud of being a citizen of Azerbaijan.

Bu funksiyada cerund daha çox in, for sözönləri ilə işlənir və in what? For what? Sual-lar;na cavab verir.

The boy was punished for breaking the window.There is no harm in doing that.

5. Təyin funksiyasında:

Bu funksiyada cerund həmişə sözönü ilə işlənir xüsusilə of, in,at,to sözönləri ilə.

I see no other way of doing it.

6. Zərflik funksiyasında:

Zərflik kimi cerund həmişə sözönü ilə zaman və tərzi-hərəkət zərfliyi funksiyasında işlədilir.

Zaman zərfliyi funksiyasında cerund after,before, on, in, sözönləri ilə işlənir. On seeing his father the boy ran up to him.

Tərzi-hərəkət zərfliyi funksiyasında cerund by, without, instead of, besides sözönü-ləri ilə işlədilir.

We learn a lot by reading.

Cerunddan əvvəl işlənən ifadələr (Special expressions followed by cerunds)

XÜSUSİ ifadələr vardır ki,onlardan sonra cerund işlənir,have fun/a good time+ -ing We had fun playing football, have trouble/difficulty+ -ing We had a hard time finding her house ,have a hard time/difficult time+ -ing I had no difficulty (in) making myself understood.

Spend+expression of time or money+ -ing She spends most of her time studying,waste +expression of time or money+ -ing 1 waste a lot of time trying to explain it to him.

Cerundun Azərbaycan dilinə tərcümə olunması

Azərbaycan dilində cerund forması olmadığı üçün onun tərcüməsi isimlə,məsdərlə və feli bağlama tərkibi ilə verilir.

İsim l like reading-Mən oxumağı xoşlayıram.

Məsdər She is afraid of bathing there-O orada çimməkdən qorxur.Feli bağlama He left the room without saying good-bye.O sağollaşmadan otaqdan çıxdı.

Ədəbiyyat

1.Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis. IV hissə, Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 1972.

2.Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1998.

3.Budaqova Z. Müasir Azərbaycan ədəbi dilində sadə cümlə. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1969.

4.*Dəmirçizadə Ə. Müasir Azərbaycan dili.*I hissə, Bakı: Azərpress, 1982.

5.Hüseynzadə M. Müasir Azərbaycan dili. III hissə. Morfologiya. Bakı: Şərq-qərb, 2007.

6.Huseynov A. İngilis dilinin nəzəri qrammatikası üzrə mühazirələr toplusu. Baku: Mutarjim, 2015.

7.Mahmudova. Ş. Müasir İngilis və Azərbaycan dillərində feili sifətin işlənmə xüsusiyyətləri. Bakı,2015.

8.Musayev O. İngilis dilinin qrammatikası *(praktik və nəzəri)*. Bakı: Qismət, 2007.

9.Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Təhsil, 2007.

10. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. Bakı: Mütərcim, 2000.

Xülasə

Müasir Azərbaycan dilində olduğu kimi, ingilis dilində də fel mürəkkəb xüsusiyyətlərə malik olan nitq hissəsidir.O, malik olduğu qramatik mənalar və həmin mənalar zəminində mövcud olan kateqoriyalar, onların ifadə üsul və vasitələri baxımından digər nitq hissələrindən fərqlənir.Müasir ingilis dilində fel şəxs, kəmiyyət, zaman , növ, tərz və forma (şəkil) kateqoriyalarına malikdir.

Azərbaycan dilindəki fellər özlərinin semantik mənasındakı incə cəhətlərə,malik olduqları qramatik forma və mənalara,sintaktik əlamət və vəzifəyə görə iki böyük qrupa ayrılır.Birinci qrupa felin təsriflənən forması daxildir,buna felin şəxsli forması da deyilir.Bu qrup fellərin səciyyəvi əlaməti ,konkret zaman bildirməsi,müəyyən şəklə malik olması və dəqiq şəxs bildirməsidir.İkinci qrupa isə felin təsriflənməyən formaları daxildir,bunlara felin şəxssiz formalarida deyilir.Bu qrup fellərə Azərbaycan dilində məsdər,feli sfət və feli bağlama aiddir,ingilis dilində isə məsdər (The İnfinitive), feli sifət (The Participle), cerund (The Gerund) bu

qrupa daxildir. Gerund felin şəxssiz formalarından biridir. O həm isim, həm də fel xüsusiyyətlərinə malikdir. Azərbaycan dilində ona uyğun fel forması mövcud deyil, lakin mənasına görə feldən düzəlmiş bir çox isimlər (yerimə, gözləmə və s.) cerunda yaxındır.

HUSEYNOVA AYGUN

SUMMARY

"THE COGNITIVE SEMANTICS OF THE GERUND IN MODERN ENGLISH"

The article deals with the cognitive semantics of the gerund in modern English. Gerund is a verbal which has nominal and verbal properties. The Gerund has the following verbal properties. It has tense distinctions- Indefinite and Perfect, such as: Indefinite; taking, being, taken. Perfect: having taken, having been taken. The tense of the gerund,like the Infinitive and the Participle, is not absolute, but relative. As a result of this:

1) The indefinite gerund expresses an actionsimultaneous with that of the finite form of the verb in the sentence.
2) The perfect gerund indicates that the action of the gerund precedes the action expressed by the finite verb.

However, a prior action is not always expressed by a perfect gerund; in certain cases a prior action may be expressed by an indefinite gerund. The occurs after the verbs to remember, to exuce, to thank.

The gerund has the following nominal properties. As a noun, the gerund is used as the subject, the object, the attribute, the adverbial modifier.

ГУСЕЙНОВА АЙГЮН

РЕЗЮМЕ

''КОГНИТИВНАЯ СЕМАНТИКА ГЕРУНДИЯ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ''

Как в современном азербайджанском ,так и в английском языке глагол это часть речи, которой присущи сложные характеристики. Он отличается от других частей речи свойственным ему грамматическим значениям и на основе им существующим категориям и способам их выражения. В современном английском языке глагол имеет категории лица, числа, времени, залога, аспекта и наклонения. В азербайджанском языке глаголы, обладая тонкими свойствам своего лексического значения, подразделяются на две большие группы по грамматической форме, синтаксическому признаку и функции. Первая группа глаголов-спрягаемые, их также называют личными формами глагола. Свойственный элемент этой группы глаголов-обозначение конкретного

времени, соотнесённость к какой-либо форме наклонения и обозначение конкретного лица. Ко второй группе относятся неспрягаемые глаголы , их называют неличными формами глагола. В эту группу в азербайджанском языке входят инфинитив, причастие и деепричастие , а в английском языке- инфинитив, причастие и герундий.

Герундий является одним из неличных форм глагола. Ему свойственны черты как существительного так и глагола. В азербайджанском языке не существует подходящей глагольной формы герундия , но по значению многие существительные (ходьба, ожидание и т.д.), образованные от глагола схожи с герундием.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: f.f.d.,dos. Qurbanova Firəngiz
tərəfindən çapa tövsiyə olunmuşdur

ORUCOVA DİLBƏR
Naxçıvan Dövlət Universiteti
Xarici dillər fakültəsinin "İngilis dili və metodika" kafedrasının müəllimi
dilber_orucova@mail.ru

SİYASİ DİSKURSDA DİNİ METAFOR VƏ METANOMİYA

XÜLASƏ

Siyasi diskurs geniş auditoriya üçün nəzərdə tutulduqda burada danışanın fikrin sadə və anlaşıqlı olmaqla məntiqi ardıcıllıqla davam etməsi nəzərə alınır. Geniş auditoriyanı birləşdirən amillərdən biri də dindir. İnsanların inam və atiqadına əsaslanmaq, məhz bu aspektdə onlarla bir cərgədə, bir sırada durmaq siyasi diskursun təsir gücünü artırır.

Diskursun müxtəlif tipləri arasında, bir çox hallarda, əsaslı demarkasiya xətti olmur. Bu cəhət media diskurskarda özünü aşkar şəkildə göstərir. Media diskursu səciyyələndirən kriteriyalardan biri onların kütləvi oxucuya, kütləvi tamaşaçıya, kütləvi dinləyiciyə ünvanlanmasıdır. Lakin tematik baxışdan media diskurslar siyasi, dini, tibbi, hüquqi, hərbi və s. mövzulara bölünür. Nəticədə kütləvi informasiya vasitələrində fərqli diskurs növlərinə aid mətnlər təqdim edilir. Bu cür mətnləri konkret diskurs tipinin təhlilinə cəlb etmək mümkün olduğu kimi, onları ümumi media diskursu olaraq tədqiq etmək olar.

Açar sözlər: diskurs,metafor,metonomiya,media,din,siyasi diskurs

Diskurs diliçilikdə daha əvvəllər işlədilmiş termin olsa da, onunla bağlı tədqiqatlar ötən əsrin ikinci yarısından başlanmışdır. Diskurs mürəkkəb kommunikativ hadisə olub nitq fəaliyyəti prosesini bütünlüklə əhatə edir. Diskursa mətndən başqa ekstralinqvistik amillər daxil olur. Diskursun dərk olunması üçün onun gedişində iştirak edən ekstralinqvistik amillərin nəzərə alınması vacibdir.

E.Benvenist diskursun cümlədən böyük vahidlər əsasında formalaşmasını qeyd etmiş, onun rabitəli nitqin öyrənilməsi prosesində ifadəsini tapdığını söyləmişdir [Benvenist 1974, s. 312]. E.Benvenist bu fikrindən sonra diskurs və onun tədqiq haqqında olan tədqiqatlar xeyli artmışdır [Ədəbiyyat]. Bununla belə, diskurs ciddi elmi mübahisələrin obyekti kimi diqqəti hələ də cəlb edir. Müasir humanitar elmlərdə diksursa münasibət birmənalı deyildir. Diskurs haqqındakı tərif və izahları xronoloji ardıcıllıqla nəzərdən keçirmək çətindir. Çünki ona verilmiş təriflərin sayı kifayət qədər çoxdur və onların dəqiq tarixlərini müəyyənləşdirmək asan deyildir. Əslində belə bir xronoloji ardıcıllığın nəzərə alınmasına da ehtiyac yoxdur. Daha geniş yayılmış, əsas elmi ədəbiyyatlarda diqqət mərkəzinə çəkilən tərif və izahlara münasibət bildirmək, bu təriflərdən birini qəbul etməklə siyasi diskurs anlayışını

təyin etmək, fikrimizcə, məqsədəuyğundur. Onu da qeyd edək ki, M.Hounun hesablamalarına görə, təkcə 1981-ci ildə dünyada 5000 elmi məqalə, 200-ə qədər kitab çap olunmuşdur [Nouy 1991, s. 131; Zalojnıx 2017, s. 1]. Diskursa linqvistik mövqedən yanaşma, onu linqvistik hadisə kimi öyrənmə daha geniş yayılmışdır. Diskursun tədqiqində dörd elmi məktəbin – fransız, alman, ingilis-amerikan və rus elmi məktəblərinin fəal iştirak etməsini qeyd edən V.Y.Çernyavskaya bu məktəblər üçün diskursa yanaşmadakı spesifik cəhətləri də açmağa çalışmışdır. Onun fikriən görə, Fransa məktəbinin nümayəndələri (M.Fuko, P.Serio, L.Altüsser və b.) diskursun siyasiya-ideoloji, tarixi və sosial-mədəni aspektdən öyrənməyə üstünlük verməklə linqvistik prinsiplərdən uzaqlaşırlar. Alman məktəbinin təmsilçiləri yazılı mətnin təhlil metodlarını əsas götürürlər. İngilis-amerikan diskurs təhlili isə bilavasitə rabitəli nitqin tədqiqi üzərində qurulur [Çernyavskaya 2013, s. 8]. Rus alimlərinin diskurs təhlili ilə bağlı araşdırmaları əsasən, alman və ingilis-amerikan məktəblərinin metodlarına söykənir.

Diskurs anlayışının təyininə çox zaman bu sözün məna dairəsindən yanaşma diqqəti cəlb edir. Latın mənşəli olan bu söz çoxmənalıdır və onun termin kimi 8 əsas mənası qeyd olunur [Tiger və b. 2017, s. 46]. Bütün bu izahlarda nitq, danışıq, nitq məhsulunun mübadiləsi mənası ifadəsini tapır. Bu baxımdan, diskurs fəaliyyətdə olan nitq anlamı verir. Ümumiyyətlə, diskursun izah, şərh və təriflərində nitqin fəaliyyətdə olması, yaxud nitq aktlarının mübadiləsi məsələsi bu və ya digər şəkildə ortaya atılır.

T. van Deyk diskursu kontekst daxilindəki mətn, empirik şəkildə təsvir olunan hadisə kimi təqdim etmişdir. Onun tədqiqatında diskursun fəaliyyət kimi götürülməsi vacib məqamlardan biridir. "*Diskurs – nitq axını, ardıcıl fəaliyyətdə olan dildir. Bu zaman həm ünsiyyət iştirakçısının, həm də ünsiyyətin baş verdiyi kommunikativ şəraitin fərdi və sosial xüsusiyyətləri, tarixi dövr aktiv formada təzahür edir*" [Deyk 1998]. T. van Deykin izahında empirik təsvir olunan hadisəni diskursun qurulma prosesi mənasında başa düşmək lazım gəlir. Kommunikasiya mürəkkəb prosesdir və bu mürəkkəblik ünsiyyət zamanı aktiv olan təşkiledicilərdən irəli gəlir. Əgər iki şəxs arasında ünsiyyət prosesini formal şəkildə təsvir etsək, hər şeydən əvvəl, iki iştirakçının olmasını nəzərə almalıyıq. Təbii ki, bu iştirakçılar ayrı-ayrı subyektlərdən, onlar fərqli bilik, təfəkkür, düşüncə, dünyagörüşü sahibləridir. Bu iştirakçıların müəyyən statusları vardır. Status iştirakçıları bir-birindən ayırır və ya eyniləşdirir. Həkimlə xəstə arasındakı ünsiyyətdə həkim dominant mövqedir. Xəstənin alim, dövlət xadimi, general, prokuror və s. olması ünsiyyətdə onun dominantlığını təmin etmir. Çünki kommunikasiya xəstəlik haqqındadır. Bu mövzuda söhbət zamanı həkim bilik və təcrübə sahibidir. İki dostun adi məişət mövzusunda söhbətində status bərabərliyi vardır. Dini mövzuda danışıqda ilahiyyatçı dominant mövqedə durur. Lakin belə diskursiv prosesdə dini mövzu haqqında ikinci iştirakçının da xüsusi bilikləri vardırsa, ünsiyyət prosesində dominant mövqeni tutmaq uğrunda mübarizə gedir. Tərəflər konkret dini mövzunun şərhində öz

mövqeyini, nöqteyi-nəzərini qorumağa çalışırlar. Qeyd olunanlar diskursiv fəaliyyətin yalnız bəzi şərt və şəraitini əhatə edir. Ünsiyyətfə zaman, məkan, şərait, münasibət və bir çox digər eksrtalinqvistik amillər də öz rolunu oynayır, diskursun formalaşmasına təsirini göstərir. Qeyd olunanlar diskursiv fəaliyyətin mürəkkəbliyini təsdiq etməklə yanaşı, van Deykin diskursa verdiyi izahdakı hadisənin təsvirinə də aydınlıq gətirir.

V.Demyankov diskursun mətnin bir cümlədən böyük olan ixtiyari fraqmenti olub müəyyən dayaq konsepti ətrafında yığıldığını və ümumi kontekst yaratdığını qeyd etmişdir [Demyankov 1982, s. 7]. Müəllifin verdiyi izahdakı kontekst diskursun bütün kənar təşkiledicilərini, ekstralinqvistik amilləri əhatə edir. Buna yaxın münasibət V.Y.Çernyavskayanın diskursa verdiyi izahda da müşahidə olunur. Onun fikrinə görə, diskurs situativ konteksrlə sıx bağlı olan mətndir. Diskurs mətnin müəyyən formal strukturunu yaradan kommunikativ prosesdir [Çernyavskaya 2013, s. 104]. Əslində, müəllif diskursu kommunikativ proses kimi təqdim etmişdir. Ünsiyyət və ya kommunikasiya nitq vasitəsi ilə baş verdiyinə görə, müəyyən mətni əmələ gətirir. V.V.Demyankovdan fərqli olaraq bu tərifdə mətnin cümlədən böyük olan ixtiyari fraqmenti diskurs elan edilmir.

Mətn və diskursun müqayisəsi zamanı mətn üçün səciyyəvi olan tema-rema münasibəti, mikrotema və makrotema məsələləri ortaya çıxır. Fikrimizcə, V.Demyankov mətnin mikrotema şəklində tamamlanan fraqmentlərini nəzərdə tutmuşdur. Buradan belə nəticə çıxır ki, diskurs da mikro və makrodiskurslara bölünür.

Mətn diskursun nəticəsidir. Yəni diskursiv prosesdə mətn yaranır. Diskursun başlanğıc nöqtəsi mətnin əvvəli ilə tam üst-üstə düşmür. Bundan qabaq diskurs iştirakçılarının ünsiyyətə hazırlaşma prosesi gedir. Təbii ki, hazırlaşma əksər hallarda şərti səciyyə daşıyır. Bu proses koqnitiv səciyyəlidir. Adresantı nitq aktlnl canlandırmağa sövq etdirən ekstralinqvistik amillər vardır. Məsələn, adresant adresatdan poçtun yolunu soruşursa, onun poçta getmək tələbi onu buna sövq etdirir. Aydındır ki, bəzi hallarda hər hansı bir ilk sual ünsiyyət qurmaq məqsədi də daşıya bilər. Yəni adresant adresatı kommunikasiyaya cəlb etmək üçün ona sualla müraciət edir. A.A.Kibrikin "Diskurs həm dil fəaliyyəti prosesi, həm də onun nəticəsi olan mətndir" [Kibrik 2002, s. 307] tərifində dil fəaliyyətini aktivləşdirən koqnitiv mexanizm ifadəsini tapmır. Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, burada dil fəaliyyəti deyil kommunikativ fəaliyyətin baş verməsi, davam edib bitməsi hadisəsi meydana çıxır. Mətn ünsiyyət prosesinin nəticəsi olur. Onu da nəzərə almaq lazımdır ki, ünsiyyət adresatın mütləq nitq aktı ilə reaksiya verməsi tələbini qoymur. Məsələn, televiziyada dini mövzuda danışan aparıcı tamaşaçıların cavab reaksiyasını gözləmir.

Ə.Abdullayev mətn və diskurs anlayışlarını qarşılaşdırarkən rabitəli nitqin tədqiqində həm mətn, həm də diskurs anlayışlarından istifadə olunmasını, bir sıra araşdırmalarda bu iki anlayışın eyniləşdirilməsini, ötən əsrin son 20 ilində mətn və

diskursun differensiallaşdırılması ənənəsinin meydana çıxdığını qeyd etmişdir. Müəllif son olaraq belə bir nəticəyə gəlmişdir: "Diskursun mətnlərin göndərilməsi və alınması ilə baş verən bir fəaliyyət sahəsi kimi müşahidəsi bir anlayış kimi ünsiyyət anlayışı ilə üst-üstə düşməsi qənaətinə gəlməyimizə əsas verir: diskurs = ünsiyyət = danışanın mətn yaratma prosesi (sosial kontekstdə) + mətn + həmsöhbətin mətni interpretasiyası (şərhi) prosesi (sosial kontekstdə) [Abdullayev Ə. 2011, s. 182]. Şübhəsiz ki, həmsöhbətin mətni şərhi onun mətni necə dərk etməsini əhatə edir.

A.Məmmədov diskurs təhlilinin funksional dilçilikdə ön plana keçməsini göstərmiş, diskurs anlayışına müxtəlif tədqiqatçıların verdikləri tərifləri şərh etmiş, onlara münasibət bildirmişdir. Müəllif mətn və diskurs arasındakı ümumi və fərqli cəhətlər üzərində də dayanmışdır [Məmmədov 2008, s. 56-65].

Qeyd olunduğu kimi, diskursa verilən tərif və izahlar çoxdur. Yuxarıda bəzi tərifər haqqındakı məlumatlar diskursa münasibəti ümumiləşdirməyə imkan verir.

Fəaliyyətdə olan nitq prosesini özündə birləşdirən, ekstralinqvistik təsirlər altında formalaşan diskurs kommunikativ prosesdir. Kommunikasiya müəyyən mövzunu və mövzuları əhatə edir. Tematika diskurs növlərinin diferensasiyasında aparıcı rol oynayır. Müasir sosial-mədəni mühit yalnız müxtəlif dillərdə olan diskurslardan deyil, həm də onların tiplərindən danışmağa əsas verir. Bununla belə, diskursun tipologiyasına fərqli şəkildə yanaşılır. Hər şeydən əvvəl şifahi və yazılı diskurslar fərqləndirilir. Diskursun növləri işlənmə sahəsinə görə müəyyənləşdirilir. Diskursların təsnifatı bununla məhdudlaşmır, müxtəlif meyarlar əsasında yenoi-yeni bölgülər təqdim olunur. İştirakçılar, ideoloji mənsubluq, kommunikativ məqsəd, kommunikativ rol və onun dəyişməsi, tonallıq və başqa kriteriyalar üzrə təsniflər vardır. Məsələn, V.İ.Karasik ünsiyyətin tonallığını meyar seçərək diskursların 12 tipini (informativ, fatik, ideoloji, manipulyativ, təntənəli və s.) [Karasik 2007, s. 350]. İşlənmə sahəsi və ya sahəyə aidlik baxımından diskursun məişət, siyasi, hərbi, tibbi, hüquqi, dini, media, pedaqoji və s. növləri vardır. Belə növlərin hər birinin spesifik cəhətləri vardır. Bu növlərin tədqiqinə xüsusi diqqət yetirilir [Ədəbiyyat]. Qeyd olunan növlər arasında siyasi diskurs xüsusi yer tutur.

Siyasi diskurs siyasi kommunikasiya prosesidir. Müasir cəmiyyətdə siyasət son dərəcə əhəmiyyətli rol oynayır. Əslində, siyasət cəmiyyətin funksionallığını təmin edir. Siyasət cəmiyyətdə dayanıqlı sosial proseslərin fəaliyyətini qurur, tənzimlər, cəmiyyəti ifadə edir. İnsanlararası, dövlətlərarası münasibətlər də siyasətlə tənzimlənir. Hər bir cəmiyyətin siyasi strukturu onun ayrı-ayrı sahələr (xarici, iqtisadi, sosial mədəni və) üzrə siyasətinin vahid bir sistemdə birləşməsini təmin edir. Siyasi kommunikasiyanın əsas xüsusiyyətlərini kütləvilik, nitqin adresantdan kütləvi adresata yönəlib biristiqamətli olması, adresat tərkibinin dəyişkən və qeyri-sabitliyi təşkil edir. Qeyd edilən cəhətlər siyasi liderin böyük auditoriyaya ünvanlanan monoloji nitqində özünü göstərir. Siyasi diskursların əsas hissəsini bu cür nitq və çıxışlar təşkil edir. Siyasi kommunikasiyanın başqa bir janrı siyasətçinin müsahibələrini, brifinq və mətbuat konfranslarında sualları cavablandırmasıdır. Əgər

siyasi diskurs növü olan müsahibədə müəyyən məqamlarda dioloji nitqə keçidlər olursa, brifinq və mətbuat konfranslarında adresant – adresat – adresat ardıcıllığı, rol dəyişməsi ümumən dialoq şərtini tam şəkildə

əhatə etmir. Burada sual → suala cavab, yaxud stimul – reaksiya bir manqa təşkil edir. Doğrudur ki, siyasi liderlərə, dövlət başçılarına sual ünvanlanmış siyasi jurnalistlər bəzən cavabdan sonra həmin cavaba istinadla yeni bir sual ortaya atırlar. Protokol qaydalarından kənara çıxan belə siyasi kommunikasiya öz formasına görə dialoji nitqə oxşayır. Əslində, dialoqun təyini zamanı bu cür situasiyalar, belə kommunikativ proseslər nəzərə alınmamış və az öyrənilmişdir. Ümumiyyətlə, siyasi diskursun başqa janr formaları da qeydə alınır. Namizədlərin debatları dialoji nitqə oxşasa da fərqli səciyyəlidir. Debatlarda kommunikatorlar bir-birilərinin nitq aktlarına müraciət etsələr də, onların kommunikasiyası stimul → reaksiya → stimul → reaksiya şəklində sıralanma ilə getmir və nitq aktlarının debatda iştirak edənlər, əsasən, auditoriyaya istiqamətləndirirlər. Siyasi diskurs obrazlılığı, fakt çoxluğu, müqayisə, arqumentləndirmə, həmçinin metafora ilə zənginliyi ilə seçilir.

Siyasi metaforalar son dövrlərdə tədqiqata daha çox cəlb edilir. Belə metaforaların ictimai şüura və siyasi həyata təsirinin müxtəlif aspektlərin diqqət cəmləşdirilir. Siyasi kommunikasiyaya marağın artması, informasiya mübadiləsinin genişlənməsi, kütləvi informasiya vasitələrinin fəaliyyət dairəsinin artması, əhalinin böyük bir qisminin ğlkənin, eləcə də cəmiyyətin siyasi həyatına qoşulması ilə bağlıdır. Siyasət cəmiyyət həyatının bütün sahələrini əhatə edir və hər bir sahədəki fəaliyyət digərləri ilə sıx əlaqəyə malik olub ümumilikdə ölkənin, həmçinin dünyanın siyasi mənzərəsi ilə birləşir. Geniş auditoriyaya ünvanlanan siyasi diskursların böyük əhəmiyyət daşıması zəminində metafora dinləyicilərin əhval-ruhiyyəsinə təsiri artır. Siyasi diskusrlarda metaforadan istifadə olunması xüsusiyyətlərinin öyrənilməsi onların işlədilmə məqsədlərini açmağa kömək edir. Onu da qeyd etmək lazımdır ki, metafora siyasi əsaslandırma, yaxud ümumiyyətlə əsaslandırma, fikri arqumentləşdirmə baxımından siyasətlə ilkin bağlılığa malikdir. Antik ritorika da böyük auditoriyanı irəli sürülən fikirlərə inandırmağa köklənmişdir. Hazırda siyasi metafora ayrıca elmi istiqamət kimi koqnitiv dilçilik, diskurs təhlili və ritorika ilə sıx bağlılığa malikdir.

C.Lakoff bir hadisənin, predmetin mahiyyətini başqa birisinin mahiyyəti ilə əvəz edilərək təqdim edilməsini metaforlaşdırma hesab etmiş və bu prosesdə mənbə sahəsinin hədəf sahəsinə köçürülməsi, inikas etdirilməsini metafora adlandırmışdır [Lakoff 1990, s. 48]. Təqdim edilən konseptual metafora anlayışı və onun təhlili hazırda insan fəaliyyətinin müxtəlif sahələrində, o cümlədən siyasi diskurs sahəsində də tətbiqini tapmışdır. Əslində, konseptual metafora nəzəriyyəsinin siyasi diskursa tətbiqi C.Lakoffun adı ilə bağlıdır [Lakoff 1991]. O, müharibə ilə bağlı metaforaların siyasi diskursda işlənməsini araşdırmışdır.

Ədəbiyyat:

1. Abdullayev, Ə. Aktual üzvlənmə, mətn və diskurs / Ə.Abdullayev. – Bakı: “Zərdabi LTD” MMC, 2011-272 s.
2. Məmmədov, A. Dilçiliyin müasir problemləri / A.Məmmədov. – Bakı: ADU nəşriyyatı, 2008. – 91 s.
3. Дейк ван Т. А. К определению дискурса. – Лондон, 1998/Т.А.ван Дейк.// http//www.nsu.ru/psych/internet/bits/vandijk2.htm.
4. Лакофф, Дж. Женщина, огонь и опасные вещи. Что категории языка говорят нам о мышлении / Дж.Лакофф. – Москва: Гнозис, 2011. – 512 с.
5. Hoey // Ilha do Desterro. A Journal of English language. Literatures in English and Cultural Studies. 25/26. - 1991. - Pp. 131-150.
6. Чернявская, В.Е. Лингвистика текста. Лингвистика дискурса / В.Е.Чернявская. – Москва: Флинта: Наука, 2013. – 208 с.

Дилбар Оруджева

РЕЛИГИОЗНАЯ МЕТАФОРА И МЕТАНОМИЯ В ПОЛИТИЧЕСКОМ ДИСКУРСЕ

РЕЗЮМЕ

Когда политический дискурс рассчитан на широкую аудиторию, учитывается, что мысль оратора должна быть простой и понятной, следовать логической последовательности. Одним из факторов, объединяющих широкую аудиторию, является религия. Опираясь на веру и убеждения людей, стояние с ними в одном ряду в этом аспекте увеличивает влияние политического дискурса.

Между разными типами дискурса во многих случаях нет принципиальной демаркационной линии. Этот аспект проявляется в медийном дискурсе. Одним из критериев, характеризующих медиадискурс, является то, что они адресованы массовому читателю, массовому зрителю и массовому слушателю. Но с тематической точки зрения медиадискурсы бывают политическими, религиозными, медицинскими, юридическими, военными и т. д. разделены на темы. В результате в средствах массовой информации представлены тексты, относящиеся к разным типам дискурса. Такие тексты можно изучать как общий медиадискурс, так же как можно привлекать их к анализу конкретного типа дискурса.

Ключевые слова: дискурс, метафора, метонимия, медиа, религия, политический дискурс.

Dilbar Orujova

RELIGIOUS METAPHOR AND METANOMY IN POLITICAL DISCOURSE

SUMMARY

When the political discourse is intended for a wide audience, it is taken into account that the speaker's idea should be simple and understandable and follow a logical sequence. One of the factors that unites a wide audience is religion. Basing on people's faith and belief, standing in the same row with them in this aspect increases the influence of political discourse.

Between different types of discourse, in many cases, there is no fundamental line of demarcation. This aspect is evident in the media discourse. One of the criteria that characterizes media discourse is that they are addressed to mass readers, mass viewers, and mass listeners. But from a thematic point of view, media discourses are political, religious, medical, legal, military, etc. divided into topics. As a result, texts related to different types of discourse are presented in the mass media. Such texts can be studied as a general media discourse, just as it is possible to involve them in the analysis of a specific type of discourse.

Keywords: discourse, metaphor, metonymy, media, religion, political discourse

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: filologiya üzrə elmlər doktoru, professor Məsməxanım Qazıyeva tərəfindən çapa tövsiyə olunmuşdur

QURBANOVA TURANƏ
ADU
BAKI ŞƏHƏRİ, R.BEHBUDOV KÜÇ., 134.
qurbanova-t@list.ru

MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ KONVERSİYA HADİSƏSİ

Xülasə

Konversiya maraqlı linqvistik hadisələrdən olub, dilin ifadə və məzmun planlarının qarşılıqlı nisbətdə öyrənilməsi zəminində meydana çıxır. Dilçilikdə sözün öz morfoloji quruluşunu və fonetik tərkibini dəyişmədən, eyni şəkildə qalmaqla bir nitq hissəsindən digərinə keçməsi kimi səciyyələndirilən konversiya hadisəsi hələ tam izahını tapmamış mübahisəli məsələlərdən hesab olunur .

Konversiya hadisəsini morfoloji vasitənin bir növü kimi nəzərdən keçirdikdə onun növləri içərisində əsasən morfoloji sintaktik tipindən danışmaq daha məqsədəuyğun olardı. Bu zaman konversiya sıfır morfemlərin hesabına reallaşır. Konversiya hadisəsinə ingilis dilində həm qrammatika, həm leksika, həm də söz yaradıcılığında rast gəlmək olar. Konversiya vasitəsilə yeni sözlərin yaranması ingilis dilinin spesifik xüsusiyyəti sayılır. İngilis dilində konversiya vasitəsilə yaranan yeni söz keçdiyi nitq hissəsinə aid qrammatik forma sonluqlarını qəbul edir, fərqli sintaktik funksiya daşıyır və yeni leksik – qrammatik məna kəsb edir.

Konversiya törəmə prosesi ilə bağlıdır ve bir sinfə aid olan leksemin heç biri deyisiklik olmadan, sadəcə olaraq digərinə "çevrilə" bilmək prosesidir. Qeyd edək ki, morfoloji səviyyədə konversiya ilə yanaşı leksik-semantik səviyyədə baş tutan konversiya zamanı da hər hansı bir dilin lüğət tərkibi genişlənir. Bu zaman heç bir şəkli dəyişikliyi olmayan sözlər başqa leksik-semantik qrupa daxil olur. Dildə konversiyanin mövcudluğunu gösteren çoxlu nümunələr vardir. Bu proses göründüyü kimi sadə deyildir. Funksiyadaki dəyişikliklərdən əlavə konversiya vasitəsilə yaranan yeni sözler həmçinin fərqli mənani ifade edir. Adətən bu qrupa isim ve fellər daxil olur.Həmcinin başqa nitq hissələrinə aid olan sözlərin də bu qrupa daxil edilməsi mümkündür.

Açar sözlər*: müxtəlifsistemli dillər, konversiya, omonimlik, sifir affiksi, sözyaratma*

Hər bir konkret dil müəyyən zaman kəsiyində inkişaf edir, təkmilləşir, başqa dillərlə təmas prosesində zənginləşir, sabitləşmiş normalara malik ədəbi dil səviyyəsinə yüksəlir. Tarixi inkişaf boyu dilin daxili strukturu, qrammatik kateqoriya və normaları da təkmilləşir, daha dəqiq, konkret izahını tapır. Dilin inkişafı prosesində onun vahidləri və kateqoriyalarında keçid hadisəsi də geniş müşahidə olunur. Çünki istənilən müasir dil uzun sürən tarixi inkişafın qanunauyğun nəticəsi olduğundan, təkcə öz sistemində forma və tərtibatına görə müəyyən olan vahidləri deyil, müxtəlif keçid mərhələlərini əks etdirən, forma və tərtibatına görə qeyri-

müəyyən olan vahidləri də qoruyub saxlayır. Bir çox dilçilərin fikrincə, dilde keçid prosesi zamanı bir sözün başqasına təsiri nəticəsində hər iki sözün əlamətini daşıyan forma meydana çıxır (J.Maruzo, B.A.Serebrennikov və b.). Dildəki keçidin bir növü də qrammatik keçiddir. Bu keçid növü bəzi alimlər tərəfindən konversiya, digərləri tərəfindən transpozisiya (O.M.Kim, V.Q.Qak və b.), bəzən isə transformasiya da (Y.A.Vaxek, Y.S.Stepanov, L.A.Novikov və b.) adlandırılır. Konversiya termini adeten bu başlıqlar altında izah edilir: 1. Qrammatika və leksikada konversiya 2. Söz yaradıcılığında konversiya (8, c.236).

Konversiya maraqlı linqvistik hadisələrdən olub, dilin ifadə və məzmun planlarının qarşılıqlı nisbətdə öyrənilməsi zəminində meydana çıxır. Konversiya hadisəsi əsasən sıfır morfemlərin daha çox müşahidə olunduğu çin və ingilis dillərində özünü daha çox biruzə verir. Konversiya zamanı söz yeni sintaktik mühitə düşür, yeni sintaktik funksiya ilə çıxış edir və bu zaman yeni məna formalaşır, sözün morfoloji dəyişməsi nəticəsində digər paradiqmalar əmələ gəlir. Dildə konversiya daha çox keçid nəzəriyyəsi çərçivəsində araşdırılır.Keçid prosesini araşdıran keçid nəzəriyyəsi keçidin vəziyyətini, inkişafını və s. müəyyənləşdirməklə ümumi və aktual problemlərdən biri kimi dəyərləndirilən konversiyanın dinamikasını öyrənir. Ümumiyyətlə, keçid nəzəriyyəsi dilçilikdə ilk növbədə dilin material formasının tarixi ilə bağlı meydana çıxır.

Dilçilikdə sözün öz morfoloji quruluşunu və fonetik tərkibini dəyişmədən, eyni şəkildə qalmaqla bir nitq hissəsindən digərinə keçməsi kimi səciyyələndirilən konversiya hadisəsi hələ tam izahını tapmamış mübahisəli məsələlərdən hesab olunur. Belə ki, ingilis dilində sifətləşmə geniş müşahidə olunursa, başqa dillər üçün bu səciyyəvi xüsusiyyət hesab oluna bilməz. Eləcə də, ingilis və alman dillərində artikl konversiya prosesində aparıcı rola malik olur. Digər qohum və qohum olmayan dillərdə isə, konversiya fərqli xüsusiyyətlərlə səciyyələnir. Məhz bu səbəbdən dildə konversiya hadisəsinin tədqiqi böyük maraq doğurur. Dildə konversiya hadisəsi ayrı-ayrı dilçilər tərəfindən müxtəlif cəhətdən öyrənilsə də, onun müəyyənləşdirilməsi meyarları, struktur-semantik növləri, dil səviyyələrində təzahür xüsusiyyətləri hələ də tam müəyyən edilməmiş, hərtərəfli elmi şərhini tapmamışdır..

Konversiya hadisəsini morfoloji vasitənin bir növü kimi nəzərdən keçirdikdə onun növləri içərisində əsasən morfoloji sintaktik tipindən danışmaq daha məqsədəuyğun olardı. Bu zaman konversiya sıfır morfemlərin hesabına reallaşır. Rus dilində konversiya qrammatik şəkilçilər hesabına yaranır: ход — ходить. Burada ход sözündə sıfır morfem olmadığından о, -ить morfeminin köməyi ilə digər nitq hissəsinə keçə bilir. Rus dilində Azərbaycan dilində olduğu kimi, konversiyanın geniş yayılmış növü substantivləşmədir. A → N modeli əsasında bu dildə aşağıdakı nümunələri göstərə bilərik: мороженое мясо (sifət) — вкусное мороженое (isim), рабочий инструмент (sifət)--- рабочий на стройке(isim) və s. Bir məqamı da nəzərdən qaçırmayaq ki, konversiya bütün dillərdə kontekstdə nəzərdən keçirilir, yəni sözün paradiqmatik mənası kontekstdə daha dəqiq müəyyən edilir.

Söz yaradıcılığında konversiya prosesinin tədqiqi qrammatika və leksikaya nisbətən üstünlük təşkil edir. Qeyd edildiyi kimi konversiya sözün qrammatik xarakteristikasının dəyişilməsi vasitəsilə həyata keçirilən sözdüzəltmə üsuludur. Xarici uyğunluğa baxmayaraq, əsas və ondan törənən söz müxtəlif sözlərdir, onlar arasında semantik əlaqə müxtəlif ola bilər. Məhsuldarlıq əsasən sözün leksik mənası və struktur xüsusiyyətləri ilə məhdudlaşır . Dilin bütün səviyyələrində özünü göstərən dil vahidlərinin bir nitq hissəsindən digərinə keçidi və yerdəyişimini əks etdirən konversiyadan savayı, dildə bütün cümlənin sözə çevrilməsi və ya nominallaşması, bir cümlə quruluşundan digərinə keçid və digər hallar da konversiyaya aid edilir. Belə qrammatik konversivlərə biz başqa dillərdə də rast gələ bilərik. Məsələn, ingilis dilində She wrote a letter. (O, məktub yazdı.) → A letter was written. (Məktub yazıldı.) və ya rus dilində Она написала письмо. (O, məktub yazdı.) → Письмо было написано ею. (Məktub onun tərəfindən yazıldı.)

Konversiya hadisəsinə ingilis dilində həm qrammatika, həm leksika, həm də söz yaradıcılığında rast gəlmək olar. Konversiya vasitəsilə yeni sözlərin yaranması ingilis dilinin spesifik xüsusiyyəti sayılır. İngilis dilində konversiya vasitəsilə yaranan yeni söz keçdiyi nitq hissəsinə aid qrammatik forma sonluqlarını qəbul edir, fərqli sintaktik funksiya daşıyır və yeni leksik – qrammatik məna kəsb edir. Konversiya törəmə prosesi ilə bağlıdır ve bir sinfə aid olan leksemin heç biri deyisiklik olmadan, sadəcə olaraq digərinə "çevrilə" bilmək prosesidir. Konversiya hadisəsi ingilis dilində geniş yayılmışdır, çünki bir çox hallarda çoxlu isimlər və fellər öz formalarına görə eynidir.

Konversiya ingilis dilində daha çox isim və fellərdə baş verdiyi üçün bəzi nümunələri nəzərdən keçirmek olar. 1. Fellər hərəkətləri ifadə etdiyi üçün mücərrəd olur, isimlər isə
adətən konkretdir, çünki şeyləri adlandırırlar.2. Konversiya nitq hissəsindəki dəyişikliklərlə birbaşa əlaqəyə malikdir, beləliklə,nəticə adətən isim, fel və ya sifət olur.

Qeyd etdiyimiz kimi konversiya heç bir dəyişiklik olmadan sözün digər bir nitq hissəsinə çevrilməsi kimi başa düşülür. Konversiya vasitesilə yeni sözlerin yaranmasi prosesi eyni zamanda sıfır affiks ve sıfır morfem məsələlərini de gündəmə gətirir.

Dildə konversiyanin mövcudluğunu gösteren çoxlu nümunələr vardir.Bu proses göründüyü kimi sadə deyildir.Funksiyadaki dəyişikliklərdən əlavə konversiya vasitəsilə yaranan yeni sözler həmçinin fərqli mənani ifade edir.Adətən bu qrupa isim ve fellər daxil olur.Həmcinin başqa nitq hissələrinə aid olan sözlərin də bu qrupa daxil edilməsi mümkündür.

.Feldən ismə konversiya vasitəsilə çevrilən sözler bir neçə məna ifadə edə bilər: *a)The news caused a war* <u>*scare*</u>. ' Xəbər müharibə qorxusuna səbəb oldu'. (6,56) Burada '*scare*' isminin mənasi felin mənasi ile üst-üste düşür. Yaxud hər hansi hadisə və hərəkəti bildirmək üçün istifadə olunur: *a)We have had a good many*

laughs over his foolishness. b)I heard the cry of an animal in pain in the park(6,58). Biz adətən '*laugh'* və *'cry'* sözlərini fel kimi tanıyırıq. Burada isə bu sözlər isim kimi çıxış edir. Burada '*s'* səkilçisi ve *'the'* artiklinin işlənməsini görmək olar. Bu halda bu sözlər isim kimi felə nisbətən daha dar məna çərçivəsinə malik olur.

İsimdən felə konversiya adətən hər hansı hərəkəti bildirmək üçün işlədilir: *a)He pocketed the money .b)They have been filming for six months. c)He shaped a pot on a wheel. d)They named the child Ali.*(8, p.62) Burada *shape* 'forma vermək', *name* 'ad vermək' mənalarında işlənilir.

Sifətdən felə konversiyaya aid nümunələrə nəzər salaq: *a)You should slow up a bit if you want to avoid a breakdown. b)He opened the door to let me in. (*8, p.71).Baxmayaraq ki, bu sifətler felə konversiya ediblər, onlar hələ də sifətdəki mənani ifade edirler. Sifətin ismə konversiyasina aid isə bu nümunələri göstərə bilərik: a) *You must be prepared for the worst. b)I am telling you for you own good.*(8, p.73).

Tipoloji cəhətdən flektiv dil olan rus dilində də konversiya hadisəsi ingilis dilində olduğu kimi geniş vüsət almışdır.. Rus dilində keçid zamanı nitqdə sözün funksiyası dəyişir, yeni qrammatik keyfiyyət qazanır. Bu zaman söz əvvəlki əlaqələrini itirərək, başqa sözlərlə yeni əlaqələr yaradır. Nitq hissələrində keçid yeni keyfiyyət elementlərinin davamlı toplanması, əvvəlki keyfiyyət elementlərinin isə tədricən yox olması yolu ilə baş verir. İngilis dilindən fərqli olaraq rus dilində bəzi nitq hissələri müəyyən morfoloji göstəriciyə malik olsa da, onların əsasları eynidir.

Konversiya hadisəsi ən çox flektiv dillərə məxsus olsa da, bu dil hadisəsinə müəyyən qədər Azərbaycan dilində də rast gəlinir. S.Abdullayeva bu barədə yazır: "Konversiya Azərbaycan dilində geniş yayılmışdır. Bu proses sözün çoxmənalılığı və bəzi formaların öz paradiqmalarından ayrılması nəticəsində baş verir. Konversiya nəticəsində omonimliyin müxtəlif növləri omoformlar, omoqraflar və omonimlər yarana bilər"(1, s.25). Azərbaycan dilində konversiya zamanı sözlər semantik inkişafla əlaqədar yeni mənalar qazanırsa, bu hadisəsini söz yaradıcılığının bir üsulu adlandırmaq olar. Belə sözlər yazılışı və deyilişi cəhətdən eyni olsa da, məna və vəzifələrinə, aid olduqları nitq hissələrinə görə fərqlənirlər. Məsələn*, bərk (sifət)—bərk (zərf), xeyli (say)—xeyli (zərf), kimi (qeyri-müəyyən əvəzlik)—kimi (qoşma) və s.* Akademik Ağamusa Axundov konversiyanın dilimizdə yalnız dörd növünün olduğunu göstərir: 1) sintaktik konversiya 2) morfoloji-sintaktik konversiya 3) semantik-sintaktik konversiya 4) semantik konversiya. Azərbaycan dilində konversiyaya ən çox sifət, say və əvəzliyin adverbiallaşmasında rast gəlinir (3, s.160). Belə ki, bu zaman sözlər isimdən ayrılaraq feldən qabağa keçir, əşyaya deyil, hərəkətə aid olur. Azərbayca dilinə aid qrammatika kitablarında eyni sözün müxtəlif nitq hissələrinə aid edilməsi faktları ən çox bu nümunələrdə öz əksini tapır: 1) *daş, dəmir*-isim, sifət 2) *axşam, gecə, səhər*-isim, zərf 3) *az,xeyli*-say, zərf 4) *deməli*-feil, modal söz və s. Azərbaycan dilində işlənən 'artıq' sözünə nəzər salaq: 1*) Hər kəs nə qazansa yeyir, artığını da gizləyir.*(Ə.Haqverdiyev) 2) *Bunların hamısı artıqdır.* 3)

Artiq tanrı sənə dost deyil, ana.(S.Rüstəm) (4, s.98). Verilən nümunələrdə 'artıq' sözü isim,sifət və ədat kimi işlənilmişdir.

Qeyd edək ki, morfoloji səviyyədə konversiya ilə yanaşı leksik-semantik səviyyədə baş tutan konversiya zamanı da hər hansı bir dilin lüğət tərkibi genişlənir. Bu zaman heç bir şəkli dəyişikliyi olmayan sözlər başqa leksik-semantik qrupa daxil olur. Leksik-semantik konversiyada eyni sözlər yalnız köklərdən ibarət olur. Məsələn, "yaxşı" sözünü götürək.(2, s.15). Bu leksik vahid yalnız kökdən ibarətdir. Leksiksemantik konversiya statusu qazanmaq üçün bu sifət zərfə keçməli və onun sintaktik funksiyasını qazanmalıdır". Leksik-semantik səviyyədə baş verən konversiya zamanı törəmə sözlə mənbə söz etimoloji cəhətdən eyni olsalar da, bəzən bu cütlüklərin mənaları tamamilə bir-birindən fərqlənərək omonimlərin yaranmasına səbəb olur. Məsələn, ingilis dilində *toast→to toast* konversiya cütlüyü. Burada *to toast* feili orta əsrlərdə yaranaraq ingilis dilində *yandırmaq, bərk qızdırmaq* mənasını verirdi və daha sonralar o *ocaqda qızardılmış bir tikə çörək* mənasını verən ismin yaranmasına səbəb oldu. Müəyyən müddətdən sonra bu isim məcazi mənada işlənməklə *məclislərdə şərəfinə qədəh qaldırılan xanım* mənasında istifadə olunmağa başlanıldı. Daha sonralar bu isim özlüyündə *kiminsə şərəfinə qədəh qaldırmaq* mənasını verən felin yaranmasına səbəb oldu.(6, c.52). Göründüyü kimi burada mənbə və törəmə sözlər omonimlərdir. Leksik-semantik konversiya zamanı əsasən ingilis dilində heyvan adlarının semantikasının mürəkkəb metoforik və metonomik transformasiyası baş verir. Məsələn: *To dog* 'iziylə getmək, güdmək', *To ape* 'axmaqcasına yamsılamaq,hoqqabazlıq etmək'. (9, p.89). Bir məqamı da nəzərdən qaçırmayaq ki, konversiya bütün dillərdə kontekstdə nəzərdən keçirilir, yəni sözün paradiqmatik mənası kontekstdə daha dəqiq müəyyən edilir.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayeva S. Müasir Azərbaycan dilində zərf. Bakı: Maarif, 1991, 160 s.
2. Abdullayev R.M. Türk dillərində leksik-semantik konversiya (Oğuz qrupu türk dilləri materialları əsasında): Fəl. elm. dok. ... dis. Bakı, 2008, 158 s.
3. Axundov A. Ümumi dilçilik. Bakı: Şərq-Qərb, 2006, 280 s.
4. Azərbaycan dilində omonimlər lüğəti. Bakı: Şərq-Qərb, 168 s.
5. Лингвистический энциклопедический словарь / Под ред. В. Н. Ярцева. М.: Большая Российская энциклопедия, 2002, 709 с.
6. Тышлер И. С. Словарь лексических и лексико-грамматических омонимов современного английского языка. Саратов, 1975, 384 с.
7. Bauer, L. English Word Formation. Cambridge: Cambridge'University Press. 2002, 306 p.
8. Carstairs-McCarthy, Andrew. An Introduction to English Mosphology: Words and TheirStructure. Edinburgh: Edinburgh UniversityPress.2002 , 168 p.
9. Webster's New World Dictionary and Thesaurus ,2nd Edition, 2002, 768 p.

Турана Эльшад Гурбанова

Феномен конверсии в разносистемных языках

Резюме

В статье рассматривается конверсии как интересное языковое явление, происходящее на основе взаимного изучения планов выражения и содержания языка. Феномен конверсии более выражен в китайском и английском языках, где чаще встречаются нулевые морфемы. Конверсии можно обнаружить в английской грамматике, лексике и словообразовании.

При конверсии слово попадает в новую синтаксическую среду, выступает с новой синтаксической функцией, а затем формируется новое значение, а в результате морфологических изменений слова формируются иные парадигмы.

При рассмотрении явления конверсии как вида морфологических средств целесообразнее говорить главным образом о его морфолого-синтаксическом типе. В этом случае преобразование происходит за счет нулевых морфем. Феномен конверсии можно обнаружить в английской грамматике, лексике и словообразовании. Появление новых слов путем конверсии является специфической особенностью английского языка. В английском языке новое слово, образованное конверсией, принимает на себя окончания грамматической формы части речи, выполняет иную синтаксическую функцию и приобретает новое лексико-грамматическое значение.

Конверсия — это процесс деривации, при котором лексема, принадлежащая к одному классу, может быть просто «преобразована» в другой без изменения. Следует отметить, что наряду с конверсией на морфологическом уровне лексическое содержание любого языка расширяется при конверсии на лексико-семантическом уровне. В этом случае слова без изменения образа относятся к другой лексико-семантической группе. Есть много примеров существования конверсии в языке. Этот процесс не так прост, как кажется. Помимо изменения функции, новые слова, созданные путем преобразования, также имеют другое значение. В эту группу обычно входят существительные и глаголы. В эту группу можно включить и слова, относящиеся к другим частям речи.

Ключевые слова: *разносистемные языки, конверсия, омонимы, нулевой аффикс, словообразование*

Turana Elshad Gurbanova

The Phenomenon of Conversion in multisystem languages

Summary

The article considers conversion as an interesting linguistic phenomenon, which occurs on the basis of mutual study of the plans of expression and the content of the language. The conversion phenomenon is more used in Chinese and English, where zero morphemes are more common. Conversions can be found in English grammar, vocabulary and word formation.

During conversion, the word enters a new syntactic environment, appears with a new syntactic function, and then a new meaning is formed, and as a result of morphological changes in the word, other paradigms are formed.

When considering the phenomenon of conversion as a type of morphological means, it would be more expedient to speak mainly of its morphological-syntactic type. In this case, the conversion takes place at the expense of zero morphemes. The phenomenon of conversion can be found in English grammar, vocabulary and word formation. The emergence of new words through conversion is a specific feature of the English language. In English, a new word formed by conversion assumes the endings of the grammatical form of the part of speech, has a different syntactic function and acquires a new lexical-grammatical meaning.

Conversion is a process of derivation, and the process by which a lexeme belonging to one class can simply be "transformed" into another without change. It should be noted that along with the conversion at the morphological level, the lexical content of any language expands during the conversion at the lexical-semantic level. In this case, words without any image changes belong to another lexical-semantic group. There are many examples of the existence of conversion in language. This process is not as simple as it seems. In addition to changes in function, new words created through conversion also have different meanings. This group usually includes nouns and verbs. Words related to other parts of speech can also be included in this group.

Key words: *multysistem languages*, *conversion, omonymy, zero-affix, word-formation*

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi:professor Həbib Zərbəliyerv
tərəfindən çapa tövsiyə olunmuşdur

MAHMUDOVA ZÜMRÜD ARIF
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
Baş müəllim
Zumrud.mahmudova@sport.edu.az

XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ FƏAL TƏDRİS METODLARININ ROLU VƏ ƏHƏMİYYƏTİ

Xülasə

Fəal öyrənmə tələbələrə mənalı danışmaq və dinləmək, yazmaq, oxumaq və akademik fənnin məzmunu, ideyaları, problemləri və çətinlikləti üzərində düşünmək üçün imkanlar təmin edir. Aktiv öyrənmə həm də mühazirə ilə öyrənməkdən daha çox şey etməklə öyrənməyə yönəlmiş öyrənmə üsuludur. Təlimatçılar yalnız nəzarətçi və ya müəllim olmaqdan daha çox obyekt rolunda olacaqlar, Aktiv öyrənmə öyrənənlərə öz öyrənmə prosesini və analiz, sintez və qiymətləndirmə kimi yüksək nizamlı düşüncəni tətbiq etməyə kömək edə bilər. Sinifdə fəal öyrənməyə nail olmaq üçün müəllim əsas rol oynaya bilər və bunun üçün o tədris üsulunu bilməlidir. Şagirdlərin qiymətləndirilməsi öyrənənlərə və müəllimlərə təlim problemlərini və növbəti dərsləri təkmilləşdirmək üçün təklifləri bilməyə kömək edən təlim tapşırıqlarının mühüm komponentidir. Fəal öyrənmə müxtəlif fəaliyyətlərə malikdir, müəllimlər ən faydalısı üçün tədris məzmununa uyğun fəaliyyətləri seçə bilər.

Dil bacarıqlarının inkişafı üçün aktiv öyrənmə cari təhsil təlimatının mühüm komponenti olacaq ki, bu da tələbələrin bütün dil bacarıqlarını inkişaf etdirəcək; dinləmək, danışmaq, oxumaq və yazmaq. Şagirdlərin inkişafına nail olmaq üçün müəllimlərə lazım olan bacarıqlar məhz bunlardır. Bundan əlavə, bu tələbələrin paralel olaraq inkişaf edə biləcək tənqidi düşünmə bacarıqlarını təkmilləşdirə bilər. Şagirdlər etməklə öyrənə bilər, eyni zamanda sinif atmosferi öyrənənləri öz tapşırıqlarını yerinə yetirmək üçün inamlı və həvəsli hiss etməyə təşviq edən əyləncəli olar. Bununla belə, bu, müəllimləri təkmilləşdirə bilər, çünki öyrənənlər üçün uyğun şəkildə inteqrasiya etmək üçün fəal öyrənmə yaradılacaqlar.

Açar sözlər: fəal öyrənmə, rollu oyunlar, nitqin təkmilləşdirilməsi, dioloji nitq, fəal telim metodları, axtarış, motivasiya

Bu gün ünsiyyət və xarici dillərin bir neçə il əvvəlkindən daha vacib olduğu qloballaşan dünyaya uyğunlaşmağa ehtiyac var. İngilis dili beynəlxalq ünsiyyət dilidir. Müasir ingilis dili çox köhnə dilin ən sadə uyğunlaşmasıdır, lakin bu dili effektiv şəkildə öyrətmək hələ də çətindir, xüsusən də ingilis dilini ikinci, hətta üçüncü dil kimi bilənlər üçün.

Təkcə tədris qaydaları əksər tələbələr üçün darıxdırıcıdır və buna görə də onlar dil öyrənməyə maraqlarını itirirlər. Dilin əsaslarını öyrətmək üçün ənənəvi metoddan başqa heç bir yol olmasa da, tələbələrin marağında qalmaq üçün bu yanaşmalar bir qədər dəyişdirilməlidir. Artıq qaydaları bilən orta məktəb şagirdlərinə ingilis dilinin öyrədilməsinə gəlincə, ənənəvi üsullardan istifadə etmək adətən müasir və innovativ metodlardan daha pis nəticələr verir. Bu üsullar tələbələrin özləri dərk etmədən dili daha yaxşı öyrənmələrinə kömək edir və bu, onları maraqlandırır. Bir çox tədqiqatlar ingilis dilini öyrətmək üçün faydalı yanaşma və metodları təqdim edir. Yüz illərdir mövcud olan ənənəvi "təbaşir və nitq" tədris metodu bu gün məktəblərdə tətbiq olunan daha müasir və inqilabi tədris metodlarından daha aşağı nəticələr əldə etməkdədir. Nəticədə şagirdlərin qarşılıqlı əlaqəsi təşviq edilir, səriştələr pozulur və qiymətlərdən həzz almağa daha çox diqqət yetirilir.[3, s 21]

Bəzən dil tədrisində eyni metodlardan istifadə şagirdin dilə marağını azalda bilər. Xarici dilə marağı azaltmamaq üçün praktikada bəzi tədris növlərindən istifadə edilir:

1. **Dialoji nitq** - bu şagirdlərin yaradıcı yanaşma yolu ilə danışdıqları nəzərə alınır. Müasir ingilis dili tədrisi metodologiyası nitq bacarıqlarının inkişaf etdirilməsində Dialoqlar vasitəsilə Danışmağa üstünlük verir. Bunlardan bədii mətnlər də daxil olmaqla müxtəlif tədris vəsaitləri vasitəsilə şagirdlərə bacarıqların öyrədilməsi üçün istifadə oluna bilər. Bu cür dialoqlar mətnlərə ənənəvi təqdimatdan qaçmağa və onları canlı ingilis nitqinə çevirməyə imkan verir. "Həmçinin bütün lüğət daha yaxşı yadda qalır. Dialoqlarda şagirdlərə səlis danışıq, cəld reaksiya, aktyorluq bacarıqları və təbii ki, qrammatik dəqiqlik öyrədilir.

2. **Şagird mətni oxuyur və mənasını deyir**. Oxumaq interaktivdir. Məşhur ingilis və amerikan yazıçılarının hekayələrini, romanlarını və digər ədəbi əsərlərini oxumaq dil öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. İngilis dili müəllimi olaraq siz müxtəlif oxu strategiyalarından istifadə edə, ədəbi elementləri təhlil edə, tanış olmayan sözləri oxuya və lüğətinizi artıra, ədəbi şərhləri hazırlamaq, təşkil etmək və təqdim etmək üçün müxtəlif strategiyalardan istifadə edə bilərsiniz.

3. **Dinləyib-anlama** - Şagirdlərin nitq bacarıqlarını belə təkmilləşdirmək olar. Dinləmə nitq fəaliyyətinin reseptiv formasıdır. Dinləmə prosesində nitqi anlama əsasən eşitmə qavrayışına əsaslanır. Eşitdiklərimizi qavrayış vasitəsilə daxili nitq şəklində təkrarlamaq lazımdır. Dinləyib-anlama nitq motor analizatoru olmadan işləmir. Təbii ki, daxili nitq bu dildə danışmaq bacarığını tələb edir. Səsli nitqin başa düşülməsi məzmunun başa düşülməsi və şərh edilməsi prosesində nitq vasitələrinin tanınmasını əhatə edən intellektual fəaliyyətlə müşayiət olunur.

4. **Filmlərə baxaraq ingilis dilini öyrənin**. Müasir dövrdə müəllimlər şagirdlərin kitab, jurnal, qəzet, eləcə də real kitab oxuma ehtiyacını nəzərə alırlar. Məlumdur ki, xarici dilləri öyrənmək üçün təkcə çap məhsulları deyil, mahnı və filmlər də böyük mənbədir.

5. **Lüğət tədrisinin əhəmiyyəti**. İnstitutlarda tədris olunan dilin bir istiqaməti lüğətdir. Oxucu yeni lüğət öyrənməklə yanaşı, mətni dinləyərkən və ya oxuyarkən rastlaşdığı naməlum lüğətlə də məşğul ola bilər, tanış lüğətdə səlis danışır, nitq və yazıda effektiv lüğətdəki boşluqları doldurur, yeni sözləri öyrənmək üçün strategiyalardan istifadə etməlidir. Lüğət öyrənmək öz-özünə bitmir. Zəngin lüğət dinləmə, danışma, oxuma və yazma bacarıqlarını asanlaşdırır. Ənənəvi təlim danışıq, analitik oxu, evdə oxu, qrammatik təcrübə və tətbiqi fonetika kimi bir neçə növə bölünür. Nəticədə 3-4 müəllim şagirdlərə müxtəlif üsullarla dərs deyir, ona görə də tərəflər arasında ünsiyyət olmur. Bəzi tələbələr qrammatikanı yaxşı öyrənirlər, lakin nitqdə sözləri tələffüz etməkdə çətinlik çəkirlər. Belə olduqda bəzi suallarla qarşılaşırıq. Yəqin ki, doğrudur, lakin kursda yeni üslubda tədrisin bütün aspektləri paralel aparılır. [4, s 134-138,141]

Nəzəriyyə sinifdə müxtəlif tapşırıqlar, oyunlar və müzakirələr vasitəsilə möhkəmləndirilir. Aşağıdakı üsullarla yaxşı nəticələr əldə edən qruplar haqqındadır:

- Şagirdlərin bilik səviyyəsi, öyrənmə imkanları öyrənilir; tapşırıqlar bu şəkildə verilir;
- Tələbələrin diqqəti praktikada tam bərqərar olur və heç bir tələbə kənarda qalmır;
- Şagirdlər dərs zamanı əsasən xarici dildə danışır, anlaşılmaz sözlərin tərcüməsi dərhal tələffüz edilmir, sifət mimikasının köməyi ilə etməyə çalışır;
- Şagirdlər kiçik qruplara bölünür və aşağıdakı üsullardan istifadə edirlər: “müzakirələri inkişaf etdirmək”, “fikirlərini bildirmək”, “birlikdə işləmək”;
- Şagirdlərə sərbəst düşünmək və fikirlərini ifadə etmək imkanı vermək, onların səhvləri dərhal düzəldilmir, tələbələrin çıxışından sonra birlikdə müzakirə edilir;
- Müxtəlif qrammatikalar, fonetik və digər oyun növləri. Beləliklə, rollar şagirdlərin biliklərinə uyğun olaraq bölüşdürülür;
- Mətnlərə, müxtəlif şəkillərə və qısametrajlı filmlərə baxmaq və müzakirə etmək, mövzu ilə bağlı xəbərləri dinləmək və həyata keçirməyə çalışmaq. [1, 89-90]

Fəal öyrənmənin faydaları nədir? Fəal öyrənmə həm sinifdə, həm də sinifdən kənarda bütün səviyyələrdə olan tələbələrlə qruplar və fərdlər tərəfindən müəyyən edilə bilər ki, bu da şagirdlərin öz fəaliyyətlərini həyata keçirməyə həvəsləndiriləcəklər. Fəal öyrənmənin xüsusiyyətləri öyrənənlər üçün aşağıdakı faydalar ola bilər:

1. Beyni inkişaf etdirmək üçün fəal öyrənmə fəaliyyətidir
2. Öyrənənlərin dil istifadəsini və yüksək təfəkkür bacarıqlarını inkişaf etdirir.
3. Öyrənənlərin özləri tərəfindən biliyi qazanmaq- öyrənmək tərzidir.
4. Bu, öyrənənləri mühazirəyə qulaq asmaqdansa, özləri etməyə təşviq edir.
5. Müəllimin rolu mühazirəçidən çox fasilitatordur.
6. Bu, öyrənənlərin öyrənmə fəaliyyətlərində daha çox əməkdaşlıq edə bilməsini təmin edir.
7. Öz biliklərini yaratmaq və əldə etmək üçün öyrənənlərin rollarını təmin edir
8. Bu, öyrənənlərə daha çox qarşılıqlı əlaqə və mənalı öyrənməyə kömək edir.

9. Bu, öyrənənləri daha çox məsuliyyətli, nizam-intizamlı və idarəedici rola malik olmağa təşviq edir
10. Dilçilik, riyaziyyat, elm və s. kimi bir çox elmləri birləşdirir.
11. Mühazirə oxumaq üçün müəllimin rolunu azaldır, lakin təkmilləşmək üçün öyrənənlərin rolunu artırır bacarıqlar. [6, s 101-102]

Xarici dil öyrənməni təkmilləşdirməyin bəzi yolları da var. Dərslər dərslər üçün tələb olunan bütün təcrübə əsasında tam ingilis dilində aparılır. Yəni şagirdlər dili oxumaq, dinləmək, yazmaq məşqi etmək, nitqi təkmilləşdirmək və s. vasitəsilə başa düşməyə başlayırlar. Şagirdlər dərsin mərkəzinə çevrilirlər, müəllim yox. Müəllim yalnız şagirdin bilik əldə etməsinə kömək edir. Bu yolla öz-özünə öyrənmə imkanı artır. Dərslər qeyri-ənənəvi xarakter daşıdıqda tapşırığın növünə görə cütlərə və ya kiçik qruplara bölünür, şagirdlər qrup və ya fərdi şəkildə işləyirlər. Məsələn, dərsin əvvəlində müəllim plan qurur və xəbərləri şagirdlərlə bölüşür. Hər bir tələbə bu planda iştirak edir və xəbərləri bir-biri ilə bölüşür. Nəticədə biliklər paylaşılır və bütün tələbələr mövzu ilə tanış olurlar. Bəzi məşqlər bir cüt və ya bir qrup tələbə tərəfindən edilir. Qrupda işləmək üçün tələbələrə aşağıdakı tapşırıqlar verilir: müzakirələrin təşkili, rollu oyunlarla mövzunun müzakirəsi və yüksək texnologiya ilə işləmək. Cütlərlə işləmək üçün onlara dialoqlar, qrammatik materiallar, eləcə də oxu verilir. Bu üsullardan istifadə etməklə biz bütün şagirdləri dərsdə iştirak etməyə məcbur edirik və müəllim hər şagirdə ehtiyaclarına uyğun köməklik göstərə bilər. [2, s 25]

Dil öyrənməkdə əsas məsələ şagirdləri maraqlandırmaq, yəni onları həvəsləndirməkdir. Tələbəni dərs zamanı və dərsdən sonra aktiv saxlamaq vacibdir. Bütün dünyada müəllimlər tələbələrə xarici dilləri necə uğurla öyrətmək barədə daim axtarışdadırlar. Bir çox təsirli tədris üsulları var. Ənənəvi metodlarla müasir metodlar arasındakı əsas fərqlərdən biri də ondan ibarətdir ki, müasir tədris "Şagird mərkəzli - tədris" deməkdir ki, bu da tədris prosesini elə bir miqyasda qaldırır ki, bu, tələbələr üçün nəinki faydalı, həm də əyləncəli olacaq. Layihə işi, dialoqların inkişafı, nitq bacarıqları, qrup/cüt işi, bütün sinif fəaliyyəti, şagird motivasiyası, müxtəlif oyunlar, rol oyunları və fiziki fəaliyyət kimi yaxşı dozalar müasir tədrisdə vacibdir. Bu gün müəllimlər aşağıdakı faktla üzləşirlər: Dil müəllimləri həm modelə, həm də alətə ehtiyac duyurlar. Mühüm nəzəriyyələrə, məqsədlərə və vəzifələrə əlavə olaraq - yaradılmalı olan ideya və ya nümunə - onlar öyrənmək, düşünmək, sınaq və səhvlər və öz peşələrində uğur qazanmaq üçün lazım olan vasitələrdən istifadə etmək üçün təcrübə üçün lazımdır. İşlərini faydalı və zövqlü etmək barədə ciddi düşünməlidirlər. İngilis dilinin tədrisinin müasir üsullarını öyrənən və tətbiq edən müəllimlər öz ləyaqətini - özünü, ailəsini, icmasını, dünyanın böyük icmasını dəyərləndirən müəllimlərdir. Nəhayət, bu şəxslər seçdikləri peşələrin icraçılarıdır - praktiki uğur qazanırlar. Ona görə də biz əminik ki, bizim işimiz böyük əhəmiyyət kəsb edəcək və müasir və müasir peşəkar olmaq istəyən müəllimlərə kömək edəcəkdir. [5, s 78]

İngilis dilinin tədrisinin müasir metodları müəllimlər və tələbələr üçün həm çətin, həm də tələbkar ola bilər; onlar da çox stimullaşdırıcı və faydalı ola bilərlər.

Bu yanaşmaları institutlarda nə dərəcədə tətbiq etməyimiz tələbələrimizin istəklərindən, müəllimlərimizin ixtisaslarından və onların bu Müasir metodları tətbiq etməyə hazırlığından və ətrafımızdakı resursların mövcudluğundan asılı ola bilər. Eyni zamanda, ali məktəblərdə təhsilin səviyyəsinin yüksəldilməsi zərurəti bu gün aydındır. Fikrimizcə, sinifdə əməkdaşlıq mühitinin yaradılması, tədrisə intellektual və informativ yanaşmalar, şagirdlərin ümumiləşdirilməsi, onlara deduktiv nəticələr çıxarmağı öyrətmək, həmçinin mübahisə və fərdi öyrənmək bacarığının inkişaf etdirilməsi də əsas meyardır. Həyat boyu fəaliyyət növlərini genişləndirmək və təkmilləşdirmək üçün bütün imkanları təmin etmək vacibdir. Yaxşı tədris strategiyaları və metodları şagirdlərin onlardan nə gözlədiyini və aydın əldə edilə bilən məqsədləri olan müxtəlif öyrənmə ardıcıllığını bilməsi üçün diqqətlə planlaşdırmağı və balansı ifadə etməyi əhatə edir. Bunlara həmçinin layihə işi (sinif jurnalları, qrup divar sərgiləri), əməkdaşlıq, şagirdin özünüqiymətləndirməsi, rol oyunları və tələbələrin özbaşına nə edəcəklərinə qərar verməkdə iştirak etdikləri qrup işi, cüt iş, dialoqlar daxildir. Bütün bunlar şagirdlərdə səmərəli işləmək bacarığının inkişafına kömək edir. Həmçinin, bütün lüğət bunun nəticəsində daha yaxşı yadda qalır. Dialoqlarda tələbələrə səlis danışıq, cəld reaksiya, aktyorluq bacarıqları və təbii ki, qrammatik dəqiqlik öyrədilir. Qrup və cüt iş gündəlik tədris işimizin bir hissəsidir və hər hansı kommunikativ tapşırığı həll etmək üçün sinfi bölmədən əvvəl düşünməyi dayandırmaq çətindir. Qrup işi müəllimə tələbələrin şifahi nitqinə daha çox vaxt ayırmağa imkan verdi ki, bu, yəqin ki, əvvəllər xarici dillər kabinetinin prioriteti deyildi. [6, s 90-93]

Başqa bir gözəl məqam Motivasiyadır. Çox güman ki, motivasiya şagirdin öyrənmə qabiliyyətinə böyük təsir göstərir. Motivasiyanı xarici və daxili formalara bölmək olar. Daxili forma öyrənmək istəyən tələbənin içindən gəlir. Müəllimlər üçün yaxşı xəbər ondan ibarətdir ki, biz xarici motivasiya səviyyəmizi artırmaq üçün sinifdə çox şey edə bilərik. Dairəvi oyunlar dairədə oturaraq bütün sinfi əhatə edən çox faydalı fəaliyyətdir. Bir çox oyun lüğəti yenidən işləyir və maraqlı elementi ehtiva edir. İndi cütlük və kiçik qruplarla işləmək çox dəbdədir. Bütün bu yanaşmalarda etiraf edilməli olan ən güclü cəhət odur ki, onlar həm tələbələri, həm də müəllimi cəlb etməyə yönəlib. Tələbələrə öz ağıllı peşəkarları kimi yanaşıldıqda və tədris və öyrənmədə tez-tez əlaqələndirdikləri arxaik modellərdən kənara çıxan və təkmilləşən yanaşmaları tətbiq etmək üçün çeviklik verilərsə, onlara fərqli münasibət göstəriləcək. [4, s 67]

Ədəbiyyat

1. Bergmann J., Sams A. Flipped Learning: Gateway to Student Engagement2014.
2. Dr. Mittal R., Dr. Rathore A. English Learning Made Easy - Strategies and Approaches. Moradabad, 2015.

3. Elliott D.C. Teaching on Target: Models, Strategies, and Methods That Work. California, 2005.
4. Richards J.C., Rodgers T.S. Approaches and Methods in Language Teaching. Cambridge: Cambridge University Press 2001.
5. Rogova GV Methods of teaching English. Leningrad, 1975.
6. Satya R.K. Modern Methods of Teaching English. New Delhi, 2008.

Mahmudova Zumrud

The role and importance of active teaching methods in teaching foreign languages

Summary

Active learning provides opportunities for students to meaningfully speak and listen, write, read, and reflect on the content, ideas, problems, and challenges of an academic subject. Active learning is also a learning method that focuses on learning by doing rather than learning by lecturing. Instructors will be in the role of objects rather than just supervisors or teachers, Active learning can help learners practice their own learning process and higher order thinking such as analysis, synthesis and evaluation. To achieve active learning in the classroom, the teacher can play a key role and for this he must know the teaching method. Student assessment is an important component of learning assignments that helps learners and teachers identify learning problems and suggestions for improving future lessons. Active learning has a variety of activities, teachers can choose the activities that suit the teaching content for the most useful.

Active learning for the development of language skills will be an important component of current educational instruction, which will develop all language skills of students; listening, speaking, reading and writing. These are the skills teachers need to achieve student development. In addition, it can improve students' critical thinking skills that can be developed in parallel. Students can learn by doing, while the classroom atmosphere is fun, encouraging learners to feel confident and motivated to complete their assignments. However, it can improve teachers because active learning will be created to integrate appropriately for learners.

Key words: active learning, role-playing games, speech improvement, dialogic speech, active learning methods, search, motivation

Махмудова Зумруд

Роль и значение активных методов обучения в обучении иностранным языкам

Резюме

Активное обучение дает учащимся возможность осмысленно говорить и слушать, писать, читать и размышлять о содержании, идеях, проблемах и задачах учебного предмета. Активное обучение также является методом обучения, который фокусируется на обучении на практике, а не на чтении лекций. Инструкторы будут выступать в роли объектов, а не просто руководителей или учителей. Активное обучение может помочь учащимся практиковать свой собственный процесс обучения и мышление более высокого порядка, такое как анализ, синтез и оценка. Для достижения активного обучения в классе учитель может играть ключевую роль, и для этого он должен знать метод обучения. Оценка учащихся — важный компонент учебных заданий, который помогает учащимся и учителям выявлять проблемы с обучением и предложения по улучшению будущих уроков. Активное обучение включает в себя множество видов деятельности, учителя могут выбрать те виды деятельности, которые соответствуют учебному содержанию, как наиболее полезные.

Активное обучение для развития языковых навыков будет важным компонентом текущего образовательного обучения, которое будет развивать все языковые навыки учащихся; аудирование, говорение, чтение и письмо. Это навыки, необходимые учителям для развития учащихся. Кроме того, это может улучшить навыки критического мышления учащихся, которые можно развивать параллельно. Учащиеся могут учиться на практике, а атмосфера в классе веселая, побуждающая учащихся чувствовать себя уверенно и мотивированными для выполнения своих заданий. Тем не менее, это может улучшить учителей, потому что активное обучение будет создано для надлежащей интеграции учащихся.

Ключевые слова: активное обучение, ролевые игры, совершенствование речи, диалогическая речь, активные методы обучения, поиск, мотивация.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: Fil.ü.e.d. Ağayeva Validə tərəfindən çapa tövsiyə olunmuşdur

LALƏ ƏFƏNDİYEVA,
Bakı Dövlət Universiteti,
filologiya üzrə fəlsəfə doktoru, dosent,
lalare@mail.ru

EPİSTOLYAR MƏTNLƏRDƏ FUNKSİONALLIQ

Epistolyar mətnlər də digər mətnlər kimi, müəyyən məqsədlə tərtib edilir, konkret bir oxucuya ünvanlanır və kommunikasiya vahidi olaraq sırf linqvistik material kimi, gerçəklikdən təcrid olunmuş şəkildə nəzərdən keçirilə bilməz. Bu mətnləri onların nitq prosesindəki funksiyalarına uyğun nəzərlən keçirmək və sosial hal kimi qəbul etmək daha düzgündür, yəni epistolyar mətnlərin öz müəlliflərindən təcrid olunmuş şəkildə deyil, həmin şəxslərin fəaliyyətinin bilavasitə tərkib hissəsi kimi araşdırılması daha məqsədəuyğun hesab edilir. Belə ki, epistolyar mətnlər insanın həyat təcrübəsi və fəaliyyətinin hər hansı bir fraqmentini əks etdirir. Bunları nəzərə alaraq, epistolyar diskursu mürəkkəb kommunikasiya aktı kimi nəzərdən keçirmək olar; buraya nitq fəaliyyəti ilə yanaşı, sosial kontekst, kommunikasiya iştirakçıları haqqında müəyyən təsəvvürlər, həmçinin adresatın məlumatı dərk etməsi və ona münasibəti, şəxsi yanaşması prosesi də daxildir. Epistolyar diskursun yaradılması və davam etdilirilməsi məsələsi məhz onun funksional istiqamətlərinin nəzərdən keçirilməsi ilə birlikdə daha aydın təsəvvür yarada bilər. Dil ünsiyyət, məlumat, dərketmə, özünüfadə, təsir vasitəsi, həmçinin sosial təcrübə toplamaq və onu paylaşmaq vasitəsi olduğu üçün onun fatik, informativ, koqnitiv, apellyativ, referensial funksiyaları mühüm amillərdir.

Dilin mövcudluğunu şərtləndirən mühüm amillərdən biri onun kommunikativ funksiyasıdır və dildən istənilən səviyyədə istifadədə təzahür edir. «Kommunikativ funksiya (ünsiyyət funksiyası) epistolyar mətnlərin bütün janr-üslub müxtəlifliklərində verbal şəkildə izah edilməsidir. Bu funkstiyanın təsiri nəticəsində müəlliflə adresat arasında sonradan məlumatın adresata ötürülməsi və ona təsir göstərilməsi məqsədilə əlaqə yaradılır. Kommunikativ funksiya bilavasitə epistolyar mətnlərin strukturunda gerçəkləşir; kommunikativ funksiya çərçisində fatik, informatik və apellyativ funksiyalar realizə edilir. Bu funksiyaların hər birində isə emosional (danışanın hislərini ifadə etməsi), dəyərləndirmə, estetik (estetik duyğulara müraciət), etiket funksiyası (nitq etiketlərinin əks olunması və gerçəkləşməsi funksiyası) «cəmlənə» bilər» (6, 146). Deməli, epistolyar diskursun əsas funksiyası ünsiyyətdir, ancaq bu, ilk növbədə, dostluq və bir-biri ilə rəsmi münasibət deyil, daha yaxın əlaqədə olan insanların yazışmasında muşahidə edilir. Ancaq digər məktub növlərində, məsələn xahiş, təvəqqe ilə müraciət əks olunan və dahaçox rəsmiyyət gözlənilən məktub mətnlərində fatik (adresatla muəllif arasında əlaqə yaradılmasına yönəldilmiş) funksiya ön plana çıxa bilər. İlk növbədə yazılı nitq ünsiyyəti qurmağa yönəldilmiş istənilən məktub üçün əlaqə funksiyası mütləqdir

və məktubların müəyyən arxitektonikasında formal olaraq öz əksini tapır. Adresata müraciət və adresatı salamlama ilə əlaqə yaratmaq prosesidir: «Əziz və möhtərəm dostum A. Nadirova! Ərzi-salamdan sonra öz vəziyyətim barəsində bir neçə kəlmə yazmaq istəyirəm. Beş aydan bəri xəstə idim. İki ay xəstəxanada yatandan sonra bir neçə gündür ki, evə gəlmişəm. Yoldaşların köməyi olmasaydı, ayağa qalxa bilməyəcəkdim» (4,10). Əvvəl alınmış məktub üçün təşəkkür, həmçinin məktubun yazılma səbəbinin izah edilməsi əlaqə yaradılmasının təsdiqini nümayiş etdirir (*Pək möhtərəm Əli Mərdan bəy! Sizin 20 noyabr tarixli məktubunuzu dekabrın 3-də aldım. Gərək ki, dəmir yolundakı tətillə əlaqədar gecikib. Siz yəqin ki, Bakıdakı yeni hadisələr barədə yazdığım məktubu artıq almısınız (*3, 27). Adresantın ayrılma (sağollaşma) ifadə edən nitq etiketləri, imzası nitq aktının başa çatdırılmasını nümayiş etdirir: *Hələlik bu qədər əziz qardaşım. Pəri xanıma, Sara xanıma, bütün Topçubaşovlara salam. Abbasqulunun salamı var. Məmməd Əmin* (3, 40). Bu sadalanan nümunələr məktubların formatını müəyyən edir və onun hüdudlarını göstərir. Bir qayda olaraq, fatik kommunikasiyanı qeyri-informatik ifadələr təşkil edir, müsahiblər əlaqə yaratmaq məqsədilə hörmət, nəzakət bildirən ifadələrdən istifadə edirlər. Ancaq epistolyar mətnlərin mövzusu, formatı, məktublaşanlar arasındakı münasibətdən asılı olaraq, məktublarda nitq etiketlərindən istifadənin də müxtəlif formaları olur: xahiş mövzulu məktublarda nitq etiketləri xüsusi leksik-semantik çalar kəsb edir; burada əlaqə yaradılması, davam etdirilməsi və başa çatdırılmasından daha çox, adresata rəsmi müraciətlə, sosial cəhətdən formalaşmış leksik vahidlərdən istifadə etməklə məktub müəlliflərinin sosial cəhətdən eyni mövqedə olmadıqları müşahidə edilir. Bu halda həmin müraciət etiketləri adresatı cavab yazmağa sövq etməyə yönəldilir: «*Xalq səhiyyə komissarı Fərəcova yoldaşa. Əziz yoldaş! Sentyabrı 20-də Kirovabad rayonu Privağzal seçki okruquna getmişdim….Eyni zamanda seleksion stansionuna da gedib vəziyyəti yoxladım. Yoldaş Fərəcova! Bu iki müəssisənin hər birisində dörd yüzdən çox fəhlələr işləməsinə baxmayaraq, tamamilə səhiyyə yardımından məhrumdurlar. Doktorları, hətta ibtidai yardım vermək üçün dəyərli səhiyyə məntəqələri də yoxdur. Şəhər uzaq olduğu və nəqliyyatın vaxtlı-vaxtında verilmədiyi üçün xəstələri şəhərə aparmaq mümkün olmayır, buna görə də şəhər səhiyyə şöbəsi yerlərdəki məntəqəsini gücləndirməli və xəstələri ibtidai yardım barəsində təmin etməlidir. Ümid edirəm ki, səhiyyə komissarlığı Kirovabad zəhmətkeşlərinin bu arzusunu nəzərə alacaq və lazımi tədbirlər görəcəkdir* (4,8-9).

Hər bir məktubda məlumat funksiyası mövcuddur. Bu funksiyanın mahiyyəti adresantın adresata müəyyən məlumat ötürməsi, hər hansı bir xəbəri çatdırmasından ibarətdir. Bir qayda olaraq, adresant adresata belə məktub yazmağa, onu müraciət etməyə vadar etmiş vəziyyət, şərait haqqında məlumat verir, yeri gəldikdə bioqrafiyasından müəyyən faktları göstərir: *Möhtərəm dayım Ordubadi! Mən ürəyimin ən dərin guşələrində bəslədiyim günəş tək ziyalı, həyatım tək xoş və könlum tək açıq olan hərarətli salamlarımı sizin kimi bütün xalq tərəfindən sevilən*

talantlı yazıçımız və sevilən dayıma təqdim edirəm. Dayı, bəlkə də siz bu məktubda mənim adımı oxuyarkən «bu kimdir» dediniz. Odur ki, mən özümü tanış verməyin lazım oduğunu düşündüm. Mən Telli bacınızın ortancıl qızı Leylanın ortancıl oğluyam.Adım Bahadırdır.Yaşım 15-dir. Mən Naxçıvan Pedaqoji məktəbinin II kursunda oxuyuram. Mənim atam yoxdur. Bu yaxınlarda öldü. Mənim vəziyətim çox da yaxşı deyil. Mən də babam Fəqir və dayım Ordubadinin getdiyi yolu izləmək istəyirəm. Mən şeir yox, hekayə yox, xırdaca cocuq pyesləri yazmağa maraqlanıram... 1933-cü ildə Naxçıvanvn Şahbuz rayonunda baş verən qaçaqların işi haqqında və onlarla komsomolların mübarizəsi haqda tema tapıb yeni doqquz şəkildə «Banditlər» pyesini işləyirəm. Əgər lazım bilsəniz, mən onu baxmaq üçün sizə göndərərəm (4,22).

Epistolyar disçkurs çərçivəsində məlumatın müəllifdən adresata ötürülməsi bu məlumatda daha çox şəxsi amillərin mövcudluğu ilə şərtlənir. Bir tərəfdən, müəllifin adresata uyğunlaşması müşahidə edilir, digər tərəfdən isə müəllif tərəfindən informasiya onun özünə müvafiq şəklə salınır. Adresant bütün materialı öz şəxsi qavrama prizmasından keçirir, öz dəyər parametrlərinə uyğun seçim edir. Beləliklə, epistolyar mətnlərdə mövcud informasiyanın obyektiv və subyektiv mahiyyətləri arasında aydın nisbət müşahidə edilmir və bu, müəlifin məqsədyönlü seçdiyi leksik vahidlərin formasında təzahür edir. Yuxarıda nümunə gətirdiyimiz məktubda koqnitiv funksiya özünəməxsus şəkildə gerçəkləşir, bu, insanın ən adi həyat təcrübəsindən irəli gəlir, çünki xahiş məktubları adresantın ətraf mühitlə qarşılıqlı əlaqəsinin təsiri ilə yaranır, onun fikirlərinin meydana gəlməsi və ifadə formasıdır. Məktubun yazılması adresatın xarici aləmə münasibəti, onun müşahidələri, düşüncə tərzi, bilik səviyyəsi, yazı üslubu, təxəyyülü və s. ilə bağlıdır, məktubun oxunması və qavranması isə informasiyanın, müəyyən biliklərin alınmasından, onların dəyişdirilməsi, yadda saxlanması, sonra isə xatırlanması və istifadəsi ilə əlaqəlidir. Bunlar nəzərdən keçirilən məktublarda həmin funksiyanın müəyyən reprezentativliyini göstərir.

Dəyərləndirmə funksiyası müəllifin, nitq sübyektinin ifadə etdiyi fikrin məzmununa münasibətindən ibarətdir. Epistolyar mətnlərdə dəyərləndirmə funksiyası müxtəlif leksik, sintaktik vasitələrlə yerinə yetirilir. Bu, müxtəlif modallıq bildirən ifadələr, müsbət və mənfi qiymət ifadə edən leksika, hər hansı bir sözün təsirini artıran digər ifadə – təyin, həmçinin nitq subyektinin öz ifadələrinə emosional aspektdən münasibətini göstərən sözlərdir. Məsələn, M.S.Ordubadiyə qohumunun göndərdiyi məktubda adresant yazır: *Xatirini dünyalar qədər istədiyim hörmətli dayı! Bir aydan artıqdır ki, sizdən ayrılmışam. Elə güman edirsiz ki, Əkbər sizi birdəfəlik unutmuşdur. Əsla! Bu günlərdə radioda eşitdiyimə görə, «Qılınc və qələm» romanınız çapdan çıxmışdır. Şübhəsiz ki, bu, bizim üçün daha böyük bir bayramdır. İndi mən keçmişin zəngin tarixi ilə tanış olacağam. Lakin təəssüflər olsun ki, romanınız bizə çox gec gəlib çıxacaqdır. Rica edirəm, zəhmət qəbulu ilə həmin romandan birini mənə hədiyyə göndərəsiniz…Bu, mənim üçün dünyalar qədər böyük*

və unudulmaz hədiyyədən başqa nə ola bilər?» (4, 29) Göründüyü kimi, məktubun birinci hissəsində müəllif dayısına münasibətini, ona sonsuz hörmətini bildirir, daha sonra isə yaşadığı yerdə istədiyini, o cümlədən yeni kitablar əldə edə bilmədiyini yazır və xahişini bildirir.

Epistolyar mətnlərdə emotiv funksiya adresantın mətndə hiss və emosiyalarının ifadəsi ilə əlaqəlidir. «Emotivlik dilin praqmatikasının mühüm komponentidir, belə ki, özündə təsiredici funksiyanı ehtiva edir: sözlə və ya sözsüz emosional reaksiyalar emosional stimullara daha həssasdır, emotivlər də həmin bu funksiyanı yerinə yetirir – bunlar dilin bütün «mərtəbələrinin» xüsusi vasitələridir». (8, 5) Bu funksiya nidalar və həmin hislərin ifadəsinə uyğun modallıq, emosionallıq bildirən sözlər vasitəsilə yerinə yetirilir: «*Bu gün balkona çıxmışdım. Küçədən həzin musiqi ilə ölü aparırdılar, örtüklü! Qabaqda onun şəkli gedirdi. Onu çiçəklərlə bəzəmişdilər. Tabutun içərisində, arxadan onun simasını gördüm. İlahi, nə qədər dəhşətlidir. Bu zaman bir uşaq sevinclə kuçənin bu tərəfindən o biri tərəfinə keçdi. Həm də düz tabutun qarşısından keçdi. Yazıq… İnsan həyatına yazıq!..» (*5, 21).

Epistolyar mətnlərin estetik funksiyası adresatın estetik hislərinə müəllifin müraciət etməsindən ibarətdir. Bunlar, adətən, sözün bədii funksiyalarından ustalıqla istifadə edə bilən tanınmış şair və ya yazıçıların, həmçinin bədii təxəyyülü güclü olan, yüksək estetik zövqə malik olan adresatın epistolyar mətnlərində müşahidə edilə bilir: «*Əziz Sara\ığım! Bu gün səkkiz gündür ki, evimizdə yoxsan. Mən hər gün tək-tənha evə gəldiyim zaman sanki suyu qurumuş dəyirmana, çəçgkləri solmuş, bülbülü susmuş bağa girirəm. Elə bir yalnızlıq, elə bir tənhalıq hissi məni boğur ki… İlk günləri daha demirəm. İndi isə məndə bəzən elə qəribə, elə anlaşılmaz duyğular oyanır ki, özümü unuduram*» (5,38).

Etiket funksiyaları ilə fatik, həmçinin dəyərləndirmə funksiyaları arasında müəyyən əlaqə müşahidə etmək olar: Bu funksiyanın gerçəkləşdirilməsində də adresatın sosial statusundan asılı olaraq stereotipləşmiş, sabit nitq yarlıqlarından istifadə edilir. «Nitq etiketləri rəsmi və qeyri-rəsmi ünsiyyət şəraitində kommunikantların status mövqeləri və şəxsi münasibətlərinə uyğun olaraq əlaqə yaratma, əlaqə saxlama və əlaqəni kəsmə, ayrılma şəraitlərində nitq davranışını tənzimləyən sosial yönümlü və milli səciyyəli qaydalardır (7, 240).

Epistolyar mətnlərin etiket funksiyası həm bu mətnlərin ənənəvi quruluşu əsasında, həm də müəyyən nitq formaları seçməklə yerinə yetirilir və bu yolla epistolyar kommunikasiya yaradılır: ünvanlandırılmış etiket ifadələri, salamlama etiketləri, bir mövzudan digərinə keçərkən adresata özünəməxsus müraciət forması (qardaşım, dostum, əzizim, möhtərəm, yoldaş və s.), xahiş, məsləhət və s. mənası bildirən müraciət formaları adresatın kommunikasiya prosesindəki statusundan, həmçinin ünsiyyətin şəraitindən asılı olaraq seçilir: *«**Əzizim** Ceyhun bəy! 27 dekabr tarixli məktubunuzu aldım. «Prometey»də iştirak etmədiyinizi yazırsınız… «Prometey»in ikinci nömrəsi Azərbaycansız çıxmışdır. **Əfəndim**, bu jurnal bizim planımıza görə, İstanbulda çıxmalı idi. İcazəsiini almaq mənim üçün su içmək kimi*

*asan bir şey idi. Bir ay müddətində butun işləri başa çatdıra bilərdim… **Əzizim**, məqsəd Avropa ictimai fikrini həm Azərbaycan, həm də firqə haqqıda məlumatlandırmaqdır*» (3,118).

M.Ə.Rəsulzadənin C.Hacıbəyliyə yazdığı məktublardan onların arasında yaxın, səmimi və eyni zamanda, işgüzar münasibətlər olduğu aydın müşahidə edilir. Nümunə göstərdiyimiz məktub mətnində də müraciət formaları bunu aydın göstərir, eyni zamanda epistolyar mətndən aydın görünür ki, adresant adresatın anlaşılmazlıq üzündən narazı qalmasından narahat olur və onu yenidən əməkdaşlığa sövq etməyə çalışır: *«Prometey»də çalışmaqdan imtina etməyiniz nə üçündür? «Prometey» komitənin deyilmidir? Parisindir demək nə deməkdir? …Siz də məsələdən kinayə və işarələrlə bəhs etdiyinizdən, təbii ki, aydın bir fikir bildirmək imkanında deyiləm. Bəlkə, bu məsələləri bir az da aydınlaşdırmaq lütfündə bulunasınız (3, 118).*

Yuxarıda nümunə kimi verdiyimiz məktublarda (M.S.Ordubadiyə, C.Hacıbəyliyə) müvafiq olaraq qohumluq və dotluq münasibətində olan məktub müəlliflərinin epistolyar mətnlərinin mahiyyəti müəyyən hadisə və problemlə bağlı xahiş ətrafında qurulmuşdur. Burada epistolyar mətnlərin apellyativ funksiyasını müşahidə etmək olar. Məktub müəllifi adresata sadəcə olaraq məlumat verməklə kifayətlənmir, daha çox müəyyən məsələ ilə bağlı onda konkret fikir, mövqe və münasibət yaratmağa çalışır, onu hər hansı bir verbal hərəkətə sövq etməyə və ya müəyyən məlumat almağa çalışır. Bunu da qeyd etmək lazımdır ki, epistolyar mətnlərdə apellyativ funksiya adresant tərəfindən adresata ünvanlanmış müəyyən dəyərləndirmə və emosional dəyərləndirici ifadələr vasitəsilə emosional sahəyə təsir göstərməyə çalışır. Adresant öz hislərini, dəyərləndirici münasibətlərini göstərməklə adresatda qarşılıqlı hislər və hərəkətlər yaratmağa çalışır, yəni epistolyar mətnin müəllifi adresatı müəyyən hərəkətlərə təşviq etməklə yanaşı, onun hislərinə də təsir etmək istəyir.

Epistolyar diskursun funksiyalarını fərqləndirmək onun səciyyəvi xüsusiyyətlərini nəzərdən keçirməyə və onun haqqında kommunikativ nitq forması kimi tam təsəvvür yaratmağa imkan verir. Epistolyar diskursun bu funksiyaları bir-biri ilə sıx əlaqədədir və məktublarda birgə təzahür edərək onu digər diskurslardan fərqləndirir: bu, onun polifunksionallığıdır. Nəzərdən keçirdiyimiz məktub nümunələrində də bu cəhətləri müşahidə etmək olur, ancaq apellyativ funksiya kommunikasiya iştirakçısına daha çox təsir edən funksiyadır, bu da onun adresata təsir göstərmək xüsusiyyəti ilə bağlıdır.

ƏDƏBİYYAT

1. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, 1999, 2003.
2. Şiriyev F. Azərbaycan dilinin nitq mədəniyyəti və kommunikasiya. Bakı, “Elm və təhsil”, 2020, 400 s.
3. Rəsulzadə M. Ə. Məktublar. Səfibəyçilik. Bakı, «TEAS Press» nəşriyyat evi, 2018, 251s.

4. Məmməd Səid Ordubadi arxivindəki məktublar. Bakı, Nurlan, 2002.
5. Sevgi məktubları. Mirzə İbrahimovun həyat yoldaşı Sara xanımla yazışmaları. Bakı, «Qanun» nəşriyyatı, 2016, 96 səh.
6. Курьянович А.В. Функциональные возможности эпистолярного дискурса как особой формы межличностной коммуникации // Вестник ТГПУ, 2009. – Вып. 9 (87). – С. 146–150.
7. Формановская Н.И. Коммуникативно-прагматические аспекты единиц общения. М., 1998. – 292 с.
8. Шаховский В.И. Категоризация эмоций в лексико-семантической системе языка. Воронеж: Изд-во Воронежского ун-та, 1987. – 192 с.

XÜLASƏ

Bütün digər mətnlər kimi, müəyyən məqsədlə tərtib edilən epistolyar mətnlər konkret bir oxucu üçün yazılır, konkret şəxsə ünvanlanır və kommunikasiya vahidi olaraq sırf linqvistik material kimi, gerçəklikdən təcrid olunmuş şəkildə deyil, bir konkret şəraird nəzərdən keçirilməlidir. Bu mətnləri onların nitq prosesindəki funksiyalarına uyğun nəzərlən keçirmək və sosial hal kimi qəbul etmək daha düzgündür, yəni epistolyar mətnlərin öz müəlliflərindən təcrid olunmuş şəkildə deyil, həmin şəxslərin fəaliyyətinin bilavasitə tərkib hissəsi kimi araşdırılması daha məqsədəuyğun hesab edilir. Belə ki, epistolyar mətnlər insanın həyat təcrübəsi və fəaliyyətinin hər hansı bir fraqmentini əks etdirir. Bunları nəzərə alaraq, epistolyar diskursu mürəkkəb kommunikasiya aktı kimi nəzərdən keçirmək olar; buraya nitq fəaliyyəti ilə yanaşı, sosial kontekst, kommunikasiya iştirakçıları haqqında müəyyən təsəvvürlər, həmçinin adresatın məlumatı dərk etməsi və ona münasibəti, şəxsi yanaşması prosesi də daxildir. Epistolyar diskursun yaradılması və davam etdilirilməsi məsələsi məhz onun funksional istiqamətlərinin nəzərdən keçirilməsi ilə birlikdə daha aydın təsəvvür yarada bilər. Dil ünsiyyət, məlumat, dərketmə, özünüfadə, təsir vasitəsi, həmçinin sosial təcrübə toplamaq və onu paylaşmaq vasitəsi olduğu üçün onun fatik, informativ, koqnitiv, apellyativ, referensial funksiyaları mühüm amillərdir. Məqalədə bu funksiyaların nitq fəaliyyəti prosesinin bir hissəsi kimi epistolyar mətnlərdə bir-biri ilə əlaqələndirilməsi və qarşılıqlı təsiri nəzərdən keçirilir.

Açar sözlər: epistolyar mətnlər, diskurs, apellyativ funksiya, koqnitiv funksiya, informativ funksiya.

РЕЗЮМЕ
ФУНКЦИОНАЛЬНАЯ НАПРАВЛЕННОСТЬ ЭПИСТОЛЯРНЫХ ТЕКСТОВ

Ключевые слова: эпистолярные тесты, дискурс, апеллятивная функция, когнитивная функция, информативная функция.

Эпистолярные тексты, как и другие виды текстов, предназначены для конкретной цели. Будучи единицей коммуникации они адресованы конкретному читателю и не могут рассматриваться как чисто лингвистический материал в отрыве от действительности. Эти тексты следует рассматривать по их функциям в процессе общения, обращая при этом особое внимание на социальный статус и личности авторов эпистолярий.

Таким образом, эпистолярные тексты отражая отдельные жизненные ситуации их авторов, дают представление об их опыте и профессиональной деятельности. Учитывая данные факты, эпистолярный дискурс можно рассматривать как сложный акт коммуникации, включающий в себя, помимо речевой деятельности, социальный контекст, определенное представление об участниках общения, а также процесс осмысления адресатом информации и его отношение к ней.

Изучение проблемы создания и дальнейшего развития эпистолярного дискурса дает возможность представить более четкую картину, включая исследование ее функциональных направлений. Поскольку язык является средством общения, информации, понимания, самовыражения, воздействия, а также средством накопления социального опыта и обмена им, важными факторами являются его фатическая, информативная, когнитивная, апеллятивная, референтная функции. В статье рассматриваются связь и взаимодействие этих функций в эпистолярных текстах как части процесса речевой деятельности.

SUMMARY

FUNCTIONALITY IN EPISTOLARY TEXTS

Key words: epistolary tests, discourse, appellative function, cognitive function, informative function

Epistolary texts, like other texts, are designed for a specific purpose, addressed to a specific reader, and cannot be viewed as a purely linguistic material in isolation from reality as a unit of communication. It is more correct to consider these texts according to their functions in the speech process and to consider them as a social situation, that is, it is considered more appropriate to examine epistolary texts as a direct part of the activity of those persons, not in isolation from their authors. So, epistolary texts reflect any fragment of a person’s life experience and activity.

Considering these, epistolary discourse can be seen as a complex act of communication; it includes, in addition to speech activity, the social context, certain ideas about communication participants, as well as the process of the addressee's understanding of information and his attitude to it, his personal approach. The issue of creation and continuation of epistolary discourse can create a clearer picture together with the consideration of its functional directions. Since language is a mean of communication, information, understanding, self-expression, influence, as well as a mean of gathering social experience and sharing it, its phatic, informative, cognitive, appellative, referential functions are important factors. The article examines the connection and interaction of these functions in epistolary texts as part of the process of speech activity.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: filologiya elmləri doktoru, dosent Reyhan Həbibli tərəfindən çapa tövsiyə olunmuşdur

ƏLİYEVA İLHAMƏ NADIR Q.
Bakı Slavyan Universiteti
aliyevailhama@yahoo.com

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ LEKSİK YOLLA YARANAN FİTONİMLƏR

XÜLASƏ

Bəllidir ki, istənilən bir dilin inkişafına təsir edən əsas faktorlardan biri onun zəngin lüğət tərkibinə malik olmasıdır. Elm və texnika inkişaf etdkcə dildə də yeni məfhumlar yaranır. Bununla yanaşı yeni məfhumlar, bir qayda olaraq adlandırma tələb edir və bu amil də söz yaradıcılığı prosesinin hərəkətverici qüvəsinə çevrilir.

İstər Azərbaycan, istərsə də ingilis dilində fitonimlərin yaranması təsadüfi hal olmayıb, müəyyən qanunauyğunluğa tabedir. Leksik yolla yaranan sadə fitonimlər dilin lüğət tərkibində yer alan bütün onomastik vahilər kimi şivə və dialektlər vasitəsilə, kalka üsulu ilə yaranır. Deyilmiş fikrə əlavə olaraq, başqa dillərdən alınma söz kimi daxil etməklə, yeni məna kəsb etmək yolu ilə, dilin öz daxili imkanları hesabına yaranırlar. Sözügedən proseslər dildə bədii, elmi və publisistik üslublar vasitəsilə reallaşır. Dildə yeni-yeni təşəkkül tapmış leksik yolla yaranan, yəni quruluşca sadə olan fitonimlər digər üslublar vasitəsi ilə məişət üslubuna daxil olaraq aktiv leksikanın bir parçasına çevrilir. Elmi terminologiyanın sadə fitonimlərlə zənginləşməsi digərləri ilə müqayisədə daha aktualdır.

Hal-hazırda insanların təbabətin gücü ilə müalicəyə üstünlük verməsi bitkilərin (fitonimlərin) müxtəlif elm sahələrində tədqiqini zəruri edir. Frazeoloji birləşmələrin çox əhəmiyyətli bir hissəsi fitonimlərin əsasında formalaşanlardan ibarətdir. Bu qəbildən olan frazeoloji birləşmələr hər bir xalqın yaşadığı coğrafi areala xarakterik bitkiləri bildirir. Fitonimlər həm də frazeoloji birləşmələrin daxilində işlənməklə dildə məcaziliyin yaranmasına xidmət edir.

Açar sözlər: fitonimlər, məfhum, leksik üsullar, dil, onomastik vahidlər

Məlumdur ki, bir dilin varlığını və inkişafını təmin edən mühüm amillərdən biri də həmin dilin lüğət tərkibində baş verən dəyişikliklərdir. Dil cəmiyyətin, mühitin, elmin, texnikanın inkişafı ilə əlaqədar daim yenilənir. İstifadədən kənar edilən məfhumların adları da özləri ilə bərabər dildən kənarda qaldıqca məişətə daxil olan yeni anlayışlar (məfhumlar) adları ilə bərabər aktuallaşdığı üçün dildə ümumişlək olan və olmayan sözlər daim dəyişir. Yeni məfhumlar mütləq şəkildə adlandırma tələb edir. Bu söz yaradıcılığı prosesinin əsas hərəkətverici qüvvəsidir. Sözün hansı yolla yaranması onun quruluşuna da təsir edir.

Aydındır ki, morfoloji quruluşuna görə İngilis və Azərbaycan dillərinin lüğət tərkibini təşkil edən bütün sözlər üç qrupa ayrılır: sadə, düzəltmə, mürəkkəb. Sadə

sözlər yalnız bir kök morfem (a pear, a tulip, səhləb, şabalıd, əzvay və s.), düzəltmə sözlər bir kök və şəkilçi morfem və ya morfemlərdən (a groundsel, a bilberry, mərcanı, murdarça, dalamaz və s.), mürəkkəb sözlər isə azı iki kök morfemdən (quşəppəyi, qatırquyruğu, bluebell, blackberry və s.) ibarət olurlar [1, 23]. Bu bölgü dilin lüğət tərkibini təşkil edən bütün sözlərin daxilində özünəməxsus yer tutan fitonimlərə də sirayət edib. Belə ki, insanların bitkilərə olan tələbatı, ələlxüsus da son zamanlarda təbabət yolları ilə müalicəyə marağın daha da artması bitkilərin ayrı-ayrı elm sahələrində tədqiqini genişləndirmişdir.

Yeni aşkarlanmış və ya başqa bir xalqın məişətindən daxil olmuş bitkilərin adlandırılması söz yaradıcılığı prosesində əhəmiyyətli rol oynayır. İstər dildə daşlaşmış, istərsə də yeni yaranan fitonimlərin strukturunda qeyd olunan üç halın hər birinə rast gəlinir: sadə fitonimlər, düzəltmə fitonimlər və mürəkkəb fitonimlər.

Leksik yolla sözlərin yaranmasının mahiyyəti ondan ibarətdir ki, yeni sözlər dilə hazır şəkildə daxil olur [2,104]. Dildə mövcud olan sadə fitonimlər əsasən leksik yolla yaranır.

Qeyd edək ki, fitonimlərin adlandırılmasında semantik məzmun digərləri ilə müqayisədə daha az obrazlılığın təsirinə məruz qalmışdır. Kollektiv şüursuzluq və şüurluluq arxitipində yaranan sadə fitonimlər say etibarilə digərlərindən daha azdır. Bu qəbidən olan fitonimlərin digər xarakterik əlaməti əksər hallarda ümumişlək olmalarıdır. Məsələn, *fıstıq, badam, alma, qoz, yonca, yosun, astra, birch, bamboo, balsam, box, clary, brake, brier* və s. kimi leksik yolla yaranmış sadə fitonimlər gündəlik danışıq dilində olduqca yüksək işlənmə tezliyinə malikdir.

İstər Azərbaycan, istərsə də ingilis dilində leksik yolla fitonimlərin yaranması təsadüfi hal olmayıb, müəyyən qanunauyğunluğa tabedir. Leksik yolla fitonimlər aşağıdakı yollarla yaranır:

I. Şivələr və dialektlər hesabına fitonim yaratma. Bu qəbildən olan fitonimlər ayrı-ayrı bölgələrdə təzahür etmiş, daha sonra dilin lüğət fondunun aktiv hissəsinə daxil olmuşdur. Bu prosesin baş verməsi bütün dillərdə yazıçı və şairlər tərəfindən həyata keçirilir. Məhz bu səbəbdən çox vaxt ayrı-ayrı yazıçı və şairlərin dili tədqiq edilir. Onların əsərlərinin tədqiqindən dilə olan təsirləri müəyyənləşir. Məsələn, *sürvə, cövüz, muşmula, pazı, dəstərək, cirə, kinə, mərzə, kərəviz, comarum, lentil, lupine, asp, birch, morel* və s. kimi fitonimlər dialekt sözləri olaraq dilə daxil olmuşdur. Qeyd olunan fitonimlər əsas etibarilə ümumişlək olmayanlardır. Lakin onu da qeyd edək ki. hal-hazırda həm ingilis həm də Azərbaycan dillərində ümumişlək olan sadə fitonimlər vaxtilə elə məhz bu yolla ədəbi dildə aktivləşdirilmişdir.

In the spring, I asked the *daisies*
If his words were true,
And the clever, clear-eyed *daisies*
Always knew.
Now the fields are brown and barren,
Bitter autumn blows,

And of all the stupid *asters,*
Not one knows.
Ah! Well a-day! What evil looks
Had I from old and young!
Instead of the cross, the Albatross
About my neck was hung. (Samuel Taylor Coleridge)

Digər bir nümunəni nəzərdən keçirək.

My love for Linton is like the foliage in the woods. Time will change it; I am well aware, as winter changes the trees. My love for Heathcliff resembles the eternal rocks beneath a source of little visible delight, but necessary. (Emily Bronte)

İnsafdırmı *gülə* həmdəm xar ola?!
Tülək tərlan ovlağında sar ola?!
Şeirimdə dil açıb danışmırmı bəs,
Sərin bulaqların, göy *çinarların*? (Bəxtiyar Vahabzadə "Şəki")

Çıxdım dağ başına bir səhər çağı,
Ayağım altında daşlar da dindi.
Mənə göz elədi hər *gül* yarpağı,
Ürək təzələndi, can təzələndi. (Bəxtiyar Vahabzadə "Dağ çiçəkləri")

Deyirəm saralıb solduqca bağlar,
Niyə qan qaynayıb qarışmayır heç?
Dünən *ağaclara* bəzək yarpaqlar,
İndi budaqlara yaraşmayır heç. (Nəriman Həsənzadə "Payız")

Adları çəkilən, əsərlərindən nümunələr göstərilmiş söz sənətkarları ədəbi dilin dialekt və şivələrdən alınan fitonimlər hesabına zənginləşməsində olduqca əhəmiyyətli rol oynamışlar. Maraqlı fakt burasıdır ki, bəzən dialektlərdən alınan fitonimlərin ədəbi dildə qarşılığı da olur. Bu cür leksik vahidlərin— qarşılıqlı eyni bitkini adlandıran fitonimlərin hansının daha aktiv olacağını müəyyənləşdirmək çətindir. Bəzən ədəbi dilə dialektlərdən daxil olan yeni fitonimlər aktivləşərək dildə daha öncədən mövcud olan fitonimi sıxışdırır, bəzən isə hər nə qədər ədəbi dilə daxil olsa da ümumişlək ola bilmir, dildə daha əvvəldən aktiv olan fitonim öz əhəmiyyətini qoruyub saxlayır.

İngilis və Azərbaycan ədəbi dillərində yer alan leksik yolla yaranmış fitonimləri nəzərdən keçirərkən bəlli olur ki, dilin lüğət tərkibinin aktiv hissəsinin dəyişməsində bütün dialektlər eyni dərəcədə bərabər rol oynamır (məsələn, *vəzəri, alma, pomidor, lupine, səhləb, reyhan, kəhrə, yonca, pərinc, nanə, yarpız, əzgil, küstüm, çəltik, şaftalı, hulu, qamış, lobya, dişə, qırtıc, noxud, püstə, gavalı, alça, nar, armud, palıd, üzüm, turp, rəvənd, moruq, sədo, raute, söyüd, selin, çovdar, sərtək, xardal, telefium, çay, buğda, grape, rush, juniper, apple, tomato, basil, rice, flax, lobalia, mesquite, peach, reed, bean, plane, pea, sloe, bullace, plum, pistachio, oak, pear, pycreus,*

radish, rhubarb, currant, rorippa, willow, osier, rye, mustard, orpine,vetch və s.). Belə ki dialekt və şivələrin bəziləri ədəbi dilin zənginləşməsində olduqca aktiv rol oynamasına baxmayaraq, bəziləri bir qədər passiv olub bu və ya digər üslubda limitlənmiş formada istifadədə olur, geri qalanı isə ümumiyyətlə ədəbi dilə daxil ola bilmir [3, 89]. Dialekt və şivələr vasitəsilə fitonimlərin ədəbi dilə daxil olması digər onomastik vahidlər kimi kortəbii şəkildə baş vermir. Sözügedən proses əsas etibarilə üç şəkildə reallaşır:

a) Bədii üslub vasitəsilə
b) Elmi üslub vasitəsilə
c) Publisistik üslub vasitəsilə

Elmi üslub vasitəsilə dialekt və şivələrdən fitonimlərin ədəbi dilə keçməsi bitkilərin elmi və tibbi əhəmiyyəti ilə bağlıdır. Bitkilərin insan həyatındakı əhəmiyyəti onlara olan marağı günbəgün artırır. Bunun nəticəsində bitkilər insan həyatının müxtəlif sferalarını əhatə edən bir çox elmlərin tədqiqat obyektinə çevrilir. Məhz buna görə də fitonimlərin elmi əhəmiyyəti də artır, bitkilərə olan tələbat və onların sürətlə elmə cəlb edilməsi, adlandırılmasını nəticədə yeni yaranmış fitonimlərin də istifadəsini tələb edir. Elmi üslubda istifadədə olan fitonimlərin ədəbi dildə işlənmə tezliyinin artması da labüddür.

Publisistik üslubda istifadə olunan sadə fitonimlər də ictimaiyyətin istifadəsinə keçdikcə tədricən aktivləşir. Sahə mütəxəssislərinin şifahi və yazılı şəkildə istifadə etdikləri dildə yer alan bütün sözlər kimi fitonimlər də tədricən insanların gündəlik ünsiyyətində də aktuallaşır.

II.Kalka üsulu vasitəsilə fitonimlərin yaranması. Ümumiyyətlə, kalkalar Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynamışdır. Kalka üsulunun köməyi ilə yeni sözlərin yaranması prosesi zamanı, əslində, əsas rolu dilin öz daxili imkanları oynayır. Belə ki, dilin öz daxili imkanları hesabına başqa dillərdən alınan sözlər tərcümə olunaraq aktiv istifadəyə daxil olurlar. Kalka üsulunun xarakterik bir cəhəti də odur ki, bu yolla yaranan sözlər məqsədyönlü şəkildə deyil, başqa dillərdən mexaniki şəkildə gəlir. Dilin lüğət tərkibinin zənginləşməsində olduqca əhəmiyyətli vasitələrdən biri hesab olunan kalka üsulu ilə onomastik vahidlər, o cümlədən, fitonimlər də dilimizə daxil olur. Kalka üsulu ilə dilə daxil olan fitonimlərin bir sıra ümumiləşdirici xüsusiyyətləri vardır. Əvvəla onu qeyd edək ki, bu yolla dilə gətirilən bütün sözlər kimi, fitonimlər də adlandırmaya olan tələbat nəticəsində ədəbi dilə daxil olur. Odur ki, bu qəbildən olan fitonimlər əksər hallarda ümumişlək xarakterə malik olması ilə seçilirlər. Ehtiyac və istifadədən dolayı hər nə qədər bir bitkiyə müraciət olunursa, fitonim də bir o qədər dildə aktivləşir. Məsələn, orange—narıngi, date—xurma və s.

Kalka üsulunun köməyi ilə yeni fitonimlərin yaranması ilə bağlı bir çox fikirlər söylənilmişdir. Ümumiyyətlə, söz yaradıcılığında bu üsulla bağlı çoxlu müddəalar irəli sürülür. Bu barədə irəli sürülən bəzi fikirlərdə (R.A.Budaqov, Q.Q.Musabayev, Ş.R.Abiyeva) iddia edilir ki, əslində kalkalar alınmadır və yaxud onları alınma

sözlərin bir növü olaraq qəbul etmək lazımdır [4, 298]. Sözügedən fikri irəli sürən müəlliflərin belə bir qənaətə gəlmələrinin əsas səbəbi odur ki, dildə yaranan kalkalar başqa dillərdə olan sözlərin malik olduğu morfoloji quruluşa uyğun olaraq formalaşır. Məhz buna görə də onlar hesab edirlər ki, kalka yolu ilə dildə təzahür edən yeni sözlər mənşəyinə görə ya alınma sözlər kimi, ya da alınma sözlərin bir növü olaraq qəbul edilməlidir. İkinci fikir tərəfdarlarından hesab olunan (N.S.Baskakov, A.A.Reformatski və s.) isə kalkaları, əksinə, alınma hesab etməmiş, kalka yolu ilə yaranan sözlərin dilin daxili imkanları əsasında yaranmasını əsas tutaraq öz müddəalarının doğruluğunu əsaslandırmağa çalışmışlar.

Dilimizdə kalka yolu ilə meydana gələn sadə fitonimləri alınma söz kimi qəbul etməmiz heç doğru deyil. Çünki bu yolla dildə yeni bir fitonim yaradanda məhz dilin öz daxili imkanlarına müraciət olunur. Elə bu səbəbdən dolayı, kalka yolu ilə yaranan fitonimlər dilin öz imkanları hesabına yaranan yeni sözlərin xüsusi bir qrupu kimi qəbul edilməlidir.Çünki belə olan halda dildə yaranan yeni fitonim başqa dildən alınmayıb. Başqa dildən keçən sadəcə olan bitkidir—məfhumdur. Onu adlandıran fitonim isə qətiyyən alınma deyil. Burada başqa dildən keçən anlayış, məfhum sadəcə olaraq bir materiya kimi məişətə başqa mədəniyyətə xas olan bir digər məişətdən daxil olmuşdur, onu adlandıran söz isə tamamilə milli səciyyə daşıyır, çünki onlar məfhumu ifadə edən söz milli dilin bazası əsasında yaranır və formalaşır.

III. Fonetik dəyişmə hesabına fitonim yaratma. Söz yaradıcılığında olduqca əlverişli və məhsuldar yollardan biri hesab olunan fonetik dəyişmə qaydası fitonimlərin də yaranmasında mühüm rol oynayır. Bu yolla yaranan bütün sözlər kimi fitonimləri də təhlil etmək olduqca çətindir. Bunun əsas səbəbi sözyaratmanın bu üsulunun olduqca qədim tarixə malik olmasıdır (məsələn, *əspərək, süsən* və s.).

Dillərin tarixi inkişafına nəzər saldıqda məlum olur ki, İngilis və Azərbaycan ədəbi dillərində yer alan fitonimlərin bir çoxu da çox qədim zamanlardan bəri bu dillərə daxil olub. Ona görə də belə fitonimlər keçdikləri dillərin fonetik sisteminə uyğunlaşıblar (məsələn, *iyir, soğan, sarımsaq, ançar, şüyüd, badam, ərik, qarğı, vələmir, yulaf, vələs, cil, xəstək, bibər, kəvər, istiot, cacıq, zoğal, fındıq, qətran, qovun, çayır, heyva, sərv, cirə, xiyar, kök, xurma, şümrək, qım, iydə, suluf, innab, biyan, pambıq, cığ, ardıc, əzgən, mərci, dəfnə, lərgə, cincar, zanbaq, çiydəm, okra, fir, maple, onion, garlic, alder, dill, almond, azalea, thistle, sedge, pepper, caper, burdock, betony, birch, cabbage, hazel, cramble, melon, quince, cucumber, dahlia, teasdel* və s.)

IV.Başqa dillərdən söz almaqla yaranan fitonimlər. Fitonimlər mahiyyət etibarilə olduqca mühüm onomastik bir vahid olduğu üçün onların dildə əhəmiyyəti də çox böyükdür. Dilin lüğət tərkibinin zənginləşməsində olduqca vacib rol oynayan fitonimlərdən ən mühüm olanları məhz başqa dillərdən alınan fitonimlərdir. Beynəlxalq nomenklaturada müxtəlif elm sahələrinə dair terminlərin adlandırılmasında olduqca mühüm rol oynayan latın dili fitonimik leksika baxımından da olduqca zəngindir. Ümumiyyətlə, çoxsaylı fitonim və fitonimik

ifadələrin tədqiqindən bəlli oldu ki, istər Azərbaycan, istərsə də ingilis dilində yer alan fitonimlərin çoxu əslində latın dilindən söz almaqla dilə daxil olmuşdur (məsələn, astra, amarillis, kamelia, qladiolus, koka, kosmos,lupin, angelika, kakao, balzam, berqamot, oleandr, manqo, giasint, jenşen, krokus, qloksiniya, qardeniya, aster, camelia, gardenia, cosmos, hyacinth, liana, mango, crogus, oleander, angelica, lupine, cacao, coca, ginseng və s.). Bu yolla ingilis və Azərbaycan dilinə daxil olan fitonimlərin dildə aktuallaşmasının iki səbəbi ola bilər:

A) Ədəbi dilə daxil olan fitonimin adlandırdığı bitki daha öncə daxil olduğu dilin mənsub olduğu mədəniyyətdə mövcud olmamışdır. Buna görə də həmin vaxta kimi o bitkini adlandırma ehtiyacı da yaranmamışdır. Beləliklə, başqa xalqlara, mədəniyyətlərə xas olan bitkinin adı dildə mövcud olmadığı üçün onu adlandıran fitonim də əcnəbi dildən özü ilə birgə mədəniyyətə daxil olur və dilin lüğət fondunda öz yerini almış olur.

B) Digər səbəb isə insanların hər zaman , xüsusilə də, son dövrlərdə təbii yolla xəstəliklərdən müalicəyə can atmasıdır. Bu istiqamətdə edə biləcəklərini məhz bitkilərlə reallaşdıracaqlarını düşündükləri üçün insanlar sürəkli şəkildə yeni bitkilər axtarır və aşkarladıqda isə alınma fitonimi dərhal mənimsəyirlər.

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən səbəblərdən dolayı dilə yeni bir fitonim daxil olanda əslində onun dildə hər hansı bir ekvivalenti öncədən mövcud olur. Çox qəribədir ki, dildə daha əvvəlldən də olmasına baxmayaraq dilə yenicə daxil olan fitonim sürətlə aktiv istifadədə olan leksikaya daxil olur. Bunun bir sıra səbəbləri ola bilər. Məsələn, tibbi əhəmiyyəti olan bir bitkidən hazırlanmış hər hansı bir dərmanın üzərində onun hazırlandığı bitkinin adı dərmanın hansı ölkədə hazırlandığına baxmayaraq, latın dilində mövcud olan versiyası ilə yazılır. Nəticədə, dərman istehlakçıları yeni fitonimi sürətlə mənimsəyir və fitonim çox qısa bir müddətdə ədəbi dilin ümumişlək bir sözünə çevrilir (məsələn, aqazillis—şişqulaq, aloye-əzvay, amorfa— lilotu, arnika— öküzotu, estragen—tərxun, asparaqus—qulançar, mərəçüyüd, kassiya—səna, sənaməki, kənaf—çətənə, margarita—daisy, mangel—beet, turnips—şamğam, mazzard—cherry, çilopsis—söyüd, pip—fıstıq, qladius—qarğasoğanı, qlediçiya—lələk, lupin—acıpaxla, paspalum—çivid, plantain—bunting, sophora—pagoda, estragon—tarragon və s.)

Ümumiyyətlə, son dövrlərdə siyasət, iqtisadiyyat, ticarət, maliyyə, elm və texnika , maarif, mədəniyyət və s. sahələri ilə bağlı yeni sözlər sürətlə bir dildən başqa bir dilə daxil olur və çox qısa bir müddətdə dilin lüğət tərkibində öz yerini almış olur. Əslində ilk baxışdan başqa cür görünsə də, əslində dilə bu istiqamətdə daxil olan yeni sözlər, o cümlədən, fitonimlər dilin lüğət tərkibinin sabitləşməsinə olmuşdur.

V. Yeni məna kəsb etmək yolu ilə yaranan fitonimlər. Bu yolla yaranan fitonimlərin əsas fərqləndirici xüsusiyyəti elə məhz onların yarandığı yoldur. Belə ki, dildə yer alan bu və ya digər söz əgər çoxmənalılıq, sinonimlik, omonimlik və s. xüsusiyyətlərdən birinə malikdirsə sözügedən prosesdə aktiv bir fitonimə çevrilir. Bu mənada dildə yer alan fitonimlərin özləri belə başqa sözlərin yaranmasında olduqca

əlverişli olur. Məsələn, Çiçək—çiçək, Bənövşə--bənövşə, Nərgiz—nərgiz, Violet—violet və s.

Dildə mövcud olan sözlərdən yeni fitonimlərin yaradılması bir sıra qanunauyğunluqlar əsasında baş verir:

a) xüsusi isimlər ümumi məzmun ifadə edən fitonimlərə keçir, məsələn*, mətanət* və s.

b) ümumi isimlərin elə ümumi isimlərə keçməsi yolu ilə, məsələn, kök—sözü vaxtilə dildə sırf fiziki görünüşcə artıq çəkiyə malik olan insanları təsvir etmək üçün istifadə edilən bir söz, daha sonradan meyvəni də adlandırmağa başlamışdır.

Dilin lüğət tərkibinin zənginləşməsi prosesinin əsasında dildə artıq daha öncədən mövcud olan sözlərin semantik mənasının genişlənməsi, söz yaradıcılığı üsulları, başqa dillərdən tərcümə prosesi (kalkaetmə) və alınmalar durur. Biz artıq bu proseslərin hər birini əvvəlcə öz-özlüyündə, daha sonra sadə fitonimlərin fonunda nəzərdən keçirdik. Bəllidir ki, söz yaradıcılığında əsas yeri leksik-semantik və qrammatik üsullar, həmçinin başqa dillərin sözləri hesabına yaranan kalkalar tutur.

Elmi-texniki inkişafla bağlı əsərlərin müxtəlif dillərə, o cümlədən, Azərbaycan və ingilis dillərinə tərcüməsi prosesində elə sadə fitonimlər, fitonimik birləşmələr vardır ki, onları başqa dillərdən olduğu kimi tərcümə edirlər. Kalkalardan fərqli olaraq, morfoloji quruluşuna görə alınma olan sadə fitonimlər başqa dillərdən elə olduğu kimi alınıb, mənimsəyən dilin fonetik quruluşuna uyğunlaşdırılaraq işlədilir (amaryllis—amarillis və s).

Deməli, tərcümə prosesində quruluşca sadə olan alınma fitonim o zaman dilə daxil olur ki, dilin öz daxili imkanları əsasında, özünəməxsus söz yaradıcılığı üsulları ilə müəyyən bitkinin adının ifadəsi üçün müvafiq termin, söz yaratmaq mümkün olmur. Bu zaman başqa dildən bitkini ifdə edən fitonim hazır şəkildə alınırş. Tərcümə ədəbiyyatında istifadə olunan və dilin lüğət tərkibinin leksik-semantik potensialını zənginləşdirən bu cür sadə fitonimlər üç cəhətdən—elmi, tərcümə nəzəriyyəsi, bədii dil baxımından da çox əhəmiyyətlidir. Tərcümə edilən fitonimlər konkret bir məzmun ifadə edir. Bu mənada, dilimizdə yer alan yeni, quruluşca sadə və tibbi əhəmiyyətli bitkiləri adlandıran fitonimlərin axını labüddür. lakin bu qəbildən olan alınma fitonimlər termin kimi üslubi cəhətdən neytral olduğuna görə istər bədii, istərsə də elmi üslubda eyni elmi məzmunu ifadə edir. Odur ki, tərcümə prosesində bu tip fitonimləri olduğu kimi saxlayırlar. Tərcümə prosesi nəticəsində ayrı-ayrı dillərin qarşılıqlı olaraq zənginləşməsi müxtəlif millətlərin mədəniyyətlərinin qarşılıqlı əlaqəsi nəticəsində baş verir (abeliya, akasiya, akant, aktinidiya, babobab, adoksa, aqazillis, aqatis, aqava, aizon, tunq, alkanna, aloye, amarillis, tərxun, araliya, asparaqus, astra, aukuba, bambuk, barbülə, kaktus, kalopkada, kameliya, kassiya, kənaf, kanna, araliya, arukariya, arbeniya, bekmniya, beqoniya, botritis, kolrabi, pekan, kazuarin, sidr, katalpa, xara, xamamelum, setrariya, danaya, elodeya, evkomiya, evkalipt, qladious, qlediçiya, saksaul, heveya, nortenziya, batat, jasmin, kiksiya, lekanora, xına, manqo, mahoniya, maqnoliya, maklyura, lüfə, pion, palma,

jenşen, parmeliya, parmella, parmeliya, avokado, petuniya, fissa, fiopsis, floks, betel, poliporis, puksiniya, sumaq, akasiya, sesleriya, şerardiya, sefora, ispanaq, kakao, tillesiya, torilis, tunika, ulva, usnea, ustilaqo, unsinula, urotsistis və s.).

İngilis və Azərbaycan dillərinin fitonimlər hesabına zənginləşməsi mürəkkəb bir proses olaraq hələ də davam edir, çünki elmi terminologiya, əslində, müxtəlif dillərin, fərqli təfəkkür formalarının dünya sivilizasiyasına qoşulması deməkdir.

Ədəbiyyat

1.Gozalova K., Mammadova T. A course of modern English lexicology. Baku: Mutarjim, 2009
2.Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı: Nurlan, 2008.
3.Garasharli Ch. Language and Culture. Baku, 2014.
4. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı: Nurlan, 2008.
5.Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə, Baku, 1980.

АЛИЕВА ИЛЬХАМА НАДИР

ЛЕКСИЧЕСКИ ОБРАЗОВАННЫЕ ФИТОНИМЫ В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

Понятно, что одним из ключевых факторов, влияющих на развитие любого языка, является его богатый словарный состав. По мере развития науки и техники в языке также появляются новые мифы и понятия. В то же время новые слова требуют нормального названия, которое становится движущей силой словарного процесса. Происхождение фитонимы будь то на азербайджанском или английском языке, это не случайно, это подчиняется определенным законам. Как и любые другие ономастические единицы в лексике, фитонимы, образованные лексическими способами, начинают появляться в языке либо с помощью диалектов, либо методом исчисления. В то же время, включив его как слово из других языков, посредством нового значения, за счет внутренних возможностей языка. Процессы реализуются на языке через литературный, научный и издательский стили.

Вновь разработанным лингвистическим способом в языке, то есть простым по структуре, фитонимы трансформируются в произведение активной лекции с помощью других стилей. Обогащение научной терминологии простыми фитонимым более актуально, чем другие.

В настоящее время предпочтение людей лечению силой медицины требует исследований в различных областях науки о растениях. Очень важную часть фразы составляют фитонимы. Словосочетания из этого племени относятся к географическому ландшафту каждого народа. Фитонимы также помогают производить образный язык, используя фразовые соединения.

Ключевые слова: фитонимы, понятия, лексические методы, язык, ономастические единицы

Aliyeva Ilhama Nadir

LEXICALLY FORMED PHYTONYMS IN THE ENGLISH AND AZERBAIJANI LANGUAGES

SUMMARY

It is obvious that one of the key factors affecting the development of any language is its rich dictionary composition. As science and technology advance, new notions are also emerging in the language. At the same time new notions require a normal name, which becomes the driving force of the world-building process. Whether it is in Azerbaijani or English, formation of phytonyms is not coincidental, it is subject to certain laws. Like any other onomastic units in the vocabulary, phytonyms formed by lexical ways begin to appear in the language either by means of dialects or calculus method. In addition, by inserting words borrowed from other languages, the way of obtaining new meaning is created on account of the language's own internal facilities. The mentioned processes are realized in the language through artistic, scientific and journalistic styles. The phytonyms that are newly formed lexically in the language, i.e., simple in structure become part of the active lexicon by entering the domestic style through other styles. Enrichment of scientific terminology with simple phytonyms is more actual in comparison with others.

At present, people's preference for treatment with the power of medicine necessitates the study of phytonyms in various fields of science. A very important part of phraseological combinations consists of those formed on the basis of phytonyms. Phraseological units from this group refer to the geographical landscape of each nation. Phytonyms also assist to produce figurative language by using phraseological units.

Key words: phytonims, notion, lexical methods, language, onomastic units

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: F.ü.f.d, dos. Şabanov R.
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏDƏBİYYATŞÜNASLIQ

CAVİDƏ MƏMMƏDOVA
Fil.f.d., dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Dünya ədəbiyyatı və komparativistika şöbəsi
cavi_e@yahoo.com

CEYMS COYSUN "ULISS" ROMANINDA AZADLIQ KONSEPSIYASI

XX əsrin əvvəllərində fəlsəfə və ədəbyyatda yeni məzmun qazanan insan problemi və onun azadlığı məsələsi böyük irland yazarı Ceyms Coysun yaradıcılığında özünəməxsus bir şəkildə əksini tapmaqdadır. Z.Freydin psixoanaliz nəzəriyyəsinin əsas fikirlərini, xüsusən də qeyri-şüuri konsepsiyasını bədii şəkildə əks etdirən C.Coysun əsərləri həm də bu alimin düşüncələrini aydın bir şəkildə anlamğımız üçün bir zəmin təşkil edir. C.Coys əsərlərində, xüsusən də "Uliss"də qəhrəmanların zehnindəki və hisslərindəki xaosu, onların qeyri-şüuri davranışları kimi bir çox mürəkkəb məsələləri, əslində, Z.Freydin psixoanaliz nəzəriyyəsinə əsaslanaraq təsvir etmişdir. C.Coysun əsərlərinin başlıca fikri əsasən daxili monoloq texnikası ilə ifadə olunur ki, bunun da təməlində Z.Freydin məlum-məşhur elmi üsulu dayanmaqdadır ki, buna da daha çox "Uliss"də təsadüf edilməkdədir. Başqa sözlə, C.Coys bu elmi təcrübədən qəhrəmanlarının gerçək arzularını və daxili dünyasını ifadə etmək üçün uğurla faydalanmışdır. C.Coys insana təsir edən hadisələrin psixoloji reaksiyalar yolu ilə insanı istiqamətləndirməsi məsələsini Leopold Blum ve Stephen Dedalus münasibətlərində ifadə edir. Yazar Blumun istəklərindən bəhs etmədən onun qeyri-şüuri xəyallarını, axtarışını, oğluna qarşı duyduğu qeyri-şüuri həsrəti anlatmaqla psixikadakı gizli prosesləri və bununla da insan varlığındakı mürəkkəbliklərin də bir qismini təqdim etməyə nail olur. Əsərdə Blumun şəxsi taleyindəki ayrılığın bu üsul ilə təqdimi, həm də insan təbiətində, onun mahiyyətində bir ayrılıq, bir həsrət iztirabının mövcudluğu fikrini ifadə edir.

"Uliss"də müxtəlif dini mətnlərdən əlaqəsiz bir şəkildə bəhsedilməsi də təsadüf deyil. "O vaxtlar daha xoşbəxt idim. Mən idimmi? Yoxsa indi mənəm? Rudidən sonra bir daha sevmədim. Zamanı geri gətirə bilməzsən. Əlində su tutmaq kimi. O zamana geri dönə bilrəsənmi? Dönərsənmi?", yaxud "Nifrət. Eşq. İsimlərdir bunlar. Rudi. Tezliklə yaşlanacağam" (2). Bu kimi dağınıq düşüncələr Blumun bu əziz

adamına qarşı həsrətini əks etdirərkən, eyni zamanda, onun ayrılıq və həsrətlə birliktə həyatının mənasını da itirdiyini anlatmaqdadır.

Məlumdur ki, bu əsərində C.Coys bəzi mifoloji qəhrəmanların taleyini yeni versiyada qələmə almışdır. Yazarın yaradıcılığının ən məhsuldar tədqiqatçılarından olan R.Ellman onun bu qəhrəmanlara bənzəyən obrazlarının da qətiyyətli olduğunu, qazandıqları zəfərin isə ruhi, mənəvi zəfər olduğunu vurğulamışdır. (1, s. 371).

Məlum olduğu kimi, həmin mifoloji qəhrəmanlar həyata, insanlığa olan sevgi dolu təbiəti ilə sona qədər şərə qarşı savaşır. C.Coysun romanının da əsas ideyası mənəvi və fiziki köləliyə qarşı mübarizədir. Təbii ki, Blum ilə onlar arasında konkret zahiri bənzərliklər müşahidə etmək çətindir, hətta bəzən mümkün deyil. Lakin əsərin əsas ideyası və simvolik səhnələr onların taleyindəki mühüm bənzərlikləri ifadə etməkdədir. Belə ki, yazar, əslində, fərqli zamanların, müqayisə edilməz mühitlərin insanlarının eyni duyğuları, ehtirasları və hətta eyni problemləri yaşadığını göstərməklə insanların hər dövrdə bir məqsəd üçün yaşadıqlarını vurğulamışdır; bu məqsəd böyük şərə, ədalətsizliklərə qarşı mübarizədir. Bu mübarizə bəzən fiziki, bəzən də mənəvi şəkildə davam edən və heç bir zaman bitməyəcək azadlıq savaşıdır. Aydın olur ki, C.Coysun "Uliss" romanında mühüm məqamlardan biri, insanın özündən də xəbərsiz istəkləri, qərarları ilə köləliyə qarşı qeyri-şüuri mübarizə aparması məsələsidir. Bu şəkildə yazar insan təbiətinin onun özü üçün də sirli olan tərəflərindən birindən bəhs edir – azadlıq duyğusundan.

C.Coysun yaradıcılığının əsas xüsusiyyətlərindən biri də azadlıq düşüncəsini özünəməxsus şəkildə, müxtəlif anlayışların bədii əksi ilə ifadə etməsidir. Bu mənada C.Coys zaman anlayışına fərqli məzmun verməkdədir; yəni burada hadisələr, zamanın məntiqi, təbii axınında deyil, şüuraltında var olan amillərin təzahürlərində təqdim edilməkdədir. Romanda bəzən anidən də olsa zamanlar arasındakı sərhədlər sanki ortadan qalxır, bir zamandan digərinə, bir hadisədən o birinə ani keçidlər yazarın ideyalarını ifadə etməsinə yardım edir. C.Coys yazır: "Nə keçmiş, nə də gələcək var; Hər şey sonsuz bir indidə axır." Belə düşünən yazarın əsərlərində də geçmiş geçən zaman, həm də indidir. Yazar "Uliss"də bu fikrin daha açıq bədii izahını verir. "Uliss"də yazar fərqli görüşləri ifadə edir, bu düşüncələrin vasitəsilə tarixin fərqli dövrlərinin gerçəklərini xatıraldır, oxucunun xəbərdar olduğu, lakin həmin anda haqqında düşünmədiyi tarixi reallıqları və şəxsiyyətləri xatırlatmaqla sanki bir fikir qarışıqlığı yaradır. Beləliklə, C.Coys həm əsərin əsas ideyasını izah edir, eyni zamanda da oxucunun şüuraltında mövcud olan bəzi düşüncələri və təəssüratları hissetməsini təmin edir. Əsərdə müasir zamanada baş verən adi bir hadisənin təsviri ilə bağlı olaraq bəzi dini mətnlərin, müxtəlif filosofların görüşlərinin, Şərq və Qərb ölkələrinin isimlərinin əlaqəsiz bir şəkildə xatırlanması oxucuya sanki insanlığın düşüncə tarixinə nəzər salmaq imkanı verir. Məhz bu məqamda C.Coys xəyali də olsa zamanın məsafələrini "ortadan qaldıraraq" əsrlər arasındakı sərhədləri "dağıdır".

Bu əsərdə əhəmiyyətli məsələlərdən biri də mühit məsələsidir. C.Coysun bu romanında hadisələr Dublin mühitindən kənara çıxmır, amma insanlığın taleyini, ruhi həyatını və şəhərin ruh halını əks etdirir. Yazar həqiqətən də "o dövrdə meydana gələn yerli "iflicin" simptomu kimi şəhər həyatını ümumiləşdirir" (5, s.137). C.Coysun məktublarının birində dünyanın "iflic mərkəzi" (4,198) olaraq təsvir etdiyi Dublin bu əsərində də dünyanın simvolik obrazına dönür.

C.Coys qədim bir mif qəhrəmanının həyat yolundakı maneələrin müasir həyatda da mövcud olduğunu Dublin mühitinin bədii əksi ilə təqdim edir. Oxucuya tanış mifoloji hadisələri müasir həyatın problemləri ilə, həm də simvolik şəkildə təqdim edərək yazıçı ictimai mühitin reallıqlarını xarakterizə edir. Müxtəlif mifik bitki və varlıqlar, əfsanəvi hadisə və qəhrəmanlar Coysun əsərində öz simvolik mənasında yer alır. "Məlumdur ki, modernist ədəbi cərəyanda bəzi anlayışlara xüsusi məna vermək üçün simvollardan istifadə olunması modernist nəsrin ən mühüm cəhətlərindən biridir" (3, s.25). O cümlədən, "Uliss"də də C.Coys mifoloji hadisələri, olduğu kimi təsvir etməyərək eyni mənanı müasir cəmiyyətin problemlərinə uyğun, lakin simvolik bir şəkildə ifadə edir. Bu simvollardan istifadə edərək müəllif İrlandiyadakı milli istiqlal mücadiləsinə münasibətini ifadə edir. Bundan başqa, yazar ifrat millətçilik ideologiyasının mənfiliklərini məhz mifologiyadan aldığı obrazların müasir dünyaya xas surətini yaratmaqla əks etdirməyə nail olur. Əsərdə "Ye, yoxsa səni yeyəcəklər. Öldür! Öldür!" (2) sözləri amansız və soyuq bir şəkildə ifadə olumaqdadır. Yaxud bu soyuq fikir də insanda bir qədər qorxu oyandırır: "Ədalət demək, hər kəsin hər kəsi yeməsi. Nəhayətdə həyat budur. Bu işi nə qədər də sürətlə görür" (2). C.Coysun əsərində humanist dəyərlərin tükəndiyi, böhran halında olan, azadlıqdan məhrum bir cəmiyyət cəhənnəmlə bərabər tutulur. Başqa sözlə, C.Coysa görə, azadlığın, bərabərliyin olmadığı, humanizm böhranının gündən-günə dərinləşdiyi bir cəmiyyət cəhənnəmdir.

C.Coys "Uliss"də insanın azadlığı, özünə inam kimi mövzuları gündəmə gətirir, ictimai vəziyyətin insan taleyinə deyil, insanın uğurları ilə ictimai hadisələrə təsiri kimi mövzulara toxunur. C.Coys da bütün bunların insan zehni və özünə güvən ilə gerşəkləşə biləcəyi fikrini müdafiə edir.

C.Coysun bu əsərdə azadlıq idealını ehtiva edən insan, mühit və zaman konsepsiyaları bu şəkildə izah edilə bilər; C.Coysa görə, insan Z.Freydin psixoanaliz nəzəriyyəsində izah etdiyi kimi, qeyri-şüuri amillərin təsiri altında hərəkət edən, qərarlar verən, çox zaman özünü, arzularını anlamayan bir varlıqdır. Fikrimizcə, C.Coys "Uliss"də həmin məsələni bir qədər fərqli şəkildə izah edərək bu barədə özünəməxsus düşüncələr irəli sürür. (Bu məsələnin tərəfimizdən başqa bir elmi araşdırmada təhlil edilməsi nəzərdə tutulur).

C.Coysun bütün qəhrəmanlarının iç dünyasında bir azadlıq meyli var; özləri bundan xəbərsiz olsalar da bu duyğu onların istəklərinə və qərarlarına təsir edir. C.Coysun fikrincə, insan dünyadakı ən azad və ən yaradıcı varlıq olduğu üçün bu duyğular onun içində yaradılışdan bəri var olmaqdadır. C.Coysa görə, bir şəxs

yaşadığı mühiti, aid olduğu sosial çevrəni, bu mühitdəki mövqeyini və hüquqlarını anlamazsa, mənəvi azadlıq arzusu onun üçün anlaşılmaz qalır. Bu mənada insan özünü dərk etməyənə qədər onun xöşbəxtliyi mümkün deyil. Mühit onu təşkil edən adamların düşüncə və duyğularına əsasən formalaşır. Əsarət altındakı insanlar üçün azad və xoşbəxt bir cəmiyyət qurmaq imkansız olduğu kimi, o xəstə mühitdə doğulan insanların da sağlam bir zehnə və ruha sahib olması mümkün deyil.

"Uliss"də C.Coys mifoloji düşüncədən mənimsədiyi mühit modelini yaradaraq, hər zaman xoşbəxtlik axtaran insanın taleyinin, əslində, zahirən dəyişdiyini, ancaq həqiqi üzünün, mahiyyətinin eyni olduğunu izah etməyə çalışır. Əsərdə baş verən hadisələrə diqqət etdikdə aydın olur ki, üzdə hər şey sakit görünsə də, əslində, C.Coysun qəhrəmanları böyük bir azadlıq savaşı içindədir.

Ədəbiyyat

1. Ellmann R. James Joyce. New York: Oxford Toronto, Oxford University Press, 1982.
2. Joyce, J. Ulysses. https://www.gutenberg.org/files/4300/4300-h/4300-h.htm
3. Memmedova, C. Celil Memmedguluzade ve James Joyce'un Yaratıcılığında İnsan Ve Ortam Sorunu // JIIA, Cilt: 3, Sayı: 4, Haziran-Temmuz / Yaz / 2018.
4. Джойс, Д. Статьи. Дневники. Письма. Бесседы // – Москва: Вопросы Литературы, – 1984. № 4.
5. Harding, D. Writing the City: Urban Visions and Literary Modernism / D.Harding. – London: Routledge.

Cavidə Məmmədova

Ceyms Coysun "Uliss" romanında azadlıq konsepsiyası

Xülasə

Açar sözlər: Ədəbiyyat, Coys, Roman, Azadlıq, İnsan, Həyat

Modernist nəsrin görkəmli nümayəndələrindən biri olan böyük irland yazarı Ceyms Coysun yaradıcılığı dünya ədəbiyyatında əhəmiyyətli bir səhifədir. Onun əsərləri dünya ədəbiyyatına yeni ədəbi üslubu gətirməklə yanaşı insan və həyat, sənətkar və cəmiyyət kimi müxtəlif problemləri özünəməxsus tərzdə əks etdirir. Ceyms Coysun əsərlərində əhəmiyyətli yerə sahib olan məsələlərdən biri də insan və azadlıq problemidir. Yazarın azadlıq konsepsiyası oxuculara zəngin və orijinal ideyalar təqdim edir. C.Coysun azadlıq konsepsiyası çox geniş bir araşdırmanın mövzusu olduğu üçün məqalədə yalnız "Uliss" romanında azadlıq konsepsiyası təhlil olunur. Məqalədə yazıçının azadlıq idealını ifadə üsulları və obrazları da təhlil edilir. Eyni zamanda, "Uliss" romanında Freyd motivləri araşdırılır, mifoloji düşüncənin yazarın romanına təsirləri izah olunur. Müqayisəli təhlillərdən aydın olur ki, zahirdə hər şey sakit görünsə də, əslində, C.Coysun qəhrəmanları böyük bir azadlıq savaşı içindədir.

Javida Mammadova

The Concept of Freedom in *Ulysses* by James Joyce

Summary

Keywords: Literature, Joyce, Novel, Freedom, Human, Life

The works of the great Irish writer James Joyce, one of the prominent representatives of modernist prose, is an essential page in world literature. In addition to bringing a new literary style to world literature, his works reflect various problems such as human and life, artist and society in a unique way. One of the issues that have a fundamental place in the works of Joyce is the problem of humans and freedom. The writer's concept of freedom provides readers with rich and original ideas. As Joyce's concept of freedom has been the subject of a pervasive study, the article only analyzes the concept of freedom in the novel *Ulysses*. This article also presents the writer's methods of expressing the ideal of freedom in *Ulysses*. At the same time, the article explains Freudian motifs in *Ulysses* and reveals the influence of mythological thinking on the author's novel. Comparative analysis proves that Joyce's heroes are in a great struggle for freedom in *Ulysses.*

Джавида Мамедова

Концепция свободы в *Улиссе* Джеймса Джойса

Резюме

Ключевые слова: Литература, Джойс, роман, свобода, человек, жизнь

Творчество великого ирландского писателя Джеймса Джойса, одного из выдающихся представителей модернистской прозы, является важнейшей страницей мировой литературы. Помимо того, что он привнес в мировую литературу новый литературный стиль, в его произведениях своеобразно отражены различные проблемы, такие как человек и жизнь, художник и общество. Одной из проблем, занимающих основополагающее место в творчестве Джойса, является проблема человека и свободы. Концепция свободы писателя предлагает читателям богатые и оригинальные идеи. Поскольку концепция свободы Джойса стала предметом всестороннего изучения, в статье анализируется только концепция свободы в романе "Улисс". В статье также представлены методы писателя по выражению идеала свободы в произведении "Улисс". В то же время статья объясняет фрейдистские мотивы в романе "Улисс" и раскрывает влияние мифологического мышления на роман автора. Сравнительный анализ доказывает, что герои Джойса ведут великую борьбу за свободу.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: Şahbaz Musayev Filologiya elmləri doktoru tərəfindən çapa tövsiyə olunmuşdur

NAZƏNDƏ SABİR QIZI HACIYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
nazende.haciyeva1960@mail.ru
Gəncə Dövlət Universiteti

AZƏRBAYCANÇILIQ İDEYASININ İNKİŞAFINDA MİRZƏ KAZIMBƏYİN ROLU

Açar sözlər: Azərbaycançılıq, üslub, ədəbi mühit, yaradıcılıq, milli ideya, mübarizə, inkişaf.

Ключевые слова: Азербайджанство, стиль, литературная среда, творчество, национальная идея, борьба, развитие.

Key words: Azerbaijanism, style, literary environment, creativity, national idea, struggle, development.

Azərbaycançılığa dair yazılmış elmi-tədqiqat əsərlərindən bizə məlum olduğu kimi, Azərbaycanın milli oyanışı və yeniləşməsi, onun milli ideya uğrunda mübarizə hərəkatı milli gerçəkliyimizin çox mühüm tərkib hissələrindən biridir. Qədim və orta əsrlər Azərbaycanında buna oxşar ideyalar vahid ərazi hissi, maddi-məişət şəraitinin ümumiliyi, xarici dövlətlərə qarşı əlbir mübarizə, dil və qan qohumluğu, soykökü eyniliyi, mənəvi mədəniyyət sahəsində oxşar cəhətlər, iqtisadi-siyasi və coğrafi birlik zəminində formalaşmış müəyyən xüsusiyyətlər idi.

Sonrakı illərdə belə ideyalar ayrı-ayrı hallarda ümumiran, ümumtürk, ümumislam ideyalarının tərkib hissələri kimi də çıxış etmişdir. Azərbaycanın ancaq özünə aid ola bilən və bugünkü elmi-nəzəri ədəbiyyatda özünə "azərbaycançılıq" kimi vətəndaşlıq hüququ qazanan saf Azərbaycan milli ideyasına çevrilənədək, o, uzun bir tarixi inkişaf yolu keçmişdir. Bu tarixi prosesdə müxtəlif Azərbaycan soykökləri vahid azərbaycanlı milləti kimi formalaşmağa və özünün milli ideyasını yaratmağa başlamışdır. Milli ideyalar öz-özünə yaranmır. Xalqın içərisindən çıxmış qabaqcıl fikir dühaları belə ideyaları yaratmağın vaxtı çatdığını zəruri hesab edərək, onu formalaşdırır, sonra isə onun ümumxalq malına çevrilməsinə nail olurlar. Bu baxımdan, görkəmli Azərbaycan maarifçisi Mirzə Kazımbəyin də azərbaycançılıq ideyasının inkişafında öz xidmətləri vardır. Azərbaycan maarifçiliyinin və azərbaycançılıq ideyasının inkişafında Mirzə Kazımbəyin fəaliyyətinin və əsərlərinin ciddi təsiri olmuşdur.

Mirzə Kazımbəy azərbaycançılığın tərkib hissəsi olan folkolordan bəhs edərkən göstərir ki, xalq yaradıcılığının - əfsanə, rəvayət və əsatirlərin kökləri müxtəlif xalqlarda ümumi cəhətlərə malikdir, lakin bir xalqın, mənəvi dünyası onu başqa xalqın mənəvi aləmindən fərqləndirən xüsusiyyətlərə malikdir. M.Kazımbəy əsatirlərin meydana gəlməsi məsələsini düzgün izah edərək, göstərirdi ki, əsatir real obyektiv aləmin təhrif olunmasıdır: "İnsanın anlayışlar dairəsindən çıxan hadisələr haqqındakı mühakimələr onda gizlənən biliyə həvəs sayəsində zəif anlayışları təmin etmək üçün onu bütün mümkün imkanlara əl atmağa məcbur edir, burada müxtəlif

ehtimallar vardır; insanın kobud məişətdəki ehtimalından isə aldanışa, mövhumata gedib çıxılmalıdır və bu xurafat onda, möhkəmlənərək, etiqad sahəsinə birbaşa yol açır". [1, 130]

Fəlsəfə elmləri doktoru Rəfail Əhmədov "Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi əsərində yazır ki, azərbaycançılığı təmsil edənlərdən biri də qırx beş il Qazan və Peterburq universitetlərində dərs demiş, türk dillərinin rusca ilk elmi qrammatikasını yazmış, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, Fransa, Almaniya, Danimarka, ABŞ akademiyalarına və elmi cəmiyyətlərinə üzv seçilmiş, "Türk-tatar dilinin qrammatikası" əsəri ilə "Demidov mükafatı"na layiq görülmüş Dərbəndli Mirzə Kazım bəydir (1802- 1870). Mirzə Kazım bəy Qədim Şərq mədəniyyəti ilə tam bağlı olduğundan, o, bu mədəniyyətin Rusiya və Qərbdə yayılmasında əvəzsiz xidmətlər göstərmişdir. Doğrudur, Mirzə Kazımbəy də A.A.Bakıxanov, İ.Qutqaşınlı, Mirzə Cəfər Topçubaşov və b. kimi geosiyasi strategiyada hakim rus doktrinasına xidmət etmiş və bununla da Rusiyanın Şərq, o cümlədən də, Azərbaycan siyasətinə kömək etmişdir. Lakin bütün bunlarla yanaşı, Mirzə Kazımbəy də digər məsləkdaşları kimi Rusiya şərqşünaslığının yaradılmasında misilsiz xidmətlər göstərmiş, milli mədəniyyətin formalaşması missiyasını da öz üzərinə götürmüşdür. Məhz Mirzə Kazımbəy və digər məsləkdaşlarının səyi nəticəsində Rusiya və Avropada Şərq və o cümlədən də, Azərbaycan filologiyasına ardıcıl və sistemli maraq göstərilmiş və bununla da, Qərb və Rusiya ilə Azərbaycan arasında qarşılıqlı əlaqələr yaranmış, Qərb mədəniyyətini Azərbaycanda yaymaqla yanaşı, Azərbaycan mədəniyyəti haqqında Qərbdə və Rusiyada müəyyən təsəvvürlər yaradılmışdır. Onlar Azərbaycanda müasir tipli milli elmi fikrin təşəkkülü ilə yanaşı, Şərqin öz mədəni-tarixi keçmiş, fəlsəfəsilə bağlı Qərbdə və Rusiyada xüsusi maraq yaratmışdır."

Mirzə Kazımbəy azərbaycançılıq ideyasının və milli ideologiyamızın süqututu olan milli dil problemini tədqiq edən, onu təcrübədə gerçəkləşdirən maarifçilərimizdən biridir. Azərbaycançılıq üzrə görkəmli tədqiqatçı Sona xanım Vəliyeva düzgün olaraq dili azərbaycançilığın ən vacib ünsürü hesab edir. "Hər şey dildən başlayır. Xalqın dilini onun çoxəsrlik həyatının güzgüsü, nəsillər arasında ötürücü əlaqə, yaddaş vasitəsi, xalqın tam və həqiqi tarixi adlandırmaq olar. Kitabın, məktəbin olmadığı əyyamlardan üzü bəri və bu gün də insanların keçmişi, bu günü, gələcəyi arasında körpü salaraq, onları maarifləndirməkdə, milli özünüdərk hisslərini formalaşdırmaqda və onu sonrakı nəsillərə ötürməkdə milli dil ən mühüm vasitə hesab olunur. Dil xalqın mahiyyəti deməkdir.

Əgər o, yox olarsa, xalq da yer üzündən silinər. Xalqın əlindən alman hər şeyi yenidən ona qaytarmaq mümkündür, yalnız onun dili əlindən alındıqda, həmişəlik məhvə məhkum edilir. Odur ki, dilə təkcə ünsiyyət vasitəsi kimi yox, milli fikrin, təfəkkürün, dünyabaxışın, dünyagörüşün, milli davranışın fundamental nizamı və qaydası kimi yanaşmaq lazımdır. Dil həmişə konkret bədii, fəlsəfi, elmi və s. mətnlərdə yaranır, cilalanır və milli mentalitetin ən müxtəlif ünsürlərini tarixin

yaddaşına hopdurur.

... Çoxəsrlik tariximizdə xalqımızı yaşadan, onu ruhən qoruyan və müasir dövrə gətirib çatdıran ən əsas amillərdən biri onun ədəbiyyatı - söz sənəti və dil mədəniyyəti olmuşdur.” AMEA-nm müxbir üzvü, professor Yaşar Qarayev milliideyanın xalq kütlələri tərəfindən mənimsənilməsində elmin, mədəniyyətin mühümoynadığım qeyd edir: “...Nə etnik şüur, nə də milli yaddaş öz kökünü, cövhərini kənar mənbədən almır. Kütləvi milli ideyaya elm, mədəniyyət fəlsəfə hazırlayır.

Professor Vilayət Quliyev “Mirzə Kazımbəy” əsərində qeyd edir ki, bu maarifçi ziyalımız Rusiyanın türk-tatar əhalisinin öz tarixi keçmişinə - mədəniyyətinə, fəlsəfəsinə, dini-mifoloji dünyagörüşünə və s. nəzər salmağı və həmin ənənələri yaşatmağı vacib saymışdır. [2, 119]

Görkəmli Azərbaycan dilçi alimlərindən Ağamusa Axundov, “Ümumi dilçilik” əsərində yazır ki, XIX-XX əsrlər Azərbaycan dilçiliyinin inkişafının ikinci dövrüdür və bu, M.Kazımbəydən başlayır. Onun fikrincə, 1839-cu ildə M.Kazımbəyin Kazanda nəşr edilmiş “Türk-tatar dilinin ümumi qrammatikası” əsəri “yalnız Azərbaycan dilçiliyində deyil, bütün türkologiyada böyük və yeni bir hadisə idi. Həmin əsərdə Azərbaycan dili ilk dəfə Avropa qrammatikaları dəbində təqdim edilmişdi.”

Məlum olduğu kimi, türk dilinin Xəzər-Oğuz (Azərbaycan) qolu artıq birinci onfeilliyin ilk əsrlərində tam təşəkkül tapmışdır. “Kitabi- Dədə Qorqud” boylarının bu dövrdə meydana çıxması, türk dilinin Xəzər-Oğuz (Azərbaycan) variantının həmin dövrdə ədəbi dil kimi mövcudluğunu ortaya qoyur. O ki qaldı, türk dilinin “Azərbaycan ləhcəsi” ideyasına, artıq bu ifadə XI əsrdə Xətib Təbrizi tərəfindən işlədilmişdir. Çar Rusiyası Şimali Azərbaycanı işğal edənə qədər və hətta sonralar da xalq doğma diliriitürk dili olmasına qətiyyən şübhə etməmişdir. Ancaq çar Rusiyasının təxribatçı işlərindən sonra bu məsələdə, eləcə də, milli mənşə məsələsində dolaşıqlar baş qaldırmışdır. Bu baxımdan, M.Kazımbəyin

“Azərbaycan ləhcəsi” ideyasını öz bildiyi kimi yozan çar Rusiyası dövründə, xüsusilə, XIX əsrin ikinci yarısında “Azərbaycan dili” ilə bağlı, rus dilində bir çox kitablar işıq üzü görmüşdür. Bu kitablarda Azərbaycan türkcəsi ta~ tar dili, türk-tatar dili, Azərbaycan-tatar dili, Azərbaycan-tatar-türk dili, tatar- türk dilinin Qafqaz ləhcəsi, tatar-türk dilinin Azərbaycan ləhcəsi və s. kimi qələmə almışdır.

Tədqiqatçı Faiq Ələkbərovun fikrincə, Mirzə Kazımbəy, birinci növbədə, Rusiyanın əsarəti altında yaşayan türk-tatarların, o cümlədən, Azərbaycan türklərinin şivəsini tədqiq etmiş, sonuncuların dilini başqa türk dillərindən fərqləndirməyə çalışmış və onu konkret olaraq vahid bir millətə - Azərbaycan türklərinə aid etmişdir. Mirzə Kazımbəy “tarixi-coğrafi Azərbaycan”da yaşayan millətin türk dilini “Azərbaycan ləhcəsi” adlandırmaqla, şübhəsiz, eyni soykökə, dilə, mədəniyyətə bağlı bir millətin bütövlüyündən çıxış etmişdir. Ancaq onun türk dilinin “Azərbaycan ləhcəsi” ideyası həm o vaxt, həm də indiki bəzi alimlər tərəfindən başqa yerə

yozulmuşdur.

1839-cu ildə yazdığı "Türk-tatar dilinin ümumi qrammatikası" əsərində Mirzə Kazımbəy türk dilində danışan xalqların ləhcələri arasında müqayisə aparmış, onlar arasında fərqli və oxşar cəhətlər olduğunu göstərmişdir. Xüsusilə, bu məqaləsində Kazımbəy türk dilində danışan Azərbaycan xalqının ləhcəsini şərh etmişdir. Bir sözlə, Kazımbəy Azərbaycan türklərinin dilinin türk dilinə aid olduğunu, ancaq bəzi cəhətlərinə görə başqa türk ləhcələrindən fərqləndiyini sübut etməyə çalışmışdır: "Azərbaycan- tatar dili Rusiyanın Zaqafqaziya ərazilərində işlədilən türk ləhcəsidir. Bu dil ölkənin (Azərbaycan) öz adı ilə adlanır. Təbriz (Tavriz) şəhəri bu ölkənin paytaxtı hesab olunurdu." Həmin dövrdə Rusiya alimi, akademik B.Dorn M.Kazımbəyin bu əsərinə yazdığı resenziyasında deyir ki, bu vaxta qədər heç kimə məlum olmayan, ilk dəfə Mirzə Kazım bəy tərəfindən aydınlaşdırılan "Azerbidjan ləhcəsi" çox böyük əhəmiyyətə malikdir. Onun fikrinə görə, "Azerbidjan ləhcəsi" Qafqaz məktəbləri üçün də olduqca vacibdir (110, 138).

Maraqlıdır ki, Dorn bu ləhcəni Rusiya üçün çoxdan duyulan tələbat kimi qiymətləndirm iş və bunun bir şərqli tərəfindən kəşf etdiyini, xüsusilə, qeyd etmişdir. Bu, bir daha təsdiq edir ki, Rusiya Qafqaz müsəlmanlarının türk dilinin- s və türk millətinin adının saxtalaşdırılmasında son dərəcə maraqlı olmuşdur.

Təbii ki, M.Kazımbəyin "Qrammatika"sına maraq həm müəllifin parlaq şəxsiyyəti, həm də onun yüksək elmi nüfuzu ilə bağlıdır. Onu rus elminin parlaq siması və böyük mütəfəkkir kimi qiymətləndirən o dövrün tanınmış şərqşünası, professor B.V.Qriqoryev yazırdı ki, M.Kazımbəy islam fəlsəfəsinin, müsəlman elmlərinin dərin bilicisi, biliklərini Avropa elmi ənənələri ilə birləşdirən, ərəb, fars və türk dillərinə bələd olduğu kimi, ingilis, fransız və rus dillərini də gözəl bilən asiyalıdır. Bu "asiyalı" XIX əsrdə ümumən çiçəklənməkdə olan Rusiya elminin mühüm bir istiqamətinin - türkologiya və şərqşünaslığın əsasını qoymuş, Kazan Universitetində Şərq dilləri kafedrasının müdiri, Sankt-Peterburq Universitetində Şərq fakültəsinin ilk dekanı olmuşdur. Bu fakültə 1854-cü ildə müvafiq şöbə əsasında təşkil ediləndə M.Kazımbəyin təklifi ilə burada qədim ərəb, yeni ərəb, fars, osmanlı türkcəsi, Azərbaycan-türk, cığatay, monqol, kalmık, mancur, Çin, qədim yəhudi, yeni yəhudi, gürcü dili və s. dillərin tədrisi başlamışdı. O, eyni zamanda bu fakültədə əlavə olaraq xarici əlaqələr, siyasi-iqtisad, mülki hüquq və cinayət hüququ məsələlərinin, latın dilinin və pedaqogikanın tədrisinin aparılmasına nail olmuşdu.

Böyük elm fədaisi həmin illərdə universitetdə çalışmaqla kifayətlənməyib, Hərbi Akademiyanın zabitləri üçün türk dilindən mühazirələr oxuyurdu. O, İmperator Hərbi Akademiyasında keçilən türk dili kursu üçün dərs vəsaiti də hazırlamış və bu əsərinə görə ona Demidov mükafatı verilmişdi. Ruslar professor Mirzə Kazımbəyi özlərinin qabaqcıl ictimai fikrinin görkəmli nümayəndəsi hesab edirdilər. Əslində isə M.Kazımbəy çoxşaxəli yaradıcılığı ilə Rusiya çərçivəsindən çıxaraq dünya elminin ciddi hadisəsinə çevrilmişdir. Dərin biliyinə, elmi təfəkürünə, düşüncə miqyasına və dil bilgisinə görə fenomenal alim sayılan M.Kazımbəy

Avropanın elmi dairələrində də yaxşı tanınır, dünya şərqşünaslığının fenomeni hesab olunurdu. Böyük Britaniya, Fransa, Almaniya, Hollandiya və ABŞ-ın elmi cəmiyyətlərinin adlı-sanlı üzvü olmuş M.Kazımbəy elm aləmində tarix, fəlsəfə, siyasət, hüquq, Yaxın və Orta Şərq xalqlarının ədəbiyyatını tədqiq edən, islamın və müsəlman hüquq elminin böyük bilicisi kimi tanınmışdır.[3, 89]

Rusiyada XIX əsrin siyasi fəlsəfəsinin təşəkkül tapması da M.Kazımbəyin adı ilə bağlıdır. Xalqların milli özünüdərki və azadlıq ideyalarının əsas yer tutduğu bu fəlsəfə indiyədək də öz müasirliyini itirməmişdir. Onun siyasi görüşləri daha çox "Müridizm və Şamil" (1859) və "Bab və Babilər: 1848-52-ci illər İranda dini və siyasi təlatümlər" (1865) əsəridir. M.Kazımbəyin islam tədqiqatları mövzusunda olan "Qurani-Kərimdə ahənglik" (1859) və "İslam tarixi" (1860) kimi əsərlərində də ciddi ictimai problemlərə toxunulmuşdur.

Mütəfəkkir alimin müsəlman Şərqinin tarixi, fəlsəfəsi və ədəbiyyatı ilə bağlı əsərləri Rusiya və Avropada şərqşünaslığın mükəmməl nümunələri kimi qəbul edilirdi. Buna görə də araşdırmaçılar tez-tez onun əsərlərinə istinadlar edir, həyatı və çoxşaxəli yaradıcılığı haqqında yazırdılar. Təbii ki, bu gün biz Q.Düqo, İ.Kraçkovski, M.İvanov, V.Bartold kimi şöhrətli alimlərin tədqiqatlarında M.Kazımbəy haqqında yazılanları iftixar hissi ilə oxuyuruq. Və M.Kazımbəy haqqında bu geniş məlumatları ona görə yazıram ki, onun yaradıcılığının məhsulu olan "Türk-tatar dilinin qrammatikası"nın Azərbaycan dilinə tərcüməsinin əhəmiyyətini lazımınca təsəvvür edək.

Böyük alimin bütün bioqrafları xüsusi olaraq qeyd edirlər ki, o, nüfuzlu bir türkoloq kimi öz əsərlərində Avropa ilə Şərqin dil və qrammatik ənənələrini birləşdirməyi bacarırdı. Fərqli dillərin ortaq cəhətlərini elmi baxımdan izah etməyin öhdəsindən yalnız M.Kazımbəy kimi elmi ənənəni və dillərin təbiətini gözəl bilən bir mütəfəkkir gələ bilərdi. Bu mənada elmi ənənələrin və tədqiqat üsullarının mürəkkəb şəbəkəsi daha çox onun "Ümumi qrammatika"sında öz əksini tapırdı. Dilçi alimlərin qənaətinə görə, A.Joberin "Qrammatika"sına məxsus latın və ənənəvi ərəb dili qrammatikası sxemləri və terminologiyasını özündə birləşdirən "Ümumi qrammatika"da, hətta Lomonosovun dilçilik ideyalarının da təsirini görmək mümkündür. Yəni, M.Kazımbəyin əsərləri o dövrlərdə dünya dilçilik elminin istər Qərb (ingilis, alman, fransız), istərsə də Şərq (daha çox türk, ərəb, fars) qollarında üzə çıxmış ən mühüm nailiyyət və tendensiyaları özündə əks etdirirdi. Bir sıra elmi məziyyətləri ilə yanaşı, həm də nailiyyət və tendensiyaları dolğun əks etdirdiyinə görə böyük alimin "Türk-tatar dilinin qrammatikası" əsəri bu qədər böyük maraq doğurmuşdur.

M.Kazımbəyin filologiyaya dair əsərləri içərisində müstəsna yeri olan "Türk-tatar dilinin qrammatikası" kitabı ilk dəfə 1839-cu ildə işıq üzü görmüş və uğurlu dərslik kimi şöhrət qazanmışdır. Kitab ikinci dəfə 1846-cı ildə "Türk-tatar dilinin ümumi qrammatikası" adı altında təkrar nəşr olunmuşdur. Paris Asiya Cəmiyyətinin üzvü, fəlsəfə doktoru Y.T.Senker bu əsəri 1848-ci ildə alman dilinə çevirəndən

sonra "Qrammatika" Qərb ali məktəblərində mötəbər dərslik kimi geniş istifadə olunmağa başlanmışdır.[4, 231]

Dahi M.Kazımbəyin dilçilik görüşlərini dolğun bir şəkildə əks etdirən "Türk-tatar dilinin qrammatikası" üç hissə və iyirmi iki fəsildən ibarət dolğun monoqrafik tədqiqatdır. Burada əlifba və hərflərin tələffüzü məsələlərindən tutmuş, nitq hissələri, nitqdə sözlərin sintaktik əlaqəsi və cümlə konstruksiyalarının ümumi sisteminə kimi dilçiliyin ən ümdə problemləri əks olunmuşdur. Ən başlıcası müəllif bu əsərini o dövr üçün ən müasir sayılan metodika əsasında işləmiş, dünya və Avropa dilçiliyinin ənənələrindən bəhrələnmiş, bir çox dilçilik hadisələrinin nəzəri təhlilini vermiş, gələcək tədqiqatlar üçün elmi-nəzəri baza formalaşdırmışdır. Təbii ki, o dövr üçün, elə bu gün üçün də önəmli sayılan bir sıra yeniliklər etmişdir. Məsələn, XVII-XIX əsr türkoloqları J.B.Holderman, J.V.Preindl, K,Komidas, M.Viqye, A.Jober, L.Davids, A.Fayzmayer və başqaları türk dilində altı halın olduğunu qeyd etdikləri halda M.Kazımbəy 7-ci halı, yəni yerlik halı da buraya əlavə etmişdir. Bütün halların rus dilindəki adı ilə yanaşı, ərəb dilində ekvivalenti də verilmişdir. Bu, həm də ənənəvi ərəb dili qrammatikasının o dövrdə Şərqdəki üstün mövqeyindən xəbər verir. Çünki göstərilən müəlliflərin əksəriyyəti türk dilində ismin hallarını öz dillərində verməklə yanaşı, ərəb dilinə xas istilahlardan da istifadə etmişlər.

Beləliklə, Azərbaycan maarifçiləri, o cümlədən, Mirzə Kazımbəy azərbaycançılığı milli-mənəvi dəyərlərimizlə bağlı fenomen hesab edirlər.

Ulu Öndər Heydər Əliyev göstərirdi ki, "Kim ki, bizim əxlaqımıza, mənəviyyatımıza, milli ənənələrimizə zidd olan yollarla gedəcəksə, o cür həyat tərzi ilə yaşayacaqsa, onların Azərbaycanda yaşamaq haqqı yoxdur. Hər hansı bir dövlətin, ümumiyyətlə, müasir cəmiyyətin qarşısında duran mühüm vəzifələrdən biri bugünkü nəsli milli hisslərlə, vətənpərvərlik ruhunda tərbiyə etməkdən ibarətdir. Bu məsələlərdən danışan Ulu Öndərin fikrincə, "Bizim məğlubiyyətimizin və düşdüyümüz ağır vəziyyətin əsas səbəblərindən biri Azərbaycanda son illər gedən ictimai-siyasi proseslər nəticəsində gənclərimizdə ümumi milli məfhumlara biganəlik və başqa mənfi keyfiyyətlərin meydana çıxması, bəzən geniş sirayət etməsi ilə əlaqədardır". [5, 123]

Ədəbiyyat:

1. F.Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi,Bakı 1981.
2. T.Məmməd. XIX əsr Azərbaycan ədəbiyyatı, 1 cild, Bakı 2012
3. Y.Qarayev. XIX-XX yüzillər Azərbaycan ədəbiyyatı, Bakı, 2002
4. Xeyrulla Məmmədov. XIX əsr Azərbaycan ədəbiyyatı,2006
5. Məhəmmədəli Mustafayev. XIX əsr ədəbi irsi ədəbiyyatşünaslıqda, Bakı, 2010

Xülasə

Dos.Hacıyeva N.S.

Mirzə Kazımbəy azərbaycançılıq ideyasının və milli ideologiyamızın süqututu olan milli dil problemini tədqiq edən, onu təcrübədə gerçəkləşdirən maarifçilərimizdən biridir. Azərbaycançılıq üzrə görkəmli tədqiqatçı Sona xanım Vəliyeva düzgün olaraq dili azərbaycançilığın ən vacib ünsürü hesab edir. "Hər şey dildən başlayır. Xalqın dilini onun çoxəsrlik həyatının güzgüsü, nəsillər arasında ötürücü əlaqə, yaddaş vasitəsi, xalqın tam və həqiqi tarixi adlandırmaq olar. Kitabın, məktəbin olmadığı əyyamlardan üzü bəri və bu gün də insanların keçmişi, bu günü, gələcəyi arasında körpü salaraq, onları maarifləndirməkdə, milli özünüdərk hisslərini formalaşdırmaqda və onu sonrakı nəsillərə ötürməkdə milli dil ən mühüm vasitə hesab olunur. Dil xalqın mahiyyəti deməkdir.

Əgər o, yox olarsa, xalq da yer üzündən silinər. Xalqın əlindən alman hər şeyi yenidən ona qaytarmaq mümkündür, yalnız onun dili əlindən alındıqda, həmişəlik məhvə məhkum edilir. Odur ki, dilə təkcə ünsiyyət vasitəsi kimi yox, milli fikrin, təfəkkürün, dünyabaxışın, dünyagörüşün, milli davranışın fundamental nizamı və qaydası kimi yanaşmaq lazımdır. Dil həmişə konkret bədii, fəlsəfi, elmi və s. mətnlərdə yaranır, cilalanır və milli mentalitetin ən müxtəlif ünsürlərini tarixin yaddaşına hopdurur.

Summary

Doc.Hajiyeva Nazanda S.

THE MIRZA KAZYMBEY'S ROLE IN THE DEVELOPMENT OF THE IDEA OF AZERBAIJANISM

Mirza Kazymbey is one of our educators who researches the problem of the national language, which is the downfall of the idea of Azerbaijaniism and our national ideology, and makes it a reality in practice. Sona Khanum Valiyeva, a prominent researcher on Azerbaijaniism, rightly considers language to be the most important element of Azerbaijaniism. "Everything starts with the language. The language of the people can be called a mirror of its centuries-old life, a transmission link between generations, a means of memory, a complete and true history of the people. The national language is considered to be the most important tool for educating people, forming a sense of national self-awareness and passing it on to the next generations, building a bridge between people's past, present, and future, since the days when there were no books and schools. Language means the essence of the people.

If it disappears, the nation will be wiped out from the face of the earth. It is possible to return everything German from the hands of the people, only when their language is taken from their hands, it is condemned to destruction forever. Therefore, it is necessary to approach the language not only as a means of communication, but as a fundamental order and rule of national thought, thinking, outlook, outlook, and national behavior. Language is always concrete artistic, philosophical, scientific, etc.

it originates in the texts, is polished and absorbs the most diverse elements of the national mentality into the memory of history.

Резюме

Доц. Гаджиева Н.С.

РОЛЬ МИРЗЫ КАЗЫМБЕЯ В РАЗВИТИИ ИДЕИ АЗЕРБАЙДЖАНСТВА

Мирза Казымбей – один из наших педагогов, который исследует проблему национального языка, являющуюся крахом идеи азербайджанства и нашей национальной идеологии, и воплощает ее в жизнь на практике. Видный исследователь азербайджанизма Сона Ханум Валиева справедливо считает язык важнейшим элементом азербайджанства. «Все начинается с языка. Язык народа можно назвать зеркалом его многовековой жизни, передаточным звеном между поколениями, средством памяти, полной и достоверной историей народа. Национальный язык считается важнейшим средством воспитания людей, формирования чувства национального самосознания и передачи его следующим поколениям, наведения моста между прошлым, настоящим и будущим людей, еще со времен, когда без книг и школ. Язык означает сущность народа.

Если он исчезнет, нация будет стерта с лица земли. Вернуть все немецкое из рук народа можно, только когда его язык будет взят из рук, он осужден на уничтожение навеки. Поэтому к языку необходимо подходить не только как к средству общения, а как к основному порядку и правилу национальной мысли, мышления, мировоззрения, мировоззрения, национального поведения. Язык всегда конкретно-художественный, философский, научный и т. д. оно рождается в текстах, шлифуется и вбирает в память истории самые разные элементы национального менталитета.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: Axundova Nəzmiyə M.q.
tərəfindən çapa tövsiyə olunmuşdur

AYGÜN QOCAYEVA
ADPU,
Filologiya fakültəsi, Xarici Dillər Mərkəzi
aygün.qocayeva31@mail.ru

LE NATURALISME

Xülasə

Naturalizm XIX əsrin 2-ci yarısında Avropa və ABŞ ədəbiyyatında formalaşmış cərəyandır. Naturalizmin estetikası təbiətşünaslığa, başlıca olaraq, fiziologiyaya əsaslanırdı. İtaliyadakı verizm cərəyanı da naturalizmə yaxın cərəyanlardandır.

Naturalizm XIX əsrin 60-cı illərində Fransada yaranmış, 70-80-ci illərdə başqa ölkələrdə də geniş yayılmışdı. Onun ilk əlamətləri Q.Flober, xüsusilə Qonkur qardaşlarının yaradıcılığında əksini tapmışdır. Naturalizm və ya təbiətşünaslıq fəlsəfədə, sənətdə və ədəbiyyatda təbiətə əsaslanan müxtəlif cərəyanlara verilən ortaq bir addır. Bu cərəyanların ardıcıllarına naturalist deyilir. Bundan əlavə, təbiət tarixi ilə məşğul olan elm adamlarına da naturalist və ya təbiətşünas deyilir. Naturalizmin əsas prinsipindən biri həyati konkret müşahidə ilə öyrənmək və göstərməkdir. Bu prinsipdən Balzak da istifadə etmişdi və bu yolla böyük məhsuldarlığa nail olub doxsandan artıq roman yazmışdı. Lakin Balzak üçün həmişə bədii ümumiləşdirmə üsulu daha əsas idi. O konkret müşahidələrdəki ən fərdi, ünvanlı cəhətləri atırdı.

Lakin naturalizmin formalaşması onun nəzəriyyəsini işləyib hazırlamış Emil Zolyanın adı ilə bağlıdır və eyni zamanda naturalizm G.Mopassan, H.Hauptman, F.Norris, A.Strindberq, H.İbsen, K.Hamsun və başqalarının yaradıcılığına ciddi təsir göstərmişdir. Şüurlu surətdə ədəbi obrazın fərdiliyinə meyl XIX əsrdə Fransada realizmin naturalizm deyilən bir qolunun yaranmasına gətirib çıxardı. Naturalizmin ədəbi manifestini 1880-ci ildə Emil Zolya "Eksperimental roman" adı ilə çap etdirdi. Lakin Emil Zolya və onun davamçıları canlı müşahidəni məqsədə çevirirdilər. O özü şaxtaçıların həyatını öyrənib ən yaxşı romanlarından birini " Jerminal" əsərini yazmışdı.

Açar sözlər: *naturalizm, ədəbi cərəyanlar, naturalist yazıçılar, ədəbi obraz*

Aygun Gocayeva

NATURALISME

Sommaire

Le naturalisme est un courant qui s'est formé dans la littérature européenne et américaine dans la seconde moitié du XIXe siècle. L'esthétique du naturalisme était basée sur les sciences naturelles, principalement la physiologie. La tendance du vérisme en Italie est aussi l'une des tendances proches du naturalisme.

Le naturalisme est né en France dans les années 60 du XIXe siècle et s'est largement répandu dans d'autres pays dans les années 70 et 80. Ses premiers signes

se trouvent dans les œuvres de G. Flaubert, en particulier les frères Goncourt. Le naturalisme ou le naturalisme est le nom général donné à diverses tendances de la philosophie, de l'art et de la littérature basés sur la nature. Les adeptes de ces courants sont appelés naturalistes. De plus, les scientifiques qui traitent d'histoire naturelle sont également appelés naturalistes ou naturalistes. L'un des grands principes du naturalisme est d'étudier et de montrer la vie à travers l'observation concrète. Balzac a également utilisé ce principe et a ainsi atteint une grande productivité et a écrit plus de quatre-vingt-dix romans. Mais pour Balzac, la méthode de généralisation artistique a toujours été plus fondamentale. Il a rejeté les aspects plus personnels et objectifs des observations concrètes.

Cependant, la formation du naturalisme est liée au nom d'Emil Zola, qui a développé sa théorie, et en même temps, le naturalisme a été développé par G. Maupassant, H. Hauptman, F. Norris, A. Strindberg, H. Ibsen, K. Hamsun et autres. Une tendance consciente à l'individualité de l'image littéraire a conduit à la création d'une branche du réalisme appelée naturalisme en France au XIXe siècle. Le manifeste littéraire du naturalisme a été publié en 1880 par Emil Zolya sous le titre "Roman expérimental". Mais Emil Zolya et ses partisans ont fait de l'observation en direct leur objectif. Lui-même étudie la vie des mineurs et écrit l'un de ses meilleurs romans, Germinal.

Mots clés : ***naturalisme, courants littéraires, écrivains naturalistes, image littéraire***

Айгюн Годжаева

НАТУРАЛИЗМ

Резюме

Натурализм — направление, сформировавшееся в литературе Европы и США во 2-й половине 19 в. Эстетика натурализма основывалась на естествознании, прежде всего на физиологии. Направление веризма в Италии также является одним из течений, близких к натурализму.

Натурализм зародился во Франции в 60-х годах 19 века, широко распространился в других странах в 70-х и 80-х годах. Первые ее признаки нашли отражение в творчестве Г. Флобера, особенно братьев Гонкур. Натурализм или натурализм — это собирательное название различных направлений в философии, искусстве и литературе, основанных на природе. Последователей этих течений называют натуралистами. Кроме того, ученых, занимающихся естественной историей, также называют естествоиспытателями или естествоиспытателями. Один из основных принципов натурализма — изучать и показывать жизнь через конкретное наблюдение. Бальзак также использовал этот принцип и таким образом добился большой продуктивности и написал более девяноста романов. Но для Бальзака метод художественного

обобщения всегда был более фундаментален. Он отбрасывал самые личные, целенаправленные аспекты конкретных наблюдений.

Однако становление натурализма связано с именем Эмиля Золя, разработавшего его теорию, и в то же время натурализм оказал значительное влияние на творчество Г. Мопассана, Г. Гауптмана, Ф. Норриса, А. Стриндберга. , Г. Ибсен, К. Гамсун и другие. Сознательное стремление к индивидуальности литературного образа привело к возникновению во Франции в 19 в. направления реализма, получившего название натурализма. Литературный манифест натурализма был опубликован в 1880 году Эмилем Золей под названием «Экспериментальный роман». Но Эмиль Золя и его последователи сделали своей целью живое наблюдение. Он сам изучал жизнь горняков и написал один из лучших своих романов «Жерминал».

Ключевые слова: ***натурализм, литературные течения, писатели-натуралисты, литературный образ.***

L'expression « mouvement littéraire » apparaît au XIX e siècle pour désigner avant tout le mouvement général de la littérature à une période historique précise. Cette acception est encore très vivante à la fin du siècle quand Georges Pellissier écrit son Mouvement littéraire au XIX e siècle (1889) qui contient des chapitres sur le romantisme, le réalisme ou le symbolisme. Doit-on d'abord définir le naturalisme ? Peut-on partir d'une définition reçue ? Bien qu'elle ne puisse s'empêcher de recourir à des termes en -isme, la critique littéraire manifeste une nette répugnance à accorder un réel crédit à des termes qui prétendent rassembler sous une même dénomination des écrivains dont les meilleurs ne valent, à ses yeux, que par le caractère original et irréductible de leur création. Le sort de Dupuis et Cotonnet semble menacer inéluctablement toute entreprise qui s'attaque à la définition et à la compréhension d'un mouvement littéraire. La recherche sur le naturalisme est loin d'échapper à ce danger : le concept en question «n'est parfois qu'une dénomination conventionnelle d'un groupe d'écrivains et d'œuvres qui intéressent en fait la critique parleurs traits individuels », au dire de H. Markiewicz, auteur de l'une des rares études portant sur l'ensemble du «phénomène naturaliste » La même remarque pourrait évidemment être faite à propos du classicisme, du romantisme, etc. Mais une difficulté supplémentaire semble se manifester dans l'emploi du mot naturalisme : à la différence des autres mouvements littéraires qui, tant bien que mal, sont définis par un terme unique (même s'il est contesté), le naturalisme se trouve en concurrence avec un autre terme, réalisme, avec lequel la critique universitaire lui fait entretenir des rapports étroits et complexes, et qui ne contribuent pas peu à embrouiller encore la situation ; il suffit de jeter un coup d'œil sur l'abondante littérature que continue à provoquer le mot «réalisme »dans le seul domaine littéraire, pour ne pas parler des critiques d'art et des spécialistes d'esthétique. Avant d'aller plus avant, il paraît donc souhaitable d'éclairer le débat en dressant le bilan des tentatives faites pour résoudre

un problème, qui n'est pas, comme on s'en doute, de pure terminologie. [pages 9 à 23]

Le naturalisme est un mouvement littéraire qui prolonge le réalisme et qui s'attache à peindre la réalité en s'appuyant sur un travail minutieux de documentation et en s'inspirant notamment de la méthode expérimentale du physiologiste Claude Bernard. Émile Zola est le principal représentant de cette école littéraire en France. Le mouvement s'étend ensuite dans toute l'Europe et jusqu'en Amérique.

Lorsque l'on évoque le naturalisme en France, un nom vient immédiatement à l'esprit : celui du romancier Émile Zola (1840-1902). En effet, Zola jette les bases de ce mouvement littéraire et artistique dans la préface de la deuxième édition de Thérèse Raquin (1868). Il y définit le point de départ du roman naturaliste comme « l'étude du tempérament et des modifications profondes de l'organisme sous la pression des milieux et des circonstances ». Le naturalisme, malgré son nom, ne s'intéresse donc pas qu'à la « nature » au sens écologique du terme, même si certaines oeuvres de cette veine se passent dans le milieu rural ou en forêt… Le projet de l'écrivain naturaliste est de peindre la nature humaine de la façon, non pas la plus belle ni la plus morale, mais la plus vraie possible. [p. 28]

Dès lors, la démarche des naturalistes comporte souvent une dimension expérimentale, scientifique : ils observent, formulent des hypothèses sur les comportements de leurs personnages, prennent en compte leur biologie autant que leur conscience, et tentent de faire un compte rendu hyper objectif du réel qu'ils dépeignent. Les frères Goncourt n'agissent pas autrement quand ils se glissent dans les hôpitaux, les bas-fonds ou les cercles mondains de la société. Zola aussi prend soin de se rendre sur les lieux où s'inscrit l'histoire qu'il imagine ; par exemple, il partage la condition des ouvriers (les mineurs pour son chef-d'œuvre Germinal) ou s'immerge dans la frénésie du milieu des affaires (la Bourse décrite dans L'Argent). Bref, chacun de ses romans est l'occasion d'un considérable travail d'investigation. En 1878 dans la revue L'Artiste, le Belge Camille Lemonnier circonscrit le champ d'étude du naturalisme en ces termes : « Le naturalisme […] est toute une philosophie qui par ses bouts tient à la biologie, à la géologie, à l'anthropologie, aux sciences exactes et aux sciences sociales . [p. 39]

Si les écrivains naturalistes sont des esprits scientifiques, ils sont également de grands artistes, qui s'investissent d'une mission esthétique. Ils emploient des mots précis, voire rares, jusqu'à atteindre parfois un raffinement extrême. Cette façon d'écrire rend unique leur langue, qui se distingue par sa préciosité, sa richesse, sa musicalité, sa « coruscance » et aussi son étrangeté. En outre, il faut souligner à quel point le naturalisme est une esthétique moderne à l'époque où il émerge. Les naturalistes osent en effet envisager des figures en général exclues des œuvres littéraires classiques, parce que jugées indignes d'y apparaître. On y rencontre des « misérables » – mais pas dans le sens où l'entend Victor Hugo, soit des opprimés à qui il s'agit d'apporter la liberté par l'éducation et les vertus républicaines –, les

personnages du naturalisme sont plutôt les jouets d'une fatalité intérieure, biologique, et des forces de l'instinct contre lesquelles ils sont impuissants. Enfin, la marginalité sociale (voyous, peuple des bas-fonds) est volontiers mise en scène par les naturalistes. Il y a même chez eux une certaine complaisance à détailler les tares, les vices, les maladies(par exemple vénériennes) qui vont de pair avec la détresse sociale. Voilà pourquoi le naturalisme est, par différents aspects formels et selon la cruauté du regard qu'il porte sur les destinées, assez proche du courant « décadent ». (Le Petit Robert).

1. **Le naturalisme est un état d'esprit**, celui d'une époque nourrie des idées du philosophe positiviste Auguste Comte (1798-1857), de Charles Darwin (1809-1882), du médecin Claude Bernard (1813-1878) et surtout de l'historien Hippolyte Taine (1828-1893). Partant du principe que chaque fait historique dépend de trois conditions – le milieu, la race et le moment –, Taine tente d'appliquer aux sciences humaines non seulement les idées de Comte, mais également une méthode expérimentale inspirée des travaux de Claude Bernard, dont Zola fera le principe même de son œuvre. Dès *Thérèse Raquin* (1867), le romancier pose, en effet, un regard de scientifique sur ses personnages afin de mettre en lumière les lois qui régissent leurs comportements. Avec le cycle des *Rougon-Macquart*, il porte cette technique à son plus haut point, allant jusqu'à enquêter lui-même sur le terrain pour relever le détail vrai capable d'ancrer le récit dans la réalité.

2. **Le naturalisme est une filiation**. Les écrivains naturalistes n'ont cessé de se réclamer de quelques *pères* qui les ont précédés, notamment Balzac et Flaubert. Chez le premier, ils admirent la capacité à rendre compte d'une société tout en prenant en compte les milieux et les passions ; chez le second, ils aiment le souci du détail et le style, comme le prouve le commentaire de Zola dans un article paru dans *Le petit Corneille* (date inconnue) : « Gustave Flaubert a le travail d'un bénédictin. Il ne procède que sur des notes précises, dont il a pu lui-même vérifier l'exactitude. S'il s'agit d'une recherche dans des ouvrages spéciaux, il se condamne à fréquenter pendant des semaines les bibliothèques jusqu'à ce qu'il ait trouvé le renseignement désiré. Pour écrire, par exemple, dix pages, l'épisode d'un roman où il mettra en scène des personnages s'occupant d'agriculture, il ne reculera pas devant l'ennui de lire vingt, trente volumes traitant de la matière ; et il ira en outre interroger des hommes compétents, il poussera les choses jusqu'à visiter des champs en culture, pour n'aborder son épisode qu'en connaissance de cause. S'il s'agit d'une description, il se rendra sur les lieux, il y vivra. » Un peu plus loin, il évoque la sobriété du style. Pour être complet, il faudrait ajouter à ce duo majeur, d'autres noms : Stendhal, dont « l'analyse sèche et vive » assure le passage entre le XVIIIe et le XIXe, et les frères Goncourt, précurseurs d'un art nouveau, en dépit de quelques préciosités assez peu compatibles avec le strict respect du contrat mimétique.

3. Le naturalisme est un combat. Alors qu'il tente de définir la nouvelle école, dans un article que *Le Figaro* publie dans son numéro du 17 janvier 1881,

Zola fait remonter le naturalisme au XVIIIe siècle. Il y oppose le panthéiste Rousseau, dont Chateaubriand et Victor Hugo seraient les héritiers, au positiviste de Diderot, lointain ancêtre des naturalistes. Ainsi, dès le début, le naturalisme doit-il se battre pour s'imposer. Parmi tous les contempteurs du naturalisme, Louis Ulbach (sous le pseudonyme de Ferragus) se fera le plus virulent dans son compte rendu de *Thérèse Raquin*, simplement intitulé : « Littérature putride » (23 janvier 1868, *Le Figaro*) : « Ce livre résume trop fidèlement toutes les putridités de la littérature contemporaine pour ne pas soulever un peu de colère. Je n'aurais rien dit d'une fantaisie individuelle, mais à cause de la contagion il y va de toutes nos lectures. Forçons les romanciers à prouver leur talent autrement que par des emprunts aux tribunaux et à la voirie ».

4. Le naturalisme a des moments forts. Trois dates-charnières (naissance, maturité, contestation) vont permettre de donner une cohérence à une histoire en grande partie chaotique :

16 avril 1877, le « dîner chez Trapp ». Alors qu'il existait déjà des repas au cours desquels se réunissait les adeptes d'un même mouvement, le dîner chez Trapp devient un phénomène non seulement littéraire, mais également médiatique, à tel point que les journaux de l'époque (en particulier *La République des lettres*) se sont empressés de le commenter ou de donner le célèbre menu : « potage purée *Bovary*, truite saumonée à *la fille Elisa,* poulardes truffée à la *Saint-Antoine*, artichauts au *Cœur simple*, parfait naturaliste, vin de Coupeau, liqueur de *L'Assommoir* ». Le dîner permet, auprès du grand public, d'acter la naissance d'un mouvement qui existait déjà.

1880 : durant cette seule année, Zola, Maupassant, Huysmans, Céard, Hennique et Alexis, proposent un recueil de nouvelles, *Les Soirées de Médan*. Au milieu de tensions déjà perceptibles dans le groupe naturaliste, le recueil est l'occasion de présenter une image unie, de répondre à la critique hostile et de défendre des tendances littéraires.

1887 : « Le Manifeste des cinq ». Alors que Zola, devenu le chef de file du courant naturaliste bien qu'il s'en défende (« Je ne conduis rien du tout », lettre à Mirbeau, 15 mars 1885), se retire de plus en plus à Médan pour travailler en solitaire, cinq disciples (J.-H. Rosny, Bonnetain, Descaves, Guiches, Margueritte) produisent un brûlot contre Zola et son roman *La Terre*, lui reprochant d'être tombé dans le cliché et l'obscénité. Même si l'événement n'a pas la portée qu'on lui attribue aujourd'hui, il marque une évolution dans le mouvement. Beaucoup ont, semble-t-il, hâte de se débarrasser de l'encombrante personnalité de Zola pour enfin exister.

5. Le naturalisme et les principes. En dépit de l'éclatement du groupe, il est possible de repérer quelques grands principes sur lesquels s'appuient les romans naturalistes. Les écrivains éprouvent d'abord le besoin de se renseigner, grâce à des lectures, des enquêtes sur le terrain, des interviews. Tout roman part d'une information rigoureuse. Puis, les romanciers établissent une analyse serrée des

milieux, analyse dont la rigueur importe peu pourvu que le regard soit sociologique ou ethnologique. Trois types sociaux sont privilégiés : l'artiste – dont le statut commence à changer dans la civilisation industrielle et marchande – ; les militaires, témoins privilégiés des turpitudes ou des violences sociales et inscrits, plus que tous les autres, dans le cycle de la vie (du sexe) et de la mort. Il ne reste plus alors, au moment de l'écriture, qu'à privilégier le détail vrai (dans les faits et dans la langue) et à accorder une place prépondérante à la description afin de donner l'illusion de la réalité objective. Ces principes sont présentés dans quelques textes fondateurs, préfaces ou romans : *Germinie Lacerteux* (1864, des frères Goncourt), *Thérèse Raquin* (1867, Zola), *Le Roman expérimental* (1879, Zola), préface de *L'Assommoir* (1880, Zola), *L'Éducation sentimentale* (1869, Flaubert).

6. Le naturalisme est un nom. Avant de s'accorder sur ce terme, les propositions ont été nombreuses : Edmond de Goncourt préférait *naturisme*, Huysmans favorisait *intimisme*, Maupassant s'en tenait à *réalisme* ou proposait *illusionnisme*, Louis Desprez, auteur de la première synthèse sur le mouvement, retenait *impressionnisme*. Flaubert ne voulait rien. Restait Zola : grâce à sa force de persuasion et sa parfaite connaissance du marché publicitaire (« je le répète un beau jour à satiété il est vrai, et voilà que tous les plaisantins de la presse qui le trouvent drôle et qui éclatent de rire »), il imposa *naturalisme*.

II- Mirbeau et le naturalisme

Mirbeau a été un temps considéré comme un disciple de Zola, d'abord à cause de sa présence au célèbre dîner chez Trapp où de jeunes écrivains rendaient hommage à leurs maîtres, Flaubert et Zola. Il a, par ailleurs, choisi des personnages (la bonne, l'ouvrier, le prêtre), des thèmes (la prostitution, le renouvellement continu de la vie, le viol…), des lieux que les écrivains naturalistes ont contribué à populariser. Ainsi certains contes mirbelliens qui mettent en scène des paysans de Normandie, sont-ils assez proches, par leur esprit et leur composition, de ceux de Maupassant. Les romans quant à eux ne sont pas sans rappeler, par quelques aspects, les grandes œuvres de Zola : l'abbé Jules ressemble par exemple à l'abbé Faujas de *La Conquête de Plassans* ; *La Belle Madame le Vassart*, roman publié sous le pseudonyme d'Alain Bauquenne, reprend les grandes lignes de *La Curée*. Toutefois, l'assimilation est hâtive et met de côté nombre de commentaires de Mirbeau lui-même contre ce mouvement. Les reproches qu'il fait sont de plusieurs ordres :

1. D'abord, Mirbeau refuse tout embrigadement. Alors qu'il ne cesse, dans ses œuvres, de critiquer les forces oppressives de la famille, de l'Église et de l'armée, on voit mal comment il pourrait accepter de se conformer à un dogme, fût-il littéraire, ou à un maître, fût-il celui de Médan.

2. Plus important, Mirbeau ne croit pas à la méthode expérimentale. Selon lui, les romanciers naturalistes privilégient le détail au détriment de l'ensemble et, tels des entomologistes froids, ils découpent le réel au point d'en faire une matière morte. Dans « Émile Zola et le naturalisme » (*La France*, 11 mars 1885), il ne mâche

d'ailleurs pas ses mots : « Lécheurs de détail, ils n'écrivent pas autrement que ne peignent les artistes myopes, comme Meissonier et Detaille, pour lesquels, dans leurs théories et leurs critiques, ils professent le plus grand mépris. Leurs œuvres, aussi froides, aussi décolorées, aussi mortes que celles de ces micro-peintres, n'ont aucun accent d'humanité. Impuissants à rendre l'âme des choses, c'est à peine s'ils en expriment le geste. Pauvres esprits aveugles et sans idéal, qui reprochent au romantisme sa vie exorbitante et démesurée, et qui tentent de le remplacer par l'immobilité de la mort ! » En fait, pour Mirbeau, il n'y a pas de vérité objective. Il préfère, au contraire, accorder une prépondérance à la subjectivité. Dans son œuvre, le narrateur ou les personnages ne voient le monde qu'à travers ce qu'ils ressentent, à un moment donné, quitte à le transformer, le triturer, le transformer, le rendre épique ou dérisoire, selon les circonstances et les émotions du moment.

3. Si les naturalistes prétendent donner une explication aux phénomènes, Mirbeau, en véritable précurseur de Camus, part du principe que le monde est absurde et que rien ne le justifie. L'homme lui-même, dominé par des pulsions inconscientes, reste largement énigmatique. Vouloir ramener toutes choses à des déterminismes simples, réduire l'homme à des mécanismes élémentaires, c'est nier la complexité de la vie, mutiler l'âme humaine et, *in fine*, proposer, au nom de la science, une vision mensongère de la réalité.

4. Alors que le romancier naturaliste confie à ses personnages trois fonctions – logique, rhétorique et idéologique –, qui le réduisent parfois à une simple mécanique, Mirbeau fait de ses personnages des êtres de chair capables de réactions, de pensées, d'attitudes, de désirs contradictoires. Loin d'être conçus pour introduire l'information, dévoiler le réel ou illustrer une tare, l'abbé Jules, Sébastien Roch, Jean Mintié, Célestine se contentent de vivre leur vie, même si elle peut sembler incohérente aux yeux d'un lecteur tout entier soumis au culte de la raison et de la méthode expérimentale. Pour le dire brièvement, Mirbeau se détourne de l'analyse psychologisante, telle que la pratique Bourget, et reconnaît à ses créatures une grande part de mystère.

5. Pour Mirbeau, l'écriture ne peut ni rendre compte de la totalité de la réalité ni maîtriser parfaitement le chaos extérieur. Par conséquent, l'écrivain n'hésite pas à briser les codes linguistiques. Pour commencer, il morcelle la phrase et use de la ponctuation, notamment des points de suspension, comme autant de coups de scalpel dans la chair du texte. Ceci fait, il s'affranchit des règles de la composition. Là où les naturalistes établissent des plans, il laisse libre cours à son inventivité, sans craindre d'embrouiller la chronologie, de s'exonérer de la vraisemblance ou d'interrompre le récit alors que toutes les questions qu'il a soulevées n'ont pas encore trouvé de réponses. [pp. 49-60]

Bibliographie

1. Littérature : les mouvements et écoles littéraires (2019), pages 9 à 23
2. ZOLA É., Thérèse Raquin, Paris, Gallimard, coll. « Folio classique », n° 3517, 2012, p. 28
3. Cité par LUC A.-Fr., Le naturalisme belge, Bruxelles, Labor, coll. « Un livre, une œuvre », 1990, p. 39.
4. Caractère de ce qui est brillant, éclatant (Le Petit Robert).
5. Baguley, David, *Le Naturalisme et ses genres*, Nathan, 1995 ;
6. Pagès, Alain, *Le Naturalisme,* PUF, 1989 ;
7. Michel, Pierre, *Octave Mirbeau et le roman*, Société Octave Mirbeau ;
8. Pagès, Alain, et Jouve, Vincent (dir.), *Les Lieux du réalisme*, Éditions
9. Ziegler, Robert, « La naturalisme comme paranoïa chez Mirbeau », *.French Forum*, printemps 2002, vol. 27, n° 2, pp. 49-60.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: professor Çəmən Babaxanova tərəfindən çapa tövsiyə olunmuşdur

HACIYEVA RƏSMİYƏ SƏYYAF QIZI
filologiya üzrə fəlsəfə doktoru
Bakı Dövlət Universiteti,
Zahid Xəlilov,

HÜSEYN CAVİD ÜMUMDÜNYA ROMANTİZMİNİN GÖRKƏMLİ NÜMAYƏNDƏSİ KİMİ

Açar sözlər: Romantizm, Hüseyn Cavid, dramaturgiya, "İblis", ədəbiyyat.
Ключевые слова: Романтизм, Гусейн Джавид, драматургия, "Демон", литература.
Keywords: Romanticism, Huseyn Javid, dramaturgy, "Demon", literature.

Romantizm bir ədəbi cərəyan kimi XVIII əsrin sonları – XIX əsrin əvvəllərində Qərbi Avropada, daha doğrusu Almaniyada bilavasitə Böyük Fransa İnqilabının təsiri ilə yaranmışdır. Alman romantizmi əsasən iki mərhələdən ibarət olmuşdur ki, birinci mərhələ üzvlərinin toplaşdığı və yaşayıb yaratdığı şəhərlərin adı ilə adlandırılan "İen" romantizmi, ikinci mərhələ isə "Heydelberq" romantizmi adlanır. Xarakteri etirabilə daha çox mühavizəkar "İen" romantizminin üzvləri olan alman şair və yazıçılarından Fridrix Şlegel (1772-1829, əsərləri: "Yunan komediyasının estetik dəyəri haqqında" (1794), "Yunan poeziyasının tədqiqi haqqında" (1797), "Lessing haqqında" (1797), "Fraqmentlər" (1797-1798), "Poeziya haqqında söhbət" (1800), "İdeyalar" (1800), "Xüsusiyyətlər və Tənqidlər" (1801), "Transsendental Fəlsəfə"(1801),"Alarkos"(1802),"Fransaya səyahət" (1803),"Avropa ədəbiyyatı tarixi" (1803-1804),"Hindlilərin dili və müdrikliyi haqqında" (1808),"Qədim və müasir ədəbiyyat tarixi" (1815)) və Avqust Vilhelm Şlegel (1767-1845, əsərləri: "İon" (1803), "Roma elegiyası" (1805),"Yakob Minorun əlyazma qeydlərindən" (1804),"Poetik əsərlər" (1811),"Provansın dili və ədəbiyyatı üzrə müşahidələr" (1818),"Bhaqavad Gita" (1823),"Tənqidi yazılar" (1828)) qardaşları, Novalis (1772-1801,əsərləri: "Gecənin himnləri","Ruhani nəğmələr","Gecəyə ilahilər","Henrix fon Ofterdingen" (1800)), Lüdviq Tikin (1773-1853, əsərləri: "Məktublar","Motzartın Berlin səyahəti", "Sarışın Ekberta") nisbətən mütərəqqi səciyyə daşıyan Heydelberq nümayəndələrindən isə Henrix Vilhelm fon Kleyst (əsərləri: "Şroffenşteyn ailəsi" (1808),"Heilbronlu Kaşen" (1808),"Sınıq küp" (1808)), Josef fon Eyxendorf (əsərləri: "Payızda sehr" (1808-1809),"Mərmər heykəl" (1819),"Qadının cib kitabı" (1819),"Yaxşı olmayanın xatirələri" (1826),"Heç bir şey haqqında çox şey" (1833),"Dəniz səyahəti" (1836),"Dürande qəsri" (1837),"Uraniyada oğurluq" (1823), "Fələstinlilərə qarşı müharibə" (1823), "Meyerbertin xoşbəxtliyi və sonu", "Marienburqun son qəhrəmanı" (1830)), Vilhem Grimm(1786-1859) və Yakob Qrimm (1785-1863, əsərləri: "Köhnə alman usta mahnısı haqqında" (1811), "Qədim Edda nəğmələri" (1815, "Alman əfsanələri" (1816-1818), "Alman dilinin qrammatikası" (1819), "Alman mifologiyası" (1835),

“Alman dilinin tarixi” (1848)) qardaşları, E.T.A.Hofmanın (1776-1822, əsərləri: “Kallosayağı fantaziya” (1814),“Don Juan” (1819),“Qızıl qab” (1819),“Qum adamı” (1819),“Nəzir” (1819),“Mayorat” (1819),“Müqəddəs” (1819),“Daş ürək” (1819), “Qəribin uşağı” (1819), “Qumarbazın bəxti” (1819), “Vampirizm”, “Estetik çay süfrəsi”, “Kral gəlini”, “Şahzadə Brambilla”, “Murr pişiyinin həyata baxışı”, “Səhvlər” (1820), “Sirlər” (1821)) adlarını qeyd etmək olar. “İen” romantizminin əsas mətbu orqanı “Ataneum” jurnalı idi (1, s.123).

Fransada romantizm Almaniyaya nisbətən bir qədər gec yaranmışdır. Fransız romantizmini şərti olaraq “mühafizəkar” və “mütərəqqi” olmaqla iki qrupa ayırmaq olar. Mühafizəkar fransız romantizminin nümayəndələrindən Joze De Meystr (1753-1821, əsərləri: “Savoy kralının soydaşlarına məktubları” (1793), “Fransa haqqında mülahizələr” (1796), “Siyasi konstitutsiyanın yaradılması haqqında” (1814), “İspan inkvizisiyası haqqında rus centlmeninə məktublar” (1822), “Siyasi memuarlar və diplomatik yazışmalar” (1859)) və Fransua Rene de Şatobrianı (1768-1848, əsərləri) göstərmək olar. Mütərəqqi fransız romantiklərindən isə Jorj Sand və Viktor Hüqonun adlarını qeyd edə bilərik (2, s. 46).

İngilis romantizminin Avropa romantizmində özünəməxsus yeri və rolu vardır. İngilis romantizminin nümayəndələrindən Corc Hordon Bayron (1788-1824, əsərləri: “İstirahət saatları” (1807), “Çayld Haroldun səyahəti” (1809-1818), “Gavur” (), “Abidos gəlini” (), “Korinfin mühasirəsi” (), “Lara” (), “Korsar” (), “Parizina” (), “Don Juan” ()), Şeridan, Şelli (1792-1822, əsərləri: “Çar qatilinin qeydləri” (1810), “Kraliça Mab” (1813), “Alastor və ya tənhalığın ruhu” (1816), “Azad edilmiş Prometey” (1817), “İslamın üsyanı” (1818)) Valter Skott və başqalarının adlarını göstərmək olar (5, s. 157).

ABŞ romantizmi Avropa romantizminin təsiri ilə yaransa da nisbətən fərqli xarakter daşıyır. ABŞ romantizminin nümayəndələrindən Ceyms Fenimor Kuper (1789-1851, əsərləri: “Pionerlər”, “Vəhşi heyvanlar ovçusu”, “Ləpirçi”, “Sonuncu Mogikan”, “Preriya”, Edqar Allan Po (1809-1849), “Morq küçəsində qətl”, “Qırmızı ölüm maskası”, “Eşer evinin süqutu”, Vaşinqton İrvinqin adlarını qeyd etmək olar (6, s. 200).

Sonrakı dövrlərdə romantizm ədəbi cərəyanı tədricən Şərqi Avropa ölkələrinə Çexiya, Polşa, Rusiya və Rusiya vasitəsilə də Azərbaycana yayılmağa başlamışdır.Avropada və Qərb dünyasında yaranan yeni ədəbi cərəyanlar və istiqamətlər, o cümlədən yeni ədəbi-bədii növ və janrlara Azərbaycan ədəbiyyatında yalnız təxminən yüz il il sonra rast gəlinməyə başlayır ki, bunun da əsas səbəbi o dövrdə ölkəmizin müstəqil olmaması və müstəqil ölkə kimi Dünya və Qərb ölkələri ilə birbaşa əlaqə qura bilməməsi idi. Qərb dünyasında yaranan ədəbi növ, janr, cərəyan və istiqamətlər yalnız o vaxtki Çar Rusiyası və ya qonşu Osmanlı Türkiyəsi vasitəsilə, daha doğrusu bu olkəyə təhsil almağa gedən azsaylı Azərbaycan ziyalıları, mütəfəkkir və ədiblərinin təşəbbüskarlığı, bu ədəbi cərəyanları, növ və janrları öz yaradıcılıqlarına tətbiq etməsi ilə mümkün olurdu.

Bu dövrün görkəmli Azərbaycan yazıçılarından, dövrünün qabaqcıl fikirli ziyalılarından biri də Hüseyn Cavid idi. Belə ki, əsl adı Hüseyn Abdulla oğlu Rəsizadə olan Hüseyn Cavid 24 oktyabr 1882-ci ildə Azərbaycanın dilbər güşələrindən olan Naxçıvanda ruhani ailəsində dünyaya göz açmışdır. İlk ibtidai təhsilini evdə atasından almış, sonra isə 1891-1896-cı illərdə mollaxanada təhsilini davam etdirmiş, 1896-1898-ci illərdə o dövrün görkəmli maarifpərvər ziyalısı sayılan M. Sidqinin "Tərbiyə" məktəbində təhsil almış, daha sonra isə Təbrizin məşhur "Talibiyyə" mədrəsəsini bitirmişdir. İlk şeirlərini də bu dövrdə qələmə almış və ona dərs deyən müəllimlər tərəfindən "gələcəyin böyük şairi" kimi qiymətləndirilmişdir. Ədib 1906-1908-ci illərdə isə Türkiyənin İstanbul Universitetinin Ədəbiyyat bölümünü müvəffəqiyyətlə başa vurmuşdur. İstanbulda oxuyarkən burada keçirilən şeir müsabiqəsində "Vərəmli qız" adlı kiçik poeması ilə çıxış edərək müsabiqənin qalibi olmuşdur. 1910-cu ildə Azərbaycana geri dönən H.Cavid bir müddət Gəncədə ruhani seminariyasında və Tiflisdə fəaliyyət göstərən "Aliyev uçeniye" məktəbinə dərs demiş, 1915-ci ildə isə Bakıya köçərək "Səfa" məktəbində müəllim işləmiş, burada təşkil olunmuş "Ədəbiyyat komissiyası"nın üzvü seçilmişdir. 1918-ci il Bakı hadisələri ilə əlaqədar burada qala bilməyən H.Cavid Təbrizə, oradan da Naxçıvana gedərək Naxçıvanda fəaliyyət göstərən "Rüşdiyyə" məktəbində müəllim işləmiş və burada Müşkünaz adlı bir qızla ailə həyatı qurmuş, bu nigahdan onların 1919-cu ildə oğlanları Ərtoğrul, 1923-cü ildə isə qızları Turan dünyaya gəlmişdir.

Azərbaycan Demokratik Respublikası (1918-1920) qurulduqdan sonra, 1919-cu ildə yenidən Bakıya köçən H.Cavid hazırlıq kurslarında ədəbiyyat fənnini tədris etmiş, bir müddət qız məktəbində şəriətdən dərs demişdir. 1919-cu ilin mayında keçirilən Müəllimlər İttifaqının iclasında idarə heyətinin üzvü, həmin ilin iyulunda isə Azərbaycan Müəllimlər Konfransında Təlifat (nəşriyyat) Heyətinə seçilmişdir. H.Cavid ömrünün son on yeddi ilini Bakı Müəllimlər Seminariyası - Darülmüəllimin ilə bağlamış, istedadlı bir müəllim kimi də tanınmışdır. O, 1920-ci ildə "Yaşıl qələm" dərnəyinin ümumi iclasında cəmiyyətin nizamnaməsini hazırlayan komissiyanın, 1921-ci ildə "Tənqid-təbliğ" teatrının repertuar komissiyasının, 1923-cü ildə Azərbaycan yazıçı, ədib və şairlərinin təşkilat komissiyasının, bir neçə ay sonra təşkil olunmuş "Azərbaycan ədib və şairlər dərnəyi"nin idarə heyətinin üzvü kimi fəaliyyət göstərmişdir. 1924-cü ildə Bakıdakı II dərəcəli 16-cı qız məktəbinə H.Cavidin adı verilmişdir.

H.Cavid 1925-ci ildə Bakıda keçirilən I Türkoloji qurultayda iştirak etmişdir. 1927-ci ildə Xalq Komissarları şurasının qərarı ilə Azərbaycan ədəbiyyatının inkişafında göstərdiyi çoxillik xidmətlərə görə H.Cavidə fəxri təqaüd verilməsi haqqında qərar qəbul olunmuşdur. 1929-cu ildə Cavid Yeni Əlifba Komitəsinin konfransında, Bakıda Gürcüstan yazıçıları ilə birgə keçirilmiş ədəbi-bədii tədbirdə yaxından iştirak etmiş, həmin ildə Zaqafqaziya Şura Yazıçıları və İncəsənət Xadimləri Birliyinin təşkilat komissiyasına üzv seçilmişdir. H.Cavid 1935-ci ildə keçirilən Zaqafqaziya dramaturqlarının Bakı müşavirəsində, 1936-cı ildə Moskva,

Leninqrad və Minsk şəhərlərində keçirilən Azərbaycan poeziyası və dramı günlərində yaxından iştirak etmiş, həmin ildə onun "Xəyyam" pyesi ədəbi əsərlər müsabiqəsində mükafata layiq görülmüşdür (3, s. 53.).

1937-ci il Azərbaycanın bir çox görkəmli ziyalıları kimi Cavidin də taleyində qara izlər buraxmışdır. Həmin ilin iyun ayının 3-də Cavidə qarşı "millətçi" ittihamı irəli sürülmüş, ertəsi gün həbs olunmuşdur. Tam iki il müddətində Cavid Keşlə və Bayıl həbsxanalarında ağır dustaqlıq şəraitində yaşadıqdan sonra 1939-cu ildə antisovet təbliğatında iştirakına görə 8 il həbs cəzası alaraq Sibirə sürgün edilmişdir. Uzun illərin mənəvi-psixoloji təzyiqlərindən sonra səhhəti pozulmuş və 1941-ci il dekabrın 5-də İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko qəsəbəsində vəfat etmişdir. Cavidin o dövrdə təqib edilməsinin əsl səbəbi dövrün sovet ideologiyasına deyil, yalnız qəlbinin səsinə qulaq asması idi. İsgəndər Atillanın sözləri ilə desək: "Cavid tarixdə ləkəsiz qalmaq və ölmək üçün yazırdı. Sənətinə və şairlik istedadına ləkə gətirmək istəmirdi. Dahi şair kommunistlərin dedikləri yolla deyil, Allahın və peyğəmbərlərin buyurduqları yolla gedirdi. Bu yol əbədi şəfqət və səadət yolu idi. Ruhşünas Cavid həm şair, həm dramaturq, həm də filosof-şair olaraq, əsərlərində ümumbəşəri və ümumdünyəvi problemlər qaldırırdı. Bəşəriyyətin həm bu gününü, həm də sabahını düşünürdü. O, sovet zorakılığı və qəddarlığının hökm sürdüyü bir cəmiyyətdə yığın-yığın qara qarğaların içində bülbülə oxşayırdı" (7, s. 12).

1956-cı il 6 mart tarixində Azərbaycan SSR Ali Məhkəməsinin hökmü ilə H.Cavidə bəraət verilmişdir. Bəraət aldıqdan sonra onun cənazəsinin qalıqlarının Azərbaycana gətirilməsinə bir neçə dəfə cəhd göstərilsə də, sovet ideologiyasının hökm sürdüyü SSRİ məkanında belə bir məsələnin reallaşması çətin olduğundan, Sibirdəki dəmir seyflərin açılması, Cavidin məzarının Sibirdə axtarılıb-tapılması və nəhayət Azərbaycana gətirilməsi üçün müvafiq icazələrin alınması o dövrdə həllini tapmamışdır.

Məhz ulu öndər Heydər Əliyevin göstərişi ilə 1982-ci il oktyabrın 12-də Naxçıvan Vilayət Partiya Komitəsi H.Cavidin məzarının tapılması, cənazəsinin qalıqlarının Azərbaycana gətirilməsi ilə bağlı qərar qəbul etdi və bu işin icrası Naxçıvan Vilayət Partiya Komitəsinin katibi Həmid Cəfərova həvalə olundu. Naxçıvan Vilayət Partiya Komitəsinin qərarından sonra heyət muxtar respublikanın daxili işlər nazirinin müavini, polkovnik Telman Əliyev və SSRİ deputatı Zakir Nəsirovla birgə Sibirə yollandı. 1982-ci il oktyabrın 26-da H.Cavidin nəşi Moskvadan Bakıya, sonra isə Naxçıvana gətirildi və həmin ilin 3 noyabr tarixində Naxçıvanda evinin qarşısında dəfn olundu.

Ümummilli lider Heydər Əliyev bundan sonra da ədibə mənəvi hamiliyini əsirgəməmiş, şairə ikinci bəraətini qazandırmışdır. Naxçıvanda və Bakıda Cavidin Ev Muzeylərinin yaradılması, 1996-cı ildə Hüseyn Cavidin qəbri üzərində məqbərəsinin ucaldılması, külliyyatının çap edilməsi, 100, 120 illik yubiley tədbirlərinin keçirilməsi də məhz Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Ədəbi yaradıcılığa şair və publisist kimi başlamış H.Cavid ilk mətbu əsərlərini 1904-cü ildə "Şərqi-Rus" qəzetində oxuculara təqdim etmişdir. Sevimli müəllimi Sidqinin vəfatı ilə bağlı Urmiyadan yazdığı məktub qəzetin yanvar sayında nəşr olunmuşdur. Bundan sonra gənc ədib müntəzəm olaraq "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Açıq söz" kimi mətbu orqanlarda çıxış etmişdir.

Hüseyn Cavid yaradıcığını yalnız Azərbaycan romantizmi deyil, ümumdünya romantizmi kontekstində diqqətlə nəzərdən keçirsək görərik ki, çox geniş yaradıcılıq spektrinə malik olan bu dahi mütəfəkkir yazıçı ideya, mövzu, süjet və motiv baxımından bir-birindən maraqlı və orijinal əsərlər yaratsa da, Qərb yazıçılarının əsərlərindən də təsirlənmişdir. Belə ki, onun Türkiyə mətbuatında dərc olunan "Hübuti-Adəm"-"Adəmin (cənnətdən) enməsi" adlı ilk şeirində məşhur ingilis yazıçısı Con Miltonun "İtirilmiş cənnət" əsərinin təsiri açıq-aşkar duyulmaqdadır. Ümumiyyətlə, Hüseyn Cavidin əsərlərini diqqətlə incələsək bu əsərləri əsasən poemalar və dramlar, məqalələr, məktublar olmaqla bir neçə hissəyə ayırmaq olar. Hüseyn Cavidin "Knyaz", "Səyavuş", "İblis", "Xəyyam", "İblisin intiqamı", "Afət", "Peyğəmbər", "Topal Teymur", "Ana", "Maral", "Şeyda", "Şeyx Sənan", "Uçurum" və s. dramlarının, "Azər" poemasının, "Hübuti Adəm", "Bakıda", "Yadi Mazi", "Otuz yaşında", "Gecəydi", "Bir rəsm qarşısında", "Elmi bəşər", "Qadın", "Küçük sərsəri", "Öksüz Ənvər", "İlk bahar", "Qız məktəbində", "Çiçək sevgisi", "Hərb və fəlakət", "Dəniz tamaşası", "Şeyx Sənan", "Rəqs", "Hər yer səfalı, nəşəli", "Çəkinmə, gül", "Sevinmə, gülmə quzum!", "Pəmbə çarşaf", "Xuraman – xuraman", "Uyuyor", "Görmədim", "Bən istərim ki", "Vərəmli qız", "Çoban türküsü", "Dün və bu gün", "Qürubə qarşı", "Hərb İlahi qarşısında", "İştə bir divanədən bir xatirə", "Ey ruhi-pürsükun!", "Küçük bir levhə", "İki həmşireyi-lətafətvan", "Bir qızın son fəryadı, yaxud zindan guşəsindən gələn bir səs", "Qomşu çiçəyi", "Nəcmi-geysudar", "İbtilayi-qəram", "Şeir məftunu", "Dəniz pərisi", "Bilməm kimə?", "Bu gecə", "Ah, yalnız sən", "Qəmər", "Niçin?", "Get", "Məyus bir qəlbin fəryadı", "Son baharda", "Verdim o gün ki, zülfi-pərişanə gönlümü", qəzəlləri, "Hacı Zeynalabdin Tağıyevin yardımı münasibətilə", "Mərsiyə", "Növhə", "Hali-əsəf-istimalımı təsvirdə bir ahi-məzlumanə", "Qoca bir türkün vəsiyyəti", "Bənim tanrım", "Bir zamanlar", "Novruz bayramı", "İsmayıl bəy", "Türk əsirləri", "Qaçqın", "Solğun mənəkşələr", "Çəlik qollar", "Şərq qadını" şeirlərini, məqalə və məktublarını qeyd etmək olar. Hüseyn Cavidin əsas özəlliyi ondan ibarətdir ki, ədəbi istiqamət və cərəyan baxımından birmənalı olaraq romantizm ədəbi cərəyanına mənsub olan Hüseyn Cavid öz əsərlərində Qərb və Şərq dünyasının yalnız romantik yazıçı və şairlərinin yaradıcılığından deyil, ümumiyyətlə özünə qədər mövcud olan bütün ədəbi cərəyan və istiqamətlərinin nümayəndələrinin yaradıcılıqlarından yaradıcı şəkildə istifadə edərək özünün romantik ideya və görüşlərini əks etdirdiyi bir-birindən gözəl əsərlər yarada bilmişdir. Yazıçının ən çox təsirləndiyi Qərb yazıçılarından Dantenin, Petrarkanın, Bokkaçonun, Şekspirin, Volterin, Bayronun, Şellinin, Kornelin, Con Miltonun, Rasinin, Kalderonun, Lope de Veqanın, Puşkinin, Lermontovun təsiri

açıq-aşkar duyulmaqdadır. Lakin bütün bunlara rəğmən Hüseyn Cavidi bu Qərb yazıçılarının bilavasitə davamçısı hesab etmək olmaz. Çünki Cavid təkcə Qərb ədəbiyyatının deyil, həm də Şərq ədəbiyyatının mahir bilicisi idi. Bu da onu tamilə yeni və orijinal fikirli bir yazıçıya çevirmişdir. Cavid yaradıcılığını bütövlükdə tədqiq və təfsir edib bir neçə sözlə ifadə etmək olsaydı, onu aşağıdakı sözlərlə çox gözəl xarakterizə etmək olardı: Hüseyn Cavid yaradıcılığı dünya ədəbi əsərləri içində özünəməxsus yeri və rolu olan, Qərb formalı, Şərq məzmunlu əsərlərdir.

Onun yaradıcılığının əsasında insan, daha dəqiq desək, milli və vətənpərvər ruhlu Azərbaycan insanı, vətəndaşıdır. Bu ideya və ideallar onun bütün yaradıcılığı boyu izlənilir. Yazıçı insanı sovet ideologiyasına uyğun olaraq yalnız maddi və materialist dünyagörüşü baxımından deyil, bütövlükdə mənəvi, ruhi, psixoloji cəhətləri ilə birlikdə təsvir edir, insanın dünyagörüşü və davranışlarında onun şəxsi psixologiyası və onu əhatə edən cəmmiyətin təsiri ilə yanaşı, bir sıra gözəgörünməz, mənəvi-ruhi qüvvələrin də böyük rolu olduğunu dönə-dönə vurğulamışdır.

Nəzakət Əzizovanın da vurğuladığı kimi: "Hər şeydən əvvəl Cavid dramturgiyası, Cavid poeziyası, Insanı dərk etmək, onun mənəvi-fikri imkanlarını tədqiq və kəşf etmək pafosu ilə aşılanmış bir dramaturgiya və poeziyadır. Insan, Iblis, Tanrı haqqındakı bu fikirlər bu poeziyanın böyük, daxili qüvvəsi və mahiyyətidir. Və Cavid sənətinin, Cavid poeziyasının belə bir yaradıcılıq hadisəsi olaraq meydana çıxması təsadüfi deyildir. Bu hər şeydən əvvəl, Cavidin sənətində onun fəlsəfi və estetik görüşlərində, Dünya miqyasında, əsr miqyasında, Insanın yeni dəyərlər axtarışı dövrünün əks olunması ilə bağlıdır. Insan Cavid sənətində böyük, dramatik bir varlıqdır, bu varlığın daxilində xeyir və şər, nəfs və ideal, müharibə və sülh, qılınc və qələm arasında mübarizə gedir. Ən əsas cəhət də odur ki, bu mübarizədə yüksələn, qələbə çalan da Insandakı insanilikdir. Məhz buna görə Insan öz inkişafında, tərəqqisində səmaya, Tanrı yüksəkliyinə can atır, Peyğəmbər Tanrı mərtəbəsinə yüksəlir. H.Cavidin dram əsərlərindəki bədii Insan konsepsiyasının əsasını belə nikbin fəlsəfə təşkil edir." (4, s. 3-4.).

İstifadə edilmiş ədəbiyyat

1. Берковский Н. Я.. Романтизм в Германии / Вступит. статья А. Аникста. Л.,"Художественная литература", 1973, 568 с.

2. Brookner A. Romanticism and Its Discontents. New York, "Farrar, Straus & Giroux", 2000, 198 p.

3. Əfəndiyev Q. Hüseyn Cavidin ideyalar aləmi. Bakı, "Yazıçı", 1985, 206 s.

4. Əzizova N. H.Cavid dramaturgiyasında insan, iblis, tanrı ("Şeyx Sən`an", "İblis", "Peyğəmbər"). Bakı, "Elm", 2007, 153 s.

5. Hamilton P. The Oxford Handbook of European Romanticism. Oxford, "Oxford University Press", 2019, 864 p.

6. Honour, Hugh. Romanticism. New York, "Harper & Row", 1979, 415 p.

7. Orucəliyev İ. Ə. (Atilla). Əsrin şairi. Hüseyn Cavidin həyatı, taleyi, sənət dünyası. Bakı, "Şərq", 2009, 700 s.

Hacıyeva Rəsmiyə Səyyaf qızı

Hüseyn Cavid ümumdünya romantizminin görkəmli nümayəndəsi kimi.

Xülasə

Məqalədə Hüseyn Cavid romantizminin əsas xüsusiyyətləri tədqiq edilir. Romantizm bir ədəbi cərəyan kimi Qərbi Avropada yaranmışdır. Avropada romantizm ilk dəfə olaraq Almaniyada yaranmışdır. Alman romantizmi iki qrupa bölünürdü: 1) İen (mühafizəkar) romantizmi 2) Heydelberq (mütərəqqi) romantizmi. İen romantizminin nümayəndələrindən Fridrix Şlegel, Avqust Vilhelm Şlegel, Novalis, Lüdviq Tikin adlarını qeyd etmək olar. Heydelberq romantizminin nümayəndələrindən Henrix Vilhelm fon Kleyst, Vilhem Grimm, Yakob Qrimm, E.T.A.Hofmanın adlarını qeyd etmək olar. Fransada romantizm Almaniyaya nisbətən bir qədər gec yaranmışdır. Fransız romantizmini də şərti olaraq "mühafizəkar" və "mütərəqqi" olmaqla iki qrupa ayırmaq olar. Mühafizəkar fransız romantizminin nümayəndələrindən Joze De Meystr və Fransua Rene de Şatobrianı göstərmək olar. Mütərəqqi fransız romantiklərindən isə Jorj Sand və Viktor Hüqonun adlarını qeyd edə bilərik. İngilis romantizminin Avropa romantizmində özünəməxsus yeri və rolu vardır. İngilis romantizminin nümayəndələrindən Corc Hordon Bayron, Şeridan, Şelli, Valter Skott və başqalarının adlarını göstərmək olar. ABŞ romantizmi Avropa romantizminin təsiri ilə yaransa da nisbətən fərqli xarakter daşıyır. ABŞ romantizminin nümayəndələrindən Ceyms Fenimor Kuper, Edqar Allan Po, Vaşinqton İrvinqin adlarını qeyd etmək olar. Bu dövrün görkəmli Azərbaycan yazıçılarından, dövrünün qabaqcıl fikirli ziyalılarından biri də Hüseyn Cavid idi. Ədəbi yaradıcılığa şair və publisist kimi başlamış H.Cavid ilk əsərlərini 1904-cü ildə "Şərqi-Rus" qəzetində oxuculara təqdim etmişdir. Hüseyn Cavid yaradıcığını yalnız Azərbaycan romantizmi deyil, ümumdünya romantizminin ən görkəmli nümayəndələrindən biridir.

Гаджиева Расмийя Сайяф кызы

Гусейн Джавид как видный представитель мирового романтизма.

Резюме

В статье изучены основные черты романтизма Гусейна Джавида. Романтизм возник в Западной Европе как литературное течение. В Европе романтизм впервые появился в Германии. Немецкий романтизм делился на две группы: 1) Ийенский (консервативный) романтизм 2) Гейдельбергский (прогрессивный) романтизм. Среди представителей ийенского романтизма можно назвать имена Фридриха Шлегеля, Августа Вильгельма Шлегеля, Новалиса, Людвига Тика. Среди представителей гейдельбергского романтизма можно назвать имена Генриха Вильгельма фон Клейста, Вильгельма Гримма,

Якоба Гримма, Э. Т. А. Гофмана. Во Франции романтизм возник несколько позже, чем в Германии. Французский романтизм условно можно разделить на две группы: “консервативный” и «прогрессивный». Среди представителей консервативного французского романтизма можно назвать имена Жозе де Местра и Франсуа Рене де Шатобриана. Среди представителей прогрессивного французского романтизма можно назвать имена Жорж Санд и Виктора Гюго. Английский романтизм имеет свое место и роль в европейском романтизме. Среди представителей английского романтизма можно назвать имена Джорджа Хордона Байрона, Шеридана, Шелли, Вальтера Скотта и др. Хотя американский романтизм создавался под влиянием романтизма европейского, он имеет относительно иной характер. Среди представителей американского романтизма можно назвать имена Джеймса Фенимора Купера, Эдгара Аллана По, Вашингтона Ирвинга. Гусейн Джавид был одним из выдающихся азербайджанских писателей этого периода и одним из ведущих интеллектуалов своего времени. Начав свою литературную деятельность как поэт и публицист, Х. Джавид представил читателям свои первые произведения в газете “Шарги-Русь” в 1904 году. Гусейн Джавид не только один из виднейших представителей азербайджанского романтизма, но и один из виднейшие представители мирового романтизма.

Hajiyeva Rasmiye Sayaf gizi

Huseyn Javid as a prominent representative of world romanticism.

Summary

İt have been studied the main features of Huseyn Javid’s romanticism in this article. Romanticism arose in the Western Europe as a literary trend. In Europe, romanticism first appeared in Germany. German romanticism was divided into two groups: 1) Ian (conservative) romanticism 2) Heidelberg (progressive) romanticism. We can mention Friedrich Schlegel’s, August Wilhelm Schlegel’s, Novalis’s, and Ludwig Tick’s names among the representatives of the Ian romanticism. We can mention Heinrich Wilhelm von Kleist’s, Wilhelm Grimm’s, Jacob Grimm’s, and E. T. A. Hoffmann’s names among the representatives of the Heidelberg romanticism. In France, romanticism arose a little later than in Germany. French romanticism can be conventionally divided into two groups: “conservative” and “progressive”. We can mention José De Maistre’s and François René de Chateaubriand’s names among the representatives of the conservative French romanticism. We can mention George Sand’s and Victor Hugo’s names among the representatives of the progressive French romanticism. English romanticism has its own place and role in the European romanticism. We can mention George Hordon Byron’s, Sheridan’s, Shelley’s, Walter Scott’s and others’ names among the representatives of the English romanticism. Although American romanticism was created under the influence of European romanticism, it has a relatively different character. We can mention James Fenimore

Cooper's, Edgar Allan Poe's, and Washington Irving's names among the representatives of the American romanticism. Huseyn Javid was one of the prominent Azerbaijani writers of this period, and one of the leading intellectuals of his time. İnitiating his literary career as a poet and publicist H. Javid presented his first works to the readers in "Shargi-Rus" newspaper in 1904. Huseyn Javid is not only one of the most prominent representatives of the Azerbaijanian romanticism, he is also one of the most prominent representatives of world romanticism.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: filolgoiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev tərəfindən çapa tövsiyə olunmuşdur

ƏHMƏDOVA AYGÜN ŞÜKÜR QIZI
aygun_434@hotmail.com
Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Ü.Hacıbəyov-68)

XIX ƏSRİN SONU VƏ XX ƏSRİN ƏVVƏLLƏRİNDƏAZƏRBAYCANDA UŞAQ ƏDƏBİYYATININ YARANMA TARİXİ

Açar sözlər: *Zaqafqaziya Müəllimlər Seminariyası, Tiflis Aleksandrovski Müəllimlər İnstitutu, Azərbaycan uşaq ədəbiyyatı, "Molla Nəsrəddin", mətbuat*

Ключевые слова: *Закавказская учительская семинария, Тбилисский Александровский учительский институт, азербайджанская детская литература, «Молла Насреддин», пресса*

Key words: *Transcaucasian Teacher's Seminary, Tbilisi Alexander Teacher's Institute, Azerbaijani children's literature, "Molla Nasreddin", press*

XIX əsrin sonlarında, XX əsrin əvvəllərində uşaq mütaliəsinin inkişafı üşün maraqlı əsərlər yazıb yaratmaq, maarifçi ziyalılarımızı düşündürən həssas problemlərdən biri idi. Müxtəlif səpgili uşaq əsərlərinin meydana gəlməsi, ana dilində milli dərsliklərin nəşri və oxunaqlı olması yavaş-yavaş formalaşan uşaq zövqünün mövzu əlvanlığına gətirib çıxardırdı. Bu illərdə Rusiyada kəskinləşən ictimai-siyasi vəziyyət öz təsirini əyalətlərə də göstərirdi. Mütərəqqi fikirli ziyalılar təqib edilir, məktəblər bağlanır, mətbuat və maarifçilər isə həm mərkəzi Rusiyada və həm də əyalətdə nəzarət altına alınır, sürgünə göndərildi. Bu haksızlığın nəticəsində isə uzun müddət demokratik fikirlər susduruldu.

1879-cu ildə Zaqafqaziya Müəllimlər Seminariyasında Azərbaycan şöbəsinin yaranması, Tiflis Aleksandrovski Müəllimlər İnstitututuna azərbaycanlı gənclərin qəbul olunması maarif və mədəniyyət sahəsində olan sükutu pozdu. Bu sahədə seminariyanın müsəlman şöbəsinə rəhbərlik edən Aleksandr Osipoviç Çernyayevskinin xidmətinini qiymətləndirməmək olmaz. O, Azərbaycanın böyük əyalətlərini gəzib seminariyada oxumaq üçün şagird yığırdı.

Bu illərdə Azərbaycanda bir sıra pedaqoq-yazıçılar meydana gəldi. Molla Hüseyn Qayıbov, Məhəmmədağa Şahtaxtlı, Səfərəli bəy Vəlibəyov, Əsgərağa Adıgözəl bəy Gorani, Firudin bəy Köçərli, Rəşid bəy Əfəndiyev kimi müəllim-yazıçılar həm məktəbdə dərs deyir, həm də uşaqlarımızın sinifdənxaric mütaliəsi üçün bədii əsərlər yazırdılar. Onların bu fəaliyyəti Azərbaycanda maarifin və uşaq ədəbiyyatının inkişafı və tərəqqisisahəsində yeni bir dövr açdı.

Bu sənətkaraların məktəb yaratmaq, uşaq ədəbiyyatı sahəsində ciddi fəaliyyət göstərmək estafetini XX əsrin ilk illərində öz sələflərindən M.Ə.Sabir, A.Səhhət, S.S.Axundov, A.Şaiq və başqa müəllim-yazıçılar qəbul edib, onu inkişaf etdirdilər.

Onlar da həm məktəb də dərs deyir, həm də uşaqların ətraf mühitlə yaxından tanış olmaqları üşün sinifdənxaric mütaliəsinin qayğısına qalırdılar.

Araşdırmalar göstərir ki, XX əsr Azərbaycan uşaq ədəbiyyatı ümumi ədəbiyyatımızdan xeyli irəli getməyə başlamışdı. C.Məmmədquluzadə M.Ə.Sabir, A.Səhhət, S.M.Qənizadə, S.S.Axundov, R.B.Əfəndizadə, A.Şaiq və başqaları öz əsərləri ilə Azərbaycan uşaq ədəbiyyatına güclü təkan verdilər. Azərbaycan uşaq ədəbiyyatı sənətkarları milli ənənələrimizə sabiq qalıb, dünya ədəbiyyatından, o cümlədən, rus ədəbiyyatından A.Tolstoy, A.P.Çexov, M.Qorki kimi böyük realistlərin yaradıcılıq təcrübəsindən öyrənməyə çalışırdılar. Azərbaycan uşaq yazıçıları milli gerçəklikləri hərtərəfli əks etdirməyə imkan verən müxtəlif janrlar yaratmış, uşaq ədəbiyyatını inkişaf etdirmişlər. İlk dəfə 1881-ci ildə ana dilində "Vətən dili" adlı əlifba kitabını da A.O.Çernyayevski nəşr etdirdi. Maarif sahəsində yaranan bu dəyişikliklər Naxçıvanda Mirzə Əli Məhəmməd, Şuşada Səfərəli bəy Vəlibəyov, Ordubadda Məmməd Tağı Sidqi, Şəkidə və Şamaxıda Ömər Faiq Nemanzadə, Lənkəranda Mirzə İsmayıl Qasir yeni üsulla məktəblər açıb azərbaycanlı balalarına təlim-tərbiyə verirdilər.

1887-ci ildə Bakıda H.Mahmudbəyov, S.M.Qənizadə tərəfindən yaradılan məktəb, mədəniyyət və maarifin inkişafında irəliləyə doğru böyük bir sıçrayış oldu

XIX əsrin sonu XX əsrin əvvəlləri ictimai-fəlsəfi düşüncələrin ideya əməli üzərində yüksələn geniş ictimai hərəkat dövrüdür. XIX əsrdə olduğu kimi, XX əsrin əvvəllərində də ədəbi-tarixi prosessi və mədəni-siyasi fikri məşğul edən əsas məsələ maarifçilik olub.Azərbaycanda maarifçilik hərəkatının təzahür etməsi bu dövürlə bağlıdır. Bu hərəkat milli mətbuat, milli teatr, dramaturgiya və realist ədəbiyyatın inkişafına təkan verir. Azərbaycan uşaq ədəbiyyatı da tarixin bu dövründə yaranıb, inkişaf etməyə başlayır. Bu inkişaf Azəpbaycanın maarif sahəsində də öz müsbət təsirini göstərməyə başladı. Bakıda bir sıra əyalətlərdə rus dilində məktəblər açıldı. Əlbəttə, bu məktəblər Azərbaycanda maarifin inkişafına yox, çarizmə sədaqətli olanlar və hökumətlə xalq arasında əlaqə yarada bilən tərcüməçilər hazırlamaq siyasəti güdürdü.

XIX Azərbaycanda yeni tipli məktəblər də bu illərin məhsulu idi. Lakin bu məktəblərdə nə tədris proqramı, nə də dərsliklər var idi. Nəhayət, 1855-ci ildə M.Ş.Vazeh Qriqoryevlə birlikdə "Kitabi-Türki" adlı dərsliyini nəşr etdirdi. Sonralar ana dilində açılan məktəblər, orada dərsliklərə olan ehtiyac Azərbaycan uşaq ədəbiyyatına tələbi artırdı. Məhz XIX əsrin 70-ci illərində Azərbaycan uşaq ədəbiyyatının inkişafında, balalarımızın təhsil almasında, dərslik və dərs vəsaitlərinin tərtib edilməsində S.Ə.Şirvaninin böyük xidməti olmuşdur.

S.Ə.Şirvani Şamaxıda açdığı xalq məktəbində(1869) "Rəbiül-ətfal" (1878), "Tacül-kütüb" (1883), adlı dərsliklər yazıb, ondan istifadə edir, mollaxanalardan fərqli olaraq uşaqlara Azərbaycan dili və ədəbiyyat dərsləri deyirdi. S.Ə.Şirvani uşaqların oxu vərdişlərini inkişaf etdirmək üçün "Gülüstan", "Bustan" və s. başqa

fars məxəzlərindən tərbiyəvi əhəmiyyəti olan mətnlər seçib Azərbaycan dilinə tərcümə edirdi. Bununla yanaşı, uşaqların yaş xüsusiyyətlərinə və bilik səviyyələrinə uyğun olan öz lirik şeirlərini dərsdə onlara qiraət materialı kimi oxudurdu. Sonralar şair tərcümə və orijinal şeirlərini toplayıb, "Məcmuəyi-asar Hacı Seyid Əzim Şirvani" adlı bir dərslik hazırlayır, nəşri üçün çox çalışırsa da, çap etdirə bilmir. Həmin dərslik yalnız şairin ölümündən 7 il sonra 1895-ci ildə oğlu Mir Cəfər Şirvaninin köməyi ilə Təbrizdə çap edilir.

XIX əsrin sonlarında H.Zərdabi, C.Ünsizadə, A.Q.Çernyayevski, S.B.Vəlibəyov, R.Əfəndiyev, M.T.Sidqi və başqaları xalqın savadlanması üçün var qüvvələrilə çalışırdılar.

Zaqafqaziyada müəllimlər seminariyasında Azərbaycan şöbəsinin açılması (1879) respublikada maarifin inkişafına ciddi təkan verdi. 1882-ci ildə A.Q.Çernyayevski "Vətən dili" I hissə, sonra A.Q.Çernyayevski S.Vəlibəyovla birlikdə "Vətən dili" II hissə (1888) dərsliyini yazdı. Maarif və məktəbin inkişafı ilə əlaqədar olaraq 1905-ci ildə çar hökumətinin verdiyi manifest Azəpbaycanda maarifçi yazıçıların qol-qanad açmasına imkan yaratdı. Azərbaycanda uşaq ədəbiyyatı yaratmaq, uşaq ədəbiyyatını inkişaf etdirmək fikri qabaqcıl ziyalılarımızın çoxdankı arzuları idi. N.Nərimanov, C.Məmmədquluzadə hələ XIX əsrdə uşaq mətbuatı yaratmaq üçün çar hökumətinin senzura idarəsinə dəfələrlə müraciət edib mənfi cavab almışlar.

Lakin çar hökumətinin 1905-ci ildəki manifesti bu sükutu pozdu. Bu hərəkat nəinki Rusiyanın daxilinə, hətta əyalətlərə belə təsir etdi. Bakıda uşaq mətbuatı yaratmaq imkanı əldə edildi.

XX əsrin ilk illərində Bakıda "Hümmət", "Dəvət-Qoç", "Təkamül", "Molla Nəsrəddin", "Bəhlul" və s. qəzet və jurnalları da nəşrə başladı. Bu jürnalların özünəməxsus ideya istiqamətləri var idi. Lakin həmin qəzet və jurnalların səhifələrində ara-sıra uşaq oxusu nümunələri də nəşr edilirdi. Azərbaycan mədəniyyətinin qabaqcıl nümayəndələri. N.Nərimanov, S.M.Qənizadə, Ü.Hacıbəyov və başqalarının səyi nəticəsində nəşr edilən "Dəbistan" (1906-1908) jurnalının səhifələrində uşaq ədəbiyyatı nümunələri əsas yer tuturdu. Orijinal və tərcümə əsərlərindən ibarət olan bu nümunələrdə gənc nəslin ideya-estetik tərbiyəsinin əsas vəzifələri rəhbər tutulurdu. "Dəbistan" jurnalının dili və üslubu qabaqcıl ziyalılarımızı ciddi məşğul edirdi. Çünki uşaq əsərlərinin ideyası, məqsəd və vəzifələri onun dilindən, üslubundan ayrı deyildir.

Uşaq ədəbiyyatının müəyyən yaradıcılıq məsələləri də bu jurnallarda işıqlandırılırdı. Lakin bu problemlərin əhəmiyyətini azaltmadan, uşaq əsərlərində dil-üslub məsələsi çox aktual bir məsələ idi. Dil problemi əsrin əvvəllərində məfkurəvi hadisə idi, mütərəqqi fikirli ziyalılar ilə əks cəbhənin qüvvələri arasında bu problem üstündə kəskin fikir fərqliliyi var idi. Bu mübarizə, xüsusən uşaq ədəbiyyatını əhatə edirdi.

Ona görə də XX əsrin ilk illərində uşaqlar üçün idrakı və tərbiyəvi əhəmiyyətə malik olan əsərlər yazmaq vacib tələblərdən idi. Çünki uşaqlar üçün yazılan əsərlər, kifayət qədər təsəvvürü olmayan kiçik oxuculara konkret və inandırıcı məlumat ver-

məliydi. Yazıçı və maarifçi ziyalılar, hələ formalaşmamış uşaq psixologiyasını nəzərə almaqla yanaşı, məhz bu tələbləri ödəyən bədii əsərlər yazmaqla, uşaqların dünyagörüşünün formalaşması vəzifəsini yerinə yetirməyə səy göstərirdilər.

Formalaşma prosesində uşaqların oxuduqları dolğun, sağlam ideyalı, yüksək bədii səviyyəli əsərlər böyük əhəmiyyət kəsb edirdi. Yazıçı uşaq zehninin və uşaq zövqünün qəbul etdiyiədəbi əsərləri onlara dərin təsir edən hər hansı bir həyat hadisəsini və faktını yaradıcılıq süzgəcindən keçirib, bunların içərisindən mühüm əhəmiyyət kəsb edənini qələmə alırdılar.

XX əsrin əvvəllərində adlarını sadaladığımız maarifçi ziyalılar öz əsərlərində bu problemin bədii həllinə çalışırdılar.

Xülasə

XIX əsrin sonlarında uşaq mütaliəsinin inkişafı üşün ədəbi əsərlər yazmaq qələm sahiblərimizi düşündürən aktual problemlərdən biri idi. Bu illərdə Azərbaycanda bir sıra pedaqoq-yazıçılar və maarifçi ziyalılar ədəbiyyata gəldilər. Molla Hüseyn Qayıbov, Məhəmməd ağa Şahtaxtlı, Səfərəli bəy Vəlibəyov, Əsgər ağa Adıgözəl bəy Gorani, Firudin bəy Köçərli, Rəşid bəy Əfəndiyev kimi müəllim-yazıçılar həm məktəbdə dərs deyir, həm də uşaqlarımızın sinifdən xaric mütaliəsi üçün bədii əsərlər yazırdılar. Onların bu fəaliyyəti Azərbaycanda maarifin və uşaq ədəbiyyatının inkişafı və tərəqqisi sahəsində yeni bir dövr açdı.

Məhz XIX əsrin 70-ci illərində Azərbaycan uşaq ədəbiyyatının inkişafında, balalarımızın təhsil almasında, dərslik və dərs vəsaitlərinin tərtib edilməsində S.Ə.Şirvaninin böyük xidməti olmuşdur. S.Ə.Şirvani Şamaxıda açdığı xalq məktəbində "Rəbiül-ətfal" (1878), "Tacül-kütüb" (1883), adlı dərslik yazıb, ondan istifadə edirdi. XIX əsrin sonlarında H.Zərdabi, C.Ünsizadə, A.Q.Çernyayevski, S.B.Vəlibəyov, R.Əfəndiyev, M.T.Sidqi və başqaları xalqın savadlanması üçün var qüvvələrilə çalışırdılar.

XX əsrin əvvəlləri ictimai-fəlsəfi düşüncələrin ideya əməli üzərində yüksələn geniş ictimai hərəkat dövrüdür. Azərbaycanda maarifçilik hərəkatının təzahür etməsi bu dövürlə bağlıdır. XX əsrin ilk illərində uşaqlar üçün idrakı və tərbiyəvi əhəmiyyətə malik olan əsərlər yazmaq tələb olunurdu. Çünki uşaqlar üçün yazılan əsərlər bəsit hadisələr haqqında hələ kifayət qədər təsəvvürü olmayan kiçik oxuculara konkret və inandırıcı məlumat verməliydi. Yazıçı hələ formalaşmamış uşaq psixologiyasını nəzərə almaqla yanaşı, məhz bu tələbi ödəyən bədii əsərlər yazmaqla, uşaqların dünyagörüşünün formalaşması vəzifəsini yerinə yetirirdilər. C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Səhhət, S.M.Qənizadə, S.S.Axundov, R.B.Əfəndizadə, A.Şaiq və başqaları yadda qalan uşaqların maraq dairəsini əhatə edən əsərləri ilə Azəpbaycan uşaq ədəbiyyatına güclü təkan verdilər.

Ахмедова Айгюн Шукур кызы

ИСТОРИЯ ДЕТСКОЙ ЛИТЕРАТУРЫ В АЗЕРБАЙДЖАНЕ В КОНЦЕ XIX - НАЧАЛЕ XX ВЕКА

Резюме

В конце 19 века написание литературных произведений для развития детского чтения было одним из самых актуальных вопросов для наших владельцев пера. В эти годы в азербайджанскую литературу пришел ряд педагогических писателей и просвещенных деятелей. Учителя и писатели, такие как Молла Гусейн Гаибов, Мухаммед ага Шахтахтли, Сафарали бек Велибеков, Аскер ага Адыгозал бек Горани, Фирудин бек Кочарли, Рашид бек Эфендиев, преподавали в школе и писали произведения искусства для наших детей, которые они читали вне класса. Их деятельность открыла новую эру в развитии и прогрессе образования и детской литературы в Азербайджане.

Именно в 70-х годах XIX века С.А.Ширвани внес большой вклад в развитие детской литературы в Азербайджане, воспитание наших детей, составление учебников и учебных пособий. С.А.Ширвани написал и использовал учебники «Рабиул-этфаль» (1878 г.), «Таджул-кутуб» (1883 г.) в открытой им народной школе в Шамахе. В конце 19 в. много работали по просвещению народа Х.Зардаби, Дж.Унсизаде, А.Г.Черняевский, С.Б.Валибеков, Р.Афандиев, М.Т.Сидги и другие.

Начало XX века — период широкого общественного движения, поднимающегося над практическим применением идей социально-философской мысли. С этим периодом связано проявление просветительского движения в Азербайджане. В первые годы XX века от детей требовалось писать произведения, имеющие познавательное и воспитательное значение. Потому что произведения, написанные для детей, должны были давать конкретную и убедительную информацию юным читателям, еще не имевшим достаточного представления о простых событиях.

Помимо учета еще неразвитой детской психологии, перед писателем ставилась задача формирования детского мировоззрения путем написания художественных произведений, отвечающих этому требованию. Дж.Мамедгулузаде, М.А.Сабир, А.Саххат, С.М.Ганизаде, С.С.Ахундов, Р.Б.Афендизаде, А.Шаиг и другие своими произведениями, охватившими интересы памятных детей, дали мощный импульс Азербайджанской детской литературе.

Ahmedova Aygun Shukur

HISTORY OF CHILDREN'S LITERATURE IN AZERBAIJAN AT THE END OF THE XIX - EARLY XX CENTURIES

Summary

At the end of the 19th century, writing literary works for the development of children's reading was one of the most pressing issues for our pen owners. During these years, a number of pedagogical writers and enlightened figures came to Azerbaijani literature. Teachers and writers such as Molla Huseyn Gaibov, Muhammed aga Shahtakhtli, Safarali bey Velibekov, Asker aga Adygozal bey Gorani, Firudin bey Kocharli, Rashid bey Efendiyev taught at school and wrote works of art for our children, which they read outside the classroom. Their activities opened a new era in the development and progress of education and children's literature in Azerbaijan.It was in the 70^{s} of the 19th century that S.A.Shirvani made a great contribution to the development of children's literature in Azerbaijan, the upbringing of our children, the compilation of textbooks and teaching aids. S.A.Shirvani wrote and used the textbooks "Rabiul-etfal" (1878), "Tajul-kutub" (1883) in the public school he opened in Shamakhi. At the end of the 19th century H.Zardabi, J.Unsizade, A.G.Chernyaevsky, S.B.Valibekov, R.Afandiev, M.T.Sidgi and others worked a lot to educate the people.The beginning of the 20th century is a period of a broad social movement rising above the practical application of the ideas of socio-philosophical thought. The manifestation of the enlightenment movement in Azerbaijan is connected with this period. In the early years of the twentieth century, children were required to write works of cognitive and educational value. Because works written for children had to give concrete and convincing information to young readers who did not yet have a sufficient understanding of simple events.In addition to taking into account the still undeveloped child psychology, the writer was faced with the task of forming a child's worldview by writing works of art that meet this requirement. J.Mammadguluzadeh, M.A.Sabir, A.Sakhhat, S.M.Ganizadeh, S.S.Akhundov, R.B.Afendizadeh, A.Shaig and others gave a powerful impetus to the Azerbaijani children's literature.

Ədəbiyyat siyahısı

1. Namazov Q. 1920-ci illərdə Azərbaycan uşaq ədəbiyyatı. ADU-nun Elmi əsərləri. Dil-ədəbiyyat seriyası, 1977, №3

2. Nəbiyev B. Uşaq ədəbiyyatını böyük tələblər səviyyəsinə. Azərbaycan, 1971, №8

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: dosent Pərixanım Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur

ГАНБАРОВА НУРИДА
Нахчыванский Государственный Университет
nurideqenberova@gmail.com

УЧЕБНИК АКАДЕМИКА М. ДЖ. ДЖАФАРОВА «РУССКАЯ ЛИТЕРАТУРА XIX ВЕКА» КАК ИСТОЧНИК СОЗДАНИЯ МЕЖСИСТЕМНОГО ПРОСТРАНСТВА В ХУДОЖЕСТВЕННОЙ СИСТЕМЕ

Ключевые слова: *русская литература, взаимовлияние, взаимообогащение, русистика, азербайджанско-русские литературные связи.*
Açar sözlər*: rus ədəbiyyatı, qarşılıqlı təsir, qarşılıqlı zənginləşmə, russünaslıq, Azərbaycan-rus ədəbi əlaqələri.*
Keywords: *Russian literature, mutual influence, mutual enrichment, Russian studies, Azerbaijani-Russian literary relations.*

К настоящему времени в азербайджанском литературоведении накоплен и систематизирован огромный материал, отражающий изучение русской литературы с древнейших времен по сегодняшний день. В Азербайджане развитию русского языка, исследованию проблем языка, литературы, методики их преподавания отводится особая роль. Ещё в 70-е годы XX века в Баку был открыт единственный в своем роде в пространстве большего СССР Институт русского языка и литературы имени М. Ф. Ахундзаде. И это было явлением в образовании и науке и стало возможным благодаря тому, что мы располагали огромным исследовательским материалом в области русского языка и литературы. Была создана уникальная методика преподавания этих предметов. Развитию русского языка и литературы придавалось огромное значение в правительственных кругах Азербайджана. Общенациональный лидер Азербайджана, величайший политик 20-го - начала 21-го веков Гейдар Алиев особо заботился о развитии русистики. По его личной инициативе и был открыт в 1972 году институт русского языка и литературы, который готовил для тысяч общеобразовательных школ учителей, а также стал основной базой исследования проблем, связанных с русистикой.

Известные азербайджанские ученые и преподаватели вкладывали огромный труд в развитие русистики. Создалась обширная база исследований, в которых нашли отражение как проблемы русской литературы и языка, так и принципы сравнительного языкознания и типологии, сравнительного литературоведения.

Концептуальными стали и вопросы взаимодействия литератур, изучение основ и обозначение фактически в качестве самостоятельной ветви науки азербайджанско-русских литературных связей.

Основным фактором в развитии русистики в Азербайджане следует назвать и творческий подход к преподаванию русского языка и литературы отдельными представителями науки и образования, так как именно глубина освещения тем становилась самым настоящим открытием в этой области.

Картина становления и развития русистики была бы неполной без учета огромного личного вклада в это дело академика М. Дж. Джафарова. Он один из первых деятелей, кто не только преподавал в высших школах Азербайджана русскую литературу, но и параллельно систематизировал преподаваемое. Начав преподавать русскую литературу в 1935 году, он уже в том же году издает фактически свой первый научный труд «Исторические очерки по русской литературе». Небольшой по объему этот справочный материал (всего 105 страниц), стал фактически прообразом будущего его фундаментального труда – трехтомника «Русская литература XIX века» (1970-74 гг., 2-е издание - 1988 г.) М. Дж. Джафаров – один из тех ученых-преподавателей, который рассматривал русскую литературу не как литературу господствующей идеологически, а как часть мировой литературы, в котором собрана гигантская художественная мысль, служащая всестороннему развитию человека. Известный азербайджанский ученый, автор предисловия к трехтомнику М. Дж. Джафарова Аждар Агаев отмечал, что «…изучение истории русской литературы не ограничивается исследованием литературно-художественного наследия русского народа. Оно помогает в рассмотрении теоретико-эстетических проблем литературы советских народов с современной точки зрения. В то же время изучение русской литературы играет большую роль в рассмотрении азербайджанско-русских литературно-культурных связей, закономерностей развития отдельных жанров».[09; 3]

Отметим, что создание учебников для студентов филологических факультетов в XX столетии было своего рода приоритетным в том плане, что они были новы во всех отношениях. Если обратить внимание на сам процесс создания учебников в исторической ретроспекции, можно заметить, что в Азербайджане ко времени создания трехтомника М. Дж. Джафарова их было совсем немного.

Известно, что системное изучение азербайджанской литературы связано с именем выдающегося деятеля Ф. Б. Кочарли. Его «Литература азербайджанских татар» (Тифлис, 1903г.) стала своего рода прообразом учебников по литературе. В ней Кочарли впервые дал подробную информацию о таких деятелях азербайджанской литературы, как М. Ф. Ахундзаде, К. Б. Закир, С. А. Ширвани, Н. Б. Везиров, также попытался представить творческие особенности каждого из них. Впоследствии эта работа стала основой

четырехтомника Ф. Б. Кочарли под названием «Материалы истории азербайджанской литературы», изданного в 1925-26 гг. Огромную роль в деле создания учебников для филологических факультетов принадлежит таким выдающимся ученым-филологам, как академик Ф. Гасымзаде, профессор М. Дж. Пашаев, профессор Ф. Гусейнов. По сегодняшний день в вузах Азербайджана ведется преподавание на основе учебника Ф. Гасымзаде «История азербайджанской литературы XIX века», а также учебника М. Дж. Пашаева и Ф. Гусейнова «Азербайджанская литература XX века». Интересен тот факт, что названные учебники в большинстве своем отражали историю становления и развития азербайджанской литературы с XIX по конец XX века исключительно в рамках национальной литературы. И это было понятно. Следовало создать фундаментальные труды, в которой отразилась бы одна из самых богатых ветвей мировой литературы.

М. Дж. Джафаров также внёс колоссальный труд в изучение творческого наследия великих классиков азербайджанской литературы – Низами, Насими, Физули, М. А. Сабира, Дж. Мамедгулузаде, Г. Джавида, Дж. Джабарлы в плане исследования их вклада в национальную литературу, а также в развитие мировой философской мысли; М. Ф. Ахундзаде, А. А. Бакиханова, К. Б. Закира, С. А. Ширвани, Н. Б. Везирова, Дж. Мамедгулузаде, М. А. Сабира, А. Ахвердиева, А. Сиххата, М. Хади… в контексте истории азербайджанско-русских литературных связей. Стержневой же в деле исследования литературного процесса стало его обращение именно к литературе XIX века и в контексте азербайджанско-русских литературных связей, и в плане преподавательской деятельности. Итогом многолетних трудов стал учебник для филологических факультетов «Русская литература XIX века». А. Агаев в предисловии к учебнику выделяет особенности учебника. Он отмечает, что в учебнике: отражается последовательно русская литература XIX века; дается информация о жизненном и творческом пути русских классиков. Отличал его от других национальных учебников тем, что

а) «материал в большинстве своем отражает личные наблюдения автора за процессом литературы, и это особо заметно в тех главах учебника, где автор говорит о взаимодействии и взаимообогащении литератур;

б) автор подробно останавливается на создании отдельных литературных школ;

в) в некоторых частях учебника М. Дж. Джафаров открыто излагает мысли об азербайджанско-русских литературных связях, этого нет в аналогичных учебниках, изданных на русском языке;

г) многие литературные примеры из произведений классиков русской литературы даны в переводах Дж. Джабарлы, С. Вургуна, Р. Рзы, М. Рагимли, М. Арифа, М. Рзагулизаде; но при отсутствии переводов, автор сам становится переводчиком, и это стало новацией». [09; 4]

Если сравнить учебник академика М. Дж. Джафарова с поколением современных учебников для студентов филологических факультетов, то следует отметить, что сравнение скорее в пользу учебника «Русская литература XIX века» Сравнение базируется на основе принципов, которые обязательно должны быть соблюдены при создании учебников такого масштаба, среди которых приоритетными являются:

Təlimdə texniki vasitələrdən istifadə olunması tələbəyə çatdırılacaq materialın həcmini artırmağa, idrak fəaliyyətini fəallaşdırmağa, materialın çatdırılma formasını dəyişdirməyə imkan verir. Təlim prosesində texniki vasitələrdən istifadə zamanı məlumatların qavranılması və işlənilməsi daha yüksək psixi fəallıq şəraitində həyata keçir ki, bu da materialın dərindən mənimsənilməsini təmin edir. Psixoloji tədqiqatlar göstərir ki, təlimdə texniki vasitələrdən istifadə olunması aşağıdakı dəyişikliyə səbəb olur:

1.Təlimin fəallığı artır, mövzuya qarşı idrak fəallığı artır, mövzuya qarşı istifadə başa çatdıqdan sonra şagirdlər həmin məsələnin müzakirəsinə girişir.

2.İnformasiyaların qavranılması prosesi əsaslı şəkildə dəyişir. Qavranılan materialın anlaşılması üçün geniş imkan yaranır. Əldə edilən yeni biliklərlə keçmiş bilik arasında əlaqələr zənginləşir. İdrak fəaliyyəti emosional fəaliyyətlə üzvü şəkildə

bağlanır. Zəruri surətlərin yaranması mexanizmlərinin idarə olunması imkanı meydana gəlir.

3.İnformasiyaların işlənməsi mərhələsində əsaslı dəyişiklik baş verir. Təsəvvür ehtiyatları genişlənir.

Deyilənlərdən bu nəticəyə gəlirik ki, təlimdə texniki vasitələrdən istifadə nəinki məhsuldardır, hətta zəruridir. Lakin bir şeyi də unutmamaq lazımdır ki, tədris zamanı texniki vasitələrdən düzgün istifadə etmədikdə heç bir səmərə vermir. Dərs keyfiyyətsiz olur, tələbə sadəcə xarici dildə bir filmi seyr etmiş olur və dərs müddəti nəticəsiz sona çatır. Ona görə də filmdə səslənən yeni sözləri yazdırmaq, lazım gələrsə yarımçıq dayandırıb bir hissəni müzakirə etmək, sonra yeni hissəyə keçmək lazımdır. Filmin məzmununu əhatə edən suallar qoymaq, cavablar almaq lazımdır. Belə filmlərdə Almaniyanın adət-ənəsi, bayramları, salamlaşma, tanışlıq əks olunur. Bir neçə dəfə baxıb müzakirə, milli bayramlarımızla müqayisə edilməsinə nail olmalıyıq. Yeni sözlər cümlələrdə işlənməli, ifadələr ətrafında situasiyalar qurulmalıdır. Hər bir dərsin səmərəli təşkilində, dərsin maraqlı qurulmasında texniki vasitələrdən səmərəli istifadə etmək lazımdır. Məqsədsiz, plansız, əyanilikdən istifadə etmək xatirinə keçirilən dərslərdə nə müəllim, nə də şagird istənilən nəticəni əldə edə bilməz. Bunları maqnitafon dinlərkən də nəzərə almaq lazımdır.Tələbə dinlədiyi mətnin tələffüzünə diqqət yetirməli, oxuyub, öz səsini dinləməli, səhvlərini təshih etməyi bacarmalıdır. Təlimdə texniki vasitələrdən istifadədə ardıcıllıq da yaxşı nəticə vermir.

Müasir dövrdə təlim prosesində audiovizual vasitələrdən istifadə olunması ayrı-ayrı dərslərdə müəllimlərin məlumatları mənimsətmə funksiyasını həyata keçirmək imkanı yaradır. Bu cür audiovizual vasitələrdən xüsusilə, televiziyadan istifadənin rolunu qeyd etmək lazımdır. Bu, tələbənin psixiki inkişafına əsaslı təsir göstərir. Burada hissi idrakın inkişaf şəraiti yaranır. Təlimdə bu cür vasitələrdən istifadə təfəkkür və təxəyyülün inkişafına geniş imkan yaradır.(5,8) Material tez yadda qalır, uzun müddət unudulmur, daha dəqiq xatırlanır. Tədris prosesində kinoların da əhəmiyyəti böyükdür. Müəllim bədii, siyasi, publisist, elmi- kütləvi verilişləri müzakirə etməli, onlardan tələbənin dünyagörüşünün, əqli və əxlaqi baxışlarının, bir şəxsiyyət kimi formalaşmasında istifadə edilməlidir.Proqramlaşdırılmış təlimdən istifadədə məqsəd şagirdlərin öyrənmə proseslərinin səmərəli keçməsinə kömək edir, onlar çoxlu məlumara malik olur. Hazırda kompyuterdən istifadə olunması bu baxımdan diqqəti cəlb edir. Kompyuterin aşağıdakı üstün cəhətləri var:

1. Kompyuterlə görülən işin yeniliyi tələbənin onunla işləməyə marağını artırır.
2. O, təlim prosesində hər bir tələbənin fərdi xüsusiyyətini nəzərə almağa imkan verir.
3. Fərdi ünsiyyət funksiyasını yerinə yetirir.
4. Tələbələr tədris prosesinə fəal qoşulur.

5. Kompyuter ilə əvvəllər əldə edə bilmədikləri məlumatlardan istifadə edə bilmək imkanı genişlənir, müxtəlif situasiyaların modelləşdirilməsi tapşırıqlarından geniş istifadə olunur.
6. Təlim prosesində maqnitafonun da rolu danılmazdır.

Maqnitafondan istifadə xarici dil dərslərində daha geniş və həvəslə istifadə olunur, çünki maqnitafonun bu sahədəki rolu danılmazdır. Texniki vasitələr və maqnitafon, kodoskop və s. təchiz edilmiş linqafon kabinələrdən düzgün tələffüz vərdişi yaratmaq üçün istifadə olunur. Tələbənin eşitmə və anlamasında maqnitafon köməyə gəlir. Bu bacarığı yaratmaq üçün arasıkəsilmədən məşqlər aparılır, zəruri bacarıqlar yaradılır. Bu məqsədlə bir çox proses həyata keçirilir.(6,8)

Müasir təlimdə makro və mikrotexnologiyaların: kompyuter, internet, multmedia müşahidə vasitələri, ixtisaslaşdırılmış dərsliklər, elektron dərsliklər, kompyuter treninq proqramlarının daxil olduğu elektron- tədrietodik komplekslərin istifadəsi xüsusi əhəmiyyət kəsb edir. Bütün sadalanlardan istifadə tələbənin müstəqilliyini, sərbəst fikir söyləyə bilmək qabiliyyətlərini, təfəkkür müstəqilliyinin inkişafını təmin etmək, onların informasiya cəmiyyətində gələcək həyata, müasir cəmiyyətin informasiyalaşması sayəsində meydana gələn sosial sirdaşların həyata keçirilməsinə hazırlanması məqsədini daşıyır.

Ədəbiyyat

1. Gründe, warum Schüler Technologie brauchen | Speech Blog
2. file:///C:/Users/User/Desktop/Deutsch_Im_Einsatz__German_B__-_Coursebook_-_Duncker__Marshall__Brock_and_Fox_-_Second_Edition_-_Cambridge_2018.pdf
3. Öyrənmə prosesində internetin rolu. “Dil və Ədəbiyyat” jurnalı. 2009.
4. http/ www .google.az. motivasiya
5. Technologie im Klassenzimmer: Vorteile und Nachteile (getcleartouch.com)
6. .Təlim prosesində informasiya texnologiyalarından istifadə müasir dövrün tələbi kimi.2008.
7. Vor- und Nachteile von Technologie im Unterricht (ehl.edu)
8. Herausforderung von Technologie im Klassenzimmer - ViewSonic Library

Sadıqova Akifə

Müasir təhsil texnologiyasından istifadə yolları

Xülasə

Müasir dövr texnologiya dövrüdür və o, həyatımızın bütün sahələrinə nüfüz etmişdir. Hətta tədris sisteminə də. Xüsusilə, Azərbaycanda bu sahədə son illər yüksək nailiyyətlər əldə edilmiş, informasiya texnologiyaları sahəsində uğur qazanılmışdır. Elmi- texniki tərəqqinin durmadan sürətlə inkişaf etdiyi bu dövrdə təhsildə İKT –nin səmərəli tətbiqi həm müəllimlərin, həm də şagirdlərin yaradıcılıq imkanlarının genişlənməsinə müsbət təsir göstərir. Məlum olduğu kimi,İKT tədrisi

asanlaşdırır, keyfiyyəti artırır, geniş imkanları olan bir dünyaya pəncərə açır. İKT-dən yerli-yerində istifadə, elektron dərslər onun daha canlı keçməsinə, daha yaxşı mənimsənilməsinə şərait yaradır.Beləki,şagirdlər eşitməklə bərabər dərsi əyani şəkildə görür və bunun nəticəsində mövzunu daha yaxşı yadda saxlayır,mənim-səyir. Dərs zamanı suallar elə qoyulur ki,bu suallar şagirdləri düşünməyə,araşdırmağa sövq edir. Araşdırmaq, tədqiqat aparmaq,müzakirə edib öyrəndiklərini həyata tətbiq etmək vacibdir. Yalnız belə halda şagird müvəffəqiyyət qazana bilir.(7,8) Tədris olunan dərslər dövrümüzün tələblərinə uyğun olaraq elə hazırlanmışdır ki, o, şagirddə maraq oyadır,onları düşündürür. Hər bir dərsdə müstəqil öyrənmə qabiliyyətinin inkişaf etdirilməsinə xidmət edən çalışmalar, problematik məsələlər, qrup işi əsas götürülür. Faslitasiya bacarığına xidmət edən, belə çalışmalar fikrin təhrik edilməsinə yönəlir, qrupun fəaliyyəti "Nə üçün?", "Nəyə görə?", "Hansı yolla?" və s. sualları ətrafında cəmlənir. Bu da ona dəlalət edir ki, dünya şagirdləri çox öyrətmək əvəzinə, fikirləşməyi öyrətmək ,analitik təfəkkürü inkişaf etdirmək əsas götürülür və tədris prosesinin təşkili də bu yöndə qurulur. İKT uşaqları yeni biliklərə sövq etməyə kömək edir.Əgər şagirdə bu və ya digər mövzunun məzmunu aydındırsa, onun sualı yarana bilər: məhz nə üçün öyrənmək lazımdır. Biliyə həvəsin kökündə həyati maraq dayanır: hansı biliklər daha çox lazımdır və nə üçün öyrənmək lazımdır, hansı metodların köməyi ilə mən bu bilikləri əldə edə bilərəm.(8,8) Beləliklə, İKT biliyə can atmaqla digər həyati vacib məsələlərin qərarı arasında bənd rolunu oynayır. Şagird təhsilin onun həyatında hansı rolu oynadığını başa düşən kimi, o, təhsili davam etdirməyə böyük həvəs hiss edir. Şagirdlərin fasiləsiz təhsilə yolu müəllimlərin fasiləsiz təhsilindən keçir. Müəllimi yaxşı bilir ki, onun rolu şagirdlərə informasiyanın ötürülməsilə məhdudlaşmamalıdır. O, uşaqlarda tənqidi və yaradıcı təfəkkürü dəstəkləməli və stimullaşdırmalı, kompyuter savadının inkişafına kömək etməli, birgə fəaliyyət bacarığı tərbiyə etməli, onlara effektiv ünsiyyət qurmağı və müxtəlif vəziyyətlərdə uğurla hərəkət etməyi öyrətməlidir.Bu məqsədlə də müəllimlər, şagirdlərin öyrənmə tələbatını ödəmək üçün təlim metodlarını müasir dövrün tələblərinə uyğun şəkildə qurmağa cəhd etməlidirlər. Mütəmadi aparılan test sistemi müəllimə şagirdlərin bilik səviyyəsini adekvat qiymətləndirməyə kömək edir. Tədrisdə İKT-nin istifadəsi şagirddə özünə inamı və fənnə marağın artdığını sübüt edir.(2.8) Sinifdəki şagirdlərin psixoloji durumunun müxtəlifliyi hamıya məlumdur. Ona görə də fərdi kompyuterdən istifadə etdikdə hər bir şagird verilən mövzunu başa düşmədikdə izahatı təkrar izləmə imkanı əldə edir və onu dərk edənə qədər təkrarlayır və mənfi emosiyadan uzaqlaşmış olur.

Sadygova Akifa

Ways for the use of modern educational technology

Summary

In the article is revealed the pedagogical conditions of application of modern educational technology, ways of lising modern educational technology to enhange the effectiveness of training. Modern technologies in the teaching curriculum, which

provides more effective implementation of the objectives set forth in the study of methods and tools are designed as a system.

The modern era is the era of technology, and they have penetrated into all spheres of our life, even into the education system, in particular, Azerbaijan has achieved high achievements in this area in recent years, and success has been achieved in the field of information technology. The effective use of ICT in education has a positive effect on expanding the creative possibilities of both teachers and students in this period of rapid scientific and technological progress. As you know, ICT facilitates learning, improves quality and opens a window to a world of great opportunities. Local use of ICT, electronic lessons make it more lively and better assimilated, so students see the lesson visually and, as a result, better remember the subject. During the lesson, questions are asked in a way that encourages students to think and explore. It is important to research, conduct research, discuss and apply the acquired knowledge in life. Only then can the student succeed. The lessons taught are built in accordance with the requirements of modernity in such a way that they arouse the interest of students and make them think. Each lesson is devoted to study, problematic issues and group work, which serve to develop the ability to learn independently. Performing facilitation skills, such classes are aimed at reflection, group activity "Why?", "Why?", "Which way?" and so on. This indicates that instead of teaching students a lot, the focus is on teaching thinking and developing analytical thinking, and the organization of the educational process is also built in this direction. ICT helps motivate children to new knowledge. If the content of a particular topic is clear to the student, he can ask: what exactly needs to be studied. The desire for knowledge is based on a vital interest: what knowledge is most needed and why should I study it, with the help of what methods can I get this knowledge. Thus, ICT acts as a bridge between the pursuit of knowledge and the solution of other vital issues. Once a student understands the role education plays in his or her life, he or she feels more motivated to continue learning.

Садыхова Акифа

Резюме

Роль технологий интерактивного обучения на уроках.

В статье речь идет о педагогические условия применения современных педагогические технологии, пути использования современных педагогических технологий с целью повышения эффективности обучения. Поэтому тема, затронутая в данной статье в настоящий момент очень актуальна. Эти особенности позволяют преподавателю использовать различные методы и приемы на своих уроках для формирования ИКК.

Современная эпоха – это эпоха технологий, и они проникли во все сферы нашей жизни, даже в систему образования, в частности, в последние годы Азербайджан добился высоких достижений в этой области, а в сфере

информационных технологий достигнуты успехи. Эффективное применение ИКТ в образовании положительно влияет на расширение творческих возможностей как преподавателей, так и учащихся в этот период бурного научно-технического прогресса. Как известно, ИКТ облегчают обучение, улучшают качество и открывают окно в мир с широкими возможностями. Локальное использование ИКТ, электронные уроки позволяют сделать его более живым и лучше усваиваемым, таким образом, учащиеся видят урок наглядно и, как следствие, лучше запоминают предмет. Во время урока вопросы задаются таким образом, чтобы эти вопросы побуждали учащихся к размышлению и исследованию. Важно исследовать, проводить исследования, обсуждать и применять полученные знания в жизни. Только в этом случае ученик может добиться успеха. Преподаваемые уроки построены в соответствии с требованиями современности таким образом, что вызывают интерес у учащихся и заставляют их задуматься. Каждый урок посвящен учебе, проблемным вопросам и групповой работе, которые служат развитию способности к самостоятельному обучению. Выполняя фасилитационные навыки, такие занятия направлены на размышления, групповую активность «Почему?», «Почему?», «Каким путем?» и так далее. Это свидетельствует о том, что вместо того, чтобы много учить студентов, основное внимание уделяется обучению мышлению и развитию аналитического мышления, и организация учебного процесса также строится в этом направлении.

ИКТ помогают мотивировать детей к новым знаниям. Если содержание той или иной темы ученику понятно, он может спросить: что именно необходимо изучить. В основе стремления к знаниям лежит жизненный интерес: какие знания нужнее всего и зачем мне их изучать, с помощью каких методов я могу получить эти знания. Таким образом, ИКТ выступает в качестве моста между стремлением к знаниям и решением других жизненно важных вопросов. Как только учащийся понимает, какую роль образование играет в его или ее жизни, он или она чувствует себя более мотивированным для продолжения учебы.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: Hacıyeva Həqiqət fil.e.n.dos.
tərəfindən çapa tövsiyə olunmuşdur

LOĞMAN RƏŞİDZADƏ
Azərbaycan Dillər Universiteti
multikulturalizmmerkezi@mail.ru

ÖLKƏMİZDƏMULTİKULTURALDƏYƏRLƏRİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏAZƏRBAYCANÇILIQ MƏFKURƏSİNİN ROLU

XÜLASƏ

"Ölkəmizdə multikultural dəyərlərin möhkəmləndirməsində azərbaycançılıq məfkurəsinin rolu" adlı məqalədə Azərbaycanda milli-etnik keyfiyyətlərin formalaşmasından söz açılır, vətən anlayışı, onun tarix boyunca mövcudluğu, milli adət-ənənələrin ötürülməsi və bu gün də yaşadılması xüsusiyyətlərindən danışılır. Bundan başqa, azərbaycanlı etnoniminin Azərbaycan toponimindən yaranması tarixi araşdırılır, bu mövzuda alimlərin, elm adamlarının tətqiqatları, fikirləri önə çəkilir.

İndiki qloballaşma dövründə milli filtirizasiyanın gücləndiyi bir vaxtda multikultural meyillərlə yanaşı milli dəyərlərin və xüsusiyyətlərin qorunması da vacib sayılır.

Böyük dövlətlərin təfəkkülünə, dərin və iti zəkaya malik Ulu öndərimiz Heydər Əliyevin bütün bu məsələlərə diqqətli yanaşmasından söz açılır; onun siyasi fəaliyyəti qabardılır. Göstərilir ki, Heydər Əliyev hakimiyyətdə olduğu dövrlərdə Azərbaycanda multikultural dəyərləri qurumaq üçün azərbaycançılıq ideologiyasına söykənmiş, cəmiyyəti bu ruhda köklənmişdir.

Nəticədə, milli-mənəvi dəyərləri özündə ehtiva edən azərbaycançılıq bu gün Azərbaycanda dayanıqlı dövlət ideologiyasına çevirilmişdir.

Açar sözlər: Azərbaycan, vətən, azərbaycançılıq, multikulturalizm, tarix, etnos

Azərbaycanlı etnononiminin yaranması zaman-zaman elmi dairələrdə mübahisəli fikirlər doğursa da, son anda, onun Azərbaycan toponimindən qaynaqlandığı qeyd-şərtsiz qəbul olunmuşdur. Qədim dövrlərdə indiki anlamda vətən, vətəndaşlıq konsepsiyası mövcud olmamışdır. İbtidai icma dövründən üzübəri əsrlər, qərinələr boyunca vətən anlayışı evin içi, ocaq, yaxın ətraf, lap qədimlərə getsək, ilk insan məskənləri olan mağaralar və onların həndəvərlərindən ibarət olmuşdur.

Vətən anlayışının yaranışı, formalaşması, ən nəhayət hüquqi-məntiqi status qazanması faktını akademik Kamal Abdulla məntiqi və bir qədər də poetik-obrazlı təfəkkül işığında araşdıraraq maraqlı nəticələrə gəlir. O, yazır: "Doğrudan da Azərbaycan nədir? Bu adın arxasında nə durur; hansı hikmətlər gizlənir? Mənim doğulduğum ev Bakıda xeyli dar, kiçik bir küçədə yerləşirdi… Bax, o küçə də, əslində, Vətən idi.

Vətən anlayışı! Bu, həm Azərbaycandır, həm də Azərbaycanın təşkil olunduğu, Azərbaycan anlayışının içinə sığan (sığışdırılan), bu doğma ad altında nəyi yada sala biliriksə, odur. İnsan Vətən ola bilər, sizcə? Məncə ola bilər. Bizim üçün əziz, doğma olan insanlar da Vətən kimidir, məsələn, ata, ana, bacı, qardaş, dostlar, müəllimlər… Böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin bir gözəl şeiri var. "Qızlar məktəbində" adlanır. O şeir belə başlayır:

-Qızım, Yavrum! Adın nədir?

-Gülbahar…

Bu şeirin sonluğu çox ibrətamizdir və əslində, bizim bir azərbaycanlı kimi mənəvi ruhumuzu bütün varlığı ilə ortaya qoyur. Şeirin sonunda Gülbahar "Bu dünyada kimi sevirsən?" sualına belə cavab verir: *"Allahı, onun göndərdiyi elçiləri, anamı, atamı, müəlliməmi, bir də bütün insanları…"* [1, s.14-15].

Harada olursan ol, dünyanın hansı guşəsində xoşbəxt həyat sürürsən sür, daim vətən deyilən o ocağın, o komanın, o həyət-bacanın xiffətini yaşayacaqsan. Bununla bağlı yaşadığım bir xatirəni misal çəkmək istəyirəm. 1990-cı illərdə cəmiyyət parakəndə hal yaşayırdı. İmkanı olan baş götürüb hərə bir ölkəyə qaçırdı. Quba yəhudilərindən olan bir dostum da sağollaşıb Amerika Birləşmiş Ştatlarına yaşamağa getdi. Amma tez bir zamanda qayıdıb gəldi. Səbəbini soruşanda fikirli-fikirli dedi ki, orada sən yox idin, bu yaşından sonra mənim təzədən vətən axtaran vaxtım deyil. Buradakı mühiti mən orada tapmadım. Bəli, vətən doğmalıqdır, isti mühit, qırılmaz tellərlə bağlılıqdır. Bu barədə Həzrət Əlinin sözləri də maraq doğurur. O, deyir: *"Xoşbəxt kişi odur ki, sədaqətli, etibarlı həyat yoldaş olsun, tərbiyəli övladları olsun, bir tikə ruzusu olsun ki, başqalarına möhtac olmasın, həm də öz Vətənində yaşasın".*

Keçək Kamal müəllimin böyük şair Hüseyn Caviddən gətirdiyi kiçik şeir parçasına. Doğrudan da balaca Gülbaharın cavabı, adamı riqqətə gətirən sözləri azərbaycanlının əsil daxili zənginliyini, multikultural təbiətini, dünyaya, insana bəşəri sevgisini, təbii məhəbbətini çox bariz şəkildə açıb göstərir. Bəli, azərbaycanlı təbiəti budur – tolerant, multikultural, aydın, bakirə, təmiz hisslərlə zəngin! Bəli, azərbaycanlı qəlbi budur – dünyaya, bəşəriyyətə sevgi ilə dolu, Allaha, insanlara, bütün dünyaya, humanist, ruhsal, duyğusal hisslərlə açıq! Bəli, azərbaycanlı vətəninə bağlı olduğu kimi, bütün insanları da sevir, bəşəri məhəbbətlə yaşayır!

Qeyd etdik ki, Azərbaycan toponiminin və azərbaycanlı etnoniminin yaranması tarixən mübahisəli olub. Lakin əksər tədqiqatçılar bir mövqedə vahid rəyə gəliblər: azərbaycanlı etnonemi Azərbaycan toponimindən yaranmışdır. Axtarışların demək olar ki, hamısı son anda "Atropoten", "Atropatena" "Atərpadaqan", "Azər-padaqan" və sairədəmüntəzirləşir. Adlar dəyişə bilər, zaman-zaman hərf düşmələri baş verə bilər, səsləşmələr fərqli biçimdə boy göstərə bilər, lakin bütün bunlar mahiyyəti dəyişmir, bu ifadənin məntiqi mənasına kölgə salmır. Akademik Kamal Abdulla yazır: "Azərbaycançılıqdan söz düşərkən ilk olaraq nədən danışmaq olar? Əlbəttə ki, "Azərbaycan" sözünün özündən. Bu söz necə yarandı? Nə zaman yarandı? Onun mənşəyi bizi hara aparır? Bu barədə alimlər arasında müxtəlif mülahizələr, hətta bir-

birinə ziddiyyət təşkil edən fikirlər mövcuddur. Onların arasında ən düşündürücü və ağlabatanı isə budur. Eramızdan əvvəl, təxminən, III əsrdə indi Azərbaycan adlanan bu məkanda Atropat adlı bir canişin hökmranlıq edirmiş. Əslində, ona canişin də demək olmaz, bəlkə də bu adam qədim əhəmənilər sülaləsi dövründə baş kahin olmuşdur. Odu qoruyan baş kahin. Bəzən qədim dövrlərdə kahinlər və hökmdarlar qarşı-qarşıya dururdular. Bəzən isə həmin qədim dövrdə odu qoruyan (kahin) və hökmdar (canişin) eyni şəxs olurdu. Fikrimizcə Atropat bu iki funksiyanı özündə cəmləyən, iki funksiyanı yerinə yetirən bir şəxs olub: kahin + hökmdar.

…Bu məskənin adı da, məhz, Atropatın (odu qoruyub saxlayanın) adından götürülüb. Ola bilsin ki, bu heç onun şəxsi adı olmayıb, vəzifəsinin adı olub. Atropat – odu qoruyub-saxlayan mənasına uyğun gələn bir funksiyanın adı kimi işlənib. Atropat dilçilik baxımından o qədər də çətin olmayan şəkildə öz içindən atar, atər, azər (ad) anlamları və sözlərini verə bilər.

…İkinci bir versiya isə Azərbaycan sözünün öz mənşəyini bir zamanlar bu ərazidə məskunlaşmış Xəzər tayfasının adından götürməsilə bağlıdır. Bəzi alimlərin fikrinə görə "Xəzər sözündəki" "x" səsi düşmüş və beləliklə, Azərbaycan sözü "Xəzər-baycan"dan törəmişdir… Bu versiya qeyd etmək lazımdır ki, dilçilik üçün kifayət qədər müəmmalıdır və "Atropaten" versiyasına həm məntiq, həm də dil qaydalarına görə açıq-aşkar "uduzur".

Başqa bir versiya "Atərpataqan" sözünün mənası ilə bağlıdır (azər-adər, yəni, od, Adərpataqan, yəni odlar ölkəsi – buradan Atropat sözünə də açıq-aydın bir lağım görünməkdədir) [1, s.25-26].

Göründüyü kimi, akademik versiyaları sadalamaqla bizi tarixi ekskursa aparır, Azərbaycan sözünün mənşəyi, etimologiyası barədə kifayət qədər məntiqi dəlillərlə fikrini izah edir. Əslində tarixçilərin, ədəbiyyatşünasların əksəriyyəti bu tarixi hipotezlərin, elmi versiyaların təsdiqini bu və ya başqa şəkildə etiraf edirlər. Nəticə etibarilə Azərbaycan toponiminin yaranması məntiqi baxımdan Atropatın yurdu, Atərpataqan, Azərbaycan kimi yaranması fikirləri irəli sürülür. Burada yaşayan qədim xalqlar azərbaycanlılar adı altında təsnif edilir və onların əzəl gündən bu torpağın əsl sahibləri olduğu təsdiq edilir.

Bu mənada Azərbaycan xalqını birləşdirən azərbaycançılıq ideologiyası millətin mənəvi özünüdərki və sosial-psixoloji davranışlarını mürəkkəb formalarda qarşılıqlı surətdə şərtləndirərək cəmiyyətin vahid bütöv mənəvi həyatının zəruri tərkib hissəsinə çevirir. İnsan fəaliyyəti ilə özünüdərkin və sosial psixologiyanın qarşılıqlı münasibətlərini səciyyələndirən əlaqə və formalar azərbaycançılıq fonunda mənəvi-sosial həyatda özünəməxsusluqla çıxış edir. Odur ki, tarix boyunca zərrə-zərrə toplanıb ideologiya səviyyəsinə yüksəlmiş bu mənəvi-psixoloji hərəkat ədəbiyyatın, tarixşünaslığın baş mövzularından biri kimi tarixin səhifələrində yaşamışdır. Azərbaycançılıq və bunun tərkib hissəsi olaraq multikulturalizm Azərbaycan xalqının həm şifahi, həm də yazılı ədəbiyyatının baş mövzusu olmuşdur. İnsanpərvərlik, vətənsevərlik (bununla müvazidünyasevərlik), milli-mənəvi dəyərlərə

hörmət, başqa etnosların yaratdığı əxlaqi-mənəvi sərvətə rəğbət və qayğı Azərbaycan ədəbiyyatında daim öz əksini tapmışdır. Bu ənənə lap qədim el nəğmələrindən, ağız ədəbiyyatından süzülüb gəlmiş, "Kitabi-Dədə Qorqud"da mükəmməl bir multikultural ideologiya kimi formalaşmışdır.

İndiki qloballaşma zamanında, kosmos dövründə müasir texnologiyaların həyatımızı tamamilə ələ keçirməsinə, insan əxlaq və mənəviyyatını zədələməsinə imkan yaratmamalıyıq. Bu, bəzən bizim söykəndiyimiz ideologiyaya da – azərbaycançılığa da ciddi zərbələr vurur, xalqın birliyini dağıdır, mental dəyərləri laxladır, milli varlığı təyin edən və qoruyan adət-ənənələrə sarsıdıcı təsir göstərir. Bəlkə də qloballaşma stixiyasının cəmiyyətimizə daha çox hopduğu müstəqillik dövründə yazıçılarımızın tarixi hadisələrə kütləvi meyli bu mənəvi ehtiyacdan yaranıb. İnsan yaşadığı zamanla bəzən ümidsiz qarşıdurmada, daha çox xatirələrlə yaşayır, keçmişinə qayıdır, həyatını saf-çürük edir, yaşadığı həyatın anlarına bir-bir yenidən nəzər salaraq nəyi düz, nəyi yanlış etdiyini çözələyir, nicat yoldlarını bu təhlillərdə axtarır? Bəlkə, eləcə, millət, xalq da dilemmalarla üzləşdikdə, həyatı təbəddülatlar yaşadıqda çıxış yolunu keçmişində, başqa sözlə, öz tarixində araşdırır? Bəlkə tarixi keçmişimizdəçözələyiö tapdığımız doğma xüsusiyyətlər, yaddaşımızda yaşayan mərdlik, ləyaqət və qəhrəmanlıq ünvanı olan ata-babalarımızın şərəfli həyatı bizə yol göstərdiyi, qarşılaşdığımız problemlərin həllinə işıq tuta bildiyi üçün onlara dönürük, tarixə boylanırıq? Müstəqillik dövründə yazıçılarımızın keçmişə, tarixi hadisələrə belə marağı və kütləvi ekskursu heç də təsadüfi sayıla bilməz. Şübhəsiz, sovet dövrü ideologiyası başqısı altında milli maraqları qabartmaq arzuları çətin sınaqlarla üzləşdirdi. Odur ki, sovet hakimiyyətinin süqutu milli-mənlik şüurunun inkişafına müəyyən yollar açdı, yazıçılarımız da bu perspektivlərdən istifadə edərək Azərbaycan xalqının keçmiş həyatını, dövlətçilik tariximizin müxtəlif məqamlarını bədii müstəviyə cəlb etdilər. Bu, heç şübhəsiz, tarixi keçmişimizi yenidən araşdırmaq, milli şüuru oyatmaq milli özünüdərki fokslaşdırmaq, ən nəhayət azərbaycançılıq ideologiyasının cəmiyyətin ictimai şüurunda bir daha bərqərar etmək yolunda müqəddəs bir cəhddir. O ki, qaldı, bu əsərlərin bədii-estetik siqlətinə, tarixi faktların doğru-dürüst araşdırılıb-araşdırılmamasına, bu, başqa söhbətin mövzusudur. Sevindicidir ki, bu çabaların arxasında müqəddəs bir niyyət-millətin yenidən özünü, özünə tanıtmaq və beləliklə də, onda milli-mənlik hissinin yenidən qaynayıb üzə çıxmasına təkan vermək istəyi dayanır.

Böyük dövlətçilik təfəkkürünə, dərin və iti zəkaya, uzaqgörən siyasi düşüncəyə malik olan Ulu öndərimiz Heydər Əliyev bütün bunlara diqqətsiz ötüşə bilməzdi. O, Azərbaycandakı hakimiyyətinin hər iki dövründə bu məsələləri diqqətdə saxlamış, tarixi əsərlərin yazılması, teatrlaşdırılması, ekranlaşdırılmasına xüsusi qayğı göstərmiş, çox vaxt bu ədəbi-estetik və kulturolloji proseslərə, şəxsən, özü nəzarət etmişdir (mövzunun seçilməsi, ekranda hansı aktyorun hansı qəhrəmanı canlandırması, səhnə traktovkalarının verilməsi və s. qədər). Bütün bunlarda Heydər Əliyev azərbaycançılıq ideologiyasının bərqərar edilməsi qayğılarıyla yaşayır, tarixi

düşüncələrimizi bu günə transfer barədə fikirləşir, tarixi-milli dövlətçilik ənənələrimizi bu günkü dövlət quruluşumuzun və ümumən dövlət quruculuğumuzun bünövrəsi, təkzibolunmaz faktı kimi qəbul edirdi. Onun bu siyasəti sayəsində ədəbiyyatımızda Azərbaycanı və azərbaycançılığı təbliğ edən keçmişimizə tarixi həvəs və maraq böyük kütləvi hərəkata çevrildi: tarixi romanlar yazıldı, bu mövzuda onlarca pyes səhnə üzü gördü, "Dədə Qorqud". "Nəsimi", "Babək", "Nizami" kimi filmlər ekranlaşdırıldı. Bu tendensiyanın indi də uğurla davam etdirilməsi razılıq doğurur.

Müstəqillik dövründə, siyasi hakimiyyətin xalqın maraqları və milli prinsiplər üzərində qurulması milli-mentaldəyərlərimizin, mənəvi sərvətlərimizin qorunmasına, şəxsiyyətin formalaşmasına və daxilən zənginləşməsinə, xüsusən, milli şüuru səfərbər edən azərbaycançılıq ideologiyasının inkişafına geniş şərait yaratdı. Uzaqgörən siyasətçi, müdrik dövlət xadimi Heydər Əliyevin bu baxımdan xidmətləri misilsizdir. Akademik İsa Həbibbəyli deyir:*"1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi baryerlərə sinə gərərək Azərbaycan xalqının milli özünüdərki üçün bütün tədbirləri həyata keçirməyə başlamış, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmağı bacarmışdır. Ulu öndər xalqda milli heysiyyatigücləndirmək, onu öz şanlı keçmişinə, soy-kökünə qaytarmaq, habelə zəngin bədii irsini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün bir sıra aşkar-gizli tədbirlər həyata keçirmişdir. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdığı gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın – azərbaycançılığın təşəkkül və inkişafına müstəsna diqqət vermişdir".*(5)

Azərbaycan vətəndaşının mənəvi-sosial dayaqlarının təməl prinsipinə çevrilən azərbaycançılıq ideyası, hazırki, dövrdə güc, enerji və düşüncə mənbəyidir. Azərbaycançılıq, müstəqillik şəraitində ölkəmizdə qərarlaşmış milli və etnik münasibətlərin əsas birləşdirici ideyasını ifadə edir. Azərbaycançılığı milli məfkurənin bünövrəsində dayanan, əsas məqsədlərə çatmaq vəzifələrini müəyyən edən baxışlar və dəyərlər məcmusu hesab etmək mümkündür. Respublikamızın indiki mərhələsində, azərbaycançılıq milli həmrəyliyin və ümummilli birliyin siyasi, ideoloji əsaslarının nəzəri və praktik bütöv sistemini yaradan ideya daşıyıcısıdır. Bu ideyanın möhkəmlənməsi xalqımızın gələcək inkişafı baxımından da müstəsna əhəmiyyətə malikdir.

Ədəbiyyat

1. Abdulla K. Azərbaycançılıq və "Kitabi - Dədə Qorqud" dastanı. ADA Universiteti. Bakı, Şərq- Qərb 2020,281 s.
2. Aleksandr Düma. Qafqaz səfəri. Bakı, Yazıçı, 1985, 142 s.
3. Azərbaycan Konstitusiyası. Bakı, Qanun nəşriyyatı, 2003, 48 s.

4. Azərbaycan Multikulturalizmi. Ali məktəblər üçün dərslik. Bakı, BBMM 2017, 416 s.
5. Həbibbəyli İsa //http// xalq qəzeti.com/az/

«Роль азербайджанской идеологии в укреплении мультикультуральных ценностей в нашей стране»

Ключевые слова: Азербайджан, родина, азербайджанство, мультикультурализм, история, этнос

Резюме

В статье под названием «Роль азербайджанской идеологии в укреплении мультикультуральных ценностей в нашей стране» анализируется формирование в Азербайджане национально-этнических качеств, существование концепции Родины на протяжении всей истории; сохранение и передача национальных традиций из поколения в поколение. Кроме того, рассматривается история возникновения азербайджанского этнонима от азербайджанского топонима, иосвещаются исследования многих ученых.

В современную эпоху глобализации, когда усиливается национальная фильтрация, наряду с мультикультурными тенденциями, важным считается защита национальных ценностей и традиций.

В статье также рассмотрена роль великого лидера Гейдара Алиева, обладающего невероятным мышлением, и внимательно изучающего все вопросы; а также роль Улу Ондера в решении политических проблем. В статье приводятся данные о том, что в период нахождения у власти Гейдара Алиева общество, основанное на идеологии азербайджанства, с целью утверждения в Азербайджане мультикультурных ценностей было воспитанно в этом духе. В результате этого,азербайджанство, включающее в себя национально-нравственные ценности, сегодня в Азербайджане стало устойчивой государственной идеологией.

"The role of the Azerbaijani ideology in strengthening multicultural values in the country"

Key words: Azerbaijan, motherland, Azerbaijanism, multiculturalism, history, ethnos

Summary

The article entitled "The role of the Azerbaijani ideology in strengthening multicultural values in the country" analyzes the formation of national-ethnic qualities in Azerbaijan, the existence of the concept of the Motherland throughout history; preservation and transmission of national traditions from generation to generation. In addition, the history of the emergence of the Azerbaijani ethnonym

from the Azerbaijani toponym is considered, and the studies of many scientists are highlighted.
In the modern era of globalization, when national filtration is intensifying, along with multicultural trends, it is important to protect national values and traditions.
The article also considers the role of the great leader HeydarAliyev, who has incredible thinking, and carefully studies all issues; as well as the role of UluOnder in solving political problems. The article provides data that during the period of HeydarAliyev's rule, a society based on the ideology of Azerbaijanism was brought up in this spirit in order to establish multicultural values in Azerbaijan. As a result of this, Azerbaijanism, which includes national and moral values, has become a stable state ideology in Azerbaijan today.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: fil.f.d Afət Musayeva
tərəfindən çapa tövsiyə olunmuşdur

GÜNEL QULİYEVA
AMEA-nın Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutunun elmi işçisi,
elcanselcanquluzade@gmail.com

SEYİD ƏZİM ŞİRVANI BƏDİİ İRSİNİN POETİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Azərbaycan ədəbiyyatı tarixən çox qədim və zəngindir. İstər şifahi, istərsə də yazılı qolu müəyyən mərhələdən, repressiyadan keçərək bugünümüzə qədər böyük bir yol keçmişdir. XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri Seyid Əzim Şirvanidir. Füzuli ədəbi məktəbinin qüdrətli davamçısı olan Seyid Əzim Şirvaninin lirikasında başlıca yeri məhəbbət mövzusunda qələmə aldığı qəzəllər təşkil edir. Bu tip şeirlərdə saf məhəbbət tərənnüm edilir. Bir maarifçi şa,ir kimi Seyid Əzim Şirvaninin bədii irsində elmin, təhsilin əhəmiyyətini, faydasının əks etdirən əsərlər mühüm yer tutur. Şair "Əkinçi" qəzetində çap etdirdiyi şeirlərində maarifçi görüşlərini təbliğ edir, avamlığın törətdiyi bəlaları açıb göstərirdi. Şairin maarifçi şeirləri, təmsil, mənzum hekayə və satiraları onu realist sənətkar kimi daha da məşhur etmişdir. Seyid Əzim Şirvani İslam dininin mahiyyətini dərindən anladığına, bu dinə böyük rəğbət bəslədiyinə görə xalqının maariflənməsi üçün əlindən gələn köməyi göstərmişdir. Seyid Əzim Şirvani hədəfi düzgün nişan alan satira ustası kimi də məşhurdur. Şair cəmiyyətdə rastlaşdığı eybəcərlikləri yüksək sənətkarlıqla qələmə aldığı satiralarında ifşa etmişdir.

AÇAR SÖZLƏR: *Seyid Əzim Şirvani, qəzəl, təmsil, lirika, satira, ədəbiyyat*

Dahi Azərbaycan şairi olan Seyid Əzim Şirvani 1835-ci il iyul ayının 10-da Şamaxı şəhərinin Qalabazar məhəlləsində anadan olmuşdur. Atası Seyid Məhəmməd Şamaxının nüfuzlu, sayılıb-seçilən şəxslərindən biri olmuşdur. Atasını kiçik yaşlarında itirən S.Ə.Şirvani ana babası olan Molla Hüseynin himayəsi altında böyüyüb boya-başa çatmışdır. Seyid Əzim Şirvani öz həyatı haqqında bu misraları qeyd etmişdir:

İki yüz əlli birdə bədi-həzar.
Əsri-sultan Məhəmmədi-Qacar.
Rumə Əbdülməcid idi sultan,
Oldu darülviladətim Şirvan (5, səh.127)

Seyid Əzim Şirvani babası Molla Hüseyndən ərəb və fars dillərini öyrənmişdir. Şair orta təhsilini Şamaxıdakı mədrəsədə almışdır. O, burada ruhanilərin iküzlüyünü görüb öz yaradıcılığında onları tənqid atəşinə tutmuşdur. Buna görə də şair Şamaxının mürtəce dairələrindən özünə çoxlu düşmən qazanır, ruhanilər və əyanlar onu xalqın gözündə hörmətdən salmağa səy göstərirdilər. Şairin "Bəyani-hali-nazim" şeirində bu misraları oxuyuruq:

Eylədim ki, hər busatə guzər,
Məni gördükdə xəlq söylədilər:
Budu gəldi səfahətin kani,
Hacı Seyyid Əzimi-Şirvani (3, səh. 128)

Şairin təsvirindən məktəbdəki dərs prosesinin hansı vəziyyətdə olması oxucuya tam aydın olur. Var gücü ilə yeni tipli məktəb yaratmaq üçün çalışan şair çox keçmir ki, Şamaxıda yeni üsullu məktəb açır. Onun bu məktəbində 36 şagird təhsil alırdı. Maddi ehtiyac içində yaşayan şair bu məktəbdən heç bir gəlir əldə etmirdi. Tədris prosesində müəllim şairin məktəb açandan sonra Şamaxı qaraguruhçular mühitində ona edilən təzyiq və hücumlardan danışmalı, eyni zamanda bütün bu halların şairi qorxutmadığını, əksinə, onun öz işini daha da inkişaf etdirməyə çalışmasını xüsusi qeyd etməlidir. Seyid Əzim tərbiyə işinin kəmsavad, köhnəpərəst, dünyagörüşü kasad olan müəllimlərin əlinə verilməsini istəmirdi. Belə adamların müəllimlik kimi şərəfli bir ada zərər gətirəcəyini deyirdi. Şair öz dövründə olan məktəb və dərsliklərin vəziyyəti haqqında şeirlərinin birində belə yazırdı:

Əvvəla, bizdə yox o məktəblər
Ki, verə kəsbi-elmi xalqa səmər,
Nə o günə kitablar əlan
Ki ola öz lisanında bəyan.
Bizə hasil nə şey olur yoxdan,
Ki ibtidadır kitabımız çoxdan.(7)

Şair ömrünün sonuna qədər burada müəllimlik edir. O, bu məktəbdə uşaqlara dini elmlərlə yanaşı, Azərbaycan və fars dillərini təlim edirdi. Köhnə mollaxanalardan fərqli olaraq bu məktəbdə uşaqlara Azərbaycan və fars dillərini tədris edir, tarix, coğrafiya, hesab və s. fənlərdən məlumat verirdi. S.Ə.Şirvani bu vaxt ərzində oxumağı və yazmağı bacarır, rus ədəbiyyatı ilə dərindən maraqlanırdı. O, məşhur rus şairi Puşkindən bir neçə şeiri fars dilinə tərcümə etmişdi. Daha sonra "Gülüstan" və "Bustan" əsərlərindən, "Zinətül-məcalis"dən və digər fars mənbələrindən tərbiyəvi əhəmiyyətli bəddi parçaları Azərbaycan dilinə tərcümə edir və özü də kiçik həcmli şeirlər yazıb uşaqlara oxudurdu. Azərbaycanın görkəmli şairlərindən biri olan Mirzə Ələkbər Sabir, məhşur pedaqoq Sultan Məcid Qənizadə və bir sıra digər yazıçılar onun məktəbində təhsil almışdır.

Bir müddət sonra Seyid Əzim Şirvani Şamaxıda "Beytül-Səfa" adlı şeir məclisini təşkil edərək uzun müddət bu məclisə rəhbərlik etdi. Beytül-səfa" Seyid Əzim Şirvaninin böyük iftixar mənbəyi idi. Burada İmadəddin Nəsimi, Şah İmsayıl Xətai, Məhəmməd Füzuli kimi dahi klassiklərin nadir poeziya incləri oxunub şərh edilir. Şair özünün təravətli şeirlərilə onları söz üzərində məhz klassikləri kimi işləməyə, təqliddən qaçıb orijinal əsərlər yazmağa ruhlandırdı.(12,səh. 410)

1887-cı ildə maarif sahəsindəki xidmətlərinə görə "Za userdiye" medalı ilə təltif olunmuşdur. Maddi ehtiyac içində yaşayan şair bu medalı almaq üçün 7 manat

50 qəpiyi tapa bilmədiyindən yalnız ölümünə 10 gün qalmış, 1888-ci ilin may ayında almışdır. Mayın 20-də isə vəfat etmiş, öz vəsiyyətinə görə Şamaxının Şaxəndan qəbiristanlığında dəfn olunmuşdur.

Zəngin ədəbi yaradıcılığa malik olan S.Ə.Şirvaninin fərqli irsi biri Azərbaycan türkcəsində, digəri isə farsca olmaqla iki böyük külliyyatdan ibarətdir. Şairin yaradıcılığının əsasını qəzəl janrı təşkil edir. S.Ə.Şirvani pedaqoji fəaliyyəti ilə əlaqədar olaraq "Şəriət", "Rəbbiül-ətfal"(uşaqların baharı) və "Təcül-kütül" adları altında üç dərslik yazmışdır. Azərbaycanca külliyatı şairin həmyerlisi cərrah Mirzə Həbib Məşədi Sadıq oğlu tərəfindən toplanaraq tərtib edilmiş və hicri 1309-cu ildə (1892) Təbrizdə daş basmaxanasında nəşr olunmuşdur.

Seyid Əzim Şirvani külliyatı üç böyük hissəyə bölünür. Birinci hissə qəsidə, həcv, mənzum məktub, təcribənd, tərkibənd, müxəmməs, təxmis, müsəddəs və s. əsərlərindən, ikinci hissə qəzəl, rübai, qitə, beytlərdən, üçüncü hissə isə mənzum hekayələrdən ibarətdir.

Seyid Əzim Şirvani yaradıcılığının ikinci mərhələsi onun maarifçi və tənqidi-satirik şeirlərilə başlayır ki, onun da əsasını realizm janrı təşkil edir. Realist şeirin yaradıcılığına təsir etməsində "Əkinçi" qəzetinin təsisçisi Həsən bəy Zərdabinin maarifçilik idealarını alqışlayır, onu savadlı bir müəllim, xeyirxah bir insan kimi yüksək qiymətləndirirdi. "Əkinçi" qəzetində çap etdirdiyi şeirlərində, şair, mədəni geriliyi pisləyir, insanların rastlaşdığı çətinliklərin, millətin geridə qalmasının səbəbini savadsızlıqda görürdü:

Dadü fəryad, ey güruhu-izam,
Oldu zaye bu milləti-islam.
Günü-gündən zəlili-xar olduq,
Möhnəttü qüssəyə düçar olduq (11).

"Əkinçi" qəzetinin redaktoru Həsən bəy Zərdabiyə göndərdiyi mənzum məktublarında şair oxucularına məıtbuatın faydası haqqında danışır. Müasirlərini qəzet oxumağa, qəzetin nəşrinə kömək etməyə çağırırdı:

Bəs "Əkinçi" cəlalımızdı bizim,
Nasehi- xoşməqalımızdı bizim.
Səy edin, ey guruhi-niksifat,
Etməsin ta "Əkinçi" vəfat (12, səh. 421).

Külliyat yaradıcılığının əsasını qəzəllər təşkil edir. Bu hissəyə müəllifin təxminən altı yüzə qədər qəzəli daxildir. Şarin qəzəllərini mövzu etibarı ilə beş qismə ayırmaq olar: 1) məhəbbət mövzulu qəzəllər; 2) şərab haqqında yazdığı qəzəllər; 3) dini mövzuda yazdığı qəzəlləri; 4) müəllifin öz yaxın dostlarına olan məhəbbəti; 5) fəlsəfi və dini səpkidə olan qəzəlləri.

Seyid Əzim Şirvaninin yazdığı qəzəllər içərisində mühüm yeri aşiqanə qəzəlləri təşkil edir. Vüsal arzusu, aşiqin cananına qovuşmaq arzusu əsas motivlər hesab edilir. Ən məşhur qəzəllərindən olan "Necə həmtay tutum hər büti-zibayə səni"adlı qəzəli məhəbbət mövzusundadır. Aşiqin dilindən söylənən bu şeirdə

sevgilisinin gözəlliyini tərənnüm edir. Əruz vəzninin rəməl bəhrində yazılmış qəzəldə "Səni" şeirin rədifidir. Şair həqiqi məhəbbəti və gözəli dünya nemətlərinin ən üstünü sayır və cananını canından üstün tutduğunu söyləyir. Əruz vəzninin rəməl bəhrində yazılan qəzəl 7 beytdən ibarətdir. Qəzəlin birinci misrası bədii sual üzərində qurulub.

Necə həmtay tutum hər büti zibayə səni?
Vermərəm tanrı bilir, cümlə bu dünyayə səni.(11)

İlk beytdə dərin bir sevgi ilə rəğbət bəsləyən aşiq gözəli əfsanəvi bütlərdən də yüksəyə qaldırır, onu bu dünyada heç nə ilə dəyişməyəcəyini Tanrının dilindən də ifadə edir.

Qorxuram ki, nəzər əhli deyə naqisdi bu söz,
Oxşadım hüsndə hərçənd tamam ayə səni.

Şairinin əsərləri içərisində öyüd, təmsil və didaktik mahiyyət daşıyan mənzum hekayələri var ki, bunların da müəyyən bir hissəsi öz ideyaları etibarı ilə onun maarifçi şeirləri ilə birləşir. **Şair savadsızlığı insan üçün faciə hesab edir, dil öyrənməyi, xüsusən yaşadığı dövrün tələbinə uyğun olaraq rus dilini öyrənməyi zəruri sayırdı:**

Cəhd qıl neməti-təmamə yetiş,
Elm təhsil qıl, məqamə yetiş.
Ey oğul, hər lisanə ol rağib,
Xassə ol, rus elminə talib.
Onlara ehtiyacımız çoxdur,
Bilməsək dil, əlacımız yoxdur.

Seyid Əzim Şirvani gözəllik şairi idi. Şair təsvir etdiyi gözələ təbiətin yaratdığı incə ruhda yanaşır, qadına xas olan ən yaxşı cəhətləri özündə cəmləşdirməsinə heyranlığını bildirilir.

Sən hurimisən, yoxsan pərt, ya ki mələksən,
Yox, səhv elədim kim, bular olmaz bəşər (11)

Məhəbbət mövzusunda qələmə aldığı "Olmasaydı qəmi-eşqin dili-viranımda" qəzəlinin qəhrəmanı da dərdli aşiqdir. Şair üçün məşuqənin verdiyi əzab da əzizdir.

Olmasaydı, qəmi-eşin dili-viranımda,
Saxlamazdım onun bu izzət ilə yanımda.

Seyid Əzim Şirvani mənalı təzadlardan istifadə aşiqin keçirdiyi hisslər barədə dolğun təsəvvür yaratmağa şərait yaradır.

Xalın qaradı, zülf qara, gözlərin qəra,
Bir ağ gün görərmi olan mübtəla sana? (11)

Lirik qəhrəmanı belinin hicranından bükülməsini, qəlb evinin bərbad olmasını, ağlamaqdan gözlərinin zəifləməsini dövrün əziyyətləri ilə əlaqələndirir.

Zəmanə qoymadı məni bir dəm nifarım il,
Ki, xoş keçə günüm ol sərvi-gülzarım ilə.

Seyid Əzim Şirvaninin əsərlərində Vətənə olan məhəbbət, soykökünə bağlılıq hissləri mühüm yer tutur. Şair doğulduğu torpaqdan-Azərbaycanın dilbər guşələrindən olan Şamaxıdan qürurla söz açır, onun əsrarəngiz gözəlliyini digər şəhərlərələ müqayisə edir, qədim mədəniyyət mərkəzi olduğunu, görkəmli nümayəndələr yetişdirdiyini qürur hissi ilə qeyd edir:

Hansı Şirvan, O gülüstani-qədəm,
Konda Şirvanşahlar oldu müqim.
Nə Şəmaxi ki, onda İzzəddin
Nəzmdən zahir etdi sehri-mübin,
Məsqətür-rəsi-paki-Xaqani,
Hünərin Zülfüqari-bürrani (5)

Şairin uşaq əsərləri içərisində oğlu Cəfərə xitabən yazılmış öyüd nəsihətlərini xüsusilə qeyd edilməlidir. Bir növ nəsihətlər, öyüdlər övladının gələcəyini düşünən , ona düzgün yola göstərən atanın dilindən verilir. Öyüdlərində Seyid Əzim Şirvani oxucularını sənət, peşəyə yiyələnməyə, elm, bilik əldə etməyə səsləyir:

Ey oğul, bil ki, adəmi-bikar,
Xüşk olan bir odundu layiqi nar.
Bunu bizdən deyibdilər əqdəm,
Sənəti olmayan deyil adəm (14)

Mərdlik, dostluqda mətanət, çalışqanlıq və s. nəcib keyfiyyətlərin tərbiyə olunması bu əsərlərin əsas məzmununu təşkil edir :

Filhəqiqət dirəxti-nakamal,
Tərbiyət feyzinə olur şamil.
Növi- insan deyil ağacdan kəm,
Qalibi-tərbiyətdi hər adəm (12, səh. 422).

Mənzum hekayələrinin bir qismi Nizami Gəncəvinin "Sirlər Xəzinəsi", "İqbalnamə", bəziləri Sədinin "Gülüstan" və "Bustan" əsərələrindən, biri ("Musa və çobanın hekayəti") Cəlaləddin Ruminin "Məsnəvi"sindən iqtibas edilsə də, əsas hissəsi Azərbaycan xalq nağıl, rəvayət və lətifələrindən istifadə yolu ilə yazılmışdır.

S.Ə.Şirvani görkəmli bir satirik kimi də məşhurlaşmışdır. Onun tənqid hədəfləri xan, bəy, rəis, qazi, məhkəmə üzvləri, vəkil, polis, əhalini qurd kimi soyanlardan ibarət idi. Şair bu "sahibi-ixtiyarları", "Əkinçinin hadisələri", "Padişah və əkinçi", "Şamaxının yeni bəyləri haqqında həcv", "Şamaxının yeni vəziyyətindən şikayəti", "Şamaxı Şirvan bəylərdən Əli Əsgər bəyə şikayət", "Şirvanın təzə bəyləti" adlı satirik əsərlərində tənqid etmişdir.

"Şirvanın təzə bəyləri" satirik şeirində çar məmurlarının rüşvətxorluğu, əhalinin aldadan məhkəmə işçiləri acı kinayə ilə təsvir edilir.

"Tələbənin hadisəsi", "Müctəhidin təhsildən qayıtması", "Elmsiz alim", "Fəqih ilə oğlu", "Köhnə elmdən şikayət" və "Avam ata ilə alim oğlu", "Köpəyə

ehsan", "Allaha rüşvət", "Yerdəkilərin göyə şikayəti", "Riyakar abid", "Münəccimlər yalançıdılar" və "Dəli Şeytan" adlı şeirlərində tənqid olunur.

XIX əsrdə yazıb-yaradan dahi söz ustadı Seyid Əzim Şirvani ədəbiyyat tariximizə klassik poeziya ənənələrini yaradıcı şəkildə davam etdirən sənətkar kimi daxil edilmişdir. Şairin yaradıcılığının böyük bir qismini incə ruhlu lirik şeirlər təşkil edir.

"Qış qıl" müxəmməsində "vəhdəti-vücud" əqidəsinin izlərinə rast gəlmək mümkündür.

Meyi gör, saqiyə bax, kövsərü qılmandır bu,
Cümləsi pərtövi-ruxsarlığı-sübhandır bu.

S.Ə.Şirvaninin lirikasında mübaliğəyə xüsusi yer ayrılır. Müəllifin ən güclü mübaliğələri aşiqin hicr atəşi və göz yaşları ilə bağlı olan mübaliğələrdir.

Mən ki, hicr atəşinə yandı vücudunu, billah,
Mənim əhvalıma düzəxdə yanar, nar ağlar(8 səh. 418).

"Qafqaz müsəlmanlarına xitab" şeirində Seyid Əzim Şirvani qibtə hissi ilə başqa xalqların tərəqqi etmələrini, azərbaycanlıların isə köhnə ata-baba yolundan ayrılmadıqlarını böyük bir təəssüf hissi ilə təsvir edərək acı-acı şikayətlənir.

Şairin yaradıcılığnda təmsillər xüsusi yer tutur. "Eşşək və arılar" təmsilində elmin qədrini bilməyən cahil insanlar tənqid atəşinə tutulur. "Siçan və pişik" təmsilində düşüncəsiz insanlardan bəhs edilir. "Qaz və durna" təmsilində isə bir neçə müxtəlif peşə sahələrində kamil olmaq fikri irəli sürülür.

Qaz uğandı o göldə Durnadan,
Vaqif ol, ey oğul, bu mənadan:
Yəni bir elmə daim ol talib,
Zifən ol, zifunundur qalib.
Kişi bir sənəti bilər xalis,
Çoxuna meyl edən qalar naqis.

"Ayı və siçan" təmsilində Seyid Əzim Şirvani yaxşılıq etmək, "İtin pişiyə cavabında" xeyirxahlıq, dürüstlük, Aslan və iki öküz"də isə ittifaq və birlik ideaları verilir.

"Dəvə və balası" təmsilində feodal dünyasında yaşayan hüquqsuz insanların şikayəti əks edilmişdir.

Seyid Əzim Şirvaninin bədii irsində onun mənzum hekayələri xüsusi yer tutur. Şairin yüzdən artıq böyük və kiçik mənzum hekayələri vardır. Bunların müəyyən bir hissəsi Azərbaycan və fars klassiklərindən tərcümə və iqtibasdır. Mənzum hekayələrinin bir qismi əxlaq və məişət məsələləri ilə əlaqədar olan tərbiyəvi əsərlərdir. Bu əsərlərdə zəhmət yüksək qiymətləndirilir, ailə-məişətdə baş verən problemlərin həlli yollarına diqqət yetirilir.

Mənzum hekayələrin bir qismini təşkil edən "Köpəyə ehsan", "Dəli şeytan", Məkri-zənan", "Bəlx qazısı və xərrat" əsərləri tənqidi ruhdadır ki, bunlar da şairin sariraları sırasına daxil edilir.

Seyid Əzim Şirvaninin *satirik əsərləri* ədəbiyyatımız üçün çox qiymətlidir. Zəmanəsinin tüfeyli və istismarçılarını gözəl tanıyan şair onların nümayəndələrini - soyğunçu rus hakimlərini, rüşvətxor məmurları, zalım mülkədarları, ikiüzlü mollaları, şəriət məhkəmələrinə başçılıq edən səviyyəsiz qazıları kəskin tənqid hədəfinə çevirmişdir. Şairin "Şirvan bəyləri haqqında" adlı əsəri tənqid hədəflərinin çoxluğu və kəskin məzmunu ilə seçilir:

Nə pristav, nə köməkçi, nə kvartal, nə kazak,
Hamısı qurd kimi soymaqlığa xalqı ki, qoçaq(8. Səh 104).

Seyid Əzim Şirvaninin ictimai mahiyyət daşıyan satiraları şairin ümumi yaradıcılığında xüsusi mövqe tutur. Məhz şairi öz zəmanəsinin dahi realist şairi kimi tanıdan bu tip satiralardır. Axund, şeyx, molla, mərsiyəxan, dərvis, mülkədar, hökmdar, məmur, hakim kimi istismarçılar satiranın əsas tənqid hədəfləridir. "Allah rüşvət", "Yerdəkilərin göyə şikayəti", "Ruhanilik təhsili", "Müctəhidin təhsildən qayıtması" əsərləri şairin ruhani təhsil sisteminə dair yazdığı qüvvətli satiraları sırasındadır.

Seyid Əzim Şirvaninin "Allaha rüşvət" satirasında müəllif avam kəndlinin dili ilə kəndxudaları Allaha, kəndxudaların ətrafında cəmləşən tazıları, ikiüzlü məmurları isə ölüm məlakəsi Əzrailə bənzədir.

Dedilər ol xudayi-bimin nət,
Harda görmüşdü min tümən rüşvət.
Pulu çox gördü, eylədi ifrat,
Deyəsən ki, atıbdı həbbi-nişat.

Seyid Əzim Şirvaninin məşhur əsərlərindən olan "Şirvanın bəyləri haqqında" satirasıdır. O, məmurları "xalqın qanını soran quldurlar" adlandırırdı. Dahi şair xalqa düşmən gözü ilə baxan məmurların xalqa qarşı verdiyi sonsuz əzabı Şamaxını yerlə-yeksan edən zəlzələ ilə müqayisələndirərək yazırdı:

Əhli-divanın işin şərh qiləm bir necə bab,
Şərhi itmamə yetişməz yazıla əlli kitab.
Füqəralar yanıban zülm oduna oldu kabab,
Bir tərəfdən elədi zəlzələ Şirvan xərab,
Bi tərəfdən ki, bular aləmi viran elədi.

Seyid Əzim Şirvaninin yaşadığı dövrdə cəmiyyətdə kəskin ictimai bərabərsizlik hökm sürürdü. Kənd əhli hüquqsuz vəziyyətdə yaşayırdılar, xanlar, bəylər onlara qarşı hər cür zülmü edirdilər. Bu mövzuya aid yazdığı ən dolğun satirası "Xan və dəliqan" satirasıdır. Əsərdə hallanmış xan ona baş əyən kəndlinin salamını söyüşlə qarşılayır, onu təhqir edərək deyir:

Dedi: ey it, kənara çıx yoldan!
Nə çıxırsan donuz kim koldan?!

Burada xanın işlətdiyi söyüşləri özü üçün iltifat sayan avam kəndli obrazının gülünc vəziyyəti tənqid atəşinə tutulur. Lakin buradakı gülüş düşündürcü bir gülüşdür.

Ümumiyyətlə, kəndlilərin hüquqsuzluğu məsələsi Seyid Əzim Şirvaninin satiralarında xüsusi bir yer tutur.Şairin qələmə aldığı "Şamaxının vəziyyətindən şikayət" adlı satirasında kəndlilərin hüquqlarının müdafiəçisi kimi çıxış edərək onların üzərinə qoyulan ağır "töycü"dən şikayətlənir.

Ədəbiyyat siyahısı

1. Bağırov.K.M., red. Qasımzadə.F. "Seçilmiş əsərləri", "Uşaqgəncnəşr", 1959, 235 s.
2. Cəmşidov.Ş., red. Adilov.M. Türk əlyazmaları kataloqu, I cild "Folklor abidələri və müəllifsiz əlyazmalar". Bakı: " Elm və təhsil", 2013, 285.
3. Ə.Müznib "Seyid Əzim Şirvani əsərləri" 1930-cu il latın əlifbası ilə ilk çap. Bakı: "Azərnəşr", 277 s.
4. Əsgərli Z, elmi red. Məmmədov.N. "Seyid Əzim Şirvani". AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı: "Elm", 2005, 64 s.
5. Seyid Əzim Şirvani. Şeirlər.Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1963, səh. 127.
6. Seyid Əzim Şirvani. Divan. Təbriz. 1897.
7. Seyid Əzim Şirvani. Qəzəllər. Azərnəşr, Bakı, 1960.
8. Seyid Əzim Şirvani. Şeirlər. Azərnəşr, Bakı, 1963.
9. Köçərli F. Azərbaycan ədəbiyyatı tarixi materialları. 11 cild, I hissə, Azərnəşr, Bakı, 1926.
10. Mirbağırov K. Seyid Əzim Şirvani. Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, Bakı, 1959.
11. Rəhimov Ə. H. Seyid Əzim Şirvaninin farsca qəzəlləri haqqında. Azərb. SSR EA «Xəbərləri», 1961, №1
12. Qafarlı.S. "Qəzəllər/SeyidƏzim Şirvani", Bakı: "Azərnəşr", 1960, 658s.
13. Qasımzadə Feyzulla XIX əsr Azərbaycan ədəbiyyatı Elm və Təhsil, Baki, səh. 552
14. Təmsillər, mənzum hekayələr və öyüdlər, Seyid Əzim Şirvani, Bakı: "Gənclik", 1979, 59 s.
15. Uşaq ədəbiyyatı nümunələrinin təhlili və tədrisi xüsusiyyətləri: Qasım bəy Zakir, S.Ə.Şirvani, C.Məmmədquluzadə və M.Dilbazinin əsərləri əsasında: tədris-metodik vəsait.

Гулиева Гюнель

Резюме

Обзор художественно-поэтических особенностей произведений Сеида Азима Ширвани

Азербайджанская литература исторически очень древняя и богатая. Его устная или письменная ветвь прошла долгий путь от определенной стадии, репрессии, до наших дней.Одним из выдающихся представителей азербайджанской литературы XIX века является Сеид Азим Ширвани.В лирике могучего последователя Физулинской литературной школы Сеида Азима Ширвани основное место занимают Газели, написанные на тему любви.В стихах этого типа воспевается чистая любовь.

В художественном наследии Сайеда Азима Ширвани как поэта-просветителя важное место занимают произведения, отражающие значение и пользу науки и образования. В своих стихах, опубликованных в газете" агинчи", поэт пропагандировал идеи Просвещения, выявлял беды, вызванные нечестностью. Просветительские стихи поэта, его репрезентация, пейзаж рассказы и сатиры сделали его еще более известным как художник-реалист.Сеид Азим Ширвани, глубоко понимающий суть ислама, проявляющий большое сочувствие к этой религии, всячески помогал в просвещении своего народа.Сайед Азим Ширвани также известен как мастер сатиры, который правильно нацелился на цель.

В своих сатирах, написанных с высоким мастерством, поэт разоблачил деформации, с которыми он столкнулся в обществе

КЛЮЧЕВЫЕ СЛОВА: *Сейид Азим Ширвани, Газель, басня, лирика, сатира, литература*

Guliyeva Gunel

SUMMARY

See artistic and poetic features of the works of Seyid Azim Shirvani

Azerbaijani literature is historically very ancient and rich. Its oral or written branch has come a long way from a certain stage, repression to the present day.One of the prominent representatives of Azerbaijan literature of the XIX century is Seyid Azim Shirvani.

The main place in the lyrics of Seyid Azim Shirvani, a strong follower of the Fuzuli literary school, is occupied by ghazals written on the theme of love.Pure love is chanted in poems of this type. In the artistic heritage of Seyid Azim Shirvani as an enlightening poet, works reflecting the importance and benefits of Science and education occupy an important place. In his poems published in the newspaper" Akinchi", the poet promoted enlightened ideas, revealed the troubles caused by dishonesty. The poet's enlightening poems, representation, landscape stories and satires made him even more famous as a realist painter.

Seyid Azim Shirvani, who deeply understood the essence of Islam and had great sympathy for this religion, helped in every way in the Enlightenment of his people.Sayyid Azim Shirvani is also known as a master of satire who correctly targets the target.In his highly masterfully written satires, the poet exposed the deformations he encountered in society.

KEY WORDS: *Seyid Azim Shirvani, ghazal, representation, lyrics, satire. Literature*

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Kərimulla Məmmədzadə tərəfindən çapa tövsiyə olunmuşdur

GÜNAY İBRAHİMOVA
Mingəçevir Turizm Kolleci
gunayibrahimova1980g@gmail.com

L'ENSEIGNEMENT DU TOURISME EN APPROCHE COMMUNICATIVE

Açar sözlər: turizm, reklam, inkişaf ,qloballaşma texnologiya
Key words: turism, advertissement, development,qlobalisation ,technology
Ключевые слова, туризм ,реклама, развитие, глобализация ,технология

[Français sur objectifs spécifiquespage 61-62] tuellement, le champ du FOS touche tous les domaines professionnels et estudiantins.

On peut citer à titre d'exemple quelques domaines :

Le français des affaires,
Le français de l'hotellerie et du tourisme ,
Le français scientifique et technique,
Le français juridique,
Le français des relations internationales,
Le français de la médecine,
Le français des relations publiques et de l'administrations,
Le français du secrétairat,
Le français des sciences sociales et humaines,
Le français de l'informatique
Le français journalistique,
Le français des transports,
Le français des postes et télécommunication,
Le français de traduction ou d'interprétation.

[Français sur objectifs spécifiques, page 7-9] L'enseignement tous ces professionnels est trés important pour les apprennants.Parmi ces branches professionnels le domaine tourisme est plus dévéloppé aussi. Dans cet article nous donnons les informations de coté didactique sur le domaine du tourisme. A l'aide de la leçon du tourisme l'apprennant est invité à repérer des éléments linguistiques à partir de documents professionnels sonores et écrits. Les apprennats trouvent un précis grammaticales et des exercices d'applications, un récapitulatif des expressions de la correspondance hotelière, un tableau de conjugaison et un lexique un terme spesifique .Les apprennant augmentent les savoires et savoir- faire. Les apprennants apprennent les mots et les expressions sur le domaine du tourisme : se présenter et présenter son entreprise, acueillir des clients francophones, aimer un site touristique, promouvoir une destination, conçevoir et vendre un produit troustique et accompagner un groupe de touriste.

Le tourisme est l'un des secteurs économiques les plus importants de l'économie mondiale. Cela anglobe une myrade d'entreprise qui directement ou indirectement,

sont liées au tourisme. Comme dans tous les secteurs,sa professionalisation et sa spécialisation ont généré de nouveaux types de tourisme d'affaires, ainsi qu'un voyage de tourisme rural. Aussi, selon les entreprises, on peut parler de tourisme familal ou de trousime scientifique.

Il existe un grand nombe de types de tourisme, ceux-ci sont classés selon le type de voyage,le but de voyage, l'acivité à réaliser, les raisons, l'entreprise, ainsi qu'un nombre infini de caractéristiques qui nous motivent voyager d'un endroit ou d'un autre.

Les types de tourisme :
Tourisme familial
Tourisme d'affaires
Trousime actif
Trousime naturel
Tourisme culturel
Trousume individuel
Trousime de masse
Trousime scientifique
Trousime nucléaire
Trousime spatial

Tourisme de santé
Trousime de divertissement
Trousime créatif
Trousime industriel
Trousime social et solidaire
Trousime durable, éco-tourisme
Trousime artisanal et commercial
Trousime événementiel
Trousime de nature, d'observation
Trousime de détente, de rélaxtation
Tourisme de fête
Tourisme de buisinesse
Tourisme de sport
Tourisme de jeux

[tourisme.com page 6-19] Et les objectifs professionnels. Tout les métiers du tourisme :

Les métiers de l'accueil ;
Les métiers de la production ;
Les métiers de la vente ;
Les métiers de la promotion ;
Les métiers de l'animation.

Le tourisme culturel. L'un des types de tourisme les plus populaires au monde est le trousime culturel. C'est l'un des secteurs le plus ancien et le plus développé. Au XVIII siècle, à l'époque des philosophes, la formation intellectuelle devait être complété par le voyage. Ce genre de tourisme concerne la patrimoine culturel, édifices réligieux (églises, monastères, abbayes) et civils (hôtels de ville, chateaux, sites archéologiques, palais) , musées, manifestations culturelles et artistiques

Le trousime de luxe
Le trousime médical
Le trousime ésthétique
Le trousime urbain
Le trousime rural
Le trousime de formation
Le trousime gastronomique.

Dans cet article nous avons montré un exemple .Nous avons donné les informations sur les ressemblances deux villes touristiques. Chéki et Grenoble. Nommé Grenoble de l'Azerbaidjan Chéki se trouve aux peintes des montagnes est le centre des curiosités du tourisme et se choisi son ancienneté et son paysage magnufique. On peut rencontrer à chaque point de la ville la synthèse qui crée l'ensemble la beauté de la nature et du travail de l'homme. Comme les atres régions de notre pays le domaine touristique est trés developpé à Chéki. Chéki est plus célébre avec son histoire ancien et avec plusieurs monuments historiques :Le palais de Khana Karavansaray l'encien temple albanaise et les lieux de répos comme Soyuqbulaq, Marxal et les autres curiosités qui attirent plus de touristes avec son extraordinaire. Le palais de Khana a été construit en 1743. Pendant la construction de ce palais on n'a pas utilisé de clous, il a été construit du moyen des jaunes d'oeuf. Dans sa cour de ce palais il y a un platane qu'on plus de 500 ans. Le Karavansaray aussi garde son ancienneté jusqu'aujourd'hui. C'est un lieu préfére des touristes. Et les rues centrales de Chéki a été construit des pavés.Et plus choisi naturel Chéki se choisi aussi sa soie de Chéki et sa domaine paterie. Et Chéki l'un des régions qui garde ses traditions jusqu'aujourd'hui. Et cette ville se diffère de ses domaines sériculture ,patérie et profession d'émateur. Quand on parle de Chéki il est impossible de ne pas parler de sa cuisine. Comme sa nature sa cuisine est aussi plus riche et trés célébre avec son piti ,sa patisserie, surtout le pakhlava de Chéki. Cheki se diffère de son accent sucré et ses annecdotes ridicules.Se trouver en l'environnement montagneux, aux peintes montagnes d'Alpes et en zone frontière , avec ses curiosités, ses lieux touristiques et sa nature Chéki s'identifie avec Grenoble. Soi du point de vue géographique, soi économique et soi politique ses villes s'identifient plus. Comme Chéki Grenoble aussi attire plus de l'attention des touristes. Comme à Chéki, à Grenoble aussi il y'a des Universités, des entreprises qui se trouvent aux peintes des montagnes .Et cette ville aussi la partie minorités

nationales de la France. La France se diffère avec son domaine du tourisme.Et ce n'est pas en vrain qu' on dit :''Chéki est Grenoble de l'Azerbaidjan.'' Al'aide de ces types exemples les apprennants connaissent bien les lieux, ils apprennent beaucoup des mots et des expressions et ils développent bien ses compréhensions et expressions orales et écrites. Et les apprennats doivent connaitre bien les trois grandes groupes de tourisme : tourisme blanc, tourisme bleu et tourisme vert.Tourisme blanc est la montagne, tourisme bleu sont :les mers, les rivières, les lacs. Le tourisme vert sont : les plantes, les fôrets, la nature. Et si nous parlons de tourisme nous devons donner aussi les informations sur la spécialité. La spécialité appartient au tel ou tel domaine : ça peut-être la nature, la cuisine,l'ancienéteé, les traditions, les fêtes,les jeux, les achats ,les lieux touristiques. Et chaque pays se différe avec sa spécialité.

Diversification touristique et classification des types de tourisme

La diversification touristique consiste pour un territoire donné à proposer toute l'année des activités touristiques variées. L'objectif est de proposer un panel d'activités spécifique pour chaque saison. Exemple : Automne,mois du bien-être et de la remise en forme.

İnnov Moutains propose une nouvelle liste des types de tourisme exsistant et en expansion aujourd'hui afin d'aider les acteurs du tourisme à les identifier sur leur territoire. Une fois identifiés, il est plus facile de démarcher les prestataires avec lesquels il est possible de travailler et de chercher comment proposer un tourisme 4 saisons, annuel.

Exemple : s'accorder pour proposer des interactions avec certains prestataires ou des packs Hébergements avec un panel d'activités au choix et le transport (en commun, taxi ou location) compris.

İbrahimova Gunay

Kommunikativ metodda turizmin tədrisi

REZUME

Məqalədə ölkəmizdə son vaxtlar turizmin sürətlə inkişafından danışılır. Eyni zamanda Fransanın turizm sahəsində inkişafından, turizmin bu ölkədə ən öndə gedən sahə olmasından bəhs olunur. Məqalədə həmçinin turizmin növləri: dağ, meşə, dəniz və s göstərilir. Turizmin ən tələbatlı sahə olması və buna son vaxtlar daha çox ehtiyac duyulması göstərilir.İnsanların fərqli-fərqli ölkələrə üz tutması, həmin ölkələrdə müxtəlif bayramlar keçirmək həvəsi, işdən sonra dincəlmək, istirahət etmək ,alış-veriş arzusu və s ilə izah olunur. Hansı ölkənin hansı sahə üzrə daha çox tanınması: istər musiqi, istər kino,istər idman yarışları, istər özəl mətbəxi, istərsə də bayramları ilə və s göstərilir. Görməli tarixi yerlərlə tanış olur.Qədim dini, tarixi abidələri tanıyır. Və həmçinin məqalədə reklamın turizmə müsbət təsirindən, texnologiya və mətbuatın turizmin inkişafındakı rolundan bəhs olunur. Bu məqalədə

eyni zamanda turizmə məhz didaktik nöqteyi-nəzərdən də yanaşılıb. Turizmin dərslərdə tədrisi ilə bağlı tələbələr yeni söz və ifadələr öyrənirlər.Bu da onlarda şifahi və yazılı şəkildə dinləyib-anlama və şifahi və yazılı şəkildə fikri ifadə etmə bacarığını inkişaf etdirir. Müxtəlif dərs üsulları ziqzaq, karusel, ven diaqramı və s istifadə edərək dərslər keçirlər. Auksion, akvarium, söz oyunları və s istifadə edərək kollektiv şəkildə dərslər keçirlər. Bunlar da tələbələrdə daha çox söz bazasına malik olmalarına şərait yaradır.

TEACHING TOURISM IN THE COMMUNICATIVE METHOD

RESUME

The article talks about the rapid development of tourism in our country during those times. At the same time, it talks about the developement of France in the field of tourism and the fact that tourism is the leading sector in this country. The article also shows the types of tourism: mountain, forest,sea,etc. It is shown that tourism is the most demanding field and that it is needed more recently. It is explainded by the fact that people go to different countries, the desire to spend various holidays in those countries, to rest after work, to relax, to shop, etc. It shows which field music ,cinema, sports competitions, special cuisine, holidays etc. He gets to knows the historical places to see. He knows the ancient historical monuments. And the article also discusses the positive impact of adversting on tourism, the role of technology and the press in the developement of tourism. In this article,at the same time, tourism was approched from a didactic point of view. Students learn new words and expressions related to the teaching of tourism in lessons. This develops their ability to listen and understand orally and in writing. They conduct lessons using various teaching methods such as zigzag,carousel, venn diagram,etc.They conduct lessons collectively using auction,aquarium,word games etc.These also create conditions for students to have more vocabulary.

Ибрагимова Гюнай

ОБУЧЕНИЕ ТУРИЗМУ КОММУНИКАТИВНЫМ МЕТОДОМ

РЕЗЮМЕ

В статье говорится о стремительном развитии туризма в нашей стране в последнее время, в то же время говорится о развитии Франции в сфере туризма и о том, что туризма : горный, лесной, морской и др. Показано, что туризм является наиболее востребованной сферой и востребован в последнее время, что объясняется тем, что люди едут в разные страны, желанием провести в этих странах различные праздники, отдохнуть после работы, расслабиться, желание ходить по магазинам и т.д. Это показывает, какая страна в какой области более популярна: музыка, кино, спортивные соревнования, особая кухня, праздники и

т.д. Он знакомиться с историческими местами. Знает древние исторические памятники. А также в статье рассматривается положительное влияние рекламы на туризм, роль технологий и прессы в развитии туризма. В этой статье в то же время к туризму подошли к дидактической точки зрения. На уроках учащиеся изучают новые слова и выражения, связанные с преподаванием туризма. Это развивает их способность слушать и понимать устно и письменно, а также выражать свои мысли устно и письменно. Они проводят уроки, используя различные методы обучения, такие как зигзаг, карусель, диаграмма Венна и др. Они проводят уроки коллективно, используя аукционные, аквариумные, словесные игры и т.д. Это также создает условия для увеличения словарного запаса учащихся.

Ədəbiyyat

1)PLECİNSKAYA Maria .Indices réginaux et Publicité télévisée in LEDM №=313 Paris 2001

2)Tourisme.com. CLE International www.cle-inter.com

3) Français sur objectifs spécifiques.Le français dans le monde 2004

4) https:// portal.azertag .az,node.

5)https://az wikipedia .org wiki Şəki

6)https:// ru.wikipedia.org wiki Гренобль

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: dos G.M.Camalova
tərəfindən çapa tövsiyə olunmuşdur

RZAYEVA QƏRƏNFIL ZEYQƏM QIZI
Baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ağcabədi filialı, Azərbaycan
qerenfilrzayeva40@gmail.com

HÜSEYN CAVİDİN "İBLİS" FACİƏSİNDƏ BƏŞƏR ÖVLADININ MƏNƏVİ İBLİSLƏŞMƏ PROSESİNƏ ETİRAZ MOTİVLƏRİ

Xülasə

Məqalədə Xeyirlə Şərin mübarizəsi fonunda insanlığın mənəvi faciəsi, qeyri-bərabər güclərin apardığı ədalətsiz müharibələrin fəsadlarından geniş miqyasda bəhs olunur. H. Cavidin "İblis" faciəsi əsasında insan xislətində baş verən dəyişikliklər, iradəcə zəif və təcrübəsiz insanların şərə təslim olması və beləliklə böyük fəlakətlərə səbəb olması əsaslandırılır. Qeyd olunur ki, iblislik bütün dövrlərin ən ağır yükü kimi dahiləri düşündürmüşdür. Səmimi və həssas Cavidi isə bu hiss bütün ömrü boyu narahat etmişdir. Cavidə görə bütün iblislikləri olduğu kimi göstərmək, ifşa etmək bütün zamanlarda insanlığa xidmətdir. Həyat sonu heç nə olan bir oyundur. Bu oyunda isə İblis əla oyunçudur. Bütün klassiklər kimi bu oyunda "Cavid - əxlaqı, mənəvi aləmi İblisdən təmizləməyə çağırır.

"İblis" faciəsində simvolik də olsa İblis, Allahın və bəşər övladının düşməni kimi təqdim olunur. Məqalənin mövzusu olduqca aktual bir məsələyə həsr olunmuşdur. Belə ki, istər Cavidin əsrində, istərsə də müasir dövrdə hər gün səviyyəsindən, şüurundan, əxlaqından asılı olmayaraq müxtəlif qiyafəli iblislərlə qarşılaşırıq. Biz çox vaxt xətası bizdən uzaq olsun deyə, belə iblislərdən müxtəlif bəhanələrlə uzaqlaşırıq. Yaxud da qoca İxtiyar kimi ona biganələşirik.

İnsanın iblisə çevrilməsi Cavidi və Cavidin simasında bütün bəşəriyyəti narahat edən, fəqət həllini tapmayan problem kimi bu gün də qalmaqdadır. Cavid insanın daxili aləminə güzgü tutmaqla bəşər övladını iblislikdən xilas olmağa, iblisləşmək əvəzinə insanlaşmağa, saflaşmağa, haram nəfsimizi özümüzə tabe, qul etməyə çağırır.

Yaxın tarixə nəzər salsaq, bitib-tükənməyən saysız-hesabsız cinayətlər, dünya ölkələrinin bir-birinə düşmənçilik siyasəti və nəticədə qanlı müharibələr insanlığın faciəsi kimi yadda qalır.

Məqalədə Hüseyn Cavidin yüksək humanizmi, insansevərliyi, sülhə, ədalətə çağırış ideyalarından bəhs olunmuşdur.

Açar sözlər: İblis, Mələk, Arif, insanın iblisləşməsi, faciə, mənəvi uçurum, fəlakət, müharibə, ədalətsiz dünya, qanlı çəkişmələr

Cavidin "İblis" faciəsinin baş qəhrəmanı İblis adının da mənası elə budur. Əsərin əvvəlindən ta sonunacan "İblis" öz mövqeyini əks etdirməklə bərabər, düşmənçilik prinsiplərini də həyata keçirir. Əsərdə şərqlilərə məxsus allahsevərlik və sülhsevərliklə qərblilərə məxsus şübhəçilik üz-üzə dayanmışdır.

Dahilər daim öz zəmanəsi ilə ayaqlaşa bilən, onu qabaqlayan və çox vaxt zamanın fövqündə dura bilən əməl və zəka sahibləridir. Hər bir dahi öz xalqının iftixarı olmaqla bərabər, eyni zamanda bəşərin unikal şəxsiyyəti olur. XX əsrdə Azərbaycan xalqının payına düşən belə fenomenal mütəfəkkirlərdən biri də Hüseyn Caviddir.

Hüseyn Cavidi zamanının digər romantik şairlərindən fərqləndirən, onun əsərlərinə ölümsüzlük qazandıran ən ümdə cəhət, onu dinindən, irqindən, milliyyətindən asılı olmayaraq, oxucularına sevdirən ən əsas keyfiyyət düşüncələrindəki bəşərilik və əbədilikdir, yəni fəlsəfi düşüncələrinin hər zaman aktual olması və hər yerdə qəbul edilməsidir.

H.Cavidin dörd pərdədən ibarət güclü və maraqlı dramatizmə malik, qüdrətli və əzəmətli "İblis" faciəsi siyasi-ictimai kəsəri, bədii keyfiyyəti, üslub yeniliyi və əlvanlığı baxımından onun ikinci qüvvətli şah əsəridir.

Simvolik obraz olan İblis Allahın və bəşər övladının düşmənidir. Cavidin "İblis" faciəsinin baş qəhrəmanı İblis adının da mənası elə budur. Əsərin əvvəlindən ta sonunacan "İblis" öz mövqeyini əks etdirməklə bərabər, düşmənçilik prinsiplərini də həyata keçirir. Əsərdə şərqlilərə məxsus allahsevərlik və sülhsevərliklə qərblilərə məxsus şübhəçilik üz-üzə dayanmışdır.

Burada İblis iki tərəfin - humanist və ona kəskin zidd tərəfin toqquşdurulmasını təmin edən cəmiyyətin inkişafına hərəkət verən qüdrətli bir güc kimi üzə çıxmışdır.

"İblis" mənzum faciəsi 1918-ci ildə yazılmışdır. Pyesin Birinci Dünya müharibəsi illərində yazılması Hüseyn Cavidin bir filosof şair kimi düşüncələrinin açılması, əsasən ədalətsiz müharibələrə, müharibə qızışdırıcılarına nifrət hissləri bəsləməsindən irəli gəlir. Əsər yalnız mürəkkəb fəlsəfi məzmunu ilə deyil, həm də romantik üslubu baxımından diqqətəlayiqdir.

"İblis" faciəsində ilk səhnə Bağdad ətrafında ağaclar arasında mənzərəli bir guşədə təsvir olunur. İçərisi həsir döşənmiş, taxçasında kitablar olan sadə bir komada, Arif taxta bir çarpayı üzərində uzanıb, düşüncələrə dalmışdır. Bayır qaranlıq, ətrafda göy gurultusu, şimşək çaxışı top, tüfəng, bomba partlayışları, müharibənin getməsindən xəbər verir. Zabit əlindəki durbinlə müharibə komandası ilə məşğuldur. Uzaqlara tuşlanmış durbinin gözlərinin birində İblis, digərində Mələk görünür. Növbəti gurultudan sonra İblis görünür və baş verənlərdən məmnun vəziyyətdə qəhqəhə çəkərək deyir:

Dəryalara hökm etmədə tufan,
Səhraları sarsıtmada vulkan,
Sellər kimi axmaqda qızıl qan
Canlar yaxar, evlər yıxar insan. (1, s.7-8)

“Canlar yaxar, evlər yıxar insan...!” İblis bunu düşündükcə şənlənir. Onun adı qanlı çəkişmələrin səbəbkarları sırasında çəkilmir. Əvəzində Allahın yaratdığı, Allahın qoyduğu ədalətə, halallığa qarşı çıxan insanın – Allah bəndələrin adı hallanır. Müharibə gedir… “Canlar yaxar, evlər yıxar insan” . Baş verənlərdən Mələk çox narahatdır. Mələk təlaş içində:

Ya rəbb, bu nə dəhşət, nə fəlakət?
Ya rəbb, bu nə vəhşət, nə zəlalət?
Yox kimsədə insafü-mürüvvət
İblisəmi uymuş bəşəriyyət? (1, s.8)

Mələk insanların xeyir əməllərdən uzaqlaşıb İblisə uymasına inanmaq istəmir. Mələyə görə insanın biri, ikisi, beşi, hətta yüzü, yüz əllisi İblisə uya bilər. Ancaq bütövlükdə bəşəriyyətin İblisə uymasını dərk etmək Mələk üçün çətindir. Ətrafda göy gurultusu, top, pulemyot sədaları yüksəlir. Sükutdan sonra İblis çılğın qəhqəhələrlə:

Toplar veriyor aləmə dəhşət
Dəhşət qopuyor sanki qiyamət,
Yağmur kimi göydən yağar atəş
Atəş... Qaralar, dalğalar atəş. (1, s. 8)

Arif hələ də çarpayı üzərində yatmış vəziyyətdədir. Arif qanunlardan, kitablardan, peyğəmbərlərdən xəbərdar ziyalıdır. O, şəhəri buraxıb şəhərdən kənar bir ormanlığa - meşəyə pənah gətirmişdir.

Əsərin baş qəhrəmanlarından olan Arif humanist və romantik bir gənc kimi diqqətimizi çəkir. O, əsərin əvvəlində işğalçı müharibələri, insanların qəddarlığını, cinayət və xəyanət problemlərini qəlbinə yaxın qoymur. "Dünyada baş verən proseslərdə günahkar kimdir?", "insanların çəkdiyi zülmlərin səbəbkarı kimlər və nələrdir?" kimi suallara cavab verməkdə acizlik çəkən, müharibədə ailəsini, qardaşını itirən Arif, baş verənlərdən qurtulmaq üçün xilas yolunu insanlardan uzaqlaşmaqda görür. Lakin bu, çıxış yolu deyildir. Arif cürbəcür şübhələrə qapılır. "Niyə Tanrı sakitcə insanların çətinliklərinə baxır?" sualı onu rahat buraxmır. Arif dərk edir ki, dünyada güc və səltənət kimdədirsə, onun hakimiyyətinə üstünlük verilir. Digər tərəfdən sevgi, vicdan və mərhəmət kimi əxlaq prinsipləri olmadan insan cəmiyyətinin yaşaya bilməyəcəyinə olan inamından da dönmək istəmir.

“İblis” faciəsində müəllifi düşündürən, onu narahat edən məsələlər İblisin simasında, onun düşüncə və mükalimələrində ortaya atılır. Burada İblis obrazına müraciət edən Hüseyn Cavid, dünya nemətləri üçün insanlığa qənim kəsilən, varlanmaq, dünyaya sahib olmaq iddiasıyla ruhlarını şeytana satan insanları təsvir etmişdir. Müəllifə görə, insanların ruhu şeytan tərəfindən əsir tutulmuşdur. Qaranlıq ruh insanların qəlbinə hakim kəsilmişdir. Hadisələr fonunda müəllif tərəfindən müsbət qarşılanmayan ədalətsiz, qəddar, qanlı bir döyüş təsvir olunur.

“İblis”də baş verən hadisələrin məntiqindən belə çıxır ki, Şeytan insanın uğursuzluğuna görə günahkar deyil. Diqqət etsək görərik ki, yüksək mənəvi

keyfiyyətlərə malik, sülhsevər təbiətli Arif hadisələr fonunda bir xarakter olaraq necə dəyişilir.

Həyat haqqında eşitdiyi yalan fəlsəfələrdən, vicdansız rəhbərlərdən yorulmuş, usanmış, ətrafdakılardan öz fəhmi, fərasəti ilə seçilən Arifin bildikləri yalnız nəzəri fəlsəfələrdir. O, bildiklərini həyat təcrübəsi ilə yox, oxuyaraq, əzbərləyərək kitablardan öyrənmişdir. Odur ki, İblisə qarşı sona qədər mübarizə apara bilmir. "Bilik sonradan qazanılan... Və unudulandı". (2, s.26-27)

Həyat təcrübəsi öyrəndiklərindən az olan Arifdəki zəiflik, İblisin Arifdə kəşf etdiyi zəif nöqtədir. Hələlik Arifi İblis üçün maraqlı edən isə onun əzmi və əyilməzliyidir. İxtiyar bir qocayla onun nəvəsi Xavərə meylini salmış Arif keçmiş xatirələrini və indiki müharibənin dəhşətlərini anaraq düşüncələrə dalmışdır. Təcrübəsiz, zavallı və həmçinin zəkalı Arif top, tüfəng gurultusundan yuxudan oyanırmış kimi dikəlir və gözlərini ovuşduraraq qalxıb, ətrafı seyr edir. İblis Arifin fəhminə bələddir. Bilir ki, Arifi aldatmaq, onu Allahın, həmçinin halal, düzgün adamların əleyhinə qaldırmaq asan iş deyil. Odur ki, o, dəhşətli müharibə səhnələri ilə Arifin içindəki Allaha inamına kölgə salmaq istəyir. Allah varsa, ədalətlidirsə, onda niyə bu müharibələrin qarşısını almır, niyə gücsüzlərin, günahsızların səbəbsiz axan qanlarına biganədir?

Arifdə Allahın varlığına, onun ədalətinə şübhə hissi oyanmışdır. Arif içindəki şübhə hissi ilə Allaha müraciət edir:

Ya rəbb, bu cinayət, bu xəyanət, bu səfalət
Bulmazmı nəhayət?
İnsanları xəlq etmədə var bəlkə də hikmət
İblisə nə hacət? (1, s.9)

-deyərək üzüntülü bir vəziyyət alır. Artıq İblis Arifin Allaha olan şübhəsini hiss etmişdir. Onun sevincinin həddi-hüdudu yoxdur. Növbəti həmlə Arifi öz tərəfinə çəkmək, bədbəxtliyə sürükləyib cənənhəmlik etməkdir.

Arif hələ gənclik xatirələrində ilişib qalan ilk sevgisinin xəyalı ilə yaşayır. O, Rənaya aşiq olmuşdur. Lakin bu eşq onun müsbət xarakterinin stabilliyyini qoruyub saxlamasına təkan verə bilmir. Faciə boyunca onun təbiəti dəyişilir və özü də istəmədən cinayətkara çevrilir. Həyat yoldaşı Xavəri boğub öldürür, qardaşı Vasifi İblisin ərməğan etdiyi silahın qurşunu ilə öldürür və beləliklə, İblis, yəni şər ruh insanın özündə yuva qurma ideyasını təsdiq edir.

Əsərin ideyası, dünyadakı bir çox xəyanət və cinayətlərə əl atan insan və onun şeytani təbiəti ilə bağlıdır.

Hadisələr fonunda Arif bütün həqiqətləri anlayır. O, artıq İblisin bütün əməllərindən xəbərdardır. İblisin sözünü ağzında qoyan, onun özünü vəsf etməsinə dözməyən, İblissiz də cahanın xain əlində olmasını bilən Arif əlavə əzab kimi İblisi rədd edir. İblisə xitabən;

Artıq yetişir, anladım, izahə nə hacət,
Qarşımdakı İblis imiş, eyvah, nə dəhşət!

Həp qəhr olunurkən şu cahan xain əlilə,
Bilməm nəyə gəldin, niyə gəldin, mana söylə! (1, s.12)

İblisin şər təmsilçisi kimi gücünü görən Arif, bu nəhəng qüvvənin qarşısında mütləq bədbəxt olacağını dərk edir və özünün xilas yolunu görmür. O, ona yaxınlaşmaqda olan qoca İxtiyara artıq dəli olduğunu anladır və üstəlik elə ilk anlardaca öz dərdinə dəva bulunmayacağını da duyur. İndi heç olmazsa İxtiyarı xilas etmək üçün çırpınır. Həm məhv olacağını dərk edən, həm də məhv etmək istəməyən Arif yoluxucu xəstəliyə tutulmuş adamlar kimi zəkalı, insani hiss və duyğuların əlində tələş keçirərək qoca İxtiyara xitab edir:

Yar beynimi, aç qəlbimi! Eyvah açamazsan;
Qaç məndən uzaqlaş, xayır, əsla qaçamazsan,
Mən çılğınam artıq, mana yaxlaşma, kənar ol,
Gəl, qaçma, xayır, dərdimə lütf et də, dəva bul. (1, s.10)

Dünyagörmüş İxtiyar Arifin düşdüyü vəziyyəti yaxşı anlayır. Başa düşür ki, Arif kimilər nə qədər həssas olacaqsa, bir o qədər əzab və işgəncə içində qıvrılacaqlar. Əslində isə şərin hakim olduğu bir zamanda dərk etdiyin hər həqiqəti çözələmək, açıb-ağartmaq olmaz! Ürək insanın qapalı aləmidir. Əsl həqiqəti yalnız insanın ürəyi görə bilər.

İxtiyar hələ gənclik qüvvəsinə güvənən Arifi dərin və üzücü fikirlərdən xilas etmək üçün ona qəlbindəki şübhələri, nifrəti boğmağı tövsiyə edir. Hər kəsin günahı boyda da cəzası olacağını bilən İxtiyar onu da bilir ki, bəşəriyyətin qurşandığı bu müharibələrlə haqqı bərpa etməyə nə onun, nə də ariflərin gücü çatmaz və bu bəlalı çarpışmalar dünya durduqca davam edəcəkdir. Hər şeydən əli üzülən İxtiyar heç olmazsa, Arifi biganə olmağa çağırır.

Qəlbindəki nifrətləri, vəhşətləri yax, yıx,
Yüz min deyil İblisə uyan... Həp bəşəriyyət,
Etmiş bu gün ev yıxmağa, qan içməyə adət.
Arif! Unut oğlum, unut artıq, məni dinlə,
Sən kəndini məhv eyləyəcəksən bu gedişlə. (1, s.11)

İxtiyar neyləsə də Arifi yolundan, onu narahat edən düşüncələrindən ayıra bilmir və beləliklə Arif bəşər övladının yaradıcısı olan Allahı meydana çağırır. İnsanların yırtıcı təbiətinə və nəticədə yerdən göyə ucalan ahu-fəğanlara Allahın səbrlə tamaşa etməsinə dözə bilmir. Arif hansısa həqiqəti görmək, dərk etmək istəyir və az qalır ki, dəli olsun. Dəli olmaq nədir? Dəli olmaq uzaq gələcəkdəki acı və çılpaq həqiqəti qabaqcadan təxəyyüldə görmək və o anlardan real həyata qayıda bilməməkdir. Lakin Arif qayıdır və Allaha çılğıncasına göstəriş verir:

Ver, bir buyruq ver də cəhənnəmlər açılsın,
Coşsun, bütün atəşləri dünyaya saçılsın.
Yaqsın da, şu zalım bəşərin yurdunu yıqsın
Həp yer üzü bir an olaraq göylərə çıqsın. (1, s.11)

İblis hər şeyi görür. Dəhşətli göy gurultusu ilə bərabər İblisin şiddətli qəhqələri də eşidilir. “İblis Tanrıya bəndəlik etmək istəməyən, amansız çılğın, rahatlıq dinclik bilməyən keçmiş inadı üzərində möhkəm dayanan, “mərci udmaq” üçün bütün iste`dadını nümayiş etdirən, bir göz qırpımında cahanın hər guşəsinə baş vuraraq bütün soyuq beyinləri alovlandıran, qardaşla-qardaşı bir-birinə salışdıran cəhənnəm dəhşətlərindən də qorxunc, azman, badxah bir qüvvə kimi diqqəti cəlb edir”. (3, s.35-36)

…“İblis” nədən başlayır? İblisliyə biganəlikdən! İblisə uymağın asanlığı və bunu gecikərək, sonradan dərk etməyin faciəsi! Əsərdə müasir səslənən əsas leytmotiv budur.(7, s.74)

“İnsan ömrü boyu bitib tükənməyən biliyə, sonsuz azadlığa, dərkedilməzliyə, nura can atır. İnsan doyulmaz bir məxluq olduğu üçün çox vaxt nəfsini cilovlamaqda zəiflik göstərir. Bu vaxt ayıq-sayıq İblis onun yolundakı “üfüqləri” ona anladır. İnsanı ucuz yollara doğru şirniklendirir və onun faciəsini şiddətləndirmək üçün onu şirniklendirir. …Əsl böyüklük, fani dünyadakı fənalığı bir an da olsa, unutdurmaqdır. IBLIS isə əksinə çalışır, faniliyi insana dərk elətdirsin”. (4, s. 78)

“Əsər boyu” hər yerdə, həmişə Iblis! O, hikmətdən və taledən xəbər verir, ən qara, ən bəd həqiqətləri faş etməkdən zövq alır, eybəcər varlıq və insan naqisliyi üzərində qəh-qəh çəkərək gülür. İnsanı endirən, süqut etdirən hər hərəkətindən sonra hər yerdə İblis qəhqəhəsi eşidilir. Başdan-başa faciə bütövlükdə qəhqəhə - ittiham, qəhqəhə - monoloq kimi səslənir”. (8, s.114)

İblis əsər boyunca fövqəltəbii qüvvədən təbii qüvvəyə, simvoldan həqiqətə, iblisdən insana çevrilir. İnsana xas naqisliklər bir simvol kimi İblisin dilində daha zəngin keyfiyyətlə üzə çıxır. İblis bəşəriyyətin, zamanın narahat nəbzi kimi fəaliyyət göstərir. H.Cavidin İblisi gözə görünən, paxıl, xain, insanın sevincinə şərik ola bilməyən zəkalı bi fırıldaqçı kimi diqqəti çəkir. İnsanın içindəki xəbislik, çoxbilmişlik, hiylə və məkr ona doğmadır. Buna görə də məqamdan-məqama iki qüvvət birləşə bilir və onlar birlikdə insan psixologiyasının, insan dünyasının mürəkkəbliyini aydınlaşdırır. Zahirən zahidə bənzəyən İblis nəfsini özünə tabe edə-edə “insanlaşır”. İnsan isə daxilən nəfsinə tabe ola-ola iblisləşir.

Əsər boyu İblis zahirən öz təmannasızlığı ilə fəaliyyətdədir. O, bir an da olsa, ruhdan düşmür, məqsədə çatmaq üçün tələsmir, şirniklendirir, sehirləyir və daha nələr. İblisdən hər cəhətcə zəif olan Arifin sonda basılacağı təbii görünür. “Arif həm fiziki, həm idraki, həm də sosial mövqeyinə görə İblisdən qat-qat zəifdir. Onların üzləşdirilməsi ilə Cavid İnsanın İblis qarşısındakı əzmini, qüdrətini və nəhayət, gücsüzlüyünü əks etdirməyə çalışmışdır. Həyatda mübarizə aparmaq Arifin oxuduğu kitablardakı kimi asan deyil. İblis Arifi bədbəxt etmək üçün birinci onu haqq yoldan uzaqlaşdırır. Arifi İxtiyarın nəvəsi Xavərlə izdivacından sonra onu yenidən uşaqlıq illərindən tanıdığı və sevdiyi Rənaya qaytarmaq istəyi ilə, onun mənəvi eybəcərliyinə şərait yaradır, bu yolda ona təmənnasız altun və silah təklif

edir. Beləliklə nura talib Arif halal yolla, zəhmətlə nail olduğu öz ağlından yox, İblisin ağlından, məsləhətlərindən, onun altun və silahından istifadə etdiyinə görə getdiyi yolun sonunu görmür və bədbəxt olur" (4, s. 82)

"Cavidin romantik qəhrəmanları ciddi, qətiyyətli və iradə möhkəmliklərinə görə çox nümunəvi qəhrəmanlardırlar. Bəlkə elə bunun üçündür ki, dramaturq onları faciə janrının qəhrəmanına çevirmişdir". (9, s. 48-53)

"İblislik bütün dövrlərin ən ağır yükü kimi insanlığı düşündürmüşdür. Səmimi və həssas Cavidi isə bu hiss ömrü boyu narahat etmişdir. Cavidə görə bütün iblislikləri öz təravəti ilə göstərmək, ifşa etmək bütün zamanlarda insanlığa xidmətdir. Həyat sonu heç nə olan bir oyundur. Bu oyunda isə İblis əlaçı oyunçudur. Bütün klassiklər kimi bu oyunda "Cavid - əxlaqı, mənəvi aləmi İblisdən təmizləməyə çağırır".(7, s.77)

Cavidə görə ağıllı, fəhmli insan əgər o, xeyirxahdırsa, uzaqgörəndirsə İnsan, bədxahdırsa, zülmkardırsa İblisdir. Yüksəyə, zəhmətə, halala, rahat həyata meyl məzmunca xalis insanın ən başlıca məqsədidir. Qəhrəmanlar: tiplər, obrazlar müxtəlif vəziyyətlərə düşsə də, İblis insanlaşa bilmir öz iblisliyində daim qalmaqda davam edir. Hansı prizmadan baxılırsa, o nöqtədən İblisin düşmənçiliyinin - pisliyinin, nacinsliyinin alovu insanlardakı xeyirxanlıqları yandırır, külə-torpağa çevirir. Cavid ən kiçik detallardan tuta-tuta ətrafımızdakıların xəbisliklərinə nifrət hissi oyada-oyada insandakı iblisliyə, içimizdəki xəbisliyə güzgü tutur.

"Cavid İblis surəti ilə göstərir ki, cəmiyyətdəki xəstəliklərin, həyatdakı haqsızlıqların, tökülən gühansız qanların səbəbi heç bir ilahi qüvvədə deyil, məhz insanların iblisləşməsində, onların öz ehtiraslarının qulu olmasındadır". (9, s.45)

İblisin ağlı ilə kəsə yolla gedib, mənfəət, ucuz yolla qazanc, qənimət əldə edib, mənfəət götürmək istəyənlərə İblis üz tutur və deyir:

Hər kəs bəni dinlər, fəqət eylər yenə nifrət,
Hər kəs bana aciz qul ikən, bəslər ədavət.
Lakin bəni təhqir edən ey əbləhü-miskin!
Olduqca müsəllət sana, bil nəfsi-ləimin,
Pəncəmdə dəmadəm əzilib, qıvrılacaqsan
Daim ayaq altında sönüb, məhv olacaqsan. (1, s.103-104)

- deyə zahid həyat sürməyənlərə, öz qazancına güvənməyənlərə, nəfsinə qul olanlara onları gözləyən aqibəti bir daha xatırladır. İblisə hücum edənlərə qarşı İblis etinasızdır, çünki iblisləşmiş insanlar özləri qeyri-ixtiyari İblisin tapşırıqlarını yerinə yetirirlər.

İstər Cavidin əsrində, istərsə də müasir dövrdə hər gün səviyyəsindən, şüurundan, əxlaqından asılı olmayaraq müxtəlif qiyafəli iblislərlə qarşılaşırıq. Biz çox vaxt xətası bizdən uzaq olsun deyə, belə iblislərdən müxtəlif bəhanələrlə uzaqlaşırıq. Yaxud da qoca Ixtiyar kimi ona biganələşirik.

İnsanın iblisə çevrilməsi Cavidi və Cavidin simasında bütün bəşəriyyəti narahat edən, fəqət həllini tapmayan problem kimi bu gün də qalmaqdadır. Cavid insanın

daxili aləminə güzgü tutmaqla bəşər övladını iblislikdən xilas olmağa, iblisləşmək əvəzinə insanlaşmağa, saflaşmağa, haram nəfsimizi özümüzə tabe, qul etməyə çağırır.

Beləliklə, qaranlıq fəlsəfəyə müraciət edilərək, insanın məhv edilməz Şeytan təbiəti haqqında söhbət, həyatın ədalətsizliyinə qarşı romantik üsyanı bitir.

Əsər müəllifinin İblisin dili ilə söylədiyi ibrətamiz və acı həqiqətlər faciənin bütün mahiyyətini, basilica ideyasını açır:

Bənsiz də, əmin ol, sizə rəhbərlik edən var:
Qan püskürən, atəş savuran kinli krallar,
Şahlar, ulu xaqanlar, o çılğın dərəbəklər,
Altın və qadın düşgünü divanə bəbəklər.
Bin hiylə quran tilki siyasilər, o hər an
Məzhəb çıqaran, yol ayıran xadimi-ədyan;
Onlarda bütün fitnəvü-şər, zülmü-xəyanət,
Onlar duruyorkən bəni təhqirə nə hacət?!
Onlar, əvət onlar sizi çignətməyə kafi,
Kafi, sizi qəhr etməyə, məhv etməyə kafi…
Bən tərk edərim sizləri əlan nəmə lazim!
Hiçdən gələrək, hiçliyə olmaqdayım azim.
İblis nədir?
Cümlə xəyanətlərə bais…
Ya hər kəsə xain olan insan nədir?

İblis... (1, s.104)

Vaxtilə sovet tənqidçiləri qeyd edirdilər ki, Hüseyn Cavid dramda "dağıdıcı müharibələrə və onun tərəfdaşlarına qarşı çıxır, pisliyə qarşı müqavimətin çürük fəlsəfəsini ortaya qoyur" və "kapitalist dünyada insanların yaxşı bir başlanğıc qazanmağına ürəksiz ümid edir. Həmçinin əsərin Götenin "Faust" əsərinin maddi təsiri altında yazıldığı ehtimal olunurdu. Xüsusilə tənqidçi Əli Nazim əsərin "Faust"un bir imitasiyası olduğunu qeyd etmişdir.

Ədəbi tənqidçi Məmməd Arif "İblis" haqqındakı düşüncələrində qeyd edir ki, dramda imperializmin antiinsan təbiəti kəskin şəkildə tənqid olunur. Şair-publisist Mikayıl Rzaquluzadəyə görə isə, İblis obrazındakı "pis ruh" vasitəsilə insan xəyanətinin və cinayətlərinin ifşa edilməsi yazarın humanist fikirlərini əks etdirməkdədir.

Ədəbiyyatşünas Həmid Araslı isə qeyd edir ki, Cavid bu faciənin təsvir üsulları və vasitələrində əhəmiyyətli dərəcədə türk şairi Tofiq Fikrətdən təsirlənmiş, "İblis" və "Şeyx Sənan" faciələri ilə Azərbaycan dramının tarixində yeni bir səhnə açmışdır.

Filoloq Məsud Əlioğlunun əsər haqqındakı fikrincə faciənin mərkəzində duran və bütün hadisələrə qatılan İblis, simvolik obrazdır və bütün çirkin və təmkinli ehtirasların mənbəyinin şəxsin özü olduğunu sübut etməyə çalışır. Məsud Əlioğluya

görə, faciənin digər aparıcı xarakteri olan Arif – ağıl və vicdanın simvoludur. Əsərin ikinci qəhrəmanları da simvolik obrazları təsvir edir. Məsələn, Rəna – gözəllik və qürur birliyini, Şeyx İxtiyar - günahsızlıq və səbir, İbn Yəmin - xəyanət, Xavər - təvazökarlıq və təqsirsizlik, Elxan - qəhrəmanlıq və dürüstlüyü təmsil edir.

Filoloq Ellada Gərayzadənin sözlərinə görə, əsərdə yaxşı və pis güc qüvvələrinin müxalifəti qeyri-adi şəkildə təmsil olunur və bu da əsasən İblis və Arifin obrazlarında özünü göstərir. Arif öz mənəvi təmizliyini qoruyaraq, şəxsi problemlərinin yerinə bəşəriyyətin problemlərindən narahatlıq keçirir. O, müharibənin gətirdikləri fəlakətləri görüb, İblisə meydan oxuyur və bununla onun qəzəbinə səbəb olur. Gərayzadə qeyd edir ki, Arifin mövqeyi İblisin ümumdünya mənəvi prinsiplərini məhv etmək planlarına zidddir, hansı ki, onu qula çevirmək üçün məqsəd qoyub, Arifi mənfi qüvvələrin əsas hədəfi edir.

Cavid öz böyük sələflərinin – Nizami, Füzuli, Namiq Kamal, Tofiq Fikrət və başqa onlarla belə dünya ictimai fikir tarixində iz qoyan düha sahiblərinin ardıcılı olaraq sülhü təbliğ edən sənətkarlardandır. Sülhə çağırış onun ilk dram əsərlərindən yaradıcılığının son günlərinədək əsas xətt kimi izlənir.

Nəticə olaraq onu deyə bilərik ki, Cavid digər tərəqqipərvər ziyalılar və mütərəqqi fikirli ədiblər kimi daim işğalçı müharibələrə qarşı durmuş, müharibənin özündə də ədalətin hakim olmasını tələb etmiş, insanları birliyə, sülhə, sevgiyə çağırmışdır. Onun bu həyat idealını təbliğ etmək üçün səhnə əsərlərinə müraciət etməsi isə ədibin öz milləti və ümumən bəşəriyyət qarşısında insanlıq borcunu layiqincə yerinə yetirdiyinin əyani sübutudur. Cavidin idealları bu gün də bizi sülhə səsləyir, sabaha inamla baxmağa çağırır.

İstifadə olunmuş ədəbiyyat:

1. Cavid H. Seçilmiş əsərləri. 5 cilddə. III c., Bakı, “Lider nəşriyyat”. 2005
2. Doktor Cavad Heyət. Bakı: Azərbaycan, 1995
3. Ismayılov Ə. Cavid və Höte . “Elm və həyat”. №1. Bakı, 1980
4. Nəzakət Əzizova. H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı. Bakı, “Elm” nəşriyyatı. 2007
5. Əfsanə Məmmədova. İblis obrazı bəşəriyyətin həqiqət və utopik axtarışları konteksində. Türk Dünyasını İşıqlandıranlar: M.Akif Ersoy, Hüseyn Cavid. Beynəlxalq Konfrans.: Qafqaz Universiteti, 2013
6. Ellada Gərayzadə. Həyat – Mübarizədir (H.Cavidin yaradıcılığında xeyir və şər problemi). Türk Dünyasını İşıqlandıranlar: M.Akif Ersoy, Hüseyn Cavid. Beynəlxalq Konfrans.: Qafqaz Universiteti, 2013.
7. Qarayev Y. Ədəbi üfiqlər. Bakı, “Gənclik”, 1985
8. Qarayev Y. Faciə və qəhrəman. Bakı: Azərnəşr - 1965
9. Əfəndiyev T. Hüseyn Cavid dramaturgiyası (1910-1920-ci illər). Bakı, 1996

Рзаева Гаранфил Зейгам

ДУХОВНАЯ ДЕМОНИЗАЦИЯ ЧЕЛОВЕЧЕСТВА В ТРАГЕДИИ "ДЬЯВОЛ" ХУСЕЙНА ДЖАВИДА МОТИВЫ ПРОЦЕССА ПРОРАБОТКИ

Резюме

В статье масштабно рассматривается духовная трагедия человечества на фоне борьбы Добра и Зла, последствия несправедливых войн, которые вели неравные силы. На основе трагедии Х. Джавида «Дьявол» обосновывается, что изменения в человеческой природе, безвольные и неопытные люди отдаются злу и тем самым вызывают большие бедствия. Отмечается, что демонизм как тяжелейшее бремя всех времен заставлял гениев задуматься. Искренний и чувствительный Джавид, это чувство беспокоило его всю жизнь. По словам Джавида, показать и разоблачить всю чертовщину как она есть — это служение человечеству во все времена. Жизнь - это игра без конца. В этой игре Иблис отличный игрок. Как и все классики, в этой пьесе Джавид призывает очистить нравственный и духовный мир от Дьявола.

В трагедии «Иблис» Дьявол представлен как враг Бога и рода человеческого, хотя и символически. Тема статьи посвящена очень актуальному вопросу. Итак, будь то в эпоху Джавида или в современную эпоху, мы каждый день сталкиваемся с демонами в разных обличьях, независимо от их уровня, сознания и нравов. Мы часто сторонимся таких демонов под разными предлогами, чтобы заблуждение было далеко от нас. Или мы к нему равнодушны, как старый Ихтияр.

Превращение человека в демона остается и сегодня проблемой, волнующей все человечество в лице Джавида и Джавида. Держа зеркало внутреннего мира человека, Джавид призывает человеческий род спастись от демонизма, стать человеком, а не быть демонизированным, стать чистым, подчинить и поработить свое запретное я.

Студенты могут извлечь пользу не только из аудиозаписей, но и из опыта прослушивания своих учителей и друг друга. Большинство современных учителей английского языка хотят предоставить своим ученикам реалистичные материалы для прослушивания, которые близки к реальности, чтобы управлять общением на слух в реальной жизни. Это привело к большому интересу к оригинальным материалам, которые содержат естественную разговорную речь и в основном записаны таким образом, о котором говорящие ничего не знают. Таким образом, студенты соприкасаются с естественной «частью жизни», которая очень важна и необходима для успешного овладения языком.

Ключевые слова: материалы для прослушивания, предпочтения, стимулирование, слушатель, обсуждение, учебный контекст.

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Əliyeva Aytən Arif qızı tərəfindən çapa tövsiyə olunmuşdur

SABİR ƏSƏDOV
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
Bakı ş. İstiqlaliyyət küç.26.
e-mail: sabir.alim80@gmail.com

CƏNUBİ AZƏRBAYCANDA 1979-CU İL İNQILABINDAN SONRAKI İCTIMAİ-ƏDƏBİ MÜHİT

Xülasə

Xarici dövlətlərin İranın daxili işlərinə qarışması, həmçinin şah rejiminin apardığı islahatlar nəticəsində 1970-ci illərin sonunda Pəhləvilər hakimiyyətinə qarşı narazılıqlar daha da artmağa, nümayişlər güclənməyə başladı. Ümumiyyətlə, bu illər həm İranda, eyni zamanda Güney Azərbaycanda ziddiyyətli və gərgin bir dövrdür.

1978-1979-cu illər İran İslam inqilabı qələbə çalaraq şah rejimini süquta uğratdı.

Bu dövr xalqın ictimai-siyasi həyatına, yaşayışına təsir etdiyi kimi, ədəbiyyatına, dilinə, milli-mənəvi dəyərlərinə təsirsiz ötüşməmişdir.

1979-cu ildə Şah rejimi, Pəhləvilər hakimiyyəti devrildikdən sonra, nisbi azadlıq mühiti yarandı. Anadilli ədəbiyyatda canlanma baş verdi. Lakin bu sevinc uzun çəkmədi. Cəmi bir neçə il sonra ana dilində meydana gəlmiş qəzet və jurnalların, ədəbi orqanların çapına qadağa qoyuldu. Yazıçı və şairlər sonu görünməyən bir yola çıxdıqlarını anladılar. Fars şovinist rejimi xalqın və onun nümayəndələrinin qəlbində baş qaldırmış azadlıq günəşinin şəfəqlərini boğmaq üçün bütün vasitələrə əl atdı. Ana dilində yazan sənətkarların başı üzərini qara buludlar aldı. Anadilli ədəbiyyat təzyiqlər altında qaldı. Xalqın arzusu yenə də gözümdə qaldı, bir çox sənətkarlar ümidsizliyə qapıldı. Buna baxmayaraq, rejimin anadilli ədəbiyyata qarşı qoyduğu qadağalar əleyhinə əsərlər də yazılmağa başladı.

Açar sözlər: *1979-cu il İran inqilabı, poeziya, ana dili, azadlıq idealı.*

1970-ci illərin sonunda İranda şah rejiminə qarşı narazılıqlar daha da artmağa, nümayişlər güclənməyə başladı. Bunun da əsas səbəbləri xarici dövlətlərin ölkənin daxili işlərinə qarışması, həmçinin şah rejiminin apardığı islahatlar oldu. Ümumiyyətlə, bu illər həm İranda, eyni zamanda Güney Azərbaycanda ziddiyyətli və gərgin bir dövrdür. İlk öncə həmin tarixi dövrə qısa bir nəzər salaq.

1977-ci il 12 dekabr tarixində Təbrizdə Təbriz Universiteti tələbələrinin şah üsuli-idarəsi əleyhinə nümayiş baş verdi. Həmin il dekabrın sonlarında isə Qum şəhərində monarxiyanın ləğv edilməsi tələbi ilə çıxışlar gücləndi. Bu hərəkat tarixə "Qum üsyanı" adı ilə daxil oldu. Lakin şahın qanlı siyasəti nəticəsində "Qum üsyanı" qəddarlıqla yatırıldı. 1978-ci il 18 fevralda isə Təbrizdə yüz min nəfərin iştirakı ilə

“29 bəhmən üsyanı” keçirildi. Bu üsyan Qum hadisələri zamanı həlak olanların dəfninin 40-cı günü baş verdi. Bu üsyan şah rejiminə böyük zərbə vurdu və bir il sonra baş verəcək İran İslam inqilabına ilk və böyük təkan oldu. Bu təkan vəziyyətin nəzarət altından çıxmasına şərait yaratdı. Düzdür, şah rejimi və onun tərəfdarları bu üsyanı da yatırdılar. Amma artıq, necə deyərlər, saman tayfasına od düşmüşdü. Beləliklə, 1978-ci ilin sentyabrında inqilabın II mərhələsi başladı. Bu inqilabda ruhanilərin rolu artdı və Fransada mühacirətdə olan inqilab lideri Ayətulah Xomeyninin xalq kütləsi içərisində təsiri çoxaldı. Tez bir zamanda çıxışlar bütün ölkədə genişləndi.

1979-cu il yanvarın 16-da Məhəmməd Rza şah Pəhləvi İrandan qaçdı və bununla da İranda şah rejimi dağıldı.

Bir sözlə, 1978-1979-cu illər İran İslam inqilabı şah rejimini süquta uğratdı.

Bu dövr xalqın ictimai-siyasi həyatına, yaşayışına təsir etdiyi kimi, ədəbiyyatına, dilinə, milli-mənəvi dəyərlərinə təsirsiz ötüşməmişdir və başqa cür ola da bilməzdi. Çünki ümumiyyətlə tarixə nəzər salsaq, son iki əsr ərzində Cənubi Azərbaycanda xalqın dilinin, mədəniyyətinin ədəbiyyatının paniranizm təzyiqlər altında çətin və gərgin həyat yaşamasının şahidi oluruq.

Şah rejimi uzun illər Güney Azərbaycanı hərtərəfli sıxışdırmış, müəyyən təzyiqlər altında saxlamış, xalqın təkcə ədəbiyyatını deyil, dilini, mədəniyyətini, musiqisini də məhv etmək üçün əlindən gələni əsirgəməmişdir.

Bəli, 1979-cu il inqibalı şah rejimini devirdi. Baş verən hadisələr milli şüurun yüksəlişinə, ədəbi mühitdə canlanmaya təkan verdi. Ölkədə demokratik meyillər gücləndi. İranda Azərbaycan dilində “Varlıq”, “Dədə Qorqud”, “Çənlibel”, “Koroğlu” və s. jurnallar “işıq üzü” gördü. Amma, əfsuslar olsun ki, bu nəşrlərin çap olunması və buna şərait yaradılması uzun çəkmədi.

Şah rejimi devrilib, ölkə İran İslam Respublikası elan ediləndən sonra 1979-cu ilin dekabrında İranın konstitusiyası qəbul edildi. Təəssüf ki, bu konstitusiyaya görə, azərbaycanlılar heç bir hüquq və azadlıqlar ala bilmədilər. Düzdür, 1979-cu il inqilabı Güney Azərbaycanda böyük ümidlər oyatmışdı. Qədim tarixi, parlaq sənət inciləri olan Güney Azərbaycan ədəbiyyatı və ədəbiyyatçıları yeni bir mərhələnin başlayacağına ümid edirdilər. Lakin bütün ümidlər puç oldu.

Şah rejimi dövründə ana dilinə qoyulan qadağalara, dilin yasaqlanmasına qarşı açıq şəkildə də olmasa, gizli etirazlar var idi.

1978-1979-cu illər İarn inqilabı zamanı azərbaycanlıların azru və istəkləri həyatın keçməsə də bu inqilabı müasir cəmiyyətdə bir çox xüsusiyyətləri ilə yadda qaldı.

Bu inqilabda 25000-dən çox azərbaycanlı həlak oldu.

Doğrudur, İran inqilabına qədər Cənubi Azərbaycanda ədəbiyyat fars dilində inkişaf edirdi. İnqilabdan sonra isə az da olsa, Azərbaycan dilində əsərlər də yayılmağa başladı.

Bədii ədəbiyyatda aparıcı yeri poeziya tuturdu. Bəs nə üçün məhz poeziya?

Çünki digər janrlarla müqayisədə, poeziya baş verən hadisələr, ictimai-siyasi mühitdəki olaylara anında, yerində və tez müdaxilə edə bilir, hadisələri özündə canlandırırdı. Aktual mövzuların inikası və əksi şeirdə daha rahat idi və daha geniş imkanlara malik idi.

Məlumdur ki, tarixi mövzuda yazmaq üçün müəyyən mənada tarixlə bağlılığın olmalı və tarixi faktlara sahib olmalısan. 1978-1979-cu il inqilabı ərəfəsində və ondan sonra belə bir mühit yaranmışdı. Həmin mövzuları qələmə alan sənətkarlar bilavasitə tarixi hadisələrin canlı şahidləri idi.

Ümumiyyətlə, 1978-1979-cu illər inqilabından sonra ədəbiyyatda türklük, türkçülük, azərbaycançılıq meyilləri daha da gücləndi, vətən həsrəti, tanrı sevgisi, poeziyanın başlıca leytmotuvini təşkil etdi. Şairlərin aşıq şeiri üslubunda yazdığı şeirlərində də, elə qəzəl yaradıcılığında da yeni hisslər meydana çıxdı. Bu dövr ədəbi axtarışlarda yeni bir mərhələnin başlanğıcı oldu. Geridə qalan inqilab özündən sonra hələ də açıq-aşkar özünü biruzə verməsə də, gizli azadlıq duyğulu, qardaş həsrətli əsərlərin, poetik nümunələrin yaranmasına səbəb oldu. Amma təəssüf ki, yuxarıda da qeyd etdiyim kimi, bu ümid hissləri özünü doğrultmadı və buna da yalnız heyifslənmək olar.

1978-1979-cu illər inqilabından sonra poeziya ədəbi axtarışlarla zəngin olub.

1950-ci illərdə Şəhriyar ana dilində "Heydərbabaya salam" poemasını yazmış və bu əsər çox böyük səs-küyə səbəb olmuşdu. Şəhriyardan sonra bir çox sənətkarlar meydana çıxdı. Amma həmin dövrdə ana dilində əsər yazmaq və onu mətbuata gətirmək, çap etdirmək təbii ki, ya o qədər də asan deyildi, ya da ümumiyyətlə mümkün deyildi.

Ədəbiyyatşünas, tarixçi, publisit, yazıçı, şair, bir sözlə söz adamı həyatda və məişətdə həmişə gördükləri haqqında müşahidələr və təhlillər aparır, onları kağıza köçürür, özünə aid olanı elm sahəsinə gətirir. 1979-cu il İslam inqilabdan sonra da belə oldu. Düzdür, Cənubi Azərbaycanlıların istəkləri bu inqilabdan sonra, öncə də qeyd olunduğu kimi, həyata keçmədi. Amma şairlər, poeziya yaradıcıları, eləcə də yazıçılar və hekayəçilər öz istəklərini əsərlərində, yazdıqlarında canlandırmağa çalışıdrdılar. Bu inqilabdan sonra xalqda, xalqın içindən çıxmış yazıçı-şair təbəqəsində millətçilik, türkçülük meyilləri daha da gücləndi, geniş şəkil aldı.

İnqilabdan sonra Cənubi Azərbaycanda sənətkarların yaradıcılığına Şəhriyarın ədəbi təsiri ciddi hiss olunurdu. Dövrün mənzərəsi aşağıdakı kimi idi: "İnqilabdan sonrakı Güney ədəbiyyatının daim öz üzərində təsirini hiss etdiyi Şəhriyardan sonra ikinci sima Bulud Qaraçorlu Səhənd idi. Səhənd Pəhləvi rejiminin qəti qadağalar dövründə yazdığı anadilli əsərləri, xüsusən "Dədə Qorqud" dastanları əsasında qələmə aldığı "Sazının sözü" poeması ilə şöhrət tapmışdı. Bu kitab özündən sonra yeni poemaların, o cümlədən Məhəmmədtağı Zehtabinin "Şahin zəncirdə", Sönməzin "İsanın son şamı", Barışmazın "Nəğmə dağı", Savalanın "Xan Çoban və Sara", Heydər Xətibinin "Püstə nənə", İmran Səlahinin "Ağbulaq qəhrəmanı" və bu kimi başqa poemaların yaranmasına səbəb oldu. Səhəndin Şəhriyarın özünü belə ana

dilində əsər yazmağa çağırması Şəhriyarın ona böyük sevgi ilə ithaf etdiyi "Səhəndiyyə" poeması Səhəndi ədəbi mühitin ən görkəmli şəxsiyyətlərindən, ustadlarından birinə çevirmişdi. Şəhriyar və Səhənd gənc nəsli milli ruha, milli varlığa hədsiz sevgiləri ilə cəlb edirdilər" [2, s. 12].

Güney Azərbaycanda, otaylı, bu taylı Azərbaycan həsrətli poetik nümunələr yaranmaqda davam edirdi.

Davər Dönməzin "Azərbaycan" şeirinə diqqət yetirək:

Ürək coşur, qan-qan deyir.
Ürək dolu can-can deyir.
Ürək yanır, yan-yan deyir.
Sən qanadlan, Azərbaycan!
Sənə qurban, Azərbaycan.

Sənə vurğun olan çoxdur,
Sənə yardım edən yoxdur,
Sən tikansan, adın oxdur.
Əldə kaman Azərbaycan,
Sənə qurban, Azərbaycan.

Aşıqların nərə çəksin,
Şairlərin nəğmə çəksin,
Gələcəyə nəqşə çəksin.
Fikrə cuman Azərbaycan,
Sənə qurban, Azərbaycan.

O tökülən nahaq qanlar,
Öldürülən çox insanlar,
Qalan görüb işin anlar.
Buna inan, Azərbaycan!
Sənə qurban, Azərbaycan.

Dönməz deyib, dönməyəcək.
Bu alovlar sönməyəcək.
Qələm haqdan dönməyəcək.
Özün al qan, Azərbaycan.
Sənə qurban, Azərbaycan [1, s. 322].

Bu şeirdə Azərbaycan sevgisi, Azərbaycana bağlılıq, yurd həsrəti mühüm yer tutur.

1979-cu il inqilabından sonra mövcud olmuş ədəbi proseslə tanış olmaq və

dövrün poetik mənzərəsi haqqında məlumat almaq üçün bir çox nümunələrə, şeir və poetik parçalara müraciət etmək məqsədəuyğundur.

İran inqilabından sonra xalqın yaddaşında yaşayan aşıq yaradıcılığında da müəyyən irəliləyişlərin, dirçəlmələrin şahidi oluruq. Xalq şeiri özünün yeni mərhələsinə qədəm qoyur. Saz-sənət ustası İmanın (İman Dadaş) "Sazın sözü" gəraylısına diqqət yetirək:

Telli sazı dindirəndə
Görün nələrdən danışır.
El obanın şirin dili
Görün nələrdən danışır.

Divanəsi mərifətdi,
Ruhanisi həqiqətdi,
Goqçə gölü sədaqətdi.
Görün nələrdən danışır.

Dəşti-pərdə deyir oyan,
Həqiqətdən mətləbi qan.
Dindirəndə səni İman,
Görün nələrdən danışır [1, s. 342].

Bütün bu hadisələr aşıq-xalq şeirinin inkişafı, yeni mərhələyə qədəm qoyması, poeziyada azərbaycançılıq-türkçülük hissləri yeni cücərtilərdən, oyanışdan, buludlar arxasında dustaq qalmış günəşin yenidən şüalarını səpələməsindən xalqın ədəbi dünyagörüşünə və düşüncə tərzinə işıq salmasından xəbər verirdi.

1978-1979-cu illər inqilabından sonra Cənubi Azərbaycanda anadilli mətbuat oqranlarının sayının artması ana dilində poeziya nümunələrinin çoxalmasına şərait yaratdı. Yeni gənc nəsil formalaşmağa başladı. Düzdür, ədəbi prosesdə əvvəlki nəslin təsiri və dəsti-xətti aydın hiss olunurdu. Bu da qəbuledilən və normal idi. Eyni zamanda sənətkarlar yeni yaradıcılıq axtarışlarına çıxır, özünəməxsus poeziya nümunələri yartamağa çalışır, ədəbiyyata yen ruh gəlirdi. Düzdür, ədəbiyyat tamamilə dəyişdi, yeni bir forma qazandı, fərqli bir ədəbiyyat yarandı deyə bilmərik, amma hər gün yeni cəhdlər, yeni fikir, məzmun və forma axtarışları müəyyən mənada özünü büruzə verirdi. İnqilabdan sonra yazıb-yaradan sənətkarları birləşdirən əsas xüsusiyyətlərdən biri onların vahid bir dil ətrafında birləşməyə çalışması, düşündüklərini ana dilində qələmə almaq istəkləri idi.

"Ötən əsrin 60-cı illərində Əlirza Nabdil Oktay çox gənc olmasına baxmayaraq, Güney şeirində yenilik yaratdı. Ə.Nabdil Oktayın "Tozlu piano", "Yurd", "İşıq", "Səttarxan atlıları" və s. əsərləri orijinal deyim tərzi ilə diqqəti cəlb etdi. Cənubi Azərbaycan poeziyasında süjetli lirikanın gözəl örnəklərini yarada bildi,

bununla ədəbiyyatda yeni cığır açdı, yeniləşmə, modernləşmə apardı. Həbib Sahir və Bulud Qaraçorlu Səhənd 29 yaşında həyatı tərk etmiş bu nakam şairin yolunu davam etdirdilər. Təbrizli Həbib Sahir ali təhsil ardınca Türkiyəyə getdi. İstanbul ədəbi mühitini, Cəlal Sahiri, Tofiq Fikrəti, Şarl Bodleri dərindən mütaliə etməsi, eləcə də Türkiyə ədəbiyyatına, fransız dilinə və ədəbiyyatına bələdliyi və vurğunluğu sonralar onu çağdaş Güney Azərbaycan ədəbiyyatında modernist bir şair kimi tanıtdırdı. O, ədəbiyyatda təptəzə təsvir və ifadə vasitələri tapıb gətirdi. Onun "Səhər işıqlanır", "Rövşən" və s. kitablarındakı əsərləri bunun parlaq nümunəsidir...

...Sahir və Səhənd şeirə yenilik gətirdilər: Sahir formada, biçimdə; Səhənd isə yeni, Çağdaş məzmunda. Sahirin şeirləri romantizmi, Səhəndinki isə siyasi motivləri ilə seçilirdi" [2, s. 10-11].

1979-cu il inqilabından sonra yaranan və formalaşan ədəbiyyat həm də özündən əvvəl meydana çıxan ədəbiyyatın davamı, ardı idi. Ədəbiyyat həm romantik, həm də siyasi səviyyədə inkişaf edirdi. Sadəcə, bu dövr ədəbiyyatında bir silkələnmə, tərpəniş, milli oyanış da özünü göstərməyə başlamışdı.

Ümumiyyətlə, İran inqilabı da tarixdə baş vermiş digər inqilablar kimi ədəbiyyata yeni geniş mövzu, material və nümunələr verdi. Özünü təsdiq meyillərinin meydana çıxması, üsyankar ruhda şeirlərin yazılması, milli birlik və bütövlük ideyaları genişləndi. Poeziya özündən əvvəlki bir çox ədəbi dövrlərdə də olduğu kimi aparıcı mövqedə davam etdi. Poeziyanın digər janrlarında olduğu kimi, qəzəl janrında da dirçəliş, oyanış baş verdi. Yeni ədəbi simalar meydana çıxdı.

1979-cu il inqilabdan sonra Güney Azərbaycan ədəbiyyatı axtarışlarla zəngin olub, desək, yanılmarıq. İnqilab dövründə yazan sənətkarlar artıq bir dövr yaşamış, tarixi hadisələrin real şahidləri olmuşdular. Onlar özlərindən əvvəlki sənətkarlardan bəhrələnir, əsasən isə yeni poetik ifadələr, deyim tərzi axtarır, yeni nümunələr yaratmağa çalışırdılar.

Dövrün Güney Azərbaycan poeziyasından danışarkən, onun bəhrələndiyi və bu ədəbiyyata təsir edən Quzey Azərbaycan, həmçinin Türk ədəbiyyatının da adını çəkmək lazımdır.

Ümumiyyətlə, 1979-80-ci illər ədəbiyyatının əsas mövzusu ictimai-siyasi, xalq həyatını, əhalinin və yaşayışını əks etdirmək idi.

Dövrün öndə gedən şairlərindən biri Haşım Tərlan idi. O, (Mir Haşım Həsənzadə) 1923-cü ildə Bakıda cənublu fəhlə ailəsində anadan olmuşdur. Haşım Tərlanın "Dilimi qaytarın mənə" şeirinə diqqət yetirək. Vətən həsrəti, ana dili oğrusu, biganəliyə qarşı üsyan, Güney Azərbaycanda doğma ana dilinin sıxışdırılmasına qarşı etiraz, bu şeirin əsas leytmotivini, məğzini təşkil edir:

Qürbət ellərdə qəribsədim,
Elimi qaytarın mənə.
Dərələrim köz bağlayıb,
Selimi qaytarın mənə.

Axtarıram həzin-həzin,
İtirdiyim gülün izin,
Dünyada hər nə var sizin,
Güıüm qaytarın mənə.

Dil deyirəm... məni qanmır,
Səsləyirəm, öz dayanmır.
Nəvələrim məni qanmır,
Dilimi qaytarın mənə.

Bax! Urmidən göy Xəzərə,
Oxşar səni hər mənzərə,
Bu azərdən o azərə,
İlimi qaytarın mənə.

Azəriyəm, elim, varım,
Haray salır söz qatarım.
Susuz qaıb sonalarım,
Gülümü qaytarın mənə.

Şair də var söz oynadan,
Günbər üstə qoz oynadan,
Fəqət mənə gürz oynadan,
Elmi qaytarın mənə.

Dilim getsə, qalar nəyim,
Necə bu dərdə bel əyim.
Nəsimidən öyrəndiyim,
Telimi qaytarın mənə [1, s.181-182].

Haşım Tərlanın bu şeirində diqqət çəkən bir çox maraqlı məqamlar oxucunu özünə cəlb edir. Realistik yanaşma, rejimin dili unutdurmağa çalışmasına etiraz, dilin qorunmasının vacibliyi məsələsi ön planda durur.

Ümumiyyətlə, bu illərdə qələmə alınan poeziya nümunələrində önə çıxan əsas cəhətlər mübarizə, üsyan ruhu idi.

İran inqilabından sonra, 1980-ci illərin əvvəllərində şeirə gələn aparıcı gəncliyin nümayəndələri özündən əvvəlki ədəbiyyatı, demək olar ki, təkrarlamaq istəmədilər. Onlar, özlərindən əvvəl gələn ədəbiyyatla bu və ya digər cəhətdən razılaşmadılar və yeni axtarışlara çıxdılar. Düzdür, öncə olduğu kimi burada Şimali Azərbaycan poeziyasının təsiri, mübarizə ruhu da yer alırdı. Amma əsas xüsusiyyət

dövrün gətirdiyi yeniləşmənin və ehtiyacın ədəbiyyata gətirdiyi yenilik idi. Bu məqam 1980-ci illər şairlərini yazdıqları əsərlərdə xalqı birliyə, mübarizəyə, bütövlüyə səsləyir, üzərlərinə düşən vəzifəni layiqncə yerinə yetirməyə çalışırdılar. Bu gün 1979-cu il İran inqilabından sonra meydana çıxan ədəbiyyat, poeziya, şeir haqqında danışmaq, onu təhlil etmək, dövrün tələbinə uyğun meyarlarını müəyyənləşdirmək vacib məsələlərdən biridir.

İctimai-siyasi hadisələrə öz münasibətini bildirən sənətkarlar sırasında Yəhya Şeydanın (Yəhya Həsən oğlu Şeyda) adını çəkməmək olmaz.

Yəhya Şeyda 1924-cü il 10 may tarixində Cənubi Azərbaycanın Təbriz şəhərində anadan olmuşdur. Bütün həyatı və fəaliyyəti dövründə ürəyi Azərbaycan eşqi ilə çırpınan şairin yaradıcılığına vətən və millət sevgisi hakim kəsilmişdir. Şairin gənc yaşlarında yazdığı "Azərbaycanım" şeiri buna gözəl bir örnəkdir:

Ey sevgili yurdum, yaşayır səndə min amal,
Sənsiz açа bilməz bu xəyalım quşu heç bal.

Ey şanlı vətən, şairi bu gənc çağında,
Sən saxlamısan isti məhəbbət qucağında.

Mən fəxr edirəm sənlə ki, doğma vətənimsən,
Bağım, çiçəyim, laləli gülgün çəmənimsən.

Sənsiz yaşamaq xeyli müsibətdi cahanda,
Sən saxlamısan canımı eşqinlə amanda.

Eşqin mənə aləmdə böyük şanu-cəlaldır,
Sənsiz işim hər yanda bütün ahu-məlaldır.

Şeyda sənin eşqinlə belə tazə cavandır,
Fəxr ilə deyir: "Torpağım Azərbaycandır!" [4]

Buradan bir daha aydın olur ki, həqiqətən də, zaman-zaman baş verən tarixi, ixtimai və siyasi hadisələr birbaşa ədəbiyyata təsir göstərir. Cənubi Azərbaycanda da belə oldu. Ölkədəki vəziyyətin anadilli ədəbiyyata birbaşa təsiri özünü göstərdi, yeni məzmun və yeni formalar meydana çıxdı.

1979-cu ildə Şah rejimi, Pəhləvilər hakimiyyəti devrildi, nisbi azadlıq mühiti yarandı. Anadilli ədəbiyyatda canlanma baş verdi. Lakin bu sevinc uzun çəkmədi. Cəmi bir neçə il sonra ana dilində meydana gəlmiş qəzet və jurnalların, ədəbi orqanların çapına qadağa qoyuldu. Yazıçı və şairlər sonu görünməyən bir yola çıxdıqlarını anladılar. Fars şovinist rejimi xalqın və onun nümayəndələrinin qəlbində baş qaldırmış azadlıq günəşinin şəfəqlərini boğmaq üçün bütün vasitələrə əl atdı. Ana dilində yazan sənətkarların başı üzərini qara buludlar aldı. Anadilli ədəbiyyat təzyiqlər altında qaldı. Xalqın arzusu yenə də gözümdə qaldı, bir çox sənətkarlar

ümidsizliyə qapıldı. Buna baxmayaraq, rejimin anadilli ədəbiyyata qarşı qoyduğu qadağalar əleyhinə əsərlər də yazılmağa başladı.

"1978-79-cu illər İran inqilabından sonra yaradıcı ziyalılarda millətsevərlik, türklük hissləri daha da gücləndi. Xalqın uzun illər yaddaşında qalıb yaşayan aşıq yaradıcılığına, dastanlara, qəzəl janrına geniş meydan açıldı. 1980-90-cı illərdən başlayaraq ədəbi prosesdə canlanma baş verdi. Ədəbiyyata yeni nəsil, yeni dalğa gəldi" [2, s. 11-12].

1980-ci illər ədəbi prosesi özündən əvvəlki ədəbiyyatdan bəhrələndi, yeni yaradıcılıq metodları, yeni sənət nümunələri və sənətkarlar meydana çıxdı. Orta nəsil ədəbiyyatçıları ilə bərabər əlinə ilk dəfə qələm alan yeni nəfəs meydana çıxdı. Yaşlı nəsil daha çox oyanış, mübarizə, dirçəliş ruhlu əsərlər yaratdılar və özlərindən sonra gələn sənətkarlara mayak rolunu oynadılar.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Cənubi Azərbaycan şeiri antologiyası / tərt. ed. V.Əhməd, D.Rzayeva – Bakı: Ecoprint, – 2018. – 671 s.

2. Güney Azərbaycan Antologiyası (Çağdaş dövr) / tərt. ed. və ön söz P.Məmmədli – Bakı: TEAS Press, – 2015. – 362 s.

3. Qəniyev, H.Q. Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək). Ali məktəblər üçün dərslik / H.Q.Qəniyev. – Bakı: Elm və təhsil, – 2019. – 499 s.

4. Yəhya Şeyda / URL: http://cobanyildizi.blogfa.com/1390/08

Сабир Асадов

СОЦИАЛЬНО-ЛИТЕРАТУРНАЯ СРЕДА ПОСЛЕ РЕВОЛЮЦИИ 1979 ГОДА В ЮЖНОМ АЗЕРБАЙДЖАНЕ

Резюме

В результате вмешательства иностранных государств во внутренние дела Ирана, а также реформ, проводимых шахским режимом, в конце 1970-х гг. стало нарастать недовольство правлением Пехлеви, усилились демонстрации. В целом эти годы являются противоречивым и напряженным периодом как в Иране, так и в Южном Азербайджане одновременно.

В 1978-1979 годах иранская исламская революция свергла шахский режим. Этот период затронул общественно-политическую жизнь народа, а также его литературу, язык и национально-духовные ценности. В 1979 году, после свержения шахского режима и правления Пехлеви, возникла обстановка относительной свободы. Произошло возрождение литературы на родном языке. Но эта радость длилась недолго. Лишь через несколько лет было запрещено печатание газет, журналов и литературных органов на родном языке. Писатели

и поэты поняли, что идут по пути, которому не видно конца. Персидский шовинистический режим использовал все средства, чтобы подавить зарю солнца свободы, взошедшую в сердцах народа и его представителей. Над головами художников, пишущих на родном языке, тучи. Литература на родном языке оставалась под давлением. Желание народа еще оставалось в моих глазах, многие художники впадали в отчаяние. Несмотря на это, начали писаться произведения против запрета режима на литературу на родном языке.

Ключевые слова: *Иранская революция 1979 года, поэзия, родной язык, идеал свободы.*

Sabir Asadov

SOCIAL-LITERARY ENVIRONMENT AFTER THE 1979 REVOLUTION IN SOUTH AZERBAIJAN

Summary

As a result of foreign countries' interference in Iran's internal affairs, as well as the reforms carried out by the Shah's regime, at the end of the 1970s, dissatisfaction with the Pahlavi rule began to increase and demonstrations intensified.

In general, these years are a contradictory and tense period both in Iran and at the same time in South Azerbaijan.

In 1978-1979, the Iranian Islamic Revolution brought down the shah's regime.

This period affected the social and political life of the people, as well as its literature, language, and national-spiritual values. In 1979, after the overthrow of the Shah's regime and the Pahlavi rule, an environment of relative freedom emerged. There was a revival in native language literature. But this joy did not last long. Only a few years later, the printing of newspapers, magazines, and literary organs in the native language was banned. Writers and poets realized that they were on a path with no end in sight. The Persian chauvinist regime used all means to suppress the dawn of the sun of freedom that had arisen in the hearts of the people and its representatives. Artists who write in their mother language have dark clouds over their heads. Native language literature remained under pressure. The desire of the people still remained in my eyes, many artists fell into despair. Despite this, works started to be written against the regime's bans on native language literature.

Key words: *The revolution of Iran in 1979, poetry, native language, the ideal of freedom*

Redaksiyaya daxil olma tarixi: 07.11.2022
Çapa qəbul olunma tarixi: 28.11.2022
Rəyçi: Filologiya elmləri doktoru, professor Vüqar Əhməd tərəfindən çapa tövsiyə olunmuşdur

MÜZAKİRƏLƏR

NADİR MƏMMƏDLİ
AMEA Nəsimi adına Dilçilik İnstitutunun baş direktoru, professor
KİFAYƏT İMAMQULİYEVA
AMEA Nəsimi adına Dilçilik İnstitutunun
Azərbaycan dialektologiyası şöbəsinin müdiri , dosent
nurlan1959@gmail.com
k.imamquliyeva@mail.ru

AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN YENİ NORMALARI HAQQINDA

Möhkəm qayda-qanunlara tabe olan Azərbaycan dili min illər boyu Azərbaycan xalqının nümunəvi ünsiyyətinə xidmət etmiş, öz sabitliyini qoruyub saxlamışdır. Ahəng qanununun tələblərinə uyğun olaraq, sait və samit növbələşməsi əsasında formalaşan bu dilin tələffüz və yazı normalarında kəskin bir fərq yoxdur. Mövcud fərqlər isə müəyyən qanunauyğunluqla bağlıdır: *qanad [qanat] – qanadın, ağac [ağaç] – ağacın, bulaq [bulax] – bulağa, çörək [çörəx'] – çörəyi, gözləyirik [gözdüyürüx'], oxşayırsınız [oxşuyursuz]* və s.

Tələffüz və yazı ilə bağlı mübahisəli məsələlər, əsasən, alınma sözlərlə əlaqədardır. Dillərarası qarşılıqlı münasibətdə Azərbaycan dilinə keçmiş alınma sözlər (ərəb, fars, rus, həmçinin Avropa dillərindən keçən sözlər) uzun müddət yazıdakı davamlılığını iki şəkildə saxlamışdır: 1) yazı ənənəsini qoruyaraq (*bikar, əfv, əhd-peyman, əhvali-ruhiyyə, ədviyyat, təam, şüəra, hökumət, fövqəladə, xariqüladə, rəiyyət, hökmran, qədd-qamət, füzuliyanə, şürahi, auditoriya, inkubator, kulminasiya, perspektiv, perpendikulyar* və s.); 2) Azərbaycan dilinin tələffüz süzgəcindən keçərək (*fayda, qayda, vedrə, qəzet, vağzal, aptek, maşın, rezin, kaset, proqram, qrup, ton, stenoqram* və s.). Bu isə onu göstərir ki, yazı və tələffüz normaları daim bir-birini tənzimləyərək inkişaf etmişdir.

Cəmiyyət tərəqqi etdikcə dilin lüğət tərkibi də zənginləşir. Xüsusilə leksik normada baş verən yeniləşmələr fonetik normalara da (orfoqrafik, orfoepik) təsirsiz ötüşmür. Belə olduqda lüğətlərin yenilənməsi məcburiyyəti ortaya çıxır. Düzdür, Azərbaycanda lüğətçiliyin tarixi çox qədimdir. Lakin XIX yüzilliyin ikinci yarısından bugünədək olan dövrə nəzər salınsa, lüğətçilik sahəsindəki inkişaf, orfoqrafiya və orfoepiya məsələləri ilə bağlı fikirlər, tərtib edilmiş və vaxtaşırı yenilənmiş lüğətlər, bu lüğətlərə olan tələbat daha aydın görünər. Belə ki, kitab

nəşrinin artması, təhsilin güclənməsi, milli mətbuatın, televiziya, radio, teatr, kino və s. sahələrin yaranması, inkişafı, düzgün yazı və tələffüz qaydalarına olan tələbat məqsədli şəkildə orfoqrafiya və orfopiya lüğətlərinin tərtib olunmasına gətirib çıxarmışdır.

Orfoqrafiya lüğətlərinin sistemli tərtibi 1929-cu ildən (11 min sözdən ibarət olmuşdur) həyata keçirilmiş, hər dəfə təkmilləşdirilməklə 1940, 1960, 1975, 2004, 2013, 2021-ci illərdə yenidən nəşr edilmişdir. 2021-ci ildə çapdan çıxmış yeddinci – sonuncu nəşrdə 90 minə yaxın söz toplanmışdır.

Orfoepiya lüğətinin də tərtibi ilə bağlı müəyyən işlər görülmüşdür. Lakin bu lüğətlər şifahi nitqi tam ehtiva edə bilməmiş, bəzən eyni modelin iki və üç tələffüz forması özünü büruzə vermiş və ya tələffüzünə ehtiyac duyulan hər hansı bir söz lüğətlərdə öz əksini tapmamışdır.Bu lüğətlərdə toplanan sözlərin sayı 10 mindən çox olmamışdır.

Məlumdur ki, düzgün, dəqiq, ifadəli və zəngin nitq insanı cəmiyyətdə tanıdan əsas amildir. Dialektlərin inteqrasiya etdiyi bir dövrdə şifahi ədəbi dilin istifadəsinə meyil artır. Gündəlik həyatımızda dialektdən və ya kitab dilindən fərqli olaraq, nitqin sərbəstliyinin əsas olduğu məişət üslubu ön plana keçir, inkişaf etmiş cəmiyyətdə hər kəs gözəl nitqə sahib olmaq istəyir. Artıq yalnız məişətdə deyil, şifahi nitqə ehtiyac olan hər bir məkanda müxtəlif üslub nümayəndələrinin tələffüz normaları ilə maraqlandığı müşahidə olunur. Demək, sözün düzgün tələffüzü, vurğu, intonasiya, səs tonu, ixtisar, qısaltma və abreviaturların tələffüzü, ağız aparatından düzgün istifadə və s. məsələləri özündə ehtiva edən, sistemli bir şəkildə tərtib olunan orfoepiya lüğətinin hazırlanmasına ehtiyac vardır.

XX yüzilliyin 90-cı illərindən başlayaraq Azərbaycan dilinin dövlət dili səviyyəsində fəaliyyəti, dil haqqında qanun, fərman və sərəncamlar dilin öyrənilməsi və istifadəsi imkanlarını daha da genişləndirmiş, funsional üslubların inteqrasiyasına şərait yaranmışdır. Azərbaycan Respublikasının "Azərbaycan Respublikasında dövlət dili haqqında" 2002-ci il 30 sentyabr tarixli 365 – IIQ nömrəli Qanununun 13.1-ci bəndində yazılır: "Dövlət dilinin normaları özündə Azərbaycan ədəbi dilinin orfoqrafiya və orfoepiya normalarını ehtiva edir. Azərbaycan dilinin orfoqrafiya və orfopiya normalarını müvafiq icra hakimiyyəti orqanlarının müəyyən etdiyi orqan (qurum) təsdiq edir. Hüquqi, fiziki və vəzifəli şəxslər bu normalara əməl etməlidirlər" (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2003, № 1).

Qanundan irəli gələn tələffüzə əməl etmək, bunların həyata keçməsinə nail olmaq məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti 16 aprel 2019-cu il tarixli 174 nömrəli qərarı ilə "Azərbaycan dilinin orfoqrafiya normaları"nı, 18 iyun 2021-ci il tarixli 175 nömrəli qərarı ilə "Azərbaycan dilinin orfoqrafiya normaları"nı təsdiq etmişdir.

Azərbaycan Respublikası tarixində ilk dəfə olaraq dövlət səviyyəsində qəbul edilmiş "Azərbaycan dilinin orfoepiya normaları" mövcud orfoepiya lüğətlərinin, orfoepiya ilə bağlı elmi ədəbiyyatın, bu sahədə böyük təcrübəsi olan mütəxəssislərin

fikirlərinin müqayisəsi əsasında hazırlanmışdır. "Normalar"da sözlərin fonetik, leksik, leksik-semantik, morfoloji, sintaktik mövqedə tələffüzü, eləcə də vurğu, ixtisar, qısaltma və abreviaturların tələffüzü nəzərə alınmışdır. Hazırda AMEA Nəsimi adına Dilçilik İnstitutunda bu "Norma"ları özündə ehtiva edən "Azərbaycan dilinin orfoepiya lüğəti" hazırlanır. Təcrübə göstərir ki, lüğətlərin hazırlanmasında, yenilənmə və təkmilləşməsində ictimai baxış da nəzərə alınmalıdır. Bu məqsədlə "Azərbaycan dilinin orfoepiya normaları"nda mübahisə doğuran bəzi bəndlərə diqqət yetirmək lazımdır.

2.5.3 bəndində "***ae, ea, eə, əa, eo, üa, üə, au, ua, ue, uə*** yanaşı saitlərinin, işləndiyi sözlər yazıldığı kimi və uzanma hadisəsi baş vermədən tələffüz olunur" tələbinə bir qədər geniş şərh verilməlidir. Belə ki, əsasən alınma sözlərdə müşahidə olunan bu sait yanaşmalarında Azərbaycan dilinin əsas xüsusiyyəti olan *sait+samit* sıralanması pozulmuşdur.

Sözlərdəki *au, ua, ue, uə* sait yanaşmalarında (*pauza, virtual, duel, məcmuə* və s.) 1-ci sait öz məxrəcində tələffüzünü bitirmədən 2-ci saitin məxrəcinə keçir, həmçinin 2-ci səs öz başlanğıcını 1-ci səsdən götürməklə diftonqlaşır, bununlada ümumi tələffüzü asanlaşdırır. Beləliklə, fonetik prinsip özünü doğruldur: söz yazıldığı kimi təlffüz olunur.

üa, üə yanaşı saitlərinin tələffüz forması mövcud lüğətlərdə, yaxud bununla bağlı elmi araşdırmalarda [1; 2; 3; 4 və s.] *[üə], [üa], [ü.ə], [ü.a]; [ə:]; [a:]; [ua]* formalarında qeyd olunmuş, tələffüzlə bağlı bugünkü tələbata cavab verə bilməmişdir. Məlumdur ki, eyni sait yanaşmasının ayrı-ayrı sözlərdə müxtəlif şəkildə tələffüzü çaşqınlıq yaradır. Yanaşı *au, ua, uə, ue* saitlərində olduğu kimi, *üə, üa* sait birləşmələrində də qapalı+açıq cütlüyündə diftonqlaşma hiss olunur. Beləliklə, *üə, üa* yanaşı samitlərinin işləndiyi bütün sözlərdə (*müəllim, müəmma, şüəra, müasir, şüa, şüar, nüans, stüardessa* və s.) bu saitlər yazıldığı kimi tələffüz olunur. Həmçinin yanaşı *üə, üa* satlərində ü səsi qısa tələffüz edilir. Qısa tələffüz çox vaxt işlənmə mövqeyindən asılı olduğu üçün orfoepiya lüğətində qısa səsi göstərən işarədən *[ü.]* istifadə olunması nəzərdə tutulmamışdır. Əks halda *pişik [pi.şix'], assimilyasiya [assimilyasi.ya], coğrafiya [coğrafi.ya]* və s kimi dolaşıq tələffüz formaları ilə qarşılaşarıq.

"Normalar"da *ae, ea, eə, eo, əa* yanaşı açıq+açıq saitlərinin də yazıldığı kimi tələffüz olunması nəzərdə tutulmuşdur. Lakin bu fikrə münasibət birmənalı deyil. Belə ki, *ae [ay], ea [iya], eə [iyə], eo [iyo, iya], əa [a:]* variantlarına üstünlük verənlər də vardır. Unutmaq olmaz ki, bu yanaşı saitlərin işləndiyi sözlər alınmadır, dilimizdə həddindən artıq çoxdur və Azərbaycan dilinin həm yazı, həm də tələffüz normalarına ağırlıq gətirir. Əslində bu tipli sözləri mümkün qədər özləşdirməyə ehtiyac vardır. İşlədildiyi müddətdə isə iki və bir-birinə zidd olan cəhət nəzərə alınmalıdır: 1) orfoqrafik normalar orfoepik normalar əsasında tənzimlənməlidir; 2) yazı normaları sabitləşdikcə tələffüz normalarına, həmçinin yazılı nitq və görmə yaddaşı şifahi nitqə təsir edir. Eləcə də Azərbaycan dilində bir səs bir hərflə işarə

olunur. Onda belə bir sual yaranır: *[iya], [iyo], [iyə]* tələffüz formaları yazıya tətbiq ediləcəkmi? Yaxud *real* sözünü yazıldığı kimi *([real]), reallıq, realist, realizm* sözlərini *[riyallıx], [riyalis], [riyalizm]* şəklində tələffüz etmək nə dərəcədə doğrudur?

Burada müasir türk dili ilə müqayisə də yerinə düşər: real – gerçək, realist – gerçekçi, teatr – tiyatro.

Mövcud lüğətlərdə *teatr [tiyatr]* tələffüzünə üstünlük verilmiş *tr* səsləri arasındakı qabarıq şəkildə tələffüz olunan *[ı]* səsinə diqqət yetirilməmişdir. Halbuki *[teatr]* tələffüzündə *ı* səsi hiss olunmur.

Əslində "Normalar"da verildiyi kimi, yanaşı *ea, eə, eo, əa* saitlərinin yazıldığı kimi tələffüz olunması daha doğru hesab olunur. Yanaşı *ae* saitləri *aero* tərkibli sözlərdə işlənir, bunun nə vaxtsa *ayro* şəklində yazılmaq ehtimalı da azdır. Mümkün olan təqdirdə *ayro* yazıb, *[ayro]* şəklində də tələffüz etmək olardı.

"Azərbaycan dilinin orfoepiya normaları"nın 2.7-ci bəndində tərkibində ov*, öv* hərf birləşmələri olan sözlərdə səs düşümü hadisəsinin baş vermədiyi, sözlərin fonetik prinsipə uyğun olaraq, yazıldığı kimi tələffüz olunduğu qeyd edilmişdir. Mövcud lüğətlərdəki ikili xüsusiyyət aradan qaldırılmış, vahid tələffüz forması qəbul olunmuşdur. Lakin bir cəhəti qeyd etmək olar ki, *ov, öv* hərf birləşməsinin ardınca kar samit işləndikdə hərf birləşməsindəki *v* qismən kar tələffüz olunur.

4.8-ci və 4.9-cu bəndlərdə verilmiş *-acaq, -əcək* qəti gələcək zaman şəkilçisi ilə bağlı bəzi şərhlər verməyə ehtiyac vardır. Belə ki, bu şəkilçinin artırıldığı sözlərin şəxsə görə dəyişərkən daha çox yanlış formada tələffüz olunduğu nəzərdən qaçmır: *[alacam], [alacıyam], [alacıyıx], [gələcəm], [gələciyəm]; [gələciyix']* və s. Göründüyü kimi, burada şəkilçi *-ac, -əc; -acıy, -əciy* tələffüz formasını alır. Bu ədəbi dilin normalarına ziddir. Belə ki, Azərbaycan dilinin dialekt və şivələrinə xas olan, hətta yalnız birinci şəxsdə deyil, digər şəxslərdə də müşahidə olunan (*alacsan, gələcsən; alacıysan, gələciysən* və s.) bu forma ədəbi dil deyil, dialekt faktı kimi qeydə alınır. *Alacıyam, alacıyıx* tələffüz formasında iki səhvə yol verilmişdir. Birincisi, *-acaq* şəkilçisi millidir və milli dil xüsusiyyətinə əsasən (3.11.2-ci və 3.11.3-cü bəndlərdə verildiyi kimi təsriflənmə zamanı *q→x* və *q→ğ* dəyişməsi baş verə bilər: *alacağam [alacağam], alacaqsan [alacaxsan],alacaq [alacax], alacağıq [alacağıx], alacaqsınız [alacaxsız], alacaqlar [alacaxlar].* İkincisi, saitin qapalılaşması 4.5-ci bənddə verilmiş, "*a* və *ə* saiti ilə bitən sözlərə *y* bitişdirici samiti ilə başlayan şəkilçilərin artırılması" norması ilə bağlıdır. Burada isə şəkilçi daxilindəki *a* doğru olmayaraq, qapalılaşmışdır. *Gələciyəm, gələciyix'* sözündə *y* samiti 3.12.3. bəndinə əsasən doğru, i saiti isə 4.5. bəndinə əsasən qüsurludur: *gələcəyəm [gələcəyəm], gələcəyik [gələcəyix'].*

"Azərbaycan dilinin orfoepiya normaları" əsasında tərtib olunacaq "Azərbaycan dilinin orfoepiya lüğəti"nin daha mükəmməl şəkildə tərtib olunması məqsədilə mübahisə doğuran, düzgün tələffüz tələblərini ödəməyən məsələləri həll

etmək üçün rəy və təkliflərinizi bir vətəndaş və dil daşıyıcısı borcu olaraq AMEA Nəsimi adına Dilçilik İnstitutuna çatdırmağınız vacibdir.

Ədəbiyyat

1. Axundov A. Azərbaycan dilinin fonetikası. Bakı: Maarif, 1984. 392 səh.
2. Dəmirçizadə Ə. Müasiir Azərbaycan dili. Fonetika, orfoepiya, orfoqrafiya. I hissə, üçüncü nəşr. Bakı: Şərq-Qərb, 2007. 256 səh.
3. Əfəndizadə Ə. Orfoqrafiya-orfoepiya… lüğəti (kompleks lüğət). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1989. 151 səh.
4. Şirəliyev M.Ş., Məmmədov M.B. Azərbaycan dilinin orfoepiya sözlüyü. Bakı: Elm, 1983. 143 səh.
5. Abdullayev N.Ə. Azərbaycan dilinin müxtəsər orfoepiya lüğəti. Bakı: 2013. 146 səh.
6. Seyidəliyev N., Əhmədov B., Heydərov R İxtisarlar lüğəti. Bakı: Elm, 2019. 232 səh.
7. Vurğu lüğəti. Bakı: Elm, 1993.
8. Orfoqrafiya-orfoepiya lüğəti. TQDK. Bakı: Abituriyent, 2014. 206 səh.
9. Orfoqrafiya-orfoepiya lüğəti. DİM. Bakı: Abituriyent, 2021.

İÇİNDƏKİLƏR:

DİLÇİLİK

SVETLANA MƏMMƏDOVA
MÜASİR İNGİLİS DİLİNİN SADƏ CÜMLƏLƏRİNİN
AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ ÜSULLARI 3

ŞƏLALƏ ABDULLA QIZI ABASOVA
EFFEKTİV ÜNSIYYƏTİN XÜSUSIYYƏTLƏRİ 11

LƏTAFƏT ƏLİYEVA
NİTQ SİTUASİYASI VƏ TAVTOLOGİYA 18

NURANƏ ALLAHVERDİYEVA
ERMƏNİSTANIN AZƏRBAYCANIN XOCAVƏND RAYONU
TOPONİMLƏRİNİ ERMƏNİLƏŞDİRMƏK CƏHDLƏRİ HAQQINDA 26

SÜLEYMANOV YUSİF ƏŞRƏF OĞLU
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MÜRƏKKƏB
CÜMLƏLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ
VƏ MÜQAYİSƏLİ TƏHLİLİ 36

ALMAZ ƏLİYEVA
ALMAN DİLİNDƏ PARADİQMATİK
VƏ SİNTAQMATİK ƏLAQƏLƏR 43

LƏTİFƏ MƏMMƏDOVA
SÖZ LEKSİK-SEMANTİK VAHİD KİMİ 50

MƏHƏRRƏMOVA ÜLKƏR AKIF
"FRAZEOLOGİYA" – ANLAYIŞ-TERMİNİNİN ÜMUMİ TƏDQİQİ 57

SÜRƏYYA HACIYEVA
ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA ÜNSİYYƏTIN ROLU 65

ƏLƏVİYYƏ NURİ
SÖZ YARADICILIĞININ QEYRİ-MƏHSULDAR NÖVLƏRİ 73

AYTƏN AĞALAROVA QORXMAZ QIZI
HİPERBOLANIN DİGƏR MƏCAZ DİLİ ELEMENTLƏRİ
İLƏ QARŞILIQLI ƏLAQƏSİ 79

ƏLİYEVA NUŞABƏ ƏJDƏR qızı,
TAĞIYEVA SACİDƏ HÜSEYN qızı
DİLİN VƏ BƏDİİLİYİN VƏHDƏTİ 89

FATİMƏ İBRAHİMOVA
İNGİLİS DİLİNDƏ FRAZAL SƏVİYYƏLİ QABARIQLIQ
KİMİ VURĞU EFFEKTLƏRİ 96

FİDAN SADIQ QIZI NƏZƏRLİ
ELLİPSİS VƏ MÜXTƏLİF NÖV MƏTNLƏRDƏ ONDAN İSİTFADƏ 103

MƏHBUBƏ TOFIQ QIZI UMUDOVA
METOFARİK TARİXİZİMLƏRİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ 113

AFƏT SƏFIXANOVA
VALİDƏ ABIYEVA
İNGİLİS DİLİNDƏ SADƏ CÜMLƏLƏR
VƏ AZƏRBAYCAN DİLİNDƏ QARŞILIĞI 120

MƏMMƏDOVA GÜLARƏ HÜSEYN QIZI
SÖZ BİRLƏŞMƏLƏRİNİN TƏSNİFİ BARƏDƏ BƏZİ FAKTLAR 126

İNARA MÜTƏLLİMOVA
APPLICATION OF INTERACTIVE LEARNING METHODS
IN ENGLISH LANGUAGE TEACHING 134

ŞƏHLA BALACAYEVA
ORTA MƏKTƏBLƏRİN V-IX SİNİFLƏRİNDƏ İNGİLİS DİLİNİN
TƏDRİSİNDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİ ZAMANI
KOMMUNİKATİV FƏALİYYƏTLƏRDƏN İSTİFADƏ METODİKASI 141

HACIYEVA MƏTANƏT HƏŞİM QIZI
MƏMMƏDOVA ELNARƏ ADİL QIZI
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
ƏDƏBİ DİLƏ TƏSİRİ 148

FƏXRİYYƏ ZAHİDOVA
ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ DİL
MATERİALLARINDAN İSTİFADƏ YOLLARI 155

XƏDİCƏ ƏLİYEVA
ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ AUDİO
VƏ VİDEO MATERİALLARDAN İSTİFADƏ METODİKASI 162

ELNARƏ MƏMMƏDOVA
PANDEMİYA DÖVRÜNDƏ İNGİLİS DİLİNDƏ COVİD-19 MÖVZUSUNDA
YARANAN SÖZ VƏ İFADƏLƏRİN LEKSİK- ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ..... 169

AYŞƏN İSMAYILLI
QARABAĞ BÖLGƏSİNDƏKİ GEOMORFOLOJİ TERMİNLƏRİN
MİKROTOPONİMLƏRİN YARANMA PROSESİNDƏ ROLU 176

LALƏ MİRZƏYEVA
İNGİLİS DİLI DƏRSLƏRİNDƏ YENİ TƏLİM TEXNOLOGİYALARINDAN
İSTİFADƏ İMKANLARI 183

S.Ə.ALLAHVERDİYEVA
AZƏRBAYCAN VƏ ALMAN DİLLƏRİNDƏ
DURĞU İŞARƏLƏRİNİN İSTİFADƏSİ 189

QÖNÇƏ KƏRİMOVA
KÖNÜL QOCAYEVA
MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FRAZEOLOJİ
VAHİDLƏRİN FUNKSİYA ÜZRƏ TƏSNİFATI VƏ LEKSİK-SEMANTİK
XÜSUSİYYƏTLƏRİ 202

ФИРАНГИЗ МАХМУДОВА
ЛИНГВОКУЛЬТУРОЛОГИЯ И ЛИНГВОСТРАНОВЕДЕНИЕ КАК
ДВЕ СМЕЖНЫЕ НАУКИ 209

VƏFA ABBASOVA
AKADEMİK KOMMUNİKASİYA ELMİ YARADICILIĞIN
TƏRKİB HİSSƏSİ KİMİ 216

LƏMAN MƏHƏRRƏM QIZI QASIMLI
"DAD" DUYĞUSUNUN FƏLSƏFİ
VƏ LİNQVİSTİK SFERADA TƏHLİLİ 225

SƏMRA ƏHMƏDOVA
DİLÇİLİKDƏ QASTRONOMİYA TERMİNİ 234

SEVDA RÜSTƏM QIZI XƏLILOVA
BƏDİİ DİSKURSDA ÜSLUB GÖSTƏRİCİLƏRİNİN
TƏYİNİ MƏSƏLƏSİ 240

XƏYALƏ QASIMOVA
İBTİDAİ TƏHSİL SƏVİYYƏSİNDƏ İNGİLİS DİLİNİN
TƏDRİSİ ZAMANI ÜMUMİ FİZİKİ CAVAB METODUNUN
TƏTBİQİNİN ƏHƏMİYYƏTİ 248

AYGÜN HÜSEYNOVA
MÜASİR İNGİLİS DİLİNDƏ CERUNDUN
KOQNITIV SEMANTİKASI 255

ORUCOVA DİLBƏR
SİYASİ DİSKURSDA DİNİ METAFOR VƏ METANOMİYA 263

QURBANOVA TURANƏ
MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ KONVERSİYA HADİSƏSİ 270

MAHMUDOVA ZÜMRÜD ARIF
XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ FƏAL TƏDRİS
METODLARININ ROLU VƏ ƏHƏMİYYƏTİ..... 277

LALƏ ƏFƏNDİYEVA,
EPİSTOLYAR MƏTNLƏRDƏ FUNKSİONALLIQ..... 284

ƏLİYEVA İLHAMƏ NADIR Q.
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ LEKSİK
YOLLA YARANAN FİTONİMLƏR..... 292

ƏDƏBİYYATŞÜNASLIQ

CAVİDƏ MƏMMƏDOVA
CEYMS COYSUN “ULISS” ROMANINDA AZADLIQ KONSEPSIYASI 301

NAZƏNDƏ SABİR QIZI HACIYEVA
AZƏRBAYCANÇILIQ İDEYASININ İNKİŞAFINDA
MİRZƏ KAZIMBƏYİN ROLU..... 306

AYGÜN QOCAYEVA
LE NATURALISME 314

HACIYEVA RƏSMİYƏ SƏYYAF QIZI
HÜSEYN CAVİD ÜMUMDÜNYA ROMANTİZMİNİN GÖRKƏMLİ NÜMAYƏNDƏSİ KİMİ 323

ƏHMƏDOVA AYGÜN ŞÜKÜR QIZI
XIX ƏSRİN SONU VƏ XX ƏSRİN ƏVVƏLLƏRİNDƏAZƏRBAYCANDA UŞAQ ƏDƏBİYYATININ YARANMA TARİXİ 332

ГАНБАРОВА НУРИДА
УЧЕБНИК АКАДЕМИКА М. ДЖ. ДЖАФАРОВА «РУССКАЯ ЛИТЕРАТУРА XIX ВЕКА» КАК ИСТОЧНИК СОЗДАНИЯ МЕЖСИСТЕМНОГО ПРОСТРАНСТВА В ХУДОЖЕСТВЕННОЙ СИСТЕМЕ ... 338

ФИДАН ТАЛЫБЛЫ
НАГОРНЫЙ КАРАБАХ И ПОЗИЦИЯ ВЕЛИКОБРИТАНИИ. 347

SADIQOVA AKIFƏ QƏZƏNFƏR
MÜASIR TƏHSIL TEXNOLOGIYASINDAN ISTIFADƏ YOLLARI 357

LOĞMAN RƏŞİDZADƏ
ÖLKƏMİZDƏMULTİKULTURALDƏYƏRLƏRİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏAZƏRBAYCANÇILIQ MƏFKURƏSİNİN ROLU 365

GÜNEL QULİYEVA
SEYİD ƏZİM ŞİRVANI BƏDİİ İRSİNİN POETİK XÜSUSİYYƏTLƏRİ 372

GÜNAY İBRAHİMOVA
L'ENSEIGNEMENT DU TOURISME EN APPROCHE COMMUNICATIVE 382

RZAYEVA QƏRƏNFIL ZEYQƏM QIZI
HÜSEYN CAVİDİN "İBLİS" FACİƏSİNDƏ BƏŞƏR ÖVLADININ MƏNƏVİ İBLİSLƏŞMƏ PROSESİNƏ ETİRAZ MOTİVLƏRİ 388

MƏTANƏT YAQUBQIZI
OĞUZDA YAŞAYAN YƏHUDİLƏR 399

ABDIYEVA GÜLÇÖHRƏ FIRDOVSI
D.C.SELINCERIN "ESKIMOSLARLA MÜHARIBƏDƏN ƏVVƏL" QISA HEKAYƏSININ POETIK ÖZƏLLIKLƏRI 404

SADI ZAHIDƏ RƏVVAQ
XARİCİ DİLİN TƏDRİSİNDƏ DİNLƏMƏ MATERİALLARININ İSTİFADƏSİ VƏ ƏHƏMİYYƏTİ 409

SABİR ƏSƏDOV
CƏNUBİ AZƏRBAYCANDA 1979-CU İL İNQILABINDAN SONRAKI İCTIMAİ-ƏDƏBİ MÜHİT 416

MÜZAKİRƏLƏR

NADİR MƏMMƏDLİ
KİFAYƏT İMAMQULİYEVA
AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN YENİ NORMALARI HAQQINDA 426

"Elm və təhsil" nəşriyyatının direktoru:
İNAL MƏMMƏDLİ

Dizayner: Kamran İbrahimov
Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 28.11.2022
Şərti çap vərəqi 27. Sifariş № 389
Kağız formatı 60x84 1/8. Tiraj 500

Jurnal "Elm və təhsil" nəşriyyat-poliqrafiya müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4